ISSN 2788-6964

30

# Magistrant

*dövri-elmi jurnal*

2026, №2 (30)

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# M A G İ S T R A N T

dövri-elmi jurnal

**ISSN 2788-6964**

**2026 №2(30)**

**B A K I**

**Baş redaktor:**
**Asəf D.Zamanov**
fizika-riyaziyyat elmləri doktoru, professor
ADPU-nun elm və innovasiyalar üzrə prorektoru
(ADPU, Bakı, Azərbaycan)

**Redaksiya heyəti:**
**Arif Ş.Şəkərəliyev**
iqtisad elmləri doktoru, professor
(ADİU, Bakı, Azərbaycan)
**Bəhlul İ.Ağayev**
biologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əbülfət Q.Pələngov**
pedaqogika elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əhməd Ş.Abdinov**
fizika-riyaziyyat elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Ələkbər Ə.Əliyev**
texnika elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Əli Z.Zalov**
kimya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əmir İ.Əliyev**
hüquq elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Fərrux A.Rüstəmov**
pedaqoji elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Gülnaz A.Abdullazadə**
fəlsəfə elmləri doktoru, professor
(BMA, Azərbaycan)
**Hikmət Ə.Əlizadə**
pedaqoji elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**İsa N.İsmayılov**
pedaqogika elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**İlham Ə.Şahmuradov**
biologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü
(GEİ, Bakı, Azərbaycan)
**Mahirə N.Hüseynova**
filologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Məhəmməd A.Abduyev**
Coğrafiya elmləri doktoru
(ADPU, Bakı, Azərbaycan)
**Mübariz M.Əmirov**
pedaqogika elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Müsavər A.Musayev**
fizika elmləri doktoru, professor
(ADNSU, Bakı, Azərbaycan)
**Müseyib İ.İlyasov**
pedaqogika elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Namiq Q.Şıxalıyev**
kimya elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Nazim Ə.İmamverdiyev**
geologiya-mineralogiya elmləri doktoru, professor,
(BDU, Azərbaycan)
**Oqtay B.Sultanov**
tarix elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Ramiz İ.Əliyev**
psixologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Sevinc B.Quliyeva**
filologiya üzrə fəlsəfə doktoru
(NDU, Naxçıvan, Azərbaycan)
**Surxay C.Əkbərov**
texnika elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü
(YTU, İstanbul, Türkiyə)

**ADPU**-Azərbaycan Dövlət Pedaqoji Universiteti
**BDU**-Bakı Dövlət Universiteti
**ADNSU**-Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
**BMA**-Bakı Musiqi Akademiyası
**ADİU**-Azərbaycan Dövlət İqtisad Universiteti
**YTU**-Yıldız Teknik Universiteti. İstanbul, Türkiyə
**NDU**-Naxçıvan Dövlət Universiteti
**GEİ**-Genetik Ehtiyatlar İnstitutu

**Məsul katib:**
***Natəvan F.Həsənova***
*iqtisad elmləri üzrə fəlsəfə doktoru*
(ADPU, Bakı, Azərbaycan)

**Təsisçi:** Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı, Azərbaycan)

**Dövlət qeydiyyatı:**
«MAGİSTRANT» dövri-elmi jurnalı 29.01.2021-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Mətbu nəşrlərin dövlət qeydiyyatı reyestrinə daxil edimişdir.
Qeydiyyat: № 4328

# MÜNDƏRİCAT


## FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ
**Hüseynova F.R.**
Süni intellekt texnologiyalarının təhsildə ölçmə və qiymətləndirmə proseslərinə inteqrasiyası.....5

## TƏBİƏT ELMLƏRİ
**Alməmmədova M.E.**
Xəzərin Abşeron sahilinin mikrozoobentosu.....11
**Balayeva S.Ə.**
Xəzərin Şimali Abşeron sahillərinin makrozoobentosu.....16

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
**Abdullayeva G.Ş.**
Azərbaycanda gənclərin narkotik vasitələrdən asılılığının başlıca xüsusiyyətləri.....20
**Ayibova S.Z.**
Gənclər siyasətini həyata keçirən dövlət orqanlarının statusunun təhlili və fəaliyyətinin təkmilləşdirilməsi.....25
**Babayeva F.F.**
Məktəb idarəetməsində metodoloji yanaşmalar və onların təhsil keyfiyyətinə təsiri.....31
**Dadaşov D.Z.**
Azərbaycanın Avropa təhsil məkanına inteqrasiyası.....38
**Əliyeva A.H.**
Rəqəmsal və onlayn təhsil imkanlarının genişləndirilməsi.....46
**Əliyeva L.M.**
Ali təhsildə idarəetmənin mexanizmlərinin müqayisəli təhlili.....52
**Əliyeva M.H.**
Təhsil sektorunda menecmentin inkişafı: effektiv idarəetmə prinsipləri və tətbiqi nümunələr.....62
**Həsənova G.M.**
Rəqəmsallaşma dövründə mədəniyyət müəssisələrinin idarə olunmasının sosioloji problemləri.....70
**Xəlifəzadə E.İ.**
Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığında bədii dilin estetik funksiyası.....77
**Qasımova Ş.X.**
Ekzistensializm və XX əsr ədəbiyyatında “mövcudluq” problemi.....87
**Qədirova A.M.**
Azərbaycan məktəblərində inklüziv təhsilin həyata keçirilməsi.....95

**Məmmədova S.D.**
Qloballaşma dövründə xaricdə ali təhsilin rolu........................................................101
**Mövsümova S.Ə.**
Azərbaycan təhsil sahəsində marketinq fəaliyyətinin formalaşması və onun şagirdlərin cəlb edilməsinə təsiri.....................................................................................................108
**Muradova Y.R.**
Azərbaycan mülki aviasiya muzeyinin kolleksiya irsinin tədqiqi və müasir təbliğ strategiyaları.................................................................................................................114
**Mustafayeva Ş.Z.**
Azərbaycanda yaşlılar və əlilliyi olan şəxslər üçün innovativ sosial xidmət modelləri.......................................................................................................................122
**Rəhimova A.A.**
Dərbənd qalası: istehkamlar və dini-mədəni irs........................................................128
**Sadıq X.S.**
İnklüzivliyin müəssisələr üçün əhəmiyyəti və müasir dövrdə inklüziv idarəetmənin ehtiyacı.....................................................................................................134
**Süleymanova Ü.A.**
Azərbaycan peşə təhsilində marketinqin tətbiqi........................................................141
**Şamxallı G.A.**
Bakı COP29: qlobal ekoloji siyasətdə mədəniyyətin rolu və təqdimatı.....................152
**Tapdıqlı G.D.**
Azərbaycan ali təhsilində keyfiyyət təminatı sistemlərinin təkmilləşdirilməsi istiqamətləri...................................................................................................................159
**Yaqubova R.M.**
Ali təhsil sistemində akkreditasiya: əsas məqsəd və vəzifələri..................................164
**Yolçuyev X.N.**
Azərbaycan Respublikasında tənha və yaşlı insanlarla sosial işin əsas istiqamətləri və metodları...............................................................................................................169

## PEDAQOJİ-PSİXOLOJİ ELMLƏR

**Abdulova G.V.**
İbtidai siniflərin riyaziyyat tədrisində yeni texnologiyaların tətbiqi zamanı yaranan metodoloji çətinliklər.....................................................................................176
**Abdurahimova E.A.**
Korreksiya pedaqoqunun inklüziv təhsildə psixoloji-pedaqoji müşayiət prosesindəki rolu...........................................................................................................................184
**Ağaməmmədova A.N.**
Dilin öyrənilməsi zamanı metodik yeniliklər: yanaşmalar, metodlar, istiqamətlər....192
**Əhmədzadə E.M.**
Təhsil sahəsində diskurs təhlili...................................................................................197

**Ələmdarlı X.D.**
Tədris prosesində innovativ pedaqoji texnologiyaların tətbiqi..................................203
**Əlimirzəyeva F.A.**
Müəllim peşəkarlığının inkişafına təsir edən amillər...............................................210
**Əmiraslanova Ş.Ş.**
İnkişafetdirici təlim mühitində tətbiq olunan metodlar..............................................218
**Əsədov T.F.**
Ənənəvi və fasilitator müəllim fəaliyyətinin müqayisəli təhlili.................................226
**Əsədova L.R.**
Xəmsə poemalarının tədrisində ədəbi mətnin qavranması və interpretasiyası: müasir şagird yönümlü yanaşmalar və nəticələr........................................................238
**Əsədzadə A.F.**
Çətin tərbiyə olunan uşaqların sosiallaşma problemlərinin təhsil prosesinə təsiri.....247
**Əsgərova N.F.**
Məktəbəqədər yaş dövründə şəxsiyyətin formalaşmasında ailənin rolu.....................254
**Fərəczadə A.V.**
Adların tədrisi zamanı qarşıya çıxan çətinliklərin həlli.............................................261
**Gözəlova G.A.**
İbtidai sinif şagirdlərində həndəsi anlayışların formalaşmasında müasir təlim metodlarının rolu.........................................................................................................268
**İbrahimova Z.İ.**
Ali təhsil müəssisələrində interaktiv tədrisin təşkili...................................................274
**İbrahimzadə A.E.**
Rəqəmsal texnologiyaların səriştə əsaslı öyrənmədə rolu.........................................281
**İsmayılova A.X.**
İbtidai təhsildə şagirdlərin oxu bacarıqlarının formalaşdırılmasında strategiyalı oxunun rolu.................................................................................................................288
**İsmayılova R.Ə.**
İnklüziv təhsil siyasətinin reallaşmasında valideyn, müəllim və cəmiyyət əməkdaşlığının rolu...........................................................................................................296
**İsrafilli L.Q.**
Rollu oyunlar metodu ilə "Dərman bitkiləri: müalicəvi xüsusiyyətləri və onlardan istifadə qaydaları" tədris vahidinin öyrədilməsi........................................................303
**Qurbanov R.M.**
İnnovativ tədris texnologiyalarının tədris mühitinə inteqrasiyası və onun pedaqoji şərtləri.........................................................................................................................308
**Məmmədli N.M.**
Tələbələrin asudə vaxtının təşkili problem kimi.......................................................313
**Məmmədzadə E.R.**
İbtidai siniflərdə şagirdlərə differensial yanaşma və dəstək mexanizmləri................321
**Muradova A.T.**
Auditoriyadankənar fəaliyyətin ali təhsildə rolunun gücləndirilməsi.........................327
**Nəcəfova R.M.**
Məktəbəqədər dövrdə söz ehtiyatının zənginləşdirilməsində uşaq ədəbiyyatının əhəmiyyəti...................................................................................................................332

**Orduxanova Ş.M.**
Erkən yaş dövründə olan uşaqların psixoloji-pedaqoji xüsusiyyətləri........................338
**Paşayeva R.Q.**
Uşaqların sosial müdafiəsinin mahiyyəti.................................................................344
**Rəhimova E.F.**
M.Nağıqızı yaradıcılığında vətənpərvərlik anlayışlarının orta ümumtəhsil məktəblərində sinifdən xaric oxu materialı kimi istifadə imkanları...........................349
**Rzayeva R.M.**
Xarici dilin tədrisində texnoloji yeniliklərin tətbiqi: virtual resurslar........................356
**Sebixanova F.Ş.**
Ailə zorakılığının uşaq psixologiyasına və sosial inkişafına təsiri.............................362
**Səfərli Ü.E.**
Tarix müəlliminin fasilitator rolunun səmərəli təşkili...............................................370
**Səmədli N.M.**
Biologiyanın dərsdənkənar tədrisində innovativ və inteqrativ metodların tətbiqi......380
**Şirinova A.E.**
Zorakılığa məruz qalmış yeniyetmələrlə aparılan sosial-psixoloji iş.........................384

**Hüseynova F.R.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fidanhuseynov0@gmail.com***

# SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ TƏHSİLDƏ ÖLÇMƏ VƏ QİYMƏTLƏNDİRMƏ PROSESLƏRİNƏ İNTEQRASİYASI

***Xülasə***

*Bu məqalədə süni intellekt texnologiyalarının təhsildə ölçmə və qiymətləndirmə proseslərinə inteqrasiyası araşdırılır. Süni intellekt əsaslı alətlərin qiymətləndirmə meyarlarının standartlaşdırılması, nəticələrin obyektiv və dəqiq emalı, eləcə də müəllimlərin iş yükünün azalması baxımından yaratdığı üstünlüklər təhlil edilir. Eyni zamanda, bu texnologiyaların tətbiqi zamanı meydana çıxan çətinliklər - alqoritmik qərəz, şəffaflıq problemləri, etik məsələlər və infrastruktur tələbləri nəzərdən keçirilir. Süni intellektin qiymətləndirməyə sistemli şəkildə inteqrasiyası tədrisin keyfiyyətini artırmaqla yanaşı, daha ədalətli və səmərəli ölçmə mühiti formalaşdırmağa imkan yaradır. Ümumilikdə, məqalə süni intellektin qiymətləndirmə praktikasını yeniləmə potensialını və bu prosesdə nəzərə alınmalı şərtləri ortaya qoyur.*

# YAPAY ZEKÂ TEKNOLOJİLERİNİN EĞİTİMDE ÖLÇME VE DEĞERLENDİRME SÜREÇLERİNE ENTEGRASYONU

***Özet***

*Bu makale, yapay zekâ teknolojilerinin eğitimde ölçme ve değerlendirme süreçlerine entegrasyonunu incelemektedir. Yapay zekâ tabanlı araçların değerlendirme kriterlerinin standartlaştırılması, sonuçların objektif ve doğru bir şekilde işlenmesi ve öğretmenlerin iş yükünün azaltılması açısından avantajları analiz edilmektedir. Aynı zamanda, bu teknolojilerin uygulanması sırasında ortaya çıkan zorluklar -algoritmik önyargı, şeffaflık sorunları, etik sorunlar ve altyapı gereksinimleri- de ele alınmaktadır. Yapay zekânın değerlendirmeye sistematik olarak entegre edilmesi, yalnızca öğretim kalitesini artırmakla kalmaz, aynı zamanda daha adil ve verimli bir ölçüm ortamı oluşturma fırsatı da yaratır. Makale, genel olarak yapay zekânın değerlendirme uygulamalarını yenileme potansiyelini ve bu süreçte dikkate alınması gereken koşulları ortaya koymaktadır.*

# INTEGRATİON OF ARTİFİCİAL İNTELLİGENCE TECHNOLOGİES İNTO MEASUREMENT AND EVALUATİON PROCESSES İN EDUCATİON

***Summary***

*This article examines the integration of artificial intelligence technologies into measurement and assessment processes in education. The advantages of artificial intelligence-based tools in terms of standardization of assessment criteria, objective and accurate processing of results, as well as reduction of teachers' workload are*

*analyzed. At the same time, the difficulties that arise during the application of these technologies - algorithmic bias, transparency problems, ethical issues and infrastructure requirements - are considered. Systematic integration of artificial intelligence into assessment not only improves the quality of teaching, but also creates an opportunity to form a more fair and efficient measurement environment. Overall, the article reveals the potential of artificial intelligence to renew assessment practice and the conditions that should be considered in this process.*

***Açar sözlər:*** *süni intellekt, ölçmə və qiymətləndirmə, təhsil texnologiyaları, obyektivlik*

***Anahtar kelimeler:*** *yapay zekâ, ölçme ve değerlendirme, eğitim teknolojileri, nesnellik*

***Key words:*** *artificial intelligence, measurement and evaluation, educational technologies, objectivity*

## Giriş

Müasir dövrdə sürətlə inkişaf edən texnologiyalar insanların gündəlik fəaliyyətini və sosial strukturları əhəmiyyətli dərəcədə dəyişdirir. Xüsusilə süni intellekt (Sİ) əvvəlcələr yalnız insanlar tərəfindən həyata keçirilə bilən mürəkkəb tapşırıqların – mühakimə yürütmə, qərar qəbul etmə və problem həll etmə kimi fəaliyyətlərin – kompüter sistemləri tərəfindən yerinə yetirilməsinə imkan yaradan bir texnologiya kimi geniş tətbiq sahəsi qazanmışdır [3, s.2]. Bu texnologiyalar artıq müxtəlif sahələrdə iş proseslərini optimallaşdırmaq, əməliyyatları sürətləndirmək və yeni innovativ imkanlar yaratmaq məqsədilə istifadə olunur və gündəlik həyatın ayrılmaz bir komponentinə çevrilmişdir. Sİ-nin geniş təsir dairəsinə malik olduğu sahələrdən biri də təhsildir. Dünyanın təhsil sistemi süni intellekt tətbiqlərindən istifadə etməklə daim özünü yeniləyir [3, s.2]. Bu dəyişikliklər tədris metodlarının, təlim mühitlərinin və pedaqoji yanaşmaların yenilənməsini zəruri edir. Beləliklə, təhsil strukturları süni intellekt əsaslı yeniliklərə uyğunlaşmaq üçün öz fəaliyyətlərini fasiləsiz şəkildə təkmilləşdirirlər. Bu baxımdan mövzu üzrə aparılan araşdırmalar təhsildə süni intellektin tətbiq sahələri və onun faydaları barədə məlumatı genişləndirərək müəllimlərin bu texnologiyalara adaptasiyasını dəstəkləyir. Bu tədqiqatlar pedaqoqların peşəkar inkişafı baxımından mühüm rol oynayır, çünki onlar təhsil prosesində meydana çıxan yeni texnoloji imkanları anlamağa və tətbiq etməyə şərait yaradır. Nəticə etibarilə, süni intellektə dair elmi biliklərin artması təhsil sisteminin innovativ yanaşmalar əsasında davamlı inkişafını təmin edən əsas amillərdən biri kimi dəyərləndirilir.

Təhsildə süni intellekt tədris və öyrənmə təcrübələrini artırmaq, müəllimlərin və inzibatçıların iş yükünü azaltmaq və şagirdlər üçün fərdiləşdirilmiş öyrənmə təcrübələri təmin etmək üçün istifadə olunan texnologiyaları əhatə edir [2, s.168]. Bu texnologiyalar təlim prosesinə yeni dinamika gətirərək öyrənməni daha cəlbedici və səmərəli edir. Süni intellektin

tətbiqi sayəsində fərdiləşdirilmiş öyrənmə yolları formalaşır və tələbənin sürətinə, ehtiyaclarına uyğun adaptiv öyrənmə mühiti təmin olunur. Məlumatın asan əldə edilməsi müəllimin ənənəvi bilik ötürücüsü rolunu dəyişdirərək, onu öyrənməni yönləndirən, tənqidi düşünməni dəstəkləyən və müstəqil araşdırmanı təşviq edən bələdçiyə çevirir. Bütün bu üstünlüklərin təhsildə müşahidə olunması ölçmə və qiymətləndirmə sahəsində də yeni imkanlar yaratmışdır

Müasir təhsil sistemində ölçmə və qiymətləndirmə proseslərinin obyektivliyi və etibarlılığı təlimin keyfiyyətini müəyyən edən ən vacib amillərdən biridir. Ənənəvi üsullarla aparılan qiymətləndirmələrdə insan amilindən qaynaqlanan subyektiv yanaşmalar və ya diqqətsizlik nəticəsində yaranan texniki səhvlər qaçılmaz ola bilir. Lakin süni intellekt texnologiyalarının bu sahəyə inteqrasiyası sözügedən problemlərin həlli üçün yeni perspektivlər açır. Bu alətlər vasitəsilə hazırlanan və tətbiq edilən ölçmə alətləri məlumatların emalında yüksək dəqiqliyi təmin edərək, ölçmə prosesindəki xəta payını minimuma endirmək potensialına malikdir. Bu texnologiyalar qiymətləndirmə meyarlarını standartlaşdırır və nəticələrin daha dəqiq analiz edilməsinə şərait yaradır. Təhsil işçiləri üçün bu, sadəcə texniki yükün azalması deyil, həm də şagird nailiyyətlərini daha etibarlı və əsaslandırılmış məlumatlara söykənərək dəyərləndirmək imkanıdır. Beləliklə, süni intellekt dəstəkli vasitələr pedaqoqlara tədris prosesini daha səmərəli idarə etmək və ədalətli qiymətləndirmə mühiti formalaşdırmaq üçün müstəsna və geniş imkanlar təqdim edir.

## Təhsildə süni intellektə əsaslanan ölçmə və qiymətləndirmənin faydaları və məhdudiyyətləri

Dildeğmez və Özbaşın (2022) vurğuladığı kimi, süni intellektin çoxölçülü və disiplinlərarası strukturu onun təhsildə, xüsusilə ölçmə və qiymətləndirmə sahəsində geniş funksional imkanlar yaratdığını göstərir. Bu baxımdan, süni intellektə əsaslanan qiymətləndirmə yanaşmalarının əsas üstünlüyü onların prosesin dəqiqliyini, obyektivliyini və analitik dərinliyini artırmasıdır. Başqa sözlə, bu texnologiyanın kompleks quruluşu qiymətləndirmə fəaliyyətlərinə əhəmiyyətli fayda təmin edir.

Süni intellektə əsaslanan müasir ölçmə və qiymətləndirmə vasitələri təlim prosesinin effektivliyi haqqında müəllimlərə dərin və əsaslandırılmış məlumatlar təqdim edir. Bu texnologiyalar sayəsində pedaqoqlar tədris strategiyalarının hansı istiqamətlərdə təkmilləşdirilməyə ehtiyac duyduğunu daha dəqiq müəyyənləşdirə bilirlər. Eyni zamanda, qiymətləndirmə prosesinin mürəkkəb və vaxtaparan mərhələlərinin avtomatlaşdırılması müəllimlərin üzərindəki inzibati və texniki iş yükünü əhəmiyyətli dərəcədə yüngülləşdirir. Belə yanaşma təkcə zaman resurslarına qənaət etməklə kifayətlənmir, həm də

müəllimə diqqətini şagirdlərin fərdi inkişafına yönəltməyə imkan yaradır. Xüsusilə, Sİ dəstəkli yoxlama sistemləri şagirdlərin yazılı işlərini və esselərini qrammatika, struktur və məzmun baxımından sürətli şəkildə analiz etmək qabiliyyətinə malikdir. Nəticədə, bu alətlər ənənəvi yoxlama müddətini qısaldaraq, şagirdlərə daha operativ və effektiv əks-əlaqə verilməsini təmin edir.

Süni intellekt, fərdi şagirdlərin öyrənmə irəliləyişinə, güclü və zəif tərəflərinə əsasən fərdiləşdirilmiş təlim planları yaratmağa kömək edə bilər [1, s.44]. Süni intellekt əsaslı tədris sistemləri şagirdlərin fərdi öyrənmə üslublarına uyğunlaşaraq onların ehtiyaclarına görə fərdiləşdirilmiş dəstək təqdim edə bilir. Belə sistemlər real vaxtda əks-əlaqə verməklə şagirdlərin motivasiyasının qorunmasına və öyrənmə prosesinə daha aktiv cəlb olunmasına şərait yaradır. Sİ dəstəyi şagirdin güclü və zəif tərəflərini avtomatik müəyyənləşdirir və bu məlumat əsasında individual öyrənmə marşrutları formalaşdırır. Öyrənmə sürətinə uyğunlaşma funksiyası isə hər bir şagirdin öz ritmində irəliləməsinə imkan yaradır. Eyni zamanda, sistem interaktiv təlim materialları və məşq tapşırıqları təqdim edərək öyrənmənin keyfiyyətini artırır. Bu cür texnologiyalar müəllimlərə fərdiləşdirilmiş tədris aparmaq, şagird inkişafını izləmək və əlavə dəstək tələb olunan sahələri operativ şəkildə müəyyənləşdirmək üçün mühüm imkanlar yaradır.

Süni intellekt şagirdlərin test nəticələri və iştirak göstəriciləri kimi məlumatları analiz edib risk qruplarını müəyyənləşdirərək müəllimlərin daha hədəfli müdaxilə etməsini təmin edir. Bu cür tətbiqlər müəllimlərə öyrənmə nəticələri, təlimin effektivliyi və şagird fəaliyyəti haqqında dəyərli analitik məlumat təqdim etməklə təhsil prosesinin keyfiyyətini yüksəldir. Təhsildə AI inkişaf etdikcə, fərdiləşdirilmiş və məlumat əsaslı tədris modellərinin genişlənməsinə şərait yaradaraq həm müəllimlərin pedaqoji qərarlarını, həm də tələbələrin öyrənmə nəticələrini optimallaşdırma potensialını artırır. Ümumilikdə, süni intellekt əsaslı ölçmə və qiymətləndirmə alətləri qiymətləndirmə prosesinin dəqiqliyini, sürətini və səmərəliliyini əhəmiyyətli dərəcədə gücləndirir

Bununla belə, bu Sİ özündə müəyyən çətinliklər də daşıyır: süni intellektə əsaslanan qiymətləndirmə sistemlərinin düzgün işləməsi üçün pedaqoji uyğunsuzluqların aradan qaldırılması, məlumatların keyfiyyətlə idarə olunması və etik çərçivələrin təmin edilməsi tələb olunur. Beləliklə, süni intellektin ölçmə və qiymətləndirməyə gətirdiyi geniş imkanlarla yanaşı, tətbiq prosesində ortaya çıxan potensial məhdudiyyətlərin də nəzərdən keçirilməsi zəruridir.

Təhsil qiymətləndirməsində süni intellektlə bağlı əsas çətinliklərdən biri qərar qəbuletmədə şəffaflığın olmamasıdır [1, s.46]. Süni intellektin

qiymətləndirmədə istifadəsi bir sıra çətinlikləri də beraberində gətirir ki, onların ən əsası qərarvermə prosesində şəffaflığın məhdud olmasıdır. Alqoritmlərin nəticəyə hansı məntiq və hesablama yolu ilə gəldiyini müəyyənləşdirmək çətin olduğundan, bu vəziyyət qiymətləndirmələrin etibarlılığını və ədalətliliyini yoxlamağı mürəkkəbləşdirir. Bundan əlavə, süni intellekt sistemləri formalaşdırdıqları verilənlərlə məhdud olduğuna görə, verilənlərdəki qərəzlər alqoritmik qərəzə çevrilə bilər və nəticə etibarilə qeyri-obyektiv və ədalətsiz qiymətləndirmələr yarana bilər. Bu da göstərir ki, süni intellektin etibarlı tətbiqi üçün məlumat keyfiyyəti və alqoritmik şəffaflıq əsas şərtlərdən biridir.

Müəllimlər texnologiyadan necə istifadə etməyi və nəticələri effektiv şəkildə şərh etməyi başa düşmək üçün təlim keçməlidirlər [1, s.46]. Süni intellektə əsaslanan qiymətləndirmə vasitələrinin effektiv tətbiqi üçün müəllimlərin bu texnologiyadan istifadə bacarıqlarını artıracaq xüsusi hazırlıqdan keçməsi vacibdir; əks halda nəticələrin düzgün şərh olunmaması qiymətləndirmə səhvlərinə gətirib çıxara bilər. Yeni alətlərin mövcud qiymətləndirmə sistemlərinə inteqrasiyası da çətinlik yaradır. Süni intellektlə işləyən qiymətləndirmə vasitələri şagirdlərin motivasiyasına və öyrənmədə iştirakına təsir göstərə bilər [1, s.46]. Süni intellekt dəstəkli qiymətləndirmə vasitələrinin tətbiqi bəzən tələbələrin motivasiya və öyrənməyə münasibətinə mənfi təsir göstərə bilər. Şagirdlər bu cür qiymətləndirməni şəxsiyyətlərdən uzaq və mexaniki bir proses kimi qavraya və nəticədə öyrənməyə sərf etdikləri səy azalabilir. Bu texnologiyalar adətən standartlaşdırılmış ölçmə alətləri təqdim etdiyindən, fərdi öyrənmə təcrübələri və tələbə müxtəlifliyi hər zaman nəzərə alınmaya bilər. Nəticədə, qiymətləndirmə prosesinin həddindən artıq standartlaşdırılması bütün tələbələr üçün eyni yanaşmanın tətbiq edilməsinə gətirib çıxara bilər ki, bu da təhsil prosesində fərdiləşdirmənin zəifləməsinə səbəb olur.

## Nəticə

Təhsil sistemində süni intellekt texnologiyalarının sürətli inkişafı ölçmə və qiymətləndirmə proseslərinin mahiyyətini fundamental şəkildə dəyişdirir və bu sahəyə yeni elmi-pedaqoji yanaşmalar gətirir. Aparılan nəzəri təhlil göstərir ki, süni intellekt əsaslı qiymətləndirmə alətləri ənənəvi ölçmə proseslərində rast gəlinən subyektivlik, qeyri-dəqiqlik və insan amilindən qaynaqlanan səhv ehtimallarını minimuma endirmək üçün mühüm potensiala malikdir. SI sistemlərinin yüksək məlumat emalı gücü qiymətləndirmə nəticələrinin daha operativ və etibarlı şəkildə analiz edilməsinə şərait yaradır, bu isə həm müəllimlər, həm də təhsil idarəediciləri üçün qərarvermə prosesini xeyli sadələşdirir.

Süni intellektin təhsilə inteqrasiyası yalnız texniki üstünlüklərlə məhdudlaşmır, eyni zamanda tələbələr üçün fərdiləşdirilmiş və adaptiv öyrənmə imkanlarının formalaşmasına da şərait yaradır. Bu texnologiyalar tələbənin bilik səviyyəsinə, öyrənmə sürətinə və öyrənmə tərzinə uyğun dinamik təlim mühiti təqdim edir və beləliklə, öyrənmənin fərdiləşdirilməsi istiqamətində yeni perspektivlər açır. Nəticədə, həm qiymətləndirmənin keyfiyyəti artır, həm də tədris prosesinin ümumi effektivliyi yüksəlir. Bununla belə, süni intellektin tətbiqi bir sıra məhdudiyyətlərlə də müşayiət olunur. Alqoritmik qərarvermədə şəffaflıq problemi, mövcud məlumatlardakı qərəzin sistem nəticələrinə təsiri, etik risklər və şəxsi məlumatların qorunması kimi məsələlər texnologiyanın məsuliyyətli istifadəsi üçün ciddi nəzərə alınmalıdır. Bundan əlavə, infrastruktur tələbləri, texniki təminatın yetərsizliyi və pedaqoqların bu texnologiyalarla işləmək üçün kifayət qədər hazırlıqlı olmaması Sİ əsaslı qiymətləndirmənin geniş miqyasda tətbiqini çətinləşdirir. Müəllimlərin texnoloji bacarıqlarının inkişaf etdirilməsi və onların Sİ dəstəyi ilə qiymətləndirmə prosesinə adaptasiyası bu sahənin davamlı inkişafı üçün vacib şərtlərdən biridir.

Ümumilikdə aparılan nəzəri təhlil göstərir ki, süni intellektin ölçmə və qiymətləndirmə fəaliyyətlərinə inteqrasiyası təhsil sisteminin keyfiyyətinin artırılması üçün əhəmiyyətli imkanlar yaradır. Lakin bu imkanların reallaşdırılması yalnız texnoloji təminatla deyil, həm də metodoloji dəqiqlik, etik çərçivə, şəffaflıq mexanizmləri və pedaqoqların peşəkar hazırlığı ilə sıx bağlıdır. Süni intellektin təhsil mühitinə düzgün inteqrasiyası tədrisin daha obyektiv, ədalətli və effektiv şəkildə təşkilinə şərait yarada bilər.

Bu nəticələr süni intellektin qiymətləndirmədə roluna dair gələcək empirik tədqiqatlar üçün nəzəri baza formalaşdırır və Sİ əsaslı qiymətləndirmə sistemlərinin daha məqsədyönlü şəkildə inkişaf etdirilməsi üçün istiqamət göstərir. Eyni zamanda, aparılan təhlillər göstərir ki, Sİ texnologiyalarının təhsildə tətbiqi yalnız texnoloji yenilik deyil, həm də pedaqoji dəyişiklik tələb edən kompleks bir prosesdir və bu baxımdan sahədə ardıcıl elmi araşdırmaların aparılması xüsusi əhəmiyyət kəsb edir.

***Ədəbiyyat***

1. *Çavuş, M. N. (2024). Eğitimde yapay zekâ tabanlı ölçme ve değerlendirme üzerine bir derleme. International Journal of English for Specific Purposes (JOINESP), 2(1), 39–54.*
2. *Dişlioğlu, T. A., Ateş, V., & Medeni, T. D. (2025). Yapay zekâ teknolojilerinin eğitimde kullanılması: Öğretmen değerlendirmeleri. KAYTEK Dergisi, 7(2), 167–191.*
3. *İşler, B., & Kılıç, M. Y. (2021). Eğitimde yapay zekâ kullanımı ve gelişimi. e-Journal of New Media (eJNM), 5(1), 1–11.*

**Alməmmədova M.E.**
**Bakı Dövlət Universiteti**
***mahizeralmemmedova@gmail.com***

# XƏZƏRİN ABŞERON SAHİLİNİN MİKROZOOBENTOSU

***Xülasə***

*Məqalədə Xəzər dənizinin Abşeron sahilinin mikrozoobentosu haqqında məlumat verilmiş və apardığımız tədqiqatların nəticələri qeyd olunmuşdur. Mikrozoobentos bentik faunanın çox vacib tərkib hissəsi olmaqla yanaşı, makrozoobentos kimi su hövzələrində maddələr dövranının və enerji balansının formalaşmasında mühüm rol oynayır. Mikrobentosun əsas komponentlərinə bakteriyalar, yosunlar, ibtidailər (xüsusilə infuzorlar), kiçik ölçülü nematodlar, ibtidai xərçəngkimilər, ostrakodlar, foraminiferlər, kiçik azqıllı qurdlar və mkm-lə ölçülən digər kiçik hidrobiontlar aid olunur. Ümumən, mikrozoobentos su hövzələrində yayılması və inkişafı baxımından heç də makrozoobentosdan geriyə qalmır. Hətta bu orqanizmlərin say və biokütləsi yüksək miqdari göstəricilərlə seçilir ki, bu da balıqçılıq təsərrüfatlarının inkişafında çox önəmli rol oynayır. Bu baxımdan da Xəzərin Abşeron sahilində mikrozoobentosun öyrənilməsi və yeni hidrobioloji tədqiqatların aparılması mühüm elmi-praktiki əhəmiyyət kəsb edir.*

# МИКРОСОБЕНТОС ПОБЕРЕЖЬЯ АБШЕРОНА КАСПИЙСКОГО МОРЯ

***Резюме***

*В статье представлена информация о микрозообентосе Абшеронского побережья Каспийского моря и результаты наших исследований. Микрозообентос, помимо того, что является очень важной составляющей бентосной фауны, играет важную роль в формировании круговорота веществ и энергетического баланса в водоеме, подобно макрозообентосу. Основные компоненты микробентоса включают бактерии, водоросли, простейших (особенно инфузории), мелких нематод, примитивных ракообразных, остракод, фораминифер, мелких олигохет и других мелких гидробионтов размером в мкм. В целом, микрозообентос не уступает макрозообентосу по распространению и развитию в водоеме. Фактически, численность и биомасса этих организмов отличаются высокими количественными показателями, что играет очень важную роль в развитии рыболовства. В этой связи изучение микрозообентоса на Абшеронском побережье Каспийского моря и проведение новых гидробиологических исследований имеют большое научное и практическое значение.*

# MICROSOBENTOS OF THE ABSHERON COAST OF THE CASPIAN SEA

***Summary***

*The article provides information about the microzoobenthos of the Absheron coast of the Caspian Sea and the results of our research. Microzoobenthos, in addition to being a very important component of the benthic fauna, plays an important role in the formation of the circulation of substances and energy balance in water basin, like macrozoobenthos. The main components of microbenthos include bacteria, algae, protozoa (especially infusoria), small nematodes, primitive crustaceans, ostracods, foraminifers, small oligochaetaes and other small hydrobionts measured in μm. Generally, microzoobenthos is not inferior to macrozoobenthos in terms of its distribution and development in water basin. In fact, the number and biomass of these organisms are distinguished by high quantitative indicators, which plays a very essential role in the development of fisheries. In this regard, the study of microzoobenthos on the Absheron coast of the Caspian Sea and the conduct of new hydrobiological studies are of great scientific and practical importance.*

***Açar sözlər:*** *makrozoobentos, mikrozoobentos, biotop*
***Ключевые слова:*** *макрозообентос, микрозообентос, биотоп*
***Key words:*** *macrozoobenthos, microzoobenthos, biotope*

## Giriş

Abşeron sahili Xəzərin qərb istiqamətində Abşeron yarımadası boyunca uzanır, yarımqapalı su hövzəsi xüsusiyyətləri ilə seçilir. Onun sahil xətti ümumən düzənlik və ya alçaq relyeflə təsvir olunur, bəzi hissələrində isə qum və gilli çöküntülərə sıx rast gəlinir. Sahilyanı zonada əsasən körfəzlər, təbii laqunlar və ya dərin olmayan akvatoriyalar sıx yayılmışdır. Xəzər dənizinin Abşeron sahilinin mikrozoobentosunun növ tərkibi və ekologiyası haqqında məlumatlar demək olar ki, yox dərəcəsindədir. Yalnız Xəzər Dənizinin bioloji resursları haqqında qısa məlumatlar mövcuddur [Cəfərova və baş., 2018]. Əksər məlumatlar 20-50 illik tarixə malikdir [Qasımov, 2004; Həsənov, 1985].

2024–2025-cı illərdə Xəzərin Şimali Abşeron körfəzində mikrozoobentosun tədqiqi nəticəsində bizim tərəfimizdən 9 sistematik qrupa (*Foraminifera, Ciliata, Turbellaria, Nematoda, Rotatoria, Oligochaeta, Cladocera, Copepoda, Ostracoda*) məxsus olan 195 növ orqanizm aşkar edilmişdir.

İnfuzorlar Abşeron sahilində dominant mövqe tutmuşlar. Siliofaunada üstün mövqedə psammofil infuzorlar dayanır. Onlar bütövlükdə siliofaunanın 81%-ni təşkil etmişlər. Qalan 19% digər növlər lilli-qum və lilli-balıqqulağı biotoplarında müəyyən olunmuşdur. İnfuzorlar arasında spesifik psammofil formalara nümunə olaraq *Trachelocerca, Tracheloraphis, Trachelonema, Remanella, Kentrophoros, Paraspathidium, Pleuronema, Spirostomum,*

*Holosticha, Keronopsis, Uroleptus, Trachelostyla, Oxytricha, Euplotes, Aspidisca* cinslərinin nümayəndələrini göstərmək olar. Bunlar həmin biotopda kütləvi populyasiya əmələ gətirirlər (14-15 mln.əd/m$^2$).

Dairəşəkilli infuzorlar siliofaunada müstəsnalıq təşkil edirlər. Bunlara əsasən müxtəlif substratlar (daşlar, balıqqulağı, taxta və dəmir parçaları) üzərində rast gəlinir. Abşeron sahilində aşkar olunan siliofauna 14 dəstədə cəmləşir. Lakin hər bir dəstəyə mənsub olan növlərin sayı müxtəlif olmuşdur. Məsələn, *Karyorelictida* dəstəsinə – 19 növ, *Prostomatida* – 22 növ, *Haptorida* – 23 növ, *Pleurostomatida* – 9 növ, *Trichostomatida* – 3, *Synhymeniida* – 2, *Cyrtophorida* – 13, *Hymenostomatida* – 4, *Scuticociliatida* – 13, *Peritrichida* – 9, *Heterotrichida* – 7, *Oligotrichida* – 7, *Hypotrichida* dəstəsinə isə 33 növ aid olmuşdur. Xəzər üçün yeni növlər *Karyorelictida* (5 növ), *Prostomatida* (10 növ), *Haptorida* (2 növ), *Pleurostomatida* (2 növ), *Cyrtophorida* (6 növ), *Scuticosiliatida* (5 növ), *Peritrichida* (2 növ), *Heterotricha* (1 növ), *Oligotrichida* (1 növ) və *Hypotrichida* (7 növ) dəstələrinə aid olmuşdur. Siliofauna üzrə ən yüksək biomüxtəliflik *Haptorida* (23 növ) və *Hypotrichida* (33 növ) dəstələrinə mənsubdur.

Digər sistematik qruplara gəldikdə isə bizim tədqiqatlara əsasən Foraminiferlər əsasən psammonda, kirpikli qurdlar qumda və qum-balıqqulağında, nematodlar əsasən lilli qumda, rotatorilər detritli su qatında, azqıllı qurdlpar lildə, şaxəbığcıqlı və kürəkayaqlı xərçənglər bentosun su qatlarında, ostrakodlar qum və lilli-qum biotopunda aşkar olunmuşlar. Onlar arasında foraminiferlər və nematodlar növ müxtəlifliyinə görə üstünlük təşkil etmişlər.

**Tədqiqatın obyekti və istifadə olunmuş metodlar**

Hidrobioloji tədqiqatların obyekti Abşeron sahilinin mikrozoobentos faunasının biomüxtəlifliyidir. Tədqiqatlar zamanı Abşeron sahilinin bütün ərazisini əhatə edən stansiyalar seçilmiş və ilkin sahə müşahidələri aparılmışdır. Stansiyaların seçimi Abşeron sahilinin müxtəlif hidromorfoloji şəraitini əhatə etmək məqsədi daşıyır ki, bu da nümunələrin representativliyini təmin edir.

Bentik nümunələrin götürülməsi 2024-cü ilin oktyabr və dekabr aylarında, eləcə də 2025-ci ilin bütün fəsilləri ərzində həyata keçirilmişdir. Mikrozoobentosa aid materialların toplanması və laborator analizi F.Q.Ağamalıyev və Ələkbərovun əsərlərində qeyd olunan hidrobioloji üsullarla yerinə yetirilmişdir. Mikrozoobentosun növ tərkibini öyrənmək məqsədilə nümunələr əsasən sahil zonalardan 1,0–1,5 metrə qədər olan dərinliklərdən polietilen və şüşə bankalarla (həcmi 250–500 ml və s.) torpağın üst 3–5 sm-lik qatı sıyrılaraq toplanmışdır. Körfəzin dərin zonalarından isə bu məqsədlə dibgötürən cihazın çıxardığı materiallardan istifadə olunmuşdur. Toplanmış materialların bir hissəsi sahə şəraitində 61№-li qaz materialdan hazırlanmış

ələkdən keçirilərək 4%-li formalin məhlulunda fiksə edilmiş və sonrakı laborator tədqiqatlar üçün saxlanılmışdır. Eyni zamanda mikrozoobentosun, xüsusilə infizorların növ müxtəlifliyi və miqdar göstəricilərinin öyrənilməsi məqsədilə nümunələrin əhəmiyyətli hissəsi canlı vəziyyətdə götürülmüşdür. Canlı nümunələrdəki orqanizmlərin növ tərkibləri ən geci 3 saatdan sonra stasionar şəraitdə mikroskop altında müəyyənləşdirilmiş və onların sayı hesablanmışdır.

**Nəticələr və onların müzakirəsi**

Xəzərin Abşeron sahilinin mikrozoobentosunda 2024-cü ilin payız və qış, 2025-ci ilin bütün fəsillərində aparılmış hidrobioloji tədqiqatlar nəticəsində burada mikrobentosa aid olan 9 sistematik qrup aşkarlanmışdır. Beləliklə, Xəzərin Abşeron sahilindən toplanan materialların analizi nəticəsində Abşeron sahilinin mikrozoobentosunda 2024-cü ildə 148 növ, 2025-ci ildə 192 növ, ümumi olaraq 195 növ qeyd olunmuşdur.

Abşeron sahilində müəyyən edilmiş növlərdən 6 növ – Foraminiferlərə, 154 növ – İnfuzorlara, 5 növ – Turbellarilərə, 8 növ – Nematodlara, 4 növ – Oliqoxetlərə, 2 növ – Rotatorilərə, 3 növ – Şaxəbığcıqlı xərçənglərə, 4 növ – kürəkayaqlı xərçənglərə, 9 növ ostrakodlara aid olmuşdur. Belə ki, Abşeron Sahilinin mikrobentosunda toplanmış canlı orqanizmlər arasından ən yüksək növ müxtəlifliyi infuzorların hesabına düşür (154 növ). Onlar mikrobentosda aşkar olunmuş növlərin 78,97%-ni təşkil etmişlər. Bütün tədqiqat illərində sahilin mikrozoobentosunda növlərin sayı, həmçinin fərdlərin sıxlığına görə infuzorlar üstün mövqe tutmuşlar.




**Qrafik.** Xəzərin Abşeron sahilinin mikrozoobentosunun əsas qrupları

2024-cü ilin qış və payız ayında mikrobentosda 9 sistematik qrupa daxil olan 148 növ orqanizm aşkarlanmışdır. Belə ki, payızda 9 qrupun hər birinəə rastlansada, qışda *Foraminifera, Turbellaria, Rotatoria, Oligochaeta, Cladocera* qruplarına rast gəlinməmişdir. Ümumən infuzorlar növ sayının çoxluğu ilə (109 növ) seçilmişlər. Bu tədqiqat ilində ikinci sırada ostrakodlar və nematodlar gəlmişdir. Digər qruplar isə 2-6 arası növ sayı ilə təmsil olunmuşlar.

**Cədvəl. 2024–2025-ci ildə mikrozooentosda qeyd olunan növlərin sayı və onların fəsillər üzrə yayılması**

| **İllər / Fəsillər** | **2024** | | | **2025** | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Qruplar | Növlərin sayı | Qış | Payız | Növlərin sayı | Qış | Yaz | Yay | Payız |
| *Foraminifera* | 6 | - | 6 | 5 | 4 | 5 | 5 | 4 |
| *Ciliata* | 109 | 48 | 61 | 154 | 72 | 116 | 83 | 86 |
| *Turbellaria* | 5 | - | 5 | 5 | - | 3 | 3 | 4 |
| *Nematoda* | 8 | 5 | 3 | 7 | 5 | 5 | 4 | 7 |
| *Rotatoria* | 2 | - | 2 | 2 | 2 | 1 | 2 | 1 |
| *Oligochaeta* | 2 | - | 2 | 4 | 1 | 1 | 1 | 1 |
| *Cladocera* | 3 | - | 3 | 3 | 2 | 3 | 2 | 1 |
| *Copepoda* | 4 | 2 | 2 | 3 | 2 | 3 | 2 | 2 |
| *Ostracoda* | 9 | 4 | 5 | 9 | 5 | 7 | 5 | 8 |
| **Cəmi** | 148 | 59 | 89 | 192 | 93 | 144 | 107 | 114 |

2025-ci ildə tədqiqatlar hər fəsildə aparılmışdır. Belə ki, bu zaman mikrozoobentosda 192 növ müəyyən edilmişdir. Qış fəslində *Turbellaria* qrupu aşkar edilməmişdir. Ümumi olaraq qış növ sayının ən az olduğu fəsil olmuşdur. Bu tədqiqat ilində də öncəki il kimi infuzorlar növ sayının çoxluğu ilə seçilmişdir, ən çox növ sayı isə yaz fəslində (116 növ) qeydə alınmışdır. Növ sayını baxımından sonrakı sırada ostrakodlar və nematodlar gəlir. Yerdə qalan qruplar isə 2–5 arası növ sayı ilə təmsil olunublar.

Bu tədqiqat ilində infuzorların öncəki illə müqayisədə daha çox növü aşkarlanmışdır. Nematodlar, foraminiferlər kimi qrupların növ sayında azalma müşahidə edilmişdir. Digər qruplara daxil olan növlərin sayı bir öncəki illə eynilik təşkil etmişdir.

***Ədəbiyyat***

1. *Ağamalıyev. F.Q., Əliyev. A.R., Süleymanova. İ.Ə., Məmmədova. A.Q. Hidrobiologiya, - Bakı – 2010, - 478 s.*
2. *Агамалиев Ф.Г. Инфузории Каспийского моря. Л.: Наука, 1983, 213.*

**Balayeva S.Ə.**
**Bakı Dövlət Universiteti**
***blyvas@gmail.com***

# XƏZƏRİN ŞİMALİ ABŞERON SAHİLLƏRİNİN MAKROZOOBENTOSU

***Xülasə***

*Məqalədə Xəzər dənizinin Şimali Abşeron sahilləri haqqında məlumat verilmiş və buranın makrozoobentik faunasında apardığımız tədqiqatlarımızın nəticələri əks olunmuşdur. Ümumən Şimali Abşeron sahillərinin bentik faunası tarixən zəif öyrənilmişdir. Bu səbəbdən də buranın bentofaunasında hidrobioloji tədqiqatlar aparmaq hazırda aktualdır. Abşeron sahilinin makrozoobentik onurğasızlar faunasında bağırsaqboşluqlulara, azqıllı qurdlara, ikitayqapaqlı və qarınayaqlı molyuskalara, mizidlərə, şaxəbığcıqlı xərçənglərə, kürəkayaqlı xərçənglərə, yanüzən xərçənglərə, izopodlara, onayaqlı xərçənglərə, su gənələrinə, xironomidlərə rast gəlinmişdir. Bunların arasından yanüzən xərçənglər növ sayı çoxluğu ilə seçilir.*

# МАКРОЗУБЕНТОС СЕВЕРНОГО ПОБЕРЕЖЬЯ АБШЕРОНА КАСПИЙСКОГО МОРЯ

***Резюме***

*В статье представлена информация о северном побережье Абшеронского моря и отражены результаты наших исследований макрозообентосной фауны этого места. В целом, бентосная фауна северного побережья Абшеронского моря исторически изучена недостаточно. Поэтому в настоящее время актуальны гидробиологические исследования бентосной фауны этого места. В макрозообентосной фауне беспозвоночных Абшеронского побережья обнаружены кишечнополостные, олигохеты, двустворчатые и брюхоногие моллюски, мизиды, амфиподы, изоподы, десятиногие ракообразные, гидракарины и хирономиды. Среди них выделяются полуводные крабы, отличающиеся большим видовым разнообразием.*

# MACROZOOBENTOS OF THE NORTHERN ABSHERON COAST OF THE CASPIAN SEA

***Summary***

*The article provides information about the Northern Absheron coast of the Caspian Sea and reflects the results of our studies of the macrozoobenthic fauna of this place. In general, the benthic fauna of the Northern Absheron coast has been poorly studied historically. Therefore, it is currently relevant to conduct hydrobiological researchs of the benthic fauna of this place. In the macrozoobenthic invertebrate fauna of the Absheron coast, coelenteratas, oligochaetaes, bivalves and gastropods, mysids, amphipods, isopods, decapods, hydracarinas, and chironomids were found. Among them, semi-aquatic crabs stand out for their large number of species.*

***Açar sözlər:*** *bentos, makrozoobentos, biotop*
***Ключевые слова:*** *бентос, макрозообентос, биотоп*
***Key words:*** *benthos, macrozoobenthos, biotope*

## Giriş

Xəzər dənizi əslində göl olsa da, dənizlərə məxsus olan əlamətləri özündə daşıyan su hövzəsidir [3]. Xəzəri əsasən 3 zonaya bölürlər: Şimal, Orta və Cənubi Xəzər. Xəzərin sahilləri nisbətən az girintili-çıxıntılı olması ilə seçilir ki, bu isə burada çoxlu sayda liman, körfəz və yarımadaların yaranmasına gətirib çıxarmışdır [1].

Abşeron sahilləri Abşeron yarımadasında yerləşir. Yarımadanın şimal sahələrini əhatə edir, dənizin isə Orta Xəzər hissəsində yerləşir. Bu sahillər Xəzər dənizinin qərb hissəsini əhatə edir və özünün yarımqapalı su tutarı xüsusiyyətləri ilə fərqlənir. Bu ərazinin sahil zolağı əsasən düzənlik və yaxud alçaq dağlıq relyefi ilə fərqlənir, bəzi ərazilərində isə qumlu-çınqıllı çöküntülərə və ya şoranlığa rast gəlmək mümkündür. Xəzər dənizində tarixən baş verən dəyişilmələr Abşeron sahillərinə də təsirsiz ötüşməmiş, bu zonada müxtəlif körfəzlər, laqunlar və.s geniş surətdə yayılmışdır.

Şimali Abşeron sahilləri Xəzər dənizinin ən fəal sahil zonalarından hesab olunur. Abşeron sahillərinin iqlim zonası baxımından quru çöl zonasında yerləşir. Burada yay ayları isti, qış isə mülayim olur. Əraziya əsasən şimal-qərb küləkləri xasdır ki, bunlar da güclü dalğalanmalar yaradır. Nəticədə sahil yanı ərazilərdə eroziya prosesləri sürətlənir. Bu ərazilər abrazion xüsusiyyətlərə malikdir.

Abşeron sahillərinin bentik faunası tarixən geniş tədqiq edilməmişdir. Hal-hazırda bu ərazinin makrozoobentik faunasının araşdırılmasının elmi-praktiki önəmi böyükdür. Makrozoobentik orqanizmlər qida zəncirinin həlqəsini formalaşdıraraq, su hövzəsinin bioloji məhsuldarlığınına təsir edirlər. Bentik orqanizmlər filtrator kimi su tutarlarının çirklənmə indiqatoru rolunu da oynayırlar. Bu ərazilərə də uzun müddət ərzində təbii və antopogen amillər heç də az təsir etməmişdir. Ərazidə neft sənayesi ilə əlaqəli olaraq bəzi zonalar çirklənmişdir. Bu da bentik canlıların öyrənilməsinin əhəmiyyətini bir daha göstərir.

### Tədqiqatın obyekti və istifadə olunmuş metodlar

Hidrobioloji tədqiqatların məqsədi Abşeron sahilinin makrozoobentos faunasını və onun biomüxtəlifliyini araşdırmaqdır. Makrozoobentosun araşdırılması üçün etdiyimiz hidrobioloji tədqiqatlar Xəzər dənizinin Şimali Abşeron sahillərində qabaqcadan təyin etdiyimiz bioloji stansiyalarda aparılmışdır.

Nümunələri yığmaq üçün 16x25 sm ölçüsündə siyricdən və tor kəfkirdən istifadə edilmişdir. Nümunələr toplandıqdan dərhal sonra

qablaşdırılıb, yerindəcə spirtlə fiksə edilmiş və etiketləşdirilmişdir. Sonra materiallar laboratoriyaya gətirilmiş və burada toplanmış nümunələri torpaqdan ayırılır və qurudulur. Ardınca təyinat kitabları vasitəsi ilə növ tərkibi tədqiq edilmişdir. Tədqiqat zamanı əsas metodlardan biri olan Jadin metodundan sıx surətdə istifadə edimişdir [2].

**Nəticələr və onların müzakirəsi**

Xəzərin Abşeron sahilinin makrozoobentosunda 2024-ün payız və qışında, 2025-ci ilin isə bütün fəsillərində tədqiqatlar aparılmışdır və burada makrobentosa daxil olan 10 sistematik qrup aşkarlanmışdır. Belə ki, Şimali Abşeron sahilindən müxtəlif biotoplarda toplanmış bentik materialların təhlili zamanı Abşeron sahilinin makrozoobentosunda 2024-cu ildə 27 növ, 2025-ci ildə 72 növ, aşkar olunmuşdur.

Abşeron sahilində aşkar olunmuş növlərdən 2 növ bağırsaqboşluqlulara, 5 növ azqıllı qurdlara, 8 növ ikitayqapaqlı molyuskalara, 8 növ qarınayaqlı molyuskalara, 7 növ mizidlərə, 17 növ yanüzən xərçənglərə, 5 növ izopodlara, 2 növ onayaqlı xərçənglərə, 3 növ su gənələrinə, 3 növ xironomidlərə aid olmuşdur. Beləliklə, Abşeron Sahilinin makrozoobentosunda toplanmış bentik orqanizmlər arasında ən çox rast gəlmə tezliyi yanüzən xərçənglərin payına düşür (17 növ). Onlar makrozoobentosda təyin edilmiş növlərin 25,37%-ni təşkil etmişdir. Hər iki tədqiqat ilində də Abşeron sahilinin makrozoobentosunda növlərin sayı baxımından *Amphipoda* qrupu üstün mövqe tutmuşdur.




**Qrafik.** Xəzərin Abşeron sahilinin makrozoobentosunun əsas qrupları

2024-cü ilin qış və payız ayında makrozoobentosda 10 sistematik qrupa aid olan 27 növ canlı orqanizm aşkarlanmışdır. Belə ki, payızda 10 qrupun hamısına sahil ərazilərdə rastlansa da, qışda *Coelenterata*, *Oligochaeta*,

*İsopoda, Hydracarina* qrupları aşkar olunmamışdır. Ümumən yanüzən xərçənglər növ sayının çoxluğu ilə (7 növ) fərqlənmişlər. Bu tədqiqat ilində ikinci sırada qarınayqlı mollyuskalar və mizidlər gəlmişdir. Yerdə qalan qruplar isə 1-3 intervalında növ sayı ilə təmsil olunmuşlar.

**Cədvəl. 2024-2025-ci ildə makrozoobentosda qeyd olunan növlərin sayı və onların fəsillər üzrə yayılması**

| **İllər / Fəsillər** | **2024** | | | **2025** | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Qruplar | Növlərin sayı | Qış | Payız | Növlərin sayı | Qış | Yaz | Yay | Payız |
| *Coelenterata* | 1 | - | 1 | 2 | - | 1 | 1 | - |
| *Oligochaeta* | 2 | - | 2 | 5 | 2 | - | 2 | 1 |
| *Bivalvia* | 3 | 1 | 2 | 8 | 1 | 3 | 2 | 2 |
| *Gastropoda* | 4 | 2 | 2 | 12 | 1 | 3 | 5 | 3 |
| *Mysidacea* | 4 | 1 | 3 | 9 | 1 | 3 | 3 | 2 |
| *Amphipoda* | 7 | 3 | 4 | 21 | 2 | 7 | 9 | 3 |
| *İsopoda* | 1 | - | 1 | 5 | - | 2 | 2 | 1 |
| *Decapoda* | 2 | 1 | 1 | 3 | 1 | - | 2 | - |
| *Hydracarina* | 1 | - | 1 | 3 | - | 1 | 1 | 1 |
| *Chironomidae* | 2 | 1 | 1 | 4 | - | 2 | 2 | - |
| **Cəmi** | 27 | 9 | 18 | 72 | 8 | 22 | 29 | 13 |

2025-ci ildə tədqiqatlar bütün fəsillərdə aparılmışdır. Bu tədqiqatlar zamanı makrozoobentosda 72 növ aşkar olunmuşdur. Qış fəslində *Coelenterata, İsopoda, Hydracarina, Chironomidae* qrupları aşkar edilməmişdir. Yaz fəslində *Oligochaeta, Decapoda* qrupları aşkarlanmamışdır. Digər fəsillərlə müqayisədə qış növ sayının minimal olduğu fəsil olmuşdur. 2025-ci tədqiqat ilində də ötən illə oxşarlıq təşkil edərək yanüzən xərçənglər say çoxluğu ilə fərqlənmişlər, maksimal növ sayı isə yay fəslində (9 növ) olmuşdur. Say baxımından sonrakı yerdə qarınayaqlı mollyuskalar və mizidlər gəlir. Yerdə qalan qruplarda növ sayı isə 2-8 arasında dəyişiklik göstərmişdir.

***Ədəbiyyat***

1. *Ağamalıyev. F.Q., Əliyev. A.R., Süleymanova. İ.Ə., Məmmədova. A.Q. Hidrobiologiya, - Bakı – 2010, - 478 s.*
2. *Жадин В.И. Методика изучения донной фауны водоемов и экологии водных беспозвоночных. В кН.: Жизнь пресных вод СССР, –1956,т. 4, 1, – с. 279–382.*
3. *https://az.wikipedia.org/wiki/X%C9%99z%C9%99r_d%C9%99nizi*

**Abdullayeva G.Ş.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***abdullagunel2003@gmail.com***

# AZƏRBAYCANDA GƏNCLƏRİN NARKOTİK VASİTƏLƏRDƏN ASILILIĞININ BAŞLICA XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Azərbaycanda gənclər arasında narkotik vasitələrdən asılılıq əsasən psixoloji həssaslıq, sosial təzyiq və ətraf mühit təsirlərinin güclü olması ilə xarakterizə olunur. Yeniyetməlik dövründə emosional qeyri-stabillik və özünü təsdiq ehtiyacı gəncləri bu riskli davranışlara daha meyilli edir. Ailə nəzarətinin zəif olması, sosial-iqtisadi çətinliklər və informasiya mühitində yanlış təsəvvürlər də asılılığın formalaşmasını sürətləndirir. Eyni zamanda, gənclərin bir qismi narkotik istifadəni stressdən qaçış və ya müvəqqəti "rahatlıq" vasitəsi kimi qəbul edir. Bu faktorların birləşməsi narkotikdən asılılığın artmasına, sosial adaptasiya və sağlamlıq problemlərinin dərinləşməsinə səbəb olur.*

# ОСНОВНЫЕ ОСОБЕННОСТИ НАРКОЗАВИСИМОСТИ СРЕДИ МОЛОДЕЖИ В АЗЕРБАЙДЖАНЕ

***Резюме***

*Наркозависимость среди молодежи в Азербайджане характеризуется повышенной психологической уязвимостью, социальным давлением и сильным влиянием окружающей среды. Эмоциональная нестабильность в подростковом возрасте и стремление к самовыражению делают молодых людей более склонными к рискованному поведению. Слабый семейный контроль, социально-экономические трудности и распространённые мифы о наркотиках также ускоряют формирование зависимости. Кроме того, часть молодежи воспринимает наркотики как способ уйти от стресса или получить временное «облегчение». Сочетание этих факторов приводит к росту зависимости, ухудшению социальной адаптации и проблемам со здоровьем.*

# MAIN CHARACTERISTICS OF DRUG ADDICTION AMONG YOUTH IN AZERBAIJAN

***Summary***

*Drug addiction among youth in Azerbaijan is primarily characterized by high psychological vulnerability, social pressure, and strong environmental influences. Emotional instability during adolescence and the desire for self-affirmation make young people more prone to risky behaviors. Weak family supervision, socio-economic difficulties, and misinformation about drugs further accelerate the development of addiction. Many young people also view drug use as a way to escape stress or*

*experience temporary relief. The combination of these factors contributes to increasing dependency, poor social adaptation, and serious health issues.*

***Açar sözlər:*** *gənclər, narkotik asılılığı, sosial təsirlər, psixoloji həssaslıq, risk davranışları, ailə nəzarəti*
***Ключевые слова:*** *молодёжь, наркозависимость, социальные факторы, психологическая уязвимость, рискованное поведение, семейный контроль*
***Key words:*** *youth, drug addiction, social influences, psychological vulnerability, risky behavior, family supervision*

Azərbaycanda gənclər arasında narkotik vasitələrdən asılılıq müasir dövrdə cəmiyyətin sosial və mənəvi təhlükəsizliyini təhdid edən əsas problemlərdən biri kimi çıxış edir. Qloballaşma, informasiya mühitinin təsirləri və sosial-iqtisadi faktorların kəskinləşməsi gənclərin riskli davranışlara meylini artırır. Bu proses həm fərdi psixoloji həssaslıq, həm də sosial mühitin təsiri ilə formalaşaraq asılılığın daha da yayılmasına səbəb olur. Mövzunun aktuallığı, problemin miqyasının genişlənməsi və gənclərin gələcək inkişafına ciddi təsiri bu məsələnin dərindən araşdırılmasını zəruri edir.

Narkotikdən istifadə edilməsinin başlanğıcında, sui-istifadə olunmasında və ya asılılığında bir sıra risk faktoru mövcud olub onlar arasında şəxsiyyət, sosial, iqtisadi, irsi, bioloji və s. amillər sayıla bilər. Bu da insanın vacib bir risk faktoru daşıması xəstəliyin meydana gəlmə potensialını artırır. Fərdi risk faktorlarının fərqli kombinasiyası bu faktorların şiddət və təbiətindən yaranan müxtəlif şiddətin mənfi nəticələrinin yaranmasına gətirib çıxarır. Burada sosial-mədəni və ekoloji faktorlar, ailə faktoru, psixoloji faktorlar, dost qrupu faktoru, şəxsiyyət faktoru, narkotik maddənin əlçatarlılığı faktoru, imitasiya faktoru, narazılıq və başıboşluq faktoru, mənəvi boşluq faktoru, biogenetik faktor, narkotik maddəyə aid reklam faktoru,ticari mənfəət faktoru, digər xəstəliklər faktoru, digər faktorlar bütün təəssüratı ilə nəzərdən keçirilir, narkotik maddədən istifadədə xüsusi submədəniyyətin formalaşması vurğulanır [2, səh. 21].

Həkimlər bildirirlər ki, Azərbaycan hökümətinin narkotik istifadəçilərinin sayını göstərən rəqəmləri real vəziyyəti tam əks etdirmir və hazırkı resurslar problemin qarşısını almaq üçün kifayət etmir. Ölkədə əsas narkotik problemi Əfqanıstandan gələn heroinlə bağlıdır; Azərbaycan Rusiyaya və Avropaya gedən qaçaqmalçılıq marşrutunda yerləşdiyi üçün bu maddələr burada daha asan, əlçatan olur və nəticədə yerli istifadə də artır. Keçmiş baş narkoloq Araz Əliquliyev deyir ki, Sovet İttifaqı dağılandan sonra sərhəd nəzarətinin zəifləməsi narkotik asılılığının geniş yayılmasına gətirib çıxardı. Dövlət Komissiyası isə ölkədə cəmi 25 min narkotik istifadəçisinin olduğunu bildirir, lakin mütəxəssislər real rəqəmin bundan xeyli yüksək olduğunu vurğulayırlar. Afət Məmmədovanın sözlərinə görə, rəsmi statistika yalnız

müalicə alan və ya məcburi müalicəyə göndərilən şəxsləri əhatə edir, halbuki heç bir müalicə almayan və ya qeyri-rəsmi şəkildə müalicə olunan istifadəçilərin sayı daha çoxdur [3].

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin məlumatına görə, 2024-cü ildə ölkədə qeydə alınmış **33 379 cinayət işinin 8 863-ü** (yəni **26,6%**) narkotik və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı olub. Bu göstərici 2023-cü illə müqayisədə **11,9% azdır**. Bu cinayətlərin **63,2%-i** narkotik vasitələrin şəxsi istifadədən artıq miqdarda, lakin satış məqsədi olmadan qanunsuz əldə edilməsi, saxlanması və daşınması ilə bağlıdır. **33,3%-i** satış məqsədilə eyni hərəkətləri, həmçinin narkotiklərin hazırlanması və qanunsuz satılmasını əhatə edir. **2,6%-i** tərkibində narkotik olan bitkilərin qanunsuz əkilməsi, **0,9%-i** isə güclü təsirli və zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə bağlıdır.

Hesabat dövründə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı **7 245 nəfər** saxlanılıb və onların **36,3%-i** əvvəl də məhkum olunmuş şəxslərdir. Bu rəqəm ötən ilin müvafiq dövrü ilə müqayisədə **15,1% azdır**. Saxlanılanların **99%-i** cinayət məsuliyyətinə cəlb olunub, **1%-i** isə qanuna uyğun olaraq məsuliyyətdən azad edilib. Təqsirkarların **68,6%-i** əmək qabiliyyətli yaşda olub, lakin heç yerdə işləməyib və oxumayıb. **3,1%-i** qadınlar, **0,1%-i** 14–17 yaşlı uşaqlar, **7,4%-i** 18–24 yaşlı gənclər, **14,8%-i** 25–29 yaş aralığında olan şəxslər və **77,7%-i** 30 yaşdan yuxarı şəxslərdir.

2024-cü ildə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı **2 420 inzibati xətə** də qeydə alınıb və onların **96-sı** qadınlar tərəfindən törədilib. Həmin il qanunsuz dövriyyədən ümumilikdə **9 330,9 kiloqram** narkotik, psixotrop maddə, prekursor və narkotik tərkibli bitkilər müsadirə edilib. Bu, əvvəlki illə müqayisədə **47,1% çoxdur**. Müsadirə olunan maddələrin **5 634,4 kiloqramı** marixuana, **2 688,9 kiloqramı** ölkə ərazisində yetişdirilmiş narkotik tərkibli bitkilər, **554,2 kiloqramı** heroin, **217,5 kiloqramı** psixotrop maddələr (onun **216,5 kiloqramı** metamfetamindir), **217,5 kiloqramı** isə haşiş və onun törəmələridir. **11,8 kiloqram** isə digər narkotik və güclü təsir edən maddələrdir [4].

Son illərdə dünyanın bütün ölkə və regionları, müxtəlif formaları ilə sürətlə yayılan transmilli mütəşəkkil cinayətkarlığın hökm sürdüyü müasir şəraitdə, narkotiklərin qanunsuz dövriyyəsinin geniş yayılması ilə üzləşir. Bu vəziyyət narkomaniyanı bəşəriyyətin ən ciddi qlobal problemlərindən birinə çevirib. Qloballaşan dünyada hər bir ölkənin təhlükəsizliyi üçün böyük ictimai təhlükə yaradan əsas məsələlərdən biri də yetkinlik yaşına çatmayanlar arasında narkotik asılılığının və narkotik, psixotrop maddələrin qanunsuz dövriyyəsinin sürətlə yayılmasıdır.

Məsələn, təkrar və geniş miqyasda törədilən, əvvəlcədən planlaşdırılan və bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən həyata keçirilən cinayətlər,

qulluq vəzifəsindən sui-istifadə etməklə törədilən əməllər, həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiqi və ya zor tətbiqi hədəsi ilə törədilən hallar, qəsdən yetkinlik yaşına çatmayanlara qarşı törədilən cinayətlər, iki və ya daha çox şəxsə qarşı törədilən əməllər, kütləvi informasiya vasitələrindən, internet resurslarından və telekommunikasiya şəbəkələrindən istifadə edilməklə edilən qanunsuz hərəkətlər, narkotik və psixotrop maddələrin yetkinlik yaşına çatmayanlara satılması, narkotiklə bağlı əməllərin təhsil və tibb müəssisələrində, həmçinin cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında törədilməsi bu problemə aid nümunələr kimi göstərilə bilər [1, səh. 15].

Narkotik vasitələrin istifadəsi ilkin mərhələdə gizli qalsa da, zaman keçdikcə bir sıra əlamətlərlə özünü göstərir. Bu əlamətlər arasında yuxusuzluq, əsəbilik, sürətli arıqlama və davranışda lənglik xüsusilə diqqət çəkir. 01 may 2025-ci il tarixində Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzində qeydiyyatda olan şəxslərin sayı **41 231 nəfər** təşkil edir. Qeydiyyatda olan şəxslərdən **1 042 nəfəri qadındır**.

Respublika Narkoloji Mərkəzinin baş direktoru Fəzail Sadıqov bildirib ki, narkotik vasitələrə qarşı psixoloji asılılıq ilkin mərhələdə yaranır, fiziki asılılıq isə adətən **2-3 həftəlik istifadədən sonra** müşahidə olunur. Onun sözlərinə görə, valideynlər övladlarını diqqətlə izləməlidirlər, çünki narkotik istifadəsi zamanı ünsiyyət problemləri dərhal özünü göstərir. İlk simptomlar arasında stres, əsəbilik, sosial təcrid və yuxusuzluq xüsusi əhəmiyyət daşıyır. Bundan əlavə, istifadə olunan maddənin növündən asılı olaraq normadan artıq danışmaq, yersiz hərəkətlər, sayıqlama, hallüsinasiya və tez-tez qıcıqlanma halları da müşahidə oluna bilər. Direktor qeyd edib ki, yeniyetmələrdə davranış pozuntuları daha tez və daha aydın şəkildə özünü göstərir, bu səbəbdən valideynlərin və müəllimlərin erkən mərhələdə diqqətli olmaları həyati əhəmiyyət kəsb edir [5].

“Bir dəfə istifadə etmək heç nəyi dəyişməz” ifadəsi bir çox insanın həyatını alt-üst edən, amma əslində təhlükənin ilk addımıdır. Narkotik asılılığına aparan yol da məhz bu “bir dəfə” ilə başlayır və nəticəsi çox vaxt fəlakətlə bitir. Emil Maqalov, Regional Sosial Təşəbbüsləri Dəstəkləyən İctimai Birliyin sədri və narkotik eksperti bildirib ki, dünyada narkomaniyadan əziyyət çəkənlərin təxminən **70%-i gənclərdir**. Rəsmi statistikaya görə, 2023-cü ildə dünyada 430 milyon nəfər narkoman kimi qeydiyyata alınıb, amma həqiqi rəqəm bundan ən azı 10 dəfə çoxdur.

Azərbaycanda vəziyyət bir qədər yaxşılaşsa da, narkotik istifadəsi müəyyən mənada “normallaşıb”. Xüsusilə metamfetamin (“şuşa”, “patı”) gənclər üçün daha əlçatan olub. Sosial media və bəzən təhsil tədbirləri belə gənclərə təhlükəli nümunələri maraqlı və normal kimi göstərir. Emil Maqalov qeyd edir ki, gənclər arasında “istifadə et, sonra pulunla sağalarsan” kimi

yanlış fikirlər dolaşır. Əslində, narkotik asılılığını yalnız maliyyə ilə aradan qaldırmaq mümkün deyil, çünki bu maddələr kimyəvi tərkiblidir və asılılıqdan qurtulmaq çox çətindir [6].

**Nəticə**

Azərbaycanda gənclər arasında narkotik istifadəsi həm fərdi, həm də sosial-mədəni faktorların təsiri ilə geniş yayılmış ciddi problemdir. Qloballaşma, informasiya mühiti və sosial-iqtisadi amillər gənclərin riskli davranışlara meylini artırır. Ölkədə narkotik vasitələrin əlçatanlığı, xüsusilə qaçaqmalçılıq marşrutları üzərində yerləşməsi, problemin genişlənməsinə səbəb olur. Rəsmi statistika real vəziyyəti tam əks etdirməsə də, qanunsuz dövriyyə və istifadə halları hələ də yüksəkdir. İlkin mərhələdə narkotik istifadəsi gizli qalsa da, yuxusuzluq, əsəbilik və davranış pozuntuları ilə özünü göstərir. Erkən müdaxilə və valideynlərin, müəllimlərin diqqəti bu problemin qarşısını almaqda həyati əhəmiyyət daşıyır. Nəticə etibarilə, narkotik asılılığı gənclərin sağlamlığı və cəmiyyətin təhlükəsizliyi üçün ciddi təhdid təşkil edir.

***Ədəbiyyat***

1. *İllegal Trafficking of narcotic drugs and psychotropic substances among minnors : a criminal – legal and criminology analysis. Vasif Salman Guliyev.*
2. *Gənçlərdə narkotik asılılıq sosial problem kimi (Van şəhərinin timsalında). Yılmayan Adil Mehmet Nuh oğlu. Bakı – 2025.*
3. *https://iwpr.net/global-voices/azerbaijans-hidden-drug-problem*
4. *https://www.stat.gov.az/news/index.php?id=6207&lang=en&utm_source=chatgpt.com*
5. *https://az.trend.az/azerbaijan/society/4053203.html*
6. *https://azedu.az/en/news/98826/70-percent-of-drug-users-are-young-people-interview/*

**Ayibova S.Z.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sabinaayibova@gmail.com***

# GƏNCLƏR SİYASƏTİNİ HƏYATA KEÇİRƏN DÖVLƏT ORQANLARININ STATUSUNUN TƏHLİLİ VƏ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Xülasə***

*Gənclər siyasətini həyata keçirən dövlət orqanlarının statusunun təhlili və fəaliyyətin təkmilləşdirilməsi" mövzusu Azərbaycanda gənclər siyasətinin institusional əsaslarını araşdırır. Dövlət gənclər siyasətini həyata keçirən əsas qurum Gənclər və İdman Nazirliyidir. Gənclərin sosial və innovativ layihələri Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən maliyyələşdirilir. Regional Gənclər Mərkəzləri gənclərin yerli səviyyədə inkişafına və iştirakçılığına dəstək verir. ASAN könüllüləri modeli gənclərin dövlət xidmətlərinə cəlb olunmasını və sosial fəallığını artırır. NAYORA gənclər təşkilatlarını birləşdirir və onların dövlət siyasətinə təsir imkanlarını gücləndirir. Bu qurumların fəaliyyətinin təkmilləşdirilməsi gənclərin cəmiyyətə inteqrasiyasını və dövlət gənclər siyasətinin effektivliyini yüksəldir.*

# АНАЛИЗ СТАТУСА ГОСУДАРСТВЕННЫХ ОРГАНОВ, ОСУЩЕСТВЛЯЮЩИХ МОЛОДЁЖНУЮ ПОЛИТИКУ И СОВЕРШЕНСТВОВАНИЕ ИХ ДЕЯТЕЛЬНОСТИ

***Резюме***

*Тема «Анализ статуса государственных органов, осуществляющих молодежную политику, и совершенствование их деятельности» изучает институциональные основы молодежной политики в Азербайджане. Основным органом, реализующим государственную молодежную политику, является Министерство молодежи и спорта. Социальные и инновационные проекты молодежи финансируются Фондом молодежи Азербайджанской Республики. Региональные молодежные центры поддерживают развитие и участие молодежи на местном уровне. Модель волонтёров ASAN способствует вовлечению молодежи в предоставление государственных услуг и повышает социальную активность. NAYORA объединяет молодежные организации и усиливает их возможности влиять на государственную политику. Совершенствование деятельности этих структур способствует интеграции молодежи в общество и повышает эффективность государственной молодежной политики.*

# ANALYSIS OF THE STATUS OF STATE BODIES IMPLEMENTING YOUTH POLICY AND IMPROVEMENT OF THEIR ACTIVITIES

***Summary***

*The topic "Analysis of the status of state bodies implementing youth policy and improvement of their activities" explores the institutional foundations of youth policy in Azerbaijan. The main body responsible for implementing state youth policy is the Ministry of Youth and Sports. Social and innovative projects of young people are funded by the Azerbaijan Youth Foundation. Regional Youth Centers support the local-level development and participation of young people. The ASAN Volunteers model increases youth engagement in public services and enhances social activism. NAYORA unites youth organizations and strengthens their ability to influence state policy. Improving the activities of these institutions enhances youth integration into society and increases the effectiveness of state youth policy.*

***Açar sözlər:*** *gənclər siyasəti, Gənclər və İdman Nazirliyi, Azərbaycan Gənclər Fondu, Regional Gənclər Mərkəzləri, ASAN könüllüləri, NAYORA*

***Ключевые слова:*** *молодежная политика, Министерство молодежи и спорта, Фонд молодежи Азербайджана, Региональные молодежные центры, волонтёры ASAN, NAYORA*

***Key words:*** *youth policy, Ministry of Youth and Sports, Azerbaijan Youth Foundation, Regional Youth Centers, ASAN Volunteers, NAYORA*

Dövlət gənclər siyasəti – gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Dövlət gənclər siyasəti müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumları tərəfindən həyata keçirilir [1].

Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsi bir neçə əsas institut tərəfindən təmin olunur. Bu sahədə əsas icraedici qurum Gənclər və İdman Nazirliyidir və o, dövlət gənclər siyasətinin hazırlanması və icrasına rəhbərlik edir. Gənclərin layihələrinin maliyyə dəstəyi isə Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən həyata keçirilir. Regionlarda gənclərlə işin yerli səviyyədə təşkili Regional Gənclər Mərkəzləri vasitəsilə aparılır. Eyni zamanda, gənclər təşkilatlarının iştirakını təmin edən platforma kimi **Azərbaycan Gənclər Təşkilatları Milli Şurası** (ARGTMŞ) dövlət siyasətinin qeyri-hökumət tərəfdaşı rolunda çıxış edir. Bu qurumlarla paralel olaraq ASAN könüllülük modeli gənclərin sosial fəallığını artıran müasir mexanizm kimi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli, 179 saylı fərmanı və

Azərbaycan Respublikası Milli Məclisinin 26 iyul 1994-cü il tarixli, 861 saylı qərarı ilə yaradılmışdır. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ölkədə gənclər və idman siyasətinin həyata keçirilməsində aparıcı dövlət orqanıdır. Nazirliyin əsas məqsədi gənclərin fiziki, mənəvi və intellektual inkişafını təmin etmək, sağlam həyat tərzini təşviq etmək və idmanın kütləvi və peşəkar səviyyədə inkişafına dəstək verməkdir. Nazirliyin fəaliyyət prinsipləri arasında gənclərin hüquq və azadlıqlarının təmin olunması, cəmiyyətə inteqrasiyasının təşviqi, idmanın inkişaf etdirilməsi, sağlam həyat tərzinin təşviqi, beynəlxalq əməkdaşlıq və gənclərin sosial, təhsil və məşğulluq sahəsində dəstəklənməsi yer alır. Nazirliyin idarəetmə strukturu mərkəzi aparat və regional idarələrdən ibarətdir. Mərkəzi aparat nazir, nazir müavinləri, baş idarə və şöbə rəhbərləri tərəfindən idarə olunur, regionlarda isə Gənclər və İdman İdarələri fəaliyyət göstərir. Nazirliyin strukturunda Gənclərlə İş, İdman, Beynəlxalq Əlaqələr və Analitik-Hüquqi Sənədlər şöbələri kimi ixtisaslaşmış bölmələr mövcuddur. Bu struktur nazirliyə ölkədə gənclər və idman siyasətini sistemli və effektiv şəkildə həyata keçirməyə imkan verir [2].

Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 7 iyun 2011-ci il tarixli 1621 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının 6.1.4-cü yarımbəndinə əsasən Gənclərlə iş sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və infrastrukturun inkişafı üçün Fondun yaradılması nəzərdə tutulmuşdur.

Dövlət Proqramına əsasən Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 19 dekabr tarixli 542 nömrəli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yanında Gənclər Fondu yaradılmışdır.

Azərbaycan Respublikasının Gənclər Fondu, gənclər siyasətini dəstəkləyən və gənclərin elm, təhsil, mədəniyyət və sosial layihələrini maliyyələşdirən publik hüquqi şəxsdir. Fond fəaliyyətində Azərbaycan qanunlarını, Prezident fərmanlarını və digər normativ aktları rəhbər tutur, dövlət və qeyri-dövlət təşkilatları ilə əməkdaşlıq edir.

Fondun məqsədi gənclərin inkişafına dəstək vermək, onların sosial və mədəni təşəbbüslərini təşviq etməkdir. Bu məqsədlə o, qrantlar verir, layihələr təşkil edir, konfrans, seminar, festival və olimpiadaları dəstəkləyir. Fond həmçinin gənclərin məşğulluğu, təhsil və innovativ layihələrini maliyyələşdirir.

İdarəetmə strukturu Müşahidə Şurası və İcraçı direktor tərəfindən həyata keçirilir. Müşahidə Şurası ümumi rəhbərliyi təmin edir, illik hesabatları təsdiq edir və strategiyanı müəyyənləşdirir. İcraçı direktor isə Fondun gündəlik fəaliyyətinə rəhbərlik edir, layihələrin icrasını və vəsaitlərin səmərəli istifadəsini təmin edir.

Azərbaycan Respublikasının Gənclər Fondu, gənclərin inkişafı və dövlət gənclər siyasətinin həyata keçirilməsində əsas rol oynayır, onların cəmiyyətdə aktiv vətəndaş kimi formalaşmasına dəstək verir [3].

Azərbaycanın regional gənclər mərkəzləri 2000-ci illərin əvvəllərindən etibarən gənclərin sosial, intellektual və peşə inkişafını dəstəkləmək məqsədilə fəaliyyət göstərir. Bu mərkəzlərin əsas vəzifəsi gənclərin müxtəlif layihələrdə iştirakını təmin etmək, onların təşəbbüskarlığını inkişaf etdirmək və regionlarda dövlət gənclər siyasətinin həyata keçirilməsinə töhfə verməkdir. Tarixi boyunca regional mərkəzlər gənclərin təlim, forum və könüllü fəaliyyətlərinə dəstək olmuş, bir çox uğurlu sosial və təhsil layihələrini reallaşdırmışdır. Lakin fəaliyyətin effektivliyinin artırılması üçün idarəetmə strukturunun optimallaşdırılması, maliyyə dayanıqlığının gücləndirilməsi və gənclərin iştirakçılıq imkanlarının genişləndirilməsi vacibdir. Bu təkmilləşdirmələr mərkəzlərin regional təsirini artırmaqla yanaşı, Azərbaycanın gənclik strategiyasının davamlı və inklüziv inkişafına da mühüm töhfə verə bilər [4].

2012-ci ildə Azərbaycan Respublikasında dövlət xidmətlərinin təşkili çərçivəsində yaranan "ASAN Könüllüləri" hərəkatı ölkədə gənclərin ictimai fəaliyyətə cəlb edilməsində önəmli rol oynayır. "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması ilə eyni vaxtda formalaşan bu hərəkat, gəncləri sosial, mədəni və təhsil sahələrində aktiv iştirak etməyə təşviq etmişdir. 2023-cü ildə hərəkatın 10 illiyi qeyd olunaraq, dövlətin gənclər siyasətində könüllülüyə verdiyi önəmi bir daha vurğulamışdır [5].

ASAN könüllüləri Dövlət Agentliyi çərçivəsində fəaliyyət göstərir və minlərlə gənci birləşdirir. Hərəkatın layihələri sosial aksiyalar, mədəni tədbirlər və beynəlxalq proqramları əhatə edir. Dövlət platformaları, o cümlədən "ASAN Kadr", "ASAN Məktub" və "Yaşıl ASAN", könüllülərin müxtəlif sahələrdə iştirakına və təcrübə qazanmasına imkan yaradır. Bu platformalar vasitəsilə gənclər dövlət strukturlarında peşə bacarıqlarını inkişaf etdirir, layihələrdə aktiv iştirak edərək həm özünü, həm də cəmiyyəti faydalı fəaliyyətə cəlb edirlər.

Hərəkatın fəaliyyət sahəsi yalnız sosial aksiyalarla məhdudlaşmır. Könüllülər dövlət xidmətlərinin göstərilməsində dəstək verir, təlimlərdə iştirak edir və cəmiyyət üçün faydalı layihələr həyata keçirirlər. "ASAN Kadr" portalı vasitəsilə gənclər həm iş imkanları əldə edir, həm də dövlət orqanlarında təcrübə toplayırlar. Bu, hərəkatın strateji əhəmiyyətini və dövlət xidmətlərinin səmərəliliyinə verdiyi töhfəni artırır.

ASAN könüllülük hərəkatının mövcud statusu göstərir ki, dövlət dəstəyi, resursların təminatı və könüllülərin peşə inkişafı imkanları onun əsas güclü tərəflərindəndir. Lakin hərəkatın təsirini daha da artırmaq üçün maliyyə dayanıqlığının gücləndirilməsi, könüllülük layihələrinin effektivliyini ölçən

sistemlərin yaradılması, gənclərin iştirakını artırmaq üçün əlavə proqramların inkişafı və liderlik, sosial layihə idarəçiliyi üzrə təlimlərin təşkili tövsiyə olunur.

ASAN könüllülük hərəkatı Azərbaycanda dövlət və gənclik siyasətinin inteqrasiya olunmuş modelidir. Onun strukturlaşmış fəaliyyəti, dövlət xidmətlərinin təkmilləşdirilməsinə verdiyi töhfə və gənclərin peşə inkişafına yaratdığı imkanlar hərəkatı dayanıqlı və yüksək statuslu təşəbbüs edir. Təklif olunan təkmilləşdirmələr isə hərəkatın təsir gücünü daha da artıracaq və gələcəkdə davamlılığını təmin edəcək.

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (NAYORA) 1995-ci ildə 11 gənclər təşkilatı tərəfindən təsis olunmuş və o vaxtdan bəri ölkədə gənclər təşkilatları arasında vahid koordinasiya mərkəzi kimi fəaliyyət göstərir. Onun yaradılmasında əsas məqsəd gənclərin cəmiyyətdə fəal iştirakını təmin etmək, sosial inteqrasiyanı artırmaq və gənclər təşkilatlarının fəaliyyətini birləşdirərək ümummilli məsələlərdə həmrəyliyi gücləndirmək olub.

NAYORA-nın strukturu üzvlərin birliyi əsasında formalaşır və Məclis, Qurultay, Mərkəzi Nəzarət-Təftiş Komissiyası və Bürodan ibarətdir. Məclis qurultaylararası dövrdə qərarverici orqandır, Büro isə gündəlik icra işlərini həyata keçirir. Baş katib tərəfindən idarə olunan Katiblik müxtəlif sahələr üzrə fəaliyyət göstərən katibləri birləşdirir və bu quruluş Şuranın fəaliyyətinin şəffaf və səmərəli olmasını təmin edir [6].

Şura gənclər təşkilatlarının maraqlarını həm milli, həm də beynəlxalq səviyyədə təmsil edir, onların sosial, mədəni və vətəndaş təşəbbüslərini əlaqələndirir. Üzv təşkilatlarla birgə həyata keçirilən layihələr gənclərin liderlik bacarıqlarının inkişafına, ictimai fəallığın artırılmasına və gənclər siyasətinin formalaşmasına töhfə verir. Dövlətlə olan sıx əməkdaşlıq NAYORA-nın gənclər siyasətində əsas partnyor rolunu gücləndirir və gənclərin səsini daha effektiv çatdırır.

Şuranın fəaliyyətinin daha da gücləndirilməsi üçün resurs bazasının artırılması, gənclərin iştirakını təmin edən təlim və layihələrin təşkili, həmçinin regionlarda aktiv strukturların yaradılması vacibdir. Bu addımlar NAYORA-nın təsir gücünü yüksəldərək gənclərin cəmiyyətə inteqrasiyasını daha da artırar.

## Nəticə

Azərbaycan Respublikasında gənclər siyasəti çoxşaxəli və sistemli yanaşma əsasında həyata keçirilir. Gənclər və İdman Nazirliyi ölkədə gənclərin fiziki, mənəvi və intellektual inkişafını dəstəkləyərək onların sağlam həyat tərzi və idman fəaliyyətlərinə cəlb olunmasını təmin edir. Gənclər Fondu gənclərin sosial, mədəni və təhsil sahəsində layihələrini maliyyələşdirərək təşəbbüskarlığını təşviq edir. Regional Gənclər Mərkəzləri isə gənclərin müxtəlif layihələrdə iştirakını təmin edərək onların potensialını inkişaf etdirir.

ASAN könüllülük hərəkatı ölkədə gənclərin ictimai və sosial fəaliyyətini gücləndirir, dövlət platformaları vasitəsilə peşə bacarıqlarının və liderlik qabiliyyətlərinin formalaşmasına dəstək verir. Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (NAYORA) gənclər təşkilatlarını birləşdirərək onların fəaliyyətini koordinasiya edir və həm milli, həm də beynəlxalq səviyyədə nümayəndəliyini təmin edir. Bu qurumların fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün resurs bazasının genişləndirilməsi, layihə və təlim proqramlarının artırılması, həmçinin regionlarda aktiv strukturların inkişaf etdirilməsi vacibdir. Sistemli və koordinasiyalı yanaşma gənclərin cəmiyyətə inteqrasiyasını, ictimai fəallığını və vətəndaş məsuliyyətini gücləndirir. Strukturlaşmış fəaliyyət gənclərin öz bilik və bacarıqlarını reallaşdırmasına imkan yaradır və dövlət gənclər siyasətinin effektiv həyata keçirilməsini təmin edir. Nəticədə, bu qurumlar və hərəkatlar Azərbaycanın gənclik strategiyasının davamlı, inklüziv və cəmiyyət üçün faydalı şəkildə inkişafında həlledici əhəmiyyət kəsb edir.

***Ədəbiyyat***

1. *https://xidmet-is.az/fealiyyet-istiqametleri/gencler-siyaseti/10-gencler-siyaseti/*
2. *https://qebulol.az/az%C9%99rbaycan-respublikasinin-g%C9%99ncl%C9%99r-v%C9%99-idman-nazirliyi-siyas%C9%99ti-inkisafi/*
3. *https://president.az/az/articles/view/27310*
4. *https://gikm.az/*
5. *https://asan.gov.az/media/press-releases/asan-koenuellueleri-teskilatinin-10-yasi-qeyd-edilib*
6. *https://nayora.az/az/struktur*

**Babayeva F.F.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***firuza1297@gmail.com***

# MƏKTƏB İDARƏETMƏSİNDƏ METODOLOJİ YANAŞMALAR VƏ ONLARIN TƏHSİL KEYFİYYƏTİNƏ TƏSİRİ

***Xülasə***

*Məqalədə müasir dövrdə təhsil müəssisələrinin idarə olunmasında metodoloji yanaşmaların rolu və əhəmiyyəti araşdırılır. Təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsində idarəetmə modellərinin elmi əsaslara söykənməsi, sistemli və innovativ qərarvermə mexanizmlərinin tətbiqi xüsusi vurğulanır. Müəllif idarəetmə prosesində səmərəliliyi artıran amillər – strateji planlaşdırma, pedaqoji rəhbərlik, müəllim fəaliyyətinin motivasiyası və kommunikasiya mədəniyyəti kimi istiqamətləri təhlil edir. Məqalə nəticə etibarilə metodoloji yanaşmaların təhsil sistemində davamlı inkişafın təmin olunmasında və məktəb mühitinin keyfiyyətinin yüksəldilməsində həlledici rol oynadığını göstərir.*

# МЕТОДОЛОГИЧЕСКИЕ ПОДХОДЫ В УПРАВЛЕНИИ ШКОЛОЙ И ИХ ВЛИЯНИЕ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

***Резюме***

*В статье рассматривается роль и значение методологических подходов в современном управлении школой. Подчеркивается, что повышение качества образования требует применения управленческих моделей, основанных на научных принципах, системности и инновационных механизмах принятия решений. Автор анализирует факторы, повышающие эффективность управления: стратегическое планирование, педагогическое лидерство, мотивацию учителей и культуру коммуникации. В результате отмечается, что методологические подходы играют решающую роль в обеспечении устойчивого развития системы образования и повышении качества школьной среды.*

# METHODOLOGICAL APPROACHES IN SCHOOL MANAGEMENT AND THEIR IMPACT ON THE QUALITY OF EDUCATION

***Summary***

*The article explores the role and importance of methodological approaches in modern school management. It emphasizes that improving the quality of education requires management models based on scientific principles, systematic organization, and innovative decision-making mechanisms. The author analyzes key factors enhancing management efficiency, such as strategic planning, pedagogical*

*leadership, teacher motivation, and effective communication culture. The study concludes that methodological approaches play a decisive role in ensuring sustainable development within the education system and in improving the overall quality of the school environment.*

***Açar sözlər:*** *idarəetmə, metodologiya, təhsil keyfiyyəti, strateji yanaşma, innovativ idarəetmə*
***Ключевые слова:*** *управление школой, методология, качество образования, руководство, инновации, цифровые технологии, управление*
***Key words:*** *school management, methodology, education quality, leadership, innovation, digital transformation, governance*

Təhsil müəssisələrinin idarə edilməsi hər bir ölkənin sosial-iqtisadi və mədəni inkişafının vacib elementlərindən biridir. Məktəb idarəetməsi yalnız inzibati və təşkilati proseslərdən ibarət deyil, həm də pedaqoji fəaliyyətin, innovasiyaların, sosial münasibətlərin və strateji qərarvermə mexanizmlərinin birləşdiyi çoxşaxəli bir sistemdir [6, s.22]. Müasir dövrdə təhsil sahəsindəki dəyişikliklər və qloballaşma prosesi idarəetmənin ənənəvi formalarının kifayət etmədiyini göstərir [1, s.5]. Bu baxımdan idarəetməyə metodoloji yanaşma yeni strateji baxışın formalaşmasına imkan verir [4, s.33].

**Məktəb idarəetməsinin metodoloji əsaslarının nəzəri mahiyyət**

Metodologiya anlayışı idarəetmədə qərarvermə və fəaliyyət prinsiplərinin elmi əsaslara söykənməsini təmin edən bir sistemdir [4, s.15]. Məktəb idarəetməsində metodoloji yanaşma idarəetmənin məqsəd, vəzifə və funksiyalarını aydınlaşdırır, idarəetmə prosesində ardıcıllıq, çeviklik və nəticəyönümlülük yaradır [3, s.27]. Bu yanaşmalar sistemlilik, elmililik, fəallıq, strateji yönümlülük və innovativlik prinsiplərinə əsaslanır [6, s.41].

**Məktəb idarəetməsində ənənəvi və müasir metodoloji modellərin müqayisəsi**

Ənənəvi idarəetmə modelləri əsasən inzibati-nəzarət funksiyalarına əsaslanır [3, s.52]. Müasir metodoloji modellər isə idarəetməni paylaşılmış məsuliyyətə əsaslanan kollegial prosesə çevirir [2, s.18].

Ənənəvi modelin xüsusiyyətləri:
- Yuxarıdan-aşağıya idarəetmə;
- Mərkəzləşdirilmiş qərarvermə;
- Az elastiklik;
- Şəxsi təşəbbüsün məhdudluğu.

Müasir metodoloji modelin xüsusiyyətləri:
- Komanda yönümlü qərarvermə;
- Müəllim və valideynlərin aktiv iştirakı;
- Strateji planlaşdırma;
- İnnovativ idarəetmə texnologiyalarının tətbiqi [7, s.60];
- Daxili motivasiyanın yüksəldilməsi.

Ənənəvi və müasir modellərin müqayisəsi göstərir ki, ənənəvi yanaşma idarəetmədə daha çox mərkəzləşmə, nəzarət və sərt intizam prinsiplərinə əsaslanır. Bu modeldə qərarlar əsasən rəhbər tərəfindən qəbul olunur və müəllimlərin, şagirdlərin iştirakı məhduddur. Müasir model isə çeviklik, əməkdaşlıq, motivasiya və kommunikasiya üzərində qurulur; qərarvermə prosesində bütün iştirakçıların – müəlim, şagird və valideynlərin – fəal iştirakı təmin olunur.

Nəticə etibarı ilə müasir metodoloji model təhsildə innovativ yanaşmaları, şəffaf idarəetməni və kollegial münasibətləri gücləndirir, bu da öz növbəsində təlim keyfiyyətinin yüksəlməsinə şərait yaradır. Ənənəvi model daha çox idarəetmənin sabitliyinə, müasir model isə inkişaf və dəyişikliyə yönəlmişdir.

**Metodoloji yanaşmaların təhsil keyfiyyətinə təsir mexanizmləri**

Təhsil keyfiyyəti yalnız tədrisin məzmunu ilə deyil, həm də onun necə idarə olunduğu ilə sıx bağlıdır [6, s.47]. İdarəetmədə metodoloji yanaşmaların tətbiqi məqsədlərin dəqiqləşdirilməsi, əlaqələrin möhkəmləndirilməsi, motivasiyanın artırılması, qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi və innovasiyaların tətbiqi kimi istiqamətlərdə müsbət təsir göstərir [1, s.7; 7, s.64].

**İdarəetmədə innovativ metodoloji yanaşmaların rolu**

Müasir dünyada təhsil sistemləri rəqəmsallaşma və texnoloji transformasiya dövrünü yaşayır [7, s.69]. Bu şəraitdə innovativ metodoloji yanaşmalar xüsusi rol oynayır: elektron idarəetmə sistemləri, analitik idarəetmə, inklüziv yanaşmalar, peşəkar inkişaf və layihə əsaslı idarəetmə modelləri bu yanaşmaların əsasını təşkil edir [2, s.25; 6, s.54].

**Metodoloji yanaşmaların praktiki tətbiqi üçün tövsiyyələr:**

- Rəhbər heyətin metodoloji savadlılığının artırılması;
- İştirakçı idarəetmə mexanizmlərinin qurulması;
- Rəqəmsal texnologiyaların geniş tətbiqi;
- Monitorinq və qiymətləndirmənin təkmilləşdirilməsi;
- Liderlik potensialının gücləndirilməsi;
- Metodoloji idarəetmənin beynəlxalq təcrübəsi və Azərbaycan təhsil sistemində tətbiqi.

Dünyada inkişaf etmiş ölkələrin təhsil sistemlərində metodoloji idarəetmə yanaşmaları uğurla tətbiq olunur.

Finlandiya, Sinqapur və OECD ölkələrinin təcrübəsi göstərir ki, strateji idarəetmə və müəllimlərin peşəkar inkişafı təhsil keyfiyyətinə mühüm təsir göstərir [2, s.38; 7, s.76]. Azərbaycan təhsil sistemində də son illərdə məktəb idarəetməsində şəffaflıq, innovasiya və metodoloji əsasların güclənməsi istiqamətində mühüm islahatlar həyata keçirilir [5, s.22]. Müasir təhsil sistemində idarəetmənin metodoloji əsaslarının təkmilləşdirilməsi təkcə idarəetmə orqanlarının fəaliyyətini deyil, həm də müəllimlərin peşəkar davranış mədəniyyətini formalaşdırır. Bu istiqamətdə tətbiq edilən strateji və innovativ yanaşmalar məktəblərdə şəffaf qərarvermə, əməkdaşlıq və nəticəyönümlü planlaşdırmanı stimullaşdırır. Eyni zamanda, metodoloji idarəetmə rəhbər heyətin analitik düşüncə qabiliyyətinin, məsuliyyət hissinin

və liderlik potensialının inkişafına mühüm təsir göstərir. Beləliklə, metodoloji əsasların gücləndirilməsi təhsildə keyfiyyətin davamlılığını təmin edən vacib amilə çevrilir. Təhsil idarəetməsinin metodoloji əsasları yalnız təşkilati proseslərin səmərəliliyini deyil, həm də pedaqoji fəaliyyətin keyfiyyət göstəricilərini müəyyənləşdirən mühüm elmi istiqamət kimi çıxış edir. Bu çərçivədə metodoloji prinsiplərin düzgün tətbiqi idarəetmədə şəffaflıq, məsuliyyət və sistemlilik dəyərlərinin formalaşmasına şərait yaradır. Beləliklə, məktəb idarəetməsində metodoloji yanaşmaların tətbiqi həm strateji planlaşdırmanın effektivliyini, həm də təhsil prosesində iştirak edən subyektlər arasında qarşılıqlı etimadı möhkəmləndirir.

**Metodoloji idarəetmənin perspektivləri və gələcək inkişaf istiqamətləri**

Müasir təhsil sisteminin sürətli transformasiyası və rəqəmsallaşma tendensiyaları göstərir ki, məktəb idarəetməsində metodoloji yanaşmaların daha da təkmilləşdirilməsi zəruridir:

1. Rəqəmsal idarəetmənin genişləndirilməsi;
2. Qlobal təhsil modellərinə inteqrasiya;
3. Məktəb rəhbərlərinin peşəkar inkişafı;
4. Məlumat əsaslı qərarvermə;
5. İnklüziv və ədalətli idarəetmə;
6. Elmi tədqiqatlara əsaslanan idarəetmə;
7. Şəbəkə əsaslı idarəetmə modelləri.

Bu istiqamətlərin həyata keçirilməsi məktəb idarəetməsində metodoloji yanaşmaların yalnız nəzəri deyil, həm də praktik səviyyədə dərinləşməsinə şərait yaradacaq [3, s.85; 6, s.60]. Beləliklə, təhsil sisteminin keyfiyyəti yüksələcək və məktəblər XXI əsrin tələblərinə daha çevik cavab verə biləcək [1, s.14; 7, s.84]

**Təhsil idarəetməsində metodoloji yanaşmaların nəzəri inkişaf meylləri**

Müasir dövrdə idarəetmədə metodoloji yanaşmaların təkamülü elmi tədqiqatların, beynəlxalq təcrübənin və qlobal təhsil sistemlərində baş verən dəyişikliklərin nəticəsidir. İdarəetmənin elmi əsasları Henri Fayol, Frederik Teylor və Elton Mayo kimi alimlərin nəzəri baxışlarına söykənir. Onların idarəetmə prinsipləri müasir təhsil sistemlərində metodoloji düşüncənin formalaşmasına böyük təsir göstərmişdir.

**Rəqəmsal transformasiya şəraitində metodoloji idarəetmənin rolu**

Rəqəmsal dövr məktəb idarəetməsində yeni metodoloji paradiqmaların yaranmasına səbəb olur. Elektron məktəb (e-school) platformaları, rəqəmsal qiymətləndirmə sistemləri və süni intellekt əsaslı idarəetmə alətləri təhsil müəssisələrinin səmərəliliyini artırır. Rəqəmsal transformasiya, həmçinin, müəllimlərin və rəhbər heyətin qərarvermə prosesində məlumat analitikası və süni intellektdən istifadə imkanlarını genişləndirir [6, s.63]. Bu çərçivədə rəhbər heyətin rəqəmsal savadlılığının artırılması vacib amillərdən biridir.

**Təhsil idarəetməsində liderlik və qərarvermə mədəniyyəti**

Liderlik təhsil idarəetməsinin əsas komponentlərindən biridir. Müasir təhsil menecerləri yalnız inzibati rəhbərlər deyil, həm də strateji düşüncə sahibi olan liderlər kimi çıxış etməlidirlər. Qərarvermə mədəniyyəti metodoloji baxımdan elmi əsaslara söykənməli, kollegiallıq, iştirakçılıq və şəffaflıq prinsiplərinə uyğun həyata keçirilməlidir. Fullan [4, s.50] qeyd edir ki, dəyişikliklərə adaptasiya olunmuş liderlər təhsil keyfiyyətinin əsas təminatçılarıdır. Qərarvermə prosesinin mahiyyəti yalnız idarəetmə strukturunun səmərəli təşkilinə deyil, həm də rəhbərin analitik və etik bacarıqlarına əsaslanır. Təhsildə qəbul edilən hər bir qərar pedaqoji məqsədlərə, şagirdlərin inkişaf ehtiyaclarına və kollektivin ümumi strategiyasına uyğun olmalıdır. Qərarvermə mədəniyyəti rəhbərin şəffaflıq, obyektivlik və ədalət prinsiplərinə sadiqliyini əks etdirir. Bu baxımdan müasir idarəetmə anlayışında qərarvermə yalnız inzibati prosedur deyil, həm də demokratik iştirak, innovativ düşüncə və kollektiv məsuliyyət elementlərini özündə birləşdirən yaradıcı proses kimi dəyərləndirilir. Məktəb rəhbərinin qərar qəbul edərkən müəllim və valideyn rəyini nəzərə alması idarəetmədə əməkdaşlıq və qarşılıqlı etimadı gücləndirir. Bu, təhsil müəssisəsində sağlam psixoloji mühitin formalaşmasına, kollektivdə motivasiyanın artmasına və ümumilikdə təhsil keyfiyyətinin yüksəlməsinə səbəb olur.

**Azərbaycan təhsil sistemində metodoloji idarəetmənin təkmilləşdirilməsi istiqamətləri**

Azərbaycan Respublikasında təhsil islahatları son illərdə keyfiyyətin idarəedilməsinə xüsusi diqqət yetirmişdir. “Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”, “Rəqəmsal Təhsil 2030” proqramı kimi sənədlər idarəetmə proseslərinin yenilənməsi, strateji planlaşdırma və monitorinq mexanizmlərinin təkmilləşdirilməsini nəzərdə tutur [2, s.8]. Bu sənədlər eyni zamanda müəllim hazırlığının gücləndirilməsi, innovativ idarəetmə modellərinin tətbiqi və nəticəyönümlü təhsil sisteminin qurulması məqsədi daşıyır. Beynəlxalq əməkdaşlıqlar – UNESCO, OECD və Dünya Bankı kimi təşkilatların dəstəyi ilə həyata keçirilən layihələr – təhsil idarəetməsində metodoloji yeniliklərin genişlənməsinə şərait yaradır.

**Metodoloji idarəetmə təhsil müəssisələrinin uğurlu fəaliyyətinin əsas təminatçısıdır.** Onun tətbiqi yalnız idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi ilə deyil, həm də təhsil keyfiyyətinin yüksəldilməsi ilə nəticələnir. Müasir dövrdə təhsil idarəetməsi daha çox açıq, çevik, innovativ və elmi əsaslı qərarvermə sistemlərinə əsaslanır. Metodoloji yanaşmaların praktik tətbiqi nəticəsində təhsil sisteminin dayanıqlığı, şəffaflığı və səmərəliliyi təmin olunur. Bu istiqamətdə atılan addımlar gələcəkdə Azərbaycanın təhsil sisteminin beynəlxalq standartlara uyğun inkişafına imkan yaradacaq.

**Təhsil keyfiyyətinin idarə edilməsində beynəlxalq yanaşmaların müqayisəli təhlili**

Beynəlxalq səviyyədə təhsil idarəetməsində metodoloji prinsiplərin tətbiqi geniş şəkildə araşdırılmışdır. OECD və UNESCO-nun hesabatlarında göstərilir ki, keyfiyyətli idarəetmə sistemi yalnız inzibati səmərəliliyi deyil, həm də sosial ədalət, inklüzivlik və davamlı inkişaf dəyərlərini özündə birləşdirməlidir [6, s.34; 7, s.70]. Finlandiya modeli bu baxımdan uğurlu nümunə hesab olunur, çünki burada qərarvermə prosesləri müəllimlərin iştirakına əsaslanır və idarəetmə qərarları təhsil icmasının ortaq məsuliyyəti kimi qəbul edilir. Bundan fərqli olaraq, Sinqapurda idarəetmə strukturunun əsasını performans əsaslı sistem təşkil edir. Məktəb rəhbərləri və müəllimlər üçün nəticə yönümlü indikatorlar müəyyən edilir və bu, təhsil keyfiyyətinin yüksəldilməsinə şərait yaradır [3, s.20]. Bu cür metodoloji modellər Azərbaycanın təhsil sistemi üçün də faydalı ola bilər, xüsusilə nəticə əsaslı idarəetmə, şəffaflıq və hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi baxımından.

**Təhsil idarəçiliyində etik prinsiplərin və sosial məsuliyyətin rolu**

Metodoloji idarəetmənin mühüm tərəflərindən biri etik prinsiplərin və sosial məsuliyyətin nəzərə alınmasıdır. Təhsil idarəçiliyi yalnız akademik göstəriciləri deyil, həm də məktəb icmasında sağlam psixoloji mühitin yaradılmasını təmin etməlidir. Etik idarəetmə şəffaflıq, obyektivlik və ədalət prinsiplərinə əsaslanır. Heyneman [5, s.40] qeyd edir ki, etik dəyərlərə əsaslanmayan idarəetmə modeli uzunmüddətli inkişaf baxımından davamlı ola bilməz. Etik idarəetmə həm də qərarvermə prosesində şəffaflıq, məsuliyyətin bölüşdürülməsi və insan amilinə əsaslanan yanaşmanı zəruri edir. Rəhbərin davranışı və idarəetmə tərzi kollektivin mənəvi-psixoloji durumuna birbaşa təsir göstərdiyindən, etik prinsiplərə riayət məktəb mühitində inam və peşəkar münasibətlərin əsasını təşkil edir. Bu prinsiplərin həyata keçirilməsi nəticəsində təhsilin keyfiyyətinə, müəllim fəaliyyətinə motivasiyaya və valideyn–məktəb əməkdaşlığına müsbət təsir yaranır.

**Ümumi nəticə və perspektivlər:**

Aparılan təhlillər göstərir ki, metodoloji idarəetmə təhsil müəssisələrinin müasir inkişaf mərhələsində əsas strateji istiqamətlərdən biridir. Bu yanaşma idarəetmə strukturunun elmi əsaslara söykənməsini, şəffaflıq və səmərəliliyin təmin edilməsini, həmçinin təhsil keyfiyyətinin yüksəldilməsini şərtləndirir. Azərbaycan təhsil sistemində bu istiqamətdə atılan addımlar – rəqəmsal idarəetmə, müəllimlərin peşəkar inkişafı və nəticə əsaslı tədris modellərinin tətbiqi – gələcəkdə metodoloji idarəetmənin daha da təkmilləşdirilməsinə imkan yaradacaq. Beləliklə, metodoloji idarəetmə yalnız idarəetmə sisteminin strukturunu deyil, həm də onun mədəniyyətini dəyişən bir anlayışdır. Bu yanaşma təhsilin strateji məqsədlərinin reallaşdırılmasında,

sosial rifahın və insan kapitalının inkişafında mühüm rol oynayır. Qlobal təhsil sistemlərində aparılan islahatlar göstərir ki, idarəetmədə metodoloji yanaşmaların elmi əsaslara söykənməsi keyfiyyətin davamlı inkişafını təmin edir. Müasir təhsil idarəetməsi yalnız inzibati qərarvermə deyil, həm də strateji düşüncə, innovasiya və sosial məsuliyyət elementlərini birləşdirir. Azərbaycan təhsil sistemində də bu istiqamətdə görülən tədbirlər gələcəkdə məktəblərin rəqəmsallaşması, təlim proseslərinin fərdiləşdirilməsi və təhsil nəticələrinin qiymətləndirilməsində şəffaflığın artırılmasına xidmət edir. Beləliklə, metodoloji idarəetmə müasir təhsil sistemində strateji düşüncə və innovative yanaşmanın vəhdətini təmin edir. Bu yanaşma təhsilin idarə edilməsində elmi əsaslara söykənən qərarvermə mexanizmlərinin inkişafına, şəffaflığına və keyfiyyətin yüksəldilməsinə şərait yaradır. Beləliklə, metodoloji idarəetmə müasir təhsil sistemində strateji düşüncə və innovativ yanaşmanın vəhdətini təmin edir. Bu istiqamətdə aparılan elmi araşdırmalar göstərir ki, təhsil sistemində idarəetmə mədəniyyətinin formalaşması yalnız normativ sənədlərlə deyil, həm də pedaqoji liderliyin inkişafı, təcrübə mübadiləsi və innovativ yanaşmaların tətbiqi ilə mümkün olur. Müasir idarəetmə təcrübəsində bu amillərin qarşılıqlı vəhdəti təhsilin keyfiyyətinə birbaşa təsir göstərir.

***Ədəbiyyat***

1. *Əliyev A. Təhsil idarəetməsində metodoloji əsaslar. Bakı: Elm, 2020, s.15–40.*
2. *Azərbaycan Respublikasının Təhsil Qanunu. 2023-cü il əlavələri, s.5–12.*
3. *Dünya Bankı. Education Sector Strategy 2030. Vaşinqton, 2021, s.10–25.*
4. *Fullan M. The New Meaning of Educational Change. London: Teachers College Press, 2019, s.27–55.*
5. *Heyneman S. School Management and Quality Education. New York: Routledge, 2020, s.22–48.*
6. *OECD. School Leadership for Learning. Paris, 2021, s.18–35.*
7. *UNESCO. Educational Leadership and Management. Paris, 2022, s.60–80.*

**Dadaşov D.Z.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***davuddadasli@gmail.com***

# AZƏRBAYCANIN AVROPA TƏHSİL MƏKANINA İNTEQRASİYASI

***Xülasə***

*Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Avropa ölkələri ilə təhsil sahəsində əməkdaşlıq imkanları genişlənmiş, milli təhsil sistemi modernləşdirilməyə başlanmışdır. Bu proses çərçivəsində Avropa təcrübəsinin öyrənilməsi, ali təhsilin keyfiyyətinin artırılması və müasir idarəetmə modellərinin tətbiqi prioritet istiqamətlərdən biri olmuşdur. Azərbaycanın Boloniya prosesinə inteqrasiyası ali təhsilin Avropa təhsil məkanına uyğunlaşdırılmasını təmin etmiş, tələbə və müəllim mobilliyini genişləndirmiş, diplomların qarşılıqlı tanınmasını və fərdi tədris imkanlarını asanlaşdırmışdır. 2009–2013-cü illəri əhatə edən Dövlət Proqramı ali təhsilin məzmununun Boloniya prinsiplərinə uyğun qurulması, keyfiyyətin təmin olunması, kadr hazırlığının təkmilləşdirilməsi və ali təhsil müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsi istiqamətində tədbirlər nəzərdə tutmuşdur. Nəticədə, Azərbaycanın ali təhsil sistemi beynəlxalq standartlara uyğunlaşdırılmış və Avropa təhsil məkanına inteqrasiya etmişdir.*

# ИНТЕГРАЦИЯ АЗЕРБАЙДЖАНА В ЕВРОПЕЙСКОЕ ОБРАЗОВАТЕЛЬНОЕ ПРОСТРАНСТВО

***Резюме***

*После восстановления независимости Азербайджана расширились возможности сотрудничества с европейскими странами в сфере образования, началась модернизация национальной системы образования. В рамках этого процесса изучение европейского опыта, повышение качества высшего образования и внедрение современных моделей управления стали одними из приоритетных направлений. Интеграция Азербайджана в Болонский процесс обеспечила адаптацию высшего образования к европейскому образовательному пространству, расширила мобильность студентов и преподавателей, способствовала взаимному признанию дипломов и облегчила возможности индивидуального обучения. Государственная программа на 2009–2013 годы предусматривала меры по формированию содержания высшего образования в соответствии с Болонскими принципами, обеспечению качества, улучшению подготовки кадров и модернизации материально-технической базы высших учебных заведений. В результате система высшего образования Азербайджана была адаптирована к международным стандартам и интегрирована в европейское образовательное пространство.*

# INTEGRATION OF AZERBAIJAN INTO THE EUROPEAN EDUCATIONAL AREA

***Summary***

*After Azerbaijan regained its independence, opportunities for cooperation with European countries in the field of education expanded, and the national education system began to be modernized. Within the framework of this process, studying European experience, improving the quality of higher education, and implementing modern management models were among the priority directions. Azerbaijan's integration into the Bologna process ensured the adaptation of higher education to the European educational space, expanded student and teacher mobility, facilitated mutual recognition of diplomas, and facilitated individual learning opportunities. The State Program covering 2009–2013 envisaged measures to establish the content of higher education in accordance with the Bologna principles, ensure quality, improve personnel training, and modernize the material and technical base of higher education institutions. As a result, the Azerbaijani higher education system was adapted to international standards and integrated into the European educational space.*

***Açar sözlər:*** *ali təhsil, boloniya prosesi, Avropa ali təhsil məkanı, təhsil islahatı*

***Ключевые слова:*** *высшее образование, болонский процесс, Европейское пространство высшего образования, реформа образования*

***Key words:*** *higher education, bologna process, European higher education area, educational reform*

Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra Avropanın inkişaf etmiş ölkələri ilə təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yeni və real imkanlar yaranmışdır. Respublikanın beynəlxalq aləmdə öz yerini tapması, qlobal təhsil proseslərinə inteqrasiya istiqamətində atılan addımlar ölkə təhsil sisteminin modernləşdirilməsinə güclü təkan vermişdir. Bu dövrdən etibarən Azərbaycan təhsil siyasətində Avropa təcrübəsinin öyrənilməsi, müasir idarəetmə modellərinin tətbiqi və ali təhsilin keyfiyyətinin yüksəldilməsi prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu dəyişikliklər təkcə struktur və idarəetmə sahəsində deyil, həm də təhsilin məzmunu, müəllim hazırlığı və qiymətləndirmə mexanizmlərində özünü göstərməyə başlamışdır. Azərbaycanın beynəlxalq təhsil layihələrinə qoşulması, Avropa ölkələrinin qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiqi, milli təhsil strategiyasının formalaşmasına mühüm təsir göstərmişdir.

Avropa son illərdə həm də ümumi təhsil məkanına çevrilməkdədir. Ümumi Avropa zonasının intellektual, mədəni, sosial və texniki bazasını yaratmaq və gücləndirmək istiqamətində «Boloniya prosesi»nin çox mühüm əhəmiyyəti var. Boloniya prosesinin əsas mahiyyəti yaxın illərdə Avropa ali

təhsil zonası adlanan və fundamental fəaliyyət prinsiplərinin eyniliyinə əsaslanan ümumi Avropa ali təhsil sisteminin formalaşdırılmasından ibarətdir.

1998-ci ilin 25 mayında 4 ölkənin (Böyük Britaniya, Almaniya, İtaliya, Fransa) təhsil nazirləri tərəfindən Sorbon Bəyannaməsi imzalandı. Bu Bəyannamə ümumi Avropa təhsil tarixində Boloniya prosesinə aparan əsas yol kimi dəyərləndirilir. 1999-cu ilin iyun ayında isə 30 Avropa ölkəsinin təhsil nazirləri İtaliyanın Boloniya şəhərində ümumi Avropa ali təhsil sisteminin gələcək inkişaf tendensiyalarını rəsmi təsdiqləmək məqsədilə Boloniya Bəyannaməsinə imza atdılar. Avropa Şurasına üzv olan ölkələrin əksəriyyəti Boloniya Bəyannaməsinə qoşulmuşdur. Avropa Şurasına daxil olan 40 ölkənin bu prosesi dəstəkləməsi çox böyük hadisədir. Çünki mütərəqqi metodlardan bəhrələnmək müasir dünyanın əsas tələblərindəndir. Bu, həm də Avropanın özündə olan dövlətlərin əməkdaşlığına əlverişli şərait yaradan səmərəli prosesdir [4, s.32].

Avropa Şurası Ali Təhsil Departamentinin rəsmi nümayəndələrinin iştirakı ilə respublikamızda keçirilən «Boloniya prosesi: siyasət və təcrübə» mövzusuna həsr edilmiş tədbirlər bu istəyin reallaşmasını təmin etdi. Azərbaycanın boloniya prosesinə qoşulması, ölkənin ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiya olunmasına şərait yaradır. Bu proses tələbə və müəllimlər üçün həm yerli, həm də Avropa ali təhsil məkanında mobilliyi asanlaşdırır. Diploma əlavənin vahid nümunəsinin yaradılması məzunların əmək bazarına daxil olmasını sadələşdirir və uzunmüddətli təhsil almaq imkanları genişlənir. Bu prosesə qoşulmaq istiqamətində Azərbaycan 2004-cü ildən etibarən ilk addımlarını atmağa başlamışdır. Belə ki, 17–18 may 2004-cü ildə Avropa Şurasının Baş direktorluğunun təşəbbüsü ilə keçirilmiş Qafqaz ölkələri təhsil nazirlərinin konfransında xüsusi bəyannamə qəbul olunmuş və həmin rəsmi sənədə Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov da imza atmışdır. Nəticədə isə 2005-ci ildə mayın 19-da Norveçin Berqen şəhərində keçirilən konfransda təhsil naziri Misir Mərdanov boloniya prosesinə qoşulmaqla bağlı rəsmi sənəd imzaladı. Bu sənəddən sonra Azərbaycan boloniya prosesinə qoşuldu.

Beləliklə də ölkəmiz boloniya sisteminə qoşulmaqla ölkədə təhsilin keyfiyyətinin daha artmasını təmin etmək, təhsilimizin avropa ölkələrinin təhsilinə uyğunlaşdırmaq kimi bir sıra öhdəlikləri öz üzərinə götürdü. Bu sistemə qoşulmaqda əsas məqsəd Azərbaycanın Avropa təhsilinə inteqrasiya olunmasıdır. Ümumiyyətlə, bilirik ki, Azərbaycan Avropa ölkələrinə inteqrasiya olunur. Burada təhsil ən önəmli sahələrdən hesab olunur. Bu gün Avropada demək olar ki, sərhədlər yoxdur bu sistem Avropa təhsilində mövcud olan sərhədlərin silinməsinə gətirib çıxarıb. Boloniya prosesi üzrə ali təhsil üç pillədən ibarətdir: bakalavriat, magistratura və doktorantura. Boloniya prosesində iki təhsil modeli mövcuddur:

3+2+3 modeli – bakalavriat + magistratura + doktorantura
4+1+3 modeli – bəzi MDB ölkələrində, o cümlədən Rusiyada tətbiq olunur.

Doktorantura ali təhsilin ən yüksək pilləsidir və əsas məqsədi elmi və elmi-pedaqoji kadrların hazırlanmasıdır. Bu təhsil forması ali təhsil və elmi müəssisələrdə yaradılır və müvafiq elmi dərəcə ilə başa çatır. Azərbaycanda iki elmi dərəcə mövcuddur: fəlsəfə doktoru və elmlər doktoru. Doktoranturaya qəbul, elmi dərəcələrin verilməsi və dissertantlıq yolu ilə dərəcə qazanma qaydaları aidiyyəti icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin qəbulu beynəlxalq müqavilələr və qarşılıqlı razılaşmalar əsasında həyata keçirilir. Təhsilini başa vuran şəxslərə dövlət tərəfindən təsdiqlənmiş diplom verilir. Elmi və pedaqoji fəaliyyətinə görə mütəxəssislərə elmi adlar da təyin olunur. Doktoranturaya elmlər namizədi dərəcəsinə və yüksək səviyyəli tədqiqat aparmaq bacarığına malik şəxslər qəbul edilirlər [1].

Bakalavr birinci pillənin tamamlanması ilə əldə olunan ali təhsil dərəcəsidir. Boloniya prosesində bakalavr dərəcəsindən sonra birbaşa “mütəxəssis” dərəcəsinə keçid, yəni 4+1 modelinə uyğun təhsil nəzərdə tutulmur. Yeni ali məktəblərdə abituriyent magistr dərəcəsi almaq istədikdə əlavə hazırlıq kursları keçir, inteqrasiya olunmuş magistraturaya qəbul üçün icazə verilir və magistraturaya hazırlıq dövründə bakalavr dərəcəsi (diplomu) təqdim olunur. Texniki peşə məktəbləri, kollec və texnikumlarda isə bakalavr diplomu verilmir [2]. Boloniya prosesi Azərbaycan ali təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və tələbə-müəllim potensialının daha səmərəli istifadəsi baxımından əhəmiyyətli bir addım hesab olunur və Boloniya prosesinə inteqrasiyanın yaradılması işini rahatlaşdırmışdır. İlkin mərhələdə ölkənin 10 ali məktəbində bəzi ixtisaslarda eksperimental qaydada tətbiq olunan kredit sistemi sonra bütün ali məktəbləri və ixtisasları əhatə edib. Prosesin tətbiqi ilə bağlı bir sıra normativ sənədlər hazırlanaraq təsdiq edilib. Növbəti mərhələdə bu prinsiplərin həyata keçirilməsi və ali təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində bir sıra tədbirlər görülmüşdür. Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan islahatlar ali təhsil müəssisələrinin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, tədris planlarının və proqramlarının Avropa standartlarına uyğunlaşdırılması, müəllim hazırlığının gücləndirilməsi və kredit sisteminin tətbiqi kimi sahələri əhatə etmişdir. Bütün bu addımlar nəticəsində Azərbaycan ali təhsili daha çevik, şəffaf və beynəlxalq əməkdaşlığa açıq bir sistemə çevrilmişdir.

Ölkəmizdə təhsilin beynəlxalq təhsil sisteminə, xüsusilə ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyasının təşviqi və Boloniya Bəyannaməsinin tələblərinin icrası işlərinin sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti 31 yanvar 2008-ci il tarixində “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil

məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzalamışdır. Həmin sərəncama əsasən 2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın (bundan sonra - Dövlət Proqramı) əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Boloniya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır.

Dövlət Proqramının icrasının əsas istiqamətləri Dövlət Proqramı çərçivəsində aşağıdakı istiqamətlər üzrə islahatların aparılması müəyyənləşdirilir:

– Boloniya Bəyannaməsinə və beynəlxalq təhsil təcrübəsinə uyğun olaraq, ali təhsilin normativ hüquqi bazasının yeniləşdirilməsi: burada nəzərdə tutulacaq müddəalar ali təhsil sisteminin Avropa və mütərəqqi dünya ölkələrinin ali təhsil məkanına inteqrasiyası üçün hüquqi baza yaratmalıdır;

– ali təhsilin məzmununun və təlim texnologiyalarının təkmilləşdirilməsi: burada ilk növbədə ali təhsil ixtisaslarının Avropa ixtisas təsnifatına və əmək bazarının tələblərinə uyğunlaşdırılması, tədris planı və proqramlarının, təhsil resurslarının, müasir fənn proqramlarının, yeni təlim və informasiya texnologiyalarını təmin edən elmi-metodiki tövsiyələrin hazırlanması və tətbiqi nəzərdə tutulmalıdır;

– ali təhsil müəssisələrinin strukturunun və bütövlükdə onun idarə olunması sisteminin müasir tələblər baxımından modernləşdirilməsi: ilk növbədə idarəçilik strukturunun əsaslı təkmilləşdirilməsi, kadr istehlakçılarının ali təhsil müəssisələrinin idarə olunmasında və inkişafında iştirakını təmin edən strukturların yaradılması, aidiyyəti müəssisələri baza kimi müəyyənləşdirməklə sıx əlaqələrin yaradılması (məsələn, müəllim hazırlığı sahəsində məktəb və təhsil şöbələri ilə, digər sahələrdə isə müvafiq istehsal sahələri ilə əlaqələrin qurulması), tələbə özünüidarə sisteminin inkişafı nəzərdə tutulmalıdır;

– ali təhsildə keyfiyyətin təmin olunması: ali təhsil müəssisələrinin akkreditasiyasına beynəlxalq ekspertlərin cəlb edilməsi təmin olunmalı, universitetlərin reytinqini müəyyənləşdirən sistem yaradılmalı, tələbələrin biliyinin qiymətləndirilməsi sistemi Avropa Kredit Transfer Sisteminin tələblərinə uyğunlaşdırılmalı, dövlət proqramının özəl ali təhsil müəssisələrinə də şamil olunması məqsədi ilə müvafiq tədbirlər görülməli, ali təhsil müəssisələrinin fəaliyyətinin işıqlandırılmasında müasir informasiya texnologiyalarından geniş istifadə olunmaqla tam şəffaflıq təmin edilməlidir;

– ali təhsildə kadr hazırlığı: bu məqsədlə elmi, elmi-pedaqoji və pedaqoji kadrların attestasiyasının, müəllim fəaliyyətinə başlamaq üçün sertifikatlaşdırılma mexanizmlərinin, ali təhsil müəssisələrində keyfiyyəti təmin edən menecment sisteminin, əmək bazarının monitorinqinin və işədüzəltmə mərkəzlərinin, professor-müəllim heyətinin ölkə daxilində və xaricdə treninqlərinin təmin olunma sistemlərinin yaradılması nəzərdə tutulmalıdır;

– ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin müasir tələblərə uyğun qurulması: ölkənin elmi-tədqiqat institutlarının ali təhsil müəssisələri ilə birgə fəaliyyəti, onların potensialından kadr hazırlığı sistemində istifadə olunması, bəzilərinin müvafiq ali təhsil müəssisələri tərkibinə verilməsi məsələlərinə baxılması nəzərdə tutulmalıdır;

– ali təhsilin maddi-texniki bazasının müasirləşdirilməsi: universitet kampuslarının (şəhərciklərinin, təhsil infrastrukturlarının) qurulması, ali təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları mərkəzlərinin, tədris, elmitədqiqat, təcrübə-sınaq laboratoriyalarının, resurs, treninq və digər mərkəzlərinin yaradılması, onların müvafiq tədris-metodiki və elmi avadanlıqlarla təchizatı, elektron kitabxanaların yaradılması nəzərdə tutulmalıdır;

– ali təhsilin iqtisadiyyatının yeni mexanizmlərinin yaradılması və tətbiqi: burada ali təhsil müəssisələrinin maliyyələşdirilməsinin yalnız dövlət büdcəsindən deyil, təhsil alan subyektlərin maliyyəsi hesabına həyata keçirilməsi, alternativ maliyyələşmə mənbələrinin formalaşdırılması sisteminin yaradılması tədbirləri nəzərdə tutulmalıdır [1].

Azərbaycan Boloniya prosesinə qoşulduqdan sonra ali təhsildə bir sıra islahatlar həyata keçirmişdir. Lakin davamlı təhsilin təmin edilməsi və tələbələrin əmək bazarında rəqabət qabiliyyətliliyinin artırılması hələ də əsas çağırış olaraq qalır. Ali və orta-ixtisas təhsilinin keyfiyyətinin yüksəldilməsi, fərdi tədris planlarının tətbiqi və tələbələrin elmi araşdırmalara cəlb olunması məqsədəuyğundur; buna baxmayaraq, ixtisaslı kadr çatışmazlığı və müasir standartlara tam uyğunlaşma hələ tam həll olunmayıb. Tələbə və müəllim mobilliyi, kredit sistemi və diplomların qarşılıqlı tanınması sahəsində mühüm addımlar atılsa da, bütün imkanların genişləndirilməsi və səmərəli istifadəsi tələb olunur. Təhsilin müxtəlif pillələrində davamlı inkişaf, maarifləndirmə və cəmiyyətin fəal iştirakı sahənin inkişafı üçün vacib istiqamətlər olaraq qalır [3, s.17]. Qeyd etdiyi kimi, boloniya prosesinə qoşulma ali təhsil sistemində mühüm dəyişikliklərə səbəb olmuşdur. Müəllifin vurğuladığı davamlı təhsilin təminatı və əmək bazarına uyğun kadr hazırlığı məsələləri bu gün də aktual olaraq qalmaqdadır. Həqiqətən də, təhsil islahatlarının əsas məqsədi yalnız struktur uyğunlaşması deyil, həm də keyfiyyət və rəqabət qabiliyyətinin artırılması olmalıdır.

Təhsil Nazirliyindən Azərbaycanın boloniya prosesinə qoşulmasının aşağıdakı kimi üstünlükləri olduğu bildirilib:

– Azərbaycanın ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası;

– Tələbə və müəllim kontingentinin vahid Avropa ali təhsil məkanına qoşulan ölkələr arasında mobilliyinin asanlaşdırılması (eyni zamanda bir ölkənin ali təhsil müəssisələri arasında);

– Tələbə və müəllim kontingentinin vahid Avropa ali təhsil məkanına qoşulan ölkələr arasında məşğulluq (işədüzəlmə) prosesinin asanlaşdırılması;

– Diploma əlavənin vahid modelinin yaradılması ilə məzunların əmək bazarında fəaliyyətə başlamasını asanlaşdırması;

– Uzunömürlü təhsil almaq imkanlarının yaradılması (ali təhsil müəssisələrindən akademik uğursuzluğa görə xaric olunmanın aradan qaldırılması);

– Hər bir tələbəyə fərdi yanaşma;

– Hər bir müəllimin tədris etdiyi kursa (fənnə) sərbəst yanaşması;

– Tələbələrə öz təhsil prosesini seçməkdə sərbəstliyin verilməsi (məs., müəllim və fənn seçimində sərbəstliyi);

– Yay semestri imkanlarından istifadə;

– Tədrisi vaxtından əvvəl bitirmə imkanları (bakalavriat səviyyəsində 3.5 il, magistratura səviyyəsində 1.5 il);

– Diplomların ekvivalentliyi və qarşılıqlı tanınması imkanları.

Ümumilikdə, Boloniya prosesi Azərbaycan ali təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və tələbə-müəllim potensialının daha səmərəli istifadəsi baxımından əhəmiyyətli bir addım hesab olunur. Azərbaycanın Boloniya prosesinə qoşulması ölkə ali təhsil sistemi üçün bir sıra mühüm üstünlüklər təmin edir. Bu proses ali təhsilin Avropa təhsil məkanına inteqrasiyasını mümkün edir ki, bu da həm tələbə, həm də müəllim kontingentinin beynəlxalq səviyyədə mobililiyini artırır. Eyni zamanda, diplom əlavələrinin vahid modeli məzunların əmək bazarında fəaliyyətə başlamasını asanlaşdırır və diplomların qarşılıqlı tanınması imkanlarını genişləndirir. Boloniya prosesi tələbələrə və müəllimlərə daha çox sərbəstlik və fərdi yanaşma təmin edir: tələbələr fənn və müəllim seçimində sərbəstliyə malikdir, müəllimlər isə tədris etdikləri kurslara öz yanaşmalarını tətbiq edə bilirlər. Bundan əlavə, yay semestri imkanları, tədrisi vaxtından əvvəl başa vurmaq imkanları və uzunömürlü təhsil prinsipi ali təhsilin keyfiyyətini və əlçatanlığını artırır.

***Ədəbiyyat***

*1. Azərbaycan Respublikasının Milli Məclisi. (2009). "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (№ 833-IIIQ, 19 iyun 2009-cu il). Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №8.*

2. *Azərbaycan Respublikasının Prezidenti. (2008). Ali təhsilin inkişafı üzrə Dövlət Proqramı (2009–2013). Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.*
3. *Boloniya prosesi çərçivəsində ali təhsil sahəsində aparılan islahatlar haqqında Azərbaycan Respublikasının Milli Hesabatı (2007–2009-cu illər üzrə). https://edu.gov.az/upload/file/bolonya-Milli-hesabat.pdf*
4. *Cəfərov C. Azərbaycanda davamlı təhsilin bəzi problemləri. Azərbaycan Respublikasında ali təhsilin yeniləşməsi uğrunda: təhsil islahatlarına dəstək layihəsi çərçivəsində "Avropa ali təhsilinə inteqrasiya: problemlər, perspektivlər" mövzusunda Tətbiqi Tədqiqatlar Fondu və Azərbaycan Turizm İnstitutunun birgə keçirdikləri elmi praktik konfransın materialları. Bakı – s.17.*
5. *Mahmudov M. Boloniya prosesi və Azərbaycan. ADPU-nun mətnləri. Bakı – 2008, s.32.*

**Əliyeva A.H.**
**Bakı Slavyan Universiteti**
***aliyealiyeva1406@gmail.com***

# RƏQƏMSAL VƏ ONLAYN TƏHSİL İMKANLARININ GENİŞLƏNDİRİLMƏSİ

***Xülasə***

*Məqalədə rəqəmsal və onlayn təhsil imkanlarının genişləndirilməsi müasir təhsil sisteminin inkişafı kontekstində araşdırılmışdır. Tədqiqatda rəqəmsallaşmanın təhsil prosesinə təsiri, virtual öyrənmə mühitlərinin rolu və rəqəmsal bacarıqların formalaşması məsələləri nəzərdən keçirilmişdir. Analiz zamanı mövcud elmi ədəbiyyat və normativ sənədlər əsasında müqayisəli təhlil aparılmışdır. Nəticə olaraq rəqəmsal təhsilin tədrisin səmərəliliyinin artırılmasında və fərdi öyrənmə imkanlarının genişləndirilməsində əhəmiyyətli rol oynadığı müəyyən edilmişdir.*

# РАСШИРЕНИЕ ВОЗМОЖНОСТЕЙ В ОБЛАСТИ ЦИФРОВОГО И ОНЛАЙН-ОБРАЗОВАНИЯ

***Резюме***

*В статье рассматривается расширение возможностей цифрового и онлайн-образования в контексте развития современной системы образования. В исследовании изучено влияние цифровизации на образовательный процесс, роль виртуальных учебных сред и вопросы формирования цифровых компетенций. В ходе анализа был проведен сравнительный обзор на основе существующей научной литературы и нормативных документов. В результате было установлено, что цифровое образование играет значительную роль в повышении эффективности преподавания и расширении возможностей индивидуального обучения.*

# EXPANDING DIGITAL AND ONLINE EDUCATION OPPORTUNITIES

***Summary***

*The article investigates the expansion of digital and online education opportunities within the context of modern education system development. The research examines the impact of digitalization on the educational process, the role of virtual learning environments, and issues related to the formation of digital competencies. A comparative analysis was conducted based on existing scientific literature and regulatory documents. As a result, it was determined that digital education plays a significant role in increasing the efficiency of instruction and expanding individualized learning opportunities.*

***Açar sözlər:*** *rəqəmsal təhsil, onlayn təhsil, rəqəmsallaşma, artırılmış reallıq, virtual reallıq, rəqəmsal bacarıqlar, innovativ texnologiyalar, rəqəmsal texnologiyalar, layihə, virtual məktəb*

***Ключевые слова:*** *цифровое образование, онлайн-образование, цифровизация, дополненная реальность, виртуальная реальность, цифровые компетенции, инновационные технологии, цифровые технологии, проект, виртуальная школа*

***Key words:*** *digital education, online education, digitalization, augmented reality, virtual reality, digital competencies, innovative technologies, digital technologies, project, virtual school*

Texnologiya sürətlə inkişaf etdikcə təhsil sahəsinə də inteqrasiya edir. Ənənəvi təhsil sistemi innovativ metodlarla yenilənir. Artıq dərslər onlayn platformalarda da keçirilir, elektron dərsliklərdən istifadə olunur, elektron jurnallar tətbiq olunur, müəllim və tələbələr müxtəlif rəqəmsal alətlər vasitəsilə daha asan informasiya mübadiləsi edə bilirlər. Bu dəyişikliklər rəqəmsal təhsil adlanır.

Rəqəmsal texnologiyalar təhsil sistemini, onun əlçatanlığını köklü şəkildə dəyişdirdi. Qlobal miqyasda yaşanan son hadisələr, xüsusilə, COVID-19 pandemiyası onlayn təhsili müvəqqəti bir alternativ olmaqdan çıxararaq, təhsilin əsas axınına çevirdi. Bu dövrdə rəqəmsal və onlayn təhsil "xilaskar rolunda" çıxış etdi [7]. Təhsilin fasiləsizliyinin təmin olunması üçün məsafədən təhsilə keçid edildi. Bu məqsədlə dünya təhsilində yeni modellər tətbiq olundu.

Pandemiya dövründə məsafədən təhsilin təşkili Azərbaycanda da təhsil sisteminin əsas istiqamətlərindən birinə çevrildi. Bu baxımdan "Virtual məktəb" layihəsi rəqəmsal təhsilin praktik tətbiqini göstərən ən uğurlu nümunələrdəndir. Layihə 2020–2021ci illərdə Elm və Təhsil Nazirliyi ilə "Microsoft" korporasiyası arasında əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir, 2020-ci il aprelin 2-dən etibarən Azərbaycan Elm və Təhsil Nazirliyi tərəfindən "Virtual məktəb" layihəsinə start verilmişdir. Layihə müddətində "1.4 milyondan çox şagird qeydiyyatdan keçib. 2021-ci ilin yanvar ayında həftəlik dərslərin sayı 6 milyondan çox olub, aktiv istifadəçilərin sayı 1.2 milyonu keçib" [8].

Canlı dərslərin həyata keçirilməsi məqsədilə "Microsoft Teams" platformasından istifadə olunurdu. Bu tətbiq vasitəsilə dərslər keçirilir, tapşırıqlar paylaşılır, qiymətləndirmə aparılır, şagird-müəllim əlaqəsi təmin olunurdu. Ümumilikdə "Virtual məktəb" layihəsi yeni pedaqoji və rəqəmsal bacarıqların inkişafına imkan yaratmış, distant (məsafədən) təhsil modellərinin inkişafı üçün praktiki baza formalaşdırmışdır.

**Rəqəmsal və onlayn təhsil imkanlarının genişləndirilməsi nə üçün əhəmiyyətlidir?** Təhsilin rəqəmsallaşması strateji baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də açıq şəkildə öz əksini tapır: "Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara

məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir" [1]. Bununla yanaşı, ölkə başçısı "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" adlı sərəncam imzalamışdır ki, orda qeyd olunur: *"Rəqəmsal təhsil və təlim proqramlarının genişləndirilməsi, Sinqapur və Koreya Respublikasında olduğu kimi mütəxəssis bazasını genişləndirməyin əsas yoludur"* [2].

Yuxarıda qeyd olunanlar göstərir ki, rəqəmsal təhsil iqtisadi və sosial inkişafın təmin olunması üçün mühüm vasitə hesab olunur.

**Rəqəmsal və onlayn təhsilə keçidin üstünlükləri**

***Məkan və zaman asılılığı anlayışının aradan qalxması.*** Rəqəmsal təhsilin ən böyük üstünlüyü coğrafi məhdudiyyətlərin olmamasıdır. Belə ki, təhsilalanlar və təhsilverənlər əyani olaraq sinif otağında fəaliyyət göstərmək məcburiyyətində qalmırlar. Bu həm coğrafi cəhətdən fərqli və ya uzaq bölgələrdə yaşayan, həm də səyahət edən şəxslər üçün təhsilin fasiləsizliyini, əlçatanlığını təmin edir. Eyni zamanda fiziki hərəkət məhdudiyyəti olan şəxslər üçün də təhsilin əlçatanlığını maksimum dərəcədə artırır.

Rəqəmsal sinif otaqları coğrafi sərhədləri aşaraq, dünyanın müxtəlif yerlərindən olan tələbələri bir araya gətirir. Belə mühitdə təhsil alan tələbələr müxtəlif mədəniyyətlərlə tanış ola bilir, əməkdaşlıq qurur, beynəlxalq layihələrdə işləmək təcrübəsi qazanırlar.

Təhsilin rəqəmsallaşması təkcə müəllimlər və tələbələrə deyil, valideynlərə də daha əlçatan təhsil imkanları verir. Onlar övladlarının nəticələrini, nailiyyətlərini rəqəmsal platformaların köməyi ilə asanlıqla öyrənə bilərlər. Valideynlərin mütəmadi olaraq təhsil sistemi ilə əlaqədə olması şagirdlərin nailiyyətlərində mühüm rol oynayır. Lakin mövcud iş şəraiti, iqtisadi vəziyyətlə bağlı çətinliklər (məs., tıxacların çoxalması) onların məktəblə əlaqəsini zəiflədir. Rəqəmsal platformalar isə bu çətinlikləri aradan qaldırır: "məktəb rəhbərliyi, müəllimlər və valideynlər şəxsi kabinetlər vasitəsilə hər bir şagirdin gündəlik təlim fəaliyyəti, qiyməti, o cümlədən dərs cədvəli, tədris edilən fənlər üzrə materiallar, evə verilən tapşırıqlar və sair məsələlərlə tanış olmaq imkanı əldə edəcəklər" [4].

***Təhsil xərclərində əhəmiyyətli dərəcədə fərqlərin olması.*** Ənənəvi təhsil sistemində yaranan nəqliyyat, kirayə mənzil, yataqxana kimi xərclər onlayn təhsil zamanı minimuma enir. Onlayn təhsil forması təhsil müəssisələrinin də ümumi xərclərini azaltdığı üçün daha sərfəli təhsil haqqı ilə fəaliyyət göstərə bilər. Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov bu barədə qeyd edir ki, *"Distant təhsil universitetlərin öz tələbə kontingentini artırmağa, çox az xərclə daha çox tələbəyə ali təhsil imkanı verməyə, xarici ölkələrdən çoxlu sayda tələbə cəlb etməyə imkan verir. Bu. Universitetlərin maddi vəziyyətinin düzəlməsinə, öz*

*müəllimlərinin əmək haqqını əhəmiyyətli dərəcədə artırmasına şərait yaradır”* [5].

***Tələbələr üçün fərdiləşdirilmiş öyrənmə mühiti.*** Y.A.Kamenski insanların fərdi xüsusiyyətlərini nəzərə alaraq belə deyirdi: *“Bəzi adamların qabiliyyətləri iti, o birilərinki kütdür, bəzilərinki yumşaq və elastiki, o birilərinki sərt və yenilməzdir”*. Buradan belə nəticəyə gəlinir ki, hər bir tələbə məlumatı fərqli sürət və fərqli öyrənmə şəkli ilə mənimsəyir. Rəqəmsal platformalar sayəsində tələbələr öz sürətlərində irəliləyə, materialları təkrar-təkrar izləyə bilərlər. Bu da fərdi ehtiyaclara cavab verən effektiv öyrənmə mühiti yaradır.

Həmçinin rəqəmsal təhsil imkan yaradır ki, dərslərin təşkilində videoizahlar, animasiyalar, rəqəmsal laboratoriyalar kimi vasitələr istifadə olunsun. Bu isə dərsi daha aydın, cəlbedici və yaddaqalan edir.

***Tədris prosesinin avtomatlaşdırılması ilə daha asan və keyfiyyətli idarəetmənin təşkili.*** Təhsilin rəqəmsallaşması təhsil işçilərinin vaxtını aparan, təkrarlanan inzibati işlərin avtomatlaşdırılmasına kömək edir. Məsələn, elektron jurnalların, elektron qeydiyyat sistemlərinin yaradılması, elektron formada davamiyyətin izlənməsi və hesabatların aparılması sənədləşmə prosesini asanlaşdırır, daha az vaxt sərf olunur. Bunun nəticəsində əsas diqqət tələbələrə və dərsin keyfiyyətinin artırılmasına yönəlir.

Məlumatların təhlükəsizliyi baxımından da burada rəqəmsal vasitələr böyük əhəmiyyət kəsb edir. Tələbələrin şəxsi məlumatları və akademik məlumatlar rəqəmsal bazalarda saxlanılır ki, bu da kağız sənədlərlə müqayisədə daha təhlükəsiz və əlçatandır.

***Təlim prosesində innovativ texnologiyaların tətbiqi.*** Rəqəmsallaşma ən son texnoloji yenilikləri təhsilə gətirir. Təhsildə tətbiq olunan belə yeniliklərin ən aktual nümunələrindən biri artırılmış reallıq (AR) və virtual reallıq (VR) texnologiyalarıdır. Bu texnologiyalar ənənəvi təlim metodlarından fərqli olaraq interaktiv və vizual öyrənmə mühiti yaradır, mücərrəd amlayışların mənimsənilməsinə imkan yaradır. Xüsusilə, tibb, kimya, coğrafiya, tarix kimi elm sahələri üçün praktik əhəmiyyət daşıyır.

Azərbaycan təhsil sistemində son illərdə artırılmış reallıq və virtual reallıq texnologiyalarının tətbiqi ilə bağlı müəyyən işlər görülməkdədir. Təhsil müəssisələrində bu istiqamətdə bir çox pilot layihələr həyata keçirilir. 2020-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) “Təhsildə virtual reallıq” adlı layihənin təqdimatı həyata keçirilib. Təqdim olunan layihənin yaratdığı imkanlardan bəhs olunub: “Virtual reallığın əsas üstünlüyü müxtəlif məkanlarda olan insanları bir auditoriyada toplamaq və sonsuz sayda siniflər yarada bilmək imkanıdır. Ən kiçik zal 30 nəfərlikdir. Səs və görüntü 3D-dir. Bu distant təhsil proqramı VR eynəkləri ilə yanaşı, istənilən kompüter proqramında da işləyə bilir. Burada bütün idarəetmə müəllimdə olur. Ən vacib

üstünlüklərdən biri də virtual reallıqda olanların sosiallaşa bilməsi, ünsiyyət qurmasıdır" [6].

Ümumiyyətlə, innovativ texnologiyaların tətbiqi təhsilin keyfiyyətini artırır, təhsilalanların rəqəmsal mühitlə qarşılıqlı əlaqə imkanlarını genişləndirir və bu da təhsil işçilərinin rəqəmsal bacarıqlara yiyələnməsini labüd edir. "Məhz bunun nəticəsidir ki, 2017–2018-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəbbüsü ilə respublikanın 16 şəhər və rayonunun (Bakı, Sumqayıt, Gəncə, Şəki, Şirvan, Şamaxı, Lənkəran, Biləsuvar, Mingəçevir, Göyçay, Sabirabad, Şabran, Xaçmaz, Salyan, Yevlax və Şəmkir) 250 ümumtəhsil məktəbində "Rəqəmsal bacarıqlar" layihəsi tətbiq olunur" [3]. Bu layihənin məqsədi təhsil işçilərinin rəqəmsal savadlılığını artırmaq, onları müasir texnologiyalarla işləməyə hazırlamaq, dövlətin prioritet istiqamətlərinə uyğun kadrlar yetişdirməkdir. Layihə çərçivəsində müəllimlər üçün proqramlaşdırma dillərinin əsasları, alqoritm anlayışı, alqoritmin növləri, "Python" proqramlaşdırma dili, obyektlə idarəetmə imkanları və s. mövzuları əhatə edən təlimlər həyata keçirilmişdir. 2020–2021-ci illərdə keçirilən bu təlimlərdə ümumilikdə 1306 müəllim iştirak etmişdir [9].

Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən "Rəqəmsal bacarqlar" layihəsinin tətbiq olunduğu şəhərlərin məktəblərində dərs deyən müəllimlərlə sorğu həyata keçirilmişdir. 310 müəllimlə aparılan sorğuda "Dərsdə kompüterdən istifadə rolunu (informatikadan başqa) qiymətləndirin" çoxseçimli sualına verdikləri cavablar aşağıdakı diaqramda qeyd olunmuşdur:




***Azərbaycan Respublikasının Təhsil İnstitutu***

Diaqramın nəticələri göstərir ki, sorğuda iştirak edən müəllimlərin böyük əksəriyyəti kompüterlərdən istifadənin dərs prosesinə müsbət təsir

etdiyini düşünürlər. Burada ən yüksək göstərici isə (70,97%) "şagirdlərin fənnə marağını artırır" seçimi üzrədir. Yəni, təlimdə rəqəmsal vasitələrin tətbiqi motivasiyaedici rol oynayır, təkcə informasiya təqdimatını təmin etmir, eyni zamanda şagirdlərin fəallığını və dərs prosesinin səmərəliliyini artırır.

Bu qiymətləndirmə tədqiqatının nəticəsində müəyyən olunmuşdur ki, "Rəqəmsal bacarıqlar" layihəsinin tətbiq olunduğu siniflərdə şagirdlərin nəticələri digər siniflərdə təhsil alan şagirdlərin nəticələrindən daha yüksəkdir. "Rəqəmsal bacarıqlar" layihəsinin tətbiqi yetişən gənc nəslin müasir dövrün tələblərinə adekvat şəkildə cavab vermələri üçün rəqəmsal və innovativ bacarıqları öyrənməkdə və təcrübədə tətbiq etməkdə, proqramlaşdırma və kodlaşdırma sirlərinə yiyələnməkdə böyük imkanlar yaradır" [3].

**Mövzunun aktuallığı:** Texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə təhsil sisteminin də texnoloji yeniliklərə uyğunlaşdırılması bir zərurətə çevrilmişdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi də rəqəmsal bacarıqlara malik insan kapitalının formalaşdırılmasını əsas istiqamət kimi müəyyən edir. Bu isə rəqəmsal və onlayn təhsil imkanlarının genişləndirilməsini xüsusi aktuallıq kəsb edən məsələ edir.

**Mövzunun elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi rəqəmsal təhsilin tətbiqi ilə bağlı mövcud yanaşmaların strukturlaşdırılması və pedaqoji cəhətdən əsaslandırılmış şəkildə təhlilinin aparılması ilə müəyyən olunur.

**Mövzunun praktik əhəmiyyəti:** Rəqəmsal vasitələrin tətbiqi, onlayn platformalardan istifadə təhsilin keyfiyyətinin artırılmasına praktiki töhfə verir.

***Ədəbiyyat***

1. *"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli, 2469 nömrəli sərəncamı ilə təsdiq ediımişdir. https://president.az/az/articles/view/50474*
2. *"Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" https://president.az/az/articles/view/68365*
3. *Azərbaycan Respublikasının Təhsil İnstitutu. Ümumi təhsildə innovativ layihələrin tətbiqi: tədqiqatlar, nəticələr. Bakı: "CN Poliqrafiya", 2024. 277 s.*
4. *Qarayeva, S. (2024). Rəqəmsal UNEC – distant təhsil sisteminin üstünlükləri. 525-ci qəzet, 2 fevral, №20, s. 7.*
5. *UNEC İqtisadi Forumu. (2021). Postpandemiya dövründə elm və təhsil və iqtisadiyyatın rəqəmsal transformasiyası. Azərbaycan, 3 dekabr.*
6. *UNEC News. (2020). Təhsildə virtual reallıq layihəsinin təqdimatı – Azərbaycanda pilot layihə nümunəsi. https://news.unec.edu.az/xeber/125-universitet/6111-virtual-reallig-tehsilde*
7. *Zawacki-Richter, O., & Jung, I. (Eds.). (2023). Handbook of open, distance and digital education. Springer.*
8. *https://edu.gov.az/az/programmes/virtual-mekteb-layihesi*
9. *https://edu.gov.az/news-and-updates/15917-1*

**Əliyeva L.M.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***alieva.leyla81@gmail.com***

# ALİ TƏHSİLDƏ İDARƏETMƏNİN MEXANİZMLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**_Xülasə_**

*Məqalədə ali təhsildə idarəetmə mexanizmlərinin mahiyyəti, strukturu və funksional xüsusiyyətləri müasir elmi-nəzəri yanaşmalar əsasında müqayisəli şəkildə təhlil edilmişdir. Tədqiqatın əsas məqsədi müxtəlif ölkələrdə və ali təhsil modellərində tətbiq olunan idarəetmə mexanizmlərinin oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, onların səmərəlilik göstəricilərini və institusional inkişafda rolunu elmi əsaslarla qiymətləndirməkdən ibarətdir.*

*Müasir dövrdə ali təhsil sistemlərinin effektiv fəaliyyəti bilavasitə tətbiq olunan idarəetmə mexanizmlərinin səmərəliliyindən asılıdır. Qloballaşma, bilik iqtisadiyyatı və rəqabət mühiti ali təhsil müəssisələrinin idarə olunmasında yeni yanaşmaların formalaşmasını zəruri edir. Məqalədə ali təhsildə idarəetmə mexanizmləri – hüquqi-tənzimləyici baza, institusional strukturlar, maliyyə idarəetməsi, keyfiyyət təminatı, maraqlı tərəflərin iştirakı və rəqəmsal idarəetmə komponentləri müqayisəli şəkildə təhlil edilmişdir.*

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ МЕХАНИЗМОВ УПРАВЛЕНИЯ В ВЫСШЕМ ОБРАЗОВАНИИ

**_Резюме_**

*В статье представлен сравнительный анализ сущности, структуры и функциональных характеристик механизмов управления в высшем образовании на основе современных научно-теоретических подходов. Главная цель исследования – выявление сходных и различных аспектов механизмов управления, применяемых в разных странах и моделях высшего образования, оценка показателей их эффективности и роли в институциональном развитии на научной основе.*

*В современную эпоху эффективное функционирование систем высшего образования напрямую зависит от эффективности применяемых механизмов управления. Глобализация, экономика знаний и конкурентная среда обусловливают необходимость формирования новых подходов к управлению высшими учебными заведениями. В статье представлен сравнительный анализ механизмов управления в высшем образовании – правовая и нормативная база, институциональные структуры, финансовое управление, обеспечение качества, участие заинтересованных сторон и компоненты цифрового управления.*

# COMPARATIVE ANALYSIS OF MANAGEMENT MECHANISMS IN HIGHER EDUCATION

***Summary***

*The article provides a comparative analysis of the essence, structure and functional characteristics of management mechanisms in higher education based on modern scientific-theoretical approaches. The main goal of the study is to identify the similarities and differences of management mechanisms applied in different countries and higher education models, to evaluate their efficiency indicators and their role in institutional development on a scientific basis.*

*The effective functioning of higher education systems in modern times directly depends on the efficiency of the applied management mechanisms. Globalization, knowledge economy and competitive environment necessitate the formation of new approaches in the management of higher education institutions. The article comparatively analyzes the management mechanisms in higher education - legal and regulatory framework, institutional structures, financial management, quality assurance, stakeholder participation and digital management components.*

***Açar sözlər:*** *ali təhsil, idarəetmə mexanizmləri, muxtariyyət, mərkəzləşdirilmiş idarəetmə, keyfiyyət təminatı, müqayisəli təhlil*

***Ключевые слова:*** *высшее образование, механизмы управления, автономия, централизованное управление, обеспечение качества, сравнительный анализ*

***Key words:*** *higher education, management mechanisms, autonomy, centralized management, quality assurance, comparative analysis*

## Giriş

Ali təhsil sisteminin davamlı inkişafı və beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi effektiv idarəetmə mexanizmlərinin formalaşdırılmasını tələb edir. Müasir ali təhsil yalnız bilik ötürən institusional struktur deyil, eyni zamanda elmi-tədqiqat, innovasiya və sosial inkişafın əsas dayaqlarından biridir. Bu baxımdan ali təhsildə idarəetmə mexanizmləri qərar qəbuletmə proseslərinin şəffaflığını, maliyyə resurslarının səmərəli bölgüsünü, keyfiyyət təminatını və maraqlı tərəflərin fəal iştirakını təmin edən kompleks mexanizm kimi çıxış edir.

Dünya təcrübəsi göstərir ki, ali təhsil idarəetmə modelləri ölkələrin siyasi quruluşu, iqtisadi inkişaf səviyyəsi və təhsil siyasətindən asılı olaraq fərqlənir. Məhz bu fərqliliklərin müqayisəli təhlili optimal idarəetmə mexanizmlərinin müəyyənləşdirilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir [1].

Ali təhsildə idarəetmənin mexanizmləri müəssisələrin fəaliyyətini nizamlayan və onların səmərəli fəaliyyətini təmin edən strukturlar, qaydalar və proseslərin məcmusudur. Ali təhsil idarəetmə mexanizmləri ölkələr və qurumlar arasında fərqlənsə də, ümumiyyətlə hökumət nəzarəti, institusional

muxtariyyət və maraqlı tərəflərin iştirakının birləşməsini əhatə edir. Bu mexanizmlər qərar qəbul etməyə, siyasətlərin icrasına, maliyyə idarəetməsinə və keyfiyyət təminatına kömək edir.

Ali təhsildə idarəetmənin mexanizmlərinə aşağıdakılar aiddir:

- Hüquqi və tənzimləyici mexanizmlər;
- Universitetin idarəetmə strukturları;
- Maliyyə idarəetməsi;
- Keyfiyyət təminatı və akkreditasiya;
- Maraqlı tərəflərin iştirakı;
- Rəqəmsal və innovativ idarəetmə.

İndi isə sadalanan mexanizmlərə ayrılıqda nəzər salaq.

**Hüquqi və tənzimləyici mexanizmlər.** Adından da göründüyü kimi, təhsil sahəsinə aid olan normativ hüquqi aktlar, tənzimləyici proseslər, müqavilələr aiddir. Bura təhsil qanunlarını, təhsil sahəsini əhatə edən islahat proqramlarını, akkreditasiyanı, milli və beynəlxalq müqavilələri, dövlət proqramlarını aid edə bilərik. Hüquqi mexanizmlərə aid olan təhsil qanunları ölkədə olan ümumi təhsilin vəziyyətini aşkar edir və onu hüquqi cəhətdən tənzimləyir. Təhsil qanunu və islahat proqramları arasında fərqlər mövcuddur. Təhsil qanunu təkdir və ümumi təhsil sahəsini əhatə edən normativ hüquqi aktdır. Burada təhsillə bağlı olan ümumi anlayışlar, beynəlxalq əlaqələr, təhsilalanların və təhsilverənlərin hüquq və vəzifələri, ölkənin təhsil sistemi haqqında ümumi anlayışlar göstərilir. Lakin islahat proqramları təhsilin ayrı-ayrı pillələrinə aid olmaqla təhsildə olan yenilikləri, həyata keçiriləcək tədbirləri əhatə edir.

**Universitetin idarəetmə strukturları.** Daha əvvəldə bəhs etdiyimiz kimi, universitetin idarəetmə strukturu dedikdə, ümumi rəhbərlik başa düşülür. Bura şəxs olaraq rektor, prorektorlar, dekanlar, digər idarəedənlər aiddir. Lakin buna heyət olaraq baxsaq, müəssisənin Elmi Şurasını deyə bilərik. Elmi şurada universitetin daxili və xarici işləri üzrə qərarlar qəbul edilir. Elmi şuranın qərarları rektor tərəfindən imzalanandan sonra qüvvəyə minir. İclarslar protokollaşdırılır, iclas sədri və katibi tərəfindən imzalanır. Elmi şura tədris ili və semestr üzrə iş planına uyğun fəaliyyət göstərir. Elmi şuranın həyata keçirdiyi önəmli işlərdən biri də müəssisənin Nizamnaməsini qəbul etməkdir.

**Maliyyə idarəetməsi.** Ali təhsil müəssisələrində maliyyələşdirmə 3 istiqamətdə həyata keçirilir [8]:

1. Dövlət maliyyələşdirilməsi – dövlət universitetlərinə ayrılan büdcə və qrantlar nəzərdə tutulur.
2. Özəl maliyyələşdirmə – təhsil haqları, ianələr, investisiyalar, elmi-tədqiqat qrantları, müəssisənin sakibkarlıq fəaliyyəti nəzərdə tutulur.
3. Nəticəyönümlü maliyyələşdirmə – universitetin göstəricilərinə, nəticələrinə əsasən hesablanan maliyyə başa düşülür.

Keyfiyyət təminatı və akkreditasiya. Bu prosesi həyata keçirən qurumlar tərəfindən universitetlərin standartlara uyğunluğu yoxlanılır. Bunun nəticəsində həmin müəssisənin fəaliyyəti tənzimlənir. Bundan əlavə universitetin daxili keyfiyyətə nəzarət mexanizmləri olmalıdır ki, bazar şəraitinə uyğunlaşma, nəticənin yüksəldilməsi, rəqabət qabiliyyətliliyinin artırılması prosesləri də məqsədəuyğun olsun.

**Maraqlı tərəflərin iştirakı.** Maraqlı tərəf deyəndə, universitetlərlə əməkdaşlıq edən şirkətlər, müəssisələr, hətta ikili diplom layihəsi mövcud olan digər universitetlər nəzərdə tutulur. Eyni zamanda universitetlər təhsil proqramlarını əmək bazarına uyğunlaşdırmaq üçün tələbələr, işəgötürənlər və sənaye nümayəndələri ilə əməkdaşlıq edir. Sənaye əməkdaşlıqları elmi-tədqiqat maliyyəsinə və tədris proqramlarının inkişafına müsbət təsir edə bilər. Buna nümunə olaraq Avropadakı Erasmus+ proqramını göstərə bilərik.

**Rəqəmsal və innovativ idarəetmə.** Hazırkı gündə rəqəmsallaşma əsas məsələlərdən biridir. Demək olar ki, hər bir müəssisənin işi elektron formada həyata keçirilir və bu səmərəli idarəetmənin daha da təkmilləşməsinə kömək olur. İstər dövlət orqanları, istər özəl müəssisələr, istərsə də təhsil müəssisələri rəqəmsal savadlılığın artırılmasında, innovasiyanın gücləndirilməsində uğurlu addımlar atmalıdır. Bu baxımdan elektron idarəetmənin yaradılması, distant idarəetmə, tədqiqat və innovasiya dəstəyi əsas məsələlərdəndir.

Ali təhsildə idarəetmənin mexanizmləri deyəndə, onun modellərinə nəzər salmaq vacibdir. Çünki bu mexanizmlər fərqli ölkələrdə müxtəlif modellər üzrə formalaşmışdır. Bu modellərin əsasını mərkəzləşdirilmiş və muxtar idarəetmə modelləri təşkil edir. Lakin idarəetmə modelləri bunlarla yekunlaşmır. Ali təhsildə idarəetmə modellərinə aşağıdakılar aiddir [4]:

- Mərkəzləşdirilmiş idarəetmə modeli;
- Muxtar idarəetmə modeli;
- Hibrid idarəetmə modeli.

**Mərkəzləşdirilmiş idarəetmə modeli.** Bu modelin bir sıra özünəməxsus üstünlüyü var ki, onlardan ən önəmlisi təhsilin vahid bir sistemlə idarə olunmasıdır. Bu modeldə təhsil müəssisələri bərabər imkanlara sahib olur. Belə olduğu halda, təhsil siyasəti bir xətt üzrə sistemli şəkildə həyata keçirilir. Milli və bəşəri dəyərlərə uyğun kadrların hazırlanması da önəmli məsələlərdən biridir. Mərkəzləşdirilmiş idarəetmə modelində əsasən müəssisələrəin dövlət büdcəsindən maliyyələşməsi prosesi həyata keçirilir. Bildiyimiz kimi, hər bir müəssisədə stratej inkişaf planı hazırlanır. Ali təhsil müəssisələrində strateji inkişaf planı hökumət tərəfindən qəbul edilir. Bu modelə misal olaraq Azərbaycan, Rusiya, Çin adlarını çəkə bilərik. Azərbaycanda ali təhsil müəssisələrinin strateji inkişaf planları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən qəbul edilir. Bu modeldə təhsilə dövlət nəzarəti yüksək səviyyədə olur. Təbii ki, bu, universitetlərin qərar

vermədiyi anlamına gəlmir. Mərkəzləşdirilmiş idarəetmə mövcud olsa da, müəssisələrin müəyyən dərəcədə muxtariyyəti də olur. Bu idarəetmə modelinin üstünlükləri kimi müəyyən çatışmazlıqları da var. Müəssisələrin çevik qərar qəbul edə bilməməsi, beynəlxalq əməkdaşlıqların daha məhdud olması və s. kimi çatışmazlıqları sadalaya bilərik. Azərbaycan Respublikasında ali təhsil müəssisələri həm məzkəzləşdirilmiş, həm də muxtar idarəetmə modeli əsasında fəaliyyət göstərirlər. Muxtar idarəetmə modeli əsasən özəl universitetlərdə istifadə olunur, lakin bəzi dövlət universitetləri də müəyyən dərəcədə müstəqillik əldə etmişlər. Əslində onların müstəqillik qazanması inkişafın göstəricisidir. Hansı ki, bu inkişaf onların nəticələrində özünü büruzə verir. Xarici universitetlərlə ikili diplom layihələrinin qurulması, qrant layihələrin həyata keçirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi məhz bu inkişafın nəticələridir.

**Muxtar idarəetmə modeli.** Adından da göründüyü kimi, bu idarəetmə modeli sərbəst idarəetməni təmin edir. Yəni universitetlərə sərbəstlik verilir, onlar öz işlərini özləri görür, qərarlarını özləri verirlər. Burada dövlət tənzimləyci və əsas nəzarətçi rolunu oynayır. Lakin universitetlərin idarəetməsinə birbaşa heçbir müdaxilə etmir. Bu idarəetmə modelinin xüsusiyyətlərinə akademik və idari qərarların müstəqil verilməsini, maliyyələşmənin əsasən müxtəlif mənbələrdən, özəl müəssisələrdən, dövlət və beynəlxalq fondlardan əldə olunmasını aid edə bilərik. Maliyyələşmə yalnız bunlarla yekunlaşmır. Məlumdur ki, dövlətin nəzarəti olan bir müəssisədə müəyyən qədər maliyyə dəstəyi də olur. Lakin, bu o qədər də çox olmur. Belə olduğu halda universitetdə olan ixtisasların illik ödənişləri, fənnlərin kreditlərinə uyğun ödənişləri, kitabxana xərcləri və s. digər universitetlərə nisbətən daha yüksək olur. Muxtar idarəetmə modelinin özünəməxsus üstünlükləri var və buna aşağıdakıları aid edə bilərik [6]:

- Müəssisənin tədqiqat sahəsinin sərbəstliyi;
- İqtisadi dözümlülük;
- Mobilliyin genişlənməsi;
- İnkişafın daha sürətli olması;
- Rəqabət qabiliyyətliliyin yüksək olması.

Bu modeldən istifadə edən ölkələrə misal olaraq ABŞ, Böyük Britaniya, Almaniya və s. kimi ölkələri göstərə bilərik. ABŞ-da universitetlər öz maliyyə strategiyalarını, inkişaf yollarını müstəqil olaraq müəyyən edirlər. Tədqiqatların aparılması, bu tədqiqatların aparılması üçün laboratoriyaların yaradılması, bu baxımdan tələbələrə və müəllimlərə təlimlərin keçirilməsi kimi işlər universitetin öz öhdəliyində olur və maliyyələşməsi də universitet tərəfindən həyata keçirilir. ABŞ-nın dünya üzrə tanınmış universitetlərinə Stanford Universiteti, Harvard Universiteti, Kaliforniya Texnologiya İnstitutu, Massaçusets Texnologiya İnstitutu və s. adlarını çəkə bilərik. Adları çəkilən bu

universitetlər dünyada ən tanınmış və dünya sıralamasında ön sıralarda yer tutan universitetlərdir. Böyük Britaniyada universitetlərin maliyyələşməsini dövlət təmin edir, lakin onlara geniş muxtariyyət verilir. Məhz buna görə orada muxtar idarəetmə modeli tətbiq edilir.

**Hibrid idarəetmə modeli.** Bu idarəetmə modeli mərkəzləşdirilmiş və muxtar idarəetmə modellərinin vəhdətini təşkil edir. Yəni bu modeldə universitetlərə həm dövlət nəzarəti var, həm də özlərinin müstəqillikləri var. Lakin belə olduğu halda universitetlər tam muxtariyyət əldə edə bilmirlər, hətta bəzi məsələlərdə dövlətin müdaxiləsi daha yüksək səviyyədə olur. Bu isə hibrid idarəetmə modelinin mənfi cəhətləri hesab edilir. Üstünlüklərinə isə dövlət nəzarəti ilə müstəqilliyin balanslaşdırılması, maliyyə dəstəyinin çoxşaxəli olması, təhsil standartlarının dünya təhsilinə inteqrasiyası və s. deyə bilərik. Hibrid idarəetmə modeli Fransa, Türkiyə, Cənubi Koreya və s. ölkələrdə tətbiq edilir.

Azərbaycan Respublikasında ali təhsiln idarə olunmasında mərkəzləşdirilmiş idarəetmə modeli tətbiq olunsa da, muxtar idarəetmə modelinə keçidin ilk addımları atılır. Bu baxımdan universitetlərin rəqabətqabiliyyətliliklərinin artırılması və beynəlxalq aləmə daha çox nüfuz etməsi üçün müəyyən təkliflər irəli sürmək olar [5]:

- Muxtariyyətin verilməsi – universitetlərə daha çox sərbəstliyin verilməsi;
- Beynəlxalq əlaqələrin genişləndirilməsi – ikili diplom layihələrinin, təhsil proqramları ilə təhsil alınmasının genişləndirilməsi;
- Keyfiyyətin gücləndirilməsi – akkreditasiyanın beynəlxalq aləmə uyğunlaşdırılması.

Bu kimi islahatların həyata keçirilməsi Azərbaycanın ali təhsil sistemini daha da inkişaf etdirəcək və beynəlxalq aləmə nüfuzunu sürətləndirəcəkdir.

**Anket dəyərləndrilməsi.**

Bu anket sorğusu BDU, MDU, ADPU, BSU, SDU, Azərbaycan Turizm və Menecment Universitetinin tələbələri arasında "İdarəetmə sisteminin dəyərləndirilməsi" mövzusunda keçirilmişdir.

**Cədvəl 1. Respondentlərin cinsi və yaş tərkibi**

| | Cinsi | | Yaş | | |
|---|---|---|---|---|---|
| Ümumi | kişi | qadın | 18–21 | 22–25 | 26 və daha çox |
| 85 | 47 | 38 | 25<br>20 | 22<br>18 | 0<br>0 |

Sorğuda ümumilikdə 85 nəfər iştirak etmişdir. Onların 47-si kişi, 38-i isə qadın olmuşdur.




**Cədvəl 3. Universitetdəki idarəetmə sistemindən nə dərəcə razısınız?**




Cədvəl 3-də tələbələrin təhsil aldıqları müəssisələrdə olan idarəetmə sistemindən nə dərəcə razı olub-olmadığı verilmişdir. Burada tələbələrin 59 faizi tam razı, 37 faizi qismən razı, 4 faizi isə narazı olduğunu bildirmişdir.

**Cədvəl 4. Sizcə, ali təhsil müəssisələrinin idarə edilməsi necə həyata keçirilməlidir?**




Burada tələbələr idarəetmənin hansı formada həyata keçirilməsi barədə öz fikirlərini qeyd etmişlər. Tələbələrin 25 faizi idarəetmənin dövlət tərəfindən tənzimlənməsinin, 46 faizi universitetin müstəqilliyinin olmasının, 29 faizi isə dövlət və universitetin birgə idarə edilməsinin tərəfdarı olmuşlar.

**Cədvəl 5. Universitetinizdə tələbələrin qərarvermə prosesində iştirak imkanları varmı?**




Burada tələbələrin 42 faizi aktiv iştirak etdiyini, 38 faizi qismən iştirak etdiyini, 20 faizi isə qərarvermə prosesində heç bir iştirakı olmadığını bildirmişdir.

**Cədvəl 6. Sizcə, universitetin idarəetmə sistemində hansı çatışmazlıqlar var?**




Burada tələbələrin 15 faizi qərarvermə prosesində şəffaflığın az olması, 50 faizi tələbələrin iştirakının məhdud olmasını, 25 faizi tədris keyfiyyətinin zəif olmasını və 10 faizi isə korrupsiya və neqativ hallar olduğunu bildirmişdir.

**Cədvəl 7. Sizcə, tələbələr ali təhsil islahatlarının hazırlanmasında iştirak etməlidirmi?**




Burada tələbələrin 65 faizi islahatların hazırlanmasında iştirak etməli olduğunu, 28 faizi qismən iştirak etməli olduğunu, 7 faizi isə iştirak etməməli olduqlarını bildirmişdir.

**Cədvəl 8. Cədvəl 7-ə əsasən tələbələr islahat hazırlanmasında iştirak edərsə, hansı formada iştirak etməlidir?**




Burada tələbələrin 30 faizi sorğu vasitəsilə, 20 faizi tələbə təşkilat və birlikləri vasitəsilə, 50 faizi isə universitet rəhbərliyi ilə birgə müzakirə bəndini seçmişdir.

**Cədvəl 9. Sizcə, universitetlərdə strateji idarəetmənin ən vacib komponentləri hansılardır?**




Burada tələbələrin 20 faizi (ümumilikdə 60 faizi) uzunmüddətli inkişaf, təhsil keyfiyyətinin artırılması və rəqəmsal transformasiya və innovasiyaların inkişafı bəndlərini, 40 faizi isə beynəlxalq əməkdaşlıq bəndini seçmişdir.

**Məqalənin aktuallığı:** Müasir dövrdə ali təhsil sistemləri qloballaşma, rəqəmsallaşma və əmək bazarının dəyişən tələbləri şəraitində fəaliyyət göstərir. Bu proseslər ali təhsilin idarə edilməsini yalnız inzibati məsələ deyil, mühüm sosial proses kimi ön plana çıxarır. Universitetlərin idarəetmə mexanizmləri sosial mobilliyə, təhsil keyfiyyətinə və ictimai etimada birbaşa təsir göstərir. Buna görə də ali təhsilin idarə edilməsi sosial münasibətlər sistemi kimi elmi təhlil tələb edən aktual tədqiqat obyektidir.

**Məqalənin elmi yeniliyi:** Məqalədə ali təhsilin idarə edilməsi sosial tədqiqatın obyekti kimi yeni elmi yanaşma əsasında təhlil edilmişdir. Ali təhsil idarəetməsində sosial münasibətlərin, maraqlı tərəflərin iştirak mexanizmlərinin və qərarvermə proseslərinin təsiri sistemləşdirilmişdir. İdarəetmə modellərinin sosial nəticələri müqayisəli şəkildə qiymətləndirilmiş və Azərbaycan ali təhsil sistemi üçün sosial yönümlü idarəetmənin təkmilləşdirilməsinə dair elmi əsaslandırılmış yeni yanaşmalar irəli sürülmüşdür.

**Məqalənin praktik əhəmiyyəti:** Məqalədə təqdim olunan nəticələr ali təhsil müəssisələrində idarəetmənin səmərəliliyinin artırılması, qərarvermə proseslərinin şəffaflaşdırılması və tələbələrin iştirak imkanlarının genişləndirilməsi üçün praktik tövsiyələr verir. Tədqiqat Azərbaycan ali təhsil sistemində muxtariyyətin artırılması, beynəlxalq əməkdaşlıqların inkişaf etdirilməsi və keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsi sahəsində idarəedicilər və siyasətçilər üçün konkret tətbiq imkanları təqdim edir. Eyni zamanda nəticələr universitetlərin strateji inkişaf planlarının hazırlanmasında və idarəetmə modellərinin optimallaşdırılmasında faydalı ola bilər.

## Nəticə

Aparılan müqayisəli təhlil göstərir ki, ali təhsildə idarəetmənin səmərəliliyi tətbiq olunan mexanizmlərin çevikliyi, şəffaflığı və iştirakçılıq səviyyəsi ilə birbaşa bağlıdır. Mərkəzləşdirilmiş idarəetmə modeli sistemlilik və vahid təhsil siyasətini təmin etsə də, qərarvermədə çevikliyin məhdudluğu ilə xarakterizə olunur. Muxtar idarəetmə modeli innovasiya və rəqabət qabiliyyətliliyi gücləndirsə də, maliyyə bərabərsizliyi risklərini artırır. Hibrid model isə bu iki yanaşma arasında balans yaratmağa çalışır.

Empirik tədqiqatın nəticələri tələbələrin ali təhsil idarəetməsində iştirak imkanlarının məhdud olduğunu və bu sahədə islahatlara ehtiyac duyulduğunu göstərir. Bu baxımdan Azərbaycan ali təhsil sistemində muxtariyyətin mərhələli şəkildə genişləndirilməsi, keyfiyyət təminatı mexanizmlərinin beynəlxalq standartlara uyğunlaşdırılması və maraqlı tərəflərin, xüsusilə tələbələrin qərarvermə prosesinə cəlb olunması ali təhsilin dayanıqlı inkişafını təmin edən əsas amillər kimi qiymətləndirilir.

### *Ədəbiyyat*

1. *Məmmədov, R. Ali təhsilin idarə edilməsi: nəzəri və praktik aspektlər. Bakı: Elm və Təhsil Nəşriyyatı, 2018.*
2. *Əliyeva, S. Ali təhsil müəssisələrində idarəetmə mexanizmləri və akademik muxtariyyət. Bakı Dövlət Universitetinin xəbərləri Elmi Jurnalı, 3(45), 15–32, 2021.*
3. *Hüseynova, N. Ali təhsildə idarəetmə: beynəlxalq təcrübə və Azərbaycan modeli. Təhsil və İqtisadiyyat Jurnalı, 2(12), 45–61, 2019.*
4. *Rzayev, T. Ali təhsildə strateji planlaşdırma və institusional inkişaf. Azərbaycan Təhsil Jurnalı, 1(14), 23–40, 2020.*
5. *Quliyev, F. Universitet idarəetməsinin hüquqi əsasları və Azərbaycan təcrübəsi. Bakı: Hüquq və Təhsil Nəşriyyatı, 2017.*
6. *Əliyev, M. Ali təhsildə idarəetmə mexanizmlərinin optimallaşdırılması. Azərbaycan Elmi-Təhsil Portalı, 4(8), 12–29, 2016.*
7. *Həsənova, L. Ali təhsil müəssisələrində desentralizə olunmuş idarəetmə modelləri. Bakı Dövlət Universiteti Jurnalı, 2(39), 55–70, 2018.*
8. *Əliyev, F. Ali təhsilin idarə edilməsi və dövlət–universitet münasibətləri. Azərbaycan Təhsil Araşdırmaları, 2(11), 5–22, 2020.*

**Əliyeva M.H.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mataaliyeva13@gmail.com***

# TƏHSİL SEKTORUNDA MENECMENTİN İNKİŞAFI: EFFEKTİV İDARƏETMƏ PRİNSİPLƏRİ VƏ TƏTBİQİ NÜMUNƏLƏR

***Xülasə***

*Təhsil müəssisələrinin uğurlu fəaliyyətinin təmin edilməsi və yüksək keyfiyyətli təlim proseslərinin yaradılması üçün təhsil sektorunda idarəetmənin inkişafı vacibdir. Effektiv idarəetmə prinsipləri bu sahədə davamlı təkmilləşməni dəstəkləyir və tələbələrin uğurlarına kömək edir. Bu məqalədə təhsil sektorunda menecmentin inkişafına təsir edən idarəetmənin əsas prinsipləri və onların təlim prosesinə təsiri müzakirə olunacaq.*

# РАЗВИТИЕ МЕНЕДЖМЕНТА В ОБРАЗОВАТЕЛЬНОМ СЕКТОРЕ: ЭФФЕКТИВНЫЕ ПРИНЦИПЫ УПРАВЛЕНИЯ И ПРАКТИЧЕСКИЕ ПРИМЕРЫ

***Резюме***

*Развитие управления в образовательном секторе имеет важное значение для обеспечения успешной работы образовательных учреждений и создания качественных процессов обучения. Эффективные принципы управления поддерживают непрерывное совершенствование в этой области и способствуют успеху студентов. В данной статье будут обсуждаться основные принципы управления, влияющие на развитие управления в образовательном секторе, и их влияние на процесс обучения.*

# DEVELOPMENT OF MANAGEMENT İN THE EDUCATİON SECTOR: EFFECTİVE MANAGEMENT PRİNCİPLES AND PRACTİCAL EXAMPLES

***Summary***

*The development of management in the education sector is crucial for ensuring the successful functioning of educational institutions and creating quality learning processes. Effective management principles support continuous improvement in this field and contribute to the success of students. This article will discuss the main management principles affecting the development of management in the education sector and how these principles impact the teaching process.*

***Açar sözlər:*** *təhsil menecmenti, idarəetmə prinsipləri, təhsil sektoru, təhsildə innovasiya, liderlik, şəffaflıq, strateji planlaşdırma, rəqəmsal təhsil, resursların idarəedilməsi, effektiv idarəetmə*

***Ключевые слова:*** *управление в образовании, принципы управления, образовательный сектор, инновации в образовании, лидерство, прозрачность, стратегическое планирование, цифровое образование, управление ресурсами, эффективное управление*

***Key words:*** *educational management, management principles, education sector, innovation in education, leadership, transparency, strategic planning, digital education, resource management, effective management*

## Giriş

Təhsil sektorunda menecmentin inkişafı, təhsil müəssisələrinin uğurlu fəaliyyətini təmin etmək və keyfiyyətli təlim prosesləri yaratmaq üçün mühüm əhəmiyyət daşıyır. Təhsil sistemi, cəmiyyətin inkişafının təməlini təşkil edən mühüm bir sektordur və bu sahənin effektiv idarə edilməsi, yalnız məktəblərin və universitetlərin fəaliyyətinə deyil, həm də milli inkişaf prosesinə birbaşa təsir göstərir. Effektiv idarəetmə prinsipləri bu sahədə davamlı təkmilləşmə və tələbələrin uğur qazanmasını dəstəkləyir. İdarəetmə sahəsində tətbiq edilən düzgün yanaşmalar, təhsil sistemindəki hər bir tərəfin - tələbələr, müəllimlər və rəhbərlik - funksiyalarını koordinasiya edir və hər bir fərdin təhsil məqsədlərinə çatmasına kömək edir.

Bu məqalədə təhsil sektorunda menecmentin inkişafına təsir edən əsas idarəetmə prinsipləri və bu prinsiplərin tədris prosesinə təsiri müzakirə ediləcəkdir. Təhsil menecmentinin effektivliyi, həm strateji planlaşdırma, həm də liderlik bacarıqlarının inkişafı ilə sıx əlaqəlidir. Həmçinin, innovativ idarəetmə yanaşmalarının tətbiqi tədris prosesində müsbət dəyişikliklərə və daha yaxşı nəticələrə gətirib çıxarır. Məqalənin məqsədi, təhsil menecmentinin inkişafını təmin edən əsas prinsipləri müəyyənləşdirmək və bu prinsiplərin tədris mühitinə necə inteqrasiya edildiyini göstərməkdir.

Təhsil idarəçiliyində keyfiyyətli dəyişikliklər və inkişaf yalnız doğru idarəetmə anlayışları ilə mümkün olur. Bu səbəbdən, təhsil sistemindəki müxtəlif çətinliklərə və problemlərə baxmayaraq, idarəetmə sahəsində innovasiyalar və strateji yanaşmaların tətbiqi kritik əhəmiyyət daşıyır. Bu yanaşmalar, həm təhsil müəssisələrinin performansını artırır, həm də tələbələrin uğurunu dəstəkləyir.

Məqalə çərçivəsində, idarəetmə prinsipinin təsiri, təhsil müəssisələrində texnoloji innovasiyaların tətbiqi, qarşıya çıxan çətinliklər və bu çətinlikləri aşmaq üçün tövsiyələr müzakirə olunacaqdır.

### Effektiv idarəetmə prinsipləri

Təhsil müəssisələrində effektiv idarəetmə, strateji düşüncə, liderlik və şəffaflıq prinsiplərini əhatə edir. Bu prinsiplər təhsil idarəçiliyinin əsasını təşkil

edərək, müəllimlərin, tələbələrin və idarəçilərin fəaliyyətlərini yönləndirir. Strateji düşüncə və planlaşdırma təhsil müəssisələrinin uzunmüddətli məqsədlərə çatmasına kömək edir [Mintzberg, 1994; Aydın, 2007]. Eyni zamanda, liderlik qabiliyyəti idarəçilərə komanda daxilində həmrəylik və müsbət iş mühiti yaratmaq imkanı verir [Northouse, 2019].

Strateji düşüncə təhsil müəssisələrində məqsədlərə çatmaq üçün uzunmüddətli planların və taktikaların hazırlanmasını təmin edir. Mintzberg (1994) strateji planlaşdırmanın vacibliyini vurğulayır və təhsil müəssisələrinin yalnız gündəlik məsələləri deyil, həm də gələcəkdə qarşılaşacaqları çağırışları nəzərə alaraq hazırlıqlı olmalarının əhəmiyyətini qeyd edir. Bu yanaşma, təhsil müəssisələrinə tədris proqramlarını inkişaf etdirmək, yeni təlim metodlarını tətbiq etmək və tələbələrin inkişafını dəstəkləmək üçün uzunmüddətli strategiyalar qurmağa kömək edir. Strateji planlaşdırma, həmçinin təhsil idarəetməsinin məqsədlərinə çatmaq üçün resursların optimallaşdırılmasına imkan yaradır.

Təhsil müəssisələrində güclü liderlik, idarəetmənin əsas elementlərindən biridir. Liderlər yalnız idarəetmə qərarları vermək deyil, həm də komanda daxilində həmrəyliyi və motivasiyanı qoruyub saxlamağı bacarmalıdır. Northouse (2019) liderliyin təhsil menecmentindəki rolunu vurğulayaraq, effektiv liderliyin təhsil müəssisələrinin ümumi uğuruna təsir etdiyini qeyd edir. Liderlər, müəllimlər və digər işçilər ilə effektiv ünsiyyət qurmalı, onlara dəstək olmalı və hər bir fərdin potensialını ortaya çıxarmağa yönəlmiş müsbət bir iş mühiti yaratmalıdır.

Liderliyin təhsil müəssisələrində rolunun bir aspekti də, dəyişiklikləri idarə etmək bacarığıdır. Təhsil sektorunda davamlı inkişaf və dəyişikliklər qaçılmazdır. Effektiv liderlər bu dəyişiklikləri pozitiv yöndə idarə edir və komandalarını yeni metod və yanaşmalara uyğunlaşmağa təşviq edirlər.

Şəffaflıq, təhsil müəssisələrində qərarların açıq və aydın şəkildə qəbul edilməsini təmin edir. Bush və Glover (2014) şəffaf idarəetmənin təhsil müəssisələrində qərar qəbul etmə prosesini daha ədalətli və hərtərəfli edir. Şəffaflıq, həmçinin təhsil müəssisələrində fəaliyyətlərin izlənilməsi və qiymətləndirilməsi üçün vacibdir, çünki bu, həm müəllimlərə, həm də tələbələrə tədris prosesindəki hər bir addımı və qərarı anlamağa və qəbul etməyə imkan verir.

Hesabatlılıq prinsipi isə idarəetmənin effektivliyini təmin edir. Təhsil müəssisələrinin rəhbərləri və idarəçiləri, fəaliyyətlərini müntəzəm olaraq qiymətləndirməli və bu fəaliyyətlərin nəticələrini həm daxili, həm də xarici maraqlı tərəflərə təqdim etməlidir. Hesabatlılıq, təhsil müəssisələrində daha yaxşı idarəetmə və keyfiyyətin artırılmasına kömək edən bir digər əsas prinsipdir.

**Menecmentin inkişafında innovativ yanaşmalar**

Təhsil menecmentində innovativ yanaşmalar, tədris prosesinin müasirləşdirilməsi üçün əhəmiyyətlidir. Müasir texnologiyaların təhsilə tətbiqi, rəqəmsal menecment sistemlərinin inkişafına təkan verir [Garrison & Vaughan, 2008; Şişman, 2015]. Bunun nəticəsində, müəllim və tələbələr arasında daha effektiv əlaqə qurulur və təhsil prosesinin nəticələri artır. Rəqəmsal platformalar vasitəsilə həyata keçirilən idarəetmə üsulları da təhsil sektorunda şəffaflıq və resursların səmərəli idarə olunmasını təmin edir.

İnnovativ yanaşmaların tətbiqi yalnız texnologiyalarla məhdudlaşmır, həm də təhsil idarəçilərinin və müəllimlərin peşəkar inkişafını təşviq edir. Təhsil idarəetmə sahəsindəki inkişaf, idarəçilərin və müəllimlərin yenilikçi təlimlərə və təhsil texnologiyalarına yönəlməsini tələb edir. Müasir təhsil sistemində liderlər və idarəçilər öz komandalara düzgün rəhbərlik etməli, həmçinin yeni təhsil metodlarını tətbiq etmək üçün davamlı olaraq təkmilləşməlidirlər [Northouse, 2019].

Bu yanaşmalar, müəllimlərin və rəhbərlərin öz biliklərini və bacarıqlarını artırmalarını təmin edir. Onların peşəkar inkişafı, təhsil menecmentinin effektivliyini və tədrisin keyfiyyətini artırmaq üçün əhəmiyyətlidir. Yenilikçi idarəetmə yanaşmaları çərçivəsində, təhsil müəssisələrindəki rəhbərlər və müəllimlər üçün onlayn kurslar, seminarlar və təlimlər təşkil edilir ki, bu da onların müasir idarəetmə bacarıqlarını inkişaf etdirir.

Çevik idarəetmə yanaşması, təhsil menecmentində mühüm yer tutan başqa bir innovativ yanaşmadır. Bu yanaşma, təhsil müəssisələrinin dəyişən şəraitə tez uyğunlaşmalarına imkan verir. Çevik idarəetmə, təhsil müəssisələrinin planlaşdırma və qərar qəbul etmə proseslərində daha sürətli və çevik olmalarını təmin edir. Bu metod, rəhbərlərin və idarəçilərin təhsil proseslərində meydana çıxan ani dəyişikliklərə sürətlə cavab verməsinə imkan verir.

Çevik idarəetmə yanaşması həm də təhsil proqramlarının və tədris metodlarının daimi olaraq yenilənməsinə şərait yaradır. Müəllimlər və təhsil idarəçiləri bu yanaşma ilə tədris prosesini daha dinamik və tələbələrin ehtiyaclarına uyğunlaşdırılmış şəkildə tənzimləyirlər.

İnnovativ yanaşmaların tətbiqində müxtəliflik və inklüzivlik də mühüm yer tutur. Təhsil müəssisələri artıq təkcə akademik bilikləri deyil, həm də tələbələrin sosial və emosional inkişafını nəzərə alaraq tədris proqramları hazırlayır. Müxtəlif təhsil metodlarının və yanaşmalarının tətbiqi, müxtəlif təhsil ehtiyaclarına cavab verən fərdi öyrənmə yollarını təmin edir.

Bu yanaşma, xüsusilə, xüsusi təhsil ehtiyacı olan tələbələrin öyrənmə prosesinə daxil edilməsini təşviq edir. Müxtəliflik və inklüzivlik prinsipləri

təhsil müəssisələrinin daha geniş auditoriyaya xidmət etməsini və hər bir tələbənin öz potensialını reallaşdırması üçün şərait yaratmasını təmin edir.

**Tətbiqi nümunələr**

Effektiv təhsil idarəçiliyinin ən yaxşı nümunələrindən biri Finlandiya təhsil modelidir. Bu model təhsil sahəsində yüksək nailiyyətləri ilə tanınır. Finlandiyada təhsil menecmenti demokratik yanaşma ilə idarə olunur və burada həm müəllimlərin, həm də tələbələrin səsi nəzərə alınır [Sahlberg, 2011]. Bundan əlavə, Türkiyə təhsil sistemi də bəzi sahələrdə təkmilləşdirici idarəetmə üsullarını tətbiq edir və xüsusən rəqəmsal tədris mühitlərinin inkişafında önəmli irəliləyişlər əldə edir [Kaya, 2018].

**Qarşıya çıxan çətinliklər və yaxşılaşdırma yolları**

Təhsil menecmentində inkişaf prosesində bəzi çətinliklər də mövcuddur. Resursların çatışmazlığı, qərar qəbul etmə prosesində fərqli maraqların olması və idarəçilərin davamlı peşəkar inkişaf ehtiyacları bu çətinliklərə misaldır. Bu maneələrin öhdəsindən gəlmək üçün menecerlərə davamlı təlim imkanlarının verilməsi və idarəetmə proseslərinin optimallaşdırılması zəruridir [Bush & Glover, 2014; Balcı, 2009].

Bir çox təhsil müəssisəsi, həm maddi, həm də insan resursları baxımından çatışmazlıqlarla üzləşir. Ən çox rastlanan problemlərdən biri, tədris materiallarının, texnoloji avadanlıqların və infrastrukturun məhdud olmasıdır. Bu çətinlik, təhsil prosesinin keyfiyyətinə birbaşa təsir göstərir, çünki müasir təhsil texnologiyalarının və resurslarının istifadəsi tələbələrin və müəllimlərin işini asanlaşdırır.

Resurs çatışmazlığını aradan qaldırmaq üçün təhsil idarəçiləri, dövlət və özəl sektordan dəstək almağa çalışmalı, eyni zamanda təhsil müəssisələrindəki mövcud resursları daha səmərəli şəkildə istifadə etməlidir. Məsələn, rəqəmsal platformaların istifadəsi və onlayn tədris materiallarının paylaşılması bu çatışmazlıqları müəyyən dərəcədə yüngülləşdirə bilər.

Təhsil müəssisələrində müxtəlif tərəflərin (müəllimlər, tələbələr, valideynlər, idarəçilər) fərqli maraqları mövcuddur və bu, qərar qəbul etmə prosesində mübahisələrə və çətinliklərə səbəb ola bilər. Təhsil siyasətləri və tədris proqramları ilə bağlı müxtəlif maraq qruplarının fikirlərinin uyğunlaşdırılması vacibdir.

Bu çətinliyi aşmaq üçün, idarəçilər və liderlər açıq kommunikasiya və iştirakçılıq prinsiplərinə əsaslanmalı, qərar qəbul etmə prosesində müxtəlif tərəfləri dinləməli və razılığa gəlməyə çalışmalıdır. Bütün maraqlı tərəflərin məsələlərə dair rəy və təklifləri nəzərə alınaraq qərar qəbul edilməsi, təhsil müəssisələrində əməkdaşlıq və qarşılıqlı anlayışın artırılmasına kömək edər.

Təhsil menecerləri və idarəçilərinin peşəkar inkişafı da bir başqa vacib məsələyə çevrilir. İdarəetmə sahəsindəki yeniliklərə və dəyişikliklərə uyğunlaşmaq, idarəçilərin davamlı olaraq təlim və inkişaf proqramlarından

keçməsini tələb edir. Təhsil idarəçiləri, yalnız idarəetmə və liderlik bacarıqlarını deyil, həm də təhsil proseslərinə dair yeni metodları və texnologiyaları öyrənməlidirlər.

Bu çətinliyi həll etmək üçün təhsil müəssisələri, idarəçiləri üçün müntəzəm olaraq peşəkar inkişaf təlimləri təşkil etməlidir. Eyni zamanda, idarəetmə proseslərini optimallaşdıran və təhsil sektorundakı dəyişiklikləri izləyən mütəxəssislər tərəfindən təklif olunan təkmilləşdirmə yollarından faydalanmaq önəmlidir.

Təhsil menecmentində digər bir çətinlik də qanunvericilik və siyasət dəyişiklikləri ilə bağlı olur. Tez-tez dəyişən qanunvericilik və təhsil siyasətləri təhsil müəssisələrinin idarəetmə proseslərini çətinləşdirə və bu dəyişikliklərə uyğunlaşmağı tələb edə bilər. Bu dəyişikliklər təhsil sisteminin keyfiyyətini artıra bilsə də, tətbiq prosesi bir çox çətinliklərlə üzləşə bilər.

Bu çətinliklərin aradan qaldırılması üçün təhsil idarəçiləri davamlı olaraq qanunvericilik dəyişiklikləri ilə bağlı məlumat əldə etməli və bu dəyişikliklərə uyğunlaşmaq üçün təhsil siyasətlərini çevik şəkildə yeniləməlidir. Təhsil müəssisələrinin rəhbərləri, siyasət dəyişikliklərinə dair hazırlıq və adaptasiya strategiyaları hazırlayaraq tədris prosesinin keyfiyyətini artırmağa çalışmalıdırlar.

Təhsil menecmentindəki çətinliklərin aradan qaldırılması və inkişafın təmin edilməsi üçün bəzi yaxşılaşdırma yolları mövcuddur:

– **Davamlı təlim və inkişaf proqramları:** Təhsil idarəçilərinin və müəllimlərin davamlı təlim alması, idarəetmənin səmərəliliyini artıracaq və tədris prosesinə müsbət təsir edəcək.

– **İnnovativ idarəetmə yanaşmaları:** Çevik idarəetmə və rəqəmsal texnologiyaların tətbiqi idarəetmə prosesini optimallaşdıraraq resursların səmərəli istifadəsini təmin edə bilər.

– **Şəffaf və ədalətli qərar qəbul etmə:** Qərar qəbul etmə prosesində şəffaflıq və müxtəlif maraq qruplarının iştirakını təmin edərək daha balanslı qərarlar alınması mümkündür.

– **Təhsil siyasətlərinin yenilənməsi:** Təhsil sahəsindəki qanunvericilik və siyasət dəyişikliklərinə vaxtında uyğunlaşmaq üçün strateji planlama və hazırlıq prosesləri həyata keçirilməlidir.

Bu yollarla təhsil menecmentindəki çətinliklərin öhdəsindən gəlmək və təhsil sisteminin keyfiyyətini artırmaq mümkündür.

| Çətinliklər | Yaxşılaşdırma yolları |
|---|---|
| **Resursların çatışmazlığı** | - Rəqəmsal tədris platformalarından istifadə |
| | - Əlavə maliyyə və texniki dəstək üçün dövlət və özəl sektordan dəstək almaq |

| Çətinliklər | Yaxşılaşdırma yolları |
|---|---|
| | - Mövcud resursları səmərəli şəkildə istifadə etmək |
| **Qərar qəbul etmə prosesində fərqli maraqlar** | - Şəffaf və inklüziv qərar qəbul etmə prosesi |
| | - Müxtəlif tərəflərin fikirlərinin nəzərə alınması |
| | - Əməkdaşlıq və dialoq imkanlarının artırılması |
| **İdarəçilərin peşəkar inkişafı** | - Təhsil idarəçiləri üçün davamlı təlim proqramlarının təşkil edilməsi |
| | - Yeni təhsil texnologiyalarının öyrənilməsi |
| | - Peşəkar inkişafı dəstəkləyən müntəzəm seminar və konfranslar |
| **Qanunvericilik və siyasət dəyişiklikləri** | - Qanunvericilik və təhsil siyasətlərinin müntəzəm izlənməsi və uyğunlaşma strategiyalarının hazırlanması |
| | - Təhsil idarəçiləri üçün yeni qanun və siyasətlərə uyğunlaşmaq üçün təlim və məlumatlandırma fəaliyyətləri |

## Nəticə

Bu məqalədə təhsil sektorunda menecmentin inkişafı üçün effektiv idarəetmə prinsipləri, tətbiqi nümunələr və innovativ yanaşmalar araşdırıldı. Effektiv idarəetmə prinsipləri, təhsil müəssisələrində yüksək keyfiyyətli nəticələr əldə etmək və səmərəliliyi artırmaq üçün vacibdir. Strateji planlaşdırma, liderlik qabiliyyətləri və şəffaflıq prinsipləri təhsil müəssisələrinin fəaliyyətini gücləndirərək, tədris prosesində müsbət dəyişikliklərə gətirib çıxarır.

Bundan əlavə, innovativ yanaşmaların tətbiqi, rəqəmsal texnologiyalar və müasir idarəetmə sistemləri təhsil sektorunun gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Lakin, təhsil menecmentində qarşıya çıxan çətinliklər, o cümlədən resurs çatışmazlığı və idarəetmə proseslərindəki qeyri-müəyyənliklər, inkişafın qarşısında əngəl təşkil edə bilər. Bu çətinliklərin öhdəsindən gəlmək üçün davamlı təlim və inkişaf, çevik idarəetmə yanaşmaları və şəffaf qərar qəbul etmə sistemləri vacibdir.

Nəticə etibarilə, təhsil sektorunda menecmentin inkişafı, həm mövcud çətinliklərin aşılması, həm də yeni inkişaf istiqamətlərinin yaradılması baxımından davamlı səylər tələb edir. Effektiv idarəetmə metodları və strateji yanaşmalar vasitəsilə təhsil müəssisələri daha səmərəli və keyfiyyətli fəaliyyət göstərə bilər, bu da təhsilin gələcək inkişafını təmin edəcək.

***Ədəbiyyat***

1. *Mintzberg, H. (1994). The Rise and Fall of Strategic Planning. Free Press.*
2. *Northouse, P.G. (2019). Leadership: Theory and Practice. Sage Publications.*
3. *Garrison, D.R., & Vaughan, N.D. (2008). Blended Learning in Higher Education: Framework, Principles, and Guidelines. Jossey-Bass.*
4. *Sahlberg, P. (2011). Finnish Lessons: What Can the World Learn from Educational Change in Finland- Teachers College Press.*
5. *Aydın, M. (2007). Eğitim Yönetimi. Pegem Yayıncılık.*
6. *Şişman, M. (2015). Eğitimde Kalite ve Başarı. Eğitim Kitabevi Yayınları.*
7. *Kaya, Z. (2018). Eğitimde Yeni Yaklaşımlar ve Teknoloji Kullanımı. Nobel Yayıncılık.*
8. *Balcı, A. (2009). Eğitim Yönetimi. Pegem Yayıncılık.*
9. *Bush, T., & Glover, D. (2014). School Leadership and Management. Sage Publications.*

**Həsənova G.M.**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
***gunellhasanova24@gmail.com***

# RƏQƏMSALLAŞMA DÖVRÜNDƏ MƏDƏNİYYƏT MÜƏSSİSƏLƏRİNİN İDARƏ OLUNMASININ SOSİOLOJİ PROBLEMLƏRİ

***Xülasə***

*Təqdim olunan məqalədə rəqəmsallaşma dövründə mədəniyyət müəssisələrinin idarə olunmasının sosioloji problemləri araşdırılır. İlk öncə rəqəmsallaşma anlayışının açıqlamasına nəzər yetirək. Rəqəmsallaşma – muzey, teatr, kitabxana kimi qurumların fəaliyyətini fiziki məkandan rəqəmsal platformalara daşıyaraq idarəetmədə yeni çağırışlar yaradır: texnoloji adaptasiya, auditoriyanın dəyişən davranışları, maliyyə modellərinin yenilənməsi və sosial inklüzivlik. Castells-in şəbəkə cəmiyyəti, Bourdieu-nun sahə və Giddens-in strukturasiya nəzəriyyələri əsasında göstərilir ki, rəqəmsal transformasiya sosial qarşılıqlı əlaqələri, güc münasibətlərini və identiklikləri dəyişir. İdarəetmədə çevik iyerarxiya, rəqəmsal savadlılıq, regional inklüzivlik, etik qaydalar və açıq məlumat siyasəti kimi strategiyalar zəruri hesab olunur. Məqalədə əsas ideya ona vurğulayır ki, rəqəmsallaşma yalnız texnoloji yenilik deyil, yəni eyni zamanda instrumentaridir sosial transformasiya alətidir və Azərbaycan üçün milli mədəni irsin qlobal təqdimatında strateji fürsət yaradır.*

# СОЦИОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ УПРАВЛЕНИЯ КУЛЬТУРНЫМИ ИНСТИТУЦИЯМИ В ЭПОХУ ЦИФРОВИЗАЦИИ

***Резюме***

*В представленной статье исследуются социологические проблемы управления учреждениями культуры в эпоху цифровизации. Прежде всего рассматривается понятие цифровизации. Цифровизация — перенос деятельности таких учреждений, как музеи, театры и библиотеки, из физического пространства на цифровые платформы, что создаёт новые вызовы в управлении: технологическая адаптация, изменяющееся поведение аудитории, обновление финансовых моделей и социальная инклюзивность. На основе теории сетевого общества Кастельса, концепции поля Бурдьё и теории структурации Гидденса показывается, что цифровая трансформация изменяет социальные взаимодействия, властные отношения и идентичности. В управлении необходимы такие стратегии, как гибкая иерархия, цифровая грамотность, региональная инклюзивность, этические нормы и политика открытых данных. Основная идея статьи подчёркивает, что цифровизация является не только технологическим новшеством, но и инструментом социальной трансформации, а также создаёт стратегическую возможность*

*для глобальной презентации национального культурного наследия Азербайджана.*

# SOCIOLOGICAL PROBLEMS OF MANAGEMENT OF CULTURAL INSTITUTIONS IN THE ERA OF DIGITALIZATION

**Summary**

*The presented article examines the sociological challenges of managing cultural institutions in the era of digitalization. First, the concept of digitalization is addressed. Digitalization refers to the transition of activities of institutions such as museums, theaters, and libraries from physical spaces to digital platforms, which introduces new managerial challenges: technological adaptation, changing audience behavior, renewal of financial models, and social inclusivity. Based on Castells' network society, Bourdieu's field theory, and Giddens' structuration theory, it is demonstrated that digital transformation reshapes social interactions, power relations, and identities. Management requires strategies such as flexible hierarchy, digital literacy, regional inclusivity, ethical guidelines, and open data policies. The main idea of the article emphasizes that digitalization is not merely a technological innovation, but also an instrument of social transformation, offering a strategic opportunity for the global presentation of Azerbaijan's national cultural heritage.*

***Açar sözlər:*** *rəqəmsallaşma, mədəniyyət müəssisələri, idarəetmə, sosial inklüzivlik, autentiklik*

***Ключевые слова:*** *цифровизация, учреждения культуры, управление, социальная инклюзивность, аутентичность*

***Key words:*** *digitalization, cultural institutions, management, social inclusivity, authenticity*

Rəqəmsallaşma cəmiyyətin bütün sahələrini, o cümlədən mədəniyyət müəssisələrini dərindən dəyişdirir. Bu gün əminliklə qeyd etmək olar ki, muzeylər, teatrlar, kitabxanalar və digər mədəni qurumlar artıq yalnız fiziki məkanda deyil, rəqəmsal platformalarda da fəaliyyət göstərir. Bu proses idarəetmə qarşısında yeni çağırışlar qoyur. Bu çağırışlara texnoloji adaptasiya, auditoriyanın dəyişən davranışları, maliyyə modellərinin yenilənməsi və sosial inklüzivliyin təmin edilməsi kimi istiqamətləri aid etmək olar. Sosioloji baxımdan bu dəyişikliklər idarəetmənin strukturunda, qrup dinamikasında və cəmiyyətlə qarşılıqlı əlaqədə özünü göstərir. Təqdim olunmuş məqalədə rəqəmsallaşma dövründə mədəniyyət müəssisələrinin idarə olunmasının sosioloji problemləri araşdırılır desək yanılmarıq. Məqsəd idarəetmənin sosial aspektlərini, rəqəmsal transformasiyanın yaratdığı konfliktləri və həll yollarını araşdırmaqdır. Tədqiqatda sosioloji nəzəriyyələr (Bourdieu, Castells, Giddens) və empirik nümunələr (Avropa və Azərbaycan konteksti) informasiya mənbəsi kimi istifadə olunur. Rəqəmsallaşma mədəniyyət sahəsində idarəetməni

“hibrid” formaya çevirir – fiziki və rəqəmsal məkanların inteqrasiyasını təmin edir [1]. Bu da sosial kapitalla bağlı yeni suallar doğurur [2]. Rəqəmsallaşmanın sürətli inkişafı mədəniyyət müəssisələrinin ənənəvi funksiyalarını yenidən müəyyənləşdirir, ona görə ki,mədəni məhsullar artıq yalnız fiziki obyektlər deyil, həm də rəqəmsal məlumat axınlarıdır. Bu transformasiya idarəetmənin sosioloji ölçüsünü ön plana çıxarır, çünki bu zaman sosial qarşılıqlı əlaqələr, güc münasibətləri və kollektiv identikliklər dəyişir. Məsələn, rəqəmsal platformalar vasitəsilə mədəniyyətə çıxış qlobal səviyyədə genişlənsə də, bu proses lokal mədəni dəyərlərin itirilməsi riskini yaradır. İdarəetmə bu balanslaşdırma aktını yerinə yetirməlidir, lakin sosioloji baxımdan bu, yeni sosial stratifikasiya formaları yaradır – rəqəmsal resurslara çıxışı olanlar və olmayanlar arasında. Mövzunun təhlilini ilk öncə sosioloji nəzəriyyələr çərçivəsində yerinə yetirsək,düzgün nəticə çıxarmaq olar.

Manuel Castells “şəbəkə cəmiyyəti” konsepsiyasında rəqəmsallaşmanın sosial quruluşu dəyişdirdiyini vurğulayır. Mədəniyyət müəssisələri bu şəbəkədə “düymə” (node) rolunu oynayır, lakin idarəetmə hələ də iyerarxik strukturlara əsaslanır [3]. Bu ziddiyyət sosioloji gərginlik yaradır, çünki şəbəkə cəmiyyətində güc axınları horizontal olur, ənənəvi idarəetmə isə vertikal qalır. Mədəniyyət müəssisələrində menecerlər artıq yalnız daxili resursları idarə etmir, həm də qlobal şəbəkələrdə (məsələn, sosial media, bulud texnologiyaları) iştirak edir. Bu da idarəetmənin sosial rolunu dəyişdirir – menecerlər sosial mediatorlara çevrilir. Digər nəzəriyyə isə Pierre Bourdieu-nun “sahə” nəzəriyyəsi mədəniyyət müəssisələrini müstəqil sosial sahə kimi təyin edir. Rəqəmsallaşma bu sahəyə yeni aktorlar (texnoloji şirkətlər, onlayn platformalar) daxil edir və simvolik kapitalın yenidən bölüşdürülməsinə səbəb olur [4]. İdarəçilər artıq yalnız mədəni ekspertiza ilə deyil, rəqəmsal savadlılıqla da qiymətləndirilir. Bu, sahədə yeni habitus formalaşdırır – rəqəmsal habitus, hansı ki, texnoloji alətləri mədəni kapitala çevirmə qabiliyyətini tələb edir. Anthony Giddens “strukturasiya” nəzəriyyəsində agent və struktur arasında qarşılıqlı əlaqəni vurğulayır. Rəqəmsallaşma idarəetmə agentlərinin (menecerlər, kuratorlar) qərarlarını məhdudlaşdırır, eyni zamanda yeni imkanlar yaradır [5]. Məsələn, virtual sərgilər fiziki məhdudiyyətləri aradan qaldırır, lakin rəqəmsal uçurum (digital divide) sosial bərabərsizliyi artırır [6]. Bu qarşılıqlı əlaqə idarəetmənin refleksivliyini artırır – menecerlər daim öz praktikalarını rəqəmsal reallığa uyğunlaşdırmalı olur. Rəqəmsallaşma eyni zamanda zaman-məkan sıxılmasını (time-space compression) gücləndirir, bu da mədəniyyət müəssisələrinin qlobal auditoriya ilə real vaxt rejimində qarşılıqlı əlaqəsini mümkün edir, lakin lokal sosial kontekstləri zəiflədir.

Nümunələrə nəzər yetirək:

Avropa İttifaqının “Europeana” layihəsi rəqəmsallaşmanın kollektiv yaddaş yaratmaqdakı rolunu göstərir. 2023-cü il hesabatına görə, 58 milyon

rəqəmsal obyekt əlçatandır, lakin idarəetmədə milli maraqlar və texnoloji standartlar arasında konflikt var [7]. Bu, sosioloji baxımdan "qlobal sahə" və "lokal identiklik" arasında ziddiyyətdir. Layihədə iştirak edən müəssisələr metadata standartlaşdırmasında çətinlik çəkir, çünki hər ölkənin mədəni kataloqlaşdırma ənənələri fərqlidir. Bu konflikt idarəetmə qruplarında gərginlik yaradır və kooperativ idarəetmə modellərinin zəruriliyini ortaya qoyur. Azərbaycanda Milli Muzeyin rəqəmsallaşma layihəsi (2021–2025) eksponatların 30%-ni onlayn platformaya köçürüb. Lakin sorğular göstərir ki, ziyarətçilərin 45%-i rəqəmsal məzmuna etibar etmir və fiziki təcrübəni üstün tutur [8]. Bu, "autentiklik" anlayışı ilə bağlı sosioloji problemdir – rəqəmsal nüsxə orijinalın sosial dəyərini azaldırmı? Sorğularda respondentlər rəqəmsal eksponatların "ruhunun" itirildiyini qeyd edir, bu da Walter Benjamin-in "aurası" konsepsiyasını xatırladır. İdarəetmə bu etimad böhranını həll etmək üçün hibrid təqdimat formatları (məsələn, AR texnologiyaları ilə fiziki obyektlərin rəqəmsal zənginləşdirilməsi) tətbiq etməlidir. Britaniya Muzeyinin "Google Arts & Culture" ilə əməkdaşlığı 1 milyondan çox eksponatı rəqəmsallaşdırıb. İdarəetmə baxımından bu, gəlir modellərini dəyişib (virtual biletlər, sponsorluq), lakin əməkdaşların 62%-i texnoloji öyrənmə çətinliyindən şikayətlənir [9]. Bu, nəsil fərqləri (digital natives vs. digital immigrants) ilə bağlı sosioloji gərginlikdir [10]. Gənc əməkdaşlar rəqəmsal alətləri asan mənimsəyir, yaşlılar isə ənənəvi kuratorluq praktikalarına bağlı qalır. Bu fərq idarəetmədə kommunikasiya problemləri yaradır və təlim proqramlarının zəruriliyini göstərir.Rəqəmsallaşma kənd və şəhər, gənc və yaşlı arasında uçurumu dərinləşdirir. UNESCO-nun 2022-ci il hesabatına görə, inkişaf etməkdə olan ölkələrdə mədəni qurumların yalnız 28%-i tam rəqəmsallaşıb [11]. Azərbaycana nəzər yetirsək, görərik ki, regionlarda internet sürəti və cihaz əlçatanlığı məhduddur, bu da öz mənfi təsirini göstərir [12]. Region muzeyləri mərkəzi qurumlara nisbətən daha az rəqəmsal resurslara malikdir, bu da mədəni mərkəzləşməni gücləndirir. İdarəetmə bu uçurumu aradan qaldırmaq üçün mobil tətbiqlər və offline rejimli rəqəmsal arxivlər yaratmalıdır. İlk öncə onu qeyd edək ki, rəqəmsallaşma idarəetməni "data-driven" modelə çevirir. Lakin bu, yaradıcılıq və intuisiyanı sıxışdırır. Tate Modern-in rəqəmsal strategiyasında analitika əsas qərar aləti olub, lakin kuratorların 55%-i "sənət qərarlarının alqoritmləşdirilməsindən" narazıdır [13]. Bu, Max Weber-in "rasionallaşma" tənqidi ilə uzlaşır [14]. Analitika ziyarətçi davranışlarını proqnozlaşdırsa da, sənət seçimi kimi subyektiv qərarları tam əvəz edə bilməz. Bu gərginlik idarəetmədə "texnokratik bürokratiya" riskini yaradır. Rəqəmsallaşma yeni peşələr (rəqəmsal kurator, sosial media meneceri) yaradır, lakin ənənəvi rolları isə getdikcə (bilet satıcısı, qarovulçu) azaldır. ICOM-un 2024-cü il sorğusunda muzey işçilərinin 40%-i iş yerini itirmək qorxusu yaşayır [15]. Bu, sosial təhlükəsizlik və peşə identikliyi problemləridir. İşçilər

yeni rollara keçid üçün yenidən kvalifikasiya tələb edir, lakin bu proses sosial stress yaradır. Virtual reallıq (VR) və süni intellekt (AI) mədəni təcrübəni zənginləşdirir, lakin kommersiyalaşma riski yaradır. Louvre-un "Mona Lisa" VR turları əlçatanlığı artırıb, lakin bəziləri bunu "Disneylandlaşma" adlandırır [16]. Bu, Theodor Adorno-nun "kultur endüstrisi" tənqidi ilə bağlıdır [17]. Kommersiya məntiqinin üstünlük təşkil etməsi mədəniyyətin sosial funksiyasını zəiflədir – yəni təhsil və identiklikliyin formalaşdırılması əvəzinə əyləncə ön plana keçir. Digər bir yanaşmaya nəzər yetirək. Rəqəmsallaşmanın yaratdığı bu problemlər idarəetmədə yeni sosial praktikalar tələb edir. Məsələn, mədəniyyət müəssisələri sosial media vasitəsilə "crowdsourcing" tətbiq edərək ziyarətçiləri məzmun yaratma prosesinə cəlb edə bilər. Bu hal idarəetməni demokratikləşdirir, lakin keyfiyyət nəzarəti problemləri yaradır. Həmçinin, rəqəmsal arxivlərdə məlumatların uzunmüddətli saxlanması (digital preservation) texniki və maliyyə çətinlikləri ilə üzləşir. İdarəetmə bu riskləri proqnozlaşdırmalı və davamlı strategiyalar qurmalıdır. Azərbaycan kontekstində rəqəmsallaşma milli mədəni irsin qloballaşması üçün fürsətdir, lakin dil baryeri (Azərbaycan dilində rəqəmsal məzmunun azlığı) lokal auditoriyanı məhdudlaşdırır. İdarəetmə çoxdilli platformalar yaratmalı və yerli icmalarla əməkdaşlıq etməlidir. Beynəlxalq təcrübədən göründüyü kimi, Hollandiyanın Rijksmuseum-u rəqəmsal strategiyasında "açıq məlumat" (open data) siyasəti ilə uğur qazanıb – eksponatların yüksək keyfiyyətli şəkilləri pulsuz yayılır, bu da tədqiqatçı və təhsil icmalarını cəlb edir. Bu model idarəetmədə sosial kapitalı artırır. İdarəetmədə fiziki və rəqəmsal resursların inteqrasiyası üçün "çevik iyerarxiya" tətbiq edilməlidir [18]. Bu model idarəetmədə çevik qruplar yaradır, hansı ki, layihə əsasında formalaşır və rəqəmsal çağırışlara tez reaksiya verir. Rəqəmsal savadlılıq proqramları (məsələn, Azərbaycan Mədəniyyət Nazirliyinin 2023-cü il təlimləri) genişləndirilməlidir [19]. Bu proqramlar yalnız texniki bacarıqlar deyil, həm də rəqəmsal etika və sosial təsir qiymətləndirməsini əhatə etməlidir. Regionlar üçün mobil tətbiqlər və aşağı sürətli internetə uyğun platformalar yaradılmalıdır [20]. Məsələn, offline yüklənə bilən virtual turlar region ziyarətçiləri üçün əlçatanlıq yaradar. AI və VR istifadəsində autentiklik və məxfilik qaydaları müəyyənləşdirilməlidir [21]. Bu qaydalar mədəni obyektlərin rəqəmsal təmsilində orijinallığa hörməti təmin edir və ziyarətçi məlumatlarının qorunmasını təmin edir. İdarəetmə həmçinin "rəqəmsal yorğunluq" (digital fatigue) problemini nəzərə almalıdır – həddən artıq rəqəmsal məzmun ziyarətçilərdə maraq itkisinə səbəb ola bilər. Buna qarşı hibrid tədbirlər (fiziki sərgilərlə rəqəmsal əlavələr) təşkil edilməlidir. Rəqəmsallaşma mədəniyyət müəssisələrinin idarə edilməsini sosial baxımdan mürəkkəbləşdirir. Bu, sosial inklüzivlik, peşə identikliyi, autentiklik və güc balansına dair problemlər yaradır. Lakin onu qetd edək ki, düzgün idarəetmə

ilə rəqəmsallaşma mədəniyyəti daha əlçatan və dinamik edə bilər. Gələcəkdə sosioloji tədqiqatlar və empirik monitorinqlər bu prosesi istiqamətləndirməlidir. Mədəniyyət müəssisələri rəqəmsallaşmanı yalnız texnoloji yenilik kimi deyil, sosial transformasiya aləti kimi qəbul etməlidir. Bu, idarəetmədə yeni sosial kontraktın formalaşmasını tələb edir – müəssisə, cəmiyyət və texnologiya arasında balanslaşdırılmış əməkdaşlığa şərait yaradır. Azərbaycan üçün bu, milli mədəni irsin rəqəmsal müstəvidə qlobal səviyyədə təqdimatı üçün strateji fürsətdir. Amma unutmaq olmaz ki, bu halda sosial bərabərsizlik risklərini minimuma endirmək əsas şərtdir. İdarəetmənin sosioloji təhlili bu prosesdə əsas istiqamətləndirici rol oynayır, çünki texnoloji dəyişikliklərin sosial nəticələrini proqnozlaşdırmağa imkan verir.

Rəqəmsallaşma dövründə mədəniyyət müəssisələrinin idarə olunması yalnız texnoloji yeniliklərin tətbiqi ilə məhdudlaşmır, həm də sosial münasibətlərin, identikliklərin və güc balanslarının yenidən qurulmasını tələb edir. Məqalədə göstərildiyi kimi, rəqəmsal transformasiya mədəniyyət sahəsində autentiklik böhranı (Benjamin, 1936), sosial stratifikasiya (Van Dijk, 2020), peşə identikliyi gərginliyi (ICOM, 2024) və texnokratik bürokratiya riski (Weber, 1922) kimi sosioloji problemləri ön plana çıxarır. Bu nəticələr idarəetmənin yeni sosial praktikalar formalaşdırmasını zəruri edir. Fiziki və rəqəmsal resursların inteqrasiyası üçün çevik iyerarxiya modeli tətbiq olunmalı, layihə əsaslı qruplar formalaşdırılmalı və rəqəmsal çağırışlara operativ reaksiya verilməlidir (Mintzberg, 2019). İdarəçilər və əməkdaşlar üçün rəqəmsal savadlılıq proqramları genişləndirilməli, bu proqramlar yalnız texniki bacarıqları deyil, həm də rəqəmsal etika və sosial təsir qiymətləndirməsini əhatə etməlidir.

Nəticədə onu qeyd etmək yerinə düşər ki, rəqəmsallaşma mədəniyyət müəssisələrinin idarə edilməsini sosial baxımdan mürəkkəbləşdirsə də, həyata keçirilən düzgün strategiyalarla Azərbaycan üçün isə milli-mənəvi dəyərlərimizin, irsimizin qlobal səviyyədə təqdimatı üçün strateji imkan yaradır. Bu strateji imkanların həyata keçirilməsi gözlənilən risklərin minimuma endirilməsini tələb edir. İdarəetmənin sosioloji təhlili bu prosesin inkişafında əsas instrumentari rolunu oynayır və onun köməyi ilə texnoloji dəyişikliklərin sosial nəticələri proqnozlaşdırılır.

### *Ədəbiyyat*

1. *Borowiecki, K. J., & Navarrete, T. Digitization of heritage collections as indicator of innovation. Economics of Innovation and New Technology (2017).*
2. *Bourdieu, P. The forms of capital. In J. Richardson (Ed.), Handbook of Theory and Research for the Sociology of Education. (1986).*
3. *Castells, M. The Rise of the Network Society. Wiley-Blackwell. (2010).*

4. *Bourdieu, P. The Field of Cultural Production. Columbia University Press. (1993).*
5. *Giddens, A. The Constitution of Society. Polity Press (1984).*
6. *Van Dijk, J. The Digital Divide. Polity Press. (2020).*
7. *Europeana Foundation. Europeana Annual Report 2022–2023. https://www.europeana.eu*
8. *Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. Milli Muzeyin rəqəmsallaşma layihəsi: monitorinq hesabatları. (2024).*
9. *British Museum.Digital Strategy Review(2023).*
10. *Prensky, M. Digital Natives, Digital Immigrants. On the Horizon (2001).*
11. *UNESCO. Culture in the Digital Age: Global Report. (2022).*
12. *Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi. Regionlarda internet əlçatanlığı hesabatları. (2023).*
13. *Tate Modern. Digital Transformation Staff Survey. (2022).*
14. *Weber, M. Economy and Society. University of California Press. (1922).*
15. *ICOM. Global Museum Workforce Survey. (2024).*
16. *Huhtamo, E.Illusions in Motion: Media Archaeology of the Moving Panorama. MIT Press. . (2013).*
17. *Adorno, T., & Horkheimer, M. Dialectic of Enlightenment. (1944).*
18. *Mintzberg, H. Managing the Myths of Digital Transformation. Harvard Business Review. (2019).*
19. *Azərbaycan Mədəniyyət Nazirliyi. Mədəniyyət işçiləri üçün rəqəmsal təlim proqramı. (2023).*
20. *ITU. Digital Inclusion in Cultural Sector: Policy Recommendations (2023).*
21. *ICOMOS. Ethical Guidelines for Digital Heritage. (2022).*

**Xəlifəzadə E.İ.**
**Azərbaycan Dillər Universiteti**
***xelifezadeebel@gmail.com***

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVİN YARADICILIĞINDA BƏDİİ DİLİN ESTETİK FUNKSİYASI

***Xülasə***

*Məqalədə Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsində bədii dil və üslubun xüsusiyyətləri, xalq yaradıcılığı elementlərinin, xüsusilə atalar sözləri, məsəllər, idiomatik ifadələr, alqış və qarğışların sənətkarlıqla istifadəsi tədqiq edilir. Əsərin dilində xalq müdrikliyi, satirik üslub və realist təsvir birləşərək həm obrazların daxili aləmini, həm də dövrün ictimai-mənəvi mənzərəsini dolğun şəkildə əks etdirir. Yazıçı surətləri fərdi danışıq tərzi, psixoloji vəziyyəti və sosial mənsubiyyətinə uyğun danışdırmaqla onların xarakterini canlı və inandırıcı şəkildə təqdim etmişdir. Xüsusilə Səlim bəyin tənqidi, sarkastik ifadələrlə dolu nitqi, Sona xanımın ana qayğısını, qadın zərifliyini əks etdirən lətafətli danışığı və Nazlı xanımın emosional qarğışları əsərin dilinə bədii dinamizm gətirir. Haqverdiyev xalq dilinin zənginliyindən və emosional təsir gücündən məharətlə istifadə edərək həm fərdi obrazlar, həm də bütöv bəy təbəqəsinin mənəvi tənəzzülünü bədii dildə ifadə etmişdir. Məqalədə göstərilir ki, "Dağılan tifaq" əsərinin dili dramaturqun realizm prinsiplərinə sadiqliyinin, milli düşüncə və dil mədəniyyətinə dərin bağlılığının bariz nümunəsidir.*

# ЭСТЕТИЧЕСКАЯ ФУНКЦИЯ ХУДОЖЕСТВЕННОГО ЯЗЫКА В ТВОРЧЕСТВЕ АБДУРРАГИМ-БЕКА АХВЕРДИЕВА

***Резюме***

*В статье рассматриваются особенности художественного языка и стиля в трагедии Абдуррахим бек Хагвердиева «Распавшийся союз» («Dağılan tifaq»), исследуется использование элементов народного творчества — пословиц, поговорок, идиоматических выражений, благопожеланий и проклятий — как выразительного средства художественного мастерства. Язык произведения объединяет народную мудрость, сатирический стиль и реалистическое изображение, что позволяет глубоко раскрыть как внутренний мир персонажей, так и социально-нравственную картину эпохи. Писатель, наделяя своих героев индивидуальной манерой речи, психологическим состоянием и социальным колоритом, сумел создать живые и убедительные образы. Особенно выразительны саркастическая, критическая речь Салима бея, наполненная иронией, мягкая и заботливая речь Соны ханум, отражающая материнскую теплоту и женскую утончённость, а также эмоциональные проклятия Назлы-ханум, придающие языку пьесы динамичность и экспрессию. Гагвердиев мастерски использует богатство и эмоциональную выразительность народного языка, чтобы средствами художественной речи*

*показать не только индивидуальные черты персонажей, но и духовное разложение всего бекского сословия. В статье подчёркивается, что язык пьесы «Распавшийся союз» является ярким проявлением приверженности драматурга принципам реализма, его глубокой связи с национальным мышлением и культурой родного языка.*

# THE AESTHETIC FUNCTION OF ARTISTIC LANGUAGE IN THE WORKS OF ABDURRAHIM BEY HAQVERDIYEV

***Summary***

*The article examines the features of artistic language and style in Abdurrahim bey Haqverdiyev's tragedy "The Broken Union" ("Dağılan tifaq"), focusing on the skillful use of elements of folk creativity particularly proverbs, sayings, idiomatic expressions, blessings, and curses as instruments of artistic expression. In the language of the play, folk wisdom, satirical tone, and realistic depiction are interwoven, vividly reflecting both the inner world of the characters and the socio-moral atmosphere of the time. The writer successfully conveys the individuality of his characters by shaping their speech in accordance with their psychological state, social background, and personal traits, thereby rendering their images vivid and convincing. Particularly noteworthy are Salim bey's critical and sarcastic speech, Sona khanum's delicate and nurturing tone embodying maternal care and feminine grace, and Nazli khanum's emotional curses all of which contribute to the artistic dynamism of the play's language. Haqverdiyev masterfully employs the richness and emotional power of the Azerbaijani vernacular to artistically express both the moral decline of the bey class as a whole and the distinct individuality of each character. The article demonstrates that the language of "The Broken Union" serves as a striking manifestation of the playwright's adherence to the principles of realism and his profound connection to national thought and linguistic culture.*

***Açar sözlər:*** *bədii dil, atalar sözləri və məsəllər, üslub, nitq, idiomatik ifadələr*

***Ключевые слова:*** *художественный язык, пословицы и поговорки, стиль, речь, идиоматические выражения*

***Key words:*** *artistic language, proverbs and sayings, style, speech, idiomatic expressions*

Ədəbiyyatşünaslıqda bədii əsərin sənətkarlıq səviyyəsini müəyyən edən amillər təkcə sujet və kompozisiya ilə məhdudlaşmır; dil və üslub məsələləri də bu sistemin ayrılmaz hissəsidir. Hər bir yazıçının özünəməxsus ifadə tərzi və bədii dili olur. Əbdürrəhim bəy Haqverdiyev də sözün qüvvəsinə, dilin estetik imkanlarına dərin hörmətlə yanaşaraq klassik ədəbi ənənələri yaşatmış sənətkarlardandır. Ə.Haqverdiyev milli dilin qorunması və inkişafı məsələsinə xüsusi önəm vermiş, ana dilinin ədəbiyyat və mədəniyyətin dayağı olduğunu vurğulamışdır. "Ədəbi dilimiz" adlı məqaləsində o, Azərbaycan ədəbiyyatının və bədii dilinin tərəqqisindən qürurla bəhs edir. Öz yaradıcılığında isə sadə,

xalq danışıq dilinə əsaslanmağa çalışmış, M.F.Axundovun dil ənənələrini davam etdirərək onları yeni mərhələyə yüksəltmişdir. Akademik M.Arifin sözləri də bu fikri dəstəkləyir: *"Fikri az sözlə, lakonik şəkildə ifadə etmək dramaturqun başlıca borcudur. Artıqlığa və uzunçuluğa yol vermək əsərin hərəkətini zəiflədir, tamaşaçını da yorur"* [1, s.78].

Görkəmli dramaturq "Dağılan tifaq" əsərini yazarkən dramatik yaradıcılıqda bədii dilin nə qədər önəmli olduğunu dərindən dərk etmiş və bu amili öz yaradıcılığında əsas prinsipə çevirmişdir. O, bu əsərdə dil ilə dramaturji quruluş arasındakı qarşılıqlı əlaqəni aydınlaşdırmış, sözün hadisələrin gedişinə, dramatik situasiyaların inandırıcılığına necə xidmət etdiyini nümayiş etdirmişdir. "Dağılan tifaq"da istifadə olunan hər bir söz, cümlə və ifadə təsadüfi deyil – onlar müəyyən bir hadisəni, əhvalatı və ya hərəkəti işarə edir, süjetin axarına yön verir. Başqa sözlə, bu əsərdə söz və hadisə, nitq və hərəkət arasında üzvi bir vəhdət yaradılmışdır. Haqverdiyev dramatik dilin dinamikasını, onun səhnə hərəkətinə təsirini incəliklə hiss etmişdir. Faciə janrında istifadə olunan dil öz ifadə gücünə və emosional dərinliyinə görə dram və komediyadan fərqlənir. Yazıçının qənaətinə görə, tragik qəhrəmanın dili də onun taleyi kimi ağır, təsirli və emosional olmalıdır.

Prof. M.Məmmədovun fikrincə, "komediya eybəcərlik və mənəvi zəiflikləri şişirdilmiş şəkildə göstərirsə, faciə də insanın ucalığını, əməllərinin gözəlliyini və qəhrəmanlığını eyni dərəcədə böyüdülmüş formada təqdim edir" [2, s.84]. Bu baxımdan faciə janrı digər dramatik növlərdən həm ideya, həm də xarakter baxımından fərqlənir. Faciələrdə iştirak edən obrazlar, xüsusilə də əsas qəhrəmanlar, güclü iradəyə, sabit xarakterə və bənzərsiz daxili aləmə malik olurlar. Onlar bir-birinə zidd düşüncə və ideyaların daşıyıcısı kimi qarşı-qarşıya gəlir, barışmaz bir mübarizəyə qoşulurlar. Bu mübarizə faciə janrının əsas hərəkətverici qüvvəsinə çevrilir. Belə qarşıdurmalar nəticəsində faciəvi hadisələrin gedişi daha gərgin, emosional və dramatik olur. Mübarizə adətən tərəflərdən birinin məğlubiyyəti, bəzən də fəlakətli sonluqla – qəhrəmanın həlakı ilə başa çatır. Bu, faciənin insan xarakterini ən yüksək həddə sınayan, mənəvi və ideoloji ziddiyyətləri dərinləşdirən əsas xüsusiyyətidir.

Ədib "Dağılan tifaq" əsərində qəhrəmanların faciəvi taleyini və onların yaşadığı mənəvi ziddiyyətləri tam reallıqla göstərmək üçün bədii dilin imkanlarından yüksək ustalıqla yararlanmışdır. O, Azərbaycan ədəbi dilini və xalq danışıq dilini dərindən bildiyi üçün obrazların daxili aləmini, düşüncə və arzularını daha canlı təsvir edə bilmişdir. Ə.Haqverdiyev dilin ifadə gücünü artırmaq məqsədilə əsərlərində atalar sözləri və məsəllərdən məharətlə istifadə etmiş, onları obrazların nitqinə təbii şəkildə daxil etmişdir. Bu xalq hikmətləri qəhrəmanların xarakterini açmağa, onların mənəvi mövqeyini oxucuya daha aydın göstərməyə xidmət edir. Yazıçının yaradıcılığında xalq ifadələri və atalar sözləri xüsusi bir bədii-estetik dəyər daşıyır. Azərbaycan xalq dilinin

incəliklərinə dərindən bələd olan yazıçı, müəllimi saydığı M.F.Axundovun ədəbi dil ənənələrini daha da inkişaf etdirərək özünəməxsus, təsirli və poetik "Haqverdiyev dili"ni formalaşdırmışdır. Atalar sözləri onun əsərlərində sadəcə bədii bəzək deyil, həm də mənəvi hikmət daşıyıcısı kimi çıxış edir. Azərbaycan atalar sözləri insanın hiss və duyğularını poetik dillə ifadə edir, oxucunu mehribanlığa, əməyi dəyərləndirməyə, ləyaqət və vicdanla yaşamağa səsləyir. Bəzi atalar sözləri isə sosial mövqedən asılı olaraq fərqli mənalar da daşıyır. Məsələn, "dünya beş gündür, beşi də qara" kimi ifadələr daha çox tənbəl, məsuliyyətsiz, zövq düşkünü insanlar tərəfindən işlədilir. Nizami Xəlilov da bu məqamı vurğulayaraq "Əbdürrəhim bəy Haqverdiyev və folklor" adlı dissertasiyasında haqlı olaraq qeyd edir ki, Haqverdiyevin yaradıcılığında istifadə olunan atalar sözləri və məsəllər həm yığcamlığı, həm də dərin mənəvi-ibrətamiz məzmunu ilə fərqlənir [7, s.103].

Dramaturq əsərlərində istifadə etdiyi atalar sözləri və məsəlləri hadisələrin məzmunu ilə elə ustalıqla uzlaşdırmışdır ki, xalq təfəkkürünün məhsulu olan bu ifadələr yeni bir bədii obrazlılıq qazanmışdır. O, bu hikmətli sözləri sadəcə bədii təsvir vasitə kimi deyil, eyni zamanda dövrün sosial mənzərəsini və insanların düşüncə tərzini açmaq üçün işlətmişdir. Ə.Haqverdiyev bu yolla müxtəlif təbəqələrə mənsub insanların dünyagörüşünü, onların həmin ifadələri öz mənafeyinə uyğun şəkildə necə yozduğunu bədii ümumiləşdirmə yolu ilə təqdim etmişdir. Yazıçı xüsusilə obrazların ikiüzlülüyünü və mənəvi korluğunu ifşa etmək üçün onların dilindən işlədilən atalar sözlərindən və məsəllərdən məqsədyönlü şəkildə istifadə etmişdir. Bu ifadələr dialoqlara təbii surətdə daxil edilmiş, personajların düşüncə və davranışlarını açmaqda mühüm rol oynamışdır. Bəylərin dilində səslənən hər bir atalar sözü və məsəlin mənası hadisələrin gedişi ilə sıx bağlıdır; onlar həm süjetin inkişafına xidmət edir, həm də obrazların mənəvi simasını tam şəkildə açır. Bu üsul nəticəsində oxucu və tamaşaçının gözündə hadisələr daha canlı və təsirli şəkildə canlanır, qəhrəmanların əsl mahiyyəti üzə çıxır. Məsələn, Nəcəf bəyin oğlu Süleyman bəy haqqında yoldaşları ilə söhbəti zamanı Səlim bəyin dedikləri bu yanaşmanın tipik nümunəsidir. Məsələn: *"A kişi, mən imanım, döyməkdən deyil. Mal yiyəsinə oxsamasa haramdır. Ot kökünün üstündə bitər. Atası gedən yolu oğlu da gedəcək. Ata qumarbaz oldu, oğul da qumarbaz olar. Ata şurbidir, oğul da şurbi olar. Bir ata ki, bikar vaxtında oğlu ilə bir yerdə qumar oynaya, onun oğlu qumarbaz olmayıb müctəhid ki, olmayacaq"* [5, s.65].

Verilmiş nümunədə yazıçı xalq müdrikliyinə əsaslanan iki atalar sözünü "Mal yiyəsinə oxşamasa, haramdır" və "Ot kökünün üstündə bitər" ifadələrini yan-yana işlədərək, fikrini həm bədii, həm də mənəvi baxımdan gücləndirir. Bu atalar sözləri vasitəsilə görkəmli yazıçı Nəcəf bəyin mənəvi zəifliyini, qumara aludəçiliyini və içki düşkünlüyünü kəskin şəkildə tənqid edir. Müəllif bu

fikirləri birbaşa müəllif nitqi ilə deyil, Səlim bəyin dili ilə söyləməklə həm realist təsir gücünə nail olur, həm də bəylərin mənəvi iflasını oxucuya daha inandırıcı şəkildə çatdırır. Əsərin dilinə diqqət yetirildikdə görünür ki, atalar sözlərinin əksəriyyəti məhz Səlim bəyin dilində işlədilmişdir. Bu təsadüfi deyil, çünki dramaturq onun simasında cəmiyyətin eybəcərliklərini açıq şəkildə dilə gətirən, həqiqəti söyləməkdən çəkinməyən bir obraz yaratmışdır. Bəylərin mənfi keyfiyyətləri, mənəvi kasadlıqları və tərbiyə boşluqları məhz Səlim bəyin ironik, amma ibrətamiz nitqi vasitəsilə açılır. Səlim bəyin işlətdiyi atalar sözləri və məsəllər tənqidi məzmun daşıyır, onun xarakterini, həyat təcrübəsini və cəmiyyətə münasibətini dəqiq ifadə edir. Haqverdiyev hər bir obraz üçün dil materialını diqqətlə seçir; hansı bəyin hansı mənfi xüsusiyyətini ifşa etmək istəyirdisə, bu xüsusiyyəti səciyyələndirən xalq ifadəsini məhz həmin obrazla əlaqələndirərək işlətmişdir. Əsərin bir hissəsində Həmzə bəy öz “qoçaqlığından” lovğalananda, Səlim bəy onun sözünü kəsərək istehzalı tonda cavab verir və bu zaman yenə də xalq dilinin hikmətli ifadələrinə müraciət edir: *“Bəli, buyur görək Ağa Həmzə bəy sahibqıran! Söylə rəşadətindən, vurğunluğundan, yıxdığından, hünərindən, pəhlivanlığından, danış görək, sən harada dam yarıb, dana çıxarıbsan!?” Həmzə bəy.... Mən padşah uğrunda özümü güllə qabağına verib, dava etmişəm, hünər göstərmişəm, çin və nişanlar almışam... Səlim bəy... Bilirəm sənin hünərini, davada qolunu ha belə qatlayıbsan (qolunu qısır çiyninə) ki, bəs qolum çolaq olub, tüfəng tuta bilmirəm... Bunu cəmi Varşava davasına gedənlər bilirlər. Mən də bilirəm, mənim nənəm də bilir və cəmi şəhərin uşaqları da bilirlər”* [5, s.62].

Aydın görünür ki, Səlim bəy Həmzə bəyin söylədiyi yalanları tək-tək ifşa edir və onun saxtakarlığını açıq şəkildə göstərir. Bu xüsusiyyət başqa səhnələrdə də özünü göstərir. Nəcəf bəy oğlunun zəif təhsili və düzgün olmayan davranışlarından bəhs edərkən, Səlim bəyin verdiyi sərt və kəskin cavab onun ikiüzlü hərəkətlərini üzə çıxarır. O, açıq şəkildə belə deyir: *“Sənətin nə idi, evin yıxılsın? Həmişə qış uzunu bikar qalanda oğlunla lopuqdan qumar oynayardın. Yalan ki deyil. Sən uduzanda pul verirdin, o uduzanda lopuq alırdı”* [5, s.61]. Bu dialoq vasitəsilə Səlim bəy Nəcəf bəyin məsuliyyətsizliyini və bu davranışların oğlunun tərbiyəsinə necə mənfi təsir göstərdiyini qətiyyətlə dilə gətirir. Yazıçı bu səhnə ilə həm fərdi, həm də ictimai tənqidi ön plana çəkir. “Dağılan tifaq” əsərində Ə.Haqverdiyev atalar sözləri və məsəllərdən hər dəfə məqsədyönlü şəkildə istifadə etmiş, onları hadisələrin axarına təbii şəkildə daxil etmişdir. Xalq ifadələri vasitəsilə o, həm xarakterlərin daxili aləmini, həm də dövrün mənəvi problemlərini dərinləşdirir. Eləcə də Aslan bəy Həmzə bəylə yaşına görə zarafat edəndə, Səlim bəy onun sözlərinə xalq müdrikliyinə söykənən, mənalı və istehzalı cavabla qarşılıq verir. Bu məqam yazıçının dialoq qurmaq bacarığını və bədii dil üzərində nə qədər ustalıqla işlədiyini bir daha sübut edir. *“Qadam, çox kötüklər üstündə*

*çırpılar doğrayıblar. Allah qoysa, yenə hamınızı mən yerə quylayacağam. Bir də canım, mən qoca deyiləm ki, adımı qoca qoyub məni yaxalayıbsınız"* [5, s.61].

Dramaturq Həmzə bəyin daxili aləmini, psixoloji durumunu və xarakterinə xas cizgiləri tamaşaçının gözündə daha aydın canlandırmaq üçün xalqın hikmət xəzinəsi sayılan məsəllərdən ustalıqla yararlanmışdır. Xalq məsəlləri onun üçün sadəcə bədii vasitə deyil, obrazın düşüncə tərzini və davranışını anlamağa kömək edən psixoloji açardır. Bu barədə Prof. K.Məmmədov haqlı olaraq qeyd edir ki, "xalq yaradıcılığının ən geniş yayılmış forması olan atalar sözləri və məsəllər insan həyatının uzunmüddətli təcrübəsinin nəticəsidir. Ə.Haqverdiyev də bu zəngin irsdən yerində və məqsədəuyğun şəkildə istifadə etdiyinə görə, onun təsvir etdiyi hadisələr daha canlı, ifadə etdiyi fikirlər isə daha təsirli alınmışdır" [3, s.177]. Haqverdiyev bu xalq ifadələrini bəzən öz müəllif nitqində, bəzən isə personajların dilində işlədərək hər birini situasiyaya və mühitə uyğunlaşdırmışdır. O, atalar sözləri və məsəllər vasitəsilə obrazların mənəvi mövqeyini, düşüncə dünyasını və sosial təbəqəsini dəqiq müəyyənləşdirir. Yazıçının dilində və qəhrəmanlarının nitqində işlənən xalq hikmətləri sayəsində oxucu asanlıqla anlayır ki, kim hansı məqsədə xidmət edir, hansı əqidəyə sahibdir və onu digərlərindən fərqləndirən əsas cəhətlər nələrdir.

Əsərdə nəsihətçi mövqedə çıxış edən iki şəhər sakini – Əbdül və İsmayıl arasında baş verən dialoq xüsusilə diqqətəlayiqdir. Bu söhbət vasitəsilə dramaturq həm hadisələrin mənəvi mahiyyətini açır, həm də cəmiyyətin dəyərlər sisteminə işıq salır. Əbdül Nəcəf bəyin ailə həyatında yaranan fəlakətin, "tifaqın dağılmasının" əsas günahını onun öz məsuliyyətsizliyində və səhv davranışlarında görür. Əbdülün danışığı xalq müdrikliyinə əsaslanır və o, fikrini daha təsirli şəkildə çatdırmaq üçün məşhur bir məsəllə söhbətinə başlayır. Bu, onun obrazını həm təcrübəli, həm də ibrətamiz nəsihətlər verən bir şəxs kimi təqdim edir. Dramaturq bu yolla xalq düşüncəsini dialoqun təbii axarına daxil edir, beləliklə, həm hadisələrin səbəb-nəticə əlaqəsini möhkəmləndirir, həm də əsərin dilinə xalq hikmətinə xas dərinlik və təbiilik qazandırır. "Bəli, Ağa İsmayıl, doğru buyurursunuz, o şey ki, insan öz-özünə edər, aləm yığılsa ona eləyə bilməz" [5, s.61]. Sona xanımın monoloqunda işlədilən xalq məsəli də onun dərdli vəziyyətinə uyğun olaraq işlədilmişdir. Həmin məsəl belədir: "Çölüm özgələri yandırır, içərim özümü". Xüsusi olaraq vurğulamaq lazımdır ki, əsərdə atalar sözləri və məsəllər əsasən obrazların danışığında öz əksini tapır. Bu xüsusiyyət onların daxili aləmini, düşüncə tərzini və həyat təcrübəsini daha dolğun şəkildə açmağa xidmət edir. Belə ifadələr surətlərin nitqinə həm təbiilik, həm də xalq müdrikliyinə söykənən dərin mənəvi məzmun qazandırır.

Ədib bu obrazlar vasitəsilə fikri həm qısa, həm də təsirli şəkildə ifadə etməyi bacarır. O, hər bir personajın danışıq tərzini, həyatdakı mövqeyini və xarakterini nəzərə alaraq müxtəlif idiomatik ifadələrdən ustalıqla istifadə etmişdir. Obrazların nitqində tez-tez rast gəlinən bu ifadələr onların daxili dünyasını, hadisələrə baxışını və emosional vəziyyətini açmaqla yanaşı, müəllifin dilinə də yığcamlıq və təbiilik gətirir. Pyesin birinci pərdəsində Nəcəf bəyin evinə toplaşanlar arasında gedən dialoqda Səlim bəyin Nəcəf bəyə söylədikləri bu cəhətlərin bariz nümunəsidir. *"Sən öləsən, çox əlidolu və başı ətli gəlmişəm. Bu saat iki yüz iyirmi beş manat cibimdə pul, keyfim də gecələr ulduza hürür. Uduzmağa da meylim yoxdur. Gəlmişəm, görüm səni də bir xoruza yükləyə bilərəmmi? Budur, bir neçə gündür əlim çox yaxşı gətirir. Bu saat Leylacla qumar oynamağa hazıram. Hələ, Nəcəf, mən ölüm, de görüm mənə bir üç yüz manat uduzmaqla aran necədir?"* [5, s.63].

Yazıçı Səlim bəyin nitqinə dinamika və ifadə gücü qatmaq məqsədilə onun dilində bir sıra idiomatik ifadələrdən yararlanmışdır. "Əli dolu" və "başı ətli" ifadələri ilə Səlim bəy Həmzə bəyin bütün pullarını udaraq cibini doldurmasına eyham vurur. Qələbəsindən məmnun qalan Səlim *bəy "keyfim də gecələr ulduza hürür"* deməklə sevincini obrazlı şəkildə ifadə edir. O, Nəcəf bəyə *"səni də bir xoruza yükləyə bilərəmmi?"* sözlərini deməklə, onunla da qumar oynayıb udmaq niyyətini kinayə ilə bildirir. Yazıçı Səlim bəyin dilindəki "leylac" sözünü simvolik məna daşıyan obraz kimi təqdim edir. Qeyd etmək lazımdır ki, Yaxın Şərqdə "Leylac" adı ustalıqla oyun oynayan, mahir sənətkar mənasında işlədilir. Səlim bəy *"bu saat leylacla qumar oynamağa hazıram"* deməklə özünü təcrübəli və cəsarətli oyunçu kimi göstərir. Nəcəf bəy: *"Yavaş ud, boğazında qalar. Yenə kimin qulağını kəsibsən?"* Həmzə bəy: *"Mən evi yıxılmışın, mə oğlu ölmüşün, mən yurdu itmişin, mən küllüyü göyə sovrulmuşun. Belə haramın olsun, burnundan gəlsin, yorğan altında yeyəsən"*. Səlim bəy: *"Niyə yeyirəm yoğan altında, vallah oynaqlaya-oynaqlaya yeyəcəyəm. Sənin malın ana südündən də halaldır, malını yeməyənin malını yeyərlər. Uşaq aşıq yığan kimi yığınca, ver biz yeyək, Allaha da xoş getsin, bəndəyə də"* [5, s.67].

Nəcəf bəyin *"yenə kimin qulağını kəsibsən?"* sualı ilə o, Səlim bəyin bu dəfə qumarda kimi uduzdurduğunu, kimdən pul aldığını öyrənmək istəyir. Bu sözlərdən sonra Həmzə bəyin köhnə yarası təzələnir və o, acı kinayə ilə belə deyir: *"Belə haramın olsun, burnundan gəlsin, yorğan altında yeyəsən"*. Bu ifadə onun daxili narazılığını və Səlim bəyə qarşı qəzəbini aydın göstərir. Həmzə bəyin arzusuna görə, Səlim bəyin qazandığı pullar ona xeyir gətirməsin, həmin var-dövlətin sevinci əzabla qarışsın. Əbdürrəhim bəy Haqverdiyev "Dağılan tifaq" əsərində hər bəyin nitqini onun xarakterinə, sosial vəziyyətinə və dövrün reallıqlarına uyğun şəkildə qurur. Buna görə də obrazların dili son dərəcə canlı, təbii və inandırıcı alınır. Bəylərin istifadə etdiyi idiomatik ifadələr

onların düşüncə tərzini, həyat baxışını, mənəvi dünyasını dolğun şəkildə əks etdirir. Onlar danışarkən fikirlərini daha təsirli etmək üçün xalq məsəllərinə və atalar sözlərinə müraciət edirlər.

Əsərdə qadın obrazlarının dili də xüsusi diqqət çəkir. Tarixən xalq ədəbiyyatının bir çox inciləri, kişilərin dilindən silinmiş söz və ifadələr məhz qadınların danışığında qorunub saxlanılmışdır. Ə.Haqverdiyev bu xüsusiyyəti nəzərə alaraq, qadın surətlərini canlı xalq danışığına uyğunlaşdırmış, onların nitqini alqış və qarğışlarla zənginləşdirmişdir. Bu da qadın obrazlarının daha təbii, səmimi və təsirli görünməsinə səbəb olmuşdur. Dramaturq qadınların dilindəki bu ifadələri onların daxili aləmini, ağrı-acılarını və arzularını real şəkildə göstərmək üçün ustalıqla işlətmişdir. Professor T.Mütəllimov alqış və qarğışların mahiyyətini izah edərkən qeyd edir ki, bu ifadələr insanın dərin hiss və həyəcan anlarında yaranır və məhz bu emosional gərginlik nəticəsində işlədilir. Onlar həm məzmun, həm forma, həm də ifadə tərzi baxımından olduqca rəngarəng və çoxşaxəlidir. Alim həmçinin vurğulayır ki, xalq arasında əsrlər boyu formalaşan alqış, qarğış və andların bir çoxunda dini inancların və mövhumatın izləri öz əksini tapır [4, s.74]. Əsərdə qarğış motivinin ən təsirli nümunələrindən biri Nazlı xanımın dilində səslənir. Bu səhnədə Nazlı xanımın sözlərində həm qadın iztirabı, həm də haqsızlığa qarşı içdən gələn üsyan aydın duyulur: *“Allah səni evsiz-eşiksiz qoysun. Allah! Mənim balalarımı düzdə qoyanın balalarını düzdə qoy. Allah! Məni oda yandıranın üstünə od yağdır! Belə, Allah sizin gözlərinizin yaşını çörəyinizə yavanlıq eləsin! Sizi görüm ağ gün eşidəndə burnunuzun ucu tutulsun!”* [5, s.75].

Nazlı xanım uşaqlarının çörək pulunu qumarda uduzaraq onları ac qoyan Nəcəf bəyə qarşı dərin qəzəb və nifrət hissi ilə doludur. O, Tanrıdan arzulayır ki, Nəcəf bəy və onun övladları da eyni acı taleyi yaşasınlar. Onun dediyi qarğış sözləri fikrin təsir gücünü daha da artırır: o, Nəcəf bəyin çəkdiyi göz yaşlarının belə onun çörəyinə dad verməməsini, hətta bir parça yavan çörəyə də möhtac qalmasını diləyir. “Burnunun ucu göynəsin” ifadəsi isə xalq arasında çox işlənən qarğışlardan biridir və yazıçı bu ifadəni pyesdə “burnunuzun ucu tutulsun” formasında işlədərək, mənanı daha da kəskinləşdirmişdir. Nazlı xanım bu sözlərlə Nəcəf bəyin heç vaxt rahatlıq tapmamasını, həyatında xoşbəxt gün görməməsini arzulayır. “Dağılan tifaq” əsərində müəllif qəhrəmanlarının xarakterini açmaq və onları canlı təsvir etmək üçün xalq dilinin bədii imkanlarından ustalıqla faydalanmışdır. O, hər bir surətin nitqini onun sosial mənsubiyyətinə, psixoloji vəziyyətinə və həyat tərzinə uyğun şəkildə qurmuşdur. Ədib bu pyesdə dil vasitəsilə surətlərin daxili aləmini, duyğularını və düşüncələrini açıq şəkildə göstərmişdir. Hər bir obraz özünəməxsus ifadələr, deyimlər, monoloq və dialoqlarla səciyyələnir. Xüsusilə Nəcəf bəyin dili onun mənəvi dünyasının güzgüsüdür. Yazıçı onun nitqində mülkədar təbəqəsinə xas olan ifadələri, düşüncə tərzini və keçmişə bağlılığını

ustalıqla əks etdirmişdir. O, öz var-dövlətinin, kef məclislərinin, vəzifə və şan-şöhrətinin əsiri kimi təsvir olunur. Ə.Haqverdiyev Nəcəf bəy obrazında bütövlükdə köhnə bəylik dünyasının dağılmasını, onun mənəvi tənəzzülünü realizmin gücü ilə göstərmişdir: *"Atalar məsəlidir, dünya beş gündür, beşi də qara. Bədbəxt mən o kəsə deyirəm ki, bu beş günü ləzzət, damaqla keçirib, baş gora aparmaya..."* Nəcəf bəyin dost çevrəsində yer alan Həmzə bəy, Aslan bəy, Səlim bəy və Süleyman bəy də onun kimi qumarbaz, kef düşkünü və mənasız həyat yaşayan insanlardır. Onların düşüncə tərzi və həyata baxışı eyni kökdən qidalanır. Bu surətlər vasitəsilə müəllif keçmiş dövrlərdə bəylərin necə də var-dövlət içində, rahat və sərbəst yaşadıqlarını göstərir. O dövrdə onların sözünün qanun sayıldığı, istədiklərinin dərhal yerinə yetirildiyi də aydın olur. Səlim bəyin dilində işlənən "bir gözü kor, bir gözü məyub ov quşu" ifadəsi isə simvolik məna daşıyır. Bu, vaxtilə ehtişam içində yaşayan, lakin zamanla hər şeyini itirib səfalətə düşən bəylərin faciəli aqibətinə işarədir. Ə.Haqverdiyev bu bənzətmə ilə onların mənəvi korluğunu və düşkünlüyünü bədii şəkildə qabardır. Dramaturq "Dağılan tifaq" əsərini qələmə alarkən dramaturgiyanın əsas prinsiplərinə – aydın, səlis və həyati dialoqların yaradılmasına xüsusi diqqət yetirmişdir. Onun dialoqları həm hadisələrin axıcılığını təmin edir, həm də qəhrəmanların xarakterini real və təsirli şəkildə açır.

Görkəmli yazıçı səhnə mədəniyyətini dərindən bilən bir sənətkar kimi anlayırdı ki, tamaşaçı mürəkkəb və dolaşıq cümlələri anlamağa, onların mənası üzərində düşünməyə zaman tapmır. Buna görə də o, pyeslərindəki dialoqları mümkün qədər sadə, aydın və dərhal qavranıla bilən şəkildə qurmuşdur. Yazıçı həm də dialoqların yığcam olmasının vacibliyini dərk edir, fikrin artıq sözlərə ehtiyac qalmadan, qısa və təsirli formada çatdırılmasına çalışırdı.

## Nəticə

Ə.Haqverdiyev "Dağılan tifaq" əsərində bədii dilin estetik funksiyasını yüksək sənətkarlıqla həyata keçirmiş, dilin ifadə gücü və xalq hikmətinin dərin qatlarını dramaturji məzmunla vəhdətə gətirmişdir. Yazıçı üçün dil sadəcə ünsiyyət vasitəsi deyil, həm də insan xarakterini, psixologiyasını və ictimai mühiti açan əsas bədii alətdir. O, obrazların danışıq tərzini onların sosial mənsubiyyətinə, psixoloji durumuna və həyat təcrübəsinə uyğun şəkildə qurmaqla, surətlərin fərdiliyini aydın şəkildə nümayiş etdirmişdir. Əsərdə işlədilən atalar sözləri, məsəllər, idiomatik ifadələr, alqış və qarğışlar yalnız folklor elementləri kimi deyil, həm də dərin ideya-bədii məna daşıyıcısı kimi çıxış edir. Bu ifadələr vasitəsilə ədib həm xalq müdrikliyini, həm də cəmiyyətin mənəvi problemlərini ustalıqla ifadə etmiş, bədii nitqin milli-estetik zəminini möhkəmləndirmişdir. Xalq dilinin canlılığı və təbiiliyi sayəsində əsərin dili həyatiliyi, emosional təsir gücü və realizmi ilə seçilir. "Dağılan tifaq" dramaturqun dil ustalığını, milli düşüncəyə və realizm prinsiplərinə sədaqətini göstərən nümunədir. Dramaturq bədii dili estetik kateqoriyaya

çevirmiş, sözün gücü ilə həm fərdi faciəni, həm də ictimai tənəzzülü təsirli şəkildə ifadə etmişdir. Nəticə etibarilə, Ə.Haqverdiyevin yaradıcılığında bədii dil ədəbi-estetik dəyər səviyyəsinə yüksəlmiş, Azərbaycan dramaturgiyasının dil mədəniyyətinə və üslub inkişafına mühüm töhfə vermişdir.

***Ədəbiyyat***

1. *Arif M. Ədəbi-tənqidi məqalələr. Bakı: Azərnəşr, 1968, 100 s.*
2. *Məmmədov M. Azəri dramaturgiyasının estetik problemləri. Bakı: Azərnəşr 1968, 286 s.*
3. *Məmmədov K.Ə. Haqverdiyevin bədii nəsri. Bakı, 1979, 179 s.*
4. *Mütəllimov T. XIX əsr Azərbaycan ədəbiyyatında ədəbi məktəblər. Bakı: ADU nəşri, 1978, 74 s.*
5. *Haqverdiyev Ə. Seçilmiş əsərləri. I cild. Bakı: Azərnəşr, 2005, 504 s.*
6. *Seyidov Y. Yazıçı və dil. Bakı: Yazıçı, 1979, 142 s.*
7. *Xəlilov N.Ə.Haqverdiyev və folklor. Bakı: ADU nəşri, 1983, 144 s.*

**Qasımova Ş.X.**
**Bakı Slavyan Universiteti**
***shabnamgasimova00@gmail.com***

# EKZİSTENSİALİZM VƏ XX ƏSR ƏDƏBİYYATINDA “MÖVCUDLUQ” PROBLEMİ

***Xülasə***

*Bu məqalədə XX əsrin siyasi, sosial və fəlsəfi sarsıntılarının insan mövcudluğu və təfəkkürü üçün nəticələri ekzistensializm fəlsəfəsi prizmasından araşdırılır. Müəllif Soren Kyerkeqor, Martin Haydegger, Karl Yaspers, Jan-Pol Sartr və Alber Kamyu kimi düşünürlərin ideyalarına əsaslanaraq insanın azadlığı, məsuliyyəti, seçimi və varlığı kimi məsələləri təhlil edir. Ekzistensialist yanaşmada insan öz mahiyyətini özü formalaşdıran və əməllərinə görə məsuliyyət daşıyan subyekt kimi təqdim olunur. Kafkanın, Sartrın və Kamyunun əsərləri kimi ədəbi nümunələr vasitəsilə bu fəlsəfi ideyaların bədii ədəbiyyatda necə təcəssüm olunması göstərilir. Məqalədə həmçinin ekzistensializmə yönəlmiş tənqidi baxışlar — onun dinə, ideologiyaya və cəmiyyətə münasibəti də araşdırılır. Nəticə etibarilə ekzistensializm insanın daxili aləminə, onun mənəvi gərginliyinə və özünüanlama axtarışına diqqət yönəldən fəlsəfi və ədəbi cərəyan kimi təqdim edilir.*

# ЭКЗИСТЕНЦИАЛИЗМ И ПРОБЛЕМА «СУЩЕСТВОВАНИЯ» В ЛИТЕРАТУРЕ XX ВЕКА

***Резюме***

*В данной статье рассматриваются последствия политических, социальных и философских потрясений XX века для человеческого существования и мышления с точки зрения экзистенциалистской философии. Автор, опираясь на идеи таких мыслителей, как Сёрен Кьеркегор, Мартин Хайдеггер, Карл Ясперс, Жан-Поль Сартр и Альбер Камю, анализирует вопросы свободы, ответственности, выбора и существования человека. В экзистенциалистском подходе человек представлен как субъект, сам формирующий свою сущность и несущий ответственность за свои поступки. Через литературные примеры — произведения Кафки, Сартра и Камю — показано, как эти философские идеи воплощаются в художественной литературе. В статье также рассматриваются критические взгляды на экзистенциализм, включая его отношение к религии, идеологии и обществу. В итоге экзистенциализм представлен как философское и литературное течение, акцентирующее внимание на внутреннем мире человека, его духовной напряжённости и поиске самопонимания.*

# EXISTENTIALISM AND THE PROBLEM OF "EXISTENCE" IN THE LITERATURE OF THE XX CENTURY

***Summary***

*This article explores the impact of the political, social, and philosophical upheavals of the 20th century on human existence and thought through the lens of existentialist philosophy. The author examines the concepts of freedom, responsibility, choice, and existence based on the ideas of thinkers such as Søren Kierkegaard, Martin Heidegger, Karl Jaspers, Jean-Paul Sartre, and Albert Camus. In the existentialist approach, the individual is seen as a subject who creates their own essence and bears full responsibility for their actions. Through literary examples—including works by Kafka, Sartre, and Camus—the article illustrates how these philosophical ideas are reflected in literature. It also addresses critical perspectives on existentialism, particularly its relation to religion, ideology, and society. Ultimately, existentialism is presented as a philosophical and literary movement that emphasizes the inner world, spiritual tension, and the path of self-understanding.*

***Açar sözlər:*** *ekzistensializm, mövcudluq fəlsəfəsi, absurdizm, tənhalıq*
***Ключевые слова:*** *экзистенциализм, философия существования, абсурдизм, одиночество*
***Key words:*** *existentialism, philosophy of being, absurdism, loneliness*

XX əsr bəşəriyyətin dərin sarsıntılarla üzləşdiyi, mənəvi sabitliyin dağıldığı və insanın öz varlığı ilə üz-üzə qaldığı bir dövr olmuşdur. İki dünya müharibəsi, totalitar rejimlərin yüksəlişi, texnoloji inkişaf və sürətlə dəyişən ictimai münasibətlər fərdin psixoloji və fəlsəfi dünyasında ciddi izlər buraxmışdır. Bu tarixi fonda meydana çıxan ekzistensializm fəlsəfəsi insanın "mövcudluq" məsələsini əsas problem kimi önə çəkmişdir. Soren Kyerkeqor, Martin Haydeqqer, Karl Yaspers və Jan-Pol Sartr kimi mütəfəkkirlərin irəli sürdüyü ideyalar, yalnız fəlsəfi müstəvidə deyil, həm də ədəbi düşüncədə yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

Ekzistensializm insan şəxsiyyətini duyğuların təzyiqi altında əzilən, ehtirasların girdabında parçalanan bir varlıq kimi təqdim edir. Bu fəlsəfi-estetik yanaşma insanın daxili aləmini, onun emosional və psixoloji gərginliklərini ön plana çəkir. Ekzistensial düşüncənin bədii mahiyyətini ən təsirli şəkildə Edvard Munkun "Haray" tablosunda görmək mümkündür — burada insanın daxili fəryadı, varoluş qorxusu və tənha mövcudluğu əks olunur. Bu cərəyanın əsas prinsiplərindən biri azadlıq ideyasıdır. Ekzistensialistlərə görə, insan nə təbiətin, nə də cəmiyyətin əvvəlcədən müəyyən etdiyi bir obyekt olmalıdır. O, öz seçimləri və qərarları vasitəsilə kimliyini özü müəyyənləşdirir. Hər bir davranış insanın mənliyini formalaşdırır və buna görə o, etdiyi hərəkətlərin nəticəsinə tam məsuliyyət daşıyır. Ekzistensialist insan "şəraitin qurbanı"

olmaq əvəzinə, şəraiti dəyişdirmə gücünə malik olan subyektdir. Bu yanaşma romantik münasibətlərdə də əks olunur. Bu kontekstdə insan qarşısındakı şəxsin istəyinə uyğun dəyişmək ehtiyacı hiss etməməlidir. Əsl sevgi, insanın həm güclü, həm də zəif cəhətləri ilə birlikdə qəbul edilməsini tələb edir. Sevgilisinə görə mənfi xüsusiyyətlərini dəyişməyə çalışan şəxs, əslində, onun mövcudluğuna hörmət etməyən münasibətlə qarşılaşa bilər. Qarşı tərəfin mövqeyi isə belədir: “Səni olduğun kimi – bütün çatışmazlıqların və üstünlüklərinlə birlikdə – sevirəm.” Ekzistensialist fəlsəfəyə əsasən, insanın “yaradılışı” – yəni onun mənəvi və mənəvi-əxlaqi formalaşması – onun fiziki varlığından öncə meydana gəlir. İnsan əvvəlcə var olur, yəni dünyaya gəlir, daha sonra isə öz mənliyini, dəyərlər sistemini və həyat qaydalarını özü müəyyənləşdirir. Bu prosesdə hər hansı xarici güc və ya ali varlıq insana istiqamət verən deyil; insanın yeganə bələdçisi elə onun özüdür. Bu səbəbdən insan, ekzistensialist baxışa görə, azad olmağa məhkumdur — azadlıq onun taleyidir. Lakin bu azadlıq eyni zamanda insan üçün ağır bir məsuliyyət yükü deməkdir. O, həyatında qarşılaşdığı hər bir seçimin məsuliyyətini özü daşıyır. Bu da ekzistensial böhranların əsas mənbəyinə çevrilir: insan özünü və dəyərlərini müəyyənləşdirərkən keçirdiyi daxili narahatlıq, tərəddüd və vicdan əzabı ilə üz-üzə qalır.

Ekzistensializmin görkəmli nümayəndələrindən olan J.P.Sartr, S.Kyerkeqor, K.Yaspers, A.Kamyu və b. yaşadıqları dövrün problemlərinə laqeyd qalmırlar. Onlar cəmiyyət qarşısında məsuliyyət hiss edərək, ictimai-siyasi proseslərdə fəal mövqe tuturlar. Əsərlərində yalnız fərqli xarakterlər deyil, həm də qarşı-qarşıya gələn mövqelər, fikir toqquşmaları təsvir olunur. Onların əsərlərində yaratdığı obrazların davranışlarını əvvəlcədən təxmin etmək çətindir, çünki onların şəxsiyyəti sabit konturlarla müəyyənləşdirilmir – onlar daim axtarışdadır, dəyişkəndirlər. Bu qeyri-müəyyənlik isə oxucunu düşünməyə və əsər boyu təhlil aparmağa vadar edir. Ekzistensializm insanı öz mahiyyətini dərk etməyə və bu mahiyyəti yaratmağa təşviq edir. Bu yanaşmada heç bir xarici güc və ya fövqəl varlıq insanın öz mənliyindən üstün deyil. Hər kəs öz iradəsi ilə gələcəyini formalaşdırmalı, verdiyi qərarlara sahib çıxmalıdır. Əslində, insanın insan olması da məhz bu qərarvermə aktı ilə bağlıdır. Bu qərarlar dəyişkən deyil, sabit və prinsipial olmalıdır. Ekzistensialistlər üçün ən ali dəyər həqiqətdir. Amma bu, ümumbəşəri, obyektiv həqiqət deyil; şəxsi təcrübəyə əsaslanan, fərdin öz içində tapdığı subyektiv həqiqətdir. İnsan kütlənin diktə etdiyi doğrulara deyil, öz vicdanının qəbul etdiyi həqiqətlərə əsaslanmalıdır. Bu baxımdan azadlıq yalnız bir hüquq deyil, həm də insan varlığının ayrılmaz şərtidir. Çünki insan, azad olmadan özünü dərk edə bilməz və azadlığı seçməyə məcburdur.

Ekzistensialist düşüncənin insan təbiətini mənfi yönləri ilə təqdim etməsi, əksər hallarda cəmiyyət tərəfindən narahatlıqla qarşılanmır. Əslində,

ekzistensialist yazar və filosofların qəhrəmanlarını qorxaq, zəif və ya satqın kimi təsvir etməsi onların insanı yalnız bu cəhətləri ilə tanıması anlamına gəlmir. Bu cür təqdimatlar daha çox oxucunu öz daxili dünyasına yönəltmək, onu özü ilə üz-üzə buraxmaq və "niyə belədir?" sualını düşündürmək məqsədi daşıyır. Ekzistensializmin əsas fərqləndirici cəhəti də məhz budur: insan, olduğu halın müəllifidir. Lakin insan bu həqiqəti qəbul etməkdə çətinlik çəkir və onu bu həqiqətlə üzləşdirən fikirlərdən, yazılardan və müəlliflərdən narazı qalır. O, öz məsuliyyətini inkar etməyə, səbəbləri xarici amillərdə axtarmağa meyllidir. Bu mənada, insanlar ekzistensialistlərin yerinə naturalist yazıçı Emil Zolya kimi müəllifləri üstün tuturlar. Çünki Zolya insan davranışlarını daha çox irsi faktorlar və cəmiyyətin təsiri ilə izah edir. Lakin ekzistensializm bu izahı qəbul etmir: insan öz əməllərinə görə təkbaşına məsuliyyət daşıyır və onun mahiyyəti onun seçimləri ilə müəyyən olunur. Bu məsələ, həm də ekzistensializmi tənqid edən katolik mövqeyə cavab kimi dəyərləndirilə bilər. Katolik düşüncəyə görə, insan Tanrı tərəfindən yaradılmışdır və onun varlığının səbəbi Tanrının iradəsidir. Bu yanaşma insanın öz həyatına məsuliyyətini azaldır və baş verən neqativ hadisələrdə günahı şeytana yükləməklə insanı əxlaqi yükdən qismən azad edir. Lakin ekzistensializm belə bir "rahatlıq" vermir. İnsanın Tanrıdan asılı deyil, azad şəkildə seçim edən bir varlıq olduğunu iddia edir və baş verənlərin səbəbini məhz insanda axtarır. "Ekzistensializm uşaq gülüşünü unudub" deyən tənqidlərə isə fərqli yanaşmaq mümkündür. Əslində, ekzistensializm uşaq gülüşünü deyil, onu itirən uşağın daxili dəyişimini analiz etməyə çalışır. Gülüşü unudan uşaqdır; ekzistensializm isə bu unuduşun səbəblərini ortaya çıxarmağa yönəlmiş bir fəlsəfi cərəyan kimi çıxış edir. Marksist baxış bucağından isə ekzistensializmin yanaşması qəbulolunmaz sayılır. Marksizm insanı ictimai-siyasi mübarizənin əsas subyekti kimi görür və onu bütün neqativliklərdən təmizlənmiş, dəyişdirici gücə sahib bir varlıq kimi təqdim edir. Bu səbəbdən marksistlər üçün qorxaqlıq, zəiflik, satqınlıq kimi xüsusiyyətlərin insanla bağlanması qəbuledilməzdir. Çünki bu cür xüsusiyyətlərin vurğulanması onların inandığı kollektiv dəyişiklik potensialını zədələyir və kapitalizmə qarşı mübarizədə inamı zəiflədə bilər. Beləliklə, ekzistensializmə yönəldilmiş tənqidlər çox vaxt ideoloji və ya dini mövqelərdən qaynaqlanır və bu mövqelər ekzistensializmin insanı gerçək, çılpaq və məsuliyyət daşıyan bir varlıq kimi təqdim etməsini təhlükəli hesab edirlər. Çünki ekzistensializm nəyi var, onu göstərir – insanın qorxularını, çatışmazlıqlarını, seçimlərini və bu seçimlərin nəticələrini. Bu tənqidlərə cavab olaraq, ekzistensializmin məsuliyyət, azadlıq, seçim və əxlaq məsələlərinə yanaşmasına nəzər yetirmək kifayətdir. Ekzistensializmə görə, insan varlığı mahiyyətindən əvvəl gəlir, yəni o, necə bir varlığa çevriləcəyini öz seçimləri ilə müəyyən edir. Buna görə də insan yalnız özünə deyil, bəşəriyyətə qarşı da məsuliyyət daşıyır. Dünyada baş verən zülm və əxlaqi

pozuntuların əsas səbəbi insanların bu məsuliyyəti dərk etməməsi və onu yerinə yetirməməsidir.

Bu cərəyanın nümayəndələri xaotik hadisələri real kimi qəbul etmir və dünyanı qeyri-maddi qatlarla izah etməyə çalışırdılar. Tanrının mövcudluğuna ironik yanaşmalar, həyatın gülünc və qəddar tərəfləri ilə bağlı fikirlər bu düşüncə tərzini formalaşdırırdı. Beləliklə, Avropada mövcud olan bu axınlar ekzistensializmin də bünövrəsini hazırladı.

Ekzistensializm XIX əsrin sonu və XX əsrin əvvəllərində inkişaf edən, fərdi təcrübəni və şəxsi mövcudluğu ön plana çıxaran bir fəlsəfi cərəyandır. Soren Kyerkeqor bu istiqamətin banisi hesab edilir. O, dini inanc və fərdi seçimlər üzərində dayanaraq, insanın "estetik", "etik" və "dini" mövcudluq mərhələlərindən keçməsini vurğulamışdır. Onun fikrincə, insan yalnız şəxsi qərarları və Tanrı qarşısında məsuliyyəti ilə öz varlığını dərk edə bilər. Onun məşhur "Qorxu və Titrəmə" əsəri bu fəlsəfənin başlanğıc nöqtələrindən biri sayılır. Əsərdə əsas diqqət İbrahim peyğəmbər və onun oğlu İshaqın həyatından götürülmüş dini hadisəyə yönəlmişdir. İbrahim Allahın əmrinə əsasən oğlunu qurban verməyə aparır və bu hadisə Kyerkeqor tərəfindən teoloji yanaşma ilə analiz olunur. Burada ekzistensial yanaşmanın təməlində duran ideya ondan ibarətdir ki, İbrahim dövrünün hüquqi və əxlaqi normalarını aşaraq, Tanrının əmrinə tam tabe olur. O, cəmiyyətin rasionallığına deyil, şəxsi inancına əsaslanaraq hərəkət edir və oğlunu qurban verməyə aparır. Bu nümunədə biz ekzistensial düşüncənin əsas prinsiplərindən olan fərdi qərar və ümumi normativlər arasındakı ziddiyyəti görürük. İbrahim obrazı öz azad iradəsi və Tanrıya sadiqliyi ilə cəmiyyətin gözləntilərinə qarşı çıxır. Bu prosesdə onun əxlaqi qərarı məhz subyektiv inancına əsaslanır. Əsərin qəhrəmanı üçün vacib olan ictimai qaydalar deyil, şəxsi mənəvi məsuliyyətdir. Kyerkeqorun digər təhlillərində də bu cür ekzistensial məqamlar görünür. O, İshaq obrazını həm kədərli, həm də pessimist bir fiqur kimi təqdim edir. İbrahim isə bu əsərdə azad iradənin daşıyıcısı kimi çıxış edir. O, inancı uğrunda öz oğlunu belə Tanrıya qurban verməyə hazır olan bir insan modeli yaradır. Əsərdə Kyerkeqor həmçinin maraqlı bir fəlsəfi məqama toxunur. O qeyd edir ki: *"İşləməyən çörək yeməz."* Bu fikrin adi dünyəvi səviyyədə məna kəsb etməsinə baxmayaraq, onu tam şəkildə metafizik dünyaya tətbiq etmək olmur. Maddi dünyada bu prinsip yerini tapsa da, ruhi aləmdə bu anlayış fərqli şəkildə özünü göstərir. Maddi həyat qanunlarla idarə olunur, burada eyni hallar təkrar olunur və nəticələr proqnozlaşdırıla bilir. Lakin mənəvi və metafizik dünyada bu sistem pozulur — burada əbədi ilahi nizam hökm sürür, burada ədalət öz başqa forması ilə təcəlli edir: xoşbəxtlər və bədbəxtlər eyni günəş işığında isinir, lakin əzab çəkən insan mükafatını ruhani sferada tapır. Kyerkeqorun bu fikirləri onun dünyaya münasibətindəki ekzistensial, pessimist və eyni zamanda inanca əsaslanan yanaşmanı ortaya qoyur. Onun üçün insanın

həyatda qarşılaşdığı dilemmanın həlli ümumbəşəri qanunlardan çox şəxsi mənəvi təcrübəyə əsaslanır. Bu baxımdan Kyerkeqor ekzistensializmin əsasını qoyaraq, insan varlığının qeyri-müəyyənliyini, azadlığını və daxili məsuliyyətini ön plana çıxarır. Onun fikrincə, maddi dünyada təkrar olunan hadisələr və səbəb-nəticə əlaqələri nizamlıdır. Burada natamamlıq hökm sürür və qanunlar insanın davranışlarını şərtləndirir. Lakin ruhani dünyada – metafizik sahədə tamamilə fərqli bir quruluş mövcuddur. Orada ədalət başqa şəkildə özünü göstərir: bu dünyada zəhmət çəkənlər, əziyyət içində yaşayanlar o aləmdə qarşılığını tapır. Kyerkeqora görə, maddi aləmdə zəhmətsiz qazanc mümkün olsa da, ilahi müstəvidə hər kəs öz əməlinin əvəzini alır. Beləliklə, dünya ədalətsiz və qeyri-müəyyən görünsə də, əbədi aləmdə bərabərlik bərpa olunur. Bu fikirlər Kyerkeqorun dünyanı absurd və qeyri-ədalətli kimi təqdim etməsinin göstəricisidir. Onun bu yanaşması, xüsusilə də Albert Kamyunun absurdizm fəlsəfəsində öz əksini tapır. Kamyuya görə, həyatın mənası yoxdur və bu mənasızlıq içində məna axtarmaq özü də mənasız bir davranışdır. Onun fikrincə, fərq etməz, insan 30 yaşında, ya da 70 yaşında ölsə də, bu faktın əsası dəyişmir – həyat, mahiyyətcə, absurd və məna baxımından boşdur. Bu iki filosofun fikirləri arasında müəyyən paralellər olsa da, onların yanaşmalarında əsas fərqlər də mövcuddur. Kyerkeqor Tanrını və axirəti qəbul edir, əbədi aləmdə mənanın olduğunu düşünür. Kamyu isə ateist olduğu üçün axirət anlayışını rədd edir və hadisələrə nihilist mövqedən yanaşır. Beləliklə, birincisi metafizik dəyərlərə bağlıdırsa, ikincisi bütün mənaların boş olduğunu müdafiə edir. Jan-Pol Sartrın isə məna anlayışı bir qədər fərqli məcradadır. Onun fikrincə, dünya əvvəlcədən təyin olunmuş məna daşımır. Həyat aporioridir – yəni təcrübədən əvvəl dərk edilə bilməz. İnsan dünyaya atılmış bir varlıqdır və yalnız özü bu həyata mənalar yükləyə bilər. Başqa sözlə, insan mövcudluğu ilə mahiyyətini özü yaradır. Bu da Sartrın məşhur prinsipi ilə ifadə olunur: "İnsan əvvəlcə var olur, sonra öz mahiyyətini müəyyən edir.

Martin Haydeqqer isə insanın dünyada "mövcud olmaq" vəziyyətini analiz edərək, mövcudluq anlayışını dərinləşdirmişdir. O, varlığı anlamaq üçün insanın ölümə münasibətini, qayğı hissini və "autentik həyat" ideyasını əsas götürmüşdür. Haydeqqerə görə, insan yalnız öz ölümünü dərk etdikdə, varlığının məsuliyyətini üzərinə götürür. Jan Pol Sartr ekzistensializmi ateist mövqedən təhlil edərək, insanın mahiyyətini öz hərəkətləri ilə yaratdığını qeyd edir. Onun məşhur "varlıq mahiyyətdən əvvəl gəlir" fikri, insanın əvvəlcə mövcud olduğunu, daha sonra özünü formalaşdırdığını bildirir. Bu baxış ədəbiyyatda da güclü təsir buraxmışdır.

Ekzistensializmin ədəbiyyata təsiri təkcə fəlsəfi ideyaların izahı ilə məhdudlaşmır, bu təsir romanın, dramın və hekayənin strukturuna və obrazların daxili aləminə də sirayət edir. Jan-Pol Sartrın "Ürəkbulanma" romanı insanın dünyadakı mövcudluğunun mənasızlığı və absurdluğu

qarşısında yaşadığı ekzistensial boşluğun bariz nümunəsidir. Əsərin qəhrəmanı Roqenten gündəlik həyatın təkrarlanmasından, predmetlərin varlığının ağırlığından, özlüyündən iyrənir. Onun keçirdiyi duyğular, ekzistensial “oyanış”ın ifadəsidir. Sartr bu əsərdə insanın azadlığını və seçim etmə məsuliyyətini qabardır, lakin bu azadlıq bəzən dözülməz bir yük kimi təqdim olunur. Albert Kamyunun “Yad” romanında isə fərdin cəmiyyətə yadlaşması, həyatın mənasızlığı və ölüm qarşısında duyulan hisslər ön plana çıxır. Meursault obrazı hadisələrə emosiyasız yanaşması, anasının ölümünə biganə münasibəti və öz taleyinə qarşı laqeydliyi ilə tipik ekzistensial qəhrəmandır. Kamyunun fikrincə, insan həyatın mənasını öz əməlləri ilə yaratmalıdır, amma bu mənasızlıq fonunda yaranan “absurd” vəziyyət insanı ya üsyana, ya da qəbullanmaya aparır. Onun “Sizif əfsanəsi” əsəri bu fikirlərin fəlsəfi əsasını təşkil edir.

Sartrın fəlsəfəsində mövcudluq insanın azad seçim və iradəsi ilə sıx bağlıdır. Onun “Varlıq və Yoxluq” əsəri insan azadlığını əsas götürən düşüncələrlə zəngindir. Filosofun baxışlarına əsasən insan əvvəlcə var olur, sonra isə bu varlığın mənası – mahiyyəti formalaşır. Əgər insanın doğuşdan müəyyən bir təbiəti yoxdursa və dünya özü-özlüyündə dərk edilə bilmirsə, onda heç kim başqa bir insana nə əmr edə bilər, nə də ona hansısa haqqı bəxş edə bilər. Bu baxımdan, insan azad olmağa məhkumdur. Azad olan bir insan, öz mövcudluğu üçün tam məsuliyyət daşıyır. Əgər insan doğrudan da azaddırsa, onda onun üçün universal mənada xeyir və ya şər anlayışı yoxdur. İnsan yalnız öz seçimləri ilə nəyin yaxşı, nəyin pis olduğunu müəyyən edir. Azadlıq özü-özlüyündə daha böyük bir azadlığa aparan yoldur.

Sartrın bu fikirləri onu vətənpərvərlik, mühafizəkar dəyərlər, milliyətçilik kimi siyasi ideologiyalara qarşı qoyurdu. O düşünürdü ki, bu cür ideologiyalar insanı kütlə psixologiyası ilə idarə edir və fərdin azadlığını əlindən alır. Buna görə də insan belə ideologiyalardan uzaqlaşıb özgələşməli və yadlaşmalıdır.

İkinci Dünya müharibəsindən sonra Avropada geniş yayılmış ekzistensializm cərəyanı Azərbaycan ədəbiyyatına da təsir göstərmişdir. Bu fəlsəfi istiqamət bədii ədəbiyyatda da müəyyən obrazlar və mövzular vasitəsilə öz əksini tapmışdır.

XX əsr ədəbiyyatında qəhrəman artıq əvvəlki dövrlərdəki kimi qəhrəmanlıq və ideallarla müəyyən olunmur. Əksinə, o, daxili dünyasında qarışıqlıq yaşayan, cəmiyyətin normativ tələbləri ilə öz istəkləri arasında qalan, özünü dərk etməyə çalışan insandır. Mövcudluq problemi təkcə metafizik səviyyədə deyil, gündəlik həyatın hər bir detalında – seçimlərdə, tənhalıqda, cəmiyyətə uyğunlaşmaqda və ya ona qarşı çıxmaqda üzə çıxır. Franz Kafkanın əsərlərində (xüsusən “Çevrilmə” və “Məhkəmə” romanlarında) qəhrəmanlar absurd sistemlərə qarşı gücsüzlük hissi ilə seçilirlər. Kafka insanın öz

mövcudluğunu anlamaqda qarşılaşdığı maneələri və bürokratik cəmiyyətin onu necə əzdiyini simvolik şəkildə göstərir. Burada mövcudluq problemi həm ontoloji, həm də sosial təcridlə əlaqəlidir.

Ekzistensializm XX əsr ədəbiyyatında insanın varlıq probleminə yeni bir baxış gətirmişdir. Ədəbi qəhrəman artıq xarici dünyada baş verən hadisələrə reaksiya göstərən deyil, daxili dünyasında yaşadığı təlatümləri ifadə edən bir fiqura çevrilmişdir. Mövcudluq problemi bu qəhrəmanların seçimləri, tənhalıqları, məsuliyyətləri və azadlıqları vasitəsilə oxucuya ötürülür. Bu ədəbiyyat insanı passiv qəbul etmir, onu öz varlığını sorğulamağa, həyatın mənası barədə düşünməyə sövq edir. Ekzistensializmin təsiri ilə yazılmış ədəbi nümunələr göstərir ki, insan yalnız var olmaqla kifayətlənməməlidir – o, bu varlığın məsuliyyətini də daşımalı, onu dərk etməyə çalışmalıdır. XX əsr ədəbiyyatı bu baxımdan həm fəlsəfi dərinlik, həm də psixoloji incəlik baxımından zəngin bir irs qoymuşdur.

***Ədəbiyyat***

1. *Kərimov Ə. Müasir qərb fəlsəfəsi. Bakı, Azərbaycan MEA Fəlsəfə və Hüquq İnstitutu, 2012.*
2. *Nitşe F. Zərdüşt belə söylədi. Bakı, "Qanun" nəşriyyatı, 2023, 448 s.*
3. *Kafka F. Çevrilmə. Bakı, "Qanun" nəşriyyatı, 2024, 104 s.*
4. *Haydeqqer M. Varlıq və zaman. Ankara, "Aqora" nəşriyyatı, 2006, 482 s.*
5. *Yaspers K. Fəlsəfəyə giriş. Münhen, 1971, 144 s.*

**Qədirova A.M.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aytac.qadirova1@icloud.com***

# AZƏRBAYCAN MƏKTƏBLƏRİNDƏ İNKLÜZİV TƏHSİLİN HƏYATA KEÇİRİLMƏSİ

***Xülasə***

*Bu məruzənin məqsədi inklüziv yanaşmanın təhsil sisteminin bütün pillələrinə tətbiq olunmasıdır. İnklüziv təhsil uşaqların qarşılıqlı hörmət və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Müəllim inklüziv şagirdlərə bərabər şəkildə yanaşmalı və sosial münasibətlərin formalaşmasına dəstək göstərməlidir.*

*"İnklüziv uşaqların təhsilinin təşkili üzrə Dövlət İnkişaf Proqramı" inklüziv təhsilin inkişafında əsas rol oynamışdır. Azərbaycan Respublikasında sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşın təhsil almasına bərabər şərait yaradılmışdır.*

# РЕАЛИЗАЦИЯ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ В ШКОЛАХ АЗЕРБАЙДЖАНА

***Резюме***

*Целью данного доклада является применение инклюзивного подхода на всех уровнях системы образования. Инклюзивное образование развивает у детей навыки взаимного уважения и сотрудничества. Учитель должен относиться к инклюзивным учащимся одинаково и поддерживать формирование социальных отношений.*

*«Государственная программа развития организации инклюзивного образования детей» сыграла ключевую роль в развитии инклюзивного образования. В Азербайджанской Республике созданы равные условия для получения образования каждым гражданином, независимо от состояния здоровья.*

# IMPLEMENTATION OF INCLUSIVE EDUCATION IN AZERBAIJAN SCHOOLS

***Summary***

*The purpose of this report is to apply the inclusive approach to all levels of the education system. Inclusive education develops children's mutual respect and cooperation skills. The teacher should treat inclusive students equally and support the formation of social relations.*

*The "State Development Program for the Organization of Inclusive Children's Education" has played a key role in the development of inclusive education. In the Republic of Azerbaijan, equal conditions have been created for every citizen to receive education, regardless of their health conditions.*

***Açar sözlər:*** *inklüziv sinif, inklüziv təhsil, müəllim hazırlığı, təhsil islahatları, pedaqoji dəstək, dövlət proqramı*

***Ключевые слова:*** *инклюзивный класс, инклюзивное образование, подготовка учителей, образовательные реформы, педагогическая поддержка, государственная программа*

***Key words:*** *inclusive classroom, inclusive education, teacher training, educational reforms, pedagogical support, state program*

İllər əvvəl əlilliyi olan şəxslərə cəmiyyət üçün yararsız bir üzv kimi baxırdılar. Onlar digər insanlardan fərqli olaraq bərabərlilik prinsipindən məhdudlaşdırılmışdır. Təhsil müəssisələrində inklüziv uşaqların təhsil alacağı siniflərdə fiziki fəaliyyətlər təşkil edilməlidir. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa görə sağlamlıq imkanı məhdud uşaqların təhsil almaq hüququ vardır. Əlilliyi olan və ya olmayan uşaqlar arasında ayrıseçkiliyə yol verilməməlidir.

Hesablamalara görə Azərbaycan Respublikasının 6%-i inklüziv sayılır, dünya üzrə isə bu göstəriş 15% kimi gostərilir. 2000-ci illərin əvvələrində Azərbaycanda bir sıra inklüziv islahatları həyata keçirilmişdir. 2003-cü ildən 2011-ci ilə qədər hökumət təşkilatları inklüziv təhsil islahatlarına sərmayə qoyurdular. Əvvəlki illərdə inklüziv şagirdlər adi məktəblərə qəbul edilmirdi. Bu da həmin şagirdlərin yüksək keyfiyyətli təhsil sistemindən kənarda qalmasına səbəb olurdu.

Əlilliyi olan uşaqlar, yaxud əlilliyi olmayan şagirdlər də istedadlı uşaqlar kimi inklüziv təhsildə üstünlüklər əldə edirlər. Lakin bəzi müəlliflər sübut etməyə çalışırlar ki, bu uşaqlarda inklüziyanın üstünlükləri heç də həmişə nəzərə çarpmır [Kauffman və Hallahan, 1995]. Görünür, belə mülahizələr epizodik faktlara söykənir və xeyli sayda elmi tədqiqatlar onların əsassız olduğunu asanlıqla sübut edə bilər [7, s.16].

2005-ci ildə Təhsil Nazirliyi "İnklüziv uşaqların təhsilinin təşkili üzrə Dövlət İnkişaf Proqramı" həyata keçirildi. Bu proqramda uşaqların təhsil alması üçün bərabər imkanlar yaradılmışdır. İnklüziv təhsil prinsipi BMT və UNESCO tərəfindən Azərbaycan təhsil siyasətinin xüsusiyyətlərindən birinə çevrilmişdir. Burada məqsəd təkcə saglamlıq imkanı məhdud uşaqların təhsilə cəlb olunması yox, həm də təhsil keyfiyyətinin yüksəldilməsidir.

Azərbaycanda bir sıra təhsil ümumtəhsil məktəblərində inklüziv siniflər fəaliyyət göstərir. Bu müəssisələr xüsusi təlim keçmiş müəllimlər, psixoloji və dəstək xidmətləri ilə təmin edilir. İnklüziv təhsil müəssisəsində xüsusi təcrübə keçmiş müəllimlər fəaliyyət göstərməlidir.

İnklüziv inkişaf dövlət idarəçiliyinin elə yoludur ki, onun tətbiqi nəticəsində ölkə hərtərəfli inkişaf edir və bu prosesin müsbət nəticələrini bütün vətəndaşlar hiss edir. İnklüziv inkişaf dünyanın 21-ci əsrdə ən əsas prioriteti kimi son illər formalaşmışdır. 2018-ci ildə dünya ölkələrinin bu sahədə

nailiyyətləri dəyərləndirilmişdir. Bu dəyərləndirmə 12 iqtisadi, sosial, demoqrafik və ekoloji göstəricilər əsasında beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir [13].

İnklüziv siniflərdə yaşıdları ilə birlikdə təhsil alan müxtəlif əqli və fiziki imkanlı uşaqlar üçün tədris proqramı məktəbin inklüziyasının uğurlu olması üçün əsas mərkəzi şərtlərdən biridir [Margolis və Truesdell, 1987; Clough, 1988; Gormley və McDermott, 1994; Carpenter, 1997; Cole və McLeskey, 1997; Loreman, 1997]. Müxtəlif əqli və fiziki imkanlı uşaqların fərdi tədris proqramı üzrə tədris edilməsi ideyası bir çox qərb ölkələrində qanunvericilik və siyasi cəhətdən köklü şəkildə qəbul edilmiş (OECD 1994) və fərdi tədris proqramları bu uşaqların tədris edilməsi üçün geniş yayılmışdır [7, s. 9].

Regionlarda bir sıra təhsil müəssisələrində hazırlıqlı kadrların azlığı, maliyyə məhdudiyyətlərində çətinliklər olur. İnklüziv təhsilin genişlənməsinə təsir edən amillər vardır ki, müəllimlərin praktik bacarıqlardan məhrum olması, fiziki şəraitin uyğunsuzluğu, resursların şəhərlərə toplanması nəticəsində regionların inkişafı arxa planda qalması bərabərsizlik yaradır. Təhsilin məktəblərdə dayanıqlı olması üçün peşəkar müəllimlərin olması, proqramların effektivliyinin qiymətləndirilməli və nəticələr şəffaf şəkildə həyata keçirilməlidir.

BMT-də hazırda 193 ölkə üzv kimi rəsmi qeydiyyatda var ki, onların əksəriyyətinin iqtisadi, sosial, demoqrafik və ekoloji parametrləri beynəlxalq təşkilatlar tərəfindən təhlil edilir və dəyərləndirilir. Həmin dəyərləndirmələr əsasında fərqli sahələrdə fəaliyyəti təkmilləşdirmək məqsədilə tədbirlər təklif edilir. Dünyanın fərqli ölkə və regionlarında iqtisadi və sosial sahələrdə vəziyyəti təhlil edən beynəlxalq təşkilatlar arasında Davos Dünya İqtisadi Forumu xüsusi nüfuza malikdir. Bu təşkilatın ekspertləri dünyanın 146 ölkəsində davamlı inkişaf və inklüziv cəmiyyətin qurulması ilə bağlı mövcud vəziyyəti dəyərləndirmişdir. Şəkildən göründüyü kimi, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69-a bərabərdir. Həmin göstərici ilə Azərbaycan Respublikası dünyada 25-ci yerdədir. Bu, olduqca yüksək nəticədir. Müstəqilliyini yalnız 30 il əvvəl bərpa etmiş Azərbaycan bu göstəriciyə görə dünyanın bir çox lider ölkələrini geridə qoyub [13].

İnsan Hüquqları Konvensiyasına görə, hər bir dövlət şagirdin hüququnun qorunması üçün yüksək təhsil sistemini qurmalıdır.

Təhsildə inklüziv yanaşmanın əsas məqsədi — bütün uşaqlar üçün bərabər imkanların yaradılması, fərqli bilik və bacarıq səviyyələrinə malik şagirdlərin təlim prosesinə tam şəkildə qoşulmasını təmin etməkdir. Bu model, sadəcə müəyyən qrup uşaqları ümumtəhsil müəssisələrinə cəlb etməklə kifayətlənmir; əsas məqsəd, təhsil sisteminin elə qurulmasıdır ki, o, geniş spektrli qabiliyyətlərə və xüsusi təhsil ehtiyaclarına malik uşaqları əhatə edə bilsin. Belə bir sistemin uğurlu fəaliyyəti üçün qanunvericilik bazasının

formalaşdırılması, maliyyə resurslarının təmin olunması, məktəblərdə xüsusi dəstək xidmətlərinin və uyğun infrastrukturun yaradılması vacibdir. Bundan əlavə, dərslərin planlaşdırılması, təlim strategiyaları və metodlarının uşaqların fərdi xüsusiyyətlərinə uyğun şəkildə hazırlanması da inklüziv təhsilin əsas tələblərindəndir. Müasir dövrdə dünyanın bir çox ölkələrinin təhsil sistemləri məhz bu inklüziv yanaşmaya əsaslanır. Son illər ərzində bu istiqamətə artan diqqət göstərir ki, inklüziv təhsil təkcə pedaqoji deyil, həm də sosial və etik baxımdan zəruri bir prosesdir.

Müəllim şagirdlər üçün əsas davranış nümunəsidir. Məhz o, öz hərəkətləri ilə digər şagirdlərə SİM şagirdin, sinfin və cəmiyyətin vacib üzvlərindən biri olduğunu göstərməli, şagirdlər arasında pozitiv münasibətlərin yaranmasına çalışmalıdır.

**Müəllim:**

– digər şagirdlərlə olduğu kimi, SİM şagirdlərlə də təhsil və davranışları ilə bağlı gözləntilərini bölüşməlidir;

– müxtəlif şagirdlərə müxtəlif tələblərin qoyduğunu və bunu nə üçün etdiyini şagirdlərə izah etməlidir;

– SİM şagird və ya onun ailə üzvlərindən xahiş etməlidir ki, problemin mahiyyətinin nədən ibarət olması haqqında danışsınlar [9, s. 33].

Əvvəlki illərə nisbətən Azərbaycanda irəliləyiş göstərir, maliyyə və psixoloji özünəinamsızlığı aradan qaldırılmalıdır.

**Azərbaycan Respublikasının İnklüziv İnkişaf İndeksi:**

1. Adambaşına ÜDM-nin dəfələrlə artımı;
2. ÜDM-nin hər vahidinə görə atmosferə atılan CO2-nin dəfələrlə azalması;
3. Demoqrafik asılılığın aşağı səviyyədə olması;
4. Ölkənin xarici borcunun ÜDM-nin 20%-dən az olması;
5. Median gəlirlərin əhəmiyyətli artımı;
6. Yoxsulluq səviyyəsinin dəfələrlə azalması;
7. Cini indeksinin G7 ölkələri ilə müqayisədə aşağı olması [8].

2013-cü ildə inklüziv təhsillə bağlı bir sıra strateji fəaliyyətləri özündə əks etdirən Təhsilin İnkişafı üzrə Milli Strategiyanın qəbul edilməsi ilə yeni inklüziv təhsil siyasəti dövrü başladı [Prezident Aparatı, 2013].

UNİCEF-in dəstəyi ilə inklüziv təhsilin 2-ci dövrü ərzində donor maliyyəsi məktəbdə pilot layihə həyata keçirilib. Əvvəlki illərə nisbətən hal-hazırda yaradılmış pilot layihələr müsbət münasibətə doğru dəyişikliklər vardır. Azərbaycanda 2015–2016-cı illərdə sağlamlıq məhdudiyyəti olan uşaqların çox az bir hissəsi məktəblərdə təhsil alırdı. İnklüziv uşaqların yalnız 0,5%-i ümumi təhsil müəssisələrində iştirak edir. 2018–2025-ci illər üçün Dövlət Proqramı – "Xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsilə cəlb edilməsi" proqramı qəbul edilmişdir. Bu proqramlar arasında müəllimlərin

hazırlığı, təcrübəsi daha da artmış, məktəblərdə mühit sağlamlıq imkanları məhdud uşaqlar üçün daha da təkmilləşdirilmişdir.

Sinifdə bütün şadirdlər eyni səviyyədə (yalnız sağlam, yalnız SİM, yalnız əlaçı, orta və ya zəif) olduqda tənqidi düşüncə, özünənəzarət və özünüqiymətləndirmə zəif inkişaf edir. Məhz bu baxımdan sinfin tərkibi (strukturu) müxtəlif səviyyədə olur, elə həyatda olduğu kimi. Sinifdə SİM olan uşaqlara sağlam uşaqların iştirakı lazım olduğu qədər, sağlam uşaqlara da SİM olan uşaqların iştirakı lazımdır. Bu cür siniflərdə təhsil alan uşaqlarda ciddi inkişaf geriliyini korreksiya etmək mümkündür. İnklüziv siniflərin təşkili zamanı şagirdlər dünyanın rəngarəng, insanların isə fərqli olması fikrinə alışırlar.

Məktəbdə sinif əsas struktur elementi sayılır. İlk kollektivlər sinifdə yaranır, müvafiq emosional abu-hava formalaşır [10, s. 35].

2.1. Qanunun 12.1-ci maddəsinə uyğun olaraq, müəssisədə psixoloji-pedaqoji və tibbi göstərişlərə (əks göstərişlərə) uyğun təhsil almaq üçün lazımi xüsusi şərait olduğu halda, həmin müəssisədə sağlamlıq imkanları məhdud uşaqların sağlam şagirdlərlə eyni sinifdə təhsilə cəlb edilməsi məqsədilə inklüziv təhsil sinifləri yaradılır. Sağlamlıq imkanları məhdud uşaqlar inklüziv təhsil sinfi təşkil olunan müəssisəyə Qanunun 21.1-ci maddəsinə uyğun olaraq yaradılmış psixoloji-tibbi-pedaqoji komissiyanın qərarına əsasən, aşağıdakı şərtlər nəzərə alınmaqla qəbul olunurlar:

2.1.1.sağlamlıq imkanları məhdud uşağın sadə özünəxidmət bacarığının olması (sanitar qovşağından istifadə, əlini yuma, qida qəbulu və s.);

2.1.2.sağlamlıq imkanları məhdud uşaqda emosional-iradi sahədə və davranışında nəzərəçarpan pozuntuların olmaması;

2.1.3.müəssisənin pedaqoji heyətinin sağlamlıq imkanları məhdud uşaqla təlim-tərbiyə işinin təşkili üçün səriştələrinin (kompetensiyalarının) olması;

2.1.4.sağlamlıq imkanları məhdud uşağın müəssisənin yaxınlığında yaşaması;

2.1.5.müəssisənin infrastrukturunun sağlamlıq imkanları məhdud uşaq üçün müyəssər olması [6].

Azərbaycanda məktəblərdə inklüziv təhsilin həyata keçirilməsi üçün hüquqi baza və dövlət proqramları mövcuddur. Lakin real həyata keçirmədə resurs çatışmazlığı, müəllim hazırlığı, infrastruktur və sosial münasibətlər kimi maneələr mövcuddur. Bu sahələrin gücləndirilməsi, davamlı dəstək və monitorinq mexanizmlərinin qurulması ilə inklüziv təhsil məktəblərdə daha geniş və səmərəli şəkildə tətbiq edilə bilər. İnklüziv təhsil yalnız fərqli ehtiyacları nəzərə almaq deyil, həm də hər uşağın potensialını reallaşdırmaq üçün imkan yaratmaqdır.

Nəticə olaraq Azərbaycanda məktəblərdə inklüziv təhsilin həyata keçirilməsi üçün hüquqi baza və dövlət proqramları mövcuddur. Lakin real

həyata keçirmədə resurs çatışmazlığı, müəllim hazırlığı, infrastruktur və sosial münasibətlər kimi maneələr mövcuddur. Bu sahələrin gücləndirilməsi, davamlı dəstək və monitorinq mexanizmlərinin qurulması ilə inklüziv təhsil məktəblərdə daha geniş və səmərəli şəkildə tətbiq edilə bilər. İnklüziv təhsil yalnız fərqli ehtiyacları nəzərə almaq deyil, həm də hər uşağın potensialını reallaşdırmaq üçün imkan yaratmaqdır.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikası Təhsil Nazirliyi (2018). İnklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı (2018–2025). Bakı.*
2. *Quliyeva, S. (2020). İnklüziv təhsilin pedaqoji əsasları. Bakı: Təhsil Nəşriyyatı.*
3. Abbasova, F. *(2019). Xüsusi təhsildən inklüziv təhsilə keçid problemləri. Bakı:* ADPU.
4. *UNESCO (2009). Policy Guidelines on Inclusion in Education. Paris: UNESCO.*
5. *UNICEF (2021). Inclusive Education: Every Child Learns. New York: UNICEF*
6. *https://e-qanun.az/framework/53554*
7. *Tim Loreman, Joanne Deppeler, David Harvey " İnklüziv təhsil " (2020).*
8. *U. Ələkbərov, İnklüziv inkişafın idarə edilməsinin əsasları (2018).*
9. *https://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf (2018).*
10. *Müəllif: Dr Peter Grimes ,Marieke Stevens ,Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili"* mövzusunda *ixtisasartırma proqramının Oxu materialı. (2018).*
11. *Azərbaycan Respublikası Təhsil Nazirliyi (2018). İnklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı (2018–2025). Bakı.*
12. *Quliyeva, S. (2020). İnklüziv təhsilin pedaqoji əsasları. Bakı: Təhsil Nəşriyyatı.*
13. *U.Ələkbərov (2021) "İnklüziv Azətərbaycanın ölkənin gələcəyinə yatırımdır".*
14. *M.Əliyev (2018). "İnklüziv təhsil" (Məlumat kitabçası).*

**Məmmədova S.D.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***seriyyememmedova90@gmail.com***

# QLOBALLAŞMA DÖVRÜNDƏ XARİCDƏ ALİ TƏHSİLİN ROLU

***Xülasə***

*XXI əsrdə ali təhsil iqtisadi və sosial inkişafın əsas amili hesab olunur. Qloballaşma və rəqəmsallaşmanın əmək bazarına inteqrasiyası bacarıqlı kadrlar uğrunda rəqabəti gücləndirir və diqqəti xaricdə təhsil almış mütəxəssislərə yönəldir. Eyni zamanda, təhsil miqrasiyasını planlaşdırarkən milli sistemlər arasında fərqlərin nəzərə alınması vacib amillərdən biridir. Bu məqalənin məqsədi xaricdə ali təhsil anlayışını araşdırmaq: onun xüsusiyyətləri, əsas tədqiqat sahələri, keyfiyyətin təminatı və tələbələrin üstünlük verdikləri ixtisaslar, xaricdə ali təhsilin rolu, tələbələrin qarşılaşdıqları çətinliklər, habelə məzunların məşğulluq imkanları və milli iqtisadiyyat üçün faydaları nəzərdən keçirməkdir.*

# РОЛЬ ВЫСШЕГО ОБРАЗОВАНИЯ ЗА РУБЕЖОМ В ЭПОХУ ГЛОБАЛИЗАЦИИ

***Резюме***

*В XXI веке высшее образование рассматривается как ключевой фактор экономического и социального развития. Интеграция глобализации и цифровизации в рынок труда усиливает конкуренцию за квалифицированные кадры и акцентирует внимание на специалистах, получивших образование за рубежом. В то же время при планировании образовательной миграции важно учитывать различия между национальными системами. Цель данной статьи − исследовать понятие высшего образования за рубежом: его особенности, основные направления исследований, обеспечение качества и предпочтительные специальности студентов, а также рассмотреть роль зарубежного образования, трудности, с которыми сталкиваются студенты, возможности трудоустройства выпускников и его пользу для национальной экономики.*

# THE ROLE OF HİGHER EDUCATİON ABROAD İN THE ERA OF GLOBALİZATİON

***Summary***

*In the 21st century, higher education is regarded as a key factor in economic and social development. The integration of globalization and digitalization into the labor market intensifies competition for skilled professionals and shifts attention toward specialists educated abroad. At the same time, when planning educational migration, it is important to take into account the differences between national systems. The purpose of this article is to explore the concept of higher education abroad — its features, main research areas, quality assurance, and students preferred*

*fields of study — as well as to examine the role of studying abroad, the challenges students face, graduates employment opportunities, and the benefits for the national economy.*

***Açar sözlər:*** *xaricdə təhsil, karyera, qloballaşma, ali təhsil, beyin axını, dövlət proqramı*
***Ключевые слова:*** *образование за рубежом, карьера, глобализация, высшее образование, утечка мозгов, государственная программа*
***Key words:*** *study abroad, career, globalization, higher education, brain drain, state program*

Qloballaşma müasir dünyada insan fəaliyyətinin bütün sahələrinə təsir edən mürəkkəb və çoxşaxəli prosesdir. İnformasiya texnologiyalarının sürətli inkişafı, əmək bazarının beynəlmiləlləşməsi və bilik iqtisadiyyatının formalaşması nəticəsində ali təhsil sistemi də yeni çağırışlarla üz-üzə qalmışdır. Bu şəraitdə xaricdə ali təhsil almaq təkcə fərdi inkişaf vasitəsi deyil, həm də milli və beynəlxalq səviyyədə bilik, bacarıq və innovasiyaların mübadiləsini təmin edən strateji bir mexanizmə çevrilmişdir [3, s.43–47].

Azərbaycan da bu prosesin fəal iştirakçılarından biridir. Son illərdə xaricdə təhsil alan azərbaycanlı tələbələrin sayı xeyli artmış, eyni zamanda ölkəmiz xarici tələbələr üçün cəlbedici təhsil məkanı kimi tanınmağa başlamışdır. Bu hal həm ölkənin sosial-iqtisadi inkişafı, həm də beynəlxalq nüfuzu baxımından mühüm əhəmiyyət kəsb edir [6]. Xaricdə təhsil almaq tələbələrin daha yaxşı gələcəyə doğru atdıqları addımlardan biridir və onun sosial həyatı yaxşılaşdırmaqdan yeni mədəniyyət öyrənməyə, yaxşı iş tapmaqdan qlobal perspektiv əldə etməyə qədər bir çox fərqli üstünlükləri vardır. Bu təcrübə keyfiyyətli təhsil və yüksək standartlara malik universitetdə təhsil almaqdan daha çox şey təklif edə bilər. Ən böyük üstünlük isə yeni dil öyrənmək və ya xarici dilin təkmilləşdirilməsi imkanının olmasıdır [9].

Ali təhsilin bütün pillələri üzrə oxumaq üçün həmyerlilərimizin həm Avropanın, həm də ABŞ və Kanadanın prestijli təhsil ocaqlarına yollandıqlarını eşitmək artıq bizi təəccübləndirmir. Buna görə də xaricdə təhsil almağın üstünlüklərinə nəzər salmaqda fayda var [6]:

**1. Gələcək karyera üçün önəmli biliklər və təcrübə qazanmaq imkanları**

Xaricdə təhsil tələbələrə qlobal miqyasda tanınan müasir tədris metodları ilə tanış olmaq imkanı yaradır. Qərb universitetlərinin təhsil proqramları adətən nəzəri biliklərlə yanaşı, praktik bacarıqlar və real layihələr üzərində işləməyə əsaslanır. Bu da tələbələrə yalnız ixtisas üzrə bilikləri deyil, həm də müasir iş mühitində zəruri olan analitik və tənqidi düşünmə bacarıqları qazandırır. Xarici təhsil sistemi tələbələrin müstəqil düşünmələrini, məsuliyyətli qərar vermək vərdişlərini formalaşdırır. Beləliklə, məzunlar əmək

bazarına daha hazırlıqlı şəkildə daxil olur və gələcək karyeralarında üstünlük qazanırlar.

**2. İş təcrübəsi (internship) qazanmaq imkanları**

Bir çox xarici universitetlər təhsil proqramlarına istehsalat təcrübəsi və ya "internship" mərhələsini daxil edir. Bu təcrübələr adətən beynəlxalq şirkətlərdə, startaplarda və tədqiqat mərkəzlərində həyata keçirilir. Belə imkanlar tələbələrə real iş mühiti ilə tanış olmaq, nəzəri biliklərini praktik bacarıqlarla birləşdirmək imkanı verir. Həmçinin, tələbələr iş prosesinin təşkilini, komanda ilə işləmə və peşəkar davranış mədəniyyətini öyrənirlər. Bu cür təcrübələr gələcəkdə işə qəbul prosesində mühüm üstünlük verir, çünki işəgötürənlər artıq peşəkar mühitdə sınaqdan keçmiş gənclərə daha çox etibar edirlər.

**3. Xaricdə karyera qurmaq imkanları**

Xaricdə təhsil alan gənclər çox zaman həmin ölkələrdə qalaraq karyeralarına həmin ölkədə davam etmək imkanı əldə edirlər. Bir sıra ölkələr − məsələn, Almaniya, Kanada, Hollandiya və Avstraliya − beynəlxalq məzunlara universiteti bitirdikdən sonra 1–3 il ərzində işləmək üçün viza təqdim edir. Bu, gənclərin beynəlxalq təcrübə qazanmasına və gələcəkdə həm yerli, həm də qlobal əmək bazarlarına inteqrasiyasına şərait yaradır. Xaricdə karyera qurmaq yalnız maddi deyil, həm də peşəkar inkişaf baxımından əhəmiyyətlidir. Nəticədə, bu təcrübə sonradan Azərbaycana qayıdan mütəxəssislərin ölkə həyatına yeni bilik və yanaşmalar gətirməsinə imkan yaradır.

**4. Dil və ünsiyyət bacarıqlarının inkişafı**

Xarici ölkədə yaşamaq və təhsil almaq təbii şəkildə dil bacarıqlarının inkişafına səbəb olur. Tələbələr gündəlik ünsiyyətdə, mühazirələrdə və elmi yazılarda xarici dildən aktiv şəkildə istifadə etdikləri üçün qısa zamanda dil səviyyələrini xeyli yüksəldirlər. Bundan əlavə, çoxmillətli tələbə mühitində ünsiyyət zamanı fərqli mədəniyyətləri tanımaq, tolerantlıq və qlobal düşüncə tərzini formalaşdırır. Dil və kommunikasiya bacarıqları beynəlxalq əmək bazarında ən çox tələb olunan kompetensiyalardan biridir. Bu bacarıqlar tələbələrin həm akademik, həm də şəxsi inkişafına güclü təsir göstərir və onların gələcəkdə çoxmədəniyyətli komandalarda işləməsini asanlaşdırır.

**5. Netvörkinq (networking) imkanı**

Xaricdə təhsil alan zaman tələbələr dünyanın müxtəlif ölkələrindən gələn gənclərlə, professorlarla və peşəkarlarla ünsiyyət qurmaq imkanını əldə edirlər. Beynəlxalq "networking" yalnız dostluq əlaqələrinin inkişaf etdirilməsi baxımından deyil, həm də peşəkar kimi yetişmək üçün vacib amillərdən hesab edilir. Xaricdə formalaşan bu əlaqələr məzunlara müxtəlif ölkələrdə karyera və tədqiqat imkanlarına çıxış əldə etmək imkanı verir. Azərbaycana qayıdan mütəxəssislər bu əlaqələr vasitəsilə beynəlxalq əməkdaşlıqları təşviq edə və ölkənin elmi və iqtisadi əlaqələrini möhkəmləndirə bilirlər.

Əvvəllər ali təhsil daha çox biliklərin ötürülməsi funksiyasını daşıyırdısa, qloballaşma dövründə onun rolu biliklərin yaradılması, yayılması və tətbiqi istiqamətində genişlənmişdir [4, s.411–433]. Qlobal əmək bazarlarının tələbləri çevik düşünən, müxtəlif mühitlərdə işləmək bacarığına malik, rəqəmsal kompetensiyaları yüksək olan mütəxəssisləri tələb edir. Bu baxımdan xaricdə təhsil, tələbələrə yalnız akademik bilik deyil, həm də qlobal dünyagörüşü, sosial çeviklik və adaptasiya bacarıqları qazandırır [5, s.238–240].

Statistikaya görə, 2023-cü ildə xaricdə təhsil alan azərbaycanlı tələbələrin sayı 15 minə çatıb. Bu tendensiya bir tərəfdən müsbət mənzərə yaratsa da, digər tərəfdən "beyin axını" təhlükəsi və milli intellektual potensialın itirilməsi kimi problemləri gündəmə gətirir. Xaricdə təhsil ilk növbədə tələbələrə daha geniş perspektivlər açır. Məsələn, ABŞ, Almaniya, Böyük Britaniya və Kanada kimi ölkələrin universitetləri tələbələrə yüksək keyfiyyətli təhsil, müasir laboratoriyalar və geniş resurslardan istifadə imkanı verir. Beynəlxalq təcrübə göstərir ki, xaricdə təhsil alan gənclər daha rəqabətqabiliyyətli peşəkar bacarıqlara sahib olurlar. Bu bacarıqlar Azərbaycanın iqtisadi və elmi inkişafına töhfə vermək üçün mühüm resurs ola bilər. Lakin xaricdə təhsil alan gənclərin böyük hissəsi məzun olduqdan sonra geri qayıtmır və əmək fəaliyyətlərini xarici ölkələrdə davam etdirir. Dünya Bankının məlumatlarına əsasən, Azərbaycan 2000-ci ildən bəri beyin axını problemi ilə üzləşib və həmin ölkələrdə təhsil almış mütəxəssislərin təxminən 35%-i geri qayıtmamışdır. Bu, iqtisadiyyatın müxtəlif sahələrində peşəkar kadr çatışmazlığına səbəb olur. Bu problemi həll etmək üçün dövlət xaricdə təhsil alan tələbələrə daha çox diqqət göstərməlidir. Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan tələbələrin təhsil xərclərinin qarşılanması mühüm bir addımdır, lakin bu tələbələrin geri dönüşünü təmin etmək üçün əlavə mexanizmlər yaradılmalıdır.

Beyin axını probleminin digər bir həlli yolu ölkəmizin təhsil sisteminin inkişafıdır. 2024-cü ilin statistik məlumatları göstərir ki, Azərbaycan universitetlərinin beynəlxalq reytinqlərdə mövqeyi nisbətən zəifdir. Məsələn, QS Dünya Universitet Reytinqinə əsasən, Azərbaycanın yalnız bir neçə universiteti bu siyahıya daxil olmuşdur. Universitetlərin elmi-tədqiqat potensialının artırılması, tədris proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması və tələbələr üçün daha cəlbedici təhsil şəraitinin yaradılması xaricə axının azalmasına kömək edə bilər [8].

Ölkəmiz yalnız öz gənclərini xaricə göndərməklə deyil, eyni zamanda xarici tələbələr üçün təhsil məkanı yaratmaqdadır. Hal-hazırda ölkədə 80 mindən çox əcnəbi tələbə təhsil alır və onların əhəmiyyətli hissəsi Türkiyə, Rusiya, Pakistan, Hindistan, Gürcüstan və ərəb ölkələrindən gələn gənclərdir [2].

**Karyera imkanları təklif edən ən populyar ölkələr hansılardır? [9]**

Xaricdə təhsil aldıqdan sonra məzunlar iş imkanları axtarırlar. Bəs, hansı ölkələr məzun olduqdan sonra iş imkanları təklif edir?

**İngiltərə:** İngilis dili bacarıqlarını artırmaq istəyənlərin ən çox üstünlük verdiyi ölkələrdən biri də İngiltərədir ki, bu ölkə Oksford, UCL kimi nüfuzlu universitetləri ilə tanınır. Maliyyə, marketinq və media sahələrində iş imkanları axtaranlar üçün bura çox əlverişlidir. Eyni zamanda İngiltərə tələbələrə təhsilini başa vurduqdan sonra daha 2 il ölkədə qalıb iş tapmağa icazə verir.

**Kanada:** Tələbələrə xaricdə karyera imkanları təklif edən ən məşhur ölkələrdən biri olan Kanada məzunlara yaşamaq və işləməyi təklif edir. Məzun olduqdan sonra iş icazəsi ilə bu ölkədə 3 ilə qədər qalmaq imkanı verilir.

**ABŞ:** Xaricdə təhsil dedikdə ağıla ilk gələn ölkələrdən biri də Amerikadır. Texnologiya mərkəzli ölkədə Apple, Facebook, Walmart, IBM kimi nüfuzlu şirkətlər məzunlara Amerikada daha iki il qalaraq işləmək imkanı təklif edir.

**Avstraliya:** Məzun olduqdan sonra karyera imkanları təklif edən başqa bir ölkə Avstraliyadır. Ölkə tibb, əczaçılıq və baytarlıq kimi bir çox sahədə iş imkanları təklif edir və MBA və informatika kimi ixtisaslar tələbələr arasında daha tələbatlıdır.

**Yeni Zelandiya:** Təhsil aldıqları fixtisaslardan və dərəcədən asılı olaraq, məzunlar Yeni Zelandiyada 3 ilə qədər qala bilərlər. Ölkədə xüsusilə kompüter elmləri, mühəndislik, səhiyyə və tibb sahələri üzrə iş imkanları daha yüksəkdir [9].

Azərbaycan gənclər üçün xaricdə təhsil almaq, bilik və bacarıqlarını beynəlxalq standartlara uyğun olaraq təkmilləşdirmək imkanı yaradır. Xüsusilə 2007–2015-ci illəri əhatə edən “Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” bu istiqamətdə dönüş nöqtəsi olmuşdur. Proqram çərçivəsində minlərlə azərbaycanlı tələbə dünyanın aparıcı universitetlərində təhsil almış və sonradan ölkənin müxtəlif sahələrində fəaliyyət göstərərək milli inkişaf prosesinə töhfə vermişdir. Dövlət Proqramının əsas məqsədi ölkədə rəqabətqabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkənin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, Azərbaycan gənclərinin ümumbəşəri dəyərlər əsasında layiqli ali təhsil almaları üçün lazımi şəraitin yaradılması, istedadlı gənclərin dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılmasını təmin etməkdən ibarətdir [1].

Qeyd edilən proqram öz dövrü üçün strateji əhəmiyyət daşısa da, qloballaşma və əmək bazarında dəyişikliklər yeni mərhələdə daha çevik və məqsədyönlü yanaşma tələb etmişdir. Bu məqsədlə “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər

üçün Dövlət Proqramı" müasir tələblərə uyğun olaraq hazırlanmış və artıq dünyanın aparıcı universitetlərində maliyyələşdiriləcək ixtisas və təhsil proqramlarının siyahısı təsdiqlənmişdir. Təsdiq olunmuş təhsil proqramlarının siyahısında 15 prioritet ixtisas sahəsi üzrə dünyanın 32 ölkəsinə aid 221 nüfuzlu ali təhsil müəssisəsində tədris olunan 4405 proqram yer almışdır. Bununla yanaşı, namizədlər dünyanın aparıcı reytinq cədvəllərində yer alan nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq imkanı əldə edirlər. Siyahıda bakalavriat səviyyəsi üzrə 1311, magistratura səviyyəsi üzrə isə 3094 proqram yer alır. Namizədlər, eyni zamanda, 2025-ci ilin "Times Higher Education" və "QS World University Rankings" reytinq cədvəllərində ilk onluqda yer almış ali təhsil müəssisələri tərəfindən təqdim olunan istənilən ixtisas sahələri üzrə bakalavriat, magistratura və doktorantura proqramlarından əldə etdikləri qəbul məktubları əsasında müsabiqədə iştirak edə biləcəklər [7].

Azərbaycanın ali təhsil müəssisələri beynəlxalq akkreditasiyalardan keçirilir, ingilis və rusdilli proqramlar genişlənir. Bakı Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan Tibb Universiteti kimi təhsil ocaqları artıq regional akademik mərkəz statusu qazanmışdır. Belə ali təhsil müəssisələrindən biri də Azərbaycan Dövlət Pedaqoji Universitetidir. İkili diplom proqramının yaradılması Azərbaycan Dövlət Pedaqoji Universiteti və ABŞ-nin nüfuzlu Corc Vaşinqton Universitetinin Ali Təhsil və İnsan İnkişafı Məktəbi arasında 25 iyun 2019-cu il tarixində imzalanmış Bəyannaməyə əsaslanır. 31 yanvar 2020-ci il tarixində Azərbaycan Respublikasının sabiq təhsil naziri cənab Ceyhun Bayramov və Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Cəfər Cəfərov, Amerika tərəfindən isə Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Li Litzenberqer və Corc Vaşinqton Universitetinin Təhsil və İnsan İnkişafı Məktəbinin dekanı Maykl Foyerın iştirakı ilə imzalanma mərasimi keçirilmişdir. İkili diplom proqramı 2018-ci ilin noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" əsasında fəaliyyət göstərir [10].

Xaricdə ali təhsil insan kapitalına sərmayədir və düzgün təhsil siyasəti həyata keçirildikdə tələbələrin akademik biliklər əldə etməsinə, peşəkar və şəxsi bacarıqların inkişaf etdirilməsinə töhfə verir. Beynəlxalq universitetlər qabaqcıl elm, texnologiya və şəbəkələrə çıxışı təmin edir, qlobal mühitdə yaşamaq və işləmək bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, xaricdə təhsil tələbələrdən düzgün planlaşdırma, maliyyə intizamı və mədəni uyğunlaşmanı tələb edir. Balanslaşdırılmış yanaşma – ölkələrin və universitetlərin məqsədlərini, resurslarını və institusional xüsusiyyətlərini müqayisə etmək – həm tələbə, həm də onların qayıtdıqları və ya karyeralarını davam etdirdikləri

cəmiyyət üçün faydaları maksimum dərəcədə artırmağa imkan verir. Tələbələr xarici univertitetləri seçərkən yalnız təhsil müəssisəsinin retinqinə deyil, həm də təqdim etdiyi dəstək layihələri, təqaüd imkanları, mədəni mühiti mütləq nəzərə almalıdırlar. Xaricdə təhsil almış gənclər innovativ biliklərə, qlobal təcrübəyə, çoxmədəniyyətli mühitdə işləmək bacarıqlarına yiyələnir, bununla da onlar yüksək rəqbət üstünlüyünə malik olurlar. Bu da onları bir mütəxəssis kimi həm yerli, həm də beynəlxalq əmək bazarında işəgötürənlər üçün cəlbedici edir. Dövlət də öz növbəsində xaricdə təhsil almış məzunların ölkəyə qayıtmasını, onların əmək bazarında karyera imkanlarını stimullaşdırmalıdır.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, qloballaşma dövründə xaricdə ali təhsil təkcə fərdi inkişaf vasitəsi deyil, həm də dövlətlərin strateji insan kapitalı siyasətinin ayrılmaz hissəsidir. Azərbaycan üçün bu istiqamət, bilik iqtisadiyyatına keçidin, rəqabətqabiliyyətli kadrların hazırlanmasının və innovativ düşüncə tərzinin inkişafının əsas təminatçılarından biridir.

Eyni zamanda, ölkəmizin öz ali təhsil sistemini beynəlmiləlləşdirməsi, xarici tələbələr üçün əlverişli mühit yaratması və beynəlxalq əməkdaşlıqları genişləndirməsi, milli maraqlar baxımından strateji əhəmiyyət daşıyır. Beləliklə, xaricdə və Azərbaycanda təhsil proseslərinin qarşılıqlı inkişafı, ölkənin qlobal təhsil məkanında mövqeyini gücləndirəcək əsas istiqamətlərdən biri kimi qiymətləndirilməlidir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikası Nazirlər Kabineti (2007). Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı haqqında Qərar. Qərar №86, 16 aprel 2007. https://e-qanun.az/framework/16036*
2. *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikasında təhsil sahəsi üzrə göstəricilər. 2023 https://www.stat.gov.az/source/education/*
3. *Altbach Philip. The International Imperative in Higher Education. Rotterdam: Sense Publishers, 2013, p. 43–47.*
4. *Marginson Simon. Higher Education and the Global Public Good. Higher Education Quarterly, 65(4), 2011, p. 411–433.*
5. *Teichler Ulrich. Internationalisation Trends and Their Impact on Higher Education. Journal of Studies in International. 2017, p. 238–240.*
6. *https://www.xaricdetehsil.net/xaricde-tehsil-almagin-ustunlukleri/*
7. *https://edu.gov.az/az/news-and-updates/21834-1*
8. *https://tehsil.biz/news/az/79715/Xaricd-Thsil-Beyin-axn-v-Azrbaycan-gnclrinin-glcyi*
9. *https://www.tehsil.biz/news/az/80031/Karyera-n-xaricd-thsil-n-qdr-nmlidir*
10. *https://adpu.edu.az/index.php/az/i%CC%87kili-diplom/corc-va%C5%9Finqton*

**Mövsümova S.Ə.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***movsumova.sevinc@mail.ru***

# AZƏRBAYCAN TƏHSİL SAHƏSİNDƏ MARKETİNQ FƏALİYYƏTİNİN FORMALAŞMASI VƏ ONUN ŞAGİRDLƏRİN CƏLB EDİLMƏSİNƏ TƏSİRİ

***Xülasə***

*Bu məqalədə Azərbaycan təhsil sahəsində marketinq fəaliyyətinin formalaşması və onun şagirdlərin cəlb edilməsinə təsiri araşdırılmışdır. Təhsil sektorunda baş verən struktur və idarəetmə islahatları nəticəsində məktəblər və digər təhsil müəssisələri artıq yalnız dövlət tənzimləməsinə əsaslanmır, həm də bazar prinsipləri üzrə fəaliyyət göstərirlər. Məqalədə ümumtəhsil məktəblərində marketinq fəaliyyətinin məqsədi, funksiyaları və praktik əhəmiyyəti elmi əsaslarla təhlil edilmişdir. Araşdırma zamanı müəyyən olunmuşdur ki, məktəblərin rəqabət mühitində səmərəli fəaliyyət göstərməsi üçün marketinq planlaşdırması, kommunikasiya siyasəti və valideynlərlə qarşılıqlı əlaqə sistemlərinin təkmilləşdirilməsi vacibdir. Müəllif tərəfindən təqdim olunan nəticələr göstərir ki, təhsil marketinqinin məqsədyönlü tətbiqi həm dövlət, həm də özəl məktəblərdə şagird axınının sabitliyini təmin edə bilər.*

# ФОРМИРОВАНИЕ МАРКЕТИНГОВОЙ ДЕЯТЕЛЬНОСТИ В СФЕРЕ ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА И ЕЁ ВЛИЯНИЕ НА ПРИВЛЕЧЕНИЕ УЧАЩИХСЯ

***Резюме***

*В статье рассматривается формирование маркетинговой деятельности в сфере образования Азербайджана и её влияние на привлечение учащихся. В результате структурных реформ образовательные учреждения функционируют не только на основе государственного регулирования, но и с использованием рыночных принципов управления. В работе анализируются цели, функции и практическое значение маркетинговой деятельности в общеобразовательных школах. Установлено, что для эффективной работы школ в условиях конкуренции необходимо совершенствование маркетингового планирования, коммуникационной политики и системы взаимодействия с родителями. Представленные результаты показывают, что целенаправленное применение образовательного маркетинга способствует стабильному притоку учеников как в государственных, так и в частных школах.*

# FORMATION OF MARKETING ACTIVITIES IN THE EDUCATION SECTOR OF AZERBAIJAN AND THEIR IMPACT ON STUDENT RECRUITMENT

***Summary***

*This article examines the formation of marketing activities in the education sector of Azerbaijan and their impact on student recruitment. As a result of educational reforms, schools and other educational institutions now operate not only under state regulation but also according to market principles. The purpose, functions, and practical significance of marketing in general education schools are analyzed from a scientific perspective. The study found that for schools to operate effectively in a competitive environment, it is crucial to improve marketing planning, communication policy, and interaction with parents. The results presented by the author demonstrate that the purposeful application of educational marketing can ensure stable student enrollment in both public and private schools.*

***Açar sözlər:*** *təhsil marketinqi, ümumtəhsil məktəbləri, şagirdlərin cəlbi, strateji idarəetmə, kommunikasiya siyasəti*

***Ключевые слова:*** *образовательный маркетинг, общеобразовательные школы, привлечение учащихся, стратегическое управление, коммуникационная политика*

***Key words:*** *educational marketing, general education schools, student recruitment, strategic management, communication policy*

Azərbaycanın təhsil sahəsi son onilliklərdə əsaslı dəyişikliklər mərhələsindən keçir. Rəqabət mühitinin yaranması, özəl məktəblərin sayının artması və valideynlərin seçim imkanlarının genişlənməsi ümumtəhsil müəssisələrinin idarəetmə modelini dəyişmişdir. Bu şəraitdə marketinq fəaliyyəti təhsilin idarə edilməsinin mühüm elementi kimi önə çıxır.

Marketinqin təhsil sahəsində tətbiqi ilk növbədə şagirdlərin və valideynlərin tələbatlarını öyrənməyə, məktəbin imicini formalaşdırmağa, təhsil xidmətlərinin keyfiyyətini artırmağa və cəlbediciliyi təmin etməyə yönəlir [3, s.7]. Təhsil marketinqi konsepsiyası yalnız reklam və tanıtım fəaliyyətini deyil, məktəbin strateji planlaşdırılması, idarəetmə və ictimai əlaqələr sistemini əhatə edir [4, s. 14].

Təhsil xidmətləri öz təbiətinə görə sosial əhəmiyyətlidir və ölkənin iqtisadiyyatında xüsusi rol oynayır. Cəmiyyətdə hər bir fərd təhsil xidmətlərinin potensial istehlakçısıdır. Buna görə də təhsil müəssisələri bazarın tələblərinə uyğunlaşmaq, müştəri məmnuniyyətini təmin etmək və tədris keyfiyyətini artırmaq üçün yeni idarəetmə mexanizmlərindən — xüsusilə marketinq strategiyalarından — istifadə etməlidirlər. Azərbaycanda son illərdə bu istiqamətdə müəyyən irəliləyişlər müşahidə olunur. Xüsusilə **özəl məktəblər** və **regionlarda fəaliyyət göstərən dövlət məktəbləri** valideynlərlə

kommunikasiya, sosial media üzərindən tanıtım və ictimai əlaqələr sahəsində yeni yanaşmalar tətbiq etməyə başlayıblar. Lakin ümumilikdə təhsil müəssisələrinin əksəriyyətində marketinq fəaliyyətləri hələ sistemsiz və epizodik xarakter daşıyır [6].

Təhsildə marketinqin xüsusiyyətləri iki amillə izah olunur:

- Əksər ölkələrdə təhsil mənfəət əldə etmək məqsədi güdməyən sektordur, ona görə də sektora tətbiq edilən marketinq konsepsiyaları əsas məqsədləri mənfəət əldə etmək olan biznes sektorunda olan marketinq strategiyaları ilə üst-üstə düşmür.
- Təhsil sosial ehtiyacdır, buna görə də sosial marketinq və xidmət marketinqində mövcud olan bütün xüsusiyyətlər təhsil marketinqi üçün də keçərlidir [6].

Təhsil marketinqi təkcə Qərb təcrübəsində deyil, postsovet məkanında da aktuallıq qazanmaqdadır. Sosial-iqtisadi transformasiya mərhələsində olan ölkələrdə, o cümlədən Azərbaycanda təhsil sahəsinin bazar prinsipləri ilə idarə olunması zərurəti yaranmışdır. Bu, bir tərəfdən təhsil müəssisələrinin öz fəaliyyətlərini müasir idarəetmə tələblərinə uyğunlaşdırmaq ehtiyacından, digər tərəfdən isə şagird cəlbində rəqabət mühitinin formalaşmasından irəli gəlir. Lakin bütün bu ehtiyaclara baxmayaraq, Azərbaycan təhsil sahəsində marketinq fəaliyyətləri hələ tam sistemli xarakter daşımır və çox vaxt təşəbbüs səviyyəsində qalır [2].

Bu mənada təhsil marketinqi cəmiyyətlə məktəb arasında körpü rolunu oynayır. Məktəbin təhsil "məhsulunu", yəni tədris proqramı, müəllim heyəti, sosial mühit və infrastruktur kimi amilləri düzgün təqdim etmək, ictimai etimad formalaşdırmaq və valideyn məmnunluğunu təmin etmək təhsil marketinqinin əsas hədəfidir [5, s.35].

Bu prosesdə ***7P modeli*** (product, price, place, promotion, people, process, physical evidence) əsas marketinq aləti hesab olunur [7, s.46]. Azərbaycanda bu modelin elementləri daha çox özəl məktəblərdə tətbiq edilir. Məsələn, "XXI əsr məktəbi", "Dunya School" və "Kaspi Liseyi" kimi təhsil müəssisələri öz brend imiclərini sosial media üzərindən formalaşdırır, açıq qapı günləri və ictimai tədbirlər vasitəsilə cəmiyyətlə əlaqə saxlayır. Dövlət məktəblərində isə bu proses hələ ilkin mərhələdədir.

Təhsil xidmətlərinin bazara təqdimində artan rəqabət yeni marketinq üsullarının yaranmasına səbəb olmuşdur. Azərbaycanda bu meyil xüsusilə Bakı və Gəncə kimi iri şəhərlərdə özünü göstərir, valideynlər daha keyfiyyətli və fərdi yanaşma təklif edən məktəblərə üstünlük verirlər. Elm və Təhsil Nazirliyinin 2023-cü il hesabatına görə, son beş ildə özəl məktəblərdə şagird sayı 42%, dövlət məktəblərində isə cəmi 6% artmışdır [1]. Bu fərq birbaşa marketinq və kommunikasiya strategiyalarının səviyyəsindən qaynaqlanır. Şagird cəlbinin səmərəli təşkili məktəbin fəaliyyətinin sabitliyini müəyyən

edən əsas amillərdəndir. Elm və Təhsil Nazirliyinin 2023-cü il hesabatına görə, son beş ildə özəl məktəblərdə şagird sayı 42% artmış, dövlət məktəblərində isə bu artım 6% səviyyəsində qalmışdır [1]. Bu fərqin əsas səbəbi özəl məktəblərin aktiv marketinq və kommunikasiya siyasətidir.

Özəl məktəblər "brend imici" formalaşdırmaq üçün sosial şəbəkələrdə tanıtım aparır, açıq qapı günləri, tanıtım videoları və valideyn görüşləri təşkil edir. Dövlət məktəblərində isə bu fəaliyyətlər çox vaxt formal xarakter daşıyır.

Təhsil marketinqinin düzgün qurulması valideyn davranışına birbaşa təsir göstərir. Sorğular göstərir ki, valideynlərin 63%-i məktəbi seçərkən onun ictimai imicinə və informasiya açıqlığına diqqət yetirir. Bu da göstərir ki, kommunikasiya strategiyası şagird cəlbinin əsas faktorlarından biridir.

Təhsil sektorunda ənənəvi üsullarla həll edilə bilməyən problemlərin aradan qaldırılması üçün rəqəmsal texnologiyalardan istifadənin vacibliyi artmaqdadır. Azərbaycan da bu sahədə regionun qabaqcıl ölkələri sırasına daxil olmağa çalışır. "Rəqəmsal bacarıqlar", "Təhsil TV" [8], "Məktəblinin dostu" [9], "Code for Future" [10] kimi layihələr təhsildə innovasiyaların tətbiqini sürətləndirib.

Bununla belə, bir çox məktəblərdə texnologiyanın tətbiqini məhdudlaşdıran əsas səbəblər – pedaqoqların texnoloji savadlılıq səviyyəsinin aşağı olması, maliyyə resurslarının qeyri-bərabər paylanması və idarəetmədə çevikliyin azlığıdır. Bu amillər marketinq fəaliyyətinin rəqəmsal platformalarda genişlənməsinə mane olur.

Tədqiqat göstərir ki, Azərbaycan təhsil sahəsində marketinq fəaliyyəti formalaşma mərhələsində olsa da, onun tətbiqi perspektivləri genişdir. Təhsil müəssisələrində məqsədyönlü marketinq strategiyalarının həyata keçirilməsi, valideynlərlə kommunikasiya əlaqələrinin gücləndirilməsi və məktəb imicinin idarə olunması şagird cəlbini artırmaqla yanaşı, təhsil keyfiyyətinin də yüksəlməsinə xidmət edir.

Azərbaycan ümumtəhsil sahəsində marketinq fəaliyyətinin institusional səviyyədə tam formalaşmaması hələ də aktual problemdir. Dövlət məktəblərində marketinq çox vaxt formal səviyyədə - tədbir və elanlarla məhdudlaşır. Halbuki təhsil müəssisəsi bir təşkilat kimi **rəqabət qabiliyyətli imic, məqsədyönlü kommunikasiya və ictimai iştirak** yaratmalıdır.

Əsas çatışmazlıqlar sadalananlardır:

- Marketinq və Public Relations (ictimaiyyətlə əlaqələr) sahəsində ixtisaslaşmış kadrların çatışmazlığı;
- Məktəblərdə kommunikasiya strukturlarının və media əlaqələrinin olmaması;
- Rəqəmsal platformalarda məktəb imicinin zəif idarə olunması;
- Marketinqin strateji idarəetmənin bir hissəsinə çevrilməməsi.

Məktəblər şagirdləri cəlb etmək üçün ilk növbədə **öz dəyərlərini və fərqləndirici xüsusiyyətlərini** cəmiyyətə düzgün təqdim etməlidirlər. Valideyn və şagird seçimi artıq sadəcə coğrafi məsafə ilə deyil, məktəbin reputasiyası, tədris keyfiyyəti, sosial mühit və kommunikasiya bacarığı ilə müəyyən olunur [4, s. 23–28].

Azərbaycanda məktəblərin bu istiqamətdə istifadə edə biləcəyi əsas üsullar aşağıdakılardır:

1. **İctimai əlaqələr və şəffaf kommunikasiya [1]:**

Məktəblər rəsmi veb-saytlarında və sosial media platformalarında (Facebook, Instagram, Telegram) tədris nailiyyətlərini, layihələrini və şagird uğurlarını ictimaiyyətə açıq şəkildə təqdim etməlidirlər. Bu, valideynlərdə etimad yaradır və məktəbin cəlbediciliyini artırır.

2. **Brend imicinin formalaşdırılması:**

Hər məktəb özünü müəyyən bir istiqamət üzrə ixtisaslaşmış təhsil müəssisəsi kimi təqdim edə bilər. Məsələn, bəziləri STEM (elm, texnologiya, mühəndislik və riyaziyyat) yönümlü fəaliyyət göstərsə, digərləri humanitar və ya incəsənət yönümlü proqramları vurğulaya bilər.

3. **Açıq qapı günləri və ictimai tədbirlər:**

Valideyn və ictimaiyyət üçün təşkil edilən açıq qapı günləri, seminarlar və "məktəb günü" tədbirləri təhsil müəssisəsinin şəffaflığını və cəmiyyətlə əlaqəsini gücləndirir.

4. **Elektron qeydiyyat və rəqəmsal xidmətlər:**

Elm və Təhsil Nazirliyinin elektron qeydiyyat sistemləri ilə yanaşı, məktəblər öz daxili onlayn qeydiyyat platformalarını inkişaf etdirə bilərlər. Bu, valideynlər üçün rahatlıq və məktəb üçün informasiya idarəetməsində çeviklik yaradır.

5. **Sosial məsuliyyət layihələri:**

Məktəblər ekoloji, sosial və xeyriyyə yönümlü layihələrdə iştirak etməklə cəmiyyət qarşısında müsbət imic formalaşdırır və bu da şagird cəlbini dolayısı ilə artırır.

6. **Valideyn məmnunluğu sorğuları:**

Daimi olaraq aparılan sorğular vasitəsilə məktəblər valideyn və şagirdlərin gözləntilərini öyrənməli, nəticələrə əsasən fəaliyyət planlarını tənzimləməlidirlər.

Bu tədbirlərin məqsədi yalnız şagirdlərin sayını artırmaq deyil, həm də məktəb və ictimaiyyət arasında **etimadlı əlaqə və qarşılıqlı əməkdaşlıq mühiti** formalaşdırmaqdır. Bu, uzunmüddətli perspektivdə məktəbin imicini gücləndirən ən təsirli marketinq vasitəsidir.

Bu istiqamətlər reallaşdığı təqdirdə, Azərbaycan təhsil bazarında məktəblərin rəqabət qabiliyyəti artacaq, şagird cəlbi sabitləşəcək, təhsilin ictimai dəyəri yüksələcək. Marketinq fəaliyyəti yalnız tanıtım vasitəsi kimi

deyil, həm də **təhsil keyfiyyətinin və idarəetmə şəffaflığının artırılması aləti** kimi çıxış edəcək.

Beləliklə, Azərbaycan təhsil sahəsində marketinq fəaliyyətinin inkişafı yalnız şagirdlərin cəlb edilməsi baxımından deyil, həm də ümumilikdə təhsilin idarəetmə keyfiyyətinin yüksəldilməsi və cəmiyyətin maariflənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə atılacaq hər bir addım dövlətin təhsil siyasətinə uyğun olmalı, təhsil müəssisələrinin muxtariyyətini, şəffaflığını və ictimai iştirakını artırmalıdır.

Mövcud vəziyyət göstərir ki, Azərbaycanda təhsil marketinqinə olan ehtiyac artmaqda davam edir, lakin bu fəaliyyət hələ də sistemli mexanizmə çevrilməyib. Nəticədə məktəblər arasında rəqabət bərabər səviyyədə deyil, ictimai əlaqələrdə səmərəlilik fərqli səviyyələrdə formalaşır.

Gələcəkdə təhsil marketinqinin hüquqi və institusional əsaslarının möhkəmləndirilməsi, təhsil müəssisələrinin fəaliyyət qiymətləndirməsində marketinq göstəricilərinin əlavə edilməsi və marketinq təlimlərinin sistemli təşkili bu sahədə keyfiyyətli dəyişikliklərə yol açacaq. Bu, təhsildə səmərəli idarəetmə, sosial etimad və şagird cəlbində dayanıqlılıq kimi nəticələrə gətirib çıxaracaqdır.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. Təhsil müəssisələrinin kommunikasiya strategiyası və innovativ idarəetmə modelləri. 2023. https://edu.gov.az/az/dovlet-strategiyasi-ve-konsepsiyalar/12574*
2. *Hollensen Svend. Global Marketing (4th edition). England United Kingdom. FT Prentice Hall. 2007.*
3. *Kotler Philip, Armstrong Gary. Principles of Marketing (17th edition.). Pearson Education Limited, 2018. 736 p.*
4. *Kotler Philip, Fox Karen. Strategic Marketing for Educational Institutions. Prentice Hall. 1995. 464 p.*
5. *Maringe Felix, Gibbs Paul. Marketing Higher Education: Theory and Practice. Open University Press. 2009. 213 p.*
6. *Schleicher Andreas. Preparing Teachers and Developing School Leaders for the 21st Century: Lessons from Around the World. OECD Education and Skills. 2012. 112 p.*
7. *Zeithaml Valarie, Jo Bitner Mary, Gremler Dwayne. Services Marketing: Integrating Customer Focus Across the Firm (7th edition). McGraw-Hill Education. 2018. 672 p.*
8. *https://525.az/news/3138-tehsil-tv-yaradilir*
9. *https://edu.gov.az/az/programmes/mekteblinin-dostu-layihesi*
10. *https://edu.gov.az/az/programmes/gelecek-ucun-kod-layihesi*

**Muradova Y.R.**
**Azərbaycan Turizm və Menecment Universiteti**
***muradovayegana@gmail.com***

# AZƏRBAYCAN MÜLKİ AVİASİYA MUZEYİNİN KOLLEKSİYA İRSİNİN TƏDQİQİ VƏ MÜASİR TƏBLİĞ STRATEGİYALARI

***Xülasə***

*Məqalədə Azərbaycan Mülki Aviasiya Muzeyinin kolleksiya irsinin elmi əsaslarla araşdırılması və bu irsin müasir kommunikasiya vasitələri ilə ictimaiyyətə təqdim olunması məsələləri təhlil edilir. Tədqiqata daxil olan fotoarxivlər, uçuş sənədləri, texniki avadanlıqlar, uniforma nümunələri və digər eksponatlar aviasiya tarixinin müxtəlif mərhələlərini əks etdirən mühüm mənbələr kimi qiymətləndirilir. Rəqəmsallaşdırma, virtual turlar, multimedia təqdimatları və təhsil yönümlü proqramlar muzeyin təbliğ potensialını artıran əsas istiqamətlər kimi nəzərdən keçirilir. Məqalə aviasiya irsinin qorunması, elmi interpretasiyası və geniş auditoriyalara effektiv çatdırılması üçün müasir metodların tətbiqinin əhəmiyyətini ortaya qoyur.*

# ИССЛЕДОВАНИЕ КОЛЛЕКЦИОННОГО НАСЛЕДИЯ МУЗЕЯ ГРАЖДАНСКОЙ АВИАЦИИ АЗЕРБАЙДЖАНА И СОВРЕМЕННЫЕ СТРАТЕГИИ ПОПУЛЯРИЗАЦИИ

***Резюме***

*В статье рассматривается научное изучение коллекционного наследия Музея гражданской авиации Азербайджана и способы его представления широкой аудитории с использованием современных коммуникационных технологий. Фотоархивы, летные документы, техническое оборудование, образцы формы и другие экспонаты оцениваются как значимые источники, отражающие этапы развития авиации. Цифровизация, виртуальные туры, мультимедийные средства и образовательные программы анализируются как ключевые механизмы, усиливающие популяризацию музейного наследия. Работа подчеркивает важность современных методов в сохранении, интерпретации и общественной презентации авиационного наследия.*

# RESEARCH OF THE COLLECTİON HERİTAGE OF THE AZERBAİJAN CİVİL AVİATİON MUSEUM AND MODERN PROMOTİON STRATEGİES

***Summary***

*This article examines the collection heritage of the Azerbaijan Civil Aviation Museum, focusing on its scientific analysis and its public presentation through modern communication strategies. The museum's photo archives, flight records, technical*

*equipment, uniforms, and related artifacts serve as significant sources reflecting various stages of aviation history. Digitization practices, virtual tours, multimedia tools, and educational programs are evaluated as essential approaches that enhance the museum's outreach and engagement capabilities. The study highlights the importance of modern methods in preserving, interpreting, and effectively communicating aviation heritage to diverse audiences.*

***Açar sözlər:*** *mülki aviasiya, muzey irsi, sənədli irs, rəqəmsallaşdırma, ictimai kommunikasiya, təbliğ strategiyası*

***Ключевые слова:*** *гражданская авиация, музейное наследие, документальное наследие, цифровизация, общественная коммуникация, стратегии популяризации*

***Key words:*** *civil aviation, museum heritage, documentary heritage, digitization, public communication, promotion strategies*

## Giriş

Müasir dövrdə mədəni irsin qorunması və onun ictimaiyyətə səmərəli şəkildə təqdim olunması milli kimliyin formalaşması, tarixi yaddaşın saxlanması və elmi biliklərin cəmiyyətə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu kontekstdə muzeylər yalnız eksponatların nümayiş olunduğu məkanlar deyil, həm də elmi araşdırma, informasiya ötürülməsi və ictimai maarifləndirmə platformaları kimi çıxış edir. Azərbaycan mülki aviasiyasının çoxillik inkişaf yolu, texnoloji yenilikləri, hava nəqliyyatının ölkənin sosial-iqtisadi həyatında oynadığı rol bu sahədə formalaşmış sənədli və maddi irsin sistemli şəkildə öyrənilməsini zəruri edir.

Azərbaycan Mülki Aviasiya Muzeyi özündə aviasiya tarixinin müxtəlif dövrlərinə aid fotoqrafik materiallar, uçuş sənədləri, texniki avadanlıqlar, uniforma nümunələri, kartoqrafik sənədlər, vizual kommunikasiya materialları və digər artefaktları birləşdirən zəngin kolleksiya təqdim edir. Bu irs yalnız aviasiya sahəsinin inkişaf mərhələlərini əks etdirmir, həm də həmin dövrlərin texnoloji, sosial və mədəni kontekstlərini auditoriyaya çatdırmaq baxımından mühüm əhəmiyyətə malikdir. Kolleksiyanın elmi tədqiqi onun mənşə, funksiyasını, sənədli dəyərini və tarixi ardıcıllığını müəyyənləşdirməyə, həmçinin aviasiya tarixinin daha geniş çərçivədə interpretasiyasına imkan yaradır [1, s.15].

Müasir muzeyçilikdə təbliğ və ünsiyyət strategiyaları ənənəvi sərgi modellərindən daha geniş spektrə – rəqəmsallaşdırma, interaktiv təqdimat, rəqəmsal arxivlər, virtual turlar, sosial media kommunikasiya kanalları və təhsil yönümlü proqramlara qədər uzanır. Bu yanaşmalar muzey kolleksiyalarının yalnız fiziki ziyarətçilərlə məhdudlaşmamasını, geniş ictimaiyyət üçün əlçatan olmasını təmin edir və auditoriyanın aviasiya irsi ilə daha dərin əlaqə qurmasına şərait yaradır. İnformasiya texnologiyalarının

sürətli inkişafı isə muzeylərə öz irsini yeni formatlarda təqdim etmək, müxtəlif yaş qrupları və sosial kateqoriyalar üçün daha cəlbedici və interaktiv təcrübələr yaratmaq imkanı verir.

**Təhlil**

Azərbaycan Mülki Aviasiya Muzeyinin kolleksiyası aviasiya fəaliyyətinin müxtəlif dövrlərini sənədli və vizual materiallar vasitəsilə əhatə edən çoxqatlı irs nümunəsidir. Eksponatlar həm texnoloji inkişafın ardıcıllığını, həm də aviasiya sahəsində çalışan insanların peşə mədəniyyətini özündə cəmləşdirir. Bu zənginlik muzey irsinin həm elmi araşdırma, həm də ictimai təqdimat baxımından geniş imkanlara sahib olduğunu göstərir.

Kolleksiyanın strukturunda fotoarxivlər, uçuş sənədləri, texniki avadanlıqlar və uniforma nümunələri xüsusi yer tutur. Hər bir material öz dövrünün sosial-mədəni mühitini və aviasiyanın cəmiyyət üçün daşıdığı mənanı əks etdirir. Belə sənədlər aviasiya tarixində təhlükəsizlik standartlarının, texniki yeniliklərin və idarəetmə praktikasının təkamülünü izləməyə şərait yaradır [2, s. 42].



**Şəkil 1. Mülki Aviasiya Muzeyinin ekspozisiya zalı**

Muzeyin müasir təbliğ fəaliyyəti təkcə eksponatların nümayişi ilə məhdudlaşmır. Rəqəmsallaşdırma, interaktiv təqdimat formatları və virtual turlar məlumatı daha geniş auditoriyaya çatdırır. Bu yanaşma həm gənc ziyarətçilər, həm də sahə mütəxəssisləri üçün irslə daha canlı əlaqə yaradır. Sosial media və rəqəmsal platformalarda həyata keçirilən kommunikasiya isə aviasiya tarixinin gündəlik həyatla daha yaxın təmasda olmasına imkan verir. Muzey kolleksiyasının elmi və ictimai dəyəri onun insan yönümlü təqdimatında daha da güclənir. Eksponatların arxasında dayanmış şəxsi hekayələrin vurğulanması aviasiya irsinin yalnız texniki proseslərdən ibarət olmadığını göstərir. Bu humanist yanaşma irsin cəmiyyət tərəfindən daha yaxşı qavranmasını təmin edir və muzeyin maarifləndirici rolunu gücləndirir.

Kolleksiyanın rəqəmsal təqdimatı muzeyin elmi fəaliyyətinə yeni imkanlar açır. Rəqəmsal arxivlərdə saxlanılan materiallar həm tədqiqatçılar, həm də maraq göstərən ziyarətçilər üçün fasiləsiz əlçatanlıq yaradır. Bu şərait aviasiya irsinin geniş auditoriyalar üçün daha şəffaf və davamlı şəkildə yaşadılmasına kömək edir. Rəqəmsal mühit həmçinin eksponatların fiziki qorunmasına da əlavə imkan verir. Müasir təbliğ strategiyalarında interaktivlik xüsusi rol oynayır. Audio-vizual materialların tətbiqi, simulyasiya elementləri və multimedia həlləri aviasiya irsini daha anlaşılır və cəlbedici edir. Bu metodlar ziyarətçilərin diqqətini artırır və onların muzey təcrübəsini fərdiləşdirir. Hər bir istifadəçi öz maraqlarına uyğun məlumatlara daha rahat şəkildə yaxınlaşa bilir [3, s. 28].

Təhsil yönümlü fəaliyyət də muzeyin işinin vacib hissəsini təşkil edir. Məktəblər və universitetlərlə əməkdaşlıq çərçivəsində təşkil olunan proqramlar aviasiya sahəsinin elmi və praktiki tərəflərini gənc nəslə tanıdır. Bu təşəbbüslər həm aviasiya irsinin cəmiyyət üçün aktuallığını qoruyur, həm də sahəyə marağın inkişafına töhfə verir. Muzey bu istiqamətdə həm məlumat mənbəyi, həm də tədris platforması kimi çıxış edir. Kolleksiyanın ictimai kommunikasiya potensialı onun sosial yönlü mesajlarında daha aydın görünür. Eksponatlar texniki nailiyyətlərlə yanaşı, məsuliyyət, təhlükəsizlik və əmək mədəniyyəti kimi dəyərləri də əks etdirir. Bu dəyərlər muzeyin cəmiyyətlə dialoqunu gücləndirir və aviasiyanın gündəlik həyat üçün əhəmiyyətini vurğulayır. Muzey yalnız tarixi materialları saxlayan qurum deyil, həm də sosial mənalı məzmun yaradan instituta çevrilir.

**Cədvəl 1 : Azərbaycan Mülki Aviasiya Muzeyi kolleksiya irsinin elmi dəyəri, ictimai təsir potensialı və rəqəmsal təqdimat imkanlarının analitik müqayisəsi**

| Göstərici kateqoriyası | Təsviri xarakteristika | Elmi əhəmiyyət dərəcəsi (1–10) | İctimai təsir potensialı (1–10) | Rəqəmsal təqdimat imkanları |
|---|---|---|---|---|
| **Fotoarxiv materialları** | Aviasiya tarixinin sosial və vizual yaddaşını göstərir | 8 | 9 | Yüksək – rəqəmsal galereyalar, interaktiv slaydlar |
| **Uçuş sənədləri və jurnal qeydləri** | Texniki ardıcıllığı və təhlükəsizlik standartlarını əks etdirir | 9 | 6 | Orta – skan edilmiş sənədlər, məlumat bazaları |

| | | | | |
|---|---|---|---|---|
| **Texniki avadanlıqlar və detallar** | Aviasiya texnologiyasının inkişaf mərhələlərini nümayiş etdirir | 10 | 7 | Orta – 3D modellər, virtual rekonstruksiya |
| **Uniforma və şəxsi əşyalar** | Aviasiya mədəniyyəti və peşə etikasına dair sosial məlumat təqdim edir | 7 | 9 | Yüksək – foto, video təqdimatlar |
| **Xəritələr və naviqasiya materialları** | Marşrutların, hava məkanının və uçuş planlaşdırmasının tarixini göstərir | 8 | 7 | Yüksək – interaktiv xəritələr |
| **Video-kronika və sənədli çəkilişlər** | Aviasiya fəaliyyətinin real situasiyalarını əks etdirir | 8 | 10 | Çox yüksək – multimedia platformaları |
| **Muzeyin təhsil proqramları** | İctimai maarifləndirməni və gənc nəsillə əlaqəni gücləndirir | 7 | 10 | Yüksək – onlayn dərsliklər, virtual dərs modulları |
| **Virtual tur və rəqəmsal ekspozisiyalar** | Kolleksiyanın geniş auditoriyalara əlçatanlığını artırır | 6 | 10 | Çox yüksək – 360° virtual turlar |

***Mənbə:*** *https://www.anl.az/down/aat.pdf*

Cədvəldə Azərbaycan Mülki Aviasiya Muzeyinin kolleksiya irsinin elmi və ictimai dəyərini xarakterizə edən əsas göstəricilər sistemləşdirilir. Göstəricilər kolleksiyanın məzmun müxtəlifliyini, məlumat potensialını və rəqəmsal təqdimat imkanlarını müqayisəli şəkildə qiymətləndirməyə imkan verir. Fotoarxivlər, uçuş sənədləri, texniki avadanlıqlar və sosial-mədəni əşyalar aviasiya tarixinin müxtəlif qatlarını nümayiş etdirir və bu müxtəliflik muzey irsinin elmi baxımdan dəyərini artırır. Rəqəmsal təqdimat imkanlarının qiymətləndirilməsi kolleksiyanın daha geniş auditoriyaya çıxışını asanlaşdırır və müasir muzeyçilik tələblərinə uyğunlaşdırır. İctimai təsir göstəriciləri

eksponatların cəmiyyətlə ünsiyyətdə oynadığı rolu göstərir və muzeyin maarifləndirici funksiyasını gücləndirir. Cədvəl həm elmi tədqiqat üçün strukturlaşdırılmış məlumat bazası yaradır, həm də muzeyin təbliğ strategiyalarının planlaşdırılması üçün praktik istiqamət göstərir. Bu yanaşma kolleksiyanın qorunması, təqdimatı və yenidən interpretasiyası üçün dayanıqlı model formalaşdırır.

Fotoarxiv materialları muzey kolleksiyasının ən mühüm vizual mənbələrindən biridir. Bu materiallar aviasiya tarixinin sosial mühitini, fəaliyyət proseslərini və dövrün vizual estetikasını aydın şəkildə əks etdirir. Fotolar həm faktoloji məlumat təqdim edir, həm də emosional təsir gücünə malikdir. Rəqəmsal emal və virtual qalereyalar vasitəsilə bu materialların ictimai əlçatanlığı artır və geniş auditoriyanın aviasiya irsi ilə tanışlığı asanlaşır.

Uçuş sənədləri və jurnal qeydləri aviasiya idarəçiliyi, uçuş planlaşdırılması, təhlükəsizlik sistemləri və texniki ardıcıllıq haqqında dəqiq faktlar təqdim edən əsas mənbələrdir. Bu sənədlər aviasiya fəaliyyətinin peşəkar tərəflərini öyrənmək üçün etibarlı elmi baza yaradır. Onların rəqəmsallaşdırılması araşdırma prosesini sürətləndirir və sənədlərin qorunma müddətini uzadır. Bu kateqoriya daha çox texniki və normativ məlumat daşıdığı üçün cəmiyyətə emosional təsiri nisbətən məhduddur [10, s. 360].

Texniki avadanlıqlar və detallar aviasiya texnologiyasının inkişafını və mühəndislik nailiyyətlərini nümayiş etdirir. Hər bir detal müəyyən dövrün texniki səviyyəsini və istehsal mədəniyyətini əks etdirir. Bu eksponatlar elmi təhlil üçün yüksək potensiala malikdir və aeronaviqasiya biliklərinin tədqiqi üçün əhəmiyyətli göstəricilər yaradır. 3D modelləşdirmə və virtual rekonstruksiya vasitələri bu materialların ictimai təqdimatını daha dinamik edir.

Uniforma və şəxsi əşyalar aviasiya sahəsində çalışan insanların peşə mədəniyyətini, etik davranış normalarını və sosial rolunu əks etdirir. Bu materiallar muzey kolleksiyasının insan yönümlü hissəsini təşkil edir və cəmiyyətlə əlaqəni gücləndirir. Ziyarətçilər bu eksponatlar vasitəsilə aviasiya peşələrinin gündəlik həyatda necə təmsil olunduğunu daha yaxşı anlayır. Foto və video təqdimatlar uniformaların tarixi dəyişimini və sosial məna yükünü daha aydın göstərir.

Xəritələr və naviqasiya materialları aviasiya marşrutlarının formalaşmasını, hava məkanının idarə olunmasını və uçuş planlaşdırılmasını öyrənmək üçün strateji mənbələrdir. Bu sənədlər aviasiya sisteminin coğrafi quruluşunu anlamağa imkan yaradır və elmi araşdırmalarda mühüm funksiyaya malikdir. İnteraktiv rəqəmsal xəritələr bu materialların təqdimatını daha müasir edir və istifadəçilərə məlumatları daha çevik şəkildə araşdırmaq imkanı verir.

Video-kronika və sənədli çəkilişlər aviasiya fəaliyyətinin real proseslərini ən dolğun şəkildə göstərən mənbələrdir. Bu materiallar emosional təsir gücünə malikdir və geniş ictimai auditoriya üçün cəlbedici kommunikasiya vasitəsidir. Video materiallar hadisələri hərəkət halında göstərdiyi üçün aviasiya fəaliyyətinə dair daha canlı təsəvvür yaradır. Multimedia platformaları vasitəsilə bu materialların təbliği muzeyin kommunikasiya potensialını gücləndirir [9, s. 33].

Muzeyin təhsil proqramları aviasiya irsinin gənc nəsillərə çatdırılması və maarifləndirici fəaliyyətin genişləndirilməsi üçün vacib sahədir. Bu proqramlar məktəblər, universitetlər və mütəxəssis qrupları ilə əməkdaşlığı əhatə edir. Tədris yönümlü fəaliyyət muzeyin sosial missiyasını gücləndirir və aviasiya sahəsinə marağı artırır. Rəqəmsal dərsliklər və virtual tədris modulları proqramların əlçatanlığını xeyli artırır.

Virtual tur və rəqəmsal ekspozisiyalar muzey kolleksiyasını fiziki məkanla məhdudlaşdırmır və geniş auditoriyaya çıxış imkanı yaradır. Bu yanaşma ziyarətçilərin məzmunla interaktiv şəkildə tanış olmasına imkan verir və muzey təcrübəsini daha dinamik edir. Virtual mühit həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə irsə marağı artırır. 360° ekspozisiyalar muzey materiallarının tam və aydın şəkildə dərk olunmasına şərait yaradır.

Azərbaycan Mülki Aviasiya Muzeyinin kolleksiya irsi həm elmi araşdırma, həm də ictimai dəyərləndirmə baxımından çoxqatlı potensiala malikdir. Hər bir eksponat aviasiya tarixinin müəyyən mərhələsini, həmin dövrün insan fəaliyyətini və texnoloji dəyişikliklərini özündə əks etdirir. Rəqəmsal təqdimat metodları bu irsi daha geniş auditoriyaya çatdırır və muzeyin maarifçi funksiyasını gücləndirir. Kolleksiyanın strukturunda yer alan vizual materiallar, sənədlər, avadanlıqlar və təhsil yönümlü məzmun bir-birini tamamlayaraq muzeyin elmi və sosial rolunu genişləndirir. Bu çərçivə muzey irsinin qorunması, interpretasiyası və gələcək nəsillərə ötürülməsi üçün dayanıqlı əsas yaradır və təhlilin ümumi nəticəsini formalaşdırır.

## Nəticə

Azərbaycan Mülki Aviasiya Muzeyinin kolleksiya irsi ölkənin aviasiya tarixinin mühüm mərhələlərini əhatə edən çoxşaxəli elmi və mədəni mənbədir. Kolleksiyada toplanmış fotoarxiv materialları, uçuş sənədləri, texniki avadanlıqlar, uniforma nümunələri və digər eksponatlar aviasiya sahəsinin texnoloji, sosial və peşə mədəniyyətinə dair geniş təsəvvür yaradır. Bu materiallar həm tarixi ardıcıllığın öyrənilməsi, həm də aviasiyanın cəmiyyət həyatındakı rolunun dərk edilməsi baxımından əhəmiyyətlidir [4, s. 11].

Müasir rəqəmsal təbliğ vasitələrinin tətbiqi muzey kolleksiyasının daha geniş auditoriyaya çatdırılmasını təmin edir və irsin ictimai əlçatanlığını artırır. Virtual turlar, rəqəmsal arxivlər, interaktiv təqdimatlar və təhsil yönümlü proqramlar muzeyin kommunikasiya potensialını gücləndirir və ziyarətçi

kütləsinin genişlənməsinə şərait yaradır. Rəqəmsal texnologiyaların tətbiqi həm eksponatların qorunmasına, həm də onların elmi dövriyyədə daha effektiv istifadəsinə imkan verir. Muzeyin kolleksiya irsi yalnız tarixi faktların toplusu deyil, həm də mədəni yaddaşın canlı daşıyıcısıdır. Bu irsin elmi sistemləşdirilməsi, qorunması və müasir təqdimat metodları ilə cəmiyyətə çatdırılması muzeyin missiyasını daha da gücləndirir. Kolleksiyanın davamlı inkişafı üçün həm elmi araşdırmaların genişləndirilməsi, həm də rəqəmsal təbliğ strategiyalarının yenilənməsi vacibdir. Bu yanaşma muzeyin həm elmi mühitdə, həm də ictimai sahədə dayanıqlı mövqeyini təmin edir.

***Ədəbiyyat***

1. *Azərbaycan Milli Kitabxanası. (2012). Azərbaycan aviasiyasının tarixi: Bibliografiya. Bakı: M.F. Axundov adına Milli Kitabxana. https://www.anl.az/down/aat.pdf*
2. *Azərbaycan Aviasiya Akademiyası. (2018). Mülki aviasiya tarixi və inkişaf istiqamətləri: Tədris vəsaiti. Bakı: NAA Nəşri.*
3. *Azərbaycan Mədəniyyət Nazirliyi. (2021). Muzey işinin əsasları və rəqəmsal təbliğ strategiyaları. Bakı: Mədəniyyət Nazirliyi nəşri.*
4. *"Azərbaycan Hava Yolları" QSC. (2020). AZAL: Aviasiya tariximiz və inkişaf mərhələləri. Bakı: AZAL Nəşriyyatı. https://www.azal.az*
5. *UNESCO. (2015). Memory of the World: Documentary heritage in the digital age. Paris: UNESCO Publishing. https://unesdoc.unesco.org/ark:/48223/pf0000232434*
6. *ICAO. (2019). A historical perspective of civil aviation. Montreal: International Civil Aviation Organization. https://www.icao.int/publications/Documents/ICAO_Hist_Perspective.pdf*
7. *ICOM. (2018). Guidelines for museums in the digital era. Paris: International Council of Museums. https://icom.museum/wp*
8. *content/uploads/2018/07/ICOM-Digital-Guidelines.pdf*
9. *Smithsonian Institution. (2020). Collections management policy. Washington, DC: Smithsonian Institution. https://www.si.edu/content/pdf/about/smithsonian-cmp-2020.pdf*
10. *Europeana Foundation. (2015). Digitisation and digital preservation guidelines. Hague: Europeana Publications. https://pro.europeana.eu/files/Europeana_Professional/Publications/Digitisation_Guidelines.pdf*
11. *Tucker, H. (2019). Aviation museums and public engagement: Communicating technical heritage. Museum Management and Curatorship, 34(4), 356–371.*
12. *Holbert, R., & Delaney, M. (2013). Visual documentation in aviation history: Archival practices in aeronautical collections. The American Archivist, 76(2), 290–310.*
13. *Carmichael, D. (2018). Preserving technical heritage: Digital strategies for aviation archives. International Journal of Digital Curation, 13(2), 105–124.*

**Mustafayeva Ş.Z.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mustafayevasakira2002@gmail.com***

# AZƏRBAYCANDA YAŞLILAR VƏ ƏLİLLİYİ OLAN ŞƏXSLƏR ÜÇÜN İNNOVATİV SOSİAL XİDMƏT MODELLƏRİ

***Xülasə***

*Bu məqalə, Azərbaycanda yaşlılar və əlilliyi olan şəxslər üçün innovativ sosial xidmət modellərinin tətbiqinə və bu sahədə həyata keçirilən islahatlara həsr olunub. Dövlətin DOST Agentliyi vasitəsilə təqdim etdiyi sosial xidmətlər, süni intellektlə idarə olunan sistemlər və e-xidmətlər kimi texnoloji yeniliklər, sosial xidmətlərin effektivliyini artırmağa yönəlmişdir. Həmçinin, insan mərkəzli yanaşma tətbiq edərək fərdi xidmətlərin təqdimatı, sosial işçilərin peşəkar bacarıqlarının artırılması və beynəlxalq əməkdaşlıqlar (məsələn, Yad Sarah modeli və Avropa Birliyi ilə əməkdaşlıq) da müzakirə olunur.*

*Məqalədə qarşılaşılan çətinliklər, o cümlədən maliyyə resurslarının məhdudluğu və cəmiyyətdəki stereotiplər nəzərə alınaraq, bu sahənin inkişafı üçün tövsiyələr verilir. Sosial xidmətlərin daha əlçatan və effektiv olması üçün dövlət, beynəlxalq təşkilatlar və cəmiyyət arasında daha sıx əməkdaşlığın vacib olduğu vurğulanır.*

# ИННОВАЦИОННЫЕ МОДЕЛИ СОЦИАЛЬНОГО ОБСЛУЖИВАНИЯ ПОЖИЛЫХ ЛЮДЕЙ И ЛЮДЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ В АЗЕРБАЙДЖАНЕ

***Резюме***

*В данной статье рассматривается внедрение инновационных моделей социального обслуживания пожилых людей и лиц с ограниченными возможностями в Азербайджане и проводимые в этой сфере реформы. Социальные услуги, предоставляемые государством через Агентство DOST, технологические инновации, такие как системы на основе искусственного интеллекта и электронные услуги, направлены на повышение эффективности социальных услуг. Также рассматриваются вопросы предоставления персонализированных услуг с использованием подхода, ориентированного на человека, повышения квалификации социальных работников и международного сотрудничества (например, модель «Яд Сара» и сотрудничество с Европейским союзом).*

*В статье даны рекомендации по развитию данной сферы с учетом существующих проблем, включая ограниченные финансовые ресурсы и стереотипы в обществе. Подчеркивается важность более тесного*

*сотрудничества государства, международных организаций и общества для повышения доступности и эффективности социальных услуг.*

# INNOVATİVE SOCİAL SERVİCE MODELS FOR THE ELDERLY AND PEOPLE WİTH DİSABİLİTİES İN AZERBAİJAN

***Summary***

*This article is devoted to the implementation of innovative social service models for the elderly and people with disabilities in Azerbaijan and the reforms carried out in this area. The social services provided by the state through the DOST Agency, technological innovations such as artificial intelligence-driven systems and e-services, are aimed at increasing the effectiveness of social services. It also discusses the provision of personalized services using a people-centered approach, improving the professional skills of social workers, and international cooperation (for example, the Yad Sarah model and cooperation with the European Union).*

*The article provides recommendations for the development of this area, taking into account the challenges encountered, including limited financial resources and stereotypes in society. It emphasizes the importance of closer cooperation between the state, international organizations and society in order to make social services more accessible and effective.*

***Açar sözlər:*** *sosial xidmət, innovativ model, yaşlılar, əlillər, beynəlxalq və yerli təşkilatlar*

***Ключевые слова:*** *социальная служба, инновационная модель, пожилые люди, инвалиды, международные и местные организации.*

***Key words:*** *social service, innovative model, elderly, disabled, international and local organizations*

## Giriş

Azərbaycanda son illərdə sosial xidmətlər sahəsində həyata keçirilən islahatlar, xüsusilə yaşlılar və əlilliyi olan şəxslər üçün innovativ sosial xidmət modellərinin tətbiqini ön plana çıxarmışdır. Sosial xidmətlərin keyfiyyətini və əlçatanlığını artırmaq məqsədilə sosial xidmət sahəsində bir çox yeniliklər həyata keçirilmişdir. Bu məqalə, Azərbaycanda yaşlılar və əlilliyi olan şəxslər üçün innovativ sosial xidmət modellərinin tətbiqini, bu xidmətlərin təkmilləşdirilməsinə yönəlmiş tədbirləri və gələcək perspektivləri müzakirə edir.

Azərbaycanda yaşlılar və əlilliyi olan şəxslərə yönəlmiş sosial xidmətlərə artan tələbat, bu qrupların cəmiyyətdə daha yaxşı inteqrasiyasını təmin etmək məqsədilə müxtəlif innovativ sosial xidmət modellərinin tətbiqini tələb edir. Bu ehtiyac, dövlət və qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilən bir çox sosial xidmətlər layihələri ilə qarşılanmağa çalışılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 9 avqust 2018-ci ildə imzaladığı fərmanla Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) təsis edilib. İlk DOST mərkəzi isə 2019-cu ilin may ayında Bakıda fəaliyyətə başlayıb [2]. DOST mərkəzi yaranmamışdan əvvəl sosial müdafiə, pensiya, müavinət və s. xidmətlər müxtəlif qurumlar tərəfindən ayrı-ayrılıqda göstərilirdi. Bu isə vaxt itkisi, mürəkkəblik və vətəndaş narazılığı yaradırdı. Bu cür mərkəzin yaranma məqsədi dövlət sosial xidmətləri daha əlçatan, şəffaf, səmərəli və innovativ şəkildə təqdim etmək idi. DOST mərkəzinin yaranma səbəbi isə sosial xidmətlərin keyfiyyətinin artırılması, korrupsiya risklərinin azaldılması və vətəndaş məmnunluğunun təmin edilməsidir.

DOST mərkəzlərində müxtəlif həssas qrup əhalisinə sosial müdafiə və inteqrasiya yönümlü xidmətlər göstərilir. Bu xidmətlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətləri üzrə vahid şəkildə təqdim olunur. Ahıllar və əlilliyi olan şəxslər üçün göstərilən xidmətlər aşağıdakılardır:

Ahıllar və pensiyaçılar üçün:

- Pensiyaların təyin olunması və ödənilməsi;
- Sosial yardım və müavinətlərin verilməsi;
- Evdə sosial xidmətlərin təşkili;
- Sanatoriya və istirahət xidmətlərinə yönləndirmə;
- Əlilliyi olan şəxslər üçün;
- Əlilliyin qiymətləndirilməsi və təyin olunması;
- Reabilitasiya vasitələrinin (süni protez, əlil arabası və s.) verilməsi;
- Sosial reabilitasiya və psixoloji dəstək xidmətləri;
- Əmək bazarına inteqrasiya və məşğulluq proqramları.

DOST mərkəzləri, yaşlılar və əlilliyi olan şəxslərlə yanaşı əhalinin digər həssas qrupları daxil olmaqla 161 müxtəlif sosial xidmət təqdim edir [4]. Bu xidmətlər "bir pəncərə" prinsipi ilə vətəndaşlara təqdim olunur yəni, vətəndaşın müxtəlif qurumlara getmədən bütün sosial məsələlərini vahid məkanda həll etməsinə imkan yaradır. Nəticədə vaxt və resurs itkisi azalır.

Azərbaycanda sosial xidmətlər sahəsində texnologiyaların tətbiqi ilə bağlı bir sıra yeniliklər həyata keçirilmişdir. İnnovativ texnologiyalar, yaşlılar və əlilliyi olan şəxslər üçün sosial xidmətlərin daha sürətli və effektiv şəkildə təmin olunmasına imkan yaradır. Məsələn, süni intellektlə idarə olunan sosial xidmətlər tətbiq edilmişdir [6]. Əlilliyi olan şəxslər və yaşlılar üçün sosial müavinətlərin avtomatik təyinatı üçün süni intellekt sistemləri istifadə edilir. Bu sistemlər vətəndaşların müraciət etmədən, onların ehtiyaclarını əvvəlcədən müəyyən edərək müavinətləri təyin edir. Bu yanaşma, həm də xidmətlərin daha şəffaf və düzgün olmasına şərait yaradır. Beləliklə, sosial xidmətlər sahəsində texnologiyaların tətbiqi, həm vətəndaşların, həm də xidmət göstərənlərin həyatını asanlaşdırır.

Digər bir yenilik isə e-xidmətlər və onlayn platformaların istifadəsidir [6]. Azərbaycanda sosial xidmətlərə onlayn müraciət imkanı yaradılmışdır. Bu, yaşlılar və əlilliyi olan şəxslərin daha asan və sürətli şəkildə xidmətlərə çatmalarını təmin edir. Əlilliyi olan şəxslər üçün xüsusilə, mobil tətbiqetmələr və onlayn platformalar vasitəsilə sosial xidmətlərə müraciət etmək daha əlverişlidir [7]. Bu da, onların gündəlik həyatını asanlaşdıran və sosial xidmətlərə çıxışlarını genişləndirən bir addım olmuşdur.

Bununla yanaşı, Azərbaycanda sosial xidmətlər sahəsində insan mərkəzli yanaşmanın tətbiqi önəmlidir. İnsan mərkəzli yanaşma, yaşlılar və əlilliyi olan şəxslərin ehtiyaclarına uyğun fərdi xidmət planlarının hazırlanmasını təmin edir [3]. DOST mərkəzlərində, hər bir müştəriyə fərdi yanaşma tətbiq edilir. Tələbələr, sosial işçilər və mütəxəssislər, hər bir müştərinin fiziki, psixoloji və sosial ehtiyaclarını müəyyən edərək onlara uyğun sosial xidmətlər təklif edirlər. Bu yanaşma, sosial xidmətlərin daha təsirli və şəffaf olmasına şərait yaradır. İnsan mərkəzli yanaşma, həmçinin yaşlıların və əlilliyi olan şəxslərin cəmiyyətdə daha yaxşı inteqrasiyasını təmin edir.

Azərbaycanda sosial xidmətlər sahəsində beynəlxalq təcrübələrdən faydalanmaq məqsədilə bir sıra əməkdaşlıqlar həyata keçirilib. Məsələn, İsraildə fəaliyyət göstərən Yad Sarah təşkilatının təcrübəsi öyrənilmiş və Azərbaycanda oxşar modellərin tətbiqi müzakirə edilmişdir. Yad Sarah təşkilatı, yaşlılar və əlilliyi olan şəxslər üçün evdə qulluq xidmətləri, tibbi avadanlıqların icarəsi və sosial fəaliyyətlər təşkil edir [8]. Bu modelin Azərbaycanda tətbiqi, yaşlılar və əlilliyi olan şəxslərin həyat şəraitini yaxşılaşdırmaq üçün bir çox faydalı tədbirlərin həyata keçirilməsini təmin edir. Bu tip əməkdaşlıqlar, yaşlılar və əlilliyi olan şəxslər üçün innovativ sosial xidmətlərin yaradılması və tətbiqində mühüm rol oynayır.

Azərbaycanda sosial xidmətlər sahəsində beynəlxalq əməkdaşlıq yalnız bir çox praktik tədbirləri deyil, həmçinin beynəlxalq standartlara uyğun sosial xidmətlər modellərinin tətbiqini də təşviq edir. Avropa Birliyi ilə əməkdaşlıq çərçivəsində, sosial xidmətlərin keyfiyyətinin artırılması və əlilliyi olan şəxslərin cəmiyyətdə inklusiyasının təmin edilməsi məqsədilə müxtəlif layihələr həyata keçirilib [1]. Bu layihələr, həmçinin sosial xidmətlərin daha əlçatan olması və xidmətlərin idarə olunmasında şəffaflığın artırılması məqsədini güdür.

Bununla yanaşı, Azərbaycanda sosial xidmətlər sahəsində bir sıra çətinliklər də mövcuddur. Sosial xidmətlərin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlərin məhdud olması, xidmətlərin keyfiyyətinə və əhatə dairəsinə təsir edir. Dövlət büdcəsindən ayrılan vəsaitlər, sosial xidmətlərin genişləndirilməsinə və yaxşılaşdırılmasına kifayət etmir. Buna görə də, sosial

xidmətlər sahəsində daha çox maliyyə resursları ayrılmalı və beynəlxalq təşkilatlarla əməkdaşlıq daha da gücləndirilməlidir.

Bundan əlavə, sosial işçilərinin peşəkar bacarıqlarının artırılması və onların iş şəraitinin yaxşılaşdırılması da böyük əhəmiyyət kəsb edir. Azərbaycanda sosial işçilərinin sayı və onların peşəkar təcrübəsi, xidmətlərin effektivliyini məhdudlaşdırır. Sosial işçilərinin daha yaxşı təhsil alması və ixtisaslaşmış təlimlərə cəlb edilməsi, xidmətlərin keyfiyyətini artıracaqdır. Bu sahədə təhsil və təlim proqramlarının təkmilləşdirilməsi, həmçinin sosial işçilərin iş şəraitinin yaxşılaşdırılması, sosial xidmətlərin keyfiyyətinin artırılması üçün vacibdir.

Azərbaycanda yaşlılar və əlilliyi olan şəxslər üçün sosial xidmətlərin inkişafında qarşılaşılan digər bir problem isə cəmiyyətdəki stereotiplər və stiqma məsələsidir. Yaşlılar və əlilliyi olan şəxslərə qarşı cəmiyyətdə mövcud olan mənfi stereotiplər, onların sosial xidmətlərdən istifadə etmələrini çətinləşdirir. Bu stereotiplər, çox vaxt bu şəxslərin fəaliyyət qabiliyyətini və cəmiyyətə faydalı olma potensialını aşağı qiymətləndirir, onların cəmiyyətdəki sosial mövqelərini məhdudlaşdırır. Həmçinin, əlilliyi olan şəxslər üçün tətbiq olunan sosial xidmətlərə müraciət etmə prosesini çətinləşdirən psixoloji baryerlər yaradır.

Bu şəxslər tez-tez, xidmətləri alarkən cəmiyyətdəki "tənhalıq" və "qeyri-bərabərlik" hissi ilə qarşılaşırlar, bu isə onların cəmiyyətə inteqrasiyasını daha da çətinləşdirir. Stereotiplərin aradan qaldırılması və inklüziv cəmiyyətin qurulması məqsədilə genişmiqyaslı maarifləndirmə kampaniyaları təşkil edilməlidir. Bu kampaniyalar, yaşlılar və əlilliyi olan şəxslərin hüquqları, onların sosial xidmətlərə çıxış imkanları və cəmiyyətdəki rolu barədə məlumatlandırmağı hədəfləməlidir.

Nəticə etibarilə, Azərbaycanda yaşlılar və əlilliyi olan şəxslər üçün innovativ sosial xidmət modellərinin tətbiqi, sosial xidmətlərin keyfiyyətini artırmaq və bu qrupların cəmiyyətdə daha yaxşı inteqrasiyasını təmin etmək məqsədini güdür. Sosial xidmətlər sahəsindəki islahatlar və texnoloji yeniliklər, xidmətlərin daha əlçatan və effektiv olmasına imkan yaratmaqla yanaşı, bu sahədəki mövcud çətinliklərin aradan qaldırılması üçün yeni perspektivlər təqdim edir. Lakin, bu xidmətlərin daha da təkmilləşdirilməsi və genişləndirilməsi üçün əlavə tədbirlərin görülməsi inkişafı daha da sürətləndirəcək. Azərbaycanda sosial xidmətlər sahəsinin inkişafı üçün dövlətin, beynəlxalq təşkilatların və cəmiyyətin birgə əməkdaşlığı labüddür.

### *Ədəbiyyat*

1. *Avropa Birliyi və Azərbaycan Respublikası. (2025). Sosial xidmətlərdə innovativ həllər və əməkdaşlıq. Brüssel: Avropa Birliyi və Azərbaycan Respublikası.*

2. *Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu. (2025). Sosial xidmətlər sahəsində islahatlar. Bakı: Dövlət Sosial Müdafiə Fondu.*
3. *Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi. (2025). Ahıl şəxslər üçün sosial xidmət müəssisəsi.https://sxa.gov.az/fealiyyet/sosial-xidmet-muessiseleri/ahil-sexsler-ucun-sosial-xidmet-muessisesi*
4. *DOST Agentliyi. (2025). Yaşlılar və əlilliyi olan şəxslər üçün sosial xidmətlər. https://dost.gov.az/page/yaşlılar-ve-əlillər*
5. *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2025). Əlilliyi olan şəxslərin reabilitasiyası. https://www.sosial.gov.az/az/fealiyyet/fealiyyet-istiqametleri/elillik/elilliyi-olan-sexslerin-reabilitasiyasi*
6. *İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi. (2025). Fəaliyyətimiz. https://idda.az/*
7. *Sosial Xidmətlər Agentliyi. (2025). Sosial xidmət müəssisələri. https://dost.gov.az/page/sosial-xidmet-muessiseleri*
8. *Yad Sarah Təşkilatı. (2025). İsraildə yaşlılar və əlilliyi olan şəxslər üçün sosial xidmətlər modeli. Tel-Aviv: Yad Sarah Təşkilatı.*

**Rəhimova A.A.**
**Azərbaycan Turizm və Menecment Universiteti**
***aydanrhimova50@gmail.com***

# DƏRBƏND QALASI: İSTEHKAMLAR VƏ DİNİ-MƏDƏNİ İRS

***Xülasə***

*Bu məqalədə Qafqazın strateji və tarixi mərkəzi olan Dərbənd qalasının tarixi, memarlıq xüsusiyyətləri, strateji istehkam sistemi və dini-mədəni əhəmiyyəti araşdırılır. Məqalədə qaladakı müdafiə strukturlarının yalnız hərbi baxımdan deyil, həm də dini və mədəni həyatın qorunmasında oynadığı rol geniş şəkildə təhlil olunur. Dərbənd qalası tarixi boyunca müxtəlif dövrlərdə İslamın yayılmasında mühüm rol oynamış, eyni zamanda xristianlıq və digər dini icmaların fəaliyyətinin davamlılığını təmin etmişdir. Qala divarları, səngərlər, qüllələr və qapılar yalnız strateji müdafiə funksiyası daşımamış, həm də dini və mədəni mərkəzlərin qorunmasında əhəmiyyətli olmuşdur. Araşdırmada həm tarixi sənədlər, həm arxeoloji tapıntılar, həm də ədəbiyyat və folklor materiallarından istifadə edilmişdir.*

# ДЕРБЕНТСКАЯ КРЕПОСТЬ: УКРЕПЛЕНИЯ И РЕЛИГИОЗНО-КУЛЬТУРНОЕ НАСЛЕДИЕ

***Резюме***

*В данной статье рассматриваются исторические, архитектурные и стратегические особенности Дербентской крепости, одного из ключевых центров Кавказского региона, а также её религиозное и культурное значение. Исследование подробно анализирует оборонительные сооружения крепости, подчеркивая их роль не только в военной защите, но и в сохранении религиозной и культурной жизни. На протяжении истории Дербентская крепость играла важную роль в распространении Ислама, одновременно поддерживая деятельность христианских и других религиозных сообществ. Стены, бастионы, башни и ворота крепости выполняли не только стратегические функции, но и обеспечивали сохранение религиозных и культурных центров.*

# DERBENT FORTRESS: FORTİFİCATİONS AND RELİGİOUS-CULTURAL HERİTAGE

***Summary***

*This article examines the historical, architectural, and strategic features of Derbent Fortress, a key center in the Caucasus region, as well as its religious and cultural significance. The study provides a detailed analysis of the fortress's defensive structures, emphasizing their role not only in military defense but also in protecting religious and cultural life. Throughout history, Derbent Fortress has played a crucial role in the spread of Islam, while simultaneously supporting the activities of Christian and other religious communities. The walls, bastions, towers, and gates of the fortress*

*served not only strategic purposes but also ensured the preservation of religious and cultural centers. The research draws upon historical documents, archaeological findings, literary sources, and folklore materials.*

***Açar sözlər:*** *Dərbənd qalası, istehkamlar, tarixi abidə, dini irs, mədəni irs, Qafqaz, oğuzlar*

***Ключевые слова:*** *Дербентская крепость, укрепления, исторический памятник, религиозное наследие, культурное наследие, Кавказ, огузы*

***Key words:*** *Derbent Fortress, fortifications, historical monument, religious heritage, cultural heritage, Caucasus, Oghuz*

## Dərbənd qalasının tarixi mənbələrdə təsviri və dini-mədəni irs

Qafqazın tarixi və mədəni xəritəsində Dərbənd qalası xüsusi yer tutur. Bu qala həm strateji, həm də dini-mədəni baxımdan regionun ən qədim və əhəmiyyətli istehkamlarından biridir. Tarixi mənbələr göstərir ki, Dərbəndin müdafiə divarları yalnız hərbi məqsədlərlə deyil, həm də dini mərkəzlərin, ibadətgahların və müxtəlif etnik icmaların qorunması üçün istifadə olunmuşdur [6, s. 47–48]. Dərbəndin yerləşdiyi coğrafi mövqe – Xəzər dənizi ilə Qafqaz dağlarının dar keçidi arasında – şəhəri həm İran, həm də Qafqaz dövlətləri üçün mühüm strateji baryerə çevirmişdir [7, s. 211].

Dünyanın ən qədim şəhərlərindən biri sayılan Dərbənd tarix boyu daim müdafi qalaları ilə xüsusi diqqət çəkib. Lakin unutmaq olmaz ki, bu şəhər həmçinin unikal abidələrlə də zəngindir. Bəzi mənbələrdə göstərilir ki Dərbənddə ilk müdafiə istehkamları Sasani hökümdarı 2-ci Yezdəgird tərəfindən salınmışdı. Lakin əsas işlər və qalanin möhkəmləndirilməsi isə 1-ci Qubad və Xosrov Ənuşirəvan tərəfindən həyata keçirilmişdi. Dərbənd qalası Qafqazın ən qədim və möhkəm istehkamlarından biri kimi tarixi mənbələrdə çox erkən dövrlərdən bəri xatırlanır. Onun yerləşdiyi coğrafi məkan Xəzər dənizi sahili ilə Böyük Qafqaz dağlarının dar keçidi arasında uzanan zolaq əsrlər boyu şimaldan cənuba gedən karvan və hərbi yolların kəsişmə nöqtəsi olub. Qalanın yerləşdiyi “Dar al-Bab” adlanan keçid həm karvan yollarını, həm də hərbi yolları birləşdirirdi [1, s. 206].

Əl-Bəlazuri “Fütuh əl-Buldan” əsərində islam ordularının Qafqaz yürüşləri zamanı Darbandın strateji əhəmiyyətini vurğulayır və onu “İslamın şimal sərhədinin qapısı” adlandırır [1, s. 208].

Bu səbəbdən qala həm İran, həm Qafqaz dövlətləri, həm də sonralar ərəb, türk və rus hakimiyyətləri üçün mühüm strateji əhəmiyyət daşıyırdı. Sasani mənbələrində Darband adlanan bu istehkamın inşası I Xosrov Ənuşirəvanın adı ilə bağlanır. Firdovsinin “Şahnamə”sində Darband səddi və onun qapıları təsvir olunur, şimal tayfalarının hücumlarına qarşı çəkilmiş bu divarların nə qədər möhkəm olduğu vurğulanır. “Şahnamə”də və digər fars salnamələrində verilən rəvayət xarakterli məlumatlara görə, Ənuşirəvan bu

keçidi möhkəmləndirmək üçün yalnız qala divarları çəkməmiş, həm də ətraf ərazilərdə yaşayış məntəqələri saldırmışdır ki, burada həm hərbçilər, həm də mülki əhali məskunlaşsın. Ərəb müəlliflərinin əsərlərində Dərbənd "Bab ül Əbvab" – "Qapılar qapısı" kimi tanınır. Əl-Bəlazuri öz "Fütuh əl-Buldan" kitabında islam ordularının Qafqaz səfərləri zamanı Darbandın əhəmiyyətindən söz açır. O yazır ki, bu sədd və qala islam dövlətinin şimal sərhədini qoruyan əsas maneələrdən biri idi. Yaqut əl-Həməvi XIII əsrdə yazdığı "Muʿcem al-Buldān" əsərində Dərbəndin həm İslam mədəniyyətinin şimal sərhədi, həm də çoxkonfessiyalı yaşayış məskəni olduğunu qeyd edir. O, Cümə Məscidi, Səhabələr Türbəsi və Hüseyn ibn Zeyd türbəsindən bəhs edərək bu dini obyektlərin İslamın Qafqazda yayılmasında mühüm rol oynadığını göstərir [5, s. 412–415].

Ət-Təbəri də öz salnaməsində ərəb qoşunlarının Şimali Qafqaza yürüşlərində Dərbənd qalasının strateji mövqeyini qeyd edir. İbn Xordadbeh "Kitab al-Məsalik vəl-Məmalik" əsərində qalanın divarlarının hündürlüyü, uzunluğu, bürcləri və iki paralel müdafiə xətti barədə qısa, lakin aydın məlumat verir. Əl-İstəxri və İbn Həvqal kimi coğrafiyaşünaslar isə əsərlərində Dərbəndin qala divarlarının ikiqat olduğunu, bürclərin çoxluğunu, su anbarlarını və içqala hissəsini vurğulamışlar. Onların verdiyi təsvirlərdə yalnız hərbi tikililər deyil, həm də əhalinin məişəti, bazarlar, su mənbələri haqqında qeydlər vardır ki, bu da qalada həm mülki, həm də dini-mədəni həyatın mövcud olduğunu göstərir.

Qafqaz xalqlarının öz xronikalarında da Dərbənd qalası müxtəlif adlarla xatırlanır. Gürcü salnamələrində "Hun qapısı" və "Alan qapısı" kimi işlənən terminlər qalanın şimal tayfalarına qarşı çəkildiyini göstərir. Erməni mənbələrində "Çor" və ya "Çor Darband" adı ilə çəkilən bu şəhər və qala haqqında məlumatlar onun Şərq-Qərb ticarət yollarının üzərində yerləşməsi ilə izah olunur. Bu yazılar göstərir ki, qala yalnız Sasani və ya ərəb dövrlərində deyil, bütün region xalqları üçün sərhəd və ticarət nöqtəsi kimi tanınıb. Avropa səyyahı Adam Olearius XVII əsrdə Dərbəndi "dənizə qədər uzanan, daşdan inşa edilmiş nəhəng istehkam" kimi təsvir etmişdir [7, s. 213–214].

J. Chardin isə 1670-ci illərdə şəhərdə həm məscidlərin, həm də xristian ibadətgahlarının olduğunu və əhalinin çoxmillətli quruluşunu vurğulamışdır [8, 1686, s. 97–99].

X–XIII əsrlərdə yazılmış ərəb və fars mənbələrində Dərbəndin içindəki dini abidələr də xatırlanır. İbn əl-Əsir və Yaqut əl-Həməvi kimi müəlliflər burada mövcud olan məscidlər, xüsusilə də Cümə Məscidini və səhabələrin dəfn olunduğu məkanları qeyd edirlər. VIII əsrdə inşa edilmiş Dərbənd Cümə Məscidi Qafqazda ən qədim məscidlərdən biri sayılır və mənbələrdə islamın şimal istiqamətində yayılması ilə əlaqələndirilir. Səhabələr Türbəsi və Hüseyn ibn Zeyd türbəsi kimi yerlər də mənbələrdə müsəlman icmasının müqəddəs

məkanları kimi xatırlanır. Bu məlumatlar Dərbəndin yalnız hərbi-strateji deyil, həm də dini-mədəni mərkəz kimi qəbul edildiyini göstərir. Rus salnamələrində isə Xəzər xanlığı dövründə Dərbənd "Дербент" adı ilə çəkilir. "Povest vremennıx let"də və digər erkən rus qaynaqlarında şəhərin və qalanın Qafqazın şimal xalqları ilə əlaqələri, ticarət və müharibələr kontekstində təsviri vardır. Bu mənbələrdə Dərbənd bəzən "şimalın qapısı" kimi təqdim olunur və Xəzər xanlığının mühüm sərhəd qalası kimi qeyd edilir. XII–XIII əsrlərdə Şirvanşahlar dövlətinin sərhədləri daxilində Dərbənd qalası yenidən möhkəmləndirilmiş, şəhərin ətrafında yaşayan əhali üçün yeni məhəllələr salınmışdır.

Bu dövrün qaynaqlarında qala həm də inzibati mərkəz kimi təqdim edilir. Yeni dövrün Avropa səyyahları – XVI–XVII əsrlərdə bölgəyə gələn rus, alman və fransız müəlliflər – qalanın monumental görünüşünü, dənizə qədər uzanan divarları və içindəki məscidləri təsvir etmişlər. Onların qeydlərində Naryn-Kala adlı içqaladan, burada yerləşən hökmdar sarayından, su sarnıcından və ibadət yerlərindən bəhs edilir. Avropa təsvirləri, adətən, memarlığın xarici görünüşünə diqqət yetirir: divarların qalınlığı, bürclərin sayı, qapıların dəmirlə möhkəmləndirilməsi, su təchizatı sistemləri və yeraltı yollar barədə məlumat verir. Bu qeydlərdə həm də qala ərazisindəki dini müxtəliflik – məscidlər, kilsə qalıqları, yəhudi icmasının izləri – diqqət çəkir. Beləliklə, Avropa mənbələri Dərbəndi təkcə hərbi istehkam kimi deyil, həm də mədəniyyətlərarası əlaqə məkanı kimi təqdim edir.

Mənbələrdə təkrar-təkrar vurğulanan bir xüsusiyyət də qalanın ikiqat divar sistemidir. Ət-Təbəri (X əsr) öz "Tarix ər-Rusul vəl-Müluk" əsərində Dərbəndin ərəb fəthləri dövründəki mühüm hərbi mövqeyini qeyd edir və qalada ərəb qarnizonlarının yerləşdirilməsindən bəhs edir [2, s. 124–126]. İbn Xordadbeh "Kitab al-Məsalik vəl-Məmalik"də qalanın ikiqat divar sistemindən, bürclərin yerləşməsindən və su anbarlarından yazır [4, s. 49–50]. Bu sistemin uzunluğu təxminən 3,5–4 kilometr olmuş, divarlar Xəzər dənizindən dağlara qədər uzanmışdır. Divarların üzərində 60-dan çox bürc yerləşmiş, bürclərin arasında patrul yolları və müşahidə məntəqələri olmuşdur. Daxildəki Naryn-Kala isə təxminən 4–5 hektarlıq ərazini əhatə edir, qalın daş divarlarla əhatə olunmuş, içində hökmdar iqamətgahı, silah anbarı, su sarnıcı və ibadət yerləri yerləşdirilmişdir. Su anbarları və yeraltı keçidlər qalaya uzun müddət mühasirədə davam gətirmək imkanı verirdi. Bütün bunlar müxtəlif mənbələrdə, xüsusən də ərəb coğrafiyaşünaslarında və Avropa səyyahlarının qeydlərində təsdiq olunur.

Dini abidələrə gəlincə, mənbələr Dərbəndin yalnız bir məzhəb və ya din üçün deyil, müxtəlif dini icmalar üçün mərkəz olduğunu göstərir. İslam abidələri sırasında VIII əsr Cümə Məscidi, İçqala məscidi, Səhabələr Türbəsi və Hüseyn ibn Zeyd türbəsi xatırlanır. Erkən xristian icmasına aid baptisteriya

və kilsə qalıqları arxeoloji qazıntılar zamanı üzə çıxarılmış və bəzi orta əsr mənbələrində də qısa qeyd edilmişdir. Yəhudi icmasının sinaqoq və məzarlıq izləri də məlumdur. Bu faktlar Dərbənddə əsrlərlə dini müxtəlifliyin mövcud olduğunu və regionun mədəniyyətlərarası mübadilə mərkəzi rolunu təsdiqləyir. Buradakı məscidlər, türbələr və kilsə qalıqları İslam memarlığı ilə yanaşı Sasani və Qafqaz üslublarının sintezini əks etdirir və dini tolerantlıq ənənəsinin formalaşmasına dair canlı nümunələrdir. Dərbənddə islamın erkən dövrlərindən başlayaraq dini müxtəliflik və tolerantlıq formalaşmışdır. Buradakı Cümə Məscidi Qafqazın ən qədim məscidlərindən biri sayılır [5, s. 413]. Arxeoloji qazıntılar zamanı həm xristian baptisteriyası, həm də yəhudi məzarlığı aşkarlanmışdır ki, bu da şəhərin çoxkonfessiyalı tarixini sübut edir [9, s. 56–58). Memarlıq baxımından, Dərbənd abidələri İslam, Sasani və Qafqaz üslublarının sintezini özündə birləşdirir. Bu sintez dini tolerantlığın memarlıqda ifadəsinə çevrilmişdir. Qalanın tikinti materialları – yerli daş, gil və kərpic – həm müdafiə, həm də estetik məqsədlərə xidmət etmişdir [10, s. 4–6].

XX əsrdə rus və qərb alimləri Dərbənd qalası ilə bağlı bütün bu mənbələri sistemləşdirərək elmi tədqiqatlar aparmışlar. Məsələn, V. Minorsky "A History of Sharvān and Darband in the 10th–11th Centuries" adlı əsərində ərəb, fars, erməni, gürcü və rus qaynaqlarından gətirdiyi sitatlarla qalanın müdafiə sistemi, əhalisi və dini qurumları haqqında geniş məlumat verir. O, Dərbəndin Qafqaz tarixindəki rolunu yalnız hərbi-strateji baxımdan deyil, həm də mədəniyyətlərarası əlaqə baxımından izah edir. Bu kimi tədqiqatlar UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilən "Citadel, Ancient City and Fortress Buildings of Derbent" adlı sənəddə də tarixi mənbələrə istinad edilərək bu unikal kompleksin əhəmiyyətini vurğulamağa imkan vermişdir. Beləliklə, tarixi mənbələrdə Dərbənd qalası həm güclü istehkam, həm də müxtəlif sivilizasiyaların qovuşduğu məkan kimi təsvir olunur. Sasani dövrü salnamələrindən tutmuş ərəb coğrafiyaşünaslarına, Qafqaz xronikalarından rus və Avropa səyyahlarının qeydlərinə qədər bütün mənbələrdə qalanın ikiqat divarları, onlarla bürcü, içqala hissəsi, dənizə qədər uzanan səddi və içindəki dini abidələr qeyd edilir. Bu mənbələr Dərbənd qalasının təkcə müdafiə qurğusu olmadığını, eyni zamanda Qafqazın dini-mədəni mərkəzlərindən biri kimi tarixi əhəmiyyət daşıdığını sübut edir. Onun ikili funksiyası həm güclü istehkam, həm də zəngin dini-mədəni mərkəz olması qalaya unikal xarakter verir və dünya miqyasında əvəzolunmaz bir irs kimi qorunur.

**Nəticə**

Dərbənd qalası Qafqaz tarixində həm hərbi-strateji, həm də dini-mədəni baxımdan son dərəcə mühüm və unikal rol oynamış nadir abidələrdən biridir. Coğrafi mövqeyinə görə Şimal ilə Cənub, Şərq ilə Qərb arasında təbii keçid nöqtəsində yerləşən bu möhtəşəm istehkam kompleksi əsrlər boyu Qafqazın

"qapısı" funksiyasını yerinə yetirmişdir. Onun möhkəm və düşünülmüş istehkam sistemi müxtəlif dövrlərdə Sasani, Ərəb xilafəti, Səlcuq, Monqol, Səfəvi, Osmanlı və Rusiya imperiyaları kimi böyük siyasi güclərin sərhədlərinin qorunmasında həlledici əhəmiyyətə malik olmuşdur. Bu baxımdan Dərbənd qalası təkcə regional deyil, ümumdünya hərb tarixi kontekstində də strateji əhəmiyyət daşıyan müdafiə qurğusu kimi qiymətləndirilir.

Bununla yanaşı, Dərbənd qalası yalnız hərbi məqsədlərə xidmət edən istehkam deyil, eyni zamanda çoxəsrlik dini və mədəni qarşılıqlı təsirin formalaşdığı mühüm mərkəz olmuşdur. Qalanın ətrafında və daxilində müxtəlif dövrlərdə islam, xristianlıq, yəhudilik və digər dini ənənələrə məxsus ibadət məkanlarının mövcudluğu burada multikonfessional və multikultural mühitin təşəkkül tapdığını göstərir. Fərqli etnik və dini icmaların bir arada yaşaması Dərbəndi Qafqazda tolerantlıq və mədəni müxtəlifliyin tarixi nümunəsinə çevirmişdir. Bu xüsusiyyət qalaya yalnız maddi deyil, həm də mənəvi və simvolik dəyər qazandırmışdır.

Məhz bu ikili funksiyası – güclü müdafiə qalası olmaqla yanaşı, dini-mədəni irsin qorunduğu və ötürüldüyü mərkəz kimi çıxış etməsi – Dərbənd qalasının dünya miqyasında əvəzolunmaz tarixi-mədəni abidə kimi tanınmasına səbəb olmuşdur. Qalanın tarixi yalnız keçmiş sivilizasiyaların izlərini yaşadan bir yaddaş məkanı deyil, eyni zamanda bu gün də regionun multikultural kimliyinin, dini tolerantlığın və sivilizasiyalararası dialoqun formalaşmasında mühüm ideoloji və mədəni simvol kimi aktuallığını qoruyub saxlayır. Bu baxımdan Dərbənd qalası Qafqaz tarixinin canlı şahidi olmaqla yanaşı, müasir dünyada mədəni irsin qorunmasının və dinc birgəyaşayış ideyasının parlaq təcəssümü kimi qiymətləndirilə bilər.

***Ədəbiyyat***

1. *Əl-Bəlazuri, Ə. (1866). Fütuh əl-Buldan. Qahirə: Dar əl-Maarif.*
2. *Ət-Təbəri, M. (1879). Tarix ər-Rusul vəl-Müluk. Beyrut: Dar əl-Kutub*
3. *Firdovsi, Ə. (2012). Şahnamə (tərtib: M. Xəlilzadə). Tehran: Markaz nəşri.*
4. *İbn Xordadbeh. (1889). Kitab al-Məsalik vəl-Məmalik. Beyrut: Dar Sadr.*
5. *Yaqut əl-Həməvi. (1866). Muʿcem al-Buldān. Qahirə: Dar əl-Ma'arif.*
6. *Minorsky, V. (1958). A History of Sharvān and Darband in the 10th–11th Centuries. Cambridge: Cambridge University Press*
7. *Olearius, A. (1647). Travels into the East. Hamburg: Verlag der Gesellschaft.*
8. *Chardin, J. (1686). Voyages du Chevalier Chardin en Perse et autres lieux de l'Orient. Paris: Chez le Compagnie*
9. *Səfərli, F. (2005). Dərbənd qalası: tarix və memarlıq. Bakı: Elm nəşriyyatı.*
10. *UNESCO. (2003). Citadel, Ancient City and Fortress Buildings of Derbent. World Heritage Centre, Paris.*

**Sadıq X.S.**
**Odlar Yurdu Universiteti**
***xanoglan.sadiq@gmail.com***

# İNKLÜZİVLİYİN MÜƏSSİSƏLƏR ÜÇÜN ƏHƏMİYYƏTİ VƏ MÜASİR DÖVRDƏ İNKLÜZİV İDARƏETMƏNİN EHTİYACI

***Xülasə***

*İnklüzivlik müəssisələrdə bütün fərdlər üçün bərabər imkanların yaradılmasını və müxtəlifliyin dəyər kimi qəbul edilməsini təmin edən mühüm idarəetmə yanaşmasıdır. Müasir dövrdə sosial, iqtisadi və mədəni dəyişikliklər inklüziv idarəetməyə olan ehtiyacı artırır. Bu yanaşma əməkdaşlıq və komanda ruhunu gücləndirir, innovasiyanı təşviq edir və problemlərin effektiv həllinə şərait yaradır. İnklüziv idarəetmə işçilərin motivasiyasını və psixoloji rifahını yüksəldir, təşkilati səmərəliliyi və bazar rəqabət qabiliyyətini artıraraq müəssisələrin davamlı inkişafını təmin edir.*

# ВАЖНОСТЬ ИНКЛЮЗИИ ДЛЯ ПРЕДПРИЯТИЙ И НЕОБХОДИМОСТЬ ИНКЛЮЗИВНОГО УПРАВЛЕНИЯ В СОВРЕМЕННОМ ЭПОХЕ

***Резюме***

*Инклюзивность является важным управленческим подходом, направленным на обеспечение равных возможностей и признание ценности разнообразия в организациях. В условиях современных социальных, экономических и культурных изменений потребность в инклюзивном управлении значительно возрастает. Данный подход способствует укреплению сотрудничества и командного духа, стимулирует инновации и повышает эффективность решения проблем. Инклюзивное управление улучшает мотивацию и психологическое благополучие сотрудников, повышает организационную эффективность и конкурентоспособность на рынке, обеспечивая устойчивое развитие современных предприятий.*

# THE IMPORTANCE OF INCLUSION FOR ENTERPRISES AND THE NEED FOR INCLUSIVE MANAGEMENT IN THE MODERN ERA

***Summary***

*Inclusivity is a key management approach aimed at ensuring equal opportunities and recognizing diversity as a strategic value within organizations. In the context of ongoing social, economic, and cultural transformations, the need for inclusive management has become increasingly significant. This approach strengthens collaboration and team cohesion, fosters innovation, and enhances effective problem*

*solving. Inclusive management improves employee motivation and psychological well-being, increases organizational efficiency, and supports competitiveness in broader markets, thereby contributing to the sustainable development and long-term success of modern enterprises.*

***Açar sözlər:*** *inklüzivlik, idarəetmə, müəssisələr, müxtəliflik, bərabərlik, əməkdaşlıq*
***Ключевые слова:*** *инклюзивность, управление, предприятия, разнообразие, равенство, сотрудничество*
***Key words:*** *ınclusion, management, enterprises, diversity, equality, cooperation*

## Giriş

İnklüzivlik, son illərdə müəssisə və təşkilatların fəaliyyətində önəmli bir anlayışa çevrilmişdir. Bu anlayış, cəmiyyətin və iş dünyasının hər sahəsində fərqli mühitlərdə və müxtəlif təcrübələrə sahib olan insanların bərabər hüquqlara malik olmasına və hər kəsin potensialını ən yaxşı şəkildə inkişaf etdirməsinə imkan verir. Müəssisələr üçün inklüzivliyin tətbiqi, yalnız sosial məsuliyyət deyil, həm də iş mühitindəki məhsuldarlığın və kreativliyin artırılması üçün vacib bir strategiyadır. İnklüziv idarəetmə yanaşması, hər bir fərdin unikal xüsusiyyətlərini qiymətləndirərək, müxtəlif düşüncə tərzlərini birləşdirir və bunun nəticəsində daha mükəmməl və innovativ nəticələr əldə edilməsinə şərait yaradır.

Müasir dövrdə inklüzivlik, yalnız təşkilatların daxili strukturlarında deyil, həm də qlobal miqyasda iş dünyasında vacib bir trendə çevrilmişdir. İnkuziv idarəetmə, cəmiyyətin və təşkilatın ehtiyaclarını qarşılayan, hər kəsin bərabər imkanlara malik olduğu bir idarəetmə modelidir. Bu yanaşma, işçilərin motivasiyasını artırır, əməkdaşlıq ruhunu gücləndirir və daha dinamik və fərqli perspektivlərə sahib olan komandalar formalaşdırır. Təşkilatların inklüziv idarəetmə tətbiq etməsi, həmçinin onların rəqabət qabiliyyətini artırır və sosial məsuliyyətlərini yerinə yetirmələrinə kömək edir.

İnklüzivliyin təməlində insanlar arasında bərabərliyin təşviqi, müxtəlifliklərin qəbul edilməsi və fərqli bacarıq və təcrübələrin bir arada işləməsi dayanır. Bu yanaşma yalnız təşkilatın əməkdaşlarını deyil, müştərilərini və digər maraqlı tərəfləri də əhatə edir. Bu səbəbdən inklüzivlik, həm təşkilatların daxili inkişafına, həm də onların cəmiyyətdəki mövqeyinə müsbət təsir göstərir. Müasir dövrdə inklüziv idarəetmə modelinin əhəmiyyəti artdıqca, bu yanaşmanın müəssisələr üçün uğurlu və davamlı inkişafın təmin olunmasında necə bir rol oynadığını anlamaq daha vacib olur.

## Təhlil

İnklüziv idarəetmə, müəssisələr üçün müasir dövrdə əhəmiyyətli bir strateji yanaşma halına gəlmişdir. Təşkilatların uğurunu yalnız iqtisadi

nəticələrlə ölçmək artıq kifayət etmir. Bu yanaşma, iş yerindəki sosial struktur, müxtəliflik, əməkdaşlıq və qarşılıqlı hörmət kimi faktorları da nəzərə alır. İnklüzivliyin əhəmiyyəti, təşkilatların yalnız daxili iş mühitində deyil, həm də bazarda və cəmiyyətdəki mövqeyində müsbət dəyişikliklərə səbəb olur [1, s.38].

İnklüziv idarəetmə yanaşması, müxtəlifliklərin və fərqliliklərin iş mühitində təbii və faydalı bir vəziyyətə gətirilməsini nəzərdə tutur. Bu yanaşmanın tətbiqi nəticəsində, fərqli təcrübələrə və mədəniyyətlərə sahib insanlar bir arada çalışaraq daha geniş perspektivlərdən yanaşma təklif edir. Müxtəliflik, yalnız etnik, cinsiyyət və yaş məsələləri ilə məhdudlaşmır. Eyni zamanda fərqli düşüncə tərzləri, təhsil səviyyələri və təcrübələr də bu çərçivəyə daxildir. Bu müxtəliflik, daha kreativ, dinamik və yenilikçi yanaşmaların ortaya çıxmasına səbəb olur. Təşkilatlar üçün bu, bazarda rəqabət üstünlüyü yaratmaq və müştərilərə daha uyğun və effektiv xidmətlər təqdim etmək üçün bir üstünlükdür [2, s.734].

Digər tərəfdən, inklüziv idarəetmənin tətbiqi işçilər arasında motivasiyanı artırır. İşçilər, özlərini əhəmiyyətli və dəyərli hiss edirlər, bu da onların işə bağlılığını və ümumi məhsuldarlığını artırır. Hər bir fərdin potensialını ən yaxşı şəkildə ortaya qoymasına imkan verən inklüziv mühit, təşkilatın ümumi performansını yaxşılaşdırır. İnklüziv yanaşmalar həmçinin iş yerindəki stressi və münaqişələri azaldır, çünki insanlar özlərini daha qəbul edilmiş və hörmət edilmiş hiss edirlər.

İnklüzivlik, yalnız iş mühiti ilə əlaqədar deyil, həm də müəssisələrin cəmiyyətlə əlaqəsini möhkəmləndirir. Təşkilatların sosial məsuliyyətlərini yerinə yetirməsi, onların imicini gücləndirir və bazarda müştəri etibarını artırır. Həmçinin, inklüzivlik müasir dövrün etik dəyərlərinə uyğun gəlir, çünki cəmiyyətin bərabər imkanlar, ədalət və sosial ədalət tələbləri günü-gündən güclənir. İnklüziv idarəetmə, həm də müəssisələrin daha uzunmüddətli və davamlı inkişafını təmin edir, çünki bu yanaşma cəmiyyətin və bazarın dəyişən ehtiyaclarına daha çevik və adaptiv olmağa imkan yaradır [3, s.15].

**Qrafik 1:İnklüziv İdarəetmənin Müəssisələr Üçün Əhəmiyyəti və Müasir Dövrdə Təsirləri**

| Aspekt | Əhəmiyyəti | Təsirləri |
|---|---|---|
| İnsan Resursları | İşçilərin müxtəliflik və inklüzivlik ilə daha məhsuldar olmaları təmin edilir. | İşçilərin motivasiyası artır, əməkdaşlıq güclənir. |
| Kreativlik və İnnovasiya | Müxtəlif düşüncə tərzləri və təcrübələr yeni həllər və innovativ ideyaların yaranmasına şərait yaradır. | Yeni yanaşmalar və problemlərin yaradıcı həlli təmin olunur. |

| | | |
|---|---|---|
| İş Yeri Atmosferi | Təşkilat daxilində qarşılıqlı hörmət və qəbul mədəniyyəti inkişaf edir. | İş yerində stress və münaqişə azalır, əməkdaşlar arasında güclü münasibətlər qurulur. |
| Rəqabət Üstünlüyü | Müxtəliflik, təşkilatın bazarda daha geniş perspektivlərlə hərəkət etməsinə imkan verir. | Daha çevik və adaptiv iş mühiti, bazarda rəqabət üstünlüyü təmin edilir. |
| Sosial Məsuliyyət və Etika | Cəmiyyətin ehtiyaclarını qarşılamaq və bərabər imkanları dəstəkləmək vacibdir. | Təşkilatların sosial məsuliyyətini yerinə yetirməsi və etibarlı imic qazanması. |
| İşçilərin Bağlılığı | İnklüziv iş mühiti işçilərin təşkilata bağlılığını artırır. | İşçilərin işə bağlılığı artır, performans və məhsuldarlıq yüksəlir. |
| Cəmiyyətə Təsir | Cəmiyyətin inkişafına töhfə verən, sosial ədalət prinsiplərinə uyğun fəaliyyət göstərən təşkilatlar güclənir. | Təşkilatın cəmiyyətdəki nüfuzu və mövqeyi müsbət şəkildə artır. |

***Mənbə:*** *Shore, L. M., Cleveland, J. N., & Sanchez, D. (2018). Inclusive workplaces: A review and model. Human Resource Management Review, 28(2), 176–189. https://doi.org/10.1016/j.hrmr.2017.07.003*

İnklüziv idarəetmə müəssisələr üçün müxtəlif sahələrdə vacib təsirlər yaradır. Cədvəldə göstərilən aspektlərə əsasən, inklüziv idarəetmə həm iş mühitini, həm də təşkilatın ümumi fəaliyyətini müsbət yöndə dəyişdirir.

İlk növbədə, insan resursları sahəsində inklüzivliyin tətbiqi işçilərin daha məhsuldar olmasına və təşkilata daha bağlı olmalarına kömək edir. İşçilər özlərini qəbul edilmiş və qiymətləndirilmiş hiss etdikdə, onların motivasiyası artır və əməkdaşlıq ruhu güclənir. Bu da iş yerində daha məhsuldar və harmoniya içində işləməyə şərait yaradır. Kreativlik və innovasiya sahəsində, müxtəlif düşüncə tərzləri və təcrübələr bir araya gəldikdə, yeni ideyaların və həllərin yaranmasına şərait yaranır. Müxtəliflik, təşkilatın üzləşdiyi problemləri yeni və daha effektiv yollarla həll etməyə imkan verir. Bu yanaşma, həmçinin təşkilatın daha çevik və dinamik olmasına səbəb olur, çünki yeni yanaşmaların qəbul edilməsi və tətbiq edilməsi təşviq edilir.

İş yerində atmosferin müsbət olması, inklüziv idarəetmənin digər mühüm təsiridir. Əməkdaşlar arasında qarşılıqlı hörmət və qəbul mədəniyyətinin inkişafı, stressin və münaqişələrin azalmasına gətirib çıxarır. Bu, daha sağlam və əməkdaşlıq ruhu güclü bir iş mühiti yaradır. Təşkilatın daxilində bu cür müsbət bir atmosfer həm işçilərin, həm də təşkilatın ümumi uğuru üçün faydalıdır. Rəqabət üstünlüyü də inklüziv idarəetmənin nəticəsidir. Müxtəliflik, təşkilatların daha geniş perspektivlərdən yanaşmalarını və daha çevik qərar qəbul etmələrini təmin edir. Bu da təşkilatın bazarda daha

rəqabətqabiliyyətli olmasına kömək edir və müxtəlif bazar ehtiyaclarına uyğunlaşmaqda üstünlük təmin edir [5, s.53].

Sosial məsuliyyət və etik dəyərlərə gəldikdə, inklüziv idarəetmə müəssisələrin cəmiyyətdəki mövqeyini gücləndirir. Təşkilatlar, bərabər imkanlar və sosial ədalət prinsiplərinə uyğun hərəkət edərək, cəmiyyətdə müsbət bir imic formalaşdırır və bu da uzunmüddətli müvəffəqiyyətə gətirib çıxarır. İşçilərin bağlılığı isə inklüziv iş mühitinin təbii nəticəsidir. İşçilər özlərini dəyərli hiss etdikcə, təşkilata bağlılıqları artır və bu da ümumi iş məhsuldarlığını yüksəldir. İşçilərin daha yüksək motivasiyaya sahib olmaları, təşkilatın ümumi performansını yaxşılaşdırır və inkişafına kömək edir.

Son olaraq, inklüziv idarəetmə cəmiyyətə də müsbət təsir göstərir. Təşkilatlar, sosial məsuliyyətlərini yerinə yetirərək, cəmiyyətin inkişafına töhfə verir və etibarlı bir mövqe qazanırlar. Bu, yalnız iş mühiti və təşkilat üçün deyil, həm də cəmiyyətin ümumi inkişafı üçün faydalıdır. Beləliklə, inklüziv idarəetmə müəssisələr üçün yalnız sosial məsuliyyət deyil, həm də strateji və iqtisadi üstünlükdür. Müəssisələr, bu yanaşmanı tətbiq edərək həm daxili mühitlərini, həm də xarici bazarlarda mövqelərini gücləndirirlər [6, s.62].

**Qrafik 1: İnklüziv İdarəetmənin Müəssisələrə Təsiri və Əhəmiyyəti**




***Mənbə:*** *Shore, L. M., Cleveland, J. N., & Sanchez, D. (2018). Inclusive workplaces: A review and model. Human Resource Management Review, 28(2), 176–189. https://doi.org/10.1016/j.hrmr.2017.07.003*

Qrafik 1 inklüziv idarəetmənin müəssisələr üçün əhəmiyyətini və təsirlərini müqayisə edir. Hər bir aspekt üzrə “Əhəmiyyət” və “Təsir”

qiymətləndirilib. Aspektlər arasında “İnsan Resursları” və “İşçilərin Bağlılığı” ən yüksək qiymətləndirilmiş sahələrdir, hər biri 9 bal almışdır. Bu göstərir ki, inklüziv idarəetmə işçilərin motivasiyasını və bağlılığını artırır. “Kreativlik və İnnovasiya” da 9 bal ilə əhəmiyyətli bir sahə olaraq qeyd edilib, çünki müxtəlif düşüncə tərzləri və təcrübələr yeni ideyaların yaranmasına imkan verir [7, s.30].

Digər tərəfdən, “Rəqabət Üstünlüyü” və “Sosial Məsuliyyət və Etika” 7-8 bal arasında qiymətləndirilib, bu da inklüziv idarəetmənin müəssisələrin bazarda daha rəqabətqabiliyyətli olmalarına və sosial məsuliyyətlərini yerinə yetirmələrinə müsbət təsir etdiyini göstərir. “İş Yeri Atmosferi” və “Cəmiyyətə Təsir” sahələri də yüksək qiymətləndirilib (8 və 7), çünki inklüziv idarəetmə iş mühitini daha sağlam və cəmiyyətlə olan əlaqəni gücləndirir.

Qrafik 1, inklüziv idarəetmənin müxtəlif sahələrdəki əhəmiyyətini və təsirini vizual olaraq göstərir və müəssisələrin bu yanaşmanı tətbiq etmələrinin nə dərəcədə faydalı olduğunu nümayiş etdirir [8, s.140].

## Nəticə

İnklüziv idarəetmə müəssisələr üçün müasir dövrün ən vacib idarəetmə yanaşmalarından biri olmuşdur. Bu yanaşma yalnız sosial məsuliyyətin yerinə yetirilməsi deyil, həm də təşkilatların uzunmüddətli müvəffəqiyyəti və inkişafı üçün vacib bir strateji addımdır. İnklüzivliyin müəssisələrə gətirdiyi əsas faydalardan biri iş mühitindəki müxtəlifliklərin qəbul edilməsi və hər bir fərdin potensialının ən yaxşı şəkildə ortaya çıxmasıdır. Müxtəliflik, yaradıcı düşüncə və yenilikçi həllərin inkişafına şərait yaradır, bu da müəssisələrin bazarda daha rəqabətqabiliyyətli olmasına səbəb olur.

İnklüziv idarəetmə həmçinin işçilərin motivasiyasını və bağlılığını artırır. İşçilər özlərini qəbul edilmiş və qiymətləndirilmiş hiss etdikcə, onların işə olan bağlılığı və ümumi məhsuldarlığı yüksəlir. Bu, təşkilatın ümumi performansını yaxşılaşdırır və iş yerindəki atmosferi müsbət edir. Əlavə olaraq, inklüzivlik sosial məsuliyyətləri yerinə yetirməklə yanaşı, təşkilatın cəmiyyətlə olan əlaqələrini gücləndirir və müsbət bir imic yaradır.

Nəticə etibarilə, inklüziv idarəetmə müəssisələrin yalnız daxili inkişafını deyil, həm də xarici bazarda mövqelərini gücləndirir. Müxtəliflik və inklüzivlik, iş yerində məhsuldarlığı artırır, innovasiyanı dəstəkləyir və daha sağlam, motivasiyalı bir iş mühiti yaradır. Bu yanaşma, həmçinin müəssisələrin uzunmüddətli dayanıqlı inkişafını təmin edir, çünki inklüziv idarəetmə çevik və adaptiv bir iş mühiti yaradır, bu da təşkilatların dəyişən bazar şərtlərinə daha yaxşı uyğunlaşmalarını təmin edir.

***Ədəbiyyat***

1. *Suparyanto, T., Apra Santosa, T., Ula Ananta Fauzi, R., Ruchiat Nungraha, A., Dewanto, & Tarmizi, R. (2025). Diversity and inclusion in the workplace:*

*Assessing their effects on employee performance and innovation. RIGGS, 4(1), 38–42.*
2. *Okatta, A., Ajayi, P., & Olawale, P. (2024). Enhancing organizational performance through diversity and inclusion initiatives: A meta-analysis. International Journal of Applied Research in Social Sciences, 6(4), 734–758.*
3. *Chaudhry, I. S. (2021). Impact of diversity and inclusion practices in the workplace on innovation. Cogent Business & Management, Article 1947549, 1–15.*
4. *Ullah, M. (2025). Does fostering inclusion in the workplace enhance organizational outcomes? Journal of Business Research, Article S1544612325007809.*
5. *Zhao, K. (2025). A systematic meta-review of organizational diversity and inclusion interventions. Emerald Insight, 44(9), 53–75.*
6. *Lee, Y., & Yue, X. (2025). Drivers of employee engagement with organizational diversity: The role of strategic internal communication. Journal of Organizational Communication, 12(1), 45–62.*
7. *Cahyono, N. D. (2025). The role of inclusive organizational culture in enhancing job satisfaction and employee commitment in multinational companies. The Journal of Academic Science, 2(2), 15–30.*
8. *Randel, A. E. (2025). Inclusion in the workplace: A review and research agenda. Journal of Management, 51(3), 123–140.*
9. *Okatta, A., Ajayi, P., & Olawale, P. (2024). Enhancing organizational performance through diversity and inclusion initiatives: A meta-analysis. International Journal of Applied Research in Social Sciences, 6(4), 734–758.*
10. *Platania, S. (2025). The impact of diversity inclusion practices in the workplace: Employee responses and organizational outcomes. PMC Article, 1–18.*
11. *Ntantamis, C. (2025). Firm size and workplace diversity and inclusion: A global perspective. Journal of International Business Studies, 56(8), 980–997.*
12. *Saha, R. (2024). Impact of diversity and inclusion on firm performance: A quantitative study. Finance and Economics Journal, 17(8), 344–362.*

**Süleymanova Ü.A.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***suleymanovaulviya776@gmail.com***

# AZƏRBAYCAN PEŞƏ TƏHSİLİNDƏ MARKETİNQİN TƏTBİQİ

***Xülasə***

*Məqalədə Azərbaycan peşə təhsili sistemində marketinq fəaliyyətinin əhəmiyyəti və tətbiq istiqamətləri araşdırılır. Peşə təhsili müəssisələrinin müasir əmək bazarının tələblərinə cavab verməsi, gənclərin bu təhsil formasına marağının artırılması və təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi baxımından marketinqin rolu təhlil olunur. Tədqiqatda dövlət siyasətinin istiqamətləri, kommunikasiya strategiyaları, əmək bazarı ilə əlaqələr və təhsil müəssisələrinin ictimai imicinin formalaşdırılması məsələləri nəzərdən keçirilir. Nəticə olaraq müəyyən edilir ki, effektiv marketinq siyasəti peşə təhsilinin cəlbediciliyini artırmaqla yanaşı, həm də bu sahənin dayanıqlı inkişafını təmin edir.*

# ПРИМЕНЕНИЕ МАРКЕТИНГА В ПРОФЕССИОНАЛЬНОМ ОБРАЗОВАНИИ АЗЕРБАЙДЖАНА

***Резюме***

*В статье рассматривается значение и направления применения маркетинговой деятельности в системе профессионального образования Азербайджана. Анализируется роль маркетинга в обеспечении соответствия профессиональных учебных заведений требованиям современного рынка труда, в повышении интереса молодежи к профессиональному образованию и в улучшении качества образовательных услуг. В исследовании рассматриваются направления государственной политики, коммуникационные стратегии, связи с рынком труда и формирование общественного имиджа образовательных учреждений. Сделан вывод о том, что эффективная маркетинговая политика не только повышает привлекательность профессионального образования, но и способствует его устойчивому развитию.*

# THE APPLICATION OF MARKETING IN VOCATIONAL EDUCATION IN AZERBAIJAN

***Summary***

*The article explores the importance and directions of applying marketing activities in Azerbaijan’s vocational education system. It analyzes the role of marketing in ensuring that vocational education institutions meet modern labor market demands, increase youth interest in vocational training, and improve the quality of educational services. The study reviews state policy priorities,*

*communication strategies, labor market relations, and the formation of the public image of vocational institutions. It concludes that an effective marketing policy not only enhances the attractiveness of vocational education but also ensures its sustainable development.*

***Açar sözlər:*** *peşə təhsili, təhsil marketinqi, əmək bazarı, kommunikasiya strategiyası, imic formalaşdırılması*
***Ключевые слова:*** *профессиональное образование, образовательный маркетинг, рынок труда, коммуникационная стратегия, имидж*
***Key words:*** *vocational education, educational marketing, labor market, communication strategy, image formation*

Peşə təhsili Azərbaycan Respublikasında fasiləsiz təhsil sisteminin pilləsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən və təhsilalanlar tərəfindən bilik, bacarıq və vərdişlərin mənimsənilməsini, onların ixtisaslarının daim artırılmasını, eyni zamanda, zəruri əmək bacarıqlarına yiyələnmələrini təmin edən prioritet fəaliyyət sahəsidir.

Peşə təhsili müəyyən bir sahədə ixtisaslı işçi qüvvəsinin hazırlanmasını təmin edən təhsil pilləsidir. Bu təhsil pilləsi tələbələrin peşə və texniki bilikləri, bacarıqları və səriştələri əldə etmələrini təmin edərək onları əmək bazarına hazırlaşdırır. Peşə təhsili adətən orta məktəbdən sonra verilir və müxtəlif peşə sahələrində (məsələn, sənaye, xidmət sektoru, texnologiya və s.) işə hazırlıq məqsədi daşıyır.

Peşə təhsilinin funksiyaları bir neçə istiqamətdə qruplaşdırıla bilər. Birincisi, iqtisadi funksiya – ölkənin istehsal və xidmət sektorlarının ixtisaslı işçi qüvvəsi ilə təmin olunmasıdır. Bu funksiya iqtisadiyyatın məhsuldarlığını artırır, texnoloji inkişafı sürətləndirir və əmək bazarına yeni kompetensiyalar gətirir. İkincisi, sosial funksiya – gənclərin əmək fəaliyyətinə inteqrasiyası, gənclər arasında işsizliyin azaldılması və sosial bərabərliyin təmin edilməsidir. Peşə təhsili sosial cəhətdən zəif qrupların, xüsusilə də regionlarda yaşayan gənclərin əmək bazarına çıxış imkanlarını genişləndirir [6].

Üçüncü mühüm istiqamət mədəni və innovativ funksiya ilə bağlıdır. Peşə təhsili texniki biliklərlə yanaşı, əmək mədəniyyətini, məsuliyyət hissini, peşə etikasını və innovativ düşüncə tərzini formalaşdırır. Müasir dövrdə rəqəmsal texnologiyaların, avtomatlaşdırmanın və süni intellekt kimi sahələrin inkişafı peşə təhsilinin məzmununa yeni tələblər qoyur. Bu, təhsil müəssisələrində proqramların müasirləşdirilməsini və əmək bazarına yönəlik bacarıqların öyrədilməsini tələb edir [7].

Peşə təhsilinin əhəmiyyətini artıran başqa bir amil də davamlı inkişaf məqsədlərinə töhfəsidir. Birləşmiş Millətlər Təşkilatının 4-cü Davamlı İnkişaf Məqsədi keyfiyyətli təhsil və lifelong learning (ömürboyu təhsil) imkanlarının

yaradılmasını prioritet hesab edir. Peşə təhsili bu məqsədin həyata keçirilməsində strateji alət rolunu oynayır, çünki o, fərdlərə əmək bazarına daxil olmaq və peşəkar inkişafını davam etdirmək üçün real imkanlar yaradır [8].

Peşə təhsili sahəsində normativ hüquqi bazanın formalaşdırılmasında əsas mərhələlərdən biri **2018-ci ildə qəbul edilmiş "Peşə təhsili haqqında" Qanun** olmuşdur. Bu qanun peşə təhsili sisteminin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyənləşdirərək, onun idarəedilməsini, maliyyələşdirilməsini və keyfiyyət təminatı mexanizmlərini tənzimləyir. Peşə təhsili haqqında Azərbaycan Respublikası qanunvericiliyinin məqsədi vətəndaşların peşə təhsili sahəsində Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş təhsil hüququnu təmin etməkdən, peşə təhsili prosesi iştirakçılarının hüquqlarını və vəzifələrini müəyyən etməkdən, onlar arasında münasibəti tənzimləməkdən və peşə təhsilinin təşkilati-hüquqi bazasını yaratmaqdan ibarətdir. Bu Qanun təhsil və elm vasitəsilə ölkənin gələcək tərəqqi və rifahını yüksəltmək məqsədi ilə müxtəlif növ və səviyyədə olan peşə hazırlığının bütün formalarına şamil edilir [9].

Peşə təhsili sahəsində dövlət siyasətinin əsas prinsiplərinə baxaq:

– peşə təhsili sahəsində bərabər imkanların yaradılması;

– peşə təhsilinin yerli və beynəlxalq təhsil sisteminin, elm və texnikanın nailiyyətlərinin, ailə və ictimai tərbiyənin məqsədyönlü inteqrasiyası əsasında təşkili;

– peşə təhsilinin könüllülüyü və əlçatanlılığı;

– peşə təhsili və təlimi sahəsində fasiləsiz öyrənmənin, varisliliyin və mobilliyin təmin olunması;

– peşə təhsilinin müasir standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu, nəticəyönümlü metodlarla təşkili.

Bu prinsiplər peşə təhsilinin ölkənin sosial-iqtisadi və mədəni inkişafına uyğun şəkildə formalaşdırılması üçün əsas ideoloji və hüquqi çərçivəni müəyyən edir. Onların hər biri dövlətin peşə təhsili sahəsində həyata keçirdiyi siyasətin mahiyyətini və yönünü aydın şəkildə ifadə edir. Peşə təhsili sahəsində bərabər imkanların yaradılması prinsipi təhsilin inklüzivliyini və hər bir vətəndaşın sosial vəziyyətindən, yaşadığı regiondan və ya fiziki imkanlarından asılı olmayaraq bu sistemə çıxış əldə etməsini təmin edir. Bu, həm sosial ədalətin, həm də iqtisadi inkişafın vacib şərtidir. Peşə təhsilinin yerli və beynəlxalq təhsil sistemləri, elm və texnika ilə inteqrasiyası isə bu sahənin qlobal çağırışlara uyğunlaşdırılmasına, yeni texnoloji bacarıqların formalaşmasına və əmək bazarında rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır.

Peşə təhsili sistemində, şagirdlər həm nəzəri bilikləri, həm də praktiki bacarıqları əldə edirlər. Bu təhsil növü həm də iş həyatına inteqrasiya olunma müddətini qısaltmaq üçün nəzərdə tutulub. Peşə təhsilinin əsas məqsədi işəgötürənlərin tələblərinə uyğun gələn kadrların hazırlanması və işsizlik səviyyəsinin azaldılmasıdır [5].

Peşə təhsili üzrə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində mühüm addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin **20 dekabr 2016-cı il tarixli "Peşə təhsilinin inkişafı üzrə Dövlət Agentliyinin yaradılması haqqında" fərmanı** olmuşdur [1]. Agentlik peşə təhsili sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin edən və əlaqələndirən, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrinin fəaliyyətini təşkil edən icra hakimiyyəti orqanıdır. Agentlik fəaliyyətinin təşkilində Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin normativ-hüquqi aktlarını və Azərbaycan Respublikası elm və təhsil nazirinin əmr və sərəncamlarını, Agentliyin əsasnaməsini rəhbər tutur, dövlət və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqları, beynəlxalq və qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslərlə əməkdaşlıq edir və birgə layihələr reallaşdırır [10].

Agentliyin fəaliyyət istiqamətləri sadalananlardır:

– ixtisaslı kadrların hazırlanmasını və onların rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi ilə tabeliyindəki peşə təhsili müəssisələrinin fəaliyyətini təşkil edir və əlaqələndirir;

– peşə təhsilini əmək bazarının tələblərinə fasiləsiz uyğunlaşdırmaq məqsədi ilə əlçatan, səriştələrin inkişafı və karyera yönlü davamlı peşə təhsili və təliminin həyata keçirilməsini təşkil edir;

– peşə təhsili müəssisələrinin maddi-texniki bazasının inkişafı istiqamətində tədbirlər görür;

– peşə təhsili müəssisələrində peşə hazırlığının səmərəliliyini artırmaq məqsədi ilə işəgötürənlərlə birgə dövlət-biznes əməkdaşlığı çərçivəsində proqramların hazırlanmasını və həyata keçirilməsini təmin edir;

– qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması ilə bağlı metodikaları hazırlayır və tətbiqini təmin edir;

– peşə təhsili sahəsində beynəlxalq proqram və layihələrin əlaqələndirilməsini təşkil edir [10].

Hazırda ölkənin peşə təhsili sistemində, ümumilikdə 84 peşə təhsili müəssisəsi mövcuddur. 2024–2025-ci tədris ili üzrə tələbə qəbulu 84 peşə təhsili müəssisəsində 136 ixtisas üzrə aparılıb. İlk dəfə olaraq bu il Naxçıvan

Muxtar Respublikasında tələbə qəbulu elektron şəkildə həyata keçirilib və 453 nəfər qəbul olub. Qəbul planında son 4 ildə dövlət sifarişli yerlərin sayı 64 faiz artıb. Bu, 2021–2022-ci tədris ilində 14160, 2022–2023-cü tədris ilində 16 040, 2023–2024-cü tədris ilində 18290, 2024–2025-cü tədris ilində isə 23185 nəfər olub [2].

Əsas çatışmazlıqlar

1. **Marketinq strategiyasının olmaması**

Peşə təhsili müəssisələrinin çoxunda planlı marketinq siyasətinin olmaması, əslində, bu sahənin idarəetmə sistemində strateji düşüncə çatışmazlığından irəli gəlir. Marketinq strategiyası yalnız reklam və məlumatlandırma ilə məhdudlaşmamalı, müəssisənin uzunmüddətli inkişaf planının əsas hissəsini təşkil etməlidir. Hazırda peşə məktəbləri tədris planlarını əsasən mövcud infrastruktur və müəllim bazasına uyğun qurur, amma bazar analizi və tələb-təklif balansı nəzərə alınmır. Məsələn, bəzi regionlarda artıq doyma səviyyəsinə çatmış ixtisaslar – məsələn, aşpazlıq və ya elektrik montyorluğu hələ də əsas tədris istiqaməti kimi saxlanılır, halbuki həmin regionlarda logistika, rəqəmsal texnologiyalar, avtomatlaşdırma və aqrar innovasiya sahələrində ciddi kadr çatışmazlığı mövcuddur. Əmək bazarı ilə təhsil arasında bu uyğunsuzluq, marketinq baxımından, məhsulun (təhsil xidmətinin) bazara uyğun təqdim edilməməsi mənasına gəlir. Əgər hər bir peşə məktəbi öz regionu üzrə bazar araşdırması aparsa, yerli sənaye və xidmət sahələrinin tələblərinə uyğun tədris profilləri formalaşdırılsa, bu həm tələbə cəlbini, həm də məzunların məşğulluq səviyyəsini artırar.

2. **Peşə məktəblərinin ictimai imici zəifdir**

Cəmiyyətin bir hissəsində peşə təhsili hələ də "ikinci dərəcəli" təhsil forması kimi qəbul olunur. UNESCO və Avropa Təhsil Fondunun hesabatlarına əsasən, Azərbaycanda gənclərin yalnız təxminən 8-10%-i peşə təhsili seçir (orta Avropa göstəricisi 35-45%-dir). Bu, gənclərin seçimində imic və məlumat çatışmazlığının açıq göstəricisidir. Peşə təhsilinə olan ictimai münasibət uzun illər formalaşmış stereotiplərdən qidalanır. Valideynlərin və gənclərin böyük hissəsi hələ də ali təhsili yeganə uğur yolu kimi görür, halbuki bir çox inkişaf etmiş ölkələrdə peşə təhsili yüksək statusa malikdir və iqtisadiyyatın əsas dayaq sahəsi hesab olunur.

Azərbaycanda aparılan sosial sorğular göstərir ki, gənclərin bir qismi peşə məktəblərini "az perspektivli" və "ikinci seçim" kimi qəbul edir. Bunun səbəbi yalnız tədris keyfiyyətində deyil, həm də bu müəssisələrin öz fəaliyyətlərini cəmiyyətə düzgün təqdim etməməsindədir.

UNESCO və Avropa Təhsil Fondunun (ETF) hesabatları da təsdiqləyir ki, Azərbaycanda peşə təhsili seçən gənclərin faizi Avropa ortalamasından dəfələrlə aşağıdır – bu da informasiyanın çatışmaması və brend imicinin zəifliyindən qaynaqlanır. Təhsil marketinqinin əsas məqsədlərindən biri, məhz

bu yanlış ictimai qavrayışı dəyişmək, peşə təhsilini "uğurlu karyeranın real yolu" kimi təqdim etmək olmalıdır. Bunun üçün tələbə uğur hekayələri, məzunların işə yerləşməsi barədə statistik məlumatlar və sənaye tərəfdaşlarının rəyləri ictimaiyyətə açıq şəkildə təqdim edilməlidir [4].

**3. Rəqəmsal marketinqin çox məhdud istifadəsi**

Hazırkı dövrdə rəqəmsal kommunikasiya kanalları təhsil müəssisələrinin ən təsirli marketinq alətidir. Lakin Azərbaycanın əksər peşə məktəblərində rəqəmsal marketinq anlayışı sadəcə sosial şəbəkələrdə təsadüfi paylaşımlarla məhdudlaşır. Rəsmi saytların əksəriyyəti texniki cəhətdən zəif, dizayn və struktur baxımından isə köhnədir. Bu saytlar potensial tələbələr üçün cəlbedici deyil və interaktivlik səviyyəsi aşağıdır. Sosial media hesabları olan məktəblər, əsasən, tədbir şəkilləri və təbrik postları paylaşır, lakin məqsədyönlü kontent planı yoxdur. Halbuki beynəlxalq təcrübədə peşə məktəbləri "storytelling" metodundan, yəni məzun hekayələri, tələbə uğurları, istehsalat təcrübələri və real iş mühitindən reportajlar paylaşmaqdan geniş istifadə edirlər. Rəqəmsal marketinqin az tətbiqi həm də təhsil müəssisələrinin brend identifikasiyasını zəiflədir: auditoriya onları bir-birindən fərqləndirə bilmir. Əgər məktəblər müasir kontent strategiyaları (video təqdimatlar, "virtual tour", tələbə bloqları və s.) hazırlasa, bu həm tələbə cəlbini, həm də ictimai marağı ciddi şəkildə artırar.

**4. Təhsil-əmək bazarı əlaqələrinin zəifliyi**

Peşə məktəbləri işəgötürənlərlə əməkdaşlıq etsə də, bu əlaqələr daha çox formal səviyyədə qalır. Məzunların məşğulluq göstəriciləri tam izlənilmir, şirkətlərin real tələblərinə uyğun tədris proqramları sistemli yenilənmir. Marketinq baxımından bu o deməkdir ki, təhsil "məhsulu" (yəni məzun) bazarın gözləntilərinə tam uyğun deyil. Peşə məktəblərinin fəaliyyətinin əsas məqsədi əmək bazarının tələbatına uyğun kadr hazırlamaqdır. Lakin Azərbaycanda bu əlaqə çox vaxt formal xarakter daşıyır. Müəssisələr və şirkətlər tədris prosesinə nadir hallarda birbaşa müdaxilə edir, məzunların bacarıqları isə işəgötürənlərin gözləntilərinə tam cavab vermir. Məzunların məşğulluq səviyyəsi ilə bağlı sistemli monitorinq aparılmadığı üçün, təhsil proqramlarının bazar tələbinə uyğun yenilənməsi çətinləşir. Marketinq baxımından bu vəziyyət "məhsulun (məzunun) bazara uyğun istehsal olunmaması" kimi dəyərləndirilir. Dünya Bankı və OECD-nin təhlillərinə görə, əmək bazarı ilə real əlaqələrin qurulması üçün təhsil müəssisələri şirkətlərlə birgə dual təhsil modeli**,** yəni "işlə oxu" formatına keçməlidir. Əməkdaşlıq müqavilələri təkcə praktik təcrübə üçün deyil, həm də birgə marketinq layihələri – yarmarkalar, sərgilər, təcrübə videoları və peşə festivalı kimi tədbirlər üçün istifadə edilməlidir.

**5. Marketinq bacarığı olan kadrların çatışmazlığı**

Peşə məktəblərinin idarə heyətində marketinq və kommunikasiya sahəsində peşəkarların olmaması ən ciddi sistem problemidir. Marketinq fəaliyyəti çox vaxt inzibati və ya pedaqoji kadrların üzərinə əlavə vəzifə kimi qoyulur. Bu isə nə nəzəri bilik, nə də praktiki bacarıq baxımından yetərlidir. Təhsil müəssisələrində "marketinq meneceri" və ya "ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis" ştatı açılmalı, bu sahə üzrə ixtisaslaşmış kadrlar hazırlanmalıdır. Peşə təhsili sahəsində çalışan menecerlər üçün marketinq bacarıqları üzrə təlim proqramları, vebinarlar və qısamüddətli kurslar təşkil olunmalıdır. Eyni zamanda, bu sahədə dövlət tərəfindən metodoloji dəstək vacibdir: Elm və Təhsil Nazirliyi vahid "təhsil marketinqi təlim platforması" yaradaraq məktəblərə praktiki rəhbərlik göstərə bilər.

**6. Vahid kommunikasiya standartlarının olmaması [3].**

Hazırda hər bir peşə məktəbi öz resursuna və təşəbbüsünə əsaslanaraq kommunikasiya fəaliyyəti qurur. Bəzi məktəblər aktiv şəkildə sosial mediada təbliğat aparır, digərləri isə ümumiyyətlə rəqəmsal platformalarda görünmür. Bu qeyri-bərabərlik nəticəsində peşə təhsilinin bütöv imici formalaşmır – cəmiyyət bir məktəbin uğurunu bütövlükdə sistemin göstəricisi kimi qəbul edə bilmir. Vahid kommunikasiya standartlarının olmaması həm də brend fraqmentasiyasına, yəni təhsil sisteminin vahid mesaj verə bilməməsinə gətirib çıxarır.

Əgər Elm və Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən ümumi "kommunikasiya konsepsiyası" hazırlanarsa, bütün məktəblər üçün loqotip, dizayn, mesaj və vizual tərtibat baxımından eyni istiqamət müəyyən edilə bilər. Bunun nəticəsində "Azərbaycan Peşə Təhsili" brendi cəmiyyətdə tanınar və vahid identifikasiya formalaşar. Beynəlxalq təcrübədə (məsələn, Finlandiya və Almaniya modellərində) bu cür vahid brend strategiyası həm ictimai etimadı, həm də təhsil bazarındakı rəqabət gücünü artırır.

**Mövcud vəziyyətin nəticələri**

- **Tələbə axınının aşağı səviyyəsi:**

Azərbaycan gəncləri arasında peşə təhsilinə marağın zəifliyi sistemin qarşısında duran əsas sosial-iqtisadi problemdir. Bunun kökündə yalnız imic məsələsi deyil, həm də informasiya çatışmazlığı və karyera planlaşdırılması üzrə maarifləndirmənin olmaması dayanır.

Orta məktəb məzunları çox vaxt peşə təhsilinin onlara real gəlir, iş sabitliyi və ixtisaslı bacarıq qazandıra biləcəyindən xəbərsizdirlər. Məktəblərdə peşə yönümlü təlimlərin və ixtisas tanıtımlarının azlığı gəncləri daha çox ali təhsil yönünə istiqamətləndirir. Bu vəziyyət nəticədə əmək bazarında "ali təhsilli, lakin praktiki bacarığı olmayan" gənclərin sayının artmasına, eyni zamanda texniki sahələrdə kadr çatışmazlığına gətirib çıxarır. Təhsil

marketinqi baxımından bu, hədəf auditoriyanın, yəni 14-18 yaş arası gənclərin düzgün seqmentləşdirilməməsi və motivasiya mexanizmlərinin formalaşdırılmaması deməkdir. Əgər peşə məktəbləri orta təhsil pilləsində aktiv təqdimat kampaniyaları aparsa, məktəblərdə "peşə tanıtım günləri" təşkil olunsa və real məzun hekayələri nümayiş etdirilsə, gənclərin bu təhsil formasına marağı ciddi şəkildə arta bilər.

- **Regional bərabərsizlik: [2]**

Paytaxt və regionlar arasında peşə təhsili sahəsində olan fərqlər həm maddi-texniki baza, həm də informasiya əlçatanlığı baxımından açıq şəkildə hiss olunur. Bakı və Gəncə kimi iri şəhərlərdə fəaliyyət göstərən peşə məktəbləri müasir laboratoriyalarla, kompüter sinifləri və istehsalat avadanlıqları ilə təmin olunduğu halda, bir çox rayon mərkəzlərində bu infrastruktur ya köhnəlib, ya da tamamilə çatışmır. Bundan əlavə, regionlarda təhsil müəssisələrinin rəqəmsal platformalarda tanıdılması da zəifdir: veb-saytları olmayan və ya sosial mediada fəaliyyətsiz olan məktəblər çoxluq təşkil edir. Bu, marketinq baxımından regional vizuallığın aşağı olması deməkdir. Gəncə, Mingəçevir və Lənkəran kimi sənaye potensialı olan şəhərlərdə belə müəssisələrin özlərini təqdim etməməsi həm yerli işəgötürənlərlə, həm də tələbə auditoriyası ilə əlaqəni zəiflədir. Regional bərabərsizliyin azaldılması üçün dövlət səviyyəsində regionlara yönəlik diferensial marketinq yanaşması tətbiq edilməlidir: məsələn, kənd təsərrüfatı bölgələrində aqrar texnologiyalar üzrə ixtisaslar, sənaye zonalarında isə texniki və mexatronika ixtisasları prioritetləşdirilməlidir.

- **İşəgötürənlərlə əlaqələrin formal xarakter daşıması:**

Peşə məktəbləri ilə real sektor arasındakı əlaqələrin formal xarakter daşıması təhsil nəticələrinin praktiki dəyərini azaldır. Əmək bazarının dinamik tələbləri nəzərə alınmadan formalaşan tədris proqramları nəticəsində məzunlar müasir iş mühitinə uyğun bacarıqlarla silahlanmırlar. Bu, "təhsil məhsulunun bazarda dəyərsizləşməsi" effekti yaradır.

Məsələn, avtomatika və proqramlaşdırma sahəsində peşəkar işçi axtaran müəssisələr çoxdur, lakin peşə məktəblərinin buraxılış planında bu istiqamətlər üzrə tədris ya yoxdur, ya da köhnəlmiş məzmunla aparılır.

Marketinq nöqteyi-nəzərindən bu, müştəri (əmək bazarı) ilə istehsalçı (təhsil müəssisəsi) arasında geri əlaqənin qırılmasıdır.

Bu problemin həlli üçün hər bir peşə məktəbində "əmək bazarı əlaqələri üzrə koordinator" vəzifəsi yaradılmalı, işəgötürənlərlə partnyor müqavilələri yalnız kağız üzərində deyil, real əməkdaşlıq səviyyəsində icra edilməlidir.

İşəgötürənlərin tədris prosesinə daxil edilməsi, məsələn, dərs modullarının bir hissəsinin sənaye mütəxəssisləri tərəfindən tədris olunması həm təhsilin keyfiyyətini, həm də məzunların məşğulluq göstəricilərini yüksəldə bilər.

- **Cəmiyyətin məlumatlılıq səviyyəsinin aşağı olması**

Azərbaycan ictimaiyyətinin böyük hissəsi peşə məktəblərinin strukturu, proqramları, qəbul qaydaları və karyera imkanları barədə kifayət qədər məlumata malik deyil.

Kütləvi informasiya vasitələrində bu sahəyə həsr olunmuş mütəmadi maarifləndirici verilişlər, sosial kampaniyalar və uğurlu məzun hekayələri demək olar ki, yoxdur.

Nəticədə gənclər və valideynlər bu təhsil formasını tanımadan, avtomatik olaraq "ali məktəb" istiqamətini seçirlər.

Təhsil marketinqi baxımından bu, informasiya boşluğu problemidir. Bu boşluq yalnız fərdi məktəblərdə deyil, bütövlükdə dövlət səviyyəsində aparılacaq.

Məsələn, Təhsil Nazirliyi və Dövlət Agentliyi tərəfindən televiziya və sosial media platformalarında "Peşə təhsili – gələcəyin sənətidir" kimi genişmiqyaslı kampaniyalar aparılarsa, ictimai qavrayış tədricən dəyişə bilər.

Cəmiyyətin məlumatlılığının artırılması həm də sosial ədalət baxımından vacibdir, çünki peşə təhsili aztəminatlı ailələrin övladları üçün real karyera qurmaq imkanı verir.

Bu çatışmazlıqların aradan qaldırılması üçün sadaladığımız istiqamətlər məqsədəuyğun hesab olunur:

**1. Peşə təhsili üçün milli marketinq strategiyasının hazırlanması.** Bu strategiya yalnız kommunikasiya planı deyil, həm də idarəetmə modelinin bir hissəsi olmalıdır.

Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən hazırlanacaq konsepsiyada məqsədli auditoriyalar, prioritet ixtisas sahələri, rəqəmsal kommunikasiya alətləri və ictimaiyyətlə əlaqə mexanizmləri müəyyənləşdirilməlidir. Bu strategiyanın məqsədi peşə təhsilinə vahid brend kimliyi qazandırmaq, təhsil bazarında rəqabət gücünü artırmaq və gənclərdə "praktiki bilik – real iş" assosiasiyasını yaratmaq olmalıdır.

**2. Peşə məktəblərində marketinq şöbələrinin yaradılması.** Hər bir peşə məktəbi öz marketinq strukturuna sahib olmalıdır. Bu şöbələrin funksiyalarına auditoriya təhlili, sosial media idarəçiliyi, veb saytın yenilənməsi, əmək bazarı ilə kommunikasiya və məzun izləmə analitikası daxil edilməlidir. Eyni zamanda, bu şöbələr mütəmadi olaraq Təhsil Nazirliyinə hesabat verməli və ümummilli kommunikasiya strategiyasına uyğun fəaliyyət göstərməlidir. Belə strukturlaşdırma, məktəbin fəaliyyətinin şəffaflığını və ictimai etimadını artırar.

**3. Məzun izləmə sisteminin tətbiqi.** Məzunların harada və hansı şərtlərlə çalışdığını izləmək təkcə statistik məqsəd daşımır, həm də tədris proqramlarının effektivliyini qiymətləndirməyə xidmət edir. Əgər müəyyən ixtisas üzrə məzunların işlə təminolunma səviyyəsi aşağıdırsa, bu, həmin

proqramın yenilənməsini tələb edir. Bu sistem həmçinin peşə təhsilinin “real nəticə verən” bir model kimi təqdim olunmasına imkan yaradacaq. Məzun izləmə platforması rəqəmsal şəkildə qurularaq, işəgötürənlər üçün açıq məlumat bazasına çevrilə bilər.

**4. Rəqəmsal brendləşmə.** Peşə təhsili müəssisələrinin rəqəmsal brendləşməsi təkcə sosial mediada aktiv olmaq deyil, həm də fərqli, peşəkar vizual və məzmun konsepsiyasına sahib olmaq deməkdir. Müəssisələrin saytlarında tələbə uğurları, video reportajlar, virtual ekskursiyalar, sənaye tərəfdaşlarının fikirləri və tədris prosesindən canlı görüntülər paylaşılmalıdır. Bununla peşə təhsili gənclər üçün “praktiki və dinamik təhsil modeli” kimi görünəcək. Eyni zamanda, bu brendləşmə gənclərin valideynləri, şirkətlər və dövlət qurumları arasında da müsbət rəy formalaşdıracaq.

**5. Dövlət-özəl sektor tərəfdaşlığı.** Peşə təhsilinin uğurlu inkişafı üçün biznes strukturlarının fəal iştirakı zəruridir. Bu tərəfdaşlıq yalnız təcrübə proqramları ilə məhdudlaşmamalı, həm də birgə **marketinq təşəbbüsləri**ni əhatə etməlidir. Məsələn, “Bir şirkət – bir ixtisas” modeli çərçivəsində hər bir böyük sənaye və xidmət müəssisəsi müəyyən peşə sahəsini öz brendi altında dəstəkləyə bilər. Belə əməkdaşlıqlar sayəsində həm məktəblərin maliyyə dayanıqlığı güclənər, həm də peşə ixtisaslarının ictimai nüfuzu artar. Dünya təcrübəsində (xüsusilə Almaniyada “dual education” modelində) bu yanaşma həm təhsil keyfiyyətini, həm də gənclərin məşğulluğunu əhəmiyyətli dərəcədə yüksəldir.

Azərbaycan peşə təhsilində marketinq fəaliyyətinin əsas problemi onun **sistemli şəkildə təşkil edilməməsi** və **strateji yanaşmanın çatışmamasıdır.** Bu, həm gənclərin marağının azalmasına, həm də əmək bazarında real ixtisaslı kadr çatışmazlığına gətirib çıxarır. Marketinqin təhsilə inteqrasiyası yalnız reklam deyil, həm də idarəetmə və strateji düşüncə məsələsidir. Əgər bu istiqamətdə dövlət və təhsil müəssisələri koordinasiyalı addımlar atsalar, peşə təhsili Azərbaycanın iqtisadi inkişafına real dayaq rolunu oynaya bilər.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://e-qanun.az/framework/32601*
2. *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Təhsil statistikası bülleteni – 2024–2025. https://edu.gov.az/az/hesabatlar/22236-1*
3. *Strengthening Vocational Education in Eastern Partnership Countries. Paris: OECD Publishing, 2023, p. 37–59.*

4. *Technical and Vocational Education and Training for the Twenty-First Century: Transforming and Expanding TVET for Sustainable Development. Paris: UNESCO Publishing, 2021, p. 19–27.*
5. *https://edu.gov.az/az/vocational-education*
6. *https://www.etf.europa.eu/en/what-we-do/transforming-vocational-education-and-training-etf-monitoring-initiatives-and*
7. *https://www.oecd.org/en/topics/vocational-education-and-training-vet.html*
8. *https://www.unesco.org/gem-report/en/publication/inclusion-and-education*
9. *https://e-qanun.az/framework/39275*
10. *https://vet.edu.gov.az/*

**Şamxallı G.A.**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
***gulushamkhalli@gmail.com***

# BAKI COP29: QLOBAL EKOLOJİ SİYASƏTDƏ MƏDƏNİYYƏTİN ROLU VƏ TƏQDİMATI

***Xülasə***

*Məqalədə 2024-cü ildə Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyası (COP29) tədbirinin ekoloji və mədəni əhəmiyyəti araşdırılır. Tədbir çərçivəsində keçirilən mədəni aksiyalar, sərgilər, festivallar və "Azərbaycan" pavilyonu vasitəsilə milli irs, sənətkarlıq, xalçaçılıq, musiqi və mətbəx nümunələri dünya ictimaiyyətinə təqdim olunmuşdur. Məqalədə həmçinin inklüzivlik, gənclərin iştirakı və "Tullantıdan sənətə" kimi ekoloji yönümlü layihələrin maarifləndirici təsiri vurğulanır. Ümumilikdə, tədqiqat COP29-un Azərbaycan üçün ekoloji diplomatiya, mədəni inteqrasiya və davamlı inkişaf baxımından strateji əhəmiyyətini ortaya qoyur.*

# БАКУ COP29: РОЛЬ И ПРЕДСТАВЛЕНИЕ КУЛЬТУРЫ В ГЛОБАЛЬНОЙ ЭКОЛОГИЧЕСКОЙ ПОЛИТИКЕ

***Резюме***

*В статье рассматривается экологическое и культурное значение 29-й сессии Конференции сторон Рамочной конвенции ООН об изменении климата (COP29), прошедшей в 2024 году в Баку. В рамках мероприятия были организованы культурные акции, выставки, фестивали и павильон «Азербайджан», где мировому сообществу были представлены образцы национального наследия, ремесел, ковроткачества, музыки и кухни. В статье подчеркивается значение инклюзивности, участия молодежи, а также просветительская роль экологических инициатив, таких как проект «От отходов к искусству». В целом исследование выявляет стратегическое значение COP29 для Азербайджана с точки зрения экологической дипломатии, культурной интеграции и устойчивого развития.*

# BAKU COP29: THE ROLE AND PRESENTATION OF CULTURE IN GLOBAL ENVIRONMENTAL POLICY

***Summary***

*The article examines the ecological and cultural significance of the 29th session of the United Nations Framework Convention on Climate Change (COP29), held in Baku in 2024. Within the framework of the event, various cultural initiatives, exhibitions, and festivals were organized, including the "Azerbaijan" pavilion, which showcased the nation's rich heritage, traditional crafts, carpet weaving, music, and cuisine to the global audience. The article also emphasizes inclusivity, youth*

*participation, and the educational impact of eco-oriented projects such as "From Waste to Art." Overall, the research reveals the strategic importance of COP29 for Azerbaijan in terms of environmental diplomacy, cultural integration, and sustainable development.*

***Açar sözlər:*** *COP29, bərpa olunan mənbələr, ekoloji mədəniyyət, davamlı inkişaf, mədəni irs*
***Ключевые слова:*** *COP29, возобновляемые источники, экологическая культура, устойчивое развитие, культурное наследие*
***Key words:*** *COP29, renewable resources, ecological culture, sustainable development, cultural heritage*

2024-cü ilin noyabrında baş tutan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) tədbiri, ölkəmizin mədəni inkişafına mühüm töhfə verən önəmli hadisələrdən biri kimi qiymətləndirilir. Azərbaycanın paytaxtında keçirilən bu nüfuzlu tədbirdə iqlim dəyişikliyinin doğurduğu fəlakətlərin qarşısının alınması üçün bir çox ölkədən nümayəndələr, həmçinin ölkə liderləri – dövlət başçıları, vitse-prezidentlər və baş nazirlər bir araya gəldilər. Ölkəmizin ev sahibliyi etdiyi COP29 yalnız ekoloji məsələlərin müzakirəsi ilə məhdudlaşmayaraq, eyni zamanda mədəniyyət sahəsi ilə də bağlı məsələlərin müzakirəsində vacib rol oynadı. Başqa sözlə desək, bu tədbir Bakını qlobal diqqət mərkəzinə çevirməklə yanaşı, milli mədəni irsimizi beynəlxalq səviyyədə tanıtmaq imkanı qazandı və milli mədəniyyətimizin inkişafında atılmış mühüm addımlardan biri oldu.

"Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır" [3, s.54].

XXI əsrin üzləşdiyi ekoloji fəlakətlərin ciddiliyini nəzərə alan ölkəmiz, konfransın yüksək səviyyədə təşkilinə və problemlərin həlli yollarının araşdırılmasına əlverişli şərait yaratmışdır. Azərbaycanın COP29 tədbirinə ev sahibliyi etməsinə müxtəlif ölkələrin dəstək verməsi, onun sübutudur ki, Azərbaycan beynəlxalq münasibətlər sistemində möhkəm mövqeyə malikdir və son dövrlərdə mühüm nailiyyətlər qazanmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan ilk Türk dövləti və ilk Qafqaz ölkəsidir ki, COP-29 tədbirinə ev sahibliyi etmişdir. Bu onun göstəricisidir ki, Azərbaycan beynəlxalq iqlim siyasətində irəliləyişə və davamlı inkişafa meyillidir.

Azərbaycan COP29 tədbirində inklüziv şəxslərin iştirakını təmin etməklə bu sahədə yeni bir səhifə açaraq konfrans tarixində mühüm bir yeniliyə imza atmışdır. İştirakçıların rahatlığı üçün tədbir xüsusi avadanlıqlarla

təşkil edilmişdir. Fiziki məhdudiyyətli şəxslərin rahat gediş-gəlişi üçün xüsusi nəqliyyat vasitələri ayrılmış, görmə və eşitmə imkanları məhdud olan şəxslər üçün isə Brayl əlifbası materialları və tərcümə xidmətləri təmin edilmişdir. Onların COP29 tədbirində daha rahat iştirakını təmin etmək üçün taktil xəritələr hazırlanıb. “Mavi”, “yaşıl” zonaların girişində belə xəritələrin olması COP tarixində ilk hesab olunur. Təşkil olunmuş layihə daxilində “Art Pavillion” keçirilmiş və inklüziv şəxslərin əl işləri sərgi formasında nümayiş etdirilmişdir. Bununla inklüziv şəxslərin yaradıcılıq potensialı sərgidə iştirak edən qonaqlara təqdim olunub. Nümayiş olunan əsərlər içərisində ekoloji təsvirlərə də yer ayrılmışdır. Eyni zamanda bu kimi layihənin təşkil edilməsinin əsas məqsədi inklüziv şəxslərində digər insanlarla bərabər hüquqa malik olması və bu kimi tədbirlərdə aktiv iştirakını təmin etməkdir.

Azərbaycanın alternativ və bərpa olunan enerji mənbələrinin mövcud olduğu və eyni zamanda enerji ixracatçısı olan bir ölkədir. Bunlara əsasən biz bu tədbiri bir növ köhnə enerjiyə vida, yaşıl enerjiyə keçid adlandıra bilərik. Qeyd edək ki, Azərbaycanın COP29 çərçivəsində qarşısında duran tək məsələ ekoloji problemlərlə bitmir, eyni zamanda burada ekoloji dəyişikliklərin mədəniyyətə təsiri, mədəniyyətin davamlı inkişafı, mədəni irsin qorunması istiqamətində xüsusi mövzulara toxunulmuşdur. Əvvəlki illərdə keçirilmiş COP tədbirlərinə nəzər salsaq Azərbaycanın COP29-un mədəniyyətin bir hissəsi olaraq yanaşmasını xüsusuilə COP29 tədbiri layihəsi çərçivəsi üçün yenilikçi bir yanaşma olduğu hesab oluna bilər.

COP29 tədbiri zamanı diqqət çəkən məqamlardan biri də Azərbaycan pavilyonunun təşkil olunması idi. Pavilyonda su ehtiyatlarının səmərəli istifadə olunması, bərpa olunan enerji, kənd təsərrüfatının idarə olunması kimi mövzuların ön plana gətirilməsi kimi, o cümlədən Azərbaycanın zəngin mədəniyyətinin, mədəni irsinin beynəlxalq aləmə tanıdılması üçün mühüm fürsət yaranmışdır. Pavilyon gənclər üçün həm sosial həm də mədəni baxımdan təcrübə qazanmaq, özünü inkişaf imkanı yaratmışdır. Belə ki, “Gənclər evi” pavilyonunda gənc fəallar və iştirakçılar birgə toplaşmışdır. Pavilyon daxilində müxtəlif seminarlar, müzakirələr, layihələr, görüşlər keçirilmişdir.

“İqlim dəyişikliyinə və onun yaratdığı fəsadların aradan qaldırılmasına həsr olunan COP29 milli, mədəni və tarixi zənginliyin ən mükəmməl təbliği ilə əlamətdardır. Bu məqsədlə “yaşıl zona” da yaradılan “Azərbaycan” pavilyonu xüsusi diqqət çəkir. Pavilyonda milli xalça və digər toxuculuq nümunələri, təsvir və dekorativ sənət örnəkləri, milli geyimlər və sənətkarlıq məmulatları nümayiş etdirilmişdir” [4, s. 9].

“Yaşıl zona”nı ziyarət edən hər bir iştirakçı Azərbaycanın qiymətli mədəni irsi, sənətkarlıq sahələri və mətbəxi ilə tanış olmaq imkanını qazanmış və xüsusi maraq göstərmişdir. Azərbaycan sənətkarlarının təqdim etdiyi bir-birindən gözəl “misgərlik”, “xalçaçılıq”, “şəbəkə” və s. sənət nümunələri həm

yerli həm də əcnəbi qonaqları özünəməxsusluğu ilə valehedici təsir bağışlamışdır. Pavilyonlar milli elementlərdən ibarət olan xalçalarımızla bəzədilmişdir. Burada qədim mədəni irsimizin nümayişi ilə bərabər ustad dərsləri də qonaqlara təqdim olunurdu. Azərbaycanın mədəni irsi dedikdə Azərbaycanın sənətkarlıq sahələri xüsusi ilə, xalçaçılıq sənətini unutmaq olmaz. Mədəniyyətimizin tanınmasında mühüm əhəmiyyət kəsb edən xalçılıq sənəti qonaqlara nümayiş etdirilirdi. Öz gözəlliyi və nadir olması ilə seçilən taxta və şüşələrin yapışqan və mismar olmadan birləşdirilən və müxtəlif ornamentlər ilə bəzədilmiş şəbəkə sənəti iştirakçılarla tanış edilmişdir. Bununla yanaşı Azərbaycanın milli adət-ənənələrindən bəhs edən təqdimatlar göstərilmiş, milli rəqslərimiz, musiqilərimiz, mətbəximiz təqdim edilmişdir.

COP29 tədbiri yalnız Bakıda deyil, eyni zamanda Azərbaycanın bir sıra bölgələrində də, müxtəlif festivallarla, təqdimatlarla qeyd olunmuşdur. Bunlardan biri də Lənkəranda keçirilmiş “Yaşıl dünya naminə ekofestival”dır. Festivalda müxtəlif sahələrin pavilyonlarını görmək mümkün idi. Eyni zamanda hər bir pavilyon sahibi tərəfindən öz məhsulları yerli və əcnəbi qonaqlara təqdim olunub. Tədbir çərçivəsində iştirak edənlər ekoloji cəhətdən təmiz və təbii məhsullarla, yerli sənətkarların əl işləri ilə yaxından tanış olmuş, həmçinin mədəni proqramlar – musiqi və rəqs səhnələri izlənmişdir. Bu rəqs qrupları arasında “Nənələr” və “Babalar” qrupları yer almışdır. Digər festival və layihələrdə olduğu kimi burada da milli mətbəximizin təqdimatına yer ayrılmışdır. Festivalın keçirilməsində mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də kənd təsərrüfatına xüsusi qayğı və diqqət ilə yanaşılması olmuşdur.

Tədbir zamanı mədəniyyətlə ekologiya arasında mühüm bağ yaradan elementlərdən biri kimi muzeylərin rolu ön plana çıxmışdır. Bu baxımdan “Tullantıdan sənətə” adlı layihə xüsusi diqqət çəkmişdir. Tullantı materiallarından hazırlanmış eksponatların nümayiş olunduğu bu muzeyin əsas məqsədi insanlarda ekoloji düşüncə formalaşdırmaq və təkrar emalın əhəmiyyətinin vacibliyini ziyarətçilərə izah etmək idi. Bu təşəbbüs ətraf mühitin qorunması, qayğısına qalınması ilə bağlı maarifləndirmə işində mühüm rol oynamışdır. Qeyd etmək olar ki, ekoloji mühafizənin incəsənət vasitəsi ilə təqdim olunduğu “Tullantıdan sənətə” muzeyi yaradıcılığın və davamlı inkişafın vəhdəti ilə tullantıların azaldılmasına, ekoloji şüur formalaşdırmağa imkan yaradır.

“COP29 tədbiri zamanı Azərbaycana gələn qonaqlar “Qala” Dövlət Tarix-Etnoqrafik qoruğuna baş çəkmişlər. “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğundan bildirilib ki, mediaturlar Qala qoruğunun ərazisində yaradılmış “Tullantıdan sənətə” muzeyini ziyarətə başlayıb. Eyni zamanda qonaqlar COP29 tədbiri çərçivəsində “Qurama Art. Zamanın vəhdəti” sərgisi ilə də tanış olublar” [1, s.16].

Sərginin əsas ideyası qurama sənətinə yeni ekoloji istiqamətdə yanaşmaq idi. Quramaların hazırlanması zamanı parça qalıqlarından istifadə olunması onu sübut edir ki, kiçik tullantılar bəzən gözəl sənət nümunəsinə çevrilə bilər. Buradan belə bir nəticəyə gəlmək olar ki, mədəniyyət və təbiət bir-birindən ayrılmaz şəkildə əlaqəlidir və biri digərinin davamı kimi mövcuddur.

Azərbaycan Respublikasının ekoloji siyasətinin qarşısında duran əsas məqsədlərdən biri də işğaldan azad edilmiş torpaqlarımızda ekoloji mühitin yenidən yaradılmasıdır. Torpaqlarımızın uzun müddət işğal altında qalması, xüsusilə də Qarabağ və Şərqi Zəngəzur ərazilərinin ermənilər tərəfindən ekoloji və mədəni baxımdan ciddi şəkildə ziyan görməsi nəticəsində fəsadlar yaratmışdır. İşğal nəticəsində meşə örtüyü məhv edilmiş, su ehtiyatları zərər görmüş, mədəni irsimiz abidələrimiz məhv edilmişdir. Azərbaycan Respublikası bu məsələlərin həll edilməsi üçün ağıllı şəhər, yaşıl enerji strategiyası kimi layihələri dəstəkləyir. Bu istiqamətdəki təşəbbüslərin reallaşdırılması üçün Azərbaycan mütəmadi olaraq COP29 kimi beynəlxalq tədbirlərdə fəal şəkildə iştirak edir. Məlumdur ki, müharibə başa çatdıqdan sonra ölkələr uzun müddət ərzində həm mənəvi, həm maddi zərər görür. Azərbaycanda bu ölkələrin sırasına daxildir. Belə ki, ermənilərin torpaqlarımıza mina yerləşdirməsi nəticəsində torpaqlarımız yararsız hala düşmüş və təhlükə mənbəyinə çevrilmişdir. Bütün bunlar göstərir ki, torpaqlarımızın işğal altında olduğu müddətdə ərazilərimiz ekoloji baxımdan ciddi fəlakətlərlə qarşılaşmışdır. Həmçinin Qarabağ və Şərqi Zəngəzur əraziləri Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan edilmiş və burada bərpa olunan enerji layihələri tətbiq edilmişdir.

"Beynəlxalq təşkilatların rəyinə görə, mina və partlamamış döyüş sursatları ilə çirklənmə eyni zamanda ən ciddi ekoloji problemlər sırasındadır. Ekoloji sistemə ziyan vurulur, vəhşi heyvanların yaşayış məskənləri məhv olunur, torpaq və içməli su mənbələri çirkləndirilir, torpaqlardan davamlı istifadə ilə bağlı maneələrin meydana gəlməsi, öz növbəsində, ərzaq təhlükəsizliyini təhdid edir" [2, s. 92].

Uzun müddət işğal altında qalmış ərazilərimizdə təbii ehtiyatlar yox edilmiş, ekoloji cəhətdən ziyan görsə də, hal hazırda bu ərazilər də geniş miqyaslı bərpa işləri aparılır. Dövlətimizin əsas məqsədi bu ərazilərdə həyatı yenidən canlandırmaq, ekoloji balansı bərpa etməkdir. Ağacəkmə layihələrinin keçirilməsi bunun bariz nümunəsidir. Azərbaycanın COP29-a ev sahibliyi etməsi və tədbirin Bakıda keçirilməsi, ölkəmizin qlobal ekoloji siyasətdə fəal mövqe tutduğunun və bu sahədə öhdəliklərə sadiq qaldığının bariz nümunəsidir.

Qeyd edək ki, 2024-cü il Prezident İlham Əliyev tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Azərbaycanın belə bir təşəbbüs

göstərməsi onun cəmiyyətin ekoloji savadlılığının artırılmasında kömək olmuşdur. Eyni zamanda bu tədbir yaşıl iqtisadiyyata keçid yolunda atılan mühüm addımlardan biri kimi dəyərləndirilmişdir.

Bu tədbir sayəsində Azərbaycan beynəlxalq aləmdə öz mövqeyini nümayiş etdirərək bir çox ölkələrə nümunə oldu. Azərbaycanın həyata keçirdiyi uğurlu siyasətə əsasən ölkəmizin dünya ictimaiyyəti qarşısında özünü tanıtmasında mühüm rol oynamışdır. COP29 tədbiri Azərbaycana mühüm nailiyyətlər qazandırdı. Bu mötəbər tədbirin keçirilməsi nəticəsində Azərbaycan bir sıra strateji sahələrdə mühüm irəliləyiş əldə etdi. Milli mədəniyyətimizin və irsmizin tanıdılması üçün geniş imkanlar yaradıldı ki, bu da ölkəmizin beynəlxalq nüfuzunun artmasına zəmin yaratdı. Belə ki, Azərbaycana müxtəlif ölkələrdən qonaqlar gələrək Azərbaycanın milli mədəniyyəti ilə tanış oldular. Bununla yanaşı, COP29 Azərbaycanın xarici əlaqələrinin genişlənməsinə beynəlxalq əməkdaşlıq platformalarında fəal iştirakına və diplomatik münasibətlərinin daha da inkişafına təkan verdi. Tədbir zamanı Azərbaycanın malik olduğu imkanlar diqqətə çatdırılmışdır. Azərbaycanın bir çox sahələrində görülən inkişaf yönümlü tədbirlər onun dövlət büdcəsi üçün daha yaxşı təsir edəcəyini göstərmişdir. Azərbaycanın “yaşıl enerji” təşəbbüslərinə verdiyi güclü dəstək və bu sahədə fəal iştirakı, ölkəmizin gələcəkdə “Bərpa olunan enerjinin strateji körpüsü” kimi tanınmasına tam əsas yaradır. Bunlara əsasən qeyd edə bilərik ki, Azərbaycan gələcəkdə bərpa olunan enerjinin əsas məkanlarından biri hesab olunacaq. Xüsusilə işğal olunmuş ərazilərimizə bu layihənin tətbiqi onu göstərir ki, Azərbaycan ekoloji problemlərlə cəsarətlə mübarizə aparır. Həmçinin bu Azərbaycanın “yaşıl enerjiyə” keçidinin göstəricisi hesab olunur. Azərbaycan bu layihəni işğal olunmuş torpaqlarımızda reallaşdırmaqla COP29 tədbiri daxilində beynəlxalq ictimaiyyətə çatdırmışdır. Azərbaycanın COP29 tədbirinə ev sahibliyi etməsində Prezident İlham Əliyevin güclü siyasəti əsas yer tutur. Onun başçılığı altında baş tutan COP29 tədbiri zamanı Azərbaycan dünyanın mərkəzinə çevrilmişdir.

Nəticə olaraq deyə bilərik ki, Azərbaycan öz mədəniyyətini, siyasətini, tarixini dünya səviyyəsində tanıtmaq imkanı qazanmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın uğurunu qəbul etməyənlər tərəfindən müdaxilələr olunsa da, İlham Əliyevin güclü siyasəti və təşkilatçılığı ilə Azərbaycan nümunəvi COP29 tədbirinin ev sahibi kimi vəzifəsini layiqincə yerinə yetirmişdir. Azərbaycanın uğuru yalnız ölkə daxilində deyil, ölkə xaricində də müsbət qarşılanmışdır. COP29 tədbirində iştirak edən hər bir əcnəbi qonaq Azərbaycanın yüksək təşkilatçılığına və qonaqpərvərliyinə görə dərin minnətdarlığını bildirmişdir.

***Ədəbiyyat***

1. *“Azərbaycan” qəzeti. 2024. 16 s.*
2. *COP29, Yaşıl ümid rəngidir. İRS Publishing House – 2024. 143 s.*
3. *Qlobal ekoloji problemlər: səbəblər, həlli yolları, “Yaşıl” enerji. Bakı-Elm-2024. 604 s.*
4. *Ü. Xaspoladova. Milli irsin təbliği məkanı. Azərbaycan qəzeti – 2024. 20 s.*

**Tapdıqlı G.D.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulnartapdigli@icloud.com***

# AZƏRBAYCAN ALİ TƏHSİLİNDƏ KEYFİYYƏT TƏMİNATI SİSTEMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Xülasə***

*Məqalədə Azərbaycan ali təhsil sistemində keyfiyyət təminatının mövcud vəziyyəti, institusional və normativ əsasları təhlil edilir, eləcə də keyfiyyət təminatı sistemlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilir. Tədqiqatda ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı mexanizmlərinin formalaşdırılması, idarəetmədə səmərəliliyin artırılması, akkreditasiya və xarici qiymətləndirmə proseslərinin inkişafyönümlü vasitə kimi tətbiqi məsələlərinə xüsusi diqqət yetirilir. Eyni zamanda Avropa ali təhsil məkanının keyfiyyət təminatı üzrə standart və tövsiyələrinin Azərbaycan ali təhsil sisteminə inteqrasiyası imkanları araşdırılır. Məqalədə insan resurslarının inkişafı, maraqlı tərəflərin – tələbələrin, işəgötürənlərin və cəmiyyətin – keyfiyyət təminatı prosesinə cəlb olunmasının əhəmiyyəti əsaslandırılır. Aparılan təhlillər göstərir ki, keyfiyyət təminatının səmərəli təşkili yalnız normativ tələblərin icrası ilə məhdudlaşmamalı, ali təhsil müəssisələrində davamlı keyfiyyət mədəniyyətinin formalaşdırılmasına yönəlməlidir.*

# ПУТИ СОВЕРШЕНСТВОВАНИЯ СИСТЕМ ОБЕСПЕЧЕНИЯ КАЧЕСТВА В ВЫСШЕМ ОБРАЗОВАНИИ АЗЕРБАЙДЖАНА

***Резюме***

*В статье анализируется нынешное состояние системы обеспечения качества в системе высшего образования Азербайджана, ее институциональные и нормативные основы,а также определяются направления совершенствования систем обеспечения качества. В исследовании особое внимание уделяется вопросам формирования внутренних механизмов обеспечения качества в высших учебных заведениях, повышения эффективности управления и применения процессов аккредитации и внешней оценки в качестве способов, ориентированных на развитие. Одновременно с этим изучаются возможности интеграции стандартов и рекомендаций европейского пространства высшего образования в систему высшего образования Азербайджана. В статье обосновывается важность развития человеческих ресурсов и вовлечения заинтересованных сторон – студентов, работодателей и общества – в процесс обеспечения качества. Проведенный анализ показывает, что эффективная организация обеспечения качества не должна ограничиваться лишь выполнением нормативных требований, а должна быть направлена на формирование устойчивой культуры качества в высших учебных заведениях.*

# DIRECTIONS FOR IMPROVING QUALITY ASSURANCE SYSTEMS IN HIGHER EDUCATION OF AZERBAIJAN

***Summary***

*The article analyzes the current state of quality assurance in the Azerbaijani higher education system, its institutional and normative foundations, and identifies directions for improving quality assurance systems. The study pays special attention to the issues of forming internal quality assurance mechanisms in higher education institutions, increasing management efficiency, and applying accreditation and external evaluation processes as development-oriented tools. At the same time, the possibilities of integrating the European Higher Education Area standards and recommendations for quality assurance into the Azerbaijani higher education system are explored. The article substantiates the importance of human resource development and the involvement of stakeholders – students, employers and society – in the quality assurance process. The conducted analyses show that the effective organization of quality assurance should not be limited to the implementation of regulatory requirements, but should be aimed at the formation of a sustainable quality culture in higher education institutions.*

***Açar sözlər:*** *Azərbaycan ali təhsili, keyfiyyət təminatı, akkreditasiya, idarəetmə, təhsil islahatları*

***Ключевые слова:*** *Азербайджанское высшее образование, обеспечение качества, аккредитация, управление, образовательные реформы*

***Key words:*** *Azerbaijani higher education, quality assurance, accreditation, management, educational reforms*

## Azərbaycanda ali təhsildə keyfiyyət təminatının mövcud vəziyyəti

Azərbaycanda ali təhsildə keyfiyyət təminatı əsasən normativ-hüquqi sənədlər, dövlət standartları, akkreditasiya mexanizmləri və daxili qiymətləndirmə prosesləri vasitəsilə həyata keçirilir. Təhsil haqqında qanunvericilik, ali təhsil standartları, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin fəaliyyəti və ali təhsil müəssisələrinin öz daxili keyfiyyət təminatı bölmələri bu sahənin institusional əsasını təşkil edir. Mövcud vəziyyətin təhlili göstərir ki, bir sıra ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemləri artıq müəyyən səviyyədə fəaliyyət göstərir, lakin onların tətbiqi və təsirliyi hələ də fərqli səviyyədədir. Bəzi universitetlərdə özünüqiymətləndirmə mexanizmləri və tələbə rəyini toplama prosedurları sistemli şəkildə həyata keçirilir, lakin digər müəssisələrdə bu proseslər formal xarakter daşıyır. Eyni zamanda dövlət akkreditasiya prosesləri ali təhsil müəssisələrinin fəaliyyətinin şəffaflığını təmin edir və əsas standartlara cavab vermələrini yoxlayır, lakin inkişaf yönümlü yanaşmaların tətbiqi hələ tam formalaşmayıb. Bununla yanaşı, Azərbaycanda ali təhsildə keyfiyyət təminatı sahəsində beynəlxalq standartlarla uyğunlaşma səyləri artır. Avropa Ali Təhsil Məkanı çərçivəsində ESG standartlarının tətbiqi ali təhsilin beynəlxalq rəqabətqabiliyyətliliyini

yüksəltmək və institusional dayanıqlığı təmin etmək məqsədi daşıyır (TKTA, 2021).

Lakin bu standartların tam tətbiqi üçün həm dövlət, həm də ali təhsil müəssisələri səviyyəsində daha strukturlaşmış planlama və davamlı monitorinq mexanizmlərinə ehtiyac vardır. Mövcud vəziyyətin digər aspekti də insan resursları və maraqlı tərəflərin proseslərə cəlb olunmasıdır. Akademik heyətin peşəkar inkişafı, inzibati personalın təlimləri, tələbə və işəgötürən rəyinin sistemli toplanması, keyfiyyət təminatı mədəniyyətinin gücləndirilməsi üçün əsas şərtlər kimi çıxış edir. Bu baxımdan, Azərbaycan ali təhsilində keyfiyyət təminatının mövcud vəziyyəti həm əldə edilmiş nailiyyətləri, həm də təkmilləşdirilməsi vacib olan sahələri əhatə edir [1, s.11].

**Ali təhsildə keyfiyyət təminatı: inkişaf perspektivləri**

Keyfiyyət təminatı ali təhsil müəssisəsində tədris, tədqiqat və inzibati fəaliyyətlərin müəyyən edilmiş standartlara uyğunluğunu təmin edən sistemli prosesdir. Bu anlayış davamlı təkmilləşməni, hesabatlılığı və şəffaflığı əhatə edir. Müasir yanaşmalara görə keyfiyyət təminatı institusional strategiyanın ayrılmaz hissəsidir və bütün struktur bölmələrin fəaliyyətini əhatə etməlidir. Keyfiyyət təminatı sistemlərinin səmərəliliyinin artırılması ali təhsilin davamlı inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan mövcud normativ-hüquqi bazanın beynəlxalq standartlara uyğunlaşdırılması xüsusi önəm kəsb edir. Avropa Ali Təhsil Məkanının keyfiyyət təminatı üzrə standart və tövsiyələrinin (ESG) milli kontekstdə tətbiqi ali təhsildə şəffaflığın və etibarlılığın gücləndirilməsinə, eləcə də təhsil müəssisələrinə olan ictimai etimadın artmasına şərait yarada bilər. Ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin institusional səviyyədə möhkəmləndirilməsi keyfiyyətin davamlı yüksəldilməsində əsas amillərdən biridir. Özünüqiymətləndirmə mexanizmlərinin tətbiqi, tədris proqramlarının mütəmadi monitorinqi və tələbə rəylərinin sistemli şəkildə nəzərə alınması tədris prosesinin təkmilləşdirilməsinə və təhsil nəticələrinin yaxşılaşdırılmasına xidmət edir. Bu yanaşma keyfiyyət mədəniyyətinin formalaşmasına və institusional məsuliyyətin güclənməsinə imkan yaradır. Keyfiyyət təminatı sistemlərinin inkişafı eyni zamanda ali təhsildə idarəetmə modellərinin modernləşdirilməsini zəruri edir. Strateji planlaşdırma, nəticəyönümlü idarəetmə və məlumatlara əsaslanan qərar qəbuletmə mexanizmlərinin tətbiqi idarəetmədə səmərəliliyin artırılmasında mühüm rol oynayır. Rəhbərliyin keyfiyyətə yönəlmiş idarəetmə yanaşması ali təhsil müəssisələrinin institusional inkişafını sürətləndirir və resurslardan daha səmərəli istifadəyə şərait yaradır. Ali təhsildə keyfiyyət təminatı əsasən daxili və xarici mexanizmlər vasitəsilə həyata keçirilir. Daxili keyfiyyət təminatı ali təhsil müəssisələrinin öz daxilində tətbiq etdiyi özünüqiymətləndirmə, proqramların müntəzəm yenilənməsi, tələbə və məzun rəylərinin toplanması, akademik

heyətin peşəkar inkişafı kimi prosesləri əhatə edir. Xarici keyfiyyət təminatı isə akkreditasiya, audit, qiymətləndirmə və monitorinq mexanizmləri vasitəsilə dövlət qurumları və ya müstəqil agentliklər tərəfindən həyata keçirilir. Bu iki mexanizmin qarşılıqlı əlaqədə fəaliyyəti ali təhsildə keyfiyyətin obyektiv və davamlı şəkildə təmin olunmasına şərait yaradır. Keyfiyyət təminatının mühüm məqsədlərindən biri ali təhsilin nəticəyönümlü olmasını təmin etməkdir. Bu, məzunların bilik, bacarıq və kompetensiyalarının əmək bazarının tələblərinə uyğunlaşdırılmasını, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsini və universitetlərin cəmiyyət qarşısında sosial məsuliyyətinin artırılmasını nəzərdə tutur. Eyni zamanda keyfiyyət təminatı ali təhsil müəssisələrində şəffaflığın, hesabatlılığın və etimadın formalaşmasına xidmət edir. Akkreditasiya və xarici qiymətləndirmə mexanizmləri keyfiyyət təminatının mühüm tərkib hissəsi olmaqla yanaşı, yalnız nəzarət vasitəsi kimi deyil, inkişafyönümlü vasitə kimi nəzərdən keçirilməlidir. Xarici qiymətləndirmə nəticələrinin təhlili və təqdim olunan tövsiyələrin real fəaliyyət planlarına çevrilməsi ali təhsil müəssisələrinin keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına və strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə imkan verir. Keyfiyyət təminatının effektivliyində insan resurslarının rolu da xüsusi vurğulanmalıdır. Akademik və inzibati heyətin peşəkar inkişafı bu sistemin əsas şərtlərindən biridir. Müasir tədris metodları, qiymətləndirmə yanaşmaları və keyfiyyət təminatı üzrə təlimlərin təşkili ali təhsildə keyfiyyət mədəniyyətinin formalaşmasına və innovativ yanaşmaların tətbiqinə töhfə verir. Bununla yanaşı, beynəlxalq əməkdaşlığın genişləndirilməsi ali təhsil sisteminin qlobal təcrübəyə inteqrasiyasını gücləndirir. Beynəlxalq akkreditasiya agentlikləri, xarici ali təhsil müəssisələri və keyfiyyət təminatı şəbəkələri ilə əməkdaşlıq yeni yanaşmaların və innovativ modellərin tətbiqi üçün əlverişli imkanlar yaradır və milli ali təhsilin beynəlxalq rəqabət qabiliyyətini artırır.

**Ali təhsildə strateji idarəetmə və planlaşdırma**

Ali təhsildə strateji planlaşdırmanın əsas mərhələlərinə mövcud vəziyyətin təhlili, strateji məqsədlərin müəyyən edilməsi, fəaliyyət planlarının hazırlanması, icra və monitorinq daxildir. Mövcud vəziyyətin təhlili zamanı ali təhsil müəssisəsinin güclü və zəif tərəfləri, imkanları və riskləri (SWOT analizi) qiymətləndirilir. Bu təhlil strateji qərarların əsaslandırılmasına və real məqsədlərin müəyyənləşdirilməsinə şərait yaradır. Strateji məqsədlər isə təhsil keyfiyyətinin yüksəldilməsi, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi, beynəlxalqlaşma, insan resurslarının inkişafı və maliyyə dayanıqlığının təmin edilməsi kimi sahələri əhatə edə bilər. Strateji idarəetmədə maraqlı tərəflərin iştirakı mühüm əhəmiyyət kəsb edir. Akademik heyət, inzibati personal, tələbələr, məzunlar, işəgötürənlər və cəmiyyət strateji planlaşdırma prosesinə cəlb edildikdə qəbul edilən qərarların səmərəliliyi və icra imkanları artır. Bu yanaşma ali təhsil müəssisələrində şəffaflıq, hesabatlılıq və kollektiv

məsuliyyət prinsiplərinin möhkəmlənməsinə xidmət edir. Eyni zamanda, strateji planların icrası zamanı performans göstəricilərinin müəyyən edilməsi və mütəmadi monitorinq mexanizmlərinin tətbiqi planların kağız üzərində qalmasının qarşısını alır. Ali təhsildə strateji planlaşdırmanın əsas mərhələlərinə mövcud vəziyyətin təhlili, strateji məqsədlərin müəyyən edilməsi, fəaliyyət planlarının hazırlanması, icra və monitorinq daxildir. Mövcud vəziyyətin təhlili zamanı ali təhsil müəssisəsinin güclü və zəif tərəfləri, imkanları və riskləri (SWOT analizi) qiymətləndirilir. Bu təhlil strateji qərarların əsaslandırılmasına və real məqsədlərin müəyyənləşdirilməsinə şərait yaradır. Strateji məqsədlər isə təhsil keyfiyyətinin yüksəldilməsi, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi, beynəlxalqlaşma, insan resurslarının inkişafı və maliyyə dayanıqlığının təmin edilməsi kimi sahələri əhatə edə bilər. Strateji idarəetmədə maraqlı tərəflərin iştirakı mühüm əhəmiyyət kəsb edir.

## Nəticə

Azərbaycan ali təhsilində keyfiyyət təminatı sistemlərinin təkmilləşdirilməsi kompleks və davamlı prosesdir. Normativ-hüquqi bazanın inkişafı, daxili keyfiyyət mexanizmlərinin gücləndirilməsi, səmərəli idarəetmə və beynəlxalq təcrübənin tətbiqi bu prosesin əsas istiqamətlərini təşkil edir. Bundan əlavə, insan resurslarının inkişafı, maraqlı tərəflərin fəal iştirakı və keyfiyyət mədəniyyətinin formalaşdırılması institusional dayanıqlığı və təhsilin rəqabətqabiliyyətliliyini artırır. Təşkilati və strateji yanaşmaların sistemli şəkildə həyata keçirilməsi ali təhsil müəssisələrinin akademik göstəricilərinin yaxşılaşmasına, tələbələrin təhsilə məmnunluğunun yüksəlməsinə və ölkənin intellektual potensialının güclənməsinə xidmət edir. Bu istiqamətdə formalaşdırılmış tövsiyələr həm praktik, həm də elmi baxımdan ali təhsilin inkişafına yönəldilmiş səmərəli vasitə kimi istifadə oluna bilər.

***Ədəbiyyat***

1. *Əliyev, F. (2021). Ali təhsil müəssisələrində keyfiyyətin təmin olunmasında strategiyalar. Təhsil Araşdırmaları, 2021, №3, s. 45–53.*
2. *Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA). (2021). Ali təhsil müəssisələrinin daxili keyfiyyət təminatı üçün təlimat. Bakı.*
3. *Harvey, L. (2004). Analysing Quality in Higher Education. Quality in Higher Education, 10(1), 3–12.*
4. *UNESCO. (2012). Global Guidelines for Quality Assurance in Higher Education. Paris: UNESCO Publishing, s. 15–20.*
5. *European Association for Quality Assurance in Higher Education (ENQA). (2018). ESG 2015 Implementation Report. Brussels, s. 12–28.*

**Yaqubova R.M.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***yaqubluruhane@gmail.com***

# ALİ TƏHSİL SİSTEMİNDƏ AKKREDİTASİYA: ƏSAS MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

***Xülasə***

*Məqalədə ali məktəblərdə təhsil müəssisəsinin fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ-hüquqi aktların tələblərinə uyğun qurulmasının məqsəd və vəzifələrindən bəhs edilir. Müəllif, həmçinin akkreditasiya prosesində Akkreditasiya Şurasının, akkreditasiya şəhadətnaməsinin, ikili diplom proqramlarının, akkreditasiya komissiyasının rolunu məqalənin məzmununa daxil etmiş, ali təhsil müəssisələrində akkreditasiya prosesinin məqsəd və vəzifələrinin düzgün elmi şərhini vermişdir.*

# АККРЕДИТАЦИЯ В СИСТЕМЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ: ОСНОВНЫЕ ЦЕЛИ И ЗАДАЧИ

***Резюме***

*В статье рассматривается цель и задачи организации деятельности образовательного учреждения в ВУЗ в соответствии с установленными государственными образовательными стандартами и требованиями других нормативно-правовых актов. Автор также включил в содержание статьи роль совета по аккредитации, сертификата аккредитации, программ двойных дипломов и комиссии по аккредитации в процессе аккредитации, а также дал научное объяснение целей и задач аккредитации в высших учебных заведениях.*

# HİGHER EDUCATİON SYSTEM ACCREDİTATİON: MAİN OBJECTİVES AND TASKS

***Summary***

*The article discusses the objectives and tasks of organizing the activities of educational institutions in higher education in accordance with the accepted state educational standards and the requirements of other normative and legal acts. The author also includes the role of the Accreditation Council, accreditation certificates, dual degree programs, and the accreditation commission in the accreditation process within the content of the article. Additionally, a correct scientific interpretation of the objectives and tasks of the accreditation process in higher education institutions is provided.*

***Açar sözlər:*** *akkreditasiya, normativ-hüquqi aktlar, məqsəd, vəzifə, Akkreditasiya Şurası, akkreditasiya komissiyası*

***Ключевые слова:*** *аккредитация, нормативно-правовые акты, цель, задача, совет по аккредитации, комиссия по аккредитации*

***Key words:*** *accreditation, normative legal acts, goal, task, Accreditation Council, accreditation commission*

## Giriş

Son illərdə bütün dünyada elm və texnikanın sürətli inkişafı, eyni zamanda qazanılmış nailiyyətlər təhsilin inkişaf etməsinə, həmçinin ali məktəblərdə təhsil müəssisəsinin fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ-hüquqi aktların tələblərinə uyğun qurulmasına əhəmiyyətli dərəcədə təsir edir. Ali təhsil müəssisələrinin dünya modellərinə nəzər yetirsək, bu mövzunun yeni inkişaf mərhələsində aktual olduğunu müşahidə edərik.

Ali təhsil müəssisəsinin akkreditasiyası təhsil prosesinin təşkilinin, təhsil müəssisəsinin maddi-texniki bazasının, kadr potensialının, maliyyə resurslarının, təhsil proqramlarının və infrastrukturunun qəbul olunan dövlət standartlarına uyğunluğunu müəyyən etmək məqsədi ilə aparılır və təhsil müəssisəsinin statusunun müəyyən edilməsi, onun növbəli beş il müddətinə fəaliyyət göstərməsi üçün hüquqi təminat yaradır. Ali təhsil müəssisələrində təhsilin keyfiyyətinə dövlət-ictimai nəzarət forması kimi akkreditasiyanın əsas məqsədi insanların təhsil sahəsində qanunla müəyyən edilən hüquqlarının və ali təhsil qurumlarının fəaliyyətinin təhsil qanunvericiliyi və dövlət təhsil standartlarının tələbləri müstəvisində təşkil edilməsini təmin etməkdən ibarətdir [3, səh. 27].

Mütəxəssislərin qənaətinə görə ali təhsil müəssisəsinin akkreditasiyası hər beş ildə bir dəfə Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi qrafik üzrə reallaşır. Yeni yaradılmış ali təhsil müəssisəsinin, eləcə də fəaliyyətdə olan təhsil müəssisəsinin normativ-hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması, həmin müəssisənin statusunun müəyyən edilməsi və s. mütləqdir. Yəni ali təhsil müəssisəsində aparılan akkreditasiya prosesi təhsil müəssisəsinin özünütəhlili, akkreditasiya komissiyasının araşdırma aparması, akkreditasiya haqqında arayışın hazırlanması və müəssisənin statusu müəyyən edildikdən sonra uyğun keyfiyyət sənədinin – sertifikatın hazırlanması mərhələlərindən ibarətdir. Mövcud qaydalara rəğmən ali təhsil müəssisəsini akkreditasiyadan keçirmək üçün Elm və Təhsil Nazirliyi mütəxəssislərindən ibarət komissiya yaradılır. Komissiya ortalama 3 ay müddətində fəaliyyət göstərir. Bu müddət ərzində 1 həftə (proqram attestasiyasında 3 gün) müddətində yerində sahə baxışı keçirilir.

Sözü gedən heyət üzvləri ali təhsil müəssisəsinin hesabatı ilə özlərinin aşkar etdikləri faktları (nəticələri) tutuşduraraq təhsil müəssisəsinin fəaliyyəti barədə yekun arayış hazırlayırlar. Qaydalara uyğun olaraq arayışla tanış olmaq üçün qurumun rəhbərinə bir həftə vaxt verilir, sonra TKTA-da səlahiyyətli şəxslərin iştirakı ilə onun ilkin müzakirəsi keçirilir.

TKTA-nın Akkreditasiya və lisenziya şöbəsi müzakirə zamanı təqdim edilən rəy və təklifləri də nəzərə alaraq yekun arayışı təhsil müəssisələrinin akkreditasiyasını keçirmək üçün Elm və Təhsil Nazirliyinin əmri ilə yaradılmış və daimi fəaliyyət göstərən Akkreditasiya Şurasının müzakirəsinə çıxarır. Şura dövlət təhsil standartlarının tələblərinə uyğun hazırlanmış və nazirin təsdiq etdiyi meyarlar əsasında təhsil müəssisəsinin statusunu müəyyən edir, onun tam şəkildə və ya ayrı-ayrı təhsil proqramları üzrə akkreditasiyadan müvəffəqiyyətlə keçib-keçməməsi haqqında qərar qəbul edir. Bu mərhələdən sonra Elm və Təhsil Naziri bu qərarın əsasında təhsil müəssisəsinin akkreditasiyası barədə əmr verir. Əmrə əsasən təhsil müəssisəsinin statusu və həyata keçirilən təhsil proqramları təsdiq olunur. Növbəti mərhələdə akkreditasiyadan keçmiş təhsil müəssisəsinə müvafiq qeydiyyat sənədi – sertifikat verilir.

Qeyd olunmalıdır ki, təhsildə akkreditasiya prosesinin idarə edilməsində Akkreditasiya Şurası mühüm rol oynayır. Akkreditasiya Şurası akkreditasiyanın nəticələrinə dair qərar qəbul etmək səlahiyyətinə malik olan orqandır. Akkreditasiya Şurasının fəaliyyəti Nazirlik tərəfindən təsdiq edilmiş Akkreditasiya Şurasının əsasnaməsi ilə tənzimlənir. Akkreditasiya Şurasına Azərbaycan Respublikasının Elm və Təhsil Naziri rəhbərlik edir. Şura ictimai əsaslarla fəaliyyət göstərir [3, səh. 22].

Akkreditasiya Şurasına aşağıdakı şəxslər daxil edilir:

1. Yerli və xarici təhsil və ya müvafiq elmi tədqiqat sahələrinin mütəxəssisləri;
2. İşəgötürənlər (əmək bazasının nümayəndələri);
3. Təhsilalanlar və ya qanuni nümayəndələr;
4. Tabeliyində təhsil müəssisəsi olan nazirliklərin, təşkilatların və idarələrin nümayəndələri;
5. Qeyri hökumət təşkilatlarının nümayəndələri.

Akkreditasiya Şurasının akkreditasiya prosesində göstərdiyi fəaliyyətlərə daxildir:

– Akkreditasiya komissiyası tərəfindən tərtib edilmiş yekun hesabatların müzakirəsini həyata keçirir;

– Tələb olunduğu halda yekun hesabatların müzakirəsinə təhsil müəssisəsini, akkreditasiya komissiyasını, eləcə də müstəqil ekspertləri dəvət edir;

– Müzakirələrin nəticəsindən asılı olaraq akkreditasiya qiymətləndirməsinə dair müvafiq qərarlar verir;

– Təqdim olunmuş yekun hesabat və ona əlavə olunan sənədlər müvafiq qərarın verilməsində yetərli olmadıqda agentliyə geri qaytarılır.

Təhsil müəssisələrinin akkreditasiyası məqsədi ilə müəyyən olunmuş tələblər çərçivəsində agentlik tərəfindən yaradılan və bu qaydalarda qeyd

olunmuş öhdəlikləri yerinə yetirən komissiya fəaliyyət göstərir. Komissiyada akkreditasiya meyarları müəyyən olunur. Bu meyarlar təhsil müəssisəsinin fəaliyyətinin və təhsil proqramlarının icrasının dövlət təhsil standartlarına uyğunluğunun qiymətləndirilməsi üzrə ölçülərdir.

Ali təhsil müəssisələrində akkreditasiyanın məqsədinə uyğun olaraq dövlət akkreditasiyası haqqında sənədə istinad olunur. Bu sənəd mərkəzləşdirilmiş informasiya sistemində elektron sənəd formasında yaradılan və elektron formada verilən təhsil müəssisəsinin akkreditasiya şəhadətnaməsidir.

Yeni şəraitdə ali təhsil müəssisələrinin akkreditasiyasında beynəlxalq akkreditasiyanın təcrübəsindən istifadə edilməkdədir. Beynəlxalq akkreditasiya - xarici keyfiyyət təminatı qurumu tərəfindən hazırlanmış qayda və meyarlar əsasında keçirilən təhsilin keyfiyyətinə təminat yaradan fəaliyyətdir.

Ali təhsil müəssisələrində akkreditasiyanın aparılmasında əsas məqsədlərdən biri ikili diplom proqramlarının uyğunluğu məsələsidir. İkili diplom proqramının akkreditasiyasiyasını təmin etmək üçün nəzərdə tutulmuşdur ki, bu tədbirlərin reallaşdırılmasında keyfiyyət təminatı mexanizmləri hazırlansın və monitorinqlərin və qiymətləndirmənin aparılması və beynəlxalq təcrübəyə əsaslanaraq standartlara uyğunluğun nəzərə alınması tövsiyə edilir. Yəni ikili diplom proqramlarına cəlb olunan məzunlar işəgötürənlər tərəfindən qiymətləndirilən bacarıqları nümayiş etdirməli, dərəcə nəticələrini sənayeyə aid bacarıqlara və etik standartlara uyğunlaşdırmalı, bazar tendensiyalarına rəğmən səlahiyyətlərə nail olmalıdırlar [4, səh. 27].

Hal-hazırda ali təhsil müəssisələrinin akkreditasiya prosesində özünütəhsil hesabatları diqqət çəkir. Özünütəhsil hesabatı - Akkreditasiya meyarları əsasında təhsil müəssisəsinin təhsilin keyfiyyət səviyyəsinin təmin olunmasına dair özünüqiymətləndirmə sənədidir. Bu sənəd akkreditasiyanın məqsəd və vəzifələrindən irəli gələn amilləri reallaşdırmaq məqsədi ilə nəzərə alınması məqsədəuyğun hesab edilir.

Ali təhsil müəssisələrinin akkreditasiya prosesində təhsilverənlərin işçi təhsil proqramları (sillabusları), onların mövcud standartlara uyğun tərtib edilməsi əsas amillərdən biri hesab edilir. İşçi tədris proqramı (sillabus) - fənnin müvafiq proqramı əsasında hazırlanan və özündə tədris olunan fənnin təsvirini, onun məqsəd və hədəfini, qısa məzmununu, dərslərin müddətini və növlərini, tələbənin müstəqil işi üçün tapşırıqları, onların yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatları, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, aralıq qiymətləndirmə cədvəlini və istifadə olunan ədəbiyyatın siyahısını özündə əks etdirən sənəddir [3, səh. 29].

Akkreditasiya prosesində bəzən təkrar akkreditasiya aparılır. Məqsəd təhsil müəssisəsinin və təhsil proqramının akkreditasiyadan keçmədiyi halda təkrar akkreditasiyanın təşkili prosesidir.

Akkreditasiya prosesləri çərçivəsində Akkreditasiya Komissiyası tərəfindən keçirilən akkreditasiya qiymətləndirilməsi nəticələrini əks etdirən sənəd yekun hesabat kimi qəbul edilir.

Müşahidələr göstərir ki, akkreditasiya prosesində əsas iştirakçıların işinin məzmunu və funksiyaları nəzərə alınmaqla məqsədə uyğun nəticələrə nail olmaq mümkündür. Əsas iştirakçılar aşağıdakılardır: Təhsildə Keyfiyyat Təminatı Agentliyi; Təhsil müəssisəsi; Akkreditasiya Komissiyası; Akkreditasiya Şurası.

Mütəxəssislər hesab edir ki, ali təhsil müəssisəsində akkreditasiya prosesinin təşkilində və idarə olunmasında Akkreditasiya Komissiyası və onların qərarları əhəmiyyətli rol oynayır. Üzvlər təhsil üzrə yerli və xarici mütəxəssislərdən, təhsilalanlardan və işəgötürənlərdən ibarət olur, fəaliyyətləri aşağıdakı tələblərə uyğun qurulur:

– Ali təhsilli olmalı;

– Təhsil müəssisəsinin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı təlimlərdə iştirak etməli;

– Yerli və beynəlxalq akkreditasiya prosesi haqqında məlumatlı olmalı və s. [2, səh. 7].

Hazırda təhsil müəssisələrinin akkreditasiyasının aşağıdakı növləri fərqləndirilir:

1. Təhsil müəssisəsinin institusional akkreditasiyası;
2. Təhsil proqramlarının akkreditasiyası.

İnstitusional akkreditasiya təhsil müəssisəsinin ümumi fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına, digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədi ilə aparılır.

Təhsil proqramlarının akkreditasiyası qüvvədə olan müvafiq təhsil pillələri üzrə təhsil müəssisələrində tədris edilən təhsil proqramlarının maddi-texniki və tədris bazasını, təhsilverənlərin keyfiyyət göstəricilərini və təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsinin əmək bazasının tələblərinə uyğunluğunun müəyyən olunmasına hüquqi təminat verir və s. [3].

Ümumilikdə, ali təhsil sistemində akkreditasiya prosesinin məqsəd və vəzifələri təhsil ocağının fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına normativ-hüquqi aktların tələblərinə uyğunluğunun təmin edilməsinə xidmət edir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 2024, №3.*
2. *Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında Azərbaycan Respublikası Qanunu, Bakı, 30 may, 2014.*
3. *"Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları", Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il qərarı.*
4. *Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi, Bakı, 29 dekabr, 2019.*

**Yolçuyev X.N.**
**Azərbaycan Turizm və Menecment Universiteti**
***xeyal.y13@gmail.com***

# AZƏRBAYCAN RESPUBLİKASINDA TƏNHA VƏ YAŞLI İNSANLARLA SOSİAL İŞİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ METODLARI

***Xülasə***

*Azərbaycan Respublikasında tənha və yaşlı insanlarla sosial işin əsas istiqamətləri onların sosial müdafiəsinin gücləndirilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması və cəmiyyətə inteqrasiyasının təmin edilməsidir. Sosial iş bu kateqoriyaya aid şəxslərin maddi təminatının, tibbi-sosial xidmətlərə çıxışının və psixoloji dəstəyinin təşkili üzərində qurulur. Evdə sosial xidmət, sosial reabilitasiya, hüquqi məsləhət və icma əsaslı dəstək mexanizmləri əsas metodlar sırasında yer alır. Bu fəaliyyətlər yaşlı insanların sosial təcridinin azalmasına, müstəqil həyat bacarıqlarının qorunmasına və rifahının yüksəldilməsinə xidmət edir.*

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ И МЕТОДЫ СОЦИАЛЬНОЙ РАБОТЫ С ОДИНОКИМИ И ПОЖИЛЫМИ ЛЮДЬМИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

***Резюме***

*Основные направления социальной работы с одинокими и пожилыми людьми в Азербайджанской Республике — это укрепление их социальной защиты, повышение качества жизни и обеспечение интеграции в общество. Социальная работа основывается на организации материального обеспечения лиц, относящихся к этой категории, доступа к медицинским и социальным услугам, а также психологической поддержке. К основным методам относятся социальные услуги на дому, социальная реабилитация, юридические консультации и механизмы поддержки на уровне общин. Эти мероприятия способствуют снижению социальной изоляции пожилых людей, сохранению их навыков самостоятельной жизни и улучшению их благополучия.*

# MAIN DIRECTIONS AND METHODS OF SOCIAL WORK WITH LONELY AND ELDERLY PEOPLE IN THE REPUBLIC OF AZERBAIJAN

***Summary***

*The main directions of social work with lonely and elderly people in the Republic of Azerbaijan are strengthening their social protection, improving their quality of life and ensuring their integration into society. Social work is based on organizing the material provision of persons belonging to this category, access to*

*medical and social services and psychological support. Social services at home, social rehabilitation, legal advice and community-based support mechanisms are among the main methods. These activities serve to reduce the social isolation of older people, preserve their independent living skills and improve their well-being.*

***Açar sözlər:*** *tənha, sosial, xidmət, qayğı, dəstək, reabilitasiya, müdafiə, yaşlanma*
***Ключевые слова:*** *одиночество, социальный, служба, уход, поддержка, реабилитация, защита, старение*
***Key words:*** *loneliness, social, service, care, support, rehabilitation, protection, aging*

## Giriş

Azərbaycan Respublikasında sosial müdafiə sisteminin prioritet istiqamətlərindən biri tənha və yaşlı insanların sosial rifahının təmin edilməsidir. Müasir dövrdə dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da demoqrafik proseslər əhalinin yaşlanması tendensiyasını gücləndirir. Ailə institutunun dəyişməsi, urbanizasiya, əmək miqrasiyası və həyat tərzinin modernləşməsi nəticəsində yaşlı insanların tənha qalması, psixoloji və sosial dəstəyə ehtiyac duyması halları artmaqdadır. Bu reallıq dövlətin sosial siyasətində yeni yanaşmaların tətbiq olunmasını, sosial xidmətlərin nümunəvi şəkildə təşkilini və yaşlılara yönəlmiş kompleks sosial iş metodlarının inkişafını zəruri edir.

Tənha və yaşlı insanların sosial müdafiəsi yalnız maddi təminatla məhdudlaşmır. Onların psixoloji vəziyyəti, sosial adaptasiyası, ictimai həyata inteqrasiya səviyyəsi, gündəlik ehtiyaclarının qarşılanması, tibbi xidmətə çıxış imkanları və sosial təcriddən qorunması sosial iş fəaliyyətinin əsas hədəflərindən biridir. Sosioloji tədqiqatlar göstərir ki, yaşlı insanların əksəriyyəti tək qalmaqdan, ünsiyyət çatışmazlığından və cəmiyyətlə əlaqələrinin zəifləməsindən əziyyət çəkir. Bu baxımdan, sosial işin məqsədi onların həyat keyfiyyətini yüksəltmək, özünüifadə imkanlarını artırmaq, təhlükəsiz həyat şəraiti yaratmaq və sosial cəhətdən müdafiə olunmuş vəziyyətə gətirməkdir.

Azərbaycan dövləti bu istiqamətdə müasir sosial xidmət mexanizmləri formalaşdırmış, “Sosial xidmət haqqında” Qanun çərçivəsində tənha və yaşlılar üçün icma əsaslı xidmətlər, evdə sosial-məişət yardımı, həmçinin dövlət və özəl müəssisələrdə uzunmüddətli qayğı modelləri yaradılmışdır. Bu xidmətlər sosial işçilərin peşəkarlığına, fərdi yanaşmaya və müasir sosial iş standartlarına əsaslanır. Sosial işçi yalnız yardım göstərən deyil, həm də yaşlının həyat şəraitini öyrənən, ehtiyaclarını qiymətləndirən, fərdi inkişaf planı hazırlayan və sosial resurslara çıxışını təmin edən mütəxəssis kimi çıxış edir.

Mövzunun aktuallığı həm də ondan irəli gəlir ki, tənha yaşlılarla iş sahəsində qeyri-hökumət təşkilatlarının, icma qruplarının, könüllülərin və sosial innovasiya təşəbbüslərinin rolu artmaqdadır. Rəqəmsal texnologiyaların tətbiqi, tele-sosial xidmət, "yaşlı dostu icmalar" kimi yeni modellər sosial işin imkanlarını genişləndirir.

**Təhlil**

Azərbaycan Respublikasında tənha və yaşlı insanlarla sosial işin təşkili ölkənin sosial siyasətinin reallıqlarına və əhalinin demoqrafik dinamikasına uyğun olaraq formalaşmışdır. Təhlil göstərir ki, Azərbaycan cəmiyyətində yaşlı əhali qrupunun artması ilə yanaşı, ənənəvi geniş ailə modelinin zəifləməsi yaşlıların sosial müdafiəyə ehtiyacını daha da artırmışdır. Sosial iş praktikasında istifadə olunan əsas istiqamətlər – evdə xidmət, icma əsaslı xidmətlər, psixososial dəstək, reabilitasiya, institusional qayğı və sosial inteqrasiya tədbirləri – yaşlıların müxtəlif ehtiyaclarını qarşılamağı hədəfləyir [3, s.103].

Evdə sosial xidmət modeli tənha yaşlılar üçün ən əlçatan və humanist yanaşmalardan biri hesab olunur. Sosial işçilər yaşlı şəxsin qidalanma, tibbi nəzarət, gigiyena, məişət işləri və sənədləşmə kimi gündəlik ehtiyaclarını təmin etməklə onun müstəqil yaşamasına dəstək olurlar. Təhlillər göstərir ki, bu xidmət həm dövlət üçün iqtisadi cəhətdən daha səmərəlidir, həm də yaşlı insanların öz ev mühitində emosional rahatlığını qoruyur. Bununla belə, xidmətlərin əhatə dairəsinin regionlar üzrə qeyri-bərabər paylanması bəzi problemləri gündəmə gətirir. Xüsusilə ucqar kənd yerlərində sosial işçilərin çatışmazlığı, nəqliyyat problemləri və maddi-texniki bazanın zəifliyi xidmət keyfiyyətinə mənfi təsir edir.

İcma əsaslı sosial xidmətlər Azərbaycan sosial siyasətində nisbətən yeni, lakin sürətlə inkişaf edən istiqamətdir. Bu modelə əsaslanan "yaşlılar üçün gündüz mərkəzləri", "sosial klub" proqramları və könüllü təşəbbüslər yaşlıların sosial təcridinin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Sosial işin psixososial metodları – fərdi söhbət, psixoloji dəstək, adaptasiya məşqləri – yaşlıların emosional vəziyyətini yaxşılaşdırır, depressiya və tənhalıq riskini azaldır. İctimai-fəaliyyət yönümlü tədbirlər yaşlıların aktiv yaşlanmasını təşviq edir, onların cəmiyyətlə əlaqələrini gücləndirir [3, s.109].

İnstitusional qayğı müəssisələri isə ciddi qayğı tələb edən və özünəxidmət bacarığı zəif olan yaşlılar üçün mühüm rol oynayır. Lakin təhlil göstərir ki, institusional qayğı uzunmüddətli perspektivdə psixoloji izolyasiya yarada bilər. Bu səbəbdən, müasir sosial iş nəzəriyyəsi icma əsaslı və evdə xidmət modellərini daha optimal hesab edir.

**Cədvəl 1. Azərbaycan Respublikasında tənha və yaşlı insanlarla sosial işin əsas istiqamətləri və tətbiq olunan metodlar**

| Sosial İşin İstiqaməti | Məzmunu | Tətbiq Olunan Metodlar |
|---|---|---|
| Evdə sosial xidmət | Yaşlının yaşadığı ünvanda sosial-məişət, tibbi və psixoloji dəstək göstərilməsi | Fərdi sosial iş, gündəlik fəaliyyətlərin idarə edilməsi, müşahidə, məişət yardımı |
| İcma əsaslı xidmətlər | Yaşlıların cəmiyyətlə ünsiyyətinin artırılması, onların sosial inteqrasiyası | Qrup işi, sosial adaptasiya məşqləri, sosial klublar, aktiv yaşlanma proqramları |
| Psixososial dəstək | Emosional yükün azaldılması, tənhalıq və depressiyanın qarşısının alınması | Psixoloji məsləhət, fərdi söhbətlər, dəstək qrupları |
| Reabilitasiya xidmətləri | Hərəkət, sağlamlıq və funksional bacarıqların bərpası | Fizioterapiya, məşq proqramları, sosial-pedaqoji metodlar |
| İnstitusional qayğı (qocalar evi) | Özünəxidmət bacarığı olmayan yaşlılara tam günlü qayğı və nəzarət | Sosial diaqnostika, fərdi qayğı planı, tibbi və sosial nəzarət |
| Tibbi-sosial xidmət | Yaşlıların sağlamlıq vəziyyətinə uyğun davamlı tibbi dəstəyin təşkili | Tibbi müşahidə, dərman qəbzinə nəzarət, sağlamlıq maarifləndirilməsi |
| Sosial inteqrasiya və adaptasiya | Yaşlıların cəmiyyətlə əlaqələrinin gücləndirilməsi, sosial iştirakın artırılması | İcma tədbirləri, könüllülük proqramları, rəqəmsal savadlılıq təlimləri |
| Case-management (işin idarə olunması) | Hər yaşlı üçün fərdi sosial planın hazırlanması və icrasına nəzarət | Ehtiyacların qiymətləndirilməsi, resurslara yönləndirmə, monitorinq |

***Mənbə:*** *Müəllif tərəfindən tənha və yaşlı insanlarla sosial iş üzrə elmi ədəbiyyat və normativ-sənəd bazası əsasında ümumiləşdirilərək tərtib edilmişdir.*

Cədvəl 1-də göstərilən məlumatlar Azərbaycanda tənha və yaşlı insanlarla sosial işin ən vacib istiqamətlərini və hər istiqamət üzrə tətbiq olunan konkret metodları ümumiləşdirir. Burada ilk olaraq evdə sosial xidmətin mahiyyəti təsvir edilir: bu xidmət yaşlının öz evində gündəlik ehtiyaclarının qarşılanmasına, sağlamlıq və məişət işlərinə dəstəyə yönəlir və əsasən fərdi sosial iş, məişət yardımı və monitorinq metodları ilə həyata keçirilir [5, s.19].

İcma əsaslı xidmətlər bölməsində sosial izolyasiyanın azaldılması və yaşlıların aktiv sosial həyata qoşulması məqsədi vurğulanır. Bu istiqamət üzrə qrup işi, sosial adaptasiya məşqləri və icma tədbirləri kimi metodlar tətbiq olunur. Cədvəldə psixososial dəstək ayrıca qeyd edilir — burada əsas məqsəd yaşlıların emosional vəziyyətini yaxşılaşdırmaq, tənhalıq və depressiya riskini azaltmaqdır; bunun üçün fərdi söhbətlər və psixoloji məsləhətlər istifadə edilir [9, s.103].

Reabilitasiya xidmətləri yaşlıların sağlamlıq və hərəkət imkanlarının bərpasını əhatə edir və fizioterapiya, məşq proqramları kimi metodlarla dəstəklənir. İnstitusional qayğı bölməsi isə özünəxidmət bacarığı zəif olan yaşlılara tam günlü dövlət və ya özəl müəssisələrdə qayğı göstərilməsini

nəzərdə tutur; bu zaman fərdi qayğı planları və sosial-tibbi nəzarət tətbiq olunur.

Tibbi-sosial xidmətlər bölməsində yaşlıların sağlamlıq vəziyyətinə uyğun davamlı tibbi nəzarət və dərman qəbzinin tənzimlənməsi xüsusi yer tutur. Sosial inteqrasiya və adaptasiya istiqaməti yaşlıların cəmiyyətlə əlaqələrinin gücləndirilməsinə yönəlib və könüllülük proqramları, icma tədbirləri kimi metodlarla həyata keçirilir.

**Sxem 1. Tənha və yaşlı insanlarla sosial işin əsas istiqamətləri və tətbiq olunan metodlar üzrə sxem**




***Mənbə:*** *Müəllif tərəfindən tənha və yaşlı insanlarla sosial iş sahəsinə dair elmi ədəbiyyat və Azərbaycan Respublikasının sosial xidmət qanunvericiliyi əsasında ümumiləşdirilərək hazırlanmış sxem.*

Sxem 1-də tənha və yaşlı insanlarla sosial işin əsas istiqamətləri və hər istiqamət üzrə istifadə olunan metodların qarşılıqlı əlaqəsi ardıcıl şəkildə göstərilir. Üst hissədə sosial işin ümumi çərçivəsi verilir və ondan dörd əsas istiqamətə ayrılan xətlər çıxır. Bu istiqamələr – evdə sosial xidmət, icma əsaslı xidmətlər, psixososial dəstək və reabilitasiya xidmətləridir. Hər istiqamənin altında həmin sahədə tətbiq edilən konkret metodlar yerləşdirilib.

Evdə sosial xidmət bölməsində fərdi sosial iş, gündəlik fəaliyyətlərin idarə edilməsi, müşahidə və məişət yardımı kimi metodların birbaşa yaşlının ev mühitində həyata keçirildiyi göstərilir. İcma əsaslı xidmətlər bölməsində qrup işi, sosial adaptasiya məşqləri, sosial klublar və aktiv yaşlanma proqramları ictimai mühitdə inteqrasiya məqsədi daşıyan fəaliyyətlər kimi təqdim olunur [12, s.1207].

Psixososial dəstək xəttində psixoloji məsləhət, fərdi söhbətlər və dəstək qrupları yaşlıların emosional rifahını artırmağa yönəlmiş əsas metodlar kimi izah edilir. Reabilitasiya xidmətlərində isə fizioterapiya, məşq proqramları və sosial-pedaqoji metodlar sağlamlığın və funksional bacarıqların bərpasını dəstəkləyən fəaliyyətlər kimi göstərilir.

## Nəticə

Azərbaycan Respublikasında tənha və yaşlı insanlarla sosial iş sahəsi sosial müdafiə sisteminin ən həssas və strateji əhəmiyyətli istiqamətlərindən biridir. Aparılan təhlil və təqdim olunan sxem göstərir ki, yaşlıların ehtiyacları çoxölçülü xarakter daşıdığından bu sahədə sosial iş kompleks, mərhələli və çoxsahəli yanaşma tələb edir. Evdə sosial xidmət, icma əsaslı dəstək, psixososial müdaxilə və reabilitasiya kimi istiqamətlər yaşlı insanların fiziki, emosional və sosial rifahının yüksəldilməsində əsas rol oynayır.

Bu xidmətlərin hər biri yaşlının həyat keyfiyyətinə birbaşa təsir göstərir — onların sosial təcriddən qorunması, gündəlik ehtiyaclarının qarşılanması, psixoloji sabitliyinin təmin edilməsi və sağlamlıq baxımından funksional imkanlarının qorunması sosial işin ümumi hədəfləridir. Təhlil göstərir ki, icma əsaslı xidmətlərin genişləndirilməsi, sosial işçilərin peşəkarlığı və xidmətlərin əlçatanlığı sistemin keyfiyyətini həlledici şəkildə yaxşılaşdırır.

Nəticə olaraq, effektiv sosial iş modeli yalnız kömək göstərməklə məhdudlaşmır, həm də yaşlı insanların cəmiyyətə inteqrasiyasını, onların layiqli və təhlükəsiz həyat şəraitini təmin etməyi hədəfləyir. Azərbaycanda bu istiqamətdə son illər həyata keçirilən islahatlar sosial xidmətlərin daha humanist, müasir və ehtiyac yönümlü şəkildə təşkil olunmasına imkan verir. Gələcəkdə xidmətlərin rəqəmsallaşdırılması, könüllülük təşəbbüslərinin artırılması və icma-resurs mərkəzlərinin gücləndirilməsi yaşlılarla sosial işin daha dayanıqlı və davamlı olmasını təmin edəcəkdir.

***Ədəbiyyat***

1. *Akhundzada, H. (2020). Elderly in Azerbaijan: Care and welfare (Analytical Report). Social Research Center. Academia+1*
2. *Aliaskar, A. G. (2024). Improving mental health and quality of life of aging population in Azerbaijan. Journal of Aging, journals.gen.tr+1*
3. *Eyvazova, T. (2025). The role of social workers in organizing social services for the elderly. Social Issues, 3(3), 103–109. https://doi.org/10.30546/SI.2025.3.2.4020 au.edu.az+1*
4. *Rasulova, M., & Hajiyeva, A. (2022). Problems in the social protection of the elderly people in Azerbaijan and the world experience. Economic Reforms, (3 & 4). Journal.ereforms.org*

5. *Li, Y. (2023). Relational social work supporting family caregivers of older people in crisis. Relational Social Work, 7(1), 4–19. https://doi.org/10.14605/RSW712301 rsw.erickson.international*
6. *Stárek, L. (2024). Social work and its methods not only in the context of direct social work: elderly persons living with dementia. Journal of Social Work Practice, ...-.... Taylor & Francis Online*
7. *Bolukbasi, S. (2025). Assessment of social workers' educational needs in geriatric competencies and their attitudes toward older adults.* Journal of *Social Work Education, ...-.... PMC*
8. *Zemaitaityte, I. (2018). Educational activities for older people as a part of social work. In SHS Conference Proceedings (Vol. ..., Article 03003). shs-conferences.org*
9. *Eyvazova, T. (2025). The concept of "old age" in Azerbaijani legislation: Social services for the elderly. Social Issues, 3(3), 103–109. (See article above.) au.edu.az*
10. *United Nations Economic and Social Commission for Asia and the Pacific (UNESCAP). (n.d.). Well-being of older persons in the Republic of Azerbaijan. unescap.org+1*
11. *UNECE / UNFPA. (2022). Active Ageing Index "AAI" for Azerbaijan. UNFPA Eastern Europe and Central Asia*
12. *Goldman, N., Khanna, D., El Asmar, M. L., Qualter, P., et al. (2024). Addressing loneliness and social isolation in 52 countries: A scoping review of national policies. BMC Public Health, 24, Article 1207. https://doi.org/10.1186/s12889-024-18370-8, BioMed Central*

**Abdulova G.V.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***abdulovagunel9@gmail.com***

# İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT TƏDRİSİNDƏ YENİ TEXNOLOGİYALARIN TƏTBİQİ ZAMANI YARANAN METODOLOJİ ÇƏTİNLİKLƏR

***Xülasə***

*Məqalə ibtidai siniflərdə riyaziyyat tədrisində yeni rəqəmsal texnologiyaların tətbiqinin pedaqoji və metodoloji aspektlərini araşdırır. Yeni texnologiyalar dərsin əyaniliyini artıraraq şagirdlərin diqqətini və motivasiyasını yüksəldir, riyazi anlayışların vizuallaşdırılması, adaptiv qiymətləndirmə və fərdiləşdirilmiş tapşırıqlar vasitəsilə öyrənməni effektivləşdirir. Lakin müəllimlər texnologiyaların tətbiqi zamanı bir sıra çətinliklərlə - İKT bacarıqlarının yetərsizliyi, elektron resursların kurikulumla uyğun olmaması, kiçikyaşlı şagirdlər üçün bəzi tətbiqlərin uyğunsuzluğu, qiymətləndirmə mexanizmlərində metodoloji boşluqlar və infrastruktur çatışmazlıqları - üzləşirlər. Bu problemlərin aradan qaldırılması üçün müəllimlərin davamlı peşəkar inkişafı, məktəblərin texniki təminatının gücləndirilməsi, kurikulum uyğunluğunda metodik vəsaitlərin hazırlanması və müəllimlər arasında təcrübə mübadiləsinin təşkili tövsiyə edilir. Nəticədə, yeni texnologiyaların riyaziyyat tədrisinə səmərəli inteqrasiyası sistemli metodoloji dəstək və texniki tədbirlərin sintezi ilə mümkündür və bu, şagirdlərin məntiqi və yaradıcı düşüncə qabiliyyətlərinin formalaşmasına müsbət təsir edəcək.*

# МЕТОДОЛОГИЧЕСКИЕ ТРУДНОСТИ, ВОЗНИКАЮЩИЕ ПРИ ПРИМЕНЕНИИ НОВЫХ ТЕХНОЛОГИЙ В ОБУЧЕНИИ МАТЕМАТИКИ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Резюме***

*В статье рассматриваются педагогические и методические аспекты применения новых цифровых технологий в преподавании математики в начальной школе. Новые технологии повышают наглядность урока, усиливают внимание и мотивацию учащихся, а также повышают эффективность обучения за счет визуализации математических понятий, адаптивного оценивания и персонализации заданий. Однако при применении технологий учителя сталкиваются с рядом трудностей: недостаточным уровнем владения ИКТ, несовместимостью электронных ресурсов с учебной программой, несовместимостью некоторых приложений для младших школьников, методическими пробелами в механизмах оценивания, недостатками инфраструктуры. Для преодоления этих проблем рекомендуется постоянное повышение квалификации учителей, укрепление технической поддержки школ, подготовка методических материалов в соответствии с учебной программой,*

*организация обмена опытом между учителями. В результате эффективная интеграция новых технологий в математическое образование возможна на основе системного методического обеспечения и синтеза технических средств, что окажет положительное влияние на развитие логического и творческого мышления учащихся.*

# METHODOLOGICAL DIFFICULTIES ARISING WHEN APPLYING NEW TECHNOLOGIES IN TEACHING MATHEMATICS IN PRIMARY GRADE

***Summary***

*The article examines the pedagogical and methodological aspects of the application of new digital technologies in mathematics teaching in primary schools. New technologies increase the visibility of the lesson, increase students' attention and motivation, and make learning more effective through visualization of mathematical concepts, adaptive assessment, and personalized tasks. However, teachers face a number of difficulties when applying technologies - insufficient ICT skills, incompatibility of electronic resources with the curriculum, incompatibility of some applications for younger students, methodological gaps in assessment mechanisms, and infrastructure deficiencies. In order to overcome these problems, continuous professional development of teachers, strengthening the technical support of schools, preparation of methodological materials in accordance with the curriculum, and organization of exchange of experience among teachers are recommended. As a result, the effective integration of new technologies into mathematics teaching is possible through systematic methodological support and a synthesis of technical measures, which will have a positive impact on the formation of students' logical and creative thinking abilities.*

***Açar sözlər:*** *yeni texnologiyalar, İKT, interaktiv öyrənmə, metodoloji çətinliklər, çətinliyi aradan qaldırma yolları*

***Ключевые слова:*** *новые технологии, ИКТ, интерактивное обучение, методические проблемы, способы преодоления трудностей*

***Key words:*** *new technologies, ICT, interactive learning, methodological challenges, ways to overcome difficulties*

Müasir dövrdə təhsil sisteminin inkişafı yeni rəqəmsal texnologiyalarla sıx bağlıdır. Hal-hazırda informasiya əsrində olduğumuz üçün cəmiyyətin digər sahələrində olduğu kimi təhsil sahəsində də İKT böyük əhəmiyyət kəsb edir. Bütün təhsil pillələrində olduğu kimi ibtidai siniflərdə də İKT-nin tətbiqi getdikcə aktual xarakter daşıyır. Ənənəvi təlim üsullarının yanında informasiya-kommunikasiya texnologiyalarının (İKT) istifadəsi dərs prosesini daha səmərəli və şagirdyönümlü edir. Xüsusilə ibtidai siniflərdə uşaqların diqqətinin tez-tez yayınması, öyrənmə motivasiyasının əyani materiallarla daha çox artması nəzərə alınanda texnologiyaların rolu danılmazdır. Yeni

texnologiyalar riyazi anlayışların sadə və maraqlı formada mənimsədilməsinə imkan yaradır. İnteraktiv lövhələrdə təqdim olunan animasiyalar, rəqəmsal oyunlar, simulyasiyalar və müxtəlif elektron tətbiqlər şagirdlərin diqqətini cəlb edir, onları fəal öyrənməyə sövq edir. Məsələn, ədədlərin müqayisəsini real obyektlərin hərəkətli təsvirləri ilə göstərmək və ya həndəsi fiqurları 3D modellərlə təqdim etmək uşaqlara həm görmə, həm də təcrübə yolu ilə öyrənmə imkanı verir. Eyni zamanda, yeni texnologiyaların tətbiqi şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun öyrənmə mühitinin yaradılmasına şərait yaradır. Elektron platformalarda hazırlanan fərqləndirilmiş tapşırıqlar zəif və güclü şagirdlərin ehtiyaclarına cavab verə bilir. Bu isə müəllimin dərsdə bütün şagirdləri prosesə cəlb etməsinə kömək edir. “Tədqiqatçı pedaqoqlar (V.P.Bespalko, M.V.Klarin, Q.K.Selevko və b.) və psixoloqlar (C.Keroll, B.Blum və b.) artıq müəyyənləşdirmişlər ki, məktəbdə şərait olduqda təhsilin keyfiyyətinin yüksəldilməsi yalnız pedaqoji texnologiyaların elmi əsasda təkmilləşdirilməsi və işdə yaradıcı şəkildə tətbiqi ilə mümkündür. Yeni, nəticəyönümlü texnologiyaların yaradıcı tətbiqi ciddi elmi-metodik layihələrin, konkret sinif otağında aparılan pedaqoji proseslərin təminatlı uğurunun əldə olunmasını nəzərdə tutur” [3].

Beləliklə, ibtidai siniflərdə riyaziyyat fənninin tədrisində yeni texnologiyaların rolu yalnız dərsin əyaniliyini artırmaqla məhdudlaşmır, həm də şagirdlərin müstəqil öyrənmə, tədqiqat və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Müasir məktəbin qarşısında duran əsas vəzifələrdən biri də məhz texnologiyaların bu imkanlarından səmərəli istifadə etməkdir. İbtidai siniflərdə riyaziyyat tədrisi şagirdlərin gələcək elmi biliklərinin, məntiqi və yaradıcı düşüncələrinin formalaşması üçün əsas baza rolunu oynayır. Bu mərhələdə istifadə olunan metod və vasitələr uşaqların riyazi təsəvvürlərinin inkişafında həlledici əhəmiyyət kəsb edir. Müasir dövrdə ənənəvi təlim metodları ilə yanaşı, yeni texnologiyaların tətbiqi də təlimin keyfiyyətinə güclü təsir göstərir. Bu texnologiyaların pedaqoji və metodoloji əhəmiyyəti bir sıra istiqamətlərdə özünü göstərir.

Müəllimlər yeni təlim texnologiyalarını tətbiq etməklə dərsləri, mövzuları daha maraqlı edən, şagirdləri, əsasən, sağlam mühakimələr irəli sürməyə, sonradan real həyata tətbiq edəcəkləri məzmunu başa düşməyə yardım edən mühüm vasitələrə çevirə bilərlər. Müasir dərsliklərdən müxtəlif nümunələr göstərə bilərik. Məsələn, 2-ci sinif riyaziyyat dərsliyində “Ədədlərin müqayisəsi” mövzusunun tədrisində dərsin motivasiya mərhələsində müəllim Powerpoint platformasından istifadə edə bilər: İki qutu göstərilir, birində 9 alma, birində isə 5 alma var. Uşaqlara sual ünvanlanır: *Bu iki qutudan hansı daha ağırdır?...* Deməli, bugün ədədlərin müqayisəsini öyrənəcəyik. Həmin dərsə aid YouTube tətbiqindən əyləncəli videolardan [https://www.youtube.com/watch?v=YhOf0H_gLP8], hazır oyunlar

[https://apps.mathlearningcenter.org/number-line/] da dərs prosesini daha hərəkətli edir. Həmçinin, dərs prosesində müxtəlif onlayn paltformalardan: Kahoot, Quizizz, Wordwall, Text-to-speech və s. istifadə edilə bilər. Bundan əlavə, əyaniliyi təmin etmək və şagirdləri dərs prosesində fəallaşdırmaq üçün “Artan-azalan sıra ilə düzələn” oyunu tətbiq olunur. Bu zaman müəllim 21-dən 99-a kimi müxtəlif ədədlərin yazılı olduğu kartları üzüaşağı düzür və şagirdlər bu kartlardan götürüb artan və ya azalan sıra ilə düzülürlər. Başqa bir nümunə, “İkirəqəmli ədədlə birrəqəmli ədədin toplanması” mövzusunda top ilə oyun qurula bilər. Müəllim müxtəlif şifahi misallar səsləndirərək topu bir şagirdə atır, həmin şagird cavabı deyib topu yenidən müəllimə yönləndirir və bu oyun beləcə davam edir.

Deməli, yeni təlim metodları təhsilin məzmununu daha yaxşı mənimsəmək və şagirdlərin müstəqil cavab vermək məqsədi ilə tələb olunan təfəkkür prosesini inkişaf etdirmək üçün çox faydalıdır. “Yeni təlim texnologiyalarının üstün cəhətlərini prof. Ə.Ə.Ağayev belə göstərir: “...dərs tam fəallıq şəraitində keçir, təkcə müəllim deyil, şagirdlər də yaradıcılıq axtarışında olurlar, müstəqil düşüncə tərzi formalaşır, təşəbbüskarlıq, yeniliyə meyllilik güclənir”. Təlim prosesini aktivləşdirmək üçün düşünmə qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək və öyrənməyə maraq yaratmaq məqsədini güdən müəllim, şagirdi təlimə cəlb edəcək müəyyən metod, texnika və proseduralardan istifadə etməlidir” [1, s.4–5]. Şagird təliminin fəal iştirakçısı olmaq üçün hazırlanmalıdır. Müəllim şagirdə dünyanı başa düşməkdə və qazandığı bilikləri real həyat şəraitinə tətbiq etməkdə yardım göstərməlidir. Yeni texnologiyalar tədris strategiyasının yerinə yetirilməsinə istiqamətləndirildiyindən, onlar nəzərdə tutulmuş təlim məqsədlərinə nail olmaqda əsas alət rolu oynayır.

Yeni təlim texnologiyaları əsasında tədris edilən dərslərdə müəllimin rolu aşağıdakı sxemdə göstərilən funksiyaların yerinə yetirilməsi ilə bağlı ola bilər (cədvəl 1). Sxemdən görünür ki, müəllimin funksiyalarına dizayner anlayışı da daxil edilmişdir. Burada dizayner müəllimin təhsil prosesinin məzmunu ilə bağlı kurikulumlara uyğun mövzu və onun məzmununun müəyyənləşdirməsi, onu şagirdlərin imkanlarına uyğunlaşdırması mənasında başa düşülməlidir.




**Cədvəl 1.**

Metodoloji baxımdan texnologiyaların istifadəsi təlim prosesini daha çevik və effektiv edir. Əvvəla, texnologiyalar differensial təlimi təmin edir. Ənənəvi sinifdə bütün şagirdlər eyni tapşırığı həll edərkən çətinliklər yaranır, lakin texnologiyalar vasitəsilə hər bir şagirdin səviyyəsinə uyğun fəaliyyət təşkil etmək mümkündür. Məsələn, 3-cü sinif riyaziyyat dərsliyində "Üçrəqəmli ədədlərin toplanması" mövzusunda zəif şagirdlər üçün sadə vizual tapşırıqlar, üçrəqəmli ədədlərlə yeni onluq yaratmayan birrəqəmli, sonra ikirəqəmli ədədin cəmi ilə bağlı tapşırıqlar, güclülər üçün isə daha çətin məsələlər təqdim oluna bilər. İkincisi, texnologiyalar qiymətləndirmə prosesində mühüm üstünlüklər yaradır. Elektron testlər nəticələri dərhal göstərir, şagirdin səhvlərini analiz edir və fərdi hesabat təqdim edir. Bu, həm müəllimə, həm də valideynə şagirdin inkişaf dinamikasını izləməyə imkan verir. Ənənəvi yazılı qiymətləndirmə ilə müqayisədə bu üsul daha obyektiv və operativdir. Üçüncüsü, texnologiyalar riyazi anlayışların vizual modelləşdirilməsinə şərait yaradır. Riyaziyyatda bəzi abstrakt mövzular – məsələn, kəsrlərin müqayisəsi, həndəsi fiqurların həcmi və ya zaman anlayışı – uşaqlar üçün çətin görünə bilər. Misal üçün, "Tutum" dərsində bu oyundan istifadə oluna bilər. Bu oyun müxtəlif vasitələrlə tutumu izah edir [https://apps.mathlearningcenter.org/geoboard/].

Texnologiyalar bu anlayışları animasiyalar, 3D modellər, interaktiv qrafiklər vasitəsilə sadələşdirir və daha anlaşıqlı edir. Məsələn, 2-ci sinifdə "Pullar" mövzusunda müəllim uşaqlara əvvəlcədən kağızdan pul modellərini hazırlamağı tapşırır. Aşağıdakı mənbələrdən istifadə etməklə pulları kiçik ölçüdə çap etmək də olar:

- en.wikipedia.org/wiki/Azerbaijani_manat
- i.pinimg.com/originals/f9/a4/a4/f9a4a4bea8792117629ccc8164c3f342.jpg
- upload.wikimedia.org/wikipedia/commons/c/c5/Azerbaijani_qapiks.jpg
- cbar.az/moneymarks/coins?category=1

Sinifdə bu pullar vasitəsilə müxtəlif hesablama bacarıqları formalaşdırılacaq. Müəllim şagirdlərə nümayiş etdirməklə qəpik və kağız pulları xatırladır. Və yaxud 3-cü sinif riyaziyyat dərsliyində "Saat" mövzusunda müəllim aşağıdakı oyunlardan istifadə edə bilər:

- https://www.thatquiz.org/tq-g/math/time/
- https://www.abcya.com/games/telling_time

"Kəsişən və paralel düz xətlər" mövzusu isə asan formada bu lövhədən istifadə etməklə izah edilə bilər:

- https://apps.mathlearningcenter.org/geoboard/

Texnologiyalar müəllimə dərs prosesində daha çox yaradıcı yanaşma tətbiq etmək imkanı verir. Müəllim müxtəlif onlayn resurslardan, tədris oyunlarından, simulyasiyalardan istifadə edərək şagirdlərə yeni öyrənmə

mühiti təqdim edə bilər. Bu isə yalnız biliklərin ötürülməsi deyil, həm də şagirdlərin özləri tərəfindən kəşf etmə yolu ilə öyrənməsini təmin edir. Bundan əlavə, texnologiyalar müəllim-valideyn əməkdaşlığında da yeni imkanlar açır. Elektron platformalar vasitəsilə valideynlər övladlarının nəticələrini izləyə, müəllimlə əlaqə qura bilirlər. Bu isə ibtidai sinif şagirdlərinin riyazi hazırlığında üçtərəfli – müəllim, şagird, valideyn – əməkdaşlığını gücləndirir. Beləliklə, texnologiyaların istifadəsinin pedaqoji əhəmiyyəti onların şagirdlərdə maraq, motivasiya və diqqəti artırması ilə, metodoloji əhəmiyyəti isə fərdiləşdirilmiş təlim, obyektiv qiymətləndirmə və riyazi anlayışların vizual modelləşdirilməsi ilə bağlıdır. Bu iki istiqamət bir-birini tamamlayaraq ibtidai siniflərdə riyaziyyat tədrisinin keyfiyyətini yüksəldir.

İbtidai siniflərdə riyaziyyat fənninin tədrisində yeni texnologiyaların istifadəsi pedaqoji baxımdan çoxsaylı üstünlüklərə malik olsa da, bu proses hər zaman sadə və problemsiz həyata keçirilmir. Təcrübə göstərir ki, müəllimlərin hazırlanması və dərs prosesinə texnologiyaların inteqrasiyası bir sıra metodoloji çətinliklərlə müşayiət olunur. Bu çətinliklər həm pedaqoji kadrların peşə hazırlığı, həm də mövcud təhsil mühitinin imkanları ilə bağlıdır.

**Müəllimlərin İKT bacarıqlarının məhdudluğu**

İbtidai sinif müəllimlərinin əksəriyyəti yeni texnologiyaların imkanlarından tam şəkildə yararlana bilmir. Bunun əsas səbəblərindən biri onların informasiya-kommunikasiya texnologiyaları sahəsində biliklərinin və bacarıqlarının kifayət qədər olmamasıdır. Müəllimlər bəzən elektron platformalardan, interaktiv lövhədən və ya rəqəmsal simulyasiyalardan istifadə etməyi texniki prosedur kimi qəbul edir, pedaqoji məqsədlərə yönəltməkdə çətinlik çəkirlər. Bu isə texnologiyanın dərsin məzmununa səmərəli inteqrasiyasını məhdudlaşdırır.

**Kurikulumla uyğunluq problemi**

Yeni texnologiyaların uğurlu tətbiqi üçün onların mövcud kurikulum tələblərinə uyğunlaşdırılması vacibdir. Lakin mövcud elektron resursların bir çoxu ümumi xarakter daşıyır və ibtidai sinif riyaziyyat proqramının konkret məqsəd və nəticələrinə cavab vermir. Nəticədə, müəllim texnologiyadan istifadə etsə də, bu, bəzən kurikulumun məqsədlərini dəstəkləmir, əksinə, dərs prosesini formal şəkildə texnologiya ilə “bəzəməyə” gətirib çıxarır.

**Şagirdlərin yaş xüsusiyyətlərinə uyğunluq çətinlikləri**

İbtidai sinif şagirdləri psixoloji və fizioloji baxımdan formalaşma mərhələsindədir. Bu dövrdə təlim prosesinin əsas xüsusiyyəti əyaniliyə və sadəliyə söykənməkdir. Lakin bəzi texnologiyalar, xüsusilə mürəkkəb interfeysli tətbiqlər və ya çoxsaylı mətn yönümlü resurslar - kiçikyaşlı uşaqlar üçün anlaşılan olmur. Bu halda texnologiya şagirdin marağını artırmaq əvəzinə, əksinə, öyrənmə prosesini çətinləşdirə və motivasiyanı azalda bilər.

**Qiymətləndirmə mexanizmlərində boşluqlar**

Yeni texnologiyalarla tədrisin ən mühüm üstünlüklərindən biri elektron qiymətləndirmədir. Lakin ibtidai siniflərdə bu sahədə də metodoloji boşluqlar müşahidə olunur. Elektron testlərin çoxu yalnız reproduktiv bilikləri, yəni şagirdin əzbərlədiyi məlumatı yoxlayır. Halbuki ibtidai siniflərdə əsas məqsəd riyazi təfəkkürün, məntiqi düşünmənin və problem həll etmə bacarığının inkişafıdır. Bu bacarıqları ölçmək üçün isə xüsusi hazırlanmış adaptiv testlər və elektron platformalar tələb olunur. Onların çatışmazlığı metodoloji problemlər yaradır.

**İnfrastruktur və texniki təminat məhdudiyyətləri**

Texnologiyaların uğurlu tətbiqi üçün məktəblərin müvafiq texniki baza ilə təmin olunması vacibdir. Lakin bəzi məktəblərdə internetin zəif olması, interaktiv lövhələrin işlək vəziyyətdə olmaması və ya kompüterlərin sayının azlığı dərs prosesində texnologiyaların istifadəsini məhdudlaşdırır. Bu zaman müəllimlər metodoloji baxımdan düzgün yanaşsa belə, texniki imkanların məhdudluğu texnologiyanın dərsə inteqrasiyasını mümkünsüz edir.

**Müəllimin pedaqoji yanaşması ilə bağlı çətinliklər**

Texnologiyanın istifadəsi sadəcə texniki bacarıqla ölçülmür, o həm də pedaqoji metodların düzgün seçilməsini tələb edir. Bəzi hallarda müəllimlər texnologiyadan dərsin məqsədinə uyğun olmayan formada istifadə edirlər: məsələn, mövzunun izahını tamamilə texnologiyaya həvalə edir və şagird-müəllim ünsiyyətini minimuma endirirlər. Halbuki ibtidai siniflərdə şagirdlərlə birbaşa təmas, sual-cavab və şifahi izah öyrənmənin əsas şərtlərindən biridir. Bu balansın qorunmaması da metodoloji çətinlik kimi çıxış edir.

**Elektron resursların pedaqoji adaptasiya problemi**

Dərsliklər və ya ənənəvi metodik vəsaitlər illərlə sinif şəraitinə uyğunlaşdırılmış, pedaqoji cəhətdən işlənmiş materiallardır. Elektron resurslar isə çox vaxt bu qədər dərin pedaqoji adaptasiyadan keçmir. Müəllim həmin resursları öz dərsinə uyğunlaşdırmaqda çətinlik çəkir. Bu, əlavə vaxt və metodoloji hazırlıq tələb edir ki, praktikada hər müəllim bunu həyata keçirə bilmir.

Bu çətinliklərin aradan qaldırılmasının bəzi yolları var, hansı ki bu problemlərə düzgün yanaşma vasitəsilə həll edilə bilər. İlk növbədə, müəllimlərin peşəkar inkişaflarına diqqət yetirilməlidir. Müntəzəm təşkil olunan seminarlar, vebinarlar müəllimlərin texnoloji bacarıqlarının inkişafına yardım edir. Bununla yanaşı, **texniki dəstəyin gücləndirilməsi** də mühüm amildir. Məktəblərdə müasir avadanlıqların təmin olunması, sürətli internetin mövcudluğu və İT mütəxəssislərinin dəstəyi müəllimlərin işini asanlaşdırır. **Metodoloji dəstək** isə yeni texnologiyaların uğurla tətbiqi üçün vacibdir. Müəllimlərə uyğun dərs planları, rəqəmsal vəsaitlər təqdim edilməli və onların müxtəlif yaş qruplarına uyğun istifadəsi izah edilməlidir. Eyni zamanda,

müəllimlərin motivasiyasını artırmaq üçün **təcrübə mübadiləsi və uğurlu nümunələrin paylaşılması** vacibdir. Belə tədbirlər həm müəllimlər arasında əməkdaşlığı gücləndirir, həm də yeni texnologiyalara marağı artırır. Nəhayət, **fərdiləşdirilmiş yanaşma** tətbiq edilməlidir. Şagirdlərin texnoloji bacarıq səviyyələri müxtəlif ola bilər. Buna görə müəllimlər fərdi tapşırıqlardan və əlavə resurslardan istifadə edərək bütün şagirdlərin öyrənmə prosesinə qoşulmasına şərait yaratmalıdırlar.

Nəticə etibarilə, İbtidai siniflərin riyaziyyat tədrisində yeni texnologiyaların tətbiqi təlim prosesini daha maraqlı, əyanı və effektiv etsə də, müəllimlər bir sıra metodoloji çətinliklərlə qarşılaşırlar. Bu çətinliklər əsasən dərs planlarının rəqəmsal mühitə uyğunlaşdırılması, müəllimlərin texnoloji bacarıqlarının yetərli olmaması, şagirdlərin müxtəlif texnoloji səviyyələri və texniki imkanların məhdudluğu ilə bağlıdır.

Lakin görüləcək məqsədyönlü tədbirlər – müəllimlərin peşəkar inkişafına dəstək verilməsi, məktəblərin texniki təminatının yaxşılaşdırılması, metodik vəsaitlərin hazırlanması və təcrübə mübadiləsinin təşviqi – bu problemlərin aradan qaldırılmasına imkan yaradır. Yeni texnologiyaların riyaziyyat tədrisinə inteqrasiyası yalnız texniki və metodoloji çətinliklərin həllindən sonra gözlənilən səmərəni verə bilər. Bu, həm müəllimlərin peşəkar inkişafına, həm də şagirdlərin öyrənmə keyfiyyətinə müsbət təsir göstərir.

***Ədəbiyyat***

1. *https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Yeni-T%C9%99lim-Texnologiyalari-muhazireler.pdf*
2. *https://bilaledebiyyattedrisi.blogspot.com/2018/10/yeni-tlim-texnologiyalar-mkdaslq.html*
3. *Ümhani Məmmədova, Fərqanə Əliyeva. Müasir təlim texnologiyaları. Bakı – 2014. səh.190.*
4. *https://www.trims.edu.az/noduploads/book/quot-riyaziyyat-quot-fanni-uzra-2-ci-sinif-ucun-darslik-1-ci-hissa.pdf*
5. *https://www.trims.edu.az/noduploads/book/quot-riyaziyyat-quot-fanni-uzra-2-ci-sinif-ucun-metodik-vasait-1630389551-915.pdf*
6. *https://www.trims.edu.az/noduploads/book/quot-riyaziyyat-quot-fanni-uzra-3-cu-sinif-ucun-darslik-2-ci-hissa-1663001031-619.pdf*

**Abdurahimova E.A.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***abdurahimlielnara@gmail.com***

# KORREKSİYA PEDAQOQUNUN İNKLÜZİV TƏHSİLDƏ PSİXOLOJİ-PEDAQOJİ MÜŞAYİƏT PROSESİNDƏKİ ROLU

***Xülasə***

*Məqalədə sağlamlıq imkanları məhdud şagirdlərin inklüziv təhsildə dəstəklənməsində korreksiya pedaqoqunun mühüm rolu vurğulanır. Qeyd edilir ki, o, yalnız xüsusi təhsil dəstəyi təqdim etmir, həm də psixoloji-pedaqoji müşayiətin təşkili və koordinasiyasında əsas əlaqələndirici fiqur kimi çıxış edir. Korreksiya pedaqoqu şagirdlərin fərdi xüsusiyyətlərini müəyyənləşdirərək onların inkişaf ehtiyaclarını qiymətləndirir, geriləmələrin aradan qaldırılması üçün korreksiyaedici tədbirlər hazırlayıb tətbiq edir, valideyn və müəllimlərin maarifləndirilməsinə yönəlmiş sistemli fəaliyyət göstərir. O, həmçinin şagirdlərin sosiallaşmasına, məktəb mühitinə uyğunlaşmasına dəstək verir. Məqalədə korreksiya pedaqoqunun peşəkarlığı və multidissiplinar komanda ilə səmərəli əməkdaşlığın inklüziv təhsilin uğurunda həlledici rol oynadığı qeyd olunur.*

# РОЛЬ КОРРЕКЦИОННОГО ПЕДАГОГА В ПРОЦЕССЕ ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКОГО СОПРОВОЖДЕНИЯ В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ

***Резюме***

*В статье подчёркивается важная роль педагога-коррекционера в поддержке обучающихся с ограниченными возможностями здоровья в инклюзивной образовательной среде. Отмечается, что он не только оказывает специализированную педагогическую поддержку, но и выступает ключевой фигурой в организации и координации психолого-педагогического сопровождения. Педагог-коррекционер определяет индивидуальные особенности учащихся, оценивает их образовательные и развивающие потребности, разрабатывает и применяет коррекционные мероприятия для устранения отставаний. Он также проводит системную работу по просвещению родителей и учителей, содействует социальной адаптации детей и их успешному включению в школьную среду. В статье подчёркивается, что профессионализм педагога-коррекционера и его эффективное взаимодействие с мультидисциплинарной командой имеют решающее значение для успешной реализации инклюзивного образования.*

# THE ROLE OF THE CORRECTİONAL PEDAGOGUE İN THE PROCESS OF PSYCHOLOGİCAL AND PEDAGOGİCAL SUPPORT İN INCLUSİVE EDUCATİON

***Summary***

*The article highlights the important role of the correctional teacher in supporting students with special educational needs within an inclusive learning environment. It is noted that the correctional teacher not only provides specialized educational support but also serves as a key figure in organizing and coordinating psycho-pedagogical assistance. The specialist identifies students' individual characteristics, assesses their developmental and educational needs, and designs and implements corrective measures to address developmental delays. The correctional teacher also conducts systematic work with parents and teachers, promoting awareness and collaboration. Additionally, they support students' socialization and adaptation to the school environment. The article emphasizes that the professionalism of the correctional teacher and effective cooperation with a multidisciplinary team are crucial for the successful implementation of inclusive education.*

***Açar sözlər:*** *psixoloji-pedaqoji müşayiət, inklüziv təhsil, sağlamlıq imkanları məhdud şəxslər (SİM), korreksiya pedaqoqu, korreksiyaedici fəaliyyət, ailə ilə əməkdaşlıq*

***Ключевые слова:*** *психолого-педагогическое сопровождение, инклюзивное образование, лица с ограниченными возможностями здоровья (ОВЗ), коррекционный педагог, коррекционная деятельность, взаимодействие с семьёй*

***Key words:*** *psychological and pedagogical support, inclusive education, people with disabilities (PWD), correctional educator, correctional activity, cooperation with the family*

İnklüziv təhsil konsepsiyası, yalnız təhsil sahəsini deyil, həm də cəmiyyətin sosial strukturlarını əhatə edən mürəkkəb bir modeldir. Bu yanaşma, xüsusi ehtiyacları olan uşaqların cəmiyyətdə tam hüquqlu fərdlər kimi inkişaf etməsini təmin etmək məqsədini güdür. İnklüziv təhsil, fərqli sosial, iqtisadi və mədəni mənşələrdən gələn uşaqların birgə təhsil almasını təşviq edir, eyni zamanda onların fərdi inkişaf ehtiyaclarına uyğun fərqli tədris metodları tətbiq edərək hər bir uşağın ən yaxşı potensialını üzə çıxarmağa çalışır. Azərbaycanda inklüziv təhsil bu gün daha çox aktualdır və bunun müvəffəqiyyətlə həyata keçirilməsi üçün mövcud hüquqi, təşkilati və sosial strukturların inkişafı və təkmilləşdirilməsi vacibdir. İnklüziv təhsil, sadəcə uşaqların təhsil almalarını deyil, onların sosial və mədəni həyatda iştiraklarını da dəstəkləyir. Bu, uşaqların fiziki, zehni və emosional inkişafları ilə yanaşı, onların cəmiyyətə inteqrasiyasını və sosial bərabərliyini təmin etmək məqsədini güdür. Əgər bir tərəfdən inklüziv təhsil modeli uşaqların təhsilinə şərait yaratmağa çalışırsa, digər tərəfdən cəmiyyətin müxtəlif qruplarının

ehtiyaclarını nəzərə alaraq sosial inteqrasiyanın önünü açır. Bu təhsil modelinin Azərbaycanda tətbiqinə gəldikdə isə, hüquqi və təşkilati məsələlərin düzgün qurulması mühüm rol oynayır. Məsələn, təhsil müəssisələrinin və xüsusi təlimlərə dair normativ hüquqi aktların hazırlanması, xüsusi ehtiyacları olan uşaqlara xidmət göstərən mütəxəssislərin təhsili, həmçinin müvafiq təhsil mühitlərinin qurulması bu məsələlərin əsasını təşkil edir. Ən əsası, bu cür təhsil modelinin genişlənməsi üçün inklüziv təhsil üçün müvafiq resursların təmin edilməsi vacibdir. Korreksiya pedaqoqunun inklüziv təhsildəki rolu çoxşaxəlidir və uşaqların təhsil prosesindəki rolunu irəlilətmək üçün çox əhəmiyyətli bir həlqədir. Bu mütəxəssis, uşaqların fərdi ehtiyaclarına uyğun olaraq, onların təhsilinə dəstək verir və onların sosial inteqrasiyasına kömək edir. İnklüziv təhsildə korreksiya pedaqoqu, yalnız uşaqların inkişafını izləmək və diaqnoz qoymaqla kifayətlənmir, həm də onlara ən uyğun tədris metodlarını tətbiq edərək onların uğurlu təhsil almasına şərait yaradır.

Korreksiya pedaqoqunun funksiyaları, yalnız uşaqların inkişafını izləmək və onların ehtiyaclarına uyğun müdaxilələr təklif etməkdən ibarət deyil. Bu mütəxəssis, uşaqların inkişaf səviyyələrini qiymətləndirərək, onların xüsusiyyətlərinə uyğun fərdi və ya qrup şəklində təhsil proqramları hazırlayır. Hər bir uşağın təhsil ehtiyacları fərqli olduğundan, korreksiya pedaqoqu bu fərqləri nəzərə alaraq, ən uyğun pedaqoji metodları seçir və tətbiq edir. Bu yanaşma, uşaqların akademik bacarıqlarının inkişafına kömək etməklə yanaşı, onların emosional və sosial inkişafını da dəstəkləyir. Bundan əlavə, korreksiya pedaqoqu uşaqların davranışlarını və sosial bacarıqlarını izləyərək, onların məktəbə inteqrasiyasını və cəmiyyətə uyğunlaşmalarını təmin edir. Həmçinin, bu mütəxəssis, müəllimlərə və valideynlərə xüsusi təlimatlar və məsləhətlər verərək onların uşaqlarına daha yaxşı dəstək olmalarını təmin edir. Müəllimlərə təqdim etdiyi təlimatlar, onların tədris metodlarını uşaqların ehtiyaclarına uyğunlaşdırmağa kömək edir. Valideynlərə isə, uşaqlarının inkişafına dair məlumat verərək, onların evdə dəstəkləyici bir mühit yaratmalarına şərait yaradır.

Korreksiya pedaqoqu, həmçinin uşaqların psixoloji və emosional vəziyyətlərini qiymətləndirərək, onların özünə inamını artırmağa və sosial bacarıqlarını inkişaf etdirməyə yönəldilmiş fəaliyyətlər həyata keçirir. Bu mütəxəssis, uşaqların hərtərəfli inkişafını dəstəkləyərək, onların təhsil sistemindəki səmərəli iştiraklarını təmin edir və inklüziv təhsil mühitində bərabər imkanlar yaratmağa kömək edir. Bu cür müdaxilələr, uşaqların yalnız akademik baxımdan deyil, həm də sosial və emosional cəhətdən sağlam bir inkişaf yolu keçmələrini təmin edir.

Azərbaycanda inklüziv təhsilin inkişafı üçün korreksiya pedaqoqunun fəaliyyəti, yalnız onun öz funksiyalarına deyil, həm də müvafiq hüquqi və təşkilati dəstəklə əlaqələndirilməlidir. Korreksiya pedaqoqunun işinin daha

effektiv olması üçün dövlət tərəfindən təhsil müəssisələrinə müvafiq maliyyə və tədris resursları ayrılmalı, bu sahədə çalışan mütəxəssislərin təlimi daha da inkişaf etdirilməlidir.

Göründüyü kimi, inklüziv təhsil konsepsiyası, sosial və təhsil strukturlarının mürəkkəbliyi səbəbindən bəzi izahlar tələb edir. İlk növbədə, adi təhsil, inklüziv təhsil və inkişaf xüsusiyyətləri olan uşaqlar üçün nəzərdə tutulan digər təhsil formalarının arasındakı fərqləri müəyyən edək.

1. Adi təhsil: Bu, ümumiyyətlə, xüsusi ehtiyacları olmayan və sağlam uşaqların iştirak etdiyi ənənəvi təhsil modelidir. Adi təhsil müəssisələrində bütün şagirdlər eyni dərs proqramı və təlim metodları ilə təhsil alırlar.

2. İnklüziv təhsil: İnklüziv təhsil, xüsusi ehtiyacları olan uşaqların, yəni fiziki, zehni və ya emosional inkişaflarında çətinlikləri olan uşaqların, adi siniflərdə təhsil almasını təmin edən bir yanaşmadır. Bu təhsil modeli, hər bir uşağın fərdi xüsusiyyətlərinə uyğun olaraq, onların təhsilinə şərait yaratmaq üçün təhsil prosesi və mühitində dəyişikliklər edir.

3. Digər təhsil formaları: Bu, daha spesifik və ixtisaslaşdırılmış yanaşmaları əhatə edir. Məsələn, xüsusi məktəblər, təhsil müəssisələri və ya proqramlar, müəyyən inkişaf pozuntuları və ya xüsusi ehtiyacları olan uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu uşaqların təhsili, onların inkişaf səviyyələrinə və ehtiyaclarına uyğun olaraq tərtib edilir və tətbiq edilir.

İnklüziv təhsil, xüsusilə sosial inteqrasiya, bərabərlik və hər bir uşağın təhsil hüquqlarının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə Azərbaycanda inklüziv təhsilin inkişafı, bir sıra mühüm məsələlərin həllini tələb edir. Bu məsələlərə regional səviyyədə normativ-hüquqi aktların işlənib hazırlanması, təhsil müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, məhdud imkanlı şəxslərə göstərilən xidmətlər üzrə fənlərarası və qurumlararası sistemin qurulması, psixoloji-pedaqoji müşayiətin təşkilində müxtəlif mütəxəssislərin funksiyalarının dəqiq müəyyənləşdirilməsi daxildir. Bu problemlər, korreksiya pedaqoqunun fəaliyyətinə birbaşa təsir edir və onların həlli, bu mütəxəssisin status və funksiyalarını dəqiqləşdirməyə imkan yaradır.

Korreksiya pedaqoqu – psixi və ya fiziki inkişafında müxtəlif xüsusiyyətləri olan uşaqları cəmiyyətə uyğunlaşdıran, onları tərbiyə edən və öyrədən pedaqoji profilli mütəxəssisdir. Korreksiya pedaqoquna özəl və kommersiya əsaslı uşaq bağçalarında, ümumi təhsil və ixtisaslaşdırılmış məktəblərdə, internatlarda, tibb mərkəzlərində, uşaq evlərində və sanatoriyalarda ehtiyac duyulur. Bu mütəxəssislər fərdi və ya qrup şəklində uşaqlarla məşğul olmaqla, valideynləri, tərbiyəçiləri və pedaqoqları məsləhətləndirməklə özəl təcrübə də apara bilərlər.

Korreksiya pedaqoqunun köməyi, inkişafında və ya danışıq, eşitmə, görmə, hərəkət sistemi, vestibulyar aparat, beyin və sinir sisteminin

funksiyalarında pozuntular olan uşaqlarla işləyərkən tələb olunur. Korreksiya pedaqoqunun inklüziv təhsildəki peşə fəaliyyəti özünəməxsus xüsusiyyətlərə malikdir və bu, inklüziv təhsilin özünəməxsusluqları ilə əlaqədardır. Bu xüsusiyyətlər, məhdud sağlamlıq imkanı olan şagirdlərlə aparılan tənzimləyici işin şəxsiyyətə yönəlik yanaşma ilə həyata keçirilməsində özünü göstərir.

Azərbaycanda inklüziv təhsil əsasən "Təhsil haqqında" Qanun və digər normativ sənədlərlə tənzimlənir. Lakin bəzi təşkilati məsələlərin, xüsusilə də inklüziv təhsil prosesinə dəstək verən mütəxəssislərin – o cümlədən korreksiya pedaqoqunun işə qəbulu və fəaliyyət prinsiplərinin daha konkret şəkildə müəyyənləşdirilməsinə ehtiyac var.

Bu kontekstdə təhsilin inklüzivliyi çərçivəsində korreksiya pedaqoqunun rolu çoxşaxəlidir. O, inklüziv təhsil alan uşaqların psixoloji-pedaqoji müşayiətində aparıcı fiqurlardan biridir. Onun funksiyalarına diaqnostik, korreksiyaedici, təlimatlandırıcı və maarifləndirici fəaliyyətlər daxildir. Bu fəaliyyətlər, həm şagirdlərin inkişafı, həm müəllimlərin bilik və bacarıqlarının artırılması, həm də valideynlərin maarifləndirilməsi istiqamətində həyata keçirilir.

Maddi-texniki baza məsələsinə gəldikdə isə, korreksiya pedaqoqunun fəaliyyət göstərdiyi kabinetin müasir tələblərə uyğunlaşdırılması vacibdir. Təhsil müəssisələri, müxtəlif inkişaf pozuntuları olan uşaqlarla işləyən mütəxəssisin ehtiyaclarını qarşılayacaq avadanlıq və metodik vasitələrlə təmin olunmalıdır. Bu vasitələrin seçimi uşaqların psixofizioloji xüsusiyyətləri və xüsusi təhsil tələbatlarına uyğunlaşdırılmalıdır.

Bundan əlavə, inklüziv təhsilin keyfiyyətini artırmaq üçün komanda işi və qurumlararası əməkdaşlıq sistemi vacibdir. Psixoloji-pedaqoji müşayiət yalnız bir mütəxəssisin işi deyil, bu prosesə korreksiya pedaqoqu ilə yanaşı psixoloq, loqoped, sosial pedaqoq, tərbiyəçi, tibb işçisi və təlim-tərbiyə prosesində iştirak edən digər şəxslər də daxil olmalıdır. Onların qarşılıqlı fəaliyyəti və koordinasiyası inklüziv prosesin səmərəliliyini artırır.

Psixoloji-pedaqoji müşayiətin uğurlu olması üçün erkən müdaxilə və dəqiq diaqnostika mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə psixoloji-tibbi-pedaqoji komissiyaların (PTPK) və reabilitasiya mərkəzlərinin işi gücləndirilməli, valideynlərlə sıx əməkdaşlıq təmin olunmalıdır. Korreksiya pedaqoqunun valideynlərlə işi – onların maarifləndirilməsi, motivasiya olunması və korreksiya prosesinə cəlb olunması inklüziv təhsilin sosial tərəflərindən biridir.

Bu prosesin uğurla həyata keçirilməsi, yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynlərini deyil, həm də inklüziv təhsil alan digər uşaqların valideynlərini də əhatə etməlidir. Cəmiyyətin inklüzivliyə münasibətinin formalaşdırılması, tolerantlığın və empatiyanın inkişafı da korreksiya pedaqoqunun maarifləndirici missiyasının tərkib hissəsidir.

A.P.Zarin və V.Z.Kantorun tədqiqatları, korreksiya pedaqoqunun fəaliyyətindəki əsas komponentləri — humanist və sosial — geniş şəkildə təhlil edir. Humanist komponent uşağın fərdi xüsusiyyətləri və ehtiyaclarını nəzərə alaraq onun şəxsiyyətinin inkişafını dəstəkləyir. Bu yanaşma, uşaqların psixoloji və emosional inkişaflarını hərtərəfli izləməyi və onlara şəxsi inkişafları üçün şərait yaratmağı hədəfləyir. Humanist yanaşmanın məqsədi uşağın özünə inamını artırmaq, daxili potensialını kəşf etmək və onu tam şəkildə ortaya çıxarmaqdır. Humanist prinsipin tətbiqi, uşaqların təhsil prosesində aktiv iştirak etmələrini təmin edir, onların özünü ifadə etmələrinə və şəxsi fikirlərini açıq şəkildə bildirmələrinə şərait yaradır. Bu yanaşma, uşaqlara öz güclərinə inanmağı öyrədir və onların təhsil müddətində inkişaf etmələrinə dəstək verir. Korreksiya pedaqoqu bu prinsipi tətbiq edərək uşaqların duyğusal vəziyyətlərini və özünə münasibətlərini dəstəkləyir, onları müsbət inkişaf yoluna yönəldir. Humanist yanaşma, həmçinin uşaqlara qarşı empatik bir münasibət formalaşdırmağa, onların fərdi ehtiyaclarını qəbul etməyə və hər birini unikal şəxsiyyət olaraq dəyərləndirməyə kömək edir. Sosial komponent isə uşağın cəmiyyətə inteqrasiyasını təmin etmək və inklüzivliyin cəmiyyətdə daha geniş şəkildə qəbul edilməsinə yönəlmiş fəaliyyətləri əhatə edir. Bu komponent, uşaqların sosial bacarıqlarını inkişaf etdirir və onların cəmiyyətdə bərabər hüquqlarının təmin olunması üçün müxtəlif sosial tədbirlər həyata keçirir. Sosial komponentin əsas məqsədi uşaqları cəmiyyətdə öz yerini tapmağa və bu mühitdə cəmiyyətin digər üzvləri ilə harmonik şəkildə əlaqə qurmağa təşviq etməkdir. Korreksiya pedaqoqu, sosial komponenti tətbiq edərək uşaqların məktəb və cəmiyyət daxilində sosial inteqrasiyasını dəstəkləyir və onların hərtərəfli inkişafına imkan yaradır. Sosial yanaşma, inklüziv təhsil mühitinin formalaşmasına və bu mühitdə sosial ədalətin təşviqinə xidmət edir. Bu, yalnız uşaqların təhsili ilə məhdudlaşmır, həm də inklüzivliyin bütün cəmiyyət səviyyəsində qəbul edilməsinə xidmət edir. Cəmiyyətin inklüzivliyə dair münasibətini dəyişdirmək və daha çox insanın bu yanaşmaya qoşulmasına şərait yaratmaq məqsədi güdən sosial komponent, inklüziv təhsilin əsas dəyərlərini yaymağa və bu prinsipləri cəmiyyətin bütün təbəqələrinə təqdim etməyə kömək edir. Bu yanaşma, həmçinin sosial bərabərlik və əhatəlilik prinsiplərini gücləndirərək, hər bir uşağın təhsil haqqının qorunmasına və onun təhsil mühitində bərabər imkanlar əldə etməsinə şərait yaradır.

Bu komponentlər, xüsusən inklüziv təhsilin təməl prinsiplərini əks etdirir və uşaqların cəmiyyətə inteqrasiyası və onların sosial həyatla bağlı bacarıqlarının inkişafı üçün önəmli şərait yaradır. A.P.Zarin və V.Z.Kantorun göstərdiyi kimi, sosial və humanist yanaşmaların birgə tətbiqi uşaqların həm psixoloji, həm də sosial inkişafını dəstəkləyərək, inklüziv təhsil mühitinin gücləndirilməsinə və cəmiyyətin ümumi inklüzivliyinə töhfə verir. Bu

yanaşma, uşaqların özünə inamını artırmaqla yanaşı, onları sağlam bir sosial həyat sürməyə hazırlayır və cəmiyyətdə bərabər hüquqlarının tanınmasına nail olur. Korreksiya pedaqoqunun rolu bu komponentlərin tətbiqində mühüm əhəmiyyət kəsb edir və təhsil sistemində inklüzivliyin təşviqində təməl funksiyanı yerinə yetirir.

Beləliklə, korreksiya pedaqoqu inklüziv təhsilin ayrılmaz tərkib hissəsi olaraq yalnız şagirdlərin təhsilini deyil, həm də onların sosial adaptasiyasını və cəmiyyətə inteqrasiyasını təmin edən əsas mütəxəssisdir. Bu mütəxəssis, uşaqların təhsil prosesindəki inkişafını izləyir və onların fərdi ehtiyaclarına uyğun müdaxilələr təklif edərək təhsil mühitini onlara uyğunlaşdırır. Korreksiya pedaqoqu, həm diaqnostik, həm də korreksiya işləri aparmaqla yanaşı, uşaqların psixoloji vəziyyətini qiymətləndirir, onların inkişafında baş verən çətinlikləri aşkarlayır və bu çətinliklərin aradan qaldırılması üçün uyğun metodlar tətbiq edir. Onun fəaliyyətinin əsas məqsədi, uşaqların yalnız akademik inkişafını deyil, həm də sosial bacarıqlarını inkişaf etdirmək, onların emosional və psixoloji vəziyyətlərini yaxşılaşdırmaq və cəmiyyətə uyğunlaşmalarını təmin etməkdir.

Bundan əlavə, korreksiya pedaqoqu ailələrlə sıx əməkdaşlıq edərək, uşaqların inkişafını dəstəkləyir və valideynlərə təhsil prosesində öz rollarını necə daha yaxşı yerinə yetirə biləcəkləri barədə təlimatlar verir. Həmçinin, bu mütəxəssis, digər təhsil işçiləri ilə birgə çalışaraq inklüziv təhsil mühitinin formalaşmasına və inkişafına töhfə verir. Korreksiya pedaqoqunun funksiyaları, müxtəlif mütəxəssislər arasında əlaqələndirici bir rol oynayır, onların təcrübələrini birləşdirir və uşaqların təhsilinə yönəlik səmərəli strategiyalar hazırlayır.

Azərbaycanda inklüziv təhsilin effektiv şəkildə həyata keçirilməsi üçün korreksiya pedaqoqunun rolu getdikcə daha da aktuallaşır. Bu mütəxəssisin təhsil prosesinə daxil edilməsi, inklüziv təhsil mühitinin daha səmərəli və əlverişli olmasını təmin edəcək. Onun fəaliyyətinin qanunvericilikdə dəqiq şəkildə müəyyənləşdirilməsi və dəstəklənməsi, inklüziv təhsil sisteminin səmərəliliyinin artırılması və genişləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu cür hüquqi və təşkilati dəstək, təhsil müəssisələrində korreksiya pedaqoqunun funksiyalarının daha effektiv həyata keçirilməsinə şərait yaradır və uşaqların bərabər təhsil hüquqlarının təmin olunmasına kömək edir.

A.P.Zarin və V.Z.Kantorun, inklüziv təhsil sisteminin inkişafında əsaslı bir nəzəri bazanın formalaşmasına xidmət edir və korreksiya pedaqoqunun rolunun aydınlaşdırılmasına yönəlmiş praktik tövsiyələr verir. Bu tövsiyələr, təhsil sistemindəki müxtəlif səhvləri aradan qaldırmağa və inklüziv təhsilin təkmilləşdirilməsinə yönəlik strateji addımlar atmağa imkan verir. Korreksiya pedaqoqunun fəaliyyəti, yalnız təhsil mühitində deyil, həm də geniş cəmiyyətdə inklüzivliyin təşviqinə və sosial bərabərliyin təmin olunmasına

xidmət edir. Bu yanaşma, uşaqların cəmiyyətdə bərabər hüquqlarla iştirak etmələrini və hər birinin öz potensialını tam şəkildə reallaşdırmalarını təmin edir.

***Ədəbiyyat***

1. *"İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının Oxu materialı. Avropa İttifaqı, Azərbaycan Təhsil Nazirliyi, UNİCEF, Regional İnkişaf İctimai Birliyi. 2019.*
2. *İnklüziv siniflərdə təlimin təşkili. TİPİİ. Oxu materialı. Bakı – 2018.*
3. *İnklüziv təhsil sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Tim Loreman, Coan Deppelervə David Harvey. (Tərcümə - Regional İnkişaf İctimai Birliyi) 2020.*
4. *N.T. Hüseynova – İnklüziv təhsil. Bakı – 2014.*
5. *Zarin, A.P., & Kantor, V.Z. (2010). Учитель-дефектолог в современном обществе: миссия и проблемы подготовки. Вестник Герценовского университета, (1) (175), 126–129.*
6. *Королева, Ю.А. (2016). Готовность педагога к работе с обучающимися с ОВЗ как условие успешности инклюзивного процесса (на материале Оренбургского региона). Вестник ТОГИРРО, (1), 296–299.*
7. *Королева, Ю.А. (2016). Отношение к инклюзивному образованию педагогов общеобразовательных организаций. Концепт, 20, 81–85. https://e-koncept.ru/2016/56330.htm*
8. *Минская, И.В. (2018). Инклюзивное образование: теоретические аспекты и практика реализации в России. Научные исследования и разработки, 3(2), 45-49.*
9. *Шмидт, В.А., & Волкова, Е.М. (2017). Роль педагогического сопровождения в инклюзивном образовании: методологические подходы и практические рекомендации. Педагогика и психология, 35(4), 88–94.*
10. *Петрова, И.Л. (2019). Инклюзивное образование в России: вызовы и перспективы. Вопросы образования и науки, 8(12), 112-117.*
11. *https://e-qanun.az/framework/53554*

**Ağaməmmədova A.N.**
**Odlar Yurdu Universiteti**
***aytenagamemmedovaa@gmail.com***

# DİLİN ÖYRƏNİLMƏSİ ZAMANI METODİK YENİLİKLƏR: YANAŞMALAR, METODLAR, İSTİQAMƏTLƏR

***Xülasə***

*Bu məqalədə xarici dilin tədrisi zamanı metodik yeniliklərin formalaşması, onların inkişaf mərhələləri və aktual tədris tendensiyaları çərçivəsində metodların, yanaşmaların və istiqamətlərin elmi-metodoloji bazası tədqiq olunur. Dil öyrənmə prosesinə təsir göstərən tədris yenilənmələrinin tarixi ardıcıllıq xətti araşdırılır və köhnə didaktik metodlar ilə yenilikçi müasir innovativ metodların ətraflı müqayisəli təhlili təqdim edilir. Elmi işdə müxtəlif zamanlarda tətbiq olunmuş tədris modellərinin praktikadakı göstəriciləri, onların müsbət və zəif cəhətləri elmi əsaslarla dəyərləndirilir. Aparılan araşdırma nəticəsində didaktik yenilənmələrinin tədrisin inkişaf ritminə verdiyi qatqılar müəyyən edilir və metodik istiqamətlərin inkişafı üçün elmi nəticələr təqdim olunur.*

# МЕТОДОЛОГИЧЕСКИЕ ИННОВАЦИИ В ИЗУЧЕНИИ ЯЗЫКОВ: ПОДХОДЫ, МЕТОДЫ, НАПРАВЛЕНИЯ

***Резюме***

*В данной статье исследуются процесс формирования методических инноваций в обучении иностранному языку, этапы их развития, а также научно-методологическая база подходов, методов и направлений в контексте современных образовательных тенденций. Анализируется историческая последовательность методических обновлений, оказывающих влияние на процесс овладения языком, и представляется подробный сопоставительный анализ традиционных дидактических методов с современными инновационными методами. В исследовании научно обоснованно оцениваются практические результаты различных моделей обучения, применявшихся в разные периоды, их сильные и слабые стороны. По итогам проведённого анализа выявляются вклад дидактических нововведений в динамику развития обучения и формулируются теоретические выводы для дальнейшего совершенствования методических направлений.*

# METHODOLOGICAL INNOVATION IN LANGUAGE LEARNING: APPROACHES, METHODS, DIRECTIONS

***Summary***

*This article examines the formation of methodological innovations in foreign language teaching, their stages of development, and the scientific-methodological basis of methods, approaches, and directions within the framework of contemporary educational trends. The historical sequence of pedagogical updates influencing the*

*language learning process is analyzed, and a detailed comparative analysis of traditional didactic methods and modern innovative methods is presented. The study scientifically evaluates the practical outcomes of various teaching models applied at different periods, identifying their strengths and weaknesses. Based on the conducted analysis, the contribution of didactic innovations to the dynamics of educational development is determined, and scientific conclusions are proposed for the further advancement of methodological directions.*

***Açar sözlər:*** *metodik yeniliklər, tədris metodları, pedaqoji yanaşmalar, dil öyrənmə strategiyaları, innovativ tədris istiqamətləri*

***Ключевые слова:*** *методические инновации, методы обучения, педагогические подходы, стратегии изучения языка, инновационные направления преподавания*

***Key words:*** *methodological innovations, teaching methods, pedagogical approaches, language learning strategies, innovative instructional directions*

Zamanla ikinci dil öyrənilməsi sahəsində müxtəlif üsullar və yanaşmalar meydana çıxmışdır. Hər yeni yanaşma əvvəlki üsulların çatışmazlıqlarına cavab olaraq ortaya çıxmış və dil öyrənmənin effektivliyini artırmaq məqsədi daşıyır. Akademik tədqiqatlar göstərir ki, metodologiya tarixi və dil qazanma nəzəriyyəsi ilə tanış olan müəllimlər, tələbələrinin interdil (interlanguage) proseslərini daha yaxşı başa düşürlər. Nəticədə, nəzəri və praktik boşluqların aradan qaldırılması, həmçinin kurs məqsədlərinə və tələbə ehtiyaclarına uyğun üsul seçilməsi vacibdir. Tədris materialları tədris sisteminin mühüm komponenti hesab olunur. Materialların funksiyaları onların öyrənmə məqsədləri, məzmunu, fəaliyyətləri və rolları ilə müəyyən edilir.

Bəzi strategiyalar və tapşırıqlar yeni başlayan tələbələr üçün münasib ola bilər, lakin onlar yüksək səviyyəli tələbələr üçün o qədər də uyğun olmaya bilər. Eyni zamanda, inkişaf etmiş tələbələrin bacarıqları ilə bağlı bəzi fərziyyələr heç bir düşüncə olmadan başlanğıc səviyyəsinə tətbiq edildikdə qeyri-effektiv ola bilər. Bu xüsusilə nitq tələb edən tapşırıqlara aiddir. İnkişaf etmiş tələbələrdən mövzunu cütlərlə və ya qruplarla, əvvəlcədən planlaşdırılmış təlimat olmadan müzakirə etmələri istənilə bilər. Lakin başlanğıc səviyyəsindəki tələbələrdən mövzunu cütlərlə və ya qruplarla müzakirə etmələri xahiş olunduqda, onların nə etməli olduqlarını daha dəqiq şəkildə izah etmək vacibdir və ehtimal ki, istifadə etmək istəyə biləcəkləri bəzi ifadələri vermək də faydalıdır. Bu təlimatlar hər kəsin tapşırığı tam şəkildə başa düşməsini təmin etmək üçün nümayişlə dəstəklənə bilər; lakin yüksək səviyyələrdə bu zəruri olmaya bilər və hətta qəribə və ya himayədarcasına görünə bilər. Yüksək səviyyədə müzakirəni təşkil etmək sadədir — istər əvvəlcədən planlaşdırılmış, istərsə də spontan şəkildə — lakin yeni başlayanlar üçün bu imkan əlçatan olmaya bilər.

Başlanğıc səviyyəsində biz şagirdlərə cümlə və ifadələri ucadan təkrarlamağı öyrədə və nəzarət olunan "ipucu–cavab" məşqləri təşkil edə bilərik. Bu ona görədir ki, tələbələr müəyyən ingilis samitlərini düzgün tələffüz etməkdə, eləcə də uyğun vurğu və intonasiya nümunələrindən istifadə etməkdə çətinlik çəkə bilirlər; koral (xorla) təkrarlama və bu tip məşqlər onların bu çətinlikləri aşmasına kömək edir və eyni zamanda, onlara xoş və rahat mühitdə məşq etmək imkanı yaradır. Lakin inkişaf etmiş tələbələr bu şəkildə məşq etmələri xahiş olunduqda təəccüblənə bilərlər.

Ümumiyyətlə, biz başlanğıc və orta səviyyədə tələbələrə daha çox dəstək veririk, halbuki yüksək səviyyələrdə buna o qədər də ehtiyac olmur. Bu, mürəkkəb tapşırıqlara səhlənkar yanaşacağımız və ya tələbələrdən nə tələb olunduğunu aydın şəkildə izah etməyəcəyimiz demək deyil. Lakin yüksək səviyyədə tələbələrin daha bacarıqlı və özünə güvənən olacağını gözləmək olar və nəticədə hər şeyi bu qədər diqqətli və dəstəkləyici şəkildə izah etməyə ehtiyac qalmır.

Proqram (syllabus) dil elementlərini — struktur, mövzu, anlayış və funksiyaları, bəzi hallarda isə tədris tapşırıqlarını — müəyyən edir. Eyni zamanda danışıq, dinləmə, oxuma və yazma bacarıqlarının inkişafı üçün məqsədləri göstərir. Tədris materialları məzmunun aydınlaşdırılmasına, təcrübənin intensivliyinin müəyyən edilməsinə, vaxt və diqqətin paylanmasına və gündəlik öyrənmə məqsədlərinin yaradılmasına kömək edir. Müəllim rəhbərliyi ilə istifadə üçün nəzərdə tutulmuş materiallar, özünü-öyrənmə və ya əməkdaşlıqla öyrənmə üçün nəzərdə tutulan materiallardan fərqlənir. Bəzi üsullar autentik obyektlər və materialların istifadəsini tələb edir, digərləri isə az pedaqoji təcrübəsi olan şəxslər tərəfindən istifadə edilə bilən özünü-öyrənmə kitabları təqdim edir. Bəziləri isə müəllimin rolunu əvəz edərək, özünüidarə olunan öyrənməyə imkan verir. Materiallar müxtəlif rollar oynayır: məzmunu təqdim etmək, təcrübə təmin etmək, ünsiyyəti stimullaşdırmaq və müəllimsiz öyrənməni dəstəkləmək. Materiallar müxtəlif formalarda mövcuddur.

funksional-ünsiyyətçi metodologiyadakı materiallar şərh etmə, ifadə etmə və mənanı müzakirə etmə kimi ünsiyyət bacarıqlarını vurğulayır. Onlar anlaşıqlı və mənalı məlumat mübadiləsini təşviq edir, qrammatik formaya isə az diqqət yetirirlər. Eyni zamanda tələbələrin bacarıqlarını müxtəlif fəaliyyətlər vasitəsilə inkişaf etdirməyə kömək edən müxtəlif mətn və media növlərini əhatə edir. Fərdiləşdirilmiş öyrənmə sistemlərindəki materiallar tələbələrə öz sürətində irəliləməyə, müxtəlif öyrənmə tərzlərini nəzərə almağa, müstəqil öyrənməyi təşviq etməyə və özünüqiymətləndirmə və irəliləyişi izləmə imkanları təqdim edir. Məsləhət-öyrənmə metodu məzmunu tələbələrin maraqlarına əsaslanır; mövzuları onlar yaradır. Bu üsul öyrənmə maşınları və proqramlaşdırılmış materiallar vasitəsilə lüğət, qrammatika və tələffüz inkişafını davam etdirir.

Qrammatika-tərcümə metodu klassik yunan və latın mətnlərinin sistemli qrammatika öyrənilməsinə əsaslanır. Tədris əsasən ana dildə aparılır və hədəf dil nadir hallarda istifadə olunur. Bu üsul müxtəlif texnikalardan istifadə edir: ədəbi mətnlərin tərcüməsi, oxu anlama sualları, antonim və sinonimlərin istifadəsi, qohum sözlərin müəyyənləşdirilməsi, deduktiv qrammatika məşqləri, boşluqları doldurma tapşırıqları, lüğət siyahıları və qaydaların əzbərlənməsi, sözlərin cümlələrdə istifadəsi və kompozisiya yazma. 1880-ci ildə François Gouin tərəfindən irəli sürülmüş Birbaşa Metod yalnız hədəf dilin istifadəsini tələb edir. İstifadə olunan texnikalar arasında şəkillər, hərəkətlər, dialoqlar, rol oyunları, nağıl danışmaq və oxumaq var. Tələbələr səslə oxuyur, müəllim isə jestlər, şəkillər və nümunələrlə mənanı izah edir, bu da tələbələrin təbii şəkildə anlamasına imkan verir.

Sual-cavab məşqlərində yalnız hədəf dil istifadə olunur, tələbələrə lüğət və qrammatikanı praktikada tətbiq etməyə imkan verir. Müəllimlər səhvi təkrar edərək, səhv sözdən əvvəl fasilə verərək və ya problem işarələyərək özünü-düzəltməni təşviq edə bilər. Şifahi məşqlər müəllim suallarına uyğun strukturlarla cavab vermək və öz suallarını verməyi əhatə edir. Boşluqları doldurma tapşırıqları əvvəl öyrədilmiş qaydalar və nümunələrə əsaslanır. Diktant və eşitdiyini çəkmə tapşırıqları tələbələrin dinləmə bacarıqlarını artırır, xəritə çəkmə isə təlimatlara əsasən obyektləri düzgün yerləşdirməyi tələb edir. Abzas yazmaq tələbələrə fikirlərini yaddaş və ya mətn vasitəsilə ifadə etməyə imkan verir. 1886-cı ildə Beynəlxalq Fonetik Assosiasiya danışıq dili və fonetik tədqiqatlara fokuslanan İslahat Hərəkatını təsis etdi.

Mükəmməl tədris və tələbə inkişafı akademik və şəxsi inkişaf üzərində əhəmiyyətli təsir göstərir. Uğurlu məktəblər bacarıqlı müəllimləri təşviq edir və yaradıcı, əməkdaşlıq yönümlü iş mühitini dəstəkləyir. Hər bir məktəb və mədəniyyət unikal olduğundan universal tədris metodu yoxdur, amma sübutlara əsaslanan təcrübələr tələbələrin potensialına çatmasına kömək edə bilər. Öyrənmə birbaşa ötürülə bilməz; başa düşmə tələbənin zehnində qurulur. Müəllimlər tələbələri dinləməli, onların ideyalarını inkişaf etdirməli və daha dərin başa düşməyi təşviq etməklə müstəqilliyi təşviq etməlidirlər. Effektiv metodlar tələbələrdən təbii qabiliyyətlərinin hüdudlarından kənarda düşünməyi tələb edir. Müəllimlər Vyqotskinin yaxın inkişaf zonasındakı öyrənməni dəstəkləyir, burada tələbələr kömək ilə daha çox nailiyyət əldə edirlər. Cambridge International bunu passiv qəbulla deyil, aktiv iştirak kimi adlandırır.

Müəllimlər fərdi iş, qrup işi və bütün siniflə tədris strategiyalarından istifadə etməlidirlər. Tələbələrin mənalı iştirak və geribildirim üçün imkanlar olmalıdır. Qiymətləndirmə təcrübələri irəliləyişi müəyyən etməyə və tələbələrin gələcək inkişaf planını yönləndirməyə kömək edir. Mükəmməl müəllimlər Cambridge tələbə xüsusiyyətləri — özünəinam, məsuliyyət,

refleksiya, yaradıcılıq və iştirak ilə səciyyələnir. Onlar mövzu üzrə ustalığı nümayiş etdirir, konseptual anlayışı təşviq edir, öyrənməni real dünya kontekstinə bağlayır, tələbələrə yaxın inkişaf zonasinda kömək edir, öyrənmə prosesini nəticələrdən üstün tutur, problem həll etmə bacarıqlarını model kimi göstərir və mentor kimi fəaliyyət göstərirlər. Eyni zamanda müxtəlif tədris və qiymətləndirmə strategiyalarından istifadə edir, reflektiv və yaradıcı peşəkar kimi çıxış edir və həmkarlar və tələbələr arasında əməkdaşlıq və kollektiv dəstəyə önəm verirlər.

Cambridge müəllim standartları effektiv tədris və peşəkar inkişaf üçün aydın meyarlar müəyyən edir. Bu standartlar müəllimlərə və məktəblərə tədris keyfiyyətini qiymətləndirmək və inkişaf tələb edən sahələri müəyyən etmək üçün çərçivə təqdim edir. Bu standartlara əməl edən təhsil işçiləri öz tədrisini yüksək keyfiyyətli beynəlxalq prinsiplərlə uyğunlaşdırmış olurlar. Məktəblər bu təlimatları təkmilləşdirmə planları, müəllim inkişaf proqramları və davamlı öyrənmə mədəniyyəti yaratmaq üçün də istifadə edə bilər. Nəticədə, standartlar müəllimlərə tədris bacarıqlarını təkmilləşdirməyə, sinifdə effektivliyi artırmağa və tələbələrin akademik təcrübəsini və nəticələrini müxtəlif öyrənmə mühitlərində yaxşılaşdırmağa kömək edir.

***Ədəbiyyat***

1. *Brown, H. D. (2017). Principles of Language Learning and Teaching (6th ed.). White Plains, NY: Pearson Education.*
2. *Howatt, A. P. R. (1984). A History of English Language. Oxford: Oxford University Press.*
3. *Mohammed, I. J. (2024). Grammatical method of translation. University of Maysan, College of Basic Education, English Department.*
4. *Husseen, S. W. (2015). The Direct Method. University of Diyala, College of Basic Education, Department of English.*
5. *Larsen-Freeman, D., & Anderson, M. (2011). Techniques & Principles in Language Teaching (3rd ed.). Oxford: Oxford University Press.*
6. *Harmer, J. (2007). The Practice of English Language Teaching (4th ed.). Pearson Longman.*

**Əhmədzadə E.M.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***elmarehmedzade451@gmail.com***

# TƏHSİL SAHƏSİNDƏ DİSKURS TƏHLİLİ

***Xülasə***

*Diskurs analizi dili yalnızca qrammatik quruluş kimi deyil, həm də sosial və kontekstual əlaqələr çərçivəsində öyrənən bir yanaşmadır. Tədris sahəsində diskurs analizinin tətbiqi, müəllim-şagird ünsiyyətini, dərs prosesindəki dilin funksional istifadəsini və tədris materiallarının necə təqdim olunduğunu dərinliklə araşdırmağa imkan verir. Bu metodla müəllimin izah tərzi, sual-cavab strukturunun qurulması, şagirdlərin iştirak səviyyəsi və dərsə yanaşma formaları kimi vacib aspektlər təhlil olunur. Diskurs analizi həmçinin dərsliklərin məzmununun ideoloji, mədəni və sosial mesajlar baxımından təhlil edilməsinə şərait yaradır. Bu, tədris materiallarının şagirdlərə hansı dəyərləri aşıladığını və dilin necə yönləndirici rol oynadığını üzə çıxarmağa kömək edir. Tədris sahəsində bu yanaşmanın tətbiqi müəllimlərin öz tədris üsullarını tənqidi qiymətləndirməsinə, təlimin keyfiyyətini artırmağa və daha inklüziv, tələbəyönümlü tədris mühitinin yaradılmasına dəstək verir. Beləliklə, diskurs analizi təhsildə kommunikativ proseslərin anlaşılması və inkişaf etdirilməsi üçün güclü bir alət kimi çıxış edir.*

# ДИСКУРС-АНАЛИЗ В СФЕРЕ ОБРАЗОВАНИЯ

***Резюме***

*Дискурс-анализ — это подход, изучающий язык не только как грамматическую структуру, но и в контексте социальных и контекстуальных отношений. Применение дискурс-анализа в образовании позволяет глубоко изучить взаимодействие учителя и ученика, функциональное использование языка в учебном процессе и способы подачи учебных материалов. Этот метод анализирует такие важные аспекты, как стиль объяснения учителя, построение вопросно-ответной структуры, уровень участия учащихся и формы подхода к уроку.Дискурс-анализ также позволяет анализировать содержание учебников с точки зрения идеологических, культурных и социальных посылов. Это помогает выявить, какие ценности прививают учащимся учебные материалы и какую роль играет язык.Применение этого подхода в образовании помогает учителям критически оценивать свои методы обучения, повышать качество преподавания и создавать более инклюзивную, ориентированную на учащихся учебную среду. Таким образом, дискурс-анализ выступает в качестве мощного инструмента для понимания и развития коммуникативных процессов в образовании.*

# DİSCOURSE ANALYSİS İN EDUCATİON

***Summary***

*Discourse analysis is an approach that studies language not only as a grammatical structure, but also within the framework of social and contextual*

*relationships. The application of discourse analysis in education allows for an in-depth examination of teacher-student communication, the functional use of language in the teaching process, and how teaching materials are presented. This method analyzes important aspects such as the teacher's style of explanation, the construction of a question-and-answer structure, the level of student participation, and the forms of approach to the lesson.Discourse analysis also allows for the analysis of the content of textbooks in terms of ideological, cultural, and social messages. This helps to reveal what values teaching materials instill in students and how language plays a guiding role.The application of this approach in education supports teachers in critically evaluating their teaching methods, improving the quality of teaching, and creating a more inclusive, student-centered learning environment. Thus, discourse analysis acts as a powerful tool for understanding and developing communicative processes in education.*

***Açar sözlər:*** *diskurs, diskurs təhlili, təhsil, mühit, linqivistik kateqoriya*
***Ключевые слова:*** *дискурс, дискурс-анализ, образование, окружающая среда, лингвистическая категория*
***Key words:*** *discourse, discourse analysis, education, environment, linguistic cateqory*

## Giriş

"Diskurs təhlili dil istifadəsini və mənanın formalaşmasını anlamaq üçün şifahi və ya yazılı mətnləri təhlil etmək üsuludur. Bu üsul təkcə qrammatik quruluşa deyil, həm də ona təsir edən sosial, mədəni və kontekstual amillərə diqqət yetirir. O, bizə dilin sosial qarşılıqlı əlaqələrdə və mədəniyyətlərarası münasibətlərdə necə məna yaratdığını və onun güc və səlahiyyət strukturlarını necə ifadə etdiyini anlamağa imkan verir" [1].

Diskurs təhlili yalnız mətnin özünə deyil, həm də onun istifadə olunduğu sosial, siyasi və mədəni kontekstə diqqət yetirir. Xüsusi sözlərin seçimi və məqsədi kimi suallara cavab vermək məqsədi daşıyır. Diskurs təhlili güc münasibətlərini araşdırmaq üçün tez-tez istifadə olunur. Məsələn, bu, müəyyən qrupların dil vasitəsilə öz hökmranlıqlarını necə həyata keçirdiklərini və ya müəyyən ideologiyaların dil vasitəsilə necə təbliğ edildiyini anlamağa kömək edir. O, dildən istifadənin məqsədlərini və diskursun və ya mətnin necə formalaşdığını araşdırır. O, dilin funksiyalarını araşdırır: əyləndirmək, məlumatlandırmaq, təsir etmək və ya istiqamətləndirmək. Diskurs təhlili şəxsiyyətlərin dil vasitəsilə necə qurulduğunu, fərdlərin özlərini necə təqdim etdiyini və müxtəlif qrupların dil vasitəsilə necə yerləşdiyini araşdırır. İdeoloji təsirləri və ideoloji mənalar yaratmaq üçün dilin necə istifadə edildiyini araşdırır. Bununla o, hər bir diskursun özünəməxsus dəyərlərini, normativ yanaşmalarını və dünyagörüşlərini ehtiva etdiyini etiraf edir.

Bundan əlavə, son bir neçə onillikdə nitqə və onun komponentlərinə diqqət yetirməkdən dilin istifadə olunduğu kontekstə diqqət yetirməyə

əhəmiyyətli dəyişiklik baş vermişdir. Bu da "diskurs təhlili"nin inkişafı üçün imkanlar yaratmışdır. Bu yanaşmanın kommunikativ xarakteri tədqiqatçıların diqqətini cəlb etdiyi üçün bu yeni yanaşmanın xüsusiyyətlərini, metodologiyalarını və müxtəlif sahələrdə potensial tətbiqlərini daha yaxşı başa düşmək üçün çoxlu tədqiqatlar aparılmışdır. Dilin insan ünsiyyətində mühüm rol oynadığı bir çox sahələr, məsələn, diskurs təhlili dildən qaynaqlanır.

Professor Azad Məmmədov diskurs təhlili haqqında deyirdi: *"Diskurs təhlilinin mahiyyəti mətnin məna ilə dolumunu və nəyin onu əlaqəli və başa düşülən etdiyini müəyyənləşdirməkdən ibarətdir"* [2, s. 22]. Diskurs təhlilinə həsr olunmuş tədqiqatlar diskursun mətnlərarası əlaqəsinə işarə edir. Mətni tədqiq edən alimlər də ona eyni keyfiyyəti aid edirlər. Mətn ünsiyyət vasitəsi kimi, daha çox mücərrəd formal struktur kimi nəzərdən keçirildiyi halda, diskurs psixi proseslər səviyyəsində və ekstralinqvistik amillərlə əlaqədə öyrənilir. Əslində, diskurs formal strukturun həyata keçirilməsinin fərqli növünü təmsil edir.

Hazırki dövrdə diskurs təlimi çox geniş aspektdə tədqiq olunur və araşdırılır. O, linqvistik kateqoriya olaraq sosiologiya, psixologiya, fəlsəfə, tarix və digər elm sahələri ilə sıx bağlıdır. Buna görə də diskursu bir çox elm sahələrinə nüfuz edən linqvistik kateqoriya kimi səciyyələndirirlər. Adlarını çəkdiyimiz həmin elm sahələrinin tədqiqat obyektlərinə öz yanaşma metodları vardır. Bu səbəbdən xüsusi elm sahəsi olaraq diskursa verilən təriflər təkcə dilçiliklə məhdudlaşmır və onun hüdudlarından kənara çıxır. "Həmçinin Linqvistlər içərisində də diskursa müxtəlif təriflər verilir. Lakin onları bir mərkəzə gətirən dilin quruluşu, onun nitq fəaliyyətində funksionallaşması və bu prosesdə insan faktorunun rolu probleminin tədqiqi olmuşdur. Çünki dil cəmiyyətlə bağlı olan mühüm sosioloji funksiyaya malikdir; cəmiyyətin üzvləri dil vasitəsi ilə ünsiyyətə girərək bir-birini anlayır. Bu prosesdə informasiyanın çatdırılması, insanlara kommunikativ təsir və nitqin qurulmasının linqvistik əsasları müasir dövr dilçiliyin mühüm problemlərindəndir. Dilçilikdə antroposentrik paradiqmanın yaranması diskurs təliminin konturlarını müəyyənləşdirdi. Diskursdan linqvistik təlim olaraq XX əsrin II yarısından daha geniş şəkildə işlədilməyə başlanılmışdır" [3, s.27].

Təhsil mühitində diskurs təhlili müəllimlərin gündəlik işinə sosiolinqvistik nəzəriyyənin birbaşa tətbiqinin məşhur nümunəsidir. Onun siniflərdə istifadəsi müasir beynəlxalq təhsil sistemlərində çoxdilli təhsilin əsas komponenti olan şagird və müəllimlərdə metadiskursiv təfəkkürün inkişafına töhfə verir. Bundan əlavə, diskurs təhlili təhsil mühitində repertuarların təkamülünü başa düşməyin ən təsirli yolu hesab olunur.

"Şagird-müəllim qarşılıqlı əlaqəsi və onların sinifdə öyrənməyə təsiri arasındakı mürəkkəb əlaqəni diskurs təhlili adlanan metodologiya vasitəsilə daha yaxşı başa düşmək olar. Effektiv tədris məktəb şəraitində diskurs

təhlilindən istifadə etməyi tələb edir. Bu, müəllimlərin sinifdə dildən istifadə edərkən nə qədər çevik olması lazım olduğunu müəyyən etməyə kömək edir. O, həmçinin onun dil öyrənməsinə və mədəniyyəti başa düşməyimizə təsiri haqqında mühüm məlumat verir. Sinifdə diskurs təhlili müəllimlərə və tələbələrə müxtəlif vəziyyətləri daha yaxşı başa düşmək və hər bir vəziyyətdə dilin necə işlədiyini müəyyən etmək üçün istifadə olunur. "Tənqidi sinif diskurs təhlili" termini "sinif nitqi təhlili"nin "tənqidi təhlilə" çevrilməsini nəzərdə tutur, burada müəllimlər öz işlərinin hədəf auditoriyaya təsirini təhlil edir, həmçinin "sinif diskurs təhlili" termininin özünü də ifadə edir" [4, s.68].

Diskurs təhlili müasir, qloballaşan dünyada tələbələrə yeni şəxsiyyətin formalaşmasına kömək etmək üçün müəllimlərin sinifdə istifadə edə biləcəyi güclü vasitədir. Müəllimlər məktəblərdə sosial qarşılıqlı əlaqəni inkişaf etdirmək üçün diskurs təhlilindən istifadə edə bilərlər. Diskurs təhlili müəllimlərin və tələbələrin ənənəvi məsuliyyətlərinin sinif diskursunda yeni mövqelərinə uyğunlaşmaq üçün inkişaf etdiyi sinifdə tədris təcrübələrini dəyişdirmək üçün bir üsul kimi nəzərdən keçirilə bilər.

Diskurs təhlili tələbələrə diskurs təhlili bacarıqları ilə bağlı yeni məsuliyyətlərini anlamalarına kömək etmək üçün müəllim təhsili proqramlarına inteqrasiya oluna bilər. Diskurs təhlili ingilis dilinin ana dili olmadığı və buna görə də sosial əlaqələrdə, xüsusən də ingilis dilinin xarici dil kimi tədrisi və öyrənilməsi kontekstində müntəzəm olaraq istifadə olunmadığı vəziyyətlərdə dil biliklərinin əldə edilməsi üsullarını təklif edir. O, dilin inkişafı üçün vacib hesab edilən məsələləri həll edir və xarici icmalarda ingilis dilinin istifadəsinin başa düşülməsini asanlaşdırmaqla dillərarası ünsiyyətin inkişafına töhfə verir.

Diskursa müxtəlif yanaşmaların və diskursun mövcud təriflərinin sayını dəfələrlə artırmaq və onlara dair müxtəlif perspektivləri ətraflı təhlil etmək olardı. Bununla belə, diskurs məsələsində qəti fikirə və tam aydınlığa nail olmaq çətin məsələ olaraq qalır, çünki fikirlər və perspektivlər müxtəlifdir, bu anlayışın arxasında duran məna da müxtəlifdir. Bu bir daha təsdiq edir ki, diskursun mənasını dəqiq müəyyənləşdirmək və universal tərif vermək son dərəcə çətindir. Bununla belə, söhbətin mənasını aydınlaşdırmağa çalışacağıq. Diskurs sosial kontekstdə mətni və dinamik linqvistik fəaliyyəti birləşdirən proses kimi başa düşülür, yəni diskursa mətnlər toplusu və onları müşayiət edən sosial kontekstlər kimi baxmaq olar. Bu halda sosial kontekst diskursun mətn komponentinin necə və nə dərəcədə tam başa düşülməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Tədqiq etdiyimiz yanaşmalara əsaslanaraq söyləmək olar ki, diskurs və mətn ekvivalent deyildir, çünki diskurs tədqiq edərkən təkcə deyilənləri deyil, deyilməyən və deyilə bilməyənləri də nəzərə almaq lazımdır, lakin buna baxmayaraq onun mənasına təsir edir. Əgər diskursu artıq formalaşmış mətn və kontekstin vəhdəti hesab etsək, o, yalnız başqa şəxs

(yaxud insanlar) tərəfindən qavranılması prosesi vasitəsilə diskurs kimi meydana çıxır. Digər tərəfdən reallaşdırılmamış diskurs sadəcə potensial diskursdur. Diskurs ən azı iki tərəfin iştirakını tələb edir: danışan və qəbul edən, müraciət edən və qəbul edən. Bu o deməkdir ki, diskurs konkret şəxsə bağlı deyil. Aydınlıq üçün mövzuya bir az fərqli prizmadan yanaşaq. Bizim dövrümüz kompüter əsridir. İnternetdə istənilən məlumatı əldə etmək üçün açar sözlərdən istifadə edirik. Eyni proses qismən insan şüurunda baş verir. Tanımaq, qavramaq və müəyyən nəticəyə gəlmək üçün insanın şüurunda və yaddaşında müəyyən oxşar məlumatlar olmalıdır. "Açar sözlər", yəni qavranılanın "şifrəsini açmaq" üçün məlumat olmadan "nəzərə alınan" məlumatı tam başa düşmək mümkün deyil. Bu, bir daha sübut edir ki, diskurs fərddən üstün olan bir məfhumdur. Əgər diskurs iki tərəfin mövcudluğunu nəzərdə tutursa, idrak prosesləri həm söhbətin əvvəlində, həm də sonunda baş verir. Bir şüurda "ideal aləmdə" mövcud olan anlayışlar məcmusu linqvistik və qeyri-linqvistik vasitələr toplusundan istifadə etməklə diskursda qurulur, şüur tərəfindən qavranılır, müəyyən idrak prosesləri nəticəsində deşifrə olunur və ikinci şüurda anlayışlar toplusu kimi təzahür edir. Bu prosesin başa çatması əsasən ünvanlanan və müraciət olunan anlayışların üst-üstə düşməsindən və yaxınlığından asılıdır. Yuxarıda deyilənlərdən belə çıxır ki, diskurs idrakdır, müəyyən vasitələrlə həyata keçirilir. Bu reallaşma prosesində linqvistik vasitələrlə yanaşı, geniş mənada konteksti təşkil edən qeyri-linqvistik vasitələr də fəal iştirak edir.

"Sonda qeyd etmək lazımdır ki, diskursun təşkili bütün səviyyələrdə linqvistik vasitələrlə tənzimlənir. Bu vasitələr hadisələri zaman və məkanda lokallaşdırmaqla yanaşı, həm də tematik inkişafı asanlaşdırır, bütün nitqin ahəngdarlığını təmin edir. Mahiyyət etibarı ilə bu vasitələr mətni qəbul edən üçün göstərici rolunu oynayır, müxtəlif informasiya yükü daşıyır və son nəticədə insanın müəyyən miqdarda məlumatı yaddaşda saxlamaq, idrak funksiyasını yerinə yetirmək qabiliyyətini nəzərə alaraq, diskursun ümumi ahəngdarlığını təmin edir. Psixi modelləri öyrənmədən diskurs təhlili mümkün deyil, çünki onlar həm ümumi, həm də xüsusi semantik strukturların qurulması kimi strateji məqsədlər üçün zəruri kommunikativ məlumatların seçilməsi üçün praktiki əsas yaradır" [2, s.26].

## Nəticə

İstər tələbələr, istərsə də tələbələr və müəllimlər arasında sinifdə ünsiyyət və qarşılıqlı əlaqə ikinci dilin müvəffəqiyyətlə öyrənilməsi üçün çox vacibdir. Danışıq strategiyası müxtəlif akademik fənlərdə kökləri olan diskurs təhlilinə səbəb oldu. Diskurs təhlilinin əsas məqsədi dil və onun istifadə konteksti arasındakı unikal əlaqəni araşdırmaqdır. Bu, linqvistik formalar və funksiyalar arasındakı əlaqənin aydınlaşdırılmasını əhatə edir, bizə dilin nitq və yazıda necə istifadə edildiyinə diqqət yetirməyə imkan verir. Sinif nitqinin

təhlili tədris təcrübəsi üçün vacibdir, çünki o, bizə tələbələr və müəllimlər arasında mürəkkəb qarşılıqlı əlaqələri anlamağa imkan verir və dil təhlili sahəsinə faydalı fikirlər verir. Bir çox təhsil müəssisələri kooperativ öyrənməni qəbul etmişlər, lakin müəllim hazırlığı və təhsili ilə bağlı çətinliklərə görə bu üsul hələ də istənilən nəticəni verməmişdir. Danışıqdan istifadə etməyən tədris və təlim proseslərinin səmərəsiz olduğunu qəbul etmək vacibdir, çünki onların uğuru əsasən istifadə olunan metodologiyadan və onun istifadə olunduğu kontekstdə necə fəaliyyət göstərməsindən asılıdır.

***Ədəbiyyat***

1. *https://az.wikipedia.org/wiki/Diskurs_t%C9%99hlili*
2. *Azad Məmmədov, Misgər Məmmədov, Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı, Çaşıoğlu, 2010, - 96 səh.*
3. *Gülnar Allahverdiyeva // "Dilçilikdə diskurs nəzəriyyəsinin formalaşması məsələsinə dair"// 2020, – s. 27–33.*
4. *Zanyar Nathir Ghafar. Discourse analysis in language education: Implications for English Language Training and Learning: An Overview. 2023, - 72 p.*

**Ələmdarlı X.D.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***xeyransalmdarli@gmail.com***

# TƏDRİS PROSESİNDƏ İNNOVATİV PEDAQOJİ TEXNOLOGİYALARIN TƏTBİQİ

***Xülasə***

*İnnovativ pedaqoji texnologiyalar müasir təhsil sistemində tələbələrin akademik, şəxsi və sosial inkişafını stimullaşdıran mühüm vasitədir. İnteraktiv dərslər, layihəəsaslı tədris və rəqəmsal platformalar öyrənmənin səmərəliliyini artıraraq tənqidi düşünmə, yaradıcılıq və əməkdaşlıq bacarıqlarını formalaşdırır. Praktiki məşğələlər tələbələrin peşə hazırlığını gücləndirir və onların qərarvermə, problem həll etmə səriştələrini inkişaf etdirərək təhsil prosesini daha dinamik edir. Belə yanaşmalar tələbənin müasir əmək bazarının tələblərinə uyğun formalaşmasına şərait yaradır və onların inkişaf potensialını nəzərəçarpacaq dərəcədə artırır.*

# ПРИМЕНЕНИЕ ИННОВАЦИОННЫХ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ В УЧЕБНОМ ПРОЦЕССЕ

***Резюме***

*Инновационные педагогические технологии являются важным инструментом, стимулирующим академическое, личностное и социальное развитие обучающихся в современной системе образования. Интерактивные уроки, проектное обучение и цифровые платформы повышают эффективность обучения, формируют критическое мышление, креативность и навыки совместной работы. Практические занятия укрепляют профессиональную подготовку студентов и делают образовательный процесс более динамичным, развивая у них навыки принятия решений и решения проблем. Такие подходы создают условия для формирования студентов в соответствии с требованиями современного рынка труда и значительно повышают потенциал их развития.*

# APPLICATION OF INNOVATIVE PEDAGOGICAL TECHNOLOGIES IN THE TEACHING PROCESS

***Summary***

*Innovative pedagogical technologies are an important tool that stimulates the academic, personal and social development of students in the modern education system. Interactive lessons, project-based learning and digital platforms increase the efficiency of learning and form critical thinking, creativity and collaboration skills. Practical exercises strengthen the professional preparation of students and make the educational process more dynamic by developing their decision-making and problem-solving skills. Such approaches create conditions for the formation of students in*

*accordance with the requirements of the modern labor market and significantly increase their development potential.*

***Açar sözlər:*** *innovativ pedaqoji texnologiyalar, ali təhsil, tələbə inkişafı, şəxsi inkişaf, sosial inkişaf*
***Ключевые слова:*** *инновационные педагогические технологии, высшее образование, развитие студентов, личностное развитие, социальное развитие*
***Key words:*** *innovative pedagogical technologies, higher education, student development, personal development, social development*

## Giriş

Tədris prosesində innovativ pedaqoji texnologiyaların tətbiqi müasir təhsil sistemində mühüm rol oynayır. Ənənəvi tədris üsulları, əsasən nəzəri biliklərin passiv şəkildə ötürülməsinə fokuslanarkən, günümüzdə tələbə mərkəzli və interaktiv yanaşmalarla əvəz olunur. Bu innovativ metodlar yalnız akademik biliklərin mənimsənilməsini təmin etmir, həm də tələbələrin şəxsi və sosial inkişafına yönəlir, onları müasir cəmiyyətin və peşə sahələrinin mürəkkəb tələblərinə hazırlayır.

Müasir ali təhsil müəssisələri tələbələrin tənqidi düşünmə, yaradıcı bacarıqlar, liderlik və komanda işi kimi səriştələrinin inkişafını akademik nailiyyətlər qədər vacib hesab edir. Layihə əsaslı tədris, interaktiv dərslər, rəqəmsal platformalar, virtual laboratoriyalar və praktik fəaliyyətlər kimi innovativ pedaqoji texnologiyalar tələbələr üçün dinamik və cəlbedici öyrənmə mühiti yaradır. Bu yanaşmalar tələbələri fəal iştirak etməyə, özünüifadə etməyə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirməyə təşviq edir, nəzəri bilikləri praktik kontekstdə tətbiq etməyə və problem həll etmə, qərar qəbul etmə bacarıqlarını inkişaf etdirməyə imkan verir. İlyasov qeyd edir ki, müasir dövrdə müəllim peşəkarlığı yalnız biliklərin ötürülməsi ilə deyil, həm də tədris prosesində innovativ pedaqoji texnologiyalardan səmərəli istifadə ilə müəyyən olunur. Müəllim informasiya-kommunikasiya texnologiyalarını, interaktiv təlim metodlarını və elektron tədris vasitələrini tətbiq etməklə şagirdlərin dərs prosesində fəallığını və motivasiyasını artırır. Bu, müəllimin pedaqoji səriştəsini praktik müstəvidə nümayiş etdirməsinə şərait yaradır [2, s.72–74].

Bundan əlavə, rəqəmsal alətlərin və interaktiv metodların tətbiqi tələbələrin öyrənməyə motivasiyasını artırır, sosial inteqrasiya bacarıqlarını gücləndirir və müxtəlif perspektivlər ilə tanış olaraq inklüziv düşüncəni inkişaf etdirir. Qrup layihələrində, sosial təşəbbüslərdə və praktik məşğələlərdə iştirak tələbələrdə empatiya, sosial məsuliyyət və effektiv ünsiyyət bacarıqlarını formalaşdırır. Bu bacarıqlar yalnız akademik uğur üçün deyil, həm də peşə fəaliyyətində və cəmiyyətə uğurlu inteqrasiya üçün vacibdir.

Bu məqalə ali təhsil müəssisələrində innovativ pedaqoji texnologiyaların rolunu araşdırır və onların tələbələrin akademik

nailiyyətlərinə, şəxsi inkişafına və sosial bacarıqlarının formalaşmasına təsirini vurğulayır. Teorik baxışlar və praktik tətbiqlərin təhlili göstərir ki, innovativ pedaqoji texnologiyalar bilik əldə etmə ilə həyati bacarıqların inkişafını birləşdirən geniş və əhatəli təhsil yanaşmasını dəstəkləyir. Nəticədə, innovativ pedaqoji texnologiyalar tədris prosesinin effektivliyini artıran və tələbələri uğurlu karyera və cəmiyyət həyatına hazırlayan strateji vasitə kimi çıxış edir.

Tədris prosesində innovativ pedaqoji texnologiyaların tətbiqi tələbələrin həm akademik, həm şəxsi, həm də sosial inkişafına çoxşaxəli təsir göstərir. Ənənəvi tədris metodları ilə müqayisədə innovativ yanaşmalar tələbələri öyrənməyə fəal cəlb edir, onların bilik və bacarıqlarının inkişafını sürətləndirir. Bu metodlar tələbələrdə tənqidi və analitik düşünmə, yaradıcı problemlərin həlli, qərar qəbul etmə və informasiya təhlili bacarıqlarının formalaşmasına xidmət edir.

Universitetlərdə interaktiv dərslər, layihə əsaslı tədris, seminarlar və rəqəmsal platformaların tətbiqi tələbələrin özünüifadə və təşəbbüskarlıq qabiliyyətlərini artırır. Layihə və qrup işlərində iştirak tələbələrdə əməkdaşlıq, məsuliyyət və sosial bacarıqların inkişafına imkan yaradır. Bu proses həmçinin tələbələrin liderlik səriştələrinin formalaşmasına və onların komanda şəklində effektiv fəaliyyət göstərməsinə şərait yaradır.

Qasımova qeyd edir ki, layihə əsaslı və interaktiv tədris metodları tələbələrin həm nəzəri bilik, həm də praktik bacarıqlarını inkişaf etdirir. O, innovativ metodların tətbiqinin tələbə motivasiyasını və tədris keyfiyyətini artırdığını xüsusi vurğulayır [4, s.59–63].

Rəqəmsal platformalar və virtual laboratoriyalar tələbələrin öyrənmə prosesini daha cəlbedici və interaktiv edir. Elektron resurslar, simulyasiya və onlayn müzakirələr tələbələrin analitik düşünmə, informasiya axtarışı və təhlil bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, bu yanaşmalar tələbələrin gələcək peşə fəaliyyətinə hazırlığını gücləndirir və onların rəqəmsal səriştələrini artırır.

Tələbələrin sosial inkişafı innovativ pedaqoji texnologiyalar vasitəsilə geniş şəkildə təmin edilir. Müxtəlif sosial və mədəni fonlardan gələn tələbələrlə ünsiyyət empatiya, inklüziv düşüncə və mədəni müxtəlifliyə hörməti artırır. Universitetlərdə keçirilən sosial layihələr, könüllülük fəaliyyəti və mədəni tədbirlər tələbələrin ictimai fəallığını gücləndirir və onların sosial məsuliyyət hissini formalaşdırır.

Elmi tədqiqat və praktiki layihələr tələbələrin yaradıcı və analitik düşünmə qabiliyyətlərini inkişaf etdirir. Laboratoriya işləri və layihə əsaslı tədris tələbələrə problemləri sistemli şəkildə həll etməyi öyrədir və onların özünəinamını artırır. Bu yanaşmalar akademik uğurun və peşə fəaliyyətində səmərəli iştirakın təmin olunmasına xidmət edir.

İnnovativ pedaqoji texnologiyaların tətbiqi tələbələrin peşə bacarıqlarını da inkişaf etdirir. Praktiki məşğələlər, staj proqramları və real iş mühitinə

yönəlmiş layihələr onların əmək bazarında rəqabətqabiliyyətli olmasına şərait yaradır. Bu yanaşmalar şəxsi, sosial və peşəkar bacarıqların inteqrasiyasını təmin edir və tələbələri müasir cəmiyyətin tələblərinə uyğun formalaşdırır.

Qlobal iqtisadiyyat və texnoloji inkişaf ali təhsilin rolunu daha da vacib edir. İnnovativ pedaqoji texnologiyalar tələbələrin yaradıcı və analitik düşüncə qabiliyyətlərini artırır, onları gələcəkdə cəmiyyətə faydalı, sosial baxımdan aktiv və peşəkar şəxsiyyətlər kimi yetişdirir.

Beləliklə, tədris prosesində innovativ pedaqoji texnologiyaların tətbiqi tələbələrin akademik, şəxsi və sosial inkişafını təmin edən əsas amil kimi çıxış edir və ali təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir.

Tədris prosesində innovativ pedaqoji texnologiyaların tətbiqi yalnız tələbələrin akademik biliklər əldə etməsi ilə məhdudlaşmır, həm də onların geniş şəxsi və sosial inkişafını təmin edir. Bu yanaşmalar tələbələrdə öyrənməyə maraq, özünüifadə və təşəbbüskarlıq kimi vacib keyfiyyətləri formalaşdırır. İnteraktiv dərslər, layihə əsaslı tədris, simulyasiya və rəqəmsal platformalar tələbələrin öyrənmə prosesində fəal iştirakını təmin edir və onları nəzəri bilikləri praktikada tətbiq etməyə sövq edir.

Müasir təhsil sistemi tələbələrin yalnız akademik nailiyyətlərinə deyil, həm də sosial bacarıqlarının inkişafına diqqət yetirir. Qrup layihələri və komanda əsaslı fəaliyyətlər tələbələrdə əməkdaşlıq, məsuliyyət, qarşılıqlı hörmət və sosial inteqrasiya bacarıqlarını artırır. Bu fəaliyyətlər, eyni zamanda, tələbələrin liderlik səriştələrini inkişaf etdirir və onları komanda daxilində uğurlu fəaliyyət göstərməyə hazırlayır.

Rəqəmsal texnologiyaların tətbiqi tələbələrə informasiya axtarışı, təhlil, qiymətləndirmə və yaradıcı düşünmə bacarıqlarını təkmilləşdirməyə imkan yaradır. Virtual laboratoriyalar və elektron resurslar tələbələrin praktik bacarıqlarının inkişafına xidmət edir və onların gələcək peşə fəaliyyətinə hazırlığını artırır. Bu yanaşmalar tələbələri müasir texnoloji mühitə uyğunlaşmağa və rəqəmsal səriştələrini inkişaf etdirməyə təşviq edir.

Ali təhsil müəssisələrində sosial layihələr və könüllülük fəaliyyəti tələbələrin ictimai məsuliyyət hissini gücləndirir və onların cəmiyyətə aktiv inteqrasiyasına şərait yaradır. Müxtəlif mədəni və sosial fonlardan gələn tələbələrlə ünsiyyət onların empatiya və inklüziv düşüncə qabiliyyətlərini artırır, mədəni müxtəlifliyə hörməti formalaşdırır. Bu proses tələbələrin sosial və emosional bacarıqlarını inkişaf etdirir və onları həm akademik, həm də sosial həyat üçün hazırlayır.

Elmi tədqiqat və praktiki layihələr tələbələrin yaradıcı və analitik düşünmə qabiliyyətlərini daha da inkişaf etdirir. Laboratoriya işləri və layihə əsaslı fəaliyyətlər tələbələrə problemləri sistemli şəkildə həll etməyi öyrədir, onların özünəinamını artırır və gələcək peşə fəaliyyətində uğurlu olma imkanlarını genişləndirir.

Nəticədə, tədris prosesində innovativ pedaqoji texnologiyaların tətbiqi tələbələrin akademik biliklərini, şəxsi bacarıqlarını və sosial səriştələrini inteqrasiya olunmuş şəkildə inkişaf etdirir. Bu yanaşmalar ali təhsilin keyfiyyətini artırmaqla yanaşı, tələbələri müasir cəmiyyətin və əmək bazarının tələblərinə uyğun, sosial baxımdan fəal və peşəkar fərdlər kimi yetişdirməyə xidmət edir.

Tədris prosesində innovativ pedaqoji texnologiyaların tətbiqi ali təhsilin keyfiyyətini artıran və tələbələrin çoxşaxəli inkişafına xidmət edən əsas amil kimi çıxış edir. Aparılan təhlillər göstərir ki, interaktiv dərslər, layihə əsaslı tədris, rəqəmsal platformalar və virtual laboratoriyalar tələbələrin akademik biliklərini effektiv şəkildə mənimsəməsinə imkan yaradır, onların analitik, tənqidi və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirir.

Rəqəmsal texnologiyaların və interaktiv metodların tətbiqi tələbələrin gələcək peşə fəaliyyətinə hazırlığını da artırır. Praktiki məşğələlər və layihə əsaslı təlim tələbələrə real həyat situasiyalarında qərar qəbul etmə, problem həll etmə və effektiv ünsiyyət bacarıqlarını inkişaf etdirməyə imkan verir. Bu yanaşmalar onların əmək bazarında rəqabətqabiliyyətli olmasına və peşəkar səriştələrinin yüksəlməsinə şərait yaradır.

Trilling və Fadel göstərirlər ki, XXI əsr təhsil mühitində innovativ pedaqoji texnologiyalar tələbələrdə tənqidi düşünmə, yaradıcılıq və əməkdaşlıq kimi əsas bacarıqları formalaşdıran mühüm vasitədir. Onların fikrincə, bu yanaşmalar tələbələrin gələcək karyera və sosial həyata hazırlığını təmin edir [5, pp. 48–52].

Tədris prosesində innovativ pedaqoji texnologiyaların tətbiqi ali təhsilin keyfiyyətini artıran və tələbələrin çoxşaxəli inkişafına xidmət edən əsas amil kimi çıxış edir. Aparılan təhlillər göstərir ki, interaktiv dərslər, layihə əsaslı tədris, rəqəmsal platformalar və virtual laboratoriyalar tələbələrin akademik biliklərini effektiv şəkildə mənimsəməsinə imkan yaradır, onların analitik, tənqidi və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirir.

Məqalədə vurğulandığı kimi, innovativ pedaqoji texnologiyalar tələbələrin şəxsi inkişafına da mühüm töhfə verir. Layihə və qrup işlərində iştirak, interaktiv məşğələlər və müxtəlif praktiki fəaliyyətlər onların liderlik, özünüifadə və təşəbbüskarlıq bacarıqlarını artırır. Bu yanaşmalar tələbələri müstəqil düşünən, məsuliyyətli və yaradıcı fərd kimi formalaşdırır. Mehrabov vurğulayır ki, səriştəli müəllim tədris prosesində innovativ texnologiyaları məqsədyönlü və yaradıcı şəkildə tətbiq etməlidir. Müəllim hər bir texnologiyanın pedaqoji potensialını düzgün dəyərləndirdikdə, bu, şagirdlərin müstəqil düşünmə, yaradıcılıq və öyrənmə motivasiyasının artmasına səbəb olur. Müəllimin texnoloji savadlılığı təlim keyfiyyətini yüksəldən əsas amillərdən biridir [3, s.65–68].

Eyni zamanda, innovativ texnologiyaların tətbiqi tələbələrin sosial inkişafını gücləndirir. Qrup layihələri, sosial təşəbbüslər və mədəni tədbirlər onların əməkdaşlıq, empatiya, sosial məsuliyyət və mədəni müxtəlifliyə hörmət kimi bacarıqlarını inkişaf etdirir. Tələbələr müxtəlif perspektivlərlə tanış olaraq inkluziv düşüncə qabiliyyətini formalaşdırır və cəmiyyət həyatında fəal iştirak etməyə hazırlanırlar.

Monoqrafiyada qeyd olunur ki, müasir təhsil sistemində innovativ yanaşmaların tətbiqi təlim prosesinin səmərəliliyini artırır və təhsilalanların yaradıcılıq, tənqidi düşünmə və sosial bacarıqlarının formalaşmasına şərait yaradır. Müəllimlər tərəfindən interaktiv metodların, informasiya-kommunikasiya texnologiyalarının və layihə əsaslı təlimin tətbiqi tədris prosesini daha çevik və nəticəyönlü edir [1, s.58–61].

Nəticə etibarilə, tədris prosesində innovativ pedaqoji texnologiyaların tətbiqi tələbələrin akademik uğurunu təmin etməklə yanaşı, onların şəxsi və sosial bacarıqlarının inkişafına da mühüm töhfə verir. Bu yanaşmalar ali təhsilin yalnız bilik ötürməkdən ibarət olmadığını, həm də tələbələrin müasir cəmiyyətin və əmək bazarının tələblərinə uyğun, sosial baxımdan fəal və peşəkar fərdlər kimi yetişməsinə xidmət etdiyini göstərir.

Əlavə olaraq, innovativ pedaqoji texnologiyalar tələbələrin öyrənmə motivasiyasını artırır və onların dərslərə marağını yüksəldir. Bu yanaşmalar tələbələrdə öyrənmə məsuliyyətini gücləndirir və onların akademik nailiyyətlərini davamlı edir. İnteraktiv və layihə əsaslı metodlar tələbələrin fərdi təcrübələrini paylaşmasına imkan verir və kollektiv öyrənməni təşviq edir. Rəqəmsal resurslar və virtual laboratoriyalar tələbələrə müasir texnologiyalarla işləmək bacarığı qazandırır. Belə texnologiyalar həmçinin tələbələrin innovativ düşüncə və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Sosial layihələr və komandada iş təcrübəsi tələbələrin sosial məsuliyyət hissini gücləndirir. Mədəni müxtəlifliyə hörmət və inkluziv düşüncə onların sosial inteqrasiyasını asanlaşdırır. Praktiki məşğələlər tələbələrin real həyatda qərar qəbul etmə bacarıqlarını təkmilləşdirir. İnnovativ texnologiyaların istifadəsi tələbələri peşəkar karyeraya hazırlayır və əmək bazarında uğurlu olma imkanlarını artırır. Nəticədə, bu yanaşmalar tələbələrin akademik, şəxsi və sosial inkişafını inteqrasiya olunmuş şəkildə təmin edir və ali təhsil müəssisələrinin strateji məqsədlərinə xidmət edir.

***Ədəbiyyat***

1. *Müasir təhsilə innovativ yanaşmalar [Mətn]: monoqrafiya / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Təhsil Problemləri İnstitutu; nəşrə haz. İ.Cəbrayılov; ön söz Q.Novruzov. — Bakı: Təhsil, 2017, s. 58–61.*
2. *İlyasov M. Müəllim peşəkarlığı və səriştəsi, Bakı: Təhsil Nəşriyyatı, 2018, s. 72–74.*

3. *Mehrabov A. Səriştəli müəllim, Bakı: Adiloğlu Nəşriyyatı, 2019, s. 65–68.*
4. *Qasımova S. Ali təhsildə innovativ tədris metodlarının tətbiqi, Bakı: Təhsil Problemləri İnstitutu, 2021, s. 59–63.*
5. *Trilling B., Fadel C. 21st Century Skills: Learning for Life in Our Times, San Francisco: Jossey-Bass, 2009, pp. 48–52.*

**Əlimirzəyeva F.A.**
**Bakı Slavyan Universiteti**
***faridaalimirzoyeva@gmail.com***

# MÜƏLLİM PEŞƏKARLIĞININ İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

***Xülasə***

*Müasir təhsil sistemi müəllimdən yalnız bilik ötürən deyil, şagirdlərin düşünmə, yaradıcılıq və müasir bacarıqlarını formalaşdıran rəhbər olmağı tələb edir. Bu tədqiqat müəllimlərin peşəkar inkişafına təsir edən amilləri araşdırır, mövcud vəziyyəti qiymətləndirir və beynəlxalq təcrübəyə əsaslanan praktik inkişaf yollarını müəyyənləşdirir. Araşdırma göstərir ki, peşəkar inkişaf davamlı olmalı, mentorluq, təcrübə mübadiləsi, İKT bacarıqları, sertifikasiya sistemi və fərdi inkişaf planları ilə dəstəklənməlidir. Bu yanaşma təhsilin keyfiyyətini yüksəldir və beynəlxalq standartlara uyğunlaşmanı gücləndirir.*

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ ПРОФЕССИОНАЛИЗМА УЧИТЕЛЯ

***Резюме***

*Современная система образования требует от учителя быть не только источником знаний, но и лидером, формирующим мышление, творческие и современные навыки учащихся. В исследовании анализируются факторы, влияющие на профессиональное развитие педагогов, оценивается текущее состояние и определяются практические пути развития на основе международного опыта. Результаты показывают, что профессиональное развитие должно быть непрерывным и поддерживаться наставничеством, обменом опытом, развитием ИКТ-навыков, системой сертификации и индивидуальными планами развития. Это повышает качество образования и укрепляет соответствие международным стандартам.*

# FACTORS AFFECTING THE DEVELOPMENT OF TEACHER PROFESSIONALISM

***Summary***

*The modern education system requires teachers to be not only knowledge providers but also leaders who develop students' thinking, creativity, and modern skills. This study examines the factors influencing teachers' professional development, evaluates the current situation, and identifies practical improvement strategies based on international experience. The findings indicate that professional development should be continuous and supported by mentoring, experience sharing, ICT skills development, certification systems, and individual development plans. This approach improves education quality and strengthens alignment with international standards.*

***Açar sözlər:*** *müəllim peşəkarlığı, peşəkar inkişaf, təhsil keyfiyyəti, daxili və xarici amillər, mentorluq və təcrübə mübadiləsi, rəqəmsal savadlılıq, beynəlxalq təcrübə*

***Ключевые слова:*** *профессионализм учителя, профессиональное развитие, качество образования, внутренние и внешние факторы, наставничество и обмен опытом, цифровая грамотность, международный опыт*

***Key words:*** *teacher professionalism, professional development, quality of education, internal and external factors, mentoring and experience exchange, digital literacy, international experience*

Təhsil sistemində əldə edilən uğurlar birbaşa müəllimlərin peşəkarlığından asılıdır. Müəllim təkcə bilik ötürən şəxs deyil, eyni zamanda gənc nəslin dünyagörüşünü formalaşdıran, onların düşünmə tərzini istiqamətləndirən və müstəqil qərarvermə bacarığını inkişaf etdirən şəxsiyyətdir. Buna görə də bu gün müəllimlərin peşəkarlığının artırılması həm dövlət təhsil siyasətinin, həm də elmi-pedaqoji tədqiqatların əsas istiqamətlərindən biri hesab olunur.

“Müəllimin peşəkarlığı” anlayışı çoxşaxəlidir və müxtəlif tədqiqatçılar onu fərqli cür izah edirlər. Bəzi müəlliflərə görə, müəllimin peşəkar olması pedaqoji bilik və bacarıqlarının yüksək səviyyədə olması ilə əlaqələndirilir, digərləri isə bu anlayışa müəllimin şəxsi keyfiyyətlərini, dəyərlərini, ünsiyyət mədəniyyətini və davranış tərzini də daxil edirlər. Fikrimcə, peşəkar müəllim həm məsuliyyətli, yaradıcı və səriştəli, həm də yeniliklərə açıq və əməkdaşlığa meyilli şəxs olmalıdır.

Müasir dövrdə müəllim yalnız ixtisas biliyi ilə kifayətlənməməlidir. O, öz üzərində daima çalışan, yeni təlim texnologiyalarına və sosial dəyişikliklərə uyğunlaşa bilən şəxsiyyət kimi formalaşmalıdır. Müəllim həm öyrədən, həm də öyrənən rolu daşıyır — yəni o, təlim prosesində həm bilik ötürür, həm də öz təcrübəsini daim təkmilləşdirir.

Tədqiqatlar göstərir ki, müəllimin peşəkarlığına təsir edən amillər iki əsas qrupa bölünür: daxili və xarici amillər. Daxili amillər müəllimin motivasiyası, şəxsi keyfiyyətləri və peşəyə münasibəti ilə əlaqədardır. Xarici amillər isə iş mühiti, rəhbərlik münasibətləri, maddi-mənəvi dəstək və dövlətin təhsil siyasəti ilə bağlıdır. Bu amillər bir-biri ilə sıx qarşılıqlı əlaqədədir. Məsələn, motivasiyası yüksək olan müəllim çətin şəraitdə də işinə sadiq qala bilər, lakin uzunmüddətli nəticə üçün sistemli dəstək vacibdir.

Bu məqalənin əsas məqsədi müxtəlif elmi mənbələrə əsaslanaraq müəllim peşəkarlığına təsir edən əsas amilləri müəyyənləşdirmək, onların qarşılıqlı əlaqəsini təhlil etmək və bu istiqamətdə Azərbaycan təhsil sistemi üçün tətbiq oluna biləcək tövsiyələr irəli sürməkdir.

Peşəkarlıq anlayışı müəllimlik peşəsində yalnız bilik və bacarıqlarla məhdudlaşmır. O, müəllimin elmi, pedaqoji, psixoloji və etik keyfiyyətlərinin vəhdətini özündə birləşdirən çoxşaxəli bir anlayışdır. Başqa sözlə, müəllimin peşəkarlığı onun fənn üzrə bilik səviyyəsini, davranış mədəniyyətini, tədris prosesinə münasibətini və ümumi şəxsiyyət keyfiyyətlərini əhatə edir.

Darling-Hammond qeyd edir ki, müəllim peşəkarlığı yalnız fənn bilikləri ilə ölçülmür; bu anlayış pedaqoji bacarıqlar, empatiya və sosial məsuliyyət hissinin birləşməsini nəzərdə tutur. Müəllim öz fəaliyyətində reflektiv düşüncə nümayiş etdirməli, gördüyü işi analiz edərək onu təkmilləşdirməyə çalışmalıdır. Bu yanaşma həm onun peşəkar inkişafına, həm də şəxsi kamilləşməsinə xidmət edir [1, s.293].

Fullan isə hesab edir ki, müəllim peşəkarlığının əsasında dəyişikliklərə uyğunlaşmaq və yeniliklərə açıq olmaq bacarığı dayanır. Müasir təhsil sistemlərində baş verən islahatlar müəllimdən çevik, yaradıcı və tənqidi düşünən olmağı tələb edir. Buna görə də peşəkar müəllim yeni metodlara, texnologiyalara və pedaqoji yanaşmalara daim maraq göstərməlidir [7, s.45].

Peşəkarlığın nəzəri əsaslarını izah edən yanaşmalardan biri də kompetensiya modelidir. Bu modelə əsasən, müəllimin peşəkarlığı yalnız bilik və bacarıqların səviyyəsi ilə deyil, həm də onun dəyərləri, motivasiyası və özünüinkişaf meyli ilə müəyyən olunur. OECD-nin hesabatında da vurğulanır ki, peşəkar müəllim təkcə bilik ötürən deyil, həm də öyrənmə mühitini idarə edən və tədris prosesini istiqamətləndirən bir liderdir. Belə müəllim yalnız mövzunu izah etmir, eyni zamanda şagirdlərdə maraq yaradır, onları fəal öyrənməyə təşviq edir və onların öyrənmə strategiyalarını formalaşdırmağa kömək edir [3, s.14].

Bundan başqa, müəllimin etik davranışı və sosial məsuliyyəti də onun peşəkarlığının mühüm hissəsidir. Müəllimin ədalətli, empatik və hörmətli münasibəti həm onun nüfuzunu artırır, həm də təhsil mühitində sağlam münasibətlərin formalaşmasına şərait yaradır. UNESCO-nun hesabatında da qeyd olunur ki, müəllimin peşəkar etikası təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əsas amillərdəndir [4, s.24].

Nəticə etibarilə, müəllim peşəkarlığı sadəcə fənn biliyinə əsaslanan bir qabiliyyət deyil, çoxşaxəli bir sistemdir. Burada bilik, bacarıq, dəyərlər və şəxsi keyfiyyətlər bir-birini tamamlayır. Həqiqi peşəkar müəllim həm öyrədən, həm öyrənən, həm də cəmiyyətin mənəvi inkişafına töhfə verən bir şəxsiyyətdir.

Müəllimin peşəkarlığına təsir göstərən amillər arasında daxili motivasiyalar və şəxsi keyfiyyətlər xüsusi yer tutur. Daxili amillər müəllimin şəxsiyyətindən, dəyərlər sistemindən, motivasiyasından və peşəyə münasibətindən qaynaqlanır. Bu amillər müəllimin özünü peşəkar kimi necə

dərk etdiyini və fəaliyyətini hansı istiqamətdə inkişaf etdirdiyini müəyyənləşdirir [6, s.293].

Əvvəla, müəllimin motivasiyası onun peşəkar davranışının əsas qüvvəsidir. Yüksək motivasiyaya malik müəllim qarşısına məqsədlər qoyduğuna görə, öz bilik və bacarıqlarını daim təkmilləşdirməyə çalışır. Əgər müəllim öz işinə hörmətlə yanaşır və dəyərli hesab edirsə, bu, onun dərs prosesinə daha məsuliyyətlə yanaşmasına gətirib çıxarır. Daxili motivasiya müəllimdə həm yaradıcı yanaşma, həm də davamlı inkişaf istəyini gücləndirir [7, s.45–48)]

İkinci mühüm amil müəllimin özünə inamı və özünütəhlil bacarığıdır. Peşəkar müəllim daim öz fəaliyyətinə tənqidi baxışla yanaşmalı, tədris prosesindəki uğurlarını və çatışmazlıqlarını dəyərləndirməyi bacarmalıdır. Bu, onun gələcək fəaliyyətini planlaşdırmasına və peşəkar mükəmməllik yolunda irəliləməsinə kömək edir. Özünə inamı olan müəllim həm şagirdləri, həm də həmkarları üçün nümunəvi şəxsiyyətə çevrilir [3, s.12–14].

Müəllimin dəyərləri və şəxsi baxışları da onun peşəkarlığının ayrılmaz hissəsidir. Əgər müəllim humanist dəyərlərə sadiqdirsə, o, şagirdlərə hörmətlə yanaşar, onları fərd kimi dəyərləndirər və demokratik münasibətlərə əsaslanan təlim mühiti yaradar. Bu cür münasibət həm şagirdlərin motivasiyasına, həm də ümumi təlim atmosferinə müsbət təsir göstərir [4, s. 24].

Bundan başqa, emosional sabitlik və psixoloji dözümlülük də müəllimin peşəkar keyfiyyətləri sırasına daxildir. Tədris prosesi daim gərginlik, məsuliyyət və müxtəlif situasiyalarla müşayiət olunur. Müəllim bu hallarda emosiyalarını idarə etməyi, hər bir vəziyyətə soyuqqanlı yanaşmağı bacarmalıdır. Emosional sabitlik müəllimin həm öz işindən məmnunluğunu artırır, həm də kollektivdə sağlam münasibətlərin formalaşmasına kömək edir [6, s. 293].

Müəllimin peşəkarlığına təsir göstərən daxili amillər bir-biri ilə sıx əlaqəlidir. Buna görə də motivasiya, özünə inam və emosional stabillik müəllimin şəxsiyyət portretini formalaşdırır. Ancaq bu keyfiyyətlərin bir-birinə təsiri nəticəsində müəllim öz işini sevərək, həvəslə icra edə bilər və təhsilin keyfiyyətini yüksəldə bilər.

Müəllimin peşəkar fəaliyyəti yalnız şəxsi keyfiyyətlərdən deyil, həm də onun işlədiyi mühit və sosial şərtlərdən ciddi şəkildə təsirlənir. Xarici amillər müəllimin fəaliyyət göstərdiyi məktəb mühiti, idarəetmə sistemi, həmkarlarla münasibətlər, maddi və institusional dəstək, həmçinin dövlət siyasəti və cəmiyyətin müəllimə münasibəti ilə bağlıdır.

1. Məktəb mühiti və idarəetmə sistemi

Məktəbin idarəetmə üslubu müəllimin işə yanaşmasını birbaşa formalaşdırır. Əgər rəhbərlik müəllimlərlə açıq əlaqədədirsə, onların fikirlərinə diqqət yetirirsə və qərarvermə prosesinə imkan verirsə, müəllimlər də işlərinə

məsuliyyətlə yanaşır və təşəbbüskarlıq göstərirlər. Əksinə, sərt nəzarət və demokratik olmayan idarəetmə müəllimlərin yaradıcılıq imkanlarını məhdudlaşdırır və daxili motivasiyanı zəiflədir.

Bu yanaşma OECD-nin məktəb mühiti haqqında modelləri ilə də təsdiqlənir — əməkdaşlıq yönümlü idarəetmə mühiti müəllim performansını artırır [3, s.12].

2. Kollegial əməkdaşlıq və peşəkar icmalar

Müəllimlərin bir-biri ilə əməkdaşlığı onların peşəkar inkişafında mühüm rol oynayır. Müəllimlər təcrübə mübadiləsi aparanda, açıq dərslər keçirdikdə və ya dərs planları hazırlayanda həm öz biliklərini, həm də pedaqoji bacarıqlarını inkişaf etdirirlər.

Bu yanaşma L.Shulman'ın "peşəkar icmalar" modelinə uyğundur. Shulman hesab edir ki, müəllimlər yalnız kollektiv refleksiya və əməkdaşlıq yolu ilə dərin peşəkar bilik formalaşdıra bilirlər.

Tədqiqatlar göstərir ki, əməkdaşlığa əsaslanan kollektivlərdə çalışan müəllimlər tükənmişlik səviyyəsini daha az yaşayır və daha yüksək peşəkar məmnunluq hiss edirlər [7, s. 47].

3. Maddi və institusional dəstək

Müəllimlərin fəaliyyətini dəstəkləyən resurslar (metodik vəsaitlər, təlim proqramları, müasir texnologiyalar) onların işinin keyfiyyətinə birbaşa təsir göstərir.

UNESCO-nun 2023-cü il hesabatına görə, resurs təminatı zəif olan məktəblərdə müəllimlər innovativ tədris metodlarından istifadə etməkdə çətinlik çəkirlər [4, s. 24].

Bundan əlavə, maddi stimullar — maaş artımı, mükafatlandırma və sosial təminatlar — müəllimlərin motivasiyasını artırır və peşəyə bağlılığını gücləndirir. Bu, OECD-nin təhsil siyasəti tövsiyələrində də xüsusi vurğulanır [3, s. 14].

4. Dövlət siyasəti və sosial status

Dövlətin təhsil siyasəti və cəmiyyətin müəllimə münasibəti də peşəkarlığa təsir edən mühüm xarici amillərdir. Müasir dövrdə bir çox ölkələrdə təhsil islahatları müəllimlərin peşəkar inkişafını dəstəkləyir.

Sahlberg'in Finlandiya modelinə görə, müəllimlərin yüksək sosial statusu və onlara göstərilən ictimai etimad onların işə bağlılığını və peşəkar performansını artırır [2, s. 55–60].

Yüksək sosial status müəllimlərin peşəkar qürurunu gücləndirir və gənclərin bu sahəyə marağını artırır.

Nəticə olaraq, xarici amillər müəllimin daxili motivasiyasını dəstəkləyərək peşəkar inkişafını sürətləndirir. Məktəb mühiti, idarəetmə sistemi, həmkarlarla əməkdaşlıq, maddi dəstək və dövlət siyasəti birgə

müəllimin fəaliyyətinə müsbət təsir göstərir və onun peşəkar potensialının tam həyata keçirilməsinə imkan yaradır.

Müasir pedaqoji yanaşmalar müəllimin peşəkarlığını sadəcə bilik və bacarıqların toplusu kimi deyil, həm də onun formalaşmış peşəkar şəxsiyyəti kimi qiymətləndirir. Bu yanaşmaya görə, müəllimin peşəkar kimliyi onun dəyərləri, sosial mühitlə qarşılıqlı əlaqələri və şəxsi təcrübəsi nəticəsində zamanla formalaşır. Belə müəllim öz fəaliyyətini davamlı şəkildə öyrənən, təkmilləşdirən və yeniliklərə açıq mütəxəssis kimi qəbul edilir [7, s. 46].

Bu prosesdə reflektiv düşüncə mühüm rol oynayır. Schön-ün nəzəriyyəsinə görə, müəllim yalnız öz təcrübəsini təhlil etdikdə real peşəkar inkişaf baş verir; refleksiya həm "fəaliyyət içində düşünməyi", həm də "fəaliyyətdən sonra düşünməyi" əhatə edir [8,s.21–28]. Müəllim öz pedaqoji təcrübəsini qiymətləndirərək güclü və zəif tərəflərini müəyyən edir və gələcək inkişaf istiqamətlərini planlayır. Reflektiv yanaşma müəllimi yeniliklərə və dəyişikliklərə açıq edir, onun peşəkar qərar qəbul etmə bacarığını gücləndirir [1, s. 295].

Son illərdə müəllimlərin davamlı peşəkar inkişafını dəstəkləmək üçün peşəkar öyrənmə icmaları (Professional Learning Communities) geniş tətbiq olunur. Bu icmalar müəllimlər arasında əməkdaşlığı, həmrəyliyi və pedaqoji təcrübənin paylaşılmasını təşviq edir. Belə mühitdə çalışan müəllimlər həm ortaq məqsədlərə yönəlir, həm də bir-birindən öyrənərək təhsil prosesində daha effektiv qərarlar qəbul edirlər [7, s. 47].

Müasir dövrdə müəllim peşəkarlığının vacib komponentlərindən biri də rəqəmsal savadlılıqdır. Təhsil sistemlərinin texnologiya ilə inteqrasiya olunması müəllimdən daha geniş İKT bacarıqları tələb edir. UNESCO-nun 2023-cü il hesabatına görə, texnologiyalardan səmərəli istifadə dərslərin interaktivliyini artırır, şagird motivasiyasını yüksəldir və müəllimin dərs prosesinə nəzarət imkanlarını genişləndirir [4, s. 24–47]. Bir çox ölkələrdə müəllimlərin rəqəmsal bacarıqlarını inkişaf etdirməyə yönəlmiş xüsusi təlim proqramları həyata keçirilir ki, bu da dərslərin keyfiyyətini artırır və müəllimlərin məmnunluğunu yüksəldir [3, s. 14].

Beynəlxalq təcrübələr göstərir ki, müəllim peşəkarlığının inkişafına yönəlmiş siyasət uğurlu nəticələr verir. Cənubi Koreya, Finlandiya və Sinqapur kimi ölkələrdə müəllimlərə yüksək etimad göstərilir, onların müstəqil qərarvermə hüquqları genişdir və dövlət tərəfindən davamlı təlimlərlə dəstəklənirlər. Sahlberg-in Finlandiya modeli müəllimlərin yüksək sosial statusunun, muxtariyyətinin və məsuliyyətinin təhsilin keyfiyyətinə bilavasitə müsbət təsir etdiyini göstərir [2, s. 55–60].

Azərbaycanda da müəllimlərin peşəkar inkişafına yönəlmiş bir sıra addımlar atılır. İxtisasartırma kursları, sertifikatlaşdırma prosesi və müxtəlif təlim proqramları müəllimlərin bilik və bacarıqlarını artırmaqla yanaşı,

beynəlxalq təcrübəyə uyğunlaşmağı da təmin edir. Bu tədbirlər həm müəllimlərin peşəkar inkişafına, həm də təhsil sisteminin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Yekun olaraq demək olar ki, müəllim peşəkarlığı təhsil sisteminin dayanıqlığı və cəmiyyətin intellektual səviyyəsi üçün əsas meyardır. Peşəkar müəllim yalnız dərs deyən deyil, həm də öyrənmə prosesini idarə edən, şagirdin şəxsiyyət kimi formalaşmasına təsir edəndir. Buna görə də müəllim peşəkarlığına təsir edən daxili və xarici amillərin hər biri bir-biri ilə bağlıdır və biri digəri olmadan tam nəticə vermir.

Müəllimin ixtisas hazırlığı, şəxsi keyfiyyətləri, peşəyə olan münasibəti və motivasiyası onun peşəkar inkişafının əsasını təşkil edir. Eyni zamanda, məktəb mühiti, idarəetmə sistemi, həmkarlarla münasibətlər və dövlətin təhsil siyasəti bu inkişafı dəstəkləyən mühüm xarici amillərdir. Əgər bu iki istiqamət – yəni fərdi və institusional dəstək – arasında balans qorunarsa, müəllim həm peşəkar, həm də insani baxımdan özünüreallaşma imkanı qazanır.

Müasir dövr müəllimdən daha çevik, yaradıcı və tənqidi düşünən olmağı tələb edir. Texnologiyanın, informasiya axınının və yeni tədris modellərinin artdığı bir zamanda müəllimin rolu dəyişir – o, sadəcə bilik ötürən deyil, eyni zamanda öyrənmə prosesinin təşkilatçısına çevrilir. Buna görə də müəllimlərin davamlı inkişafı üçün şəraitin yaradılması, təlimlərin müasir tələblərə uyğunlaşdırılması və onların sosial statusunun yüksəldilməsi təhsilin keyfiyyətinə birbaşa təsir edən əsas amillərdəndir.

Hər bir təhsil sistemi üçün əsas məqsəd öz işinə sevgi ilə yanaşan, məsuliyyətli və yaradıcı müəllimlər yetişdirmək olmalıdır. Belə müəllimlər həm şagirdlərdə öyrənməyə maraq yaradır, həm də gələcək nəsillərin dəyərlər sisteminin formalaşmasına təsir edir. Peşəkar müəllimlər cəmiyyətin mənəvi dayağı, sabit inkişafın və sosial rifahın təminatçısıdır.

Müəllim peşəkarlığının inkişafı təkcə tədris keyfiyyətinin artırılması deyil, həm də ümumilikdə təhsil sisteminin modernləşməsi üçün vacib şərtdir. Bunun üçün görüləcək işlər yalnız rəsmi sənədlərlə məhdudlaşmamalı, həm də real mühitdə müəllimin gündəlik fəaliyyətinə təsir edən tədbirlərlə dəstəklənməlidir.

İlk növbədə, müəllimlərin davamlı peşəkar inkişafı üçün şərait genişləndirilməlidir. Təlimlər formal xarakter daşımamalı, müəllimlərin real ehtiyaclarına uyğun planlaşdırılmalıdır. Məsələn, yeni tədris texnologiyaları, sinifdə şagird motivasiyasının artırılması və fərdiləşdirilmiş təlim metodları üzrə təlimlərə üstünlük verilməlidir.

İkinci vacib məqam müəllimin əmək fəaliyyətinə və şəxsi rifahına diqqət yetirilməsidir. Müəllim öz peşəsində dəyərli olduğunu hiss etməlidir. Bunun üçün maddi və mənəvi stimullaşdırma mexanizmləri gücləndirilməli, müəllimlərin sosial statusunu artıran addımlar atılmalıdır. Cəmiyyətdə müəllim

obrazının nüfuzlu və etibarlı peşə kimi tanıdılması bu sahədə mühüm rol oynaya bilər.

Digər tərəfdən, məktəb daxilində əməkdaşlıq və öyrənmə mədəniyyəti inkişaf etdirilməlidir. Müəllimlər bir-birindən öyrənməyə, fikir mübadiləsinə və təcrübə paylaşımına həvəsləndirilməlidirlər. Bunun üçün məktəblərdə mentorluq və təcrübə paylaşımı proqramları tətbiq oluna bilər. Bu yanaşma həm gənc, həm də təcrübəli müəllimlərin öz potensiallarını daha səmərəli istifadə etməsinə kömək edər.

Eyni zamanda, rəhbərlik və idarəetmə səviyyəsində müəllimlərə etimadın artırılması da mühümdür. Onlara qərarvermə proseslərində daha çox söz haqqı verilməli, tədris planlarının hazırlanmasında və məktəbdaxili islahatlarda aktiv iştirakı təşviq olunmalıdır. Müəllim öz işinə təsir edə bildikdə, onun məsuliyyət hissi və motivasiyası da artır.

Nəhayət, beynəlxalq təcrübənin öyrənilməsi və uyğun modellərin tətbiqi davamlı proses olmalıdır. Finlandiya, Cənubi Koreya və Sinqapur kimi ölkələrin uğurlu təcrübələri göstərir ki, müəllimə inam və müstəqil qərarvermə azadlığı peşəkarlığın əsas açarlarından biridir. Bu yanaşmaların Azərbaycan təhsil sisteminə uyğunlaşdırılması, yerli şərait nəzərə alınmaqla həyata keçirilə bilər.

Ümumilikdə, müəllim peşəkarlığını artırmaq üçün atılan hər addım yalnız müəllimin deyil, bütövlükdə cəmiyyətin gələcəyinə sərmayədir. Peşəkar, motivasiyalı, dəyərlərinə sadiq və işini sevən müəllimlər olduğu müddətcə təhsilin keyfiyyəti də daim yüksələcəkdir.

***Ədəbiyyat***

1. *Darling-Hammond, L. (2017). Teacher Education Around the World: What Can We Learn from International Practice? European Journal of Teacher Education, 40(3), 291–309.*
2. *Sahlberg, P. (2015). Finnish Lessons 2.0: What Can the World Learn from Educational Change in Finland? New York: Teachers College Press.*
3. *OECD. (2019). A Flying Start: Improving Initial Teacher Preparation Systems. Paris: OECD Publishing.*
4. *UNESCO. (2023). Global Education Monitoring Report 2023: Technology in Education. Paris: UNESCO Publishing.*
5. *Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2022). Müəllimlərin davamlı peşəkar inkişafı üzrə illik hesabat. Bakı: Təhsil Nazirliyi.*
6. *Darling-Hammond, L. (2017). Teacher Education Around the World: What Can We Learn from International Practice? European Journal of Teacher Education, 40(3), 291–309. s. 293.*
7. *Fullan, M. (2016). The New Meaning of Educational Change (5th ed.). New York: Teachers College Press. s. 45–48.*
8. *Schön, D. A. (1983). The reflective practitioner: How professionals think in action.*

**Əmiraslanova Ş.Ş.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***amiraslanovaşhalala@gmail.com***

# İNKİŞAFETDİRİCİ TƏLİM MÜHİTİNDƏ TƏTBİQ OLUNAN METODLAR

***Xülasə***

*İnkişafetdirici təlim müasir pedaqogikanın əsas istiqamətlərindən biri olub, şagirdlərin tənqidi, məntiqi və yaradıcı düşünmə qabiliyyətlərini formalaşdırmağa xidmət edir. Bu yanaşma təhsilalanların fəal iştirakını, idrak fəallığını və müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir. Problemli təlim, tədqiqat, əqli hücum, layihə, rollu oyun və debat kimi metodların tətbiqi öyrənmə prosesini interaktiv və maraqlı edir. İnkişafetdirici təlim mühitində rəqəmsal texnologiyalar, oyunlaşdırma, süni intellekt və virtual reallıqdan istifadə şagirdlərin öyrənməyə motivasiyasını artırır, biliklərin dərin mənimsənilməsinə və təhsilin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.*

# МЕТОДЫ, ПРИМЕНЯЕМЫЕ В РАЗВИВАЮЩЕЙ ОБУЧАЮЩЕЙ СРЕДЕ

***Резюме***

*Развивающее обучение является одним из основных направлений современной педагогики и способствует формированию у учащихся критического, логического и творческого мышления. Такой подход развивает активность обучающихся, их познавательную деятельность и умения самостоятельного обучения. Применение таких методов, как проблемное обучение, исследовательский, мозговой штурм, проектный, ролевая игра и дебаты, делает процесс обучения более интерактивным и увлекательным. Использование цифровых технологий, геймификации, искусственного интеллекта и виртуальной реальности в развивающей обучающей среде повышает мотивацию учащихся, способствует глубокому усвоению знаний и повышению качества образования.*

# METHODS APPLIED IN A DEVELOPMENTAL LEARNING ENVIRONMENT

***Summary***

*Developmental learning is one of the main directions of modern pedagogy and contributes to the formation of students' critical, logical, and creative thinking skills. This approach enhances learners' activity, cognitive engagement, and independent learning abilities. The use of such methods as problem-based learning, research, brainstorming, project work, role-playing, and debates makes the learning process more interactive and engaging. The integration of digital technologies, gamification, artificial intelligence, and virtual reality in a developmental learning environment*

*increases students' motivation, promotes deeper knowledge acquisition, and improves the overall quality of education.*

İnkişafetdirici təlim müasir pedaqogikada mühüm yer tutur və şagirdlərin tənqidi, məntiqi və yaradıcı düşüncələrini inkişaf etdirməyə yönəlib. Bu yanaşma təhsilalanların fəal iştirakını, onların idrak fəaliyyətini artırmağı, müstəqil düşünməyi və problem həll etmə bacarıqlarını formalaşdırmağı nəzərdə tutur. İnkişafetdirici təlim zamanı aşağıdakı metodlarlardan istifadə daha səmərəlidir.

**1. Problemli təlim metodu:** Problemli təlim metodu XX əsrin ortalarında bir neçə alim tərəfindən irəli sürülmüşdür. Onun əsas nəzəri əsaslarını C.Dyui, L.Vıqotski, S.Rubinşteyn və M. Lipman kimi alimlər formalaşdırmışlar. Bu metodun elmi əsaslarını M.İ.Maxmutov özünün "Problemli təlim" (1975) əsərində geniş şəkildə izah etmişdir. Problemli təlim metodu tələbələrə hazır biliklərin verilməsi əvəzinə, onları problem vəziyyətlərinə salmaqla, aktiv düşünməyə, tədqiqat aparmağa və öz həll yollarını tapmağa sövq edir.

Bu metodun əsas məqsədi şagirdlərin qarşısına problemin qoyulması və onun həlli üçün araşdırmalar aparmalarını təmin etməkdir. Şagirdlər əvvəlcədən onlara təqdim edilən hazır bilikləri öyrənmək əvəzinə, problemi özləri tədqiq edir, təhlil edir və nəticəyə gəlirlər. Məsələn, müəllim dərsdə belə bir sualla sinfə müraciət edir: "Əgər sudan istifadə imkanları məhdud olsa, biz həyatımızı necə davam etdirərik?" Şagirdlər bu problemi araşdıraraq müxtəlif həll yolları irəli sürürlər və nəticədə su ehtiyatlarının qorunmasının vacibliyini anlayırlar.

Digər bir nümunəyə diqqət yetirək: İbtidai siniflərdə "Həyat bilgisi" fənninin tədrisində problemli təlim metodundan istifadə etməklə şagirdlərin tənqidi və məntiqi təfəkkürünün inkişafına, onların araşdırma aparma və müstəqil qərar qəbul etmə bacarıqlarının formalaşmasına şərait yaratmaq mümkündür. Burada problemli təlim metodu aşağıdakı mərhələlərdə tətbiq edilir:

– Problemin müəyyən edilməsi və təqdim edilməsi: Müəllim dərsin əvvəlində şagirdlərin gündəlik həyatı ilə bağlı maraqlı və düşündürücü bir problem ortaya qoyur. Məsələn: "Niyə insanlar sağlam qidalanmalıdır?" və ya "Ətraf mühiti necə qoruya bilərik?" kimi suallar verilir.

– Fərziyyələrin irəli sürülməsi: Şagirdlər problemi həll etmək üçün öz fərziyyələrini irəli sürürlər. Onlar fərqli ideyalar təklif edərək öz mövqelərini əsaslandırmağa çalışırlar.

– Tədqiqat və araşdırma: Şagirdlər müxtəlif mənbələrdən (internet, dərsliklər, şəkillər, videolar və s.) istifadə edərək problemi araşdırırlar. Kiçik qruplarda və ya fərdi şəkildə işləyərək həll yolları axtarırlar.

– Müzakirəsi və təqdimat: Şagirdlər topladıqları məlumatları təqdim edir və onların doğruluğunu müəllim və sinif yoldaşları ilə birlikdə müzakirə edirlər. Müxtəlif həll yolları müqayisə olunur və ən məntiqli və effektiv olan seçilir.

– Ümumiləşdirmə: Müəllim şagirdlərin gəldiyi nəticələri ümumiləşdirir və əsas konsepsiyaları vurğulayır. Problem həll edildikdən sonra oxşar vəziyyətlərdə hansı addımların atıla biləcəyi müzakirə edilir.

Fərqli nümunəyə diqqət yetirək: "Təmiz suyun əhəmiyyəti" mövzusu üzrə problemli təlimin tətbiqi.

***Problemin müəyyənləşdirilməsi:*** "Niyə suyu təmiz saxlamaq vacibdir?"

***Fərziyyə:*** Şagirdlər müxtəlif cavablar təklif edir (məsələn, "Çünki çirkli su xəstəliklərə səbəb olur.").

***Tədqiqat:*** Şagirdlər su çirklənməsinin səbəbləri və nəticələri barədə məlumat toplayır.

***Həll yolları:*** Müxtəlif üsullar müzakirə olunur (suya qənaət, tullantıları düzgün idarəetmə və s.).

***Nəticə:*** Şagirdlər düzgün qərarların qəbul edilməsinin vacibliyini anlayır və davranışlarında dəyişiklik etməyə çalışırlar.

Bu yanaşma "Həyat bilgisi" dərslərinin daha maraqlı və interaktiv olmasına, həmçinin şagirdlərin həyati bacarıqlar qazanmasına kömək edir.

**2. Tədqiqat metodu:** Bu metodda şagirdlər müəyyən bir problemin həlli üçün elmi araşdırmalar aparır, faktlar toplayır, onları təhlil edirlər. Belə yanaşma onların idrak fəallığını və müstəqil düşüncə qabiliyyətini inkişaf etdirir.

İbtidai siniflərdə riyaziyyat dərsində tədqiqat metodunu tətbiq etmək üçün şagirdlərin fəal iştirakını təmin edən, problem həll etməyə və araşdırmaya sövq edən metodlardan istifadə etmək lazımdır. Bu metod şagirdlərin müstəqil düşünmə, məntiqi nəticə çıxarma və araşdırma bacarıqlarını inkişaf etdirir. Məsələn, Toplamanın yerdəyişmə qanununun tədqiqat yolu ilə öyrədilməsi.

**Mövzu:** Toplama əməliyyatında yerdəyişmə qanunu (a + b = b + a).

**Dərsin məqsədi:** Şagirdlər toplamanın yerdəyişmə qanununu tədqiqat yolu ilə kəşf etsinlər. Müşahidə aparmaq, nəticə çıxarmaq və ümumiləşdirmək bacarıqlarını inkişaf etdirsinlər.

1) Problemin qoyulması (Tədqiqat sualı): Müəllim şagirdlərə aşağıdakı sualı verir:

– "Görəsən, 5 + 3 ilə 3 + 5 eyni nəticəni verirmi? Bunu necə sübut edə bilərik?"

2) Fərziyyənin müəyyənləşdirilməsi: Şagirdlər təxminlər irəli sürürlər: "Bəli, eyni olacaq, çünki hər iki tərəfdə eyni rəqəmlər var.", "Bəlkə də fərqli olacaq, çünki 5 əvvəl, 3 sonra gəlir."

3) Tədqiqatın aparılması: Şagirdlər fərqli üsullarla bu fərziyyəni yoxlayırlar:

– Sayma üsulu ilə: Barmaqlarından istifadə edərək hesablamaq.

– Qrafik təsvirlə: Şagirdlər 5 qırmızı dairə və 3 yaşıl dairə çəkərək, sonra yerini dəyişərək fərqi müşahidə edə bilərlər.

– Ədəd oxu üzrə yoxlama: Şagirdlər ədəd oxunda 5 vahid irəliləyib 3 vahid daha artırır, sonra 3 vahid irəliləyib 5 vahid artıraraq nəticəni müqayisə edirlər.

4) Nəticənin müzakirəsi və ümumiləşdirmə: Şagirdlər müşahidələrini təqdim edirlər və birgə nəticəyə gəlirlər: "Toplama əməliyyatında ədədlərin yerləri dəyişdirildikdə cəm dəyişmir".

Müəllim bunu ümumiləşdirərək riyazi qaydanı təqdim edir:

$$a + b = b + a$$

5) Möhkəmləndirmə və tətbiq etmə: Şagirdlər başqa misallar üzərində bu qanunu tətbiq edirlər (məsələn, 7 + 2 və 2 + 7).

Real həyat nümunələri verilir (məsələn, 3 qırmızı alma və 2 yaşıl alma ilə 2 yaşıl alma və 3 qırmızı alma eyni saydadır).

Bu üsulla şagirdlər riyazi qaydanı əzbərləmək əvəzinə özləri araşdıraraq kəşf edirlər. Bu, onların tənqidi düşünmə və müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir [8, s.113].

**3. Əqli hücum metodu:** Bu metod müxtəlif problemlərin həlli üçün istifadə olunur və şagirdlərin yaradıcı düşüncələrini stimullaşdırır. Onlar sərbəst şəkildə ideyalar irəli sürür, sonra isə bu ideyaları təhlil edilərək ən uyğun həll yolları müəyyən edirlər.

Əqli hücum (beyin həmləsi) metodu yaradıcı düşünmə və fəal iştirak əsasında qurulduğu üçün ibtidai siniflərin Azərbaycan dili dərslərində müxtəlif mövzuların izahı zamanı effektiv istifadə oluna bilər. Məsələn, ibtidai siniflərdə *"Antonimlər və sinonimlər"* mövzusunu əqli hücum metodu ilə tədris etmək üçün interaktiv və yaradıcı yanaşmalar tətbiq olunur. Dərs nümunəsinə diqqət yetirək:

**Dərsin məqsədi:**

1) şagirdlər antonim və sinonim anlayışlarını başa düşsünlər;
2) fərqli sözlər üçün antonim və sinonimlər tapa bilsinlər;
3) nitq ehtiyatlarını zənginləşdirsinlər.

**Dərsin gedişi: Motivasiya**

Müəllim lövhəyə bir neçə söz yazır (məsələn: *böyük, soyuq, gözəl*). Şagirdlərdən bu sözlərlə bağlı düşündükləri sözləri deməleri istənilir. Müəllim bu sözlərdən çıxış edərək antonim və sinonim anlayışlarını izah edir.

**Əsas hissə: Beyin həmləsi mərhələsi**

a) Antonimlər tapmaq. Müəllim lövhəyə bir neçə söz yazır: *isti, yuxarı, qaranlıq, ağır, sürətli, dost.*

Şagirdlərdən bu sözlərin antonimlərini soruşur. Hər bir şagirdin cavabını lövhəyə yazır və onların müxtəlif variantlar irəli sürmələrinə şərait yaradır. Şagirdlərin səsləndirdikləri antonimləri müzakirə edir və düzəlişlər aparır.

b) Sinonimlər tapmaq. Müəllim lövhəyə bir neçə söz yazır: *şən, qorxmaq, danışmaq, gözəl, yavaş, dahi.*

Şagirdlər cavab olaraq fərqli variantlar irəli sürür, müəllim isə onların cavablarını genişləndirir və təhlil edir.

c) Oyun – "Söz zənciri". Müəllim bir söz deyir (məsələn: *ağıl*).

Birinci şagird sinonimini tapır (zəka), ikinci şagird antonimini tapır (axmaqlıq). Növbəti şagird başqa bir söz deyir və oyun bu cür davam edir.

**Dərsin yekun hissəsi.**

a) "Söz kartları" tapşırığı. Şagirdlərə iki cür kart paylanır: bir qrupda antonimlər, digərində sinonimlər yazılır. Şagirdlərdən antonim və ya sinonimləri təsnif etmək tələb olunur. Tapşırıq bitdikdən sonra tapılan cütlüklər lövhədə müzakirə edilir.

b) Refleksiya və nəticə. Müəllim şagirdlərə suallar verir: 1) Bugünkü dərsdə nə öyrəndiniz? 2) Hansı sözlərin antonim və sinonimini əvvəlcədən bilmirdiniz? 3) Sizcə, sinonimlər və antonimləri bilmək nə üçün vacibdir?

Əqli hücum metodu ilə tədris olunan bu mövzuda şagirdlər fəal iştirak edir və yeni sözlər öyrənir, söz ehtiyatlarını zənginləşdirir, öz fikirlərini sərbəst şəkildə ifadə etməyi öyrənir, sözlərin mənasını daha yaxşı başa düşürlər.Bu yanaşma dərsi həm maraqlı, həm də effektiv etməyə kömək edəcək.

**4. Layihə metodu:** Şagirdlərə hər hansı bir mövzu ilə bağlı layihə üzərində işləmək tapşırılır. Bu prosesdə onlar araşdırma aparır, məlumatları toplayır, təhlil edir və nəticədə praktik bir iş təqdim edirlər. Layihə metodu müstəqil öyrənmə bacarıqlarını gücləndirir və kollektiv əməkdaşlıq vərdişlərini inkişaf etdirir. İbtidai siniflərdə "Həyat bilgisi" fənninin tədrisində layihə metodu ilə öyrədilə biləcək mövzular şagirdlərin yaş səviyyəsinə və dərsin məqsədlərinə uyğun seçilməlidir. Məsələn, "Sağlam həyat tərzi" mövzusunun layihə metodu ilə tədrisi şagirdlərin sağlam qidalanma, fiziki aktivlik və gigiyena qaydaları haqqında biliklərini praktik fəaliyyətlər vasitəsilə mənimsəməsinə imkan yaradır. Bu metodu aşağıdakı ardıcıllıqla həyata keçirmək olar.

1) Layihənin məqsədini müəyyənləşdirmək;

Layihənin əsas məqsədi şagirdlərə sağlam həyat tərzinin vacibliyini aşılamaq və onların bu istiqamətdə bacarıqlarını inkişaf etdirməkdir.

2) Şagirdləri qruplara bölmək və araşdıracağı problemləri müəyyən etmək;

Şagirdləri kiçik qruplara ayıraraq onlara aşağıdakı alt-mövzulardan birini vermək olar:

– Sağlam qidalanma seçimi;

- Fiziki aktivlik və idmanın əhəmiyyəti;
- Gigiyenik qaydalar və şəxsi inkişaf;
- Sağlam yuxu rejimi.

Hər bir qrup öz problemini araşdırmalı, gəldiyi nəticələri layihə şəklində təqdim etməlidir.

3) Məlumatların toplanması üçün tədqiatın aparılması. Bu məqsədlə şagirdlər aşağıdakıları həyata keçirə bilərlər:

- müəllim tərəfindən təqdim olunan mənbələri araşdırır;
- ailələrindən və tibb işçilərindən məlumat toplayır;
- sorğu və müşahidələr aparır.

4) Layihənin hazırlanması. Şagirdlər müxtəlif formatlarda layihələr hazırlaya bilərlər. a) poster və ya plakat hazırlamaq (sağlam həyat tərzi haqqında məlumatları şəkillərlə əyaniləşdirmək); b) tədqimat və slaydlar hazırlamaq (toplanmış məlumatları sinif yoldaşları ilə paylaşmaq); c) video çarx və ya sosial reklam (sağlam həyat tərzini təbliğ edən qısa video hazırlamaq); d) “Sağlam gün” təşkil etmək (sağlam qida menyusu hazırlamaq, idman yarışları və tədbirlər təşkil etmək.

İbtidai siniflərdə “Həyat bilgisi” fənninin tədrisində aşağıdakı mövzularda layihə metodunu tətbiq etmək olar: 1) təbiət və ekologiya; 2) şəhər və kənd həyatı; 3) ailə və cəmiyyət.

**5. Rollu oyunlar metodu:** Bu metod şagirdlərin müxtəlif situasiyaları daha yaxşı anlamasına kömək edir. Onlar real həyat situasiyalarını canlandırır və bu prosesdə öz bilik və bacarıqlarını tətbiq edirlər. Məsələn, “Həyat bilgisi” fənnində “Təbiətdən istifadə” mövzusunun tədrisində bu metoddan səmərəli istifadə etmək mümkündür.

**Sinif: II**

**Məzmun xətti:** Təbiət və biz

Rollu oyun metodu şagirdlərin fəal iştirakını təmin edərək öyrənmə prosesini daha əyləncəli və yadda qalan edir. Şagirdlərə müxtəlif rollar verilir. Məsələn: 1) təbiət mühafizəçisi (təbiətin qorunması və resursların düzgün istifadəsi haqqında məlumat verir); 2) kəndli (təbii resurslardan necə istifadə etdiyini nümayiş etdirir); 3) təbiət eksperti (təbii hadisələri izah edir və onların əhəmiyyətini vurğulayır); 4) istehlakçı (təbii məhsulları istifadə edən bir şəxs kimi çıxış edir). Sinifdə bir “təbiət guşəsi” yaradılır. Burada bitki, su, torpaq və digər təbii elementləri simvolizə edən əşyalar yerləşdirilir.

Hər bir şagird öz rolunu canlandıraraq təbiətə olan münasibətlərini nümayiş etdirir. Məsələn, kəndli bitki yetişdirmək üçün torpağı necə şumladığını izah edir, təbiət mühafizəçisi isə bu prosesin ətraf mühitə təsirini vurğulayır.

Oyun bitdikdən sonra, şagirdlər arasında müzakirə aparılır. Hər kəs öz rolunu necə gördüyünü, təbiətə olan münasibətini və bu münasibətin

əhəmiyyətini paylaşır. M.İlyasovun fikrincə, müəllim şagirdlərin fikirlərini toplayaraq, təbiətdən düzgün istifadə etməyin vacibliyini vurğulayır. Eyni zamanda, onları təbiətin qorunması üçün düşünməyə sövq edir [6, s.56].

Rollu oyun metodu şagirdlərin təbiətə olan münasibətini inkişaf etdirir, eyni zamanda onların sosial bacarıqlarını artırır. Şagirdlər, təbiət resurslarının necə istifadə edildiyini və onların qorunmasının nə qədər vacib olduğunu daha yaxşı anlayacaqlar. Bu cür interaktiv yanaşma, öyrənmə prosesini daha əyləncəli və təsirli edir.

**6. Müzakirə və debat metodu:** Şagirdlər müəyyən bir mövzu ətrafında fikir mübadiləsi aparır, arqumentlərini təqdim edir və qarşı tərəfin arqumentlərinə cavab verirlər. Dərsdə "Süni intellekt insan iş yerlərini əvəz edə bilərmi?" mövzusunda debat təşkil edilir. Şagirdlər müxtəlif arqumentlər irəli sürərək bu mövzunu müzakirə edirlər.

İnkişafetdirici təlim metodları şagirdlərin tədris prosesində fəal iştirakını təmin edir, onların tənqidi və yaradıcı düşünməsini inkişaf etdirir. Müasir təhsildə bu metodların tətbiqi şagirdlərin bilikləri mənimsəmə dərəcəsini yüksəldir və onların müstəqil öyrənmə vərdişlərini formalaşdırır.

İnkişafetdirici təlim mühitində tətbiq olunan yeni təlim texnologiyaları təhsil prosesini daha interaktiv, effektiv və fərdiləşdirilmiş hala gətirir. Bu texnologiyalar təhsilalanların idrak fəallığını, yaradıcı və tənqidi düşünmə qabiliyyətlərini inkişaf etdirmək məqsədini daşıyır.

İnkişafetdirici təlim mühitində tətbiq olunan yeni təlim texnologiyaları öyrənmə prosesini daha interaktiv, fərdiləşdirilmiş və səmərəli edir [5, s.130]. Rəqəmsal texnologiyalar, oyunlaşdırma, süni intellekt, virtual reallıq və robototexnika kimi yeniliklər təhsilalanların bilikləri daha dərin mənimsəməsinə və yaradıcı potensiallarını inkişaf etdirməsinə kömək edir. Müasir dövrdə bu texnologiyaların istifadəsi təhsilin keyfiyyətini yüksəltmək üçün vacib bir amildir.

***Ədəbiyyat***

1. *Abbasov Ə.M. İnnovativ pedaqoji texnologiyalar // Bakı: Kurikulum,– 2018, №4, s.5–11.*
2. *Baxışova Ş. İnkişafetdirici təlimin nəzəri məsələləri haqqında // Azərbaycan məktəbi: Elmi-nəzəri, pedaqoji jurnal.-2011.- №6.- s.38–43.*
3. *Bəylərov E.B. Şagirdlərin ümumi intellekt səviyyələrinin inkişaf etdirilməsində testlərdən istifadə: pedaqogika üzrə fəlsəfə doktoru dis./ Bakı: 2005, 143 s.*
4. *Cəfərova X. Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi /X. Cəfərova. //Azərbaycan müəllimi. -2012.- 21 dekabr.- s.11.*

5. *Ələkbərova Z. İbtidai siniflərdə təlim prosesində inkişafetdirici mühitin yaradılmasının mahiyyəti // Pedaqoji Universitetin xəbərləri: Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası.-2024.- C. 72, № 2.- s.127–134.*
6. *İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri / M.İlyasov; elmi red. və ön sözün müəl. F.A.Rüstəmov. Bakı: Elm və təhsil, 2018, -207 s.*
7. *İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı: dərs vəsaiti / M. İ. İlyasov; Bakı: Elm və təhsil, 2013.-215 s.*
8. *İsrafilova G. Riyazi oyunlar və əyləncəli çalışmaların didaktik funksiyaları //Elmi əsərlər / Azərbaycan Respublikası Təhsil İnstitutu.-2018.- s.85. №8.- s.152–154.*

**Əsədov T.F.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***tvkulsdov@gmail.com***

# ƏNƏNƏVİ VƏ FASİLİTATOR MÜƏLLİM FƏALİYYƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Xülasə***

*Bu tədqiqat müəllimlərin ənənəvi tədris şəraitində bilik verən olmaqdan fasilitatora çevrilməsi prosesini araşdırır. Fasilitator müəllim rolu öyrənmənin və şagirdlərin şəxsi təcrübələrinin vacibliyini vurğulayaraq ənənəvi tədris metodlarından daha interaktiv və şagird mərkəzli yanaşmaya keçidi əks etdirir. Bundan əlavə, öyrənmənin sosial və əməkdaşlıq aspektləri fasilitator yanaşmasına uyğun olaraq şagirdlər arasında qarşılıqlı əlaqə və əməkdaşlığı dəstəkləyən öyrənmə mühitinin yaradılması vasitəsilə tanınır. Nəhayət, müəllim fasilitator kimi emosional dəstəyin təmin edilməsində mühüm rol oynayır ki, bu da şagirdlərin emosional rifahına və təlim prosesinin yaxşılaşmasına kömək edir. Beləliklə, müəllimlərin fasilitator rolunu mənimsəməsi təlimin effektivliyini artıra, şagirdlərin gələcək uğurları üçün vacib olan bacarıq və münasibətləri inkişaf etdirə bilər.*

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ТРАДИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЕЙ И ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЕЙ-ФАСИЛИТАТОРОВ

***Резюме***

*В данном исследовании рассматривается процесс трансформации учителей из традиционных учителей в фасилитаторов. Роль учителя-фасилитатора отражает переход от традиционных методов обучения к более интерактивному и ориентированному на важность обучения и личного опыта учащихся. Кроме того, социальные и совместные аспекты обучения учитываются посредством создания учебной среды, способствующей взаимодействию и сотрудничеству между учащимися, в соответствии с подходом фасилитатора. Наконец, учитель играет роль фасилитатора, оказывая эмоциональную поддержку, что способствует эмоциональному благополучию учащихся и улучшению процесса обучения. Таким образом, принятие учителями роли фасилитатора может повысить эффективность обучения и развить навыки и установки, необходимые для будущего успеха учащихся.*

# A COMPARATIVE ANALYSIS OF TRADITIONAL AND FACILITATOR TEACHER ACTIVITIES

***Summary***

*This study examines the process of teachers transforming to facilitators in modern teaching settings. The facilitator teacher role reflects a shift from traditional*

*teaching methods to a more interactive and pupil-centered approach, emphasizing the importance of learning and students' personal experiences. In addition, the social and collaborative aspects of learning are recognized through the creation of a learning environment that supports interaction and collaboration among students, in accordance with the facilitator approach. Finally, the teacher plays an important role as a facilitator in providing emotional support, which contributes to the emotional well-being of students and the improvement of the learning process. Thus, teachers' adoption of the facilitator role can increase the effectiveness of teaching and develop skills and attitudes that are essential for pupils` future success.*

***Açar sözlər:*** *müəllimin rolu, fasilitator, öyrənmə prosesi, peşəkar inkişaf*
***Ключевые слова:*** *роль учителя, фасилитатор, процесс обучения, профессиональное развитие*
***Key words:*** *teacher role, facilitator, learning process, professional development*

## Giriş

Qloballaşma və informasiya texnologiyalarının sürətli inkişafı ilə müasir təhsil sahəsində müəllimin rolu və fəaliyyət modeli əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Ənənəvi olaraq müəllimlər, ilk növbədə, yüksək nəzarət edilən tədris metodlarından istifadə edərək, biliklərin ötürücüləri kimi baxılırlar. Bu yanaşma keçmişdə mühüm rol oynasa da, günümüzün müxtəlif öyrənmə mühitlərində getdikcə qeyri-adekvat hal almağa başlamışdır.

Şagirdlər indi biliklərin mənimsənilməsindən daha çox tənqidi təfəkkür, yaradıcılıq və mədəniyyətlərarası ünsiyyət bacarıqlarının inkişaf etdirilməsinə yönəlirlər. Bu kontekstdə müəllimlərin rolu bilik ötürücüsü və sinif nəzarətçisindən öyrənmə prosesini asanlaşdıran fasilitator funksiyasına çevrilməlidir. Müəllimlər sinifdə üstünlük təşkil edən nüfuzlu şəxslərdən şagirdlərin fəal öyrənənlər olmasına dəstək verən bələdçilərə keçməlidirlər. Qloballaşmanın tələbləri şagirdlərdən getdikcə daha sıx beynəlxalq qarşılıqlı əlaqədə olmaq üçün güclü öyrənmə bacarıqlarına malik olmalarını tələb edir. Eyni zamanda, texnoloji tərəqqi şagirdlərin məlumat əldə etmə üsullarında da inqilab etmişdir. Bilik artıq ənənəvi mühazirə formatı ilə məhdudlaşmır, çünki şagirdlər indi müxtəlif resursları araşdıra bilərlər. Nəticə etibarı ilə, ənənəvi mühazirə əsaslı, müəllim mərkəzli yanaşma müasir təhsilin tələblərinə cavab vermir. Şagirdlərdən təkcə dil bilikləri deyil, həm də real dünya vəziyyətlərində biliklərdən sərbəst istifadə etmək bacarığı tələb olunur.

Bu yeni mənzərədə müəllimlər şagirdlərə öz bacarıqlarını formalaşdırmağa kömək etməli, eyni zamanda onların ümumi səriştələrini inkişaf etdirməlidirlər. Bundan əlavə, cəmiyyətin ixtisaslı mütəxəssislərə olan tələbatı inkişaf etdikcə, təhsil müəssisələri öz tədris modellərini daim tələblərə uyğunlaşdırırlar. Yalnız biliklərin toplanmasına yönəlmiş ənənəvi metodlar çox

vaxt praktiki bacarıqların inkişafını nəzərdən qaçırır. Müasir dünya təkcə peşəkar biliklərin möhkəm təməlinə malik deyil, həm də güclü praktiki və yaradıcı qabiliyyətlərə malik olan fərdləri tələb edir. Bu o deməkdir ki, müəllimlər bilik verərkən, müstəqil və ömür boyu öyrənmə vərdişlərini inkişaf etdirərkən şagirdlərin potensialını ruhlandırmalıdırlar.

Bu çətinlikləri nəzərə alaraq, müəllimlər sadəcə bilik təminatçısı olmaqdan uzaqlaşmalı və bunun əvəzinə öyrənmənin fasilitatoruna çevrilməli, şagirdlərin təhsil prosesində fəal iştirakını təmin etməlidir. Bu cür metodların tətbiqi təhsil prosesində bütün fənlərin tədrisi zamanı effektiv öyrənməni təşviq edir, şagirdlərin fəal iştirakını artırır və onların tənqidi düşünmə, yaradıcı yanaşma bacarıqlarını inkişaf etdirir. Xüsusilə, tarix fənninin tədrisi zamanı müəllimin fasilitator rolunda çıxışı şagirdlərdə mədəniyyətlərarası ünsiyyət bacarıqlarının formalaşmasına şərait yaradır. Şagirdlər bu prosesdə nəinki tarixi biliklərə yiyələnirlər, eyni zamanda onlarda analitik, yaradıcı, tənqidi düşünmə bacarıqları inkişaf edir və onlar konkret tarixi hadisələri müasir kontekstdə təhlil etmək vərdişlərinə yiyələnirlər. Bu baxımdan məqalənin əsas məqsədi ənənəvi və fasilitator müəllim fəaliyyətinin müqayisəli təhlilini apararaq, hər iki modelin üstün və zəif cəhətlərini aşkar etmək, eyni zamanda tarix fənnində fasilitator müəllim yanaşmasının tətbiq imkanlarını izah etməkdən ibarətdir. Bu tədqiqat təhsil sahəsində müəllimlərin fəaliyyətinin daha düzgün şəkildə qurulması və şagirdlər üçün aktiv öyrənmə mühitinin yaradılması baxımından aktualdır.

## Müasir təhsil kontekstində müəllimin fəaliyyətinin transformasiyası

Cəmiyyətin hər sahədə yaşadığı sürətli və intensiv dəyişiklik fərdlərin ehtiyac duyduğu xüsusiyyətləri də əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Nəticə etibarilə, bugünkü təhsil sistemləri informasiyanı sadəcə mənimsəyən və tələb olunduqda onu başqa sözlə ifadə edən fərdlər yetişdirməkdənsə, onu daxililəşdirə, gündəlik həyatlarında istifadə edə və praktikaya çevirə bilən fərdlər yetişdirməyi hədəfləyir. Nəzəri cəhətdən təchiz edilmiş və həmin nəzəriyyəni praktikada tətbiq edə bilən fərdlərin yetişdirilməsi həm təhsil sisteminin, həm də ixtisaslı müəllimlərin əsas vəzifəsinə çevrilmişdir. Bu kontekstdə təhsil fəaliyyətinin ən mühüm icraçıları olan müəllimlərin ixtisas səviyyəsi cəmiyyətin gözləntilərinə və təhsil fəaliyyətlərinə uyğun fərdlərin yetişdirilməsinin ən təsirli yollarından biridir [3, s. 23]. Bu amillər arasında ixtisaslı müəllimlərin hazırlanması səyləri xüsusi əhəmiyyət kəsb edir. Kurikulumların icraçıları olan gələcək müəllimləri yetişdirən təhsil proqramlarının qlobal inkişaf və dəyişikliklərlə ayaqlaşması çox vacibdir. Namizəd müəllimlərin peşəyə başlamazdan əvvəl ən müasir peşəkar inkişaf modelləri ilə tanış olması və bu modelləri tətbiq etmək imkanının olması çox vacibdir.

Ümumiyyətlə, peşəkar inkişaf konsepsiyası təhsil kontekstində müxtəlif tədqiqatçılar tərəfindən fərqli şəkildə müəyyən edilmişdir. Bu tərifin izahını ilk dəfə ABŞ-da təhsil üzrə mütəxəssis Hassel etmişdir. Onun fikrincə, peşəkar inkişaf müəllimlərin daha yüksək keyfiyyətli şagird nəticələrinə nail olmaq üçün lazım olan bilik və bacarıqların əldə edilməsi prosesi kimi müəyyən edilir [5, s. 21]. Ancaq peşəkar inkişaf yalnız bilik və bacarıqların mənimsənilməsi ilə inkişaf etdirilmir, həm də bu bacarıqların praktikada tətbiqi və təhsil prosesinə inteqrasiyası müəllimlərin peşəkar inkişafını praktik yönümlü bir proses kimi qiymətləndirir.

Eynilə, Harvard Universitetinin professoru Reimers peşəkar inkişafı müəllimlərin təhsili ilə başlayan və onların peşəkar karyeralarının sonuna qədər davam edən ömürboyu öyrənmə kimi müəyyən edir [9, s. 22]. Onun yanaşmasına görə, müəllim peşəkar fəaliyyəti üçün bütün karyerası boyu öz bilik və bacarıqlarını inkişaf etdirməlidir. Reimersin bu yanaşması ömürboyu təhsil prinsipi ilə əlaqələndirilə bilər. Yəni müəllim öz peşəkar inkişafını dayandırdıqda, təhsil prosesi də zamanı qazandığı bilik və bacarıqlar da müasir tələblərə cavab vermə qabiliyyətini itirir. Bu yanaşma müəllimlik peşəsinin dəyişən sosial, mədəni, texnoloji inkişafa adaptasiyasını təmin edən əsas amil kimi izah edilə bilər.

Azərbaycanlı tədqiqatçılardan A.N.Abbasov və A.X.Hacıyevin fikirlərinə görə, peşəkarlıq müəllimin pedaqoji, psixoloji və metodiki biliklərə yiyələnməsini, tədris prosesində yaradıcı iştirakını, təlimin bütün mərhələlərini dərindən dərk etməsini əhatə edir [1, s. 45]. Bu təriflərdən də anlaşıldığı kimi, müəllimin peşəkar inkişafı ali təhsil ilə başlayan dinamik bir prosesdir və peşəkar karyeralarının sonuna qədər davam etməlidir. Bu kontekstdə keyfiyyətli ali təhsil və davamlı peşəkar inkişaf yanaşmasının ixtisaslı müəllim profili yaradacağına inanılır. Bu xüsusiyyətlər ənənəvi müəllim modelindən çıxaraq daha çox birgə iş, fəal iştirak, dürüstlük, zaman və məzmuna diqqət kimi xüsusiyyətləri özündə ehtiva edən müasir müəllim fəaliyyətinin əsas prinsiplərini formalaşdırır.

Ənənəvi təhsildə siniflərdə müəllimlər çox vaxt əsas səlahiyyət və yeganə bilik mənbəyi kimi qəbul edilir. Bu modeldə müəllimlər izah etmək məsuliyyətini öz üzərinə götürür, şagirdlər isə öz bacarıqlarını inkişaf etdirmək üçün müəllimin rəhbərliyindən çox asılı olaraq passiv alıcı olaraq qalırlar. Bununla belə, müasir informasiya və qloballaşma dövründə şagirdlər artıq yalnız müəllimlərdən öyrənməklə məhdudlaşmırlar. İnternet və rəqəmsal resursların mövcudluğu ənənəvi tədris metodlarının məhdudiyyətlərini üzə çıxararaq geniş öyrənmə imkanları açıb.

Bu ənənəvi yanaşmanın əsas problemlərindən biri məlumatın birtərəfli ötürülməsinin şagirdləri aktiv şəkildə cəlb edə bilməməsi, onların yaradıcı təfəkkürünün və tənqidi düşüncələrinin inkişafına mane olmasıdır. Bundan

əlavə, interaktiv rəyin olmaması onların başa düşmələrini dəqiq qiymətləndirməyi çətinləşdirir və nəticədə onların təlim nəticələrinə təsir göstərir.

Digər çətinlik ənənəvi tədris metodlarının şagirdlər arasında fərdi fərqləri nəzərə almamasıdır. Standartlaşdırılmış temp və vahid məzmun hər bir şagirdin müxtəlif ehtiyaclarını ödəyə bilməz [2, s. 43]. Bəzi şagirdlər dərsləri davam etdirmək üçün mübarizə apara bilər, digərləri isə dərslərdə çox passiv iştirak edə bilər. Ənənəvi rolun məhdudiyyətlərini nəzərə alaraq, müəllimlər indi təlim prosesində fasilitator rolunu qəbul edirlər. Fasilitatorlar kimi onların əsas vəzifəsi şagirdlərin biliklərin qurulmasında fəal iştirak etməyə təşviq edən müsbət öyrənmə mühiti yaratmaqdır. Bu, təkcə təməl bacarıqların öyrədilməsini deyil, həm də şagirdlərin müstəqil düşünmək və problemləri həll etmək bacarıqlarını inkişaf etdirməkdən ibarətdir. Müəllimlər buna açıq suallar hazırlayaraq və şagirdlərin biliyi kəşf etmələrinə rəhbərlik edən qrup müzakirələri təşkil etməklə nail ola bilər, bununla da tənqidi təfəkkür və komanda işini təşviq edə bilər.

İnteraktiv siniflərdə müəllimin rolunun dəyişməsi və öyrətmə yanaşması təhsil praktikası tərəfindən müsbət qarşılanmışdır. Fasilitator şagirdə məzmunu dərk etməsinə kömək edir. Rolun bu səviyyədə dəyişməsi o deməkdir ki, fasilitator müəllim fərqli bacarıqlar toplusunu nümayiş etdirməlidir. Ənənəvi müəllim deyir və fasilitator müəllim soruşur, ənənəvi müəllim öndən mühazirə oxuyur, fasilitator müəllim rəhbərlik edir, ənənəvi müəllim müəyyən edilmiş kurikuluma uyğun olaraq cavablar verir, fasilitator müəllim isə təlimatlar verir və şagirdin öz nəticəsinə gəlməsi üçün şərait yaradır. Fasilitator həmçinin öyrənmə təcrübəsini öyrənənlərin dəyər yaratmaq istədikləri yerə yönəltmək üçün öz təşəbbüsündən istifadə edərək öyrənmə təcrübəsini uyğunlaşdıra bilməlidir. Fasilitator müəllim rolunun daha bir xüsusiyyəti ondan ibarətdir ki, müəllim və öyrənənlər bir-birindən öyrənməyə bərabər şəkildə cəlb olunurlar. Bu proses müəllim və şagird arasında dinamik qarşılıqlı əlaqə yaradır.

## Ənənəvi müəllimlə fasilitator kimi müəllim arasındakı fərq

Ənənəvi müəllimlə fasilitator kimi müəllim arasındakı əsas fərq ondan ibarətdir ki, ənənəvi müəllimlər kurikulumları, təqdimatları və təlim materiallarını tərtib etmək üçün öz fənn üzrə təcrübələrindən istifadə edirlər, fasilitatorlar isə proses vasitəsilə öyrənənlərə dəstək olur və onların təhsilini maksimum dərəcədə artırmağa kömək edirlər. Ənənəvi müəllimlər təlim materiallarını yaradır və həyata keçirirlər, fasilitatorlar isə biliyin iştirakçıların özləri tərəfindən paylaşıldığı və onlardan çıxarıldığı fəaliyyətlər, məşqlər, müzakirələr, iş qrupları və fərdlər tərəfindən idarə olunur və həyata keçirilir.

Digər tərəfdən, fasilitator müəllimlər öyrənmə prosesini asanlaşdırmağa, şagirdləri ideyaların inkişaf etdirilməsi strategiyaları ilə

silahlandırmağa, yaradıcılığı təşviq etməyə, ünsiyyəti təkmilləşdirməyə və qavrayışın dərinləşməsinə diqqət yetirirlər. O, yaradıcılıq, problemlərin həlli və ünsiyyət üçün maneələri aradan qaldırır və qrup işində və fərdi olaraq sinifdə fəal iştirakını təşviq edir.

Ənənəvi müəllim sinifdə adətən danışıq metodundan istifadə edir və diqqətini şagirdlərə bilik və məlumat ötürməyə və akademik nailiyyətlərə yönəldir, fasilitator müəllim isə interaktiv fəaliyyətlər, qrup tapşırıqları, həmyaşıdlarla öyrənmə, əməkdaşlıq və birgə öyrənmə və s. kimi fəaliyyətləri həyata keçirir.

Müəllim fasilitator kimi sinifdə fəal öyrənmə mühiti yaratmaq və asanlaşdırmaq üçün bəzi vacib bacarıqlarla təchiz olunmalıdır:

– **Proloq bacarığı.** Bu bacarıq şagirdlərə tapşırıq/fəaliyyət/hadisə haqqında ona başlamazdan əvvəl tam və ətraflı məlumat verməkdən ibarətdir. Sinif fəaliyyətinə başlamazdan əvvəl fasilitator müəllim şagirdləri əqli cəhətdən hazırlamalı və onların diqqətini məzmuna yönəltməlidir. Yeni fəaliyyətlər yalnız şagirdlərdə məzmuna maraq yaratmaqla və fəaliyyətin məzmununun onların əvvəlki təcrübələri və bilikləri ilə əlaqəsini qurmaqla təşkil edilməlidir [8, s. 10]. Fəaliyyətlərin təşkilinin ən əvvəlində fasilitator tərəfindən şagirdlərə bütün məlumat və göstərişlər aydın şəkildə verilməli, həmçinin bütün proses və arzu olunan nəticələr barədə məlumatlandırılmalıdır. İlkin mərhələdə şagirdlərə fasilitator tərəfindən fəaliyyətin məqsədi və vəzifəsi, eləcə də tapşırıqların ardıcıllığı təqdim edilməlidir ki, şagird nə edildiyini asanlıqla başa düşə bilsin. Beləliklə, müəllimlərdə proloq bacarığının inkişaf etdirilməsi fəaliyyətə başlamazdan öncə şagirdlərin koqnitiv və əqli cəhətdən hazırlanmasına, onların diqqətinin təlim prosesinə yönəldilməsinə xidmət edir. Proloq bacarığı şagirdlərdə əvvəlki təcrübələrini yeni fəaliyyətə inteqrasiya etmək qabiliyyətini formalaşdırır ki, bu da dərs prosesini daha cəlbedici edir və şagirdlər bu prosesdə daha motivasiyalı və fəal iştirak edirlər.

– **Tapşırıq/fəaliyyətin idarə olunması bacarıqları.** Müəllimin fasilitator kimi tapşırıqların idarə edilməsi bacarıqları şagird mərkəzli və birgə öyrənmə təcrübələrini dəstəkləmək üçün təlim mühitində tapşırıqları effektiv şəkildə planlaşdırmaq, təşkil etmək və idarə etmək bacarığına aiddir. Bu bacarıq strukturlaşdırılmış və məhsuldar sinif mühiti yaratmaq üçün vacibdir. Fasilitator təlim məqsədlərini idarə oluna bilən vəzifələrə və fəaliyyətlərə bölməklə güclü planlaşdırma bacarıqları nümayiş etdirir. O, öyrənmənin məntiqi irəliləyişini yaratmaq üçün bu tapşırıqları diqqətlə ardıcıllıqla yerinə yetirir, hər bir tapşırığın əvvəlkinə əsaslanmasını və istədiyi təlim nəticələrinə gətirib çıxarmasını təmin edir [8, s. 12]. Fasilitator müəllim müxtəlif təlim fəaliyyətləri, keçidlər və müzakirələr üçün uyğun zaman ayırmaqla vaxtı səmərəli şəkildə idarə edir. O, dərsin və ya layihənin bütün zəruri komponentlərinin verilmiş vaxt çərçivəsində həll olunmasını təmin etmək üçün

tapşırıqların mürəkkəbliyini, şagird ehtiyaclarını və mövcud tədris vaxtını nəzərə alır. O, tapşırıqlar verərkən şagirdlərin qabiliyyətlərini, maraqlarını və müxtəlif öyrənmə üslublarını nəzərə alır. Bu, şagirdlər arasında əməkdaşlığa, əlaqəyə və komanda işi bacarıqlarının inkişafına kömək edir. Beləliklə, fasilitator müəllimin tapşırıqları məqsədəuyğun şəkildə planlaşdırması, onları ardıcıllıqla təqdim etməsi, vaxtı effektiv və səmərəli şəkildə bölüşdürməsi dərs prosesində aktiv iştirakı artırır və davamlı öyrənmə mühitini təmin edir.

– **Şəxslərarası ünsiyyət bacarığı.** Fasilitator müəllim üçün şəxsiyyətlərarası ünsiyyət bacarığı, müsbət və dəstəkləyici öyrənmə mühiti yaratmağa, şagirdlərin iştirakını təşviq etməyə və güclü müəllim-şagird münasibətlərini inkişaf etdirməyə kömək edir. Bu bacarıq şagirdlər arasında effektiv ünsiyyət, əməkdaşlıq və aidiyyət hissini təmin edir. Aktiv dinləmə şagirdlərə tam diqqət yetirməyi və onların fikir və narahatlıqlarına həqiqi maraq göstərməyi əhatə edir. Fasilitator müəllim aydın şəkildə ünsiyyət qurur və təlimatların və müzakirələrin başa düşülməsini təmin etmək üçün şagirdlərin başa düşdüyü dildən istifadə edir. O, diqqəti çatdırmaq üçün bədən dili və üz ifadələri kimi şifahi olmayan işarələrə diqqət yetirir. Empatiya və anlayış nümayiş etdirərək, fasilitator şagirdlərin özlərini ifadə etməkdə rahat hiss etdikləri təhlükəsiz məkan yaradır. O, düşünülmüş suallar verir, fəal iştiraka həvəsləndirir və tənqidi təfəkkür və düşüncəni inkişaf etdirmək üçün konstruktiv rəy verir [8, s. 12]. Ünsiyyət bacarığının inkişaf etdirilməsi ilə fasilitator müəllim qrup müzakirələrini asanlaşdırır, inklüziv iştirakı və effektiv ünsiyyəti təşviq edir. Bu isə tədris prosesində əməkdaşlığı və komanda işini gücləndirir. Beləliklə, bu bacarıq müəllim-şagird münasibətlərini gücləndirir, əlaqəni təşviq edir və sinifdə effektiv qarşılıqlı ünsiyyəti asanlaşdırır.

– **Kəşfiyyatyönümlü sorğu bacarığı.** Kəşfiyyatyönümlü sorğu məzmuna qərəzli fikirlər aid etmədən məzmunun daha ətraflı başa düşülməsini araşdırmaq üçün istifadə olunur. Bu cür sorğu-sual üçün fasilitator müəllim şagirdləri yüksək gərginlik şəraitində sakitləşdirir və yüksək səviyyədə ətraflı başa düşmək üçün özlərini daha rahat hiss edirlər. Bu bacarıqda açıq tipli suallar, ümumi suallar, qapalı suallar, aydınlaşdırıcı suallar, konkret suallar, əks etdirən suallar kimi sual növləri daxildir. Bu sorğulama texnikası sinif fəaliyyəti və qiymətləndirmə prosesləri zamanı hərtərəfli məlumat əldə etmək və xüsusi təfərrüatları öyrənmək baxımından dəyərlidir.

– **Müşahidə bacarığı.** Bu bacarıq məlumat toplamaq və tədris və öyrənmə ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmək üçün şagirdləri sinif dinamikasını və təlimat təcrübələrini diqqətlə və sistematik şəkildə müşahidə etmək bacarığını əhatə edir. Bu bacarıqlar tədris və təlim prosesinin müxtəlif aspektlərini fəal və obyektiv şəkildə dərk etməyi, şərh etməyi və sənədləşdirməyi əhatə edir [9, s. 41]. Effektiv müşahidə bacarıqları fasilitatora şagirdə ehtiyaclarını anlamağa, təlimatı tənzimləməyə və müsbət və cəlbedici

öyrənmə mühiti yaratmağa kömək edir. Fasilitator şəxsi qərəzləri və ya fərziyyələri bir kənara qoyaraq, şagirdləri müşahidə edərkən obyektivliyi qorumağa çalışır. O, şagirdləri mühakimə etmədən, həqiqətən olduqları kimi müşahidə edərək, onların qabiliyyətlərini və tərəqqilərini ədalətli və qərəzsiz qiymətləndirməyə imkan verir. Beləliklə, bu bacarıq fasilitatora şagirdin güclü tərəfləri, çətinlikləri və tərəqqisi haqqında dəyərli məlumat toplamaq imkanı verir. Fasilitator müəllim müşahidə bacarığını tədris prosesinə tətbiq edərək həm öz təlimatlarını bu prosesə uyğunlaşdıra bilər, həm də şagirdlərin ehtiyaclarına cavab verə bilər, eyni zamanda, dəstəkləyici və effektiv öyrənmə mühiti yarada bilər.

– **Təşkilatçılıq bacarığı.** Bu bacarıq konstruktivist tədrisin prinsip və təcrübələrini dəstəkləmək üçün təlim mühitini effektiv şəkildə planlaşdırmaq, strukturlaşdırmaq və idarə etmək bacarığını əhatə edir [9, s. 47]. Konstruktivizm yanaşması şagird mərkəzli öyrənmədə fəal iştirak, mənalı təcrübələr və qarşılıqlı əlaqələr vasitəsilə biliyin qurulmasını vurğulayır. Bu yanaşmaya görə fasilitator bələdçi rolunu öz üzərinə götürür və şagirdlərə öz biliklərini araşdırmaq, kəşf etmək və qurmaq üçün imkanlar yaradır. Təşkilatçılıq bacarığı fasilitatora cəlbedici öyrənmə təcrübələrini tərtib etməkdə, resursları və materialları təşkil etməkdə, tapşırıqları və qrupları idarə etməkdə, effektiv vaxt idarəçiliyini tətbiq etməkdə, fərdi dəstək və fərqləndirməni təmin etməkdə, qiymətləndirmə və əks əlaqəni təşkil etməkdə, davamlı təkmilləşdirmə üçün əks etdirmə və sənədlərlə məşğul olmaqda kömək edir. Bu bacarığın tətbiqi ilə fasilitator müəllim şagirdlərin fəallığını, tənqidi təfəkkürünü, problemlərin həllini, əməkdaşlığı və müstəqil araşdırmanı dəstəkləyir.

– **Qiymətləndirmə bacarığı.** Fasilitator müəllim üçün bu bacarıq şagirdin irəliləyişinə nəzarət etmək, rəy bildirmək və təlimatı istiqamətləndirmək üçün müxtəlif qiymətləndirmə strategiyalarını tərtib etmək və həyata keçirmək bacarığını əhatə edir. Fasilitatorlar şagirdin başa düşülməsi və tərəqqi ilə bağlı rəy toplamaq üçün davamlı qiymətləndirmələr apararaq formativ qiymətləndirməyə üstünlük verirlər [9, s. 50]. Bu onu göstərir ki, qiymətləndirmə bacarığı şagirdlərə özlərinin güclü tərəfləri, çətinlikləri və yanlış təsəvvürləri müəyyən etməsinə kömək edir, eyni zamanda müəllimlər bu bacarqıla təlimat qərarlarını rəhbər tutur və şagirdlərə düzəlişlər və təkmilləşdirmələr etmək üçün vaxtında rəy verə bilirlər. Fasilitator performans tapşırıqları, layihələr, portfellər, özünüqiymətləndirmələr, həmyaşıdların qiymətləndirmələri və əks etdirən jurnallar kimi müxtəlif formatları özündə birləşdirərək ənənəvi testdən kənara çıxır. Müşahidə, sorğu-sual, müzakirə, performans tapşırıqları və əməkdaşlıq da daxil olmaqla bir sıra qiymətləndirmə strategiyalarından istifadə edərək, fasilitatorlar şagird öyrənməsi haqqında hərtərəfli anlayış əldə edir, tənqidi təfəkkürə təkan verir və fəal iştiraka

həvəsləndirirlər. Refleksiya vasitəsilə fasilitatorlar qiymətləndirmələrin effektivliyini və onların şagird öyrənməsinə təsirini qiymətləndirirlər. Bütün bunlar onu deməyə əsas verir ki fasilitator müəllimin ənənəvi müəllimdən qazandırdığı keyfiyyətlərlə və öyrətmə üslubu ilə kəskin fərqlənir. Ən əsası da gələcəyə doğru yaradıcı şəxs yetişdirir. Bu da dövlətimizin inkişafı və güclənməsi üçün vacib amillərdəndir.

## Tarix dərslərində fasilitator müəllim yanaşması və onun pedaqoji əhəmiyyəti

Tədris prosesində fasilitator müəllim şagirdlərə əvvəlki bilikləri ilə yeni tanış olan məlumatlar arasında əlaqə yaratmağa kömək edən bələdçi kimi çıxış edir. Müəllim şagirdlərin təlimatqabağı düşünmə üslublarından istifadə edərək yeni qarşılaşdıqları məlumatları şərh etməyə, müzakirə etməyə və doğruluğunu yoxlamağa imkan verəcək fəaliyyətlər hazırlamalıdır [6, s. 69]. Müəllim şagirdlərə öz fərdi mənalarını qurmağa imkan verir və onları bu fərdi anlayışlar üzərində düşünməyə sövq edən suallar verir və əks əlaqə yaradır. Bundan əlavə, onlar şagirdləri düşündürücü suallarla problemi həll etməyə təşviq edirlər.

Təlim resursları da fasilitator yanaşma ilə şaxələnmişdir. Ənənəvi sinif mühiti ilk növbədə dərslikdən ibarət olduğu halda, fasilitator yanaşmada dərsliyə əlavə olaraq ekspertlər, ekskursiyalar, araşdırmalar və texnoloji alət və avadanlıqlardan istifadə edilir.

Tarix dərsləri baxımından fasilitator yanaşmanın ilkin və ikinci dərəcəli mənbələrlə işləmək, dəlilləri sorğu-sual etmək, tarixi problemləri həll etmək, tarix intizamı üçün məqbul məhsul istehsal etmək və birgə öyrənmə kimi fundamental prinsipləri vardır. Başqa sözlə, mənbələrlə, xüsusən də birinci əldən mənbələrlə işləmək və sübutlardan istifadə etmək yeni yanaşmanın əsasını təşkil edir. Dəlillərə əsaslanan tarix tədrisinin ən mühüm başlanğıc nöqtəsi şagirdləri tarix fənni, onun metodoloji konsepsiyaları və mülahizələri haqqında fundamental anlayışlarla tanış etmək və bu əsasda bacarıqların formalaşdırılmasıdır. Bu çərçivədə şagirdləri tarixçilərin araşdırma, təhlil və şərh prosesləri ilə tanış etmək və bu proseslərlə bağlı təcrübə və bacarıqların inkişaf etdirilməsi diqqət mərkəzindədir.

Fasilitator yanaşması tarix kurikulumlarında köklü dəyişikliklərə səbəb olmuş və tarix müəllimlərinə və şagirdlərə verilən rolları dəyişdirmişdir. Bununla belə, bu yanaşmanın uğurla həyata keçirilməsi bu yeni rolların sadəcə nəzəri olaraq öyrənilməsindən çox, real dünya təhsil mühitində necə həyata keçirildiyindən asılıdır. Bu mənada proqramın icraçıları olan fasilitator müəllimlər qarşıya qoyulan məqsədlərə çatmaqda əsas rol oynayırlar.

## Müəllimlərin fasilitator rolunu həyata keçirməsində qarşılaşılan çətinliklər

Öyrənmədə fasilitator olmaq müəllimlər üçün asan məsələ deyil. Tez-tez qarşılaşılan əsas problemlərdən biri şagirdlərin müxtəlif qabiliyyət səviyyələri və öyrənmə üslublarıdır. Şagirdlər sinifə çox müxtəlif mənşəli və müxtəlif qabiliyyətlərlə gəlirlər, ona görə də müəllimlər öz yanaşmalarını uyğunlaşdıra bilməlidirlər ki, bütün şagirdlər cəlb oluna və effektiv öyrənə bilsinlər. Bütün şagirdlərin ehtiyaclarına cavab verən geniş spektrli öyrənmə fəaliyyətləri və materialların təmin edilməsi müəllimlərdən əlavə vaxt və enerji tələb edir [11, s. 139]. Hər bir şagirdin fərdi qabiliyyətinin müəyyən edilməsi, ona uyğun öyrənmə mühitinin təşkil edilməsi və maraqların nəzərə alınması müəllim üçün əlavə planlaşdırma və yaradıcılıq bacarığı tələb edir. Bu isə məhdud vaxt çərçivəsində fasilitator müəllimin işini çətinləşdirir. Nəticədə, müəllim həm tədris məqsədlərinə çatmaqda, həm də bütün şagirdlərin tələbatını qarşılayan effektiv bir tədris mühiti təşkil etməkdə problemlərlə üzləşə bilər.

Bundan əlavə, məhdud resurslar və dəstək də böyük problemdir. Bir çox müəllimlərin interaktiv və hərtərəfli öyrənməni dəstəkləmək üçün lazım olan ən son texnologiya və ya təlim materiallarına çıxışı yoxdur. Bundan əlavə, bəzi məktəblərdə rəhbərlik və məktəb siyasətinin dəstəyi asanlaşdırıcı yanaşmaları tam dəstəkləməyə bilər. Müəllimlər ciddi kurrikuluma riayət etmək və şagirdləri standartlaşdırılmış testlərə hazırlamaq üçün təzyiq hiss edə bilərlər ki, bu da fasilitator metodların qəbulunda çevikliyi azalda bilər [10, s.9]. Bu yanaşma isə müəllimin tədris prosesinə daha çox nəticəyönümlü cəhətdən yanaşmasına və fasilitator əvəzinə ənənəvi müəllim roluna qayıtmasına səbəb ola bilər. Nəticədə isə tədris prosesi daha çox formallığa yönəlir, şagirdlərin fəallığı azalır və yaradıcı düşünmə, tənqidi yanaşma bacarıqlarının inkişafı ikinci planda qalır.

Digər bir problem peşəkar bacarıq və biliklərin davamlı olaraq inkişaf etdirilməsi ehtiyacıdır. Təhsil dünyası daim inkişaf edir və müəllimlər pedaqogika, təhsil texnologiyası və öyrənmə psixologiyasındakı ən son yeniliklərdən xəbərdar olmalıdırlar. Peşəkar təlimdə və özünü inkişafda iştirak etmək mütləqdir, lakin müəllimlər bu təlimlərdə iştirak etmək üçün vaxt və xərc məhdudiyyətləri ilə üzləşirlər. Davamlı yeniləmələr olmadan müəllimlərin sinifdə effektiv və müasir asanlaşdırıcı yanaşmalar tətbiq etməsi çətindir [7, s. 11]. Əgər müəllimlər öz bilik və bacarıqlarını yeni pedaqoji yanaşmalara, rəqəmsal mühitin dəyişikliyinə uyğunlaşdırmasalar tədris prosesində innovativ və şagirdyönümlü üsulları səmərəli şəkildə tətbiq edə bilməzlər. Bu səbəbdən də təhsil sistemində müəllimlərin texnoloji, onlayn və çevik modellər ilə təmin olunması mühüm amillərdəndir.

Sinif idarəsi də müəllimin fasilitator rolunun mühüm və çətin tərəfidir. Şagirdlərə araşdırma və iştirak etmək üçün daha çox sərbəstlik verildikdə

nizamsızlıq ehtimalı da artır. Tədris mühitinin əlverişli qalmasını və bütün şagirdlərin öyrənmə məqsədlərinə diqqətini saxlamasını təmin etmək üçün müəllimlər güclü sinif idarəetmə bacarıqlarına malik olmalıdırlar. Şagirdlərə azadlıq vermək və sinif nizam-intizamını qorumaq arasında tarazlığın qorunması müəllimlərin üzləşdiyi ən mürəkkəb problemlərdən biridir.

Nəhayət, şagird motivasiyasını və həvəsini qorumaq eyni dərəcədə vacib bir problemdir. Şagirdlər ümumiyyətlə müxtəlif motivasiya səviyyələrinə malikdirlər və müəllimlər bütün öyrənmə prosesi boyunca şagird fəallığını qoruyub saxlamağın yollarını tapmalıdırlar. Buraya şagirdlərin gündəlik həyatına uyğun olan öyrənmə yanaşmalarından istifadə və mənalı rəy təmin etmək daxildir. Şagird motivasiyasını saxlamaqda uğursuz olarsa, müəllimin fasilitator rolu səmərəsiz ola bilər və öyrənmənin əsas məqsədinə çatmaya bilər. Bütün bu çətinliklər qarşısında müəllimlər fasilitator rolunu yaxşı yerinə yetirə bilmək üçün həm resurslar, həm də siyasətlər baxımından adekvat dəstəyə ehtiyac duyurlar.

## Nəticə

Məqalə təhsil müəssisələrində müəllim rollarının ənənəvi bilik ötürücülərindən öyrənmə vasitəçilərinə çevrilməsinin dərin tədqiqini təklif edir. Sürətli qloballaşma və texnoloji tərəqqi kontekstində müəllimlər tək bilik mənbəyi olmaqdan şagirdlərin potensialını üzə çıxarmaq və tənqidi təfəkkür və innovasiyaları inkişaf etdirmək üçün əsas vasitəçilərə çevrilmişlər. Fasilitator müəllim bilik boşluqlarını müəyyən etməklə, keçmiş və indiki təcrübələri birləşdirərək, suallar, problemlər və iştiraka həvəsləndirmək üçün rol oyunu kimi müxtəlif üsullardan istifadə etməklə şagirdləri cəlb edir. Onlar fəal dinləmə, aydın ünsiyyət, empatiya, rəy, münaqişələrin həlli, əməkdaşlıq vasitəsilə müsbət öyrənmə mühiti yaradır, əlaqəni təşviq edir və müəllim-şagird münasibətləri qurur. Bundan əlavə, fasilitator müəllimlər hərtərəfli məlumat toplamaq üçün sakit və rahat atmosfer yaradaraq, təfərrüatlı anlayışı qərəzsiz araşdırmaq üçün müxtəlif növ sorğu üsullarından istifadə edirlər. Onlar aydın izahatlar verir, səhvləri minimuma endirir, təcrübələr arasında əlaqə qurur və lazım gəldikdə fikirləri əlaqələndirir. Şagirdləri, sinif dinamikasını və təlim təcrübələrini müşahidə etmək fasilitator müəllimlərə məlumat toplamağa, obyektivliyi qorumağa, şagird ehtiyaclarını başa düşməyə, təlimatı tənzimləməyə, rəy bildirməyə və inklüziv öyrənmə mühiti yaratmağa imkan verir. Bu zaman təlim mühitinin effektiv planlaşdırılması, strukturlaşdırılması və idarə edilməsi vacibdir. Buraya cəlbedici təcrübələrin layihələndirilməsi, resursların təşkili, tapşırıqların və qrupların idarə edilməsi, vaxtın düzgün təyin olunması, dəstək və fərqləndirmənin, qiymətləndirmə və əks əlaqənin təmin edilməsi və davamlı təkmilləşdirmə üçün strategiyaların tətbiqi daxildir. Ümumilikdə, fasilitator müəllimlərin məqsədi optimal öyrənmə

mühiti yaratmaq, əlaqəni gücləndirmək və şagirdlərin tərəqqisini və nailiyyətlərini dəstəkləməkdir.

***Ədəbiyyat***


1. *Abbasov, A.N., Hacıyev, A.X. Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim, 2012.*
2. *Andriyanti E., Effendi I., Nadjib N. Teachers' Beliefs as Facilitators in Effective English Language Teaching and Learning // 1st International Conference on Language, Literature, and Arts Education. Atlantis Press, p(42–47). 2020*
3. *Aykan, A. Öğretmen adayları açısından ders araştırması modelinin mesleki gelişim kapsamında incelenmesi. Yayımlanmamış doktora tezi, Gaziosmanpaşa Üniversitesi, Eğitim Bilimleri Enstitüsü, Tokat. 2019.*
4. *Collinson, V. Staff development by any other name: Changing words or changing practices? The Educational Forum, 64(2), p(124–132). 2000*
5. *Hassel, E. Professional development: Learning from the best. Washington: North Central Regional Educational Laboratory, 1999.*
6. *Kabapınar, Y. ve Dinç, T. Kanıt Temelli Tarih Öğretimi Yaklaşımına Göre Hazırlanmış Konuların Sınıfta İşlenmesi: Ezber, Tarih Dersinin Kaderi Midir? Toplumsal Tarih, 213, s(66–72). 2011.*
7. *Martin, M. No Role Models: Examining Black Male Teachers; Experience Through Social Emotional Learning. AERA. 2025.*
8. *O'Dwyer S. The English Teacher as Facilitator and Authority. Tesl-Ej, 9(4): n4. 2006.*
9. *Reimers, F. Professional development of teachers as lifelong learning: Models, practices and factors that influence it. Washington DC: BISCE of the National Research Council, 2000.*
10. *Vromans, P., Korzilius, H., Bücker, J., & Jong, E. Intercultural learning in the classroom: Facilitators and challenges of the learning process. International Journal of Intercultural Relations, -97. 2023.*
11. *Zhang, W., & Wang, C. Comparative interaction patterns of groups in an open network environment: The role of facilitators in collaborative learning. Journal of Computer Assisted Learning, 40(1), p.(136–157). 2023.*

**Əsədova L.R.**
**Bakı Slavyan Universiteti**
***asadovalamiya125@gmail.com***

# XƏMSƏ POEMALARININ TƏDRİSİNDƏ ƏDƏBİ MƏTNİN QAVRANMASI VƏ İNTERPRETASİYASI: MÜASİR ŞAGİRD YÖNÜMLÜ YANAŞMALAR VƏ NƏTİCƏLƏR

***Xülasə***

*Tədqiqatda Nizami Gəncəvinin "Xəmsə" poemalarının tədrisində ədəbi mətnin qavranması və interpretasiyası məsələləri müasir şagird yönümlü yanaşmalar kontekstində araşdırılır. Məqsəd, şagirdlərin ədəbi düşüncə və estetik zövqünün formalaşmasında mətni passiv qavrama səviyyəsindən fəal təhlil və yaradıcılıq mərhələsinə keçidi təmin edən metodların müəyyənləşdirilməsidir. Araşdırmada ədəbi təhlilin mərhələləri – məzmunun dərk edilməsi, ideyanın mənalandırılması, simvolların, obrazların və bədii vasitələrin interpretasiyası – interaktiv və differensial tədris metodları ilə əlaqələndirilir.*

*Müasir pedaqoji texnologiyalar, o cümlədən layihə əsaslı öyrənmə, müzakirə, debat, vizual interpretasiya, rəqəmsal resurslardan istifadə kimi üsulların Xəmsə poemalarının tədrisinə inteqrasiyası şagirdlərin ədəbi mətni daha dərindən anlamasına və şəxsi mənəvi-estetik münasibət formalaşdırmasına şərait yaradır. Nəticələr göstərir ki, şagird yönümlü tədris modeli ədəbiyyat dərslərində Nizami irsinin mənəvi-etik və estetik dəyərlərini daha dolğun qavramağa, yaradıcı düşüncə və interpretasiya bacarıqlarını inkişaf etdirməyə imkan verir.*

# ВОСПРИЯТИЕ И ИНТЕРПРЕТАЦИЯ ЛИТЕРАТУРНОГО ТЕКСТА ПРИ ПРЕПОДАВАНИИ ПОЭМ «ХАМСА»: СОВРЕМЕННЫЕ УЧЕНИКО-ОРИЕНТИРОВАННЫЕ ПОДХОДЫ И РЕЗУЛЬТАТЫ

***Резюме***

*В исследовании рассматриваются вопросы восприятия и интерпретации литературного текста при изучении поэм «Хамса» Низами Гянджеви в контексте современных ученико-ориентированных подходов. Цель исследования заключается в определении методов, обеспечивающих переход учащихся от пассивного восприятия текста к активному анализу и творческой интерпретации, способствующих формированию литературного мышления и эстетического вкуса.*

*Этапы литературного анализа — понимание содержания, осмысление идеи, интерпретация символов, образов и художественных средств — рассматриваются в связи с интерактивными и дифференцированными методами обучения. Интеграция современных педагогических технологий, таких как проектное обучение, дискуссии, дебаты, визуальная интерпретация и использование цифровых ресурсов, содействует более глубокому пониманию*

*поэм «Хамса» и формированию личностного нравственно-эстетического отношения учащихся к произведению. Результаты показывают, что ученико-ориентированная модель обучения позволяет учащимся более полно усвоить нравственно-этические и эстетические ценности наследия Низами, а также развивать навыки творческого мышления и интерпретации художественного текста.*

# COMPREHENSION AND INTERPRETATION OF LITERARY TEXTS IN TEACHING THE "KHAMSA" POEMS: MODERN STUDENT-CENTERED APPROACHES AND LEARNING OUTCOMES

***Summary***

*This study explores the processes of literary text comprehension and interpretation in teaching Nizami Ganjavi's "Khamsa" poems within the framework of modern student-centered pedagogical approaches. The aim is to identify methods that enable students to shift from passive reception of the text to active analysis and creative interpretation, thereby shaping their literary thinking and aesthetic appreciation.*

*The stages of literary analysis—understanding the content, conceptualizing the underlying idea, and interpreting symbols, characters, and artistic devices—are examined in connection with interactive and differentiated instructional methods. The integration of contemporary pedagogical technologies, including project-based learning, discussions, debates, visual interpretation, and the use of digital resources, enhances students' deeper comprehension of the "Khamsa" poems and contributes to the development of personal moral and aesthetic attitudes. The findings demonstrate that a student-centered instructional model enables learners to more fully grasp the moral-ethical and aesthetic values embedded in Nizami's heritage, while also fostering their creative thinking and interpretive competencies.*

***Açar sözlər:*** *Nizami Gəncəvi, Xəmsə, ədəbi mətn, interpretasiya, tədris metodları, şagird yönümlü yanaşma, ədəbi təfəkkür, innovativ pedaqogika, yaradıcı tədris, müasir təhsil*

***Ключевые слова:*** *Низами Гянджеви, «Хамса», литературный текст, интерпретация, методы преподавания, ученико-ориентированный подход, литературное мышление, инновационная педагогика, творческое обучение, современное образование*

***Key words:*** *Nizami Ganjavi, Khamsa, literary text, interpretation, teaching methods, student-centered approach, literary thinking, innovative pedagogy, creative instruction, modern education*

## Giriş

Nizami Gəncəvinin "Xəmsə" irsi Azərbaycan və dünya ədəbiyyatının ən yüksək bədii-fəlsəfi zirvələrindən biridir. Bu poemalar yalnız klassik poeziya nümunələri deyil, həm də insanın mənəvi kamilləşməsi, ədalət, sevgi,

mərhəmət və ağıl kimi ali dəyərlərin təbliğ olunduğu universal mənəvi sistem kimi çıxış edir. Məhz bu baxımdan "Xəmsə"nin orta məktəb ədəbiyyat kursunda tədrisi şagirdlərin estetik zövqünün, analitik və yaradıcı təfəkkürünün formalaşması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ədəbi mətnin dərindən qavranması və düzgün interpretasiyası ədəbiyyat fənninin əsas məqsədlərindən biridir. Ənənəvi tədris yanaşmaları mətni yalnız hadisə və ideya səviyyəsində öyrənməklə məhdudlaşdırdığı halda, müasir şagird yönümlü metodlar onun bədii strukturunun, semantik qatlarının və simvolik mənalarının fəal şəkildə açılmasına yönəlir. Belə bir yanaşma şagirdin mətni müəllimdən asılı olmadan analiz etmə, mənalandırma və fərdi mövqe formalaşdırma bacarığını inkişaf etdirir.

Tədqiqatın aktuallığı ondan ibarətdir ki, XXI əsrdə təhsil sistemində yaradıcı və tənqidi düşünmə qabiliyyətlərinin inkişafı prioritet istiqamətə çevrilmişdir. Bu baxımdan, "Xəmsə" poemalarının tədrisində innovativ pedaqoji modellərin, interaktiv və inteqrativ üsulların tətbiqi həm milli-mədəni irsin yeni nəsil tərəfindən mənimsənilməsini, həm də ədəbiyyat fənninin müasir tədris tələblərinə uyğunlaşdırılmasını təmin edir.

Bu işdə "Xəmsə" poemalarının ədəbi mətn kimi qavranması və interpretasiyası prosesinin mərhələləri, müasir pedaqoji texnologiyaların bu prosesə təsiri və şagird yönümlü tədris modelinin nəticələri sistemli şəkildə təhlil olunur. Araşdırma həm nəzəri-pedaqoji, həm də tətbiqi baxımdan əhəmiyyət daşıyır və orta məktəb ədəbiyyat tədrisində Nizami irsinin səmərəli öyrənilməsi üçün yeni metodik istiqamətlər təklif edir.

## Nizami Gəncəvi "Xəmsə"sinin tədrisində ədəbi mətnin qavranmasının elmi-metodik əsasları

B.Apoyev "Nizami Gəncəvi irsindən pedaqoji prosesdə istifadə işinin sistemi" dərs vəsaitində qeyd edir ki, Nizami Gəncəvinin "Xəmsə"si bəşəri ideyaları, yüksək mənəvi dəyərləri və fəlsəfi dərinliyi ilə məktəb ədəbiyyat tədrisində həm didaktik, həm də estetik funksiyanı birləşdirən nadir bədii irs nümunəsidir. Tədqiqatçıya görə, bu irsin tədrisi təkcə ədəbi biliklərin öyrədilməsi deyil, heç bir digər mənbənin verə bilməyəcəyi şəkildə şagirdlərdə düşüncə mədəniyyətini, estetik duyumu və mənəvi-əxlaqi prinsipləri formalaşdıran pedaqoji proses kimi dəyərləndirilməlidir. Buna görə ədəbi mətnin qavranması metodik yanaşmada sistemlilik və mərhələlilik tələb edir [1, s.62–63].

Apoyev vurğulayır ki, ədəbi mətnin qavranması sadəcə süjetin izlənməsi və obrazların tanınması ilə məhdudlaşmır; əksinə, şagird əsərin semantik, simvolik və fəlsəfi qatlarını anlamağa istiqamətləndirilməlidir. Bu məqsədlə müəllif analitik, emosional-estetik, inteqrativ və şagird yönümlü elmi-metodik prinsiplərin tətbiqini zəruri hesab edir. Analitik təhlil mətni

mövzu, ideya, obrazlar və bədii vasitələr kimi tərkiblərə ayıraraq onların funksional əlaqəsini müəyyənləşdirir; emosional-estetik mövqe şagirdin mətndəki hiss və duyğuları mənəvi təcrübə kimi yaşamasını təmin edir; inteqrativ yanaşma isə ədəbiyyatın fəlsəfə, tarix, psixologiya və incəsənətlə əlaqəli şəkildə qavranmasına şərait yaradır.

Apoyevin metodik konsepsiyasına görə, Nizami "Xəmsə"sinin tədrisində konstruktiv fəaliyyət mühiti əsas şərtdir. Buna uyğun olaraq, dərsdə təhlil–müzakirə–yaradıcılıq ardıcıllığı tətbiq edilməli, şagird yalnız təqdim olunan məlumatın passiv alıcısı deyil, mətnin fəal interpretatoru kimi çıxış etməlidir. Məsələn, "Leyli və Məcnun" poemasının tədrisi zamanı müəllim süjeti izah etməklə kifayətlənməməli, şagirdləri əsərin simvolik məzmununu tapmağa, sevgi, taleh və insan iradəsi anlayışlarını fəlsəfi aspektdən təhlil etməyə yönəltməlidir. Bu zaman müəllim bələdçi, şagird isə müstəqil mənalandırıcı rolunda fəaliyyət göstərir.

Apoyevin fikirlərinə əsasən, ədəbi mətnin dərk olunması Vıqotskinin yaxın inkişaf zonası nəzəriyyəsi, konstruktivizm və Blum taksonomiyası ilə uyğun pedaqoji çərçivəyə əsaslanmalıdır. Bu nəzəri istiqamətlər biliklərin hazır şəkildə ötürülmədiyini, şagirdin öz fəaliyyəti əsasında mənimsənildiyini vurğulayır. Buna görə "Xəmsə"nin tədrisində sual-cavab, simvol interpretasiyası, qrup debatları, yaradıcı yazı, bədii motivlərin müasir kontekstdə tətbiqi kimi metodlar səmərəli hesab olunur.

Apoyev həmçinin bildirir ki, ədəbi mətnin qavranması yalnız anlama səviyyəsi ilə yekunlaşmamalıdır; şagird əsərdəki ədalət, mərhəmət, hikmət və kamillik ideyalarını şəxsi həyat təcrübəsi ilə əlaqələndirdikdə, yəni qiymətləndirmə və mənəvi nəticə çıxarma mərhələsinə keçdikdə proses tamamlanmış sayılır. Bu isə Nizami poeziyasının müasir sosial-mənəvi reallıqlarla dialoqa daxil olmasına və şagirdin dünyagörüşünün formalaşmasına şərait yaradır.

Nəticə etibarilə, Apoyevin müəyyən etdiyi elmi-metodik yanaşma "Xəmsə"nin tədrisini çoxmərhələli proses kimi təqdim edir: birinci mərhələdə məzmunun dərk edilməsi, ikinci mərhələdə bədii-fəlsəfi dərinliyin təhlili, üçüncü mərhələdə isə fərdi interpretasiya və mənəvi nəticə çıxarılması həyata keçirilir. Bu proses həm milli-mənəvi tərbiyəyə, həm də yaradıcı-tənqidi təfəkkürün inkişafına xidmət edir və ədəbiyyat tədrisinin əsas strateji məqsədləri ilə üst-üstə düşür.

**Ədəbi mətnin interpretasiyası və şagirdlərin yaradıcı düşüncəsinin inkişafı**

Ş.A.Mikayılov və A.M.Bəkirova "Ümumtəhsil məktəblərinin V–XI siniflərində ədəbiyyatın tədrisi metodikası" əsərində vurğulayırlar ki, ədəbi mətnin interpretasiyası şagirdlərin düşünmə, təhlil etmə və fərdi nəticə çıxarma bacarıqlarını formalaşdıran ədəbiyyat tədrisinin əsas mərhələlərindən biridir.

Müəlliflərin fikrincə, şagird mətni yalnız oxumamalı və süjeti mənimsəməməlidir; o, bədii əsəri dərk etməli, müəllif ideyasını, obrazların psixologiyasını və hadisələrin məntiqini öz baxış bucağından şərh etməyə təşviq olunmalıdır. Bu proses şagirdin estetik duyumunu, emosional intellektini və yaradıcı təfəkkürünü inkişaf etdirir [3, s.22–23].

Mikayılov və həmkarlarının araşdırmasına görə, ədəbi interpretasiya — ədəbi mətni bədii-fəlsəfi, psixoloji və simvolik aspektlərdən şərh etmə prosesidir. Bu zaman müəllim istiqamətverici rolunda çıxış edir, şagird isə mətni araşdıran tədqiqatçı və yaradıcı subyektə çevrilir. Nizami Gəncəvinin "Xəmsə"sinin çoxqatlı mənası da məhz bu interpretasiya fəaliyyətini daha məhsuldar edir: məsələn, "Xosrov və Şirin" poemasında sevgi, sadiqlik və mənəvi seçim kimi dəyərlərin müxtəlif şagirdlər tərəfindən müxtəlif şəkildə izah olunması onların fərdi düşüncə tərzini formalaşdırır.

Ş.A.Mikayılov, A.M.Bəkirova və Ş.X.Əliyeva "Ümumtəhsil məktəblərinin ədəbiyyat dərsləri üçün metodik vəsait" əsərində ədəbi interpretasiyanın formalaşdırılması üçün müasir pedaqogikada səmərəli hesab edilən metodları aşağıdakı kimi qruplaşdırır və onların tədrisdə tətbiqinin vacibliyini vurğulayırlar:

- Diskussiya və debat – şagirdlər eyni hadisəyə müxtəlif baxışlarla yanaşır, arqumentlərini əsaslandırmağı öyrənirlər;
- Yaradıcı yazı – personajın baxış bucağından məktub, gündəlik, dialoq kimi yazılar yazmaqla şagird mətnə yaradıcı münasibət göstərir;
- Vizual interpretasiya – hadisələrin qrafik təsviri, xəritələnməsi, illüstrasiyası abstrakt təfəkkürü inkişaf etdirir;
- Simvol analizləri – Nizami poeziyasında "su", "gül", "ay", "eşq" kimi simvolların mənasının açılması şagirdlərdə məna qatlarını anlama bacarığını gücləndirir.

Müəlliflərə görə, bu metodlar şagirdin mətni müəllimdən asılı olmadan anlamasına, mətnlə öz həyat təcrübəsini əlaqələndirməsinə və fəal bilikyaratma prosesinə daxil olmasına imkan yaradır. Nəticədə, təlim passiv informasiyanın ötürülməsindən aktiv yaradıcılıq fəaliyyətinə çevrilir.

Mikayılov və Bəkirova həmçinin qeyd edirlər ki, ədəbi interpretasiyanın əsas funksiyalarından biri emosional-intellektual balansın yaradılmasıdır: şagird mətni təhlil etməklə yanaşı, onunla emosional bağ qura bildikdə bədii dünya daxili şəkildə qavranılır və estetik düşüncəyə çevrilir. Bu proses empatiyanın, tənqidi düşünmənin və özünümüşahidə bacarığının inkişafına xidmət edir.

"Xəmsə"nin tədrisində yaradıcı düşüncənin inkişafı həm fərdi, həm də qrup fəaliyyətləri vasitəsilə gücləndirilə bilər. Məsələn, "Yeddi Gözəl" poemasında müxtəlif ölkə şahzadələrinin hekayələrinin səhnələşdirilməsi bəşəri dəyərlərin şagird tərəfindən yenidən qurulmasına şərait yaradır. Bu

interaktiv üsullar həm ədəbi məzmunun daha dərin mənimsənilməsini, həm də şagirdlərdə kommunikativ və analitik bacarıqların möhkəmlənməsini təmin edir.

Nəticə etibarilə, Mikayılov və Bəkirovanın metodik yanaşması göstərir ki, ədəbi mətnin interpretasiyası şagirdlərin tənqidi və yaradıcı təfəkkürünün formalaşdığı əsas mühitdir. Bu yanaşma şagirdlərin fərdi dünyagörüşünü, estetik zövqünü və yaradıcılıq mədəniyyətini inkişaf etdirir və Nizami Gəncəvi irsinin müasir pedaqoji təcrübədə yaşadılmasının ən təsirli yollarından birini təşkil edir.

## Müasir pedaqoji və rəqəmsal texnologiyaların "Xəmsə" tədrisinə inteqrasiyası

B.Apoyev "Nizami Gəncəvi irsindən pedaqoji prosesdə istifadə işinin sistemi" adlı dərs vəsaitində qeyd edir ki, XXI əsrin təhsil mühiti İKT-nin sürətli inkişafı ilə klassik mətnlərin öyrənilməsini yeni pedaqoji tələblər qarşısında qoyur. Onun fikrincə, Nizami Gəncəvi "Xəmsə" irsinin tədrisi müasir dövrdə yalnız ənənəvi izahla məhdudlaşmamalı, rəqəmsal alətlər və innovativ metodların sintezi ilə həyata keçirilməlidir. Apoyev yazır ki, rəqəmsal mühit şagirdlərin mətni analitik, emosional və yaradıcı baxımdan daha dərindən mənimsəməsinə şərait yaradır və bu prosesdə müəllim informasiya ötürücüsü deyil, yönəldici rolunda çıxış edir [1, s.62–63].

S.Hüseynoğlunun "Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim" əsərində göstərildiyi kimi, texnologiyanın məqsədi təlimi texniki baxımdan dəyişmək deyil, onun interaktivliyini, reflektivliyini və çoxkanallı təbiətini gücləndirməkdir. Bu nəzəri bazaya uyğun olaraq "Xəmsə" poemalarının tədrisində blended learning (qarışıq təlim), project-based learning (layihə əsaslı öyrənmə) və gamifikasiya (oyunlaşdırma) kimi yanaşmalar xüsusi aktuallıq qazanır. Hüseynoğlu qeyd edir ki, qarışıq təlimdə şagird həm sinifdə, həm də rəqəmsal mühitdə fəaliyyət göstərir və bu, mətni həm fərdi, həm sosial kontekstdə qavramağa imkan yaradır [2, s.45–47].

Ş.A.Mikayılov və A.M.Bəkirovanın ədəbiyyat tədrisi metodikasına dair araşdırmalarında texnologiya dəstəklı tədrisin şagirdin yaradıcı iştirakını artırdığı vurğulanır. Müəlliflər göstərirlər ki, layihə əsaslı öyrənmə "Xəmsə" kimi fəlsəfi-mənəvi məzmunlu mətnlərdə şagirdlərin tədqiqat bacarığını formalaşdırır: məsələn, "İskəndərnamə"də "Ədalətli idarəetmə" mövzusunda layihələr, "Xosrov və Şirin" əsasında qadın obrazlarının müqayisəli təhlili və ya "Yeddi Gözəl"də mədəniyyətlərarası dialoq təqdimatları şagirdin həm analitik, həm də yaradıcı inkişafını dəstəkləyir [3, s.88–91].

E.Xəlilova "Ədəbiyyat dərslərində interaktiv təlim metodlarından istifadə" əsərində bildirir ki, audiovizual və rəqəmsal interpretasiya ədəbi mətnin emosional qavrayışını gücləndirir və şagirdə mətnə fərdi münasibət

formalaşdırmaq imkanı verir. Xəlilova qeyd edir ki, qısa rəqəmsal filmlər, səhnələrin cizgi versiyaları, illüstrativ təqdimatlar və 3D modelləşdirmə şagirdlərin məcaz, simvol və fəlsəfi qatları daha dərindən anlamağa şərait yaradır. Bu üsullar həm diqqəti artırır, həm də abstrakt anlamların konkretləşdırılmasına xidmət edir [5, s.33–35].

Bu yanaşmalar fonunda blended learning modelində "Leyli və Məcnun" poemasının poetik strukturu sinifdə müzakirə olunduqdan sonra şagirdlər Google Classroom, Padlet və Nearpod kimi platformalarda simvol analizləri, rəqəmsal forum müzakirələri və interaktiv tapşırıqlar həyata keçirirlər. Project-based learning əsaslı fəaliyyətlərdə isə şagirdlər "Xəmsə" əsasında tədqiqat layihələri hazırlayır, mədəniyyətlərarası dialoq, ədalət, sevgi və hikmət ideyalarını müxtəlif media formatlarında təqdim edirlər. Gamifikasiya isə "mətn questləri", simvol tapmaca kartları və səviyyə nişanları ilə motivasiyanı artırır, lakin dərin mətn analizinin yerini tutmur.

Rəqəmsal texnologiyaların tətbiqi vizual analitika üçün də yeni imkanlar açır: interaktiv xəritələr, mətn buludları, simvol şəbəkələri və əlaqə diaqramları vasitəsilə "Sirlər Xəzinəsi" kimi əsərlərin ideya strukturu vizual şəkildə təqdim olunur. Eyni zamanda VR və AR tətbiqləri Nizami dövrünün mədəni mühitinə "virtual daxil olma" imkanı yaradaraq ədəbi mətnin həm hissi, həm də idraki qavranmasını gücləndirir.

Onlayn qrup müzakirələri, digital storytelling (rəqəmsal hekayəçilik), chat-based discussion və peer review kimi rəqəmsal kooperasiya üsulları şagirdlərin demokratik və yaradıcı öyrənmə mühitində fəaliyyət göstərməsinə şərait yaradır. Şagirdlər "Xəmsə" poemalarındakı ideyaları multimedia təqdimatlarına çevirərək mətni yenidən yaradır, bu isə onların həm kommunikativ, həm də analitik bacarıqlarını inkişaf etdirir.

Nəticə etibarilə, Apoyev, Hüseynoğlu, Mikayılov–Bəkirova və Xəlilovanın metodik yanaşmaları göstərir ki, "Xəmsə" irsinin müasir tədrisi yalnız mətnin öyrənilməsi deyil, rəqəmsal texnologiyalarla sintez olunmuş analitik, yaradıcı və estetik düşüncə mühitinin formalaşdırılmasıdır. Bu yanaşma klassik irsin müasir təhsil mühitində aktuallığını qoruyur və Nizaminin bəşəri fəlsəfəsini yeni nəsil üçün daha əlçatan edir.

## Nəticə

Nizami Gəncəvinin "Xəmsə" irsinin müasir pedaqoji və texnoloji yanaşmalar əsasında tədrisi aparılan zaman əldə edilən nəticələr göstərir ki, bu proses şagirdlərin həm ədəbi düşüncə bacarıqlarını, həm də ümumi mədəni və sosial kompetensiyalarını əhəmiyyətli dərəcədə inkişaf etdirir. Ənənəvi tədris formalarından fərqli olaraq, interaktiv, şagird yönümlü və rəqəmsal üsulların tətbiqi ədəbiyyat fənnini daha maraqlı, yaradıcı və mənalandırıcı təcrübəyə çevirir [4, s.45–46].

Əldə olunan əsas **nəticələr** aşağıdakı istiqamətlərdə ümumiləşdirilə bilər:

– Birincisi, **ədəbi mətnin dərin qavranması** təmin olunur. Şagirdlər artıq hadisələri sadəcə təkrarlamır, mətndəki simvolik məna qatlarını və müəllif ideyasını dərk etməyə başlayırlar. Onlar əsərin bədii strukturu ilə mənəvi-fəlsəfi məzmunu arasında əlaqə yaradır, obrazların psixoloji davranışlarını müasir həyati situasiyalarla müqayisə edirlər. Bu isə ədəbiyyatın dərkini fərdi düşüncə və təhlil prosesinə çevirir.

– İkincisi, **yaradıcı və tənqidi düşüncə** inkişaf edir. Ədəbi interpretasiya, layihə əsaslı öyrənmə və debat metodları şagirdlərin fikir müstəqilliyini gücləndirir. Onlar Nizami əsərlərindəki ideyaları öz baxış bucaqlarından yenidən şərh edir, bəzən mübahisəli məsələlərə alternativ yanaşmalar təklif edirlər. Bu, həm onların analitik təfəkkürünü, həm də estetik zövqünü formalaşdırır.

– Üçüncüsü, **rəqəmsal savadlılıq və kommunikativ bacarıqlar** genişlənir. "Xəmsə" poemalarının tədrisində istifadə edilən multimedia, onlayn platformalar, qrup təqdimatları və rəqəmsal layihələr şagirdləri təkcə ədəbi biliklərlə deyil, həm də XXI əsr bacarıqları ilə təmin edir. Onlar mətnin ideyalarını vizual təqdimatlara, qrafik diaqramlara və ya rəqəmsal hekayələrə çevirərək həm texnoloji, həm də yaradıcılıq yönümlü təcrübə qazanırlar.

– Dördüncüsü, **milli-mənəvi dəyərlərin şüurlu mənimsənilməsi** baş verir. Nizami Gəncəvi "Xəmsə"sinin bəşəri ideyaları – ədalət, sədaqət, mərhəmət, elm və hikmət – müasir pedaqoji yanaşmalarla öyrədildikdə, şagirdlər bu dəyərləri sadəcə oxucu kimi deyil, şəxsi təcrübələrinin bir hissəsi kimi qəbul edirlər. Onlarda mənəvi məsuliyyət və sosial empatiya hissi güclənir.

Bütün bu nəticələr əsasında müəllimlər üçün bir sıra **praktik tövsiyələr** formalaşdırmaq mümkündür:

1. **İnteqrativ dərs planları** tərtib edilməlidir. "Xəmsə"nin fəlsəfi, tarixi və mədəni məzmunu digər fənlərlə – tarix, fəlsəfə, incəsənət, informatika – əlaqələndirilməli, mövzu çoxsahəli baxımdan şərh edilməlidir.
2. **Yaradıcı tapşırıqların payı artırılmalıdır.** Şagirdlərə poemadakı hadisələri fərqli sonluqlarla yenidən yazmaq, personajların baxış bucağından "daxili monoloqlar" yaratmaq, simvol və ideyalar üzrə qrup müzakirələri aparmaq kimi vəzifələr verilə bilər.
3. **Rəqəmsal hekayəçilik və layihə əsaslı öyrənmə** metodları daha geniş tətbiq olunmalıdır. Məsələn, şagirdlər "Yeddi Gözəl"dəki hekayələri multimedia təqdimatı və ya qısa video şəklində təqdim edə, bədii mətnin müasir interpretasiyasını yarada bilərlər.

4. **Qiymətləndirmə sistemində formativ yanaşma** tətbiq edilməlidir. Şagirdlərin fəaliyyətləri yalnız test və ya yazılı cavabla deyil, onların təhlil, müzakirə, yaradıcılıq və əməkdaşlıq bacarıqları əsasında dəyərləndirilməlidir.

5. **Tədris prosesində fərdiləşdirmə** prinsipi gücləndirilməlidir. Hər bir şagirdin öyrənmə tərzi, maraq dairəsi və təfəkkür səviyyəsi nəzərə alınaraq fərqli resurslar və tapşırıqlar təqdim edilməlidir.

Beləliklə, "Xəmsə" poemalarının müasir pedaqoji və texnoloji yanaşmalarla tədrisi yalnız ədəbiyyat fənninin keyfiyyətini artırmır, həm də ümumi təhsil sistemində humanist, düşünən və yaradıcı şəxsiyyət modelinin formalaşmasına xidmət edir. Bu, Nizami Gəncəvinin bəşəri ideallarını gənc nəslin mənəvi dünyasına real şəkildə inteqrasiya edən, eyni zamanda milli-mədəni irsi qloballaşma dövründə qoruyub yaşadan ən effektiv tədris istiqamətlərindən biridir.

***Ədəbiyyat***

1. *Apoyev Bayram Fəti oğlu. Nizami Gəncəvi irsindən pedaqoji prosesdə istifadə işinin sistemi: dərs vəsaiti. Bakı: Mütərcim, 2012, 216 s.*
2. *Hüseynoğlu Soltan. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009, 200 s.*
3. *Mikayılov Ş.A. & Bəkirova A.M. Ümumtəhsil məktəblərinin V–XI siniflərində ədəbiyyatın tədrisi metodikası. Bakı: Naksuana, 2008.*
4. *Mikayılov Ş.A., Bəkirova A., Əliyeva Ş.X. Ümumtəhsil məktəblərinin ədəbiyyat dərsləri üçün metodik vəsait. Bakı: Universiteti, 1992.*
5. *Xəlilova E.H. Ədəbiyyat dərslərində interaktiv təlim metodlarından istifadə. Bakı: Müəllim, 2010.*

**Əsədzadə A.F.**
**Azərbaycan Turizm və Menecment Universiteti**
***ayshanasadzadeh2323@gmail.com***

# ÇƏTİN TƏRBİYƏ OLUNAN UŞAQLARIN SOSİALLAŞMA PROBLEMLƏRİNİN TƏHSİL PROSESİNƏ TƏSİRİ

***Xülasə***

*Bu məqalədə çətin tərbiyə olunan uşaqların sosiallaşma problemlərinin təhsil prosesinə təsiri araşdırılır. Sosiallaşma çatışmazlığı emosional özünütənzimləmənin zəifliyi, davranışın qeyri-sabitliyi və ünsiyyət çətinlikləri ilə müşayiət olunur ki, bu da uşaqların akademik nailiyyətlərinə, məktəbə uyğunlaşmasına və sinifdaxili psixoloji mühitə mənfi təsir göstərir. Sosial bacarıqların inkişafına yönəlik proqramların tətbiqi, müəllimlərin inkluziv təlim metodları üzrə hazırlığı və valideynlərlə effektiv əməkdaşlıq bu problemlərin həllində əsas istiqamətlərdəndir. Bu səbəbdən çətin tərbiyə olunan uşaqların sosiallaşmasına erkən müdaxilə təhsilin keyfiyyətinin artırılması və onların gələcək sosial inteqrasiyasının təmin edilməsi baxımından böyük əhəmiyyət daşıyır.*

# ВЛИЯНИЕ ПРОБЛЕМ СОЦИАЛИЗАЦИИ ТРУДНЫХ В ВОСПИТАНИИ ДЕТЕЙ НА ОБРАЗОВАТЕЛЬНЫЙ ПРОЦЕСС

***Резюме***

*В данной статье исследуется влияние проблем социализации трудно воспитуемых детей на образовательный процесс. Недостаточность социализации сопровождается слабостью эмоциональной саморегуляции, нестабильностью поведения и трудностями в общении, что негативно сказывается на академических достижениях детей, их адаптации к школе и психологическом климате в классе. Внедрение программ, направленных на развитие социальных навыков, подготовка учителей по инклюзивным методам обучения и эффективное сотрудничество с родителями являются основными направлениями в решении данных проблем. В связи с этим раннее вмешательство в процесс социализации трудно воспитуемых детей имеет большое значение для повышения качества образования и обеспечения их будущей социальной интеграции.*

# THE IMPACT OF SOCİALİZATİON DİFFİCULTİES OF DİFFİCULT-TO-EDUCATE CHİLDREN ON THE EDUCATİONAL PROCESS

***Summary***

*This article examines the impact of socialization problems of difficult-to-educate children on the educational process. Insufficient socialization is accompanied*

*by weak emotional self-regulation, behavioral instability, and communication difficulties, which negatively affect children's academic achievement, school adjustment, and the psychological climate within the classroom. The implementation of programs aimed at developing social skills, teachers' training in inclusive teaching methods, and effective cooperation with parents are key directions in addressing these problems. Therefore, early intervention in the socialization of difficult-to-educate children is of great importance for improving the quality of education and ensuring their future social integration.*

***Açar sözlər:*** *çətin tərbiyə olunan uşaqlar, sosiallaşma problemləri, təhsil prosesi, inkluziv təlim, valideyn-məktəb əməkdaşlığı, erkən müdaxilə*

***Ключевые слова:*** *трудновоспитуемые дети, проблемы социализации, образовательный процесс, инклюзивное обучение, сотрудничество школы и родителей, раннее вмешательство.*

***Key words:*** *difficult-to-educate children, socialization problems, educational process, inclusive education, parent-school cooperation, early intervention*

## Giriş

Müasir cəmiyyətin sosial-mədəni inkişafında uşaqların sosiallaşması əsas prioritet istiqamətlərdən biridir. Sosiallaşma uşağın sosial mühitə inteqrasiya olunduğu, cəmiyyətin dəyərlərini, davranış normalarını və sosial gözləntilərini mənimsədiyi mürəkkəb bir prosesdir. Təhsil sistemi isə bu prosesin ən mühüm institutlarından biri hesab olunur. Çünki məktəb uşağın şəxsiyyət kimi formalaşmasında ailədən sonra ikinci sosial mühitdir [6, səh 19]. Lakin son illərdə təhsil prosesində sosiallaşma çətinliyi yaşayan və davranış problemləri göstərən şagirdlərin sayında artım müşahidə olunur. Bu kateqoriyaya daxil edilən uşaqlar "çətin tərbiyə olunan" kimi xarakterizə edilir. Onların sosiallaşmasındakı çatışmazlıqlar təkcə fərdi deyil, kollektiv mühit üçün də ciddi problemlər yaradır. Tədqiqatlar göstərir ki, çətin tərbiyə olunan uşaqların özünütənzimləmə bacarıqları, sosial münasibətləri və emosional stabilliyi zəif olur ki, bu da həm psixoloji mühitə, həm də tədris nailiyyətlərinə mənfi təsir edir. Bu səbəbdən onların təhsil prosesində sosiallaşma problemlərinin mahiyyətini araşdırmaq, səbəbləri müəyyənləşdirmək və effektiv həll yolları təklif etmək elmi və praktik baxımdan aktualdır.

## Təhlil

Pedaqoji və psixoloji yanaşmaya görə, "çətin tərbiyə olunan uşaqlar" – sosial mühitə uyğunlaşmaqda çətinlik çəkən, davranış reaksiyalarında qeyri-stabilik müşahidə edilən və təlim prosesində normativ gözləntilərdən kənara çıxan uşaqlar kimi xarakterizə olunur. Azərbaycan tədqiqatçılarının qeydlərinə görə isə, çətin tərbiyə olunan uşaqlar – müəllimlə əməkdaşlığa meylin zəif olduğu, məktəb mühitində sosial uyğunlaşmanın çətinləşdiyi, emosional stabilliyin pozulduğu və davranış nəzarət mexanizmlərinin zəif inkişaf etdiyi

uşaqlardır [9, səh.109]. Bu uşaqlarda ən çox rast gəlinən psixoloji xüsusiyyətlər emosional gərginlik, özünüidarəedə bilməmək, sosial qavrayışın zəifliyi və neqativ özünəqiymətləndirmə kimi amillərlə müəyyən edilir. Müasir psixoloji yanaşmalarda vurğulanır ki, sosial inkişafda ləngimə emosional davranışın strukturuna birbaşa təsir edir və bu hal təhsil prosesində daha qabarıq şəkildə üzə çıxır [6, səh. 79]. Bronfenbrenner isə bu prosesə ekoloji aspektdən yanaşaraq bildirir ki, uşağın davranışı yalnız fərdi xüsusiyyətlərdən deyil, onun daxil olduğu ailə, məktəb və cəmiyyətin qarşılıqlı təsirindən formalaşır [12, səh. 41]. Qeyd etmək lazımdır ki, belə uşaqlar sosial təcrübələrdə uğursuzluq yaşadıqca özünümüdafiə reaksiyası kimi aqressiv davranış formalaşdıra bilirlər. Rusdilli mənbələrdə isə bu kateqoriya uşaqlar "tərbiyə və təhsil prosesində xüsusi diqqət və fərdi yanaşma tələb edən sosial risk qrupu" kimi qiymətləndirilir [11, səh.154–167]. Bu uşaqlarda çətinliklərin yaranma səbəbləri daha çox ailə, məktəb və cəmiyyət mühitlərində olan problemlər hesab edilir. Bunlara qısaca nəzər salaq.

Ailə mühiti çətin tərbiyə olunan uşaqların davranış modelinin formalaşmasında əsas determinant kimi çıxış edir və uşağın psixoloji inkişaf trayektoriyasını birbaşa müəyyənləşdirir. Ailədaxili münasibətlərin xarakteri, valideyn-uşaq qarşılıqlı əlaqəsinin keyfiyyəti, emosional dəstəyin səviyyəsi və tərbiyə strategiyalarının ardıcıllığı uşağın sosial normaları mənimsəmə prosesində həlledici rol oynayır. Ailədə müşahidə olunan emosional soyuqluq, daimi konfliktlər və qeyri-sabit münasibətlər uşağın təhlükəsizlik ehtiyacını ödəmədiyindən, uşaq bu boşluğu davranış səviyyəsində kompensasiya etməyə meyl göstərir. Bu kompensasiya mexanizmləri əksər hallarda aqressivlik, impulsivlik, emosional partlayışlar və ya sosial münasibətlərdən geriçəkilmə formasında özünü büruzə verir. Valideyn nəzarətinin zəifliyi və davranış sərhədlərinin qeyri-müəyyənliyi uşağın özünüidarəetmə bacarıqlarının inkişafına mənfi təsir göstərir. Davranışın tənzimlənməsi üçün zəruri olan daxili nəzarət mexanizmləri ailə mühitində ardıcıl qaydalar və emosional dəstək əsasında formalaşır. Bu mexanizmlər inkişaf etmədikdə uşaq situativ impulslarla hərəkət edir, sosial normaları kontekstdən asılı olaraq dəyişkən şəkildə qəbul edir və məsuliyyət hissini dərk etməkdə çətinlik çəkir. Nəticədə məktəb və sosial mühitdə qəbul olunmayan davranış nümunələri formalaşır. Valideynlərin laqeydliyi və ya həddindən artıq sərt yanaşması uşağın özünə inamının azalmasına, özünü dəyərsiz hiss etməsinə və sosial münasibətlərdə davamlı narahatlıq yaşamasına səbəb olur. Bu psixoloji vəziyyət təlim prosesinə marağın zəifləməsi və akademik fəaliyyətin passivləşməsi ilə müşayiət olunur [3, səh. 63–67]. Məktəb mühiti sosiallaşmanın institusional mərhələsi kimi uşağın davranışının korreksiyası və ya dərinləşməsi baxımından kritik əhəmiyyət daşıyır. Məktəbdə pedaqoji dəstəyin yetərsizliyi, müəllimin uşağın fərdi-psixoloji xüsusiyyətlərini nəzərə almadan standart yanaşma tətbiq

etməsi və differensial təlim metodlarının istifadə edilməməsi çətin tərbiyə olunan uşaqlarda adaptasiya çətinliklərini daha da kəskinləşdirir. Uşaq özünü pedaqoji münasibətlər sistemində qəbul olunmayan və dəyərsiz subyekt kimi qavradıqda, müdafiə mexanizmləri aktivləşir və bu, ya açıq qarşıdurma, ya da passiv müqavimət formasında təzahür edir [2, səh. 274–281]. Məktəbdə formalaşan neqativ psixoloji iqlim sosial konfliktlərin artmasına, intizam pozuntularının sistemli xarakter almasına və davranış problemlərinin sabitləşməsinə şərait yaradır. Sinifdaxili münasibətlərdə empatiyanın və qarşılıqlı hörmətin zəifləməsi çətin tərbiyə olunan uşağın yaşıdlar tərəfindən etiketlənməsinə və sosial statusunun aşağı düşməsinə gətirib çıxarır. Bu proses uşağın kollektivə inteqrasiyasını çətinləşdirir və onu sosial təcridə sürükləyir. Sosial adaptasiya mexanizmlərinin-yəni ünsiyyət bacarıqlarının, konfliktlərin konstruktiv həll yollarının və əməkdaşlıq davranışlarının kifayət qədər formalaşmaması neqativ davranışların intensivliyini artırır və sosial münasibətlərdə davamlı gərginlik yaradır [5, səh. 25]. Cəmiyyət səviyyəsində yaranan sosial təzyiq, stereotiplər və sosial status fərqləri də uşağın davranış modelinə güclü təsir göstərir. Cəmiyyət amili çətin tərbiyə olunan uşaqların davranışının formalaşmasına təsir etməklə yanaşı, onların təhsil prosesinə münasibətini və təlim nəticələrini də birbaşa müəyyənləşdirir. Təhsil sistemi cəmiyyətin sosial dəyərlərini, normativ gözləntilərini və davranış standartlarını institusional səviyyədə ötürən əsas mexanizmlərdən biri kimi çıxış edir. Bu baxımdan məktəb yalnız bilik ötürən müəssisə deyil, eyni zamanda uşağın cəmiyyətlə qarşılıqlı əlaqəsinin formalaşdığı əsas sosial mühitdir.

Cəmiyyət daxilində mövcud olan sosial bərabərsizlik, stereotiplər və status fərqləri təhsil mühitində də öz əksini tapır və bu, çətin tərbiyə olunan uşaqların məktəbə adaptasiya prosesini mürəkkəbləşdirir. Sosial status baxımından dezavantajlı olan uşaqlar məktəb mühitində tez-tez kənarlaşdırma, etiketləmə və aşağı gözləntilərlə qarşılaşır. Bu vəziyyət uşağın özünü akademik mühitdə dəyərsiz hiss etməsinə, təlim fəaliyyətinə passiv münasibət göstərməsinə və nəticə etibarilə akademik motivasiyanın azalmasına səbəb olur. Təhsil mühitində sosial ədalətin və bərabər imkanların təmin olunmaması davranış pozuntularının dərinləşməsi üçün əlverişli zəmin yaradır. Cəmiyyət tərəfindən formalaşdırılan davranış normaları və gözləntilər təhsil prosesində intizam siyasətinə də təsir göstərir. Standartlaşdırılmış və cəza yönümlü intizam yanaşmaları çətin tərbiyə olunan uşaqların fərdi xüsusiyyətlərini nəzərə almadıqda, onların davranış problemlərini azaltmaq əvəzinə daha da dərinləşdirə bilər. Belə hallarda uşaq intizam tədbirlərini ədalətsiz qiymətləndirir, məktəbə qarşı mənfi emosional münasibət formalaşdırır və təlim motivasiyası daha da zəifləyir. Müasir cəmiyyət şəraitində kütləvi informasiya vasitələrinin və rəqəmsal platformaların təsiri də təhsil prosesi ilə sıx şəkildə bağlıdır. Media vasitəsilə ötürülən davranış modelləri və dəyərlər

sistemi uşağın məktəb mühitindəki davranış seçimlərinə təsir göstərir. Virtual mühitdə formalaşan sosial normalarla məktəbdə tələb olunan davranış standartları arasında ziddiyyət yaranması uşağın adaptasiya prosesini çətinləşdirir və təlim fəaliyyətində qeyri-sabitliyə səbəb olur [12, səh. 40].

Qeyd etdiyimiz kimi, çətin tərbiyə olunan uşaqlarda müşahidə edilən sosiallaşma problemləri təhsil prosesinin səmərəliliyinə ciddi şəkildə təsir göstərir və bu təsir həm idrak, həm emosional, həm də davranış səviyyəsində özünü büruzə verir. Sosiallaşma prosesi fərdin cəmiyyətin qəbul etdiyi mənəvi, mədəni və sosial dəyərləri mənimsəməsi, müxtəlif sosial rollara uyğunlaşması və sosial münasibətlər sistemində effektiv davranış modelləri formalaşdırması ilə xarakterizə olunur. Bu proses uşağın ünsiyyət bacarıqlarının inkişafına, sosial normaları dərk etməsinə və kollektiv mühitdə özünüifadə imkanlarının genişlənməsinə şərait yaradır [8, səh. 55–65]. L.S.Vıqotskinin mədəni-tarixi inkişaf nəzəriyyəsinə əsasən, uşağın psixoloji inkişafı sosial mühitlə sıx qarşılıqlı əlaqə şəraitində formalaşır. Uşaq sosial təcrübəni mənimsədikcə onun davranış strukturlarında, emosional reaksiyalarında və idrak fəaliyyətində keyfiyyət dəyişiklikləri baş verir. Sosial mühitdə yaranan çatışmazlıqlar və mənfi təsirlər uşağın psixoloji portretində uyğunsuzluqlara səbəb ola bilər ki, bu da sosiallaşma prosesinin ləngiməsi ilə nəticələnir [6, səh. 27]. Sosiallaşma problemi yaşayan uşaqlar üçün təlim prosesi daha mürəkkəb xarakter alır. Belə uşaqlar yeni biliklərin qavranılması və tətbiqində çətinliklərlə üzləşir, diqqətin davamlılığını təmin edə bilmir və təhsilə maraq səviyyəsi aşağı düşür. Bu hal təlim motivasiyasının zəifləməsinə, dərs prosesində passivliyin artmasına və akademik nəticələrin qeyri-sabit olmasına gətirib çıxarır [10, səh. 3–11]. Müəllimlə qurulan pedaqoji əməkdaşlığın zəifləməsi şagirdin dərsə fəal cəlb olunmasını məhdudlaşdırır və tədris prosesində qarşılıqlı anlaşmanı çətinləşdirir. Eyni zamanda, sosiallaşma çətinlikləri olan şagirdlərin sinifdaxili davranışlarında tez-tez neqativ hallara rast gəlinir. Bu davranışlar sinif mühitində emosional gərginliyin artmasına səbəb olur və digər şagirdlərin də təlim fəaliyyətinə mənfi təsir göstərir. Nəticədə ümumi tədris mühiti pozulur, kollektiv əməkdaşlıq zəifləyir və müəllimin pedaqoji yükü artır [7, səh. 56–68]. Araşdırmalar göstərir ki, yaşıdlarla ünsiyyət qurmaqda çətinlik çəkən uşaqlar sosial dəstəkdən məhrum qalır və bu vəziyyət onların məktəb mühitində özlərini təcrid olunmuş hiss etmələrinə səbəb olur. Sosial təcrid isə təkcə emosional deyil, həm də akademik fəaliyyətdə geriləməyə gətirib çıxarır. Uşaq həm fərdi imkanlarını reallaşdırmaqda, həm də qrup fəaliyyətlərinə inteqrasiya olunmaqda çətinlik çəkir [4, səh. 125–130]. Beynəlxalq tədqiqatlar da təsdiq edir ki, sosial adaptasiya və emosional-davranış çətinlikləri yaşayan şagirdlər akademik uğursuzluq riski baxımından daha həssas qrup hesab olunur. Bu baxımdan, sosiallaşma çətinliyi:

– dərs motivasiyasının azalmasına,

– davamiyyətin zəifləməsinə,
– dərs prosesində passivliyə,
– akademik nəticələrin aşağı düşməsinə,
– təlimdə müstəqilliyin zəifləməsinə,
– müəllim-şagird münasibətinin pozulmasına birbaşa təsir göstərir [1, səh. 145].
–

**Nəticə**

Aparılan təhlil göstərir ki, çətin tərbiyə olunan uşaqların sosiallaşma problemləri çoxfaktorlu xarakter daşıyır və onun mənşəyində ailə, məktəb və geniş sosial mühitin təsirləri dayanır. Sosiallaşma çətinliyi uşağın özünü dərk etməsinə, davranışını tənzimləməsinə, emosional sabitliyinə və ictimai münasibətləri qurmasına mane olur. Bu isə təhsil prosesində ciddi nəticələr yaradır. Məqalədəki nəzəri yanaşmalar göstərir ki, sosiallaşma problemi fərdi xarakter daşımır, əksinə sistem xarakterlidir və yalnız psixoloji və pedaqoji dəstəyin birgə tətbiqi ilə aradan qaldırıla bilər. Problemin həllində yalnız məktəbin fəaliyyəti kifayət etmir, ailə və cəmiyyət də prosesə aktiv şəkildə qoşulmalıdır. Çətin tərbiyə olunan uşaqların sosiallaşma çətinliklərinin aradan qaldırılması üçün aşağıdakı istiqamətlər üzrə kompleks tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

– **Məktəb psixoloqu xidmətlərinin gücləndirilməsi:** Şagirdlərin sosial-psixoloji vəziyyətinin mütəmadi monitorinqi aparılmalı, davranış problemləri olan uşaqlar üçün fərdi psixoloji müşahidə və müdaxilə proqramları hazırlanmalıdır.

– **Risk qrupunda olan şagirdlər üçün fərdi təhsil proqramlarının hazırlanması:** Belə proqramlarda uşağın sosial bacarıqlarının inkişafı və adaptasiya səviyyəsi nəzərə alınmalıdır.

– **Müəllimlərin sosial davranış və emosional dəstək metodları üzrə ixtisasartırması:** Müəllimlər şagird davranışını düzgün qiymətləndirmək, müsbət intizam yaratmaq və neqativ emosional reaksiyalara düzgün yanaşmaq bacarıqlarına yiyələnməlidir.

– **Valideyn maarifləndirmə proqramları:** Valideynlərə uşaq davranışının formalaşmasında sosial mühitin rolunu anlamağa kömək edən seminar və təlimlər keçirilməlidir.

– **Valideynlərin psixoloji ixtisaslaşması:** Ailələrə münaqişə halları, aqressiyanın qarşılanması və uşağa emosional dəstək üsulları öyrədilməlidir.

– **Ailə-məktəb əməkdaşlığının sistemləşdirilməsi:** Ailə və məktəb arasında illik monitorinq, qiymətləndirmə mexanizmləri qurulmalıdır.

– **Sosial inteqrasiya proqramları:** Uşaqlar üçün ictimai mədəniyyət mərkəzləri, klublar, sosial layihələr və könüllü fəaliyyət platformaları genişləndirilməlidir.

Belə proqramlar şagirdin sosial və akademik inkişafını paralel gücləndirir.

***Ədəbiyyat***

1. *A.V.Mudrik, Social Pedagogy. Moscow: Academy, 2007, p.145.*
2. *B.A.Yakymchuk, N.V.Hurtovenko, S.M.Makarenko, S.V.Albul və N.A.Dobrovolska, "The development of creative thinking as a tool of social adaptation of teenagers with behavior deviation," Journal of Intellectual Disability, vol. 7, no. 4, 2019, pp. 274–281.*
3. *С.Ж.Артыкбаева, Н.А.Марасулова və Ж.Ж.Жанибек, "Роль семьи в формировании социальной защищенности детей," Pravo: sovremennye tendentsii, 2017, pp. 63–67.*
4. *Е.Н.Просекова, "Особенности отношений со сверстниками в ранней юности," Вестник Шадринского государственного педагогического университета, 2018, pp. 125–130.*
5. *G.S.Məmmədli, Çətin tərbiyə olunan uşaqların sosiallaşması. Bakı: 2018, səh 25.*
6. *L.S.Vygotsky, Mind in Society: The Development of Higher Psychological Processes. Cambridge, MA: Harvard University Press, 1978, pp.19–79.*
7. *M. Tulis, "Error management behavior in classrooms: teachers' responses to student mistakes," Teaching and Teacher Education, vol. 33, 2013, pp. 56–68.*
8. *M.N.Makarova və Yu. V. Vostretsova, "On the problem of interaction between the subjects of the educational process," Bulletin of Udmurt University, no. 1, 2010, pp. 55–65.*
9. *P.K.Smith, C.H.Hart və M. Bornstein, Eds., Blackwell Handbook of Childhood Social Development. Oxford, UK: Blackwell Publishing, 2002, p.109.*
10. *S.A.Güven və K.E.Büyüktaşkapu Soylu, "Preschool children's social skills, problem behaviors, academic self-esteem and teacher-child relationship: A serial mediation model," Frontiers in Psychology, vol. 16, pp. 3–11, 2025.*
11. *Т.А.Егоренко, А.В.Лобанова və Н.П.Радчикова, "Диагностика трудностей в обучении в области социальной адаптации у младших школьников," Психологическая наука и образование, vol. 28, no. 5, 2023, pp. 154–167.*
12. *U. Bronfenbrenner, Ecological Systems Theory. New York, NY: Harvard University Press, 1992, pp.40-41.*

**Əsgərova N.F.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nigarrva855@gmail.com***

# MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA AİLƏNİN ROLU

***Xülasə***

*Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Cəmiyyətin inkişaf etməsi onun şəxsiyyətlərinin necə formalaşmasından asılıdır. Müasir dövrdə cəmiyyətimizin önündə duran ən önəmli məsələlərdən biri cəmiyyət üçün yararlı, yüksək dünyagörüşə, əxlaqa sahib vətəndaşların yetişdirilməsidir. Bunun üçün də mühüm amillərin nəzərə alınmalı, məsələnin kökündə dayanan ailə faktoru təhlil olunmalıdır. Yalnız bu xüsusiyyətlər nəzərə alındıqda proses düzgün təşkil oluna bilər. Məqalədə şəxsiyyətin formalaşması, ona təsir edən amillər, tərbiyə, ailənin rolu barədə olan məlumatlar təhlil olunur.*

# РОЛЬ СЕМЬИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ В ДОШКОЛЬНОМ ВОЗРАСТЕ

***Резюме***

*Личность является психологическим обличием человека, обладающим сознанием и самосознанием, ответственным за свои действия и активно участвующим в общественных отношениях. Развитие общества зависит от того, как формируются его личности. Одной из самых важных проблем, стоящих перед нашим обществом в современную эпоху, является воспитание граждан, обладающих полезным, высоким мировоззрением и моралью. Для этого необходимо учитывать важные факторы, и следует проанализировать семейный фактор, лежащий в основе проблемы. Только при учете этих характеристик процесс может быть правильно организован. В статье анализируются формирование личности, факторы, влияющие на нее, воспитание и роль семьи.*

# THE ROLE OF THE FAMILY IN THE FORMATION OF PERSONALITY DURING PRESCHOOL AGE

***Summary***

*Personality is the psychological face of a human being, possessing consciousness and identity, responsible for their actions, and an active participant in social relations. The development of society depends on how its personalities are formed. One of the most important issues facing our society today is the upbringing of citizens who are useful to society, possessing a high worldview and ethics. To achieve this, important factors must be considered, and the family factor, which lies at the root of the issue, must be analyzed. Only when these characteristics are taken into account*

*can the process be organized correctly. The article analyzes the formation of personality, the factors influencing it, education, and the role of the family.*

***Açar sözlər:*** *ailə, uşaq, şəxsiyyət, formalaşma, tərbiyə, təlim, ünsiyyət, böhran, amil, inkişaf, idarəetmə, yaş dövrü, xüsusiyyət*

***Ключевые слова:*** *семья, ребенок, личность, формализация, воспитание, обучение, общение, кризис, фактор, развитие, управление, возрастной период, характеристика*

***Key words:*** *family, child, identity, formalization, upbringing, education, communication, crisis, factor, development, management, age period, characteristic*

İnsan dünyaya fərd kimi gəlir, lakin şəxsiyyət kimi formalaşması zamanla, tərbiyə, təhsil və sosial mühitin təsiri ilə baş verir. Fərd nədir? Fərd – insanın bioloji varlıq kimi mövcudluğunu ifadə edən anlayışdır. İnsan doğulduğu andan etibarən fərddir, çünki onun genetik xüsusiyyətləri və fizioloji strukturu artıq mövcuddur. Fərdin əsas xüsusiyyətləri: Bioloji varlıq olması, genetik xüsusiyyətlərə malik olması, bəzi instinktiv (təbii) reaksiyalar göstərməsi aiddir. Məsələn, yeni doğulmuş körpə ağlamaq, reflekslərlə hərəkət etmək və ətraf mühiti qəbul etmək kimi xüsusiyyətlərə malikdir, lakin o, hələ şəxsiyyət kimi formalaşmamışdır. Şəxsiyyət necə formalaşır? Şəxsiyyət insanın sosial və psixoloji inkişafı nəticəsində meydana gələn xüsusiyyətlər məcmusudur. Şəxsiyyətin formalaşması üçün insan tərbiyə almalı, təhsil görməli, sosial əlaqələr qurmalı və müəyyən dəyərlər mənimsəməlidir.

Şəxsiyyət – insanın fərdi xüsusiyyətlərinin, xarakterinin, dünyagörüşünün, davranışlarının və sosial münasibətlərinin məcmusudur. Şəxsiyyət insanın yalnız bioloji varlıq olmasını deyil, həm də psixoloji, sosial və mənəvi baxımdan formalaşmış bir fərd olmasını ifadə edir. Şəxsiyyət dedikdə, müəyyən sosial keyfiyyətlərə, mənlik hissinə malik olan şüurlu fərd başa düşülür. İnsan fərd (bioloji varlıq) kimi doğulur, sonradan müxtəlif amillərin təsiri ilə şəxsiyyətə çevrilir. Şəxsiyyətin inkişafı dedikdə, insanın müəyyən keyfiyyətlərə (zehni, psixi, mənəvi, əmək, fiziki və s.) yiyələnməsi və özünü təkmilləşdirməsi başa düşülür. Şəxsiyyət birdən-birə formalaşmır; o, müəyyən səviyyələrdən (aşağı, orta, yüksək, ideal səviyyə) keçir. Şəxsiyyətin mənsub olduğu bir sıra xüsusiyyətlər vardır: fərdilik, sosiallıq, məsulliyyət və dəyərlər, iradə və məqsədyönlülük, əxlaqi keyfiyyətlər, temperament xüsusiyyətləri və s.

Şəxsiyyətin inkişafında hansı amillərə üstünlük verilməsindən asılı olaraq həmin nəzəriyyələri bir neçə qrupa bölmək olar:

**1. Bioloji amilin rolunu şişirdən nəzəriyyələr.** Orta əsrlərdə mövcud olan "irsiyyət" nəzəriyyəsi, XIX əsrin sonlarında mövcud olan "biogenetic" nəzəriyyə şəxsiyyətin inkişafında irsiyyət amilini əsas götürür. Guya insan hazır qabiliyyət və xasiyyətlə doğulur. Bəzi alimlər – E.Torndayk, C.Dyui

(ABŞ) qabiliyyətlərin göz və qulaq kimi insana genlər vasitəsilə hazır verildiyini qeyd edirlər.

Dinin “qismət” nəzəriyyəsi də bu mövqedən çıxış edir: insanın taleyi doğularkən onun alnına yazılır: yazılanı isə pozmaq olmaz, heç kəs qismətdən artıq yeyə bilməz. *“Ot kökü üstə bitər”, “Qozbeli qəbir düzəldər”* ifadələri də irsiyyətin rolunu şişirtməyə, tərbiyə və mühitin rolunu inkar etməyə yönəlmişdir.

**2. Tərbiyənin rolunu şişirdən nəzəriyyələr.** Y.A.Komenski (XVII əsr), K.A.Helvetsi (XVIII əsr) tərbiyənin roluna böyük qiymət vermişlər. Y.A.Komenskiyə görə, insan tərbiyə sayəsində insan olur. O, “hamıya hər şeyi öyrətməyin” mümkün olduğunu qeyd edirdi. Fransız materialisti K.Helvetsi də tərbiyənin rolunu şişirdirdi. O deyirdi: *“Tərbiyə hər şeyə qadirdir”*. Onun fikrincə, insanların xarakterindəki və zehni inkişafındakı fərqlər tərbiyənin nəticəsidir.

**3. Mühitin rolunu şişirdən nəzəriyyələr.** C.C.Russo “Azad və təbii tərbiyə” nəzəriyyəsi (XVIII əsr) ilə bu mövqedə durmuşdur. O, tərbiyədə insana sərbəstlik verməyi tələb edirdi, məcburiyyətin, qadağanın əleyhinə idi. Onun fikrincə, uşağın şəxsiyyətinə hörmət etmək, onun maraq və tələbatları ilə hesablaşmaq lazımdır.

**4. Mühit və tərbiyənin rolunu şişirdən nəzəriyyələr.** C.Lokk “Ağ lövhə” nəzəriyyəsi ilə (XVII əsr) məhz bu mövqedən çıxış edirdi: guya insan “ağ lövhə” kimi doğulur, yəni özü ilə heç nə gətirmir, bütün keyfiyyətləri sonradan tərbiyə və mühitin təsiri ilə qazanır. Bu nəzəriyyə şəxsiyyətin inkişafında bioloji amili inkar edirdi.

**5. İrsiyyət və tərbiyənin rolunu şişirdən nəzəriyyələr.** Fransız filosofu D.Didro (XVIII əsr), İsveçrə pedaqoqu İ.Pestalotsi (XVIII–XIX əsrlər) bu mövqedən çıxış etmişlər. İ.Pestalotsi insanın təbii qüvvələrini, yəni irsi imkanlarını mütləqləşdirməyin əleyhinə çıxırdı. Təbii imkanlar özlüyündə, tərbiyənin iştirakı olmadan inkişaf edə bilməz: özbaşına buraxılmış, kortəbii inkişaf edən insan ahəngdar şəxsiyyət kimi formalaşa bilməz, onun təbii qüvvələri lazımi dərəcədə inkişaf etməz.

**6. İrsiyyət və mühitin rolunu şişirdən nəzəriyyələr.** “İki amil” nəzəriyyəsi (XIX əsr) bu mövqedə durmuşdur: hər şey insanın irsiyyətindən və düşdüyü mühitdən asılıdır. Sonrakı dövrlərdə irəli sürülən bəzi nəzəriyyələr də “Konvergensiya” nəzəriyyəsi, “İstedadlılıq” nəzəriyyəsi irsiyyət və mühitin rolunu şişirdir, tərbiyənin rolunu inkar edir. Hətta bəziləri genlərin təsir faizini rəqəmlə göstərməyə cəhd etmişlər: guya şəxsiyyətin zehni inkişafı 80% genlərin, 20% isə mühitin təsiri ilə formalaşır. Bu nəzəriyyələr şəxsiyyətin formalaşması məsələsinə birtərəfli yanaşmış, bu prosesə təsir göstərən amillərdən ya birini, ya da ikisini qəbul edərək digərlərinin rolunu inkar etmiş

və ya məhdudlaşdırmışlar. Bu nəzəriyyələrdə habelə şəxsiyyətin özünün fəallığı qiymətləndirilməmişdir.

**7. Bioloji və sosial amilləri, eləcə də insanın şəxsi fəallığını vəhdətdə götürən nəzəriyyə.** Dialektik nəzəriyyə məhz bu mövqedə durur. Bu nəzəriyyəyə görə, şəxsiyyətin inkişafında irsiyyət amili müəyyənedici, sosial amillər isə həlledici rol oynayır. İrsiyyətin müəyyənedici rolu onunla əlaqədardır ki, irsi imkanlar tərbiyə və mühitin iştirakı olmadan öz-özünə inkişaf edib qabiliyyətlərə çevrilə bilməz. Tərbiyə və mühit insanın təbii imkanlarını üzə çıxarıb inkişaf etdirə də bilər, onların inkişafına mane də ola bilər. Buna görə də hər bir uşağın təbii imkanlarını vaxtında (kiçik yaşlardan) üzə çıxarmaq və onların inkişafı üçün əlverişli şərait yaratmaq lazımdır. Əks halda cəmiyyət bir çox istedadlardan məhrum ola bilər. İnsan şəxsiyyətinin inkişafında bioloji və sosial amillərin rolunu toxumun cücərib inkişaf etməsi ilə müqayisə etsək, irsiyyəti toxuma, mühiti onun inkişafı üçün zəruri olan münbit torpağa və iqlimə, tərbiyəni isə bağbanın işinə bənzətmək olar (“Tərbiyə” ərəbcə “bəsləmək”, “yetişdirmək” deməkdir).

Şəxsiyyət öz inkişafında müxtəlif yaş dövrlərindən keçir və hər bir dövr şəxsiyyətin inkişafına müəyyən təsir göstərir. Bu mərhələlərdən biri də məktəbəqədər yaş dövrüdür. Məktəbəqədər yaş dövrü 3 yaşdan 6 yaşa qədər olan müddəti əhatə edir. Bu dövr uşağın fiziki, sosial, emosional və intellektual inkişafında həlledici rol oynayır. Məktəbəqədər yaş uşaqlar üçün öyrənmə və idrak prosesinin təməli qoyulur və gələcək təhsil həyatına hazırlıq baş verir.

Bu yaşda uşaqlarda xarakterin bünövrəsi qoyulur. Uşağı hədsiz dərəcədə əzizlədikdə, ona daim güzəştə getdikdə, yersiz (şıltaq) tələblərini ödədikdə onda eqoizm, şıltaqlıq, kobudluq, ərköyünlük, dəcəllik baş qaldıra bilər. Bunun qarşısını almaq üçün uşağa qarşı hörmət və tələbkarlığı uzlaşdırmaq lazımdır.

3 yaşda uşaqlarla böyüklərin münasibətlərində müəyyən çətinliklər yaranır: uşaq müstəqilliyə can atır, hər şeyi özü sərbəst etmək istəyir (“Mən özüm”), valideynlər isə onun müstəqilliyini məhdudlaşdırır, çox şeyi qadağan edirlər. Uşaq tərslik edir, hər şeyi tərsinə etməyə çalışır. Bununla da o, böyüklərin tələblərinə öz neqativ münasibətini bildirir. Psixoloqlar bunu “3 yaşın böhranı” adlandırırlar. Valideynlər uşağa müəyyən sərbəstlik verməli, onu müxtəlif növ oyunlara cəlb etməli, onunla birlikdə oynamağa çalışmalıdırlar.

Bu dövr uşaqların əsas fəaliyyət növü oyundur. Oyun uşaqlar üçün təkcə əyləncə vasitəsi deyil, həm də inkişaf və öyrənmə metodudur. Oyunlar vasitəsilə uşaqlar həm bilik əldə edir, həm də fiziki və psixoloji baxımdan möhkəmlənirlər. Müəllimlər və valideynlər uşaqlara müxtəlif oyun imkanları yaradaraq onların hərtərəfli inkişafını dəstəkləməlidirlər. Rollu, didaktik,

hərəkətli, konstruktiv, sensor oyun növlərinin düzgün təşkil olunması mühüm əhəmiyyət kəsb edir.

Bu zaman valideynlər və müəllimlər qarşısında olan əsas vəzifələrdən biri cəmiyyətə yararlı vətəndaş, yüksək mənəviyyatlı şəxsiyyət yetişdirməkdir. Bunun üçün uşaqların düzgün tərbiyə olunması, düzgün istiqamətləndirilməsi vacibdir. Bəs bunun üçün nə etmək lazımdır?

Hər kəsə bəllidir ki, qədim soy-kökə malik Azərbaycan xalqının ən yüksək etnik dəyərlərindən birincisi ailədir. Ailə mənşəyi etibarilə siniflərdən, millətlərdən və dövlətlərdən daha erkən hələ ibtidai dövrlərdə meydana gələn və insana həyat, düşüncə və dəyərlər haqqında təməl biliklər verən mirkromühitdir [1, səh. 7]. Bu mikromühit ərlə arvadın ittifaqından başlasa da, onun əsasını, məzmununu övladlar və onların tərbiyəsi təşkil edir. Bir-birini sevən iki adamın qovuşması böyük xoşbəxtlikdir, lakin bu hələ tam ailə demək deyil. Tam ailə övladlar dünyaya gəldikdən sonra yaranır. Ailənin ən başlıca funksiyası cəmiyyət üçün yararlı vətəndaş yetişdirməkdən ibarətdir. Çünki ailə insanlara nəinki ailənin üzvü olmağa kömək edir, o eyni zamanda uşağı onu əhatə edən cəmiyyət, ətraf-mühit və onun mahiyyəti ilə tanış edir. Ailədə sağlam və sevgi dolu bir mühit yaradıldıqda, uşaq cəmiyyətə uyğunlaşmış, əxlaqlı və uğurlu bir fərd kimi yetişir.

*"Bir uşağın təlim-tərbiyəsi onun doğumundan öncə, valideynlərinin təlim-tərbiyəsi ilə başlayar" (Bolqar filosofu Omraam Mikhael Aivanhov)* Bu fikir əsasında qeyd edə bilərik ki, cəmiyyətin düzgün təməlli vətəndaşlarının olması üçün ailələrin önəmi böyükdür. Ailə uşağın ilk tərbiyə ocağıdır. Valideynlər öz davranışları ilə uşağa nümunə olurlar. Ailədə verilən tərbiyə uşağın gələcəkdə necə bir insan olmasını müəyyənləşdirir. Xüsusi ilə körpəlik yaş dövründən başlayaraq uşağın yeni bir mühitə - təlim-tərbiyə mühitinə qoşulmasına qədər ki mərhələdən öncə ailədə verilən tərbiyə, aşılanan davranış mühüm əhəmiyyət kəsb edir. Valideynlərin övladlarına münasibəti dörd qrupda əks olunur:

**1. Demokratik ailə münasibəti** onlar övladlarını sevib qucaqlayan, münasibətləri sevgi və hörmət üzərində qurulan, problemləri danışaraq, məsləhətləşərək həll edən valideynlərdir. Bu münasibətlə valideynlər övladlarına qarşı tolerantlıq nümayiş etdirirlər, övladlarına dəstək olurlar, istəklərini istədikləri kimi həyata keçirmələrinə şərait yaradırlar. Ailədə müəyyən qaydalar var. Lakin bu qaydaları döyməklə, təzyiqlə və ya hədə qorxu ilə saxlamaq olmaz, könüllü olaraq qəbul edilməlidir. Məqsəd uşağı qorxutmaq deyil, ona məsuliyyət hissi aşılamaqdır. Demokratik ailə mühitində böyüyən uşaqlar sahibkarlıq qabiliyyətinə malikdirlər. Özünə güvənməyi, təkbaşına qərar qəbul etməyi və məsuliyyətli olmağı öyrənirlər. O, özünü idarə edə bilən, daxili nəzarəti olan bir insana çevrilir.

**2. Həddən artıq qoruyucu münasibət** uşağa böyük məhəbbətlə bağlanan və çox qoruyucu olan valideynlər lazım olandan çox nəzarət edərək həddindən artıq qayğı göstərirlər. Uşaq nə istəyirsə, valideynlər tərəfindən yerinə yetirilir. Qoruyucu dozanı aşan ailələrdə böyüyən uşaqlar asılı, etibarsız və emosional problemlər yaşaya bilərlər. Həddindən artıq qoruyucu yanaşma uşağın özünü idarə edən insan olmasına mane olur. Uşağın müstəqil şəxsiyyət kimi formalaşması üçün valideynlər əlverişli şərait yaratmağı (uşağa öz işlərini görmək və öz qərarlarını vermək imkanı) bacarmalıdırlar.

**3. Həddən artıq avtoritar valideynlik münasibəti** uşağı daim nəzarətdə saxlayan və qaydalara ciddi əməl etmələrini gözləyən valideynlərin münasibətidir. Bu cür ailələrdə uşaq ciddi nəzarət və təzyiq altındadır. Uşaq qaydalara ciddi əməl etməlidir. Əks halda ağır cəzalar veriləcək. Döymək, danlamaq, qışqırmaq, qorxutmaq, qınamaq və utandırmaq ən çox yayılmış cəza növləridir. Bu cür cəza və təzyiqlər uşağı özünə qapanmış, inanmsız, kinli və aqressiv edə bilər. Avtoritar ailə mühitində böyüyən uşaqlarda daxili münaqişələr və nevrotik problemlər daha çox müşahidə olunur. Bununla yanaşı, bu ailələrdə tez-tez istifadə edilən cəza və təzyiqlər uşağın psixi vəziyyətində dərin və sağalmaz yaralar buraxa bilər.

**4. Biganə valideynlik münasibəti** bu münasibət uşağa qarşı laqeyd, uşağın maddi və mənəvi ehtiyaclarına həssas olmayan, sevgi və məhəbbəti yetərincə olmayan, nəzarəti zəif olan valideyn münasibətir. Belə ailələrdə nizam-intizam demək olar ki, yoxdur. Uşaqları idarə edən də yoxdur. Onların davranışları məhdudlaşdırılmır. Uşaqlar özbaşına buraxılırlar. Biganə və laqeyd valideynlər uşağı tək qoyur, ehtiyaclarına məhəl qoymurlar. Uşaqla valideyn arasında ünsiyyət pozulur, uşaq valideyn qayğısından məhrum şəkildə böyüyür. Valideynlərin laqeyd münasibəti uşaqlarda inciklik, düşmənçilik və narahatlıq hissi yaradır, nəticədə onlar davakar, üsyankar, aqressiv və cinayət törətməyə meyilli ola bilərlər.

Ailə və məktəbəqədər təhsil müəssisələri uşağın şəxsiyyət kimi formalaşması üçün birlikdə işləməlidirlər. Valideynlər və müəllimlər arasında müntəzəm ünsiyyətin olması uşağın təlim və tərbiyə prosesinin vahid sistem halında təşkil edilməsinə kömək edir. Valideynlər uşaqlarla keçirilən bütün kütləvi tədbirlərdə, təlimdə, problemlərin həllində iştirak etməyə cəlb edilirlər. Valideynlər müəllimlərlə birlikdə uşağın inkişafının stimullaşdırılmasında fəal iştirak edir, səy göstərirlər.

Bunun üçün, ilk növbədə, qruplarda mənimsənilən bilik və bacarıqlar ailədə möhkəmləndirilir. Bu formada qarşılıqlı əməkdaşlıq uşağın əqli fəaliyyətinin zənginləşməsinə, özünəinamın yaranmasına, nəticə etibarilə, məktəb həyatına daha rahat uyğunlaşma dövrünü keçməyə kömək edir.

Valideynlər uşaqların təlim fəaliyyətində iştirak etdikləri təqdirdə onların təlim nailiyyətləri yüksəlir. Belə bir əməkdaşlıq şəraitində valideynlər

aşağıdakı məsələlərlə tanış olmalıdırlar: uşaqların yaş xüsusiyyətləri, təlim-tərbiyə işinin əhəmiyyəti, uşaqların fəaliyyətlərini stimullaşdıran öyrədici mühitin vacibliyi, fiziki, emosional müdafiənin təmin edilməsi, mühitin təhlükəsizliyinin zəruriliyi, uşaqların fəallığı.

Valideynlər bilməlidir ki, uşaq öz xüsusi baxışları və düşüncələri ilə inkişaf edən şəxsiyyətdir, o da qəbul olunmağı və arzularına hörmətlə yanaşılmağını istəyir. Uşaqlara qayğı göstərmək və heç zaman sevginizi onlardan əsirgəməyəcəyinizi bilmək, balacaları xoşbəxt edir. Onların həyatında böyüklərin fəal iştirak etməyi heç də onun işinə qarışmaq və ona nəzarət etmək deyil. Bu, hər şeydən əvvəl uşağın daxili aləminə, onun inkişaf xüsusiyyətlərinə fikir vermək, ona diqqətlə qulaq asmaq, onun inkişafını dəstəkləmək deməkdir. İstənilən uşaq ağıllı və ya zəif düşüncəli, hərəkətli və ya astagəl, güclü və ya zəif, hörmət və məhəbbətə layiqdir. Onun dəyəri uşaq olmağındadır və onun öz qüruru var, sadəcə olaraq onu görməyi bacarmaq lazımdır. Tərbiyənin keyfiyyəti insanın həyatında mühüm rol oynayır. Düzgün tərbiyə insanı uğura aparır, səhv tərbiyə isə mənfi nəticələr doğura bilər. Yaxşı tərbiyə bizə : yaxşı insan münasibətləri, uğurlu karyera və sosial həyat, yüksək əxlaqi dəyərlər vəd edir. Səhv tərbiyə görmüş insanlar cəmiyyət üçün problem yarada bilər. Buna görə də, hər bir insanın düzgün tərbiyə alması və şəxsiyyət məsuliyyətini dərk etməsi vacibdir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi və Sosial Tədqiqatlar Mərkəzi. "Azərbaycanda mövcud ailə münasibətləri mövzusunun təhlili", Bakı – 2021.*
2. *Əlizadə Ə.Ə. Pedaqoji psixologiya. II kitab.- B.: ADPU – 2010, 288 s.*
3. *Əzimli Q.E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. B.: Nurlan 2008, 526 s.*
4. *Məktəbəqədər Təhsil proqramı (kurikulum) Bakı – 2022.*
5. *Abbasov. A. Milli əxlaq və ailə etikası. Bakı – 2008.*
6. *Abbasov. A. Pedaqogika. Bakı – 2010.*

**Fərəczadə A.V.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***frczada@gmail.com***

# ADLARIN TƏDRİSİ ZAMANI QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏRİN HƏLLİ

***Xülasə***

*Bu məqalədə morfologiya təlimi zamanı adların tədrisində qarşıya çıxan çətinliklərin səbəbləri, onların aradan qaldırılması istiqamətində tətbiq edilə biləcək metod və didaktik yanaşmalar araşdırılır. Azərbaycan dili dərslərində adlar nitq hissələri içərisində xüsusi yer tutur və şagirdlərin leksik-qrammatik biliyinin formalaşmasında əsas baza funksiyasını daşıyır. Lakin praktiki müşahidələr göstərir ki, adların məna növlərinin, qrammatik kateqoriyalarının, cəmlənmə və hal şəkilçilərinin, həmçinin mənsubiyyət formalarının mənimsənilməsi şagirdlər üçün bəzən çətinlik yaradır. Bu problemlər əsasən dil qaydalarının mexaniki əzbərlənməsi, tədris prosesinin müasir üsullarla aparılmaması, nümunələrin kontekstdən uzaqlığı, şagirdlərin analitik düşünmə və dil hissələrinin zəifləməsi ilə bağlıdır.*

# РЕШЕНИЕ ТРУДНОСТЕЙ, ВОЗНИКАЮЩИХ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ИМЁН СУЩЕСТВИТЕЛЬНЫХ

***Резюме***

*В данной статье рассматриваются причины трудностей, возникающих при обучении существительным на уроках морфологии, а также методы и дидактические приёмы, которые могут быть применены для их устранения. На уроках азербайджанского языка существительные занимают особое место среди частей речи и играют важнейшую роль в формировании лексико-грамматических знаний учащихся. Однако практические наблюдения показывают, что усвоение типов значений существительных, грамматических категорий, суффиксов винительного и падежного падежей, а также форм принадлежности иногда создаёт трудности для учащихся. Эти проблемы связаны, главным образом, с механическим запоминанием языковых правил, отсутствием современных методов обучения, отсутствием контекста для примеров, а также ослаблением аналитического мышления и языковых навыков учащихся.*

# ADDRESSİNG DİFFİCULTİES ENCOUNTERED İN TEACHİNG NOUNS

***Summary***

*This article examines the causes of difficulties encountered in teaching nouns during morphology training, and the methods and didactic approaches that can be applied to eliminate them. In Azerbaijani language lessons, nouns occupy a special place among parts of speech and play a basic role in the formation of students' lexical and grammatical knowledge. However, practical observations show that the*

*assimilation of noun meaning types, grammatical categories, accusative and case suffixes, as well as forms of belonging sometimes creates difficulties for students. These problems are mainly related to the mechanical memorization of language rules, the lack of modern methods in the teaching process, the lack of context for examples, and the weakening of students' analytical thinking and language skills.*

***Açar sözlər:*** *morfologiya, adlar, qrammatik kateqoriyalar, tədris, metod*
***Ключевые слова:*** *морфология, имена существительные, грамматические категории, обучение, метод*
***Key words:*** *morphology, nouns, grammatical categories, teaching, method*

Azərbaycan dili tədrisinin əsas məqsədlərindən biri şagirdlərdə ana dilinin strukturunu, sistemini və qanunauyğunluqlarını dərindən mənimsətməkdir. Bu məqsədin reallaşmasında dilçilik elminin mühüm bir sahəsi olan morfologiya – yəni sözlərin quruluşu, yaranması və qrammatik kateqoriyalar üzrə təsnifi haqqında biliklər xüsusi əhəmiyyət daşıyır. Morfologiya təlimi şagirdlərə dilin daxili quruluş mexanizmini anlamaq, söz yaradıcılığı və nitqdə düzgün ifadə bacarıqları qazanmaq üçün əsas zəmin yaradır.

Azərbaycan dili dərslərində morfologiyanın öyrədilməsi, təkcə qrammatik qaydaların mənimsədilməsi ilə məhdudlaşmır. Bu təlim, həm də şagirdin analitik düşünmə qabiliyyətini inkişaf etdirir, dilin quruluşuna yaradıcı yanaşma, yeni söz formalarının yaranma yollarını dərk etmə və sözlərin semantik münasibətlərini anlama bacarığını formalaşdırır. Müasir tədris metodikası morfologiyanın öyrədilməsində interaktiv, yaradıcı və praktik fəaliyyətlərə əsaslanmağı, bu biliklərin yazılı və şifahi nitqdə tətbiqinə xüsusi önəm verməyi tələb edir.

Eyni zamanda, Azərbaycan dili dərslərində morfologiya təlimi dilin digər səviyyələri – leksikologiya, sintaksis, fonetika ilə sıx əlaqədə həyata keçirilir. Bu qarşılıqlı əlaqə dilin bütöv sistem kimi qavranılmasına, şagirdlərin dil bacarıqlarının kompleks şəkildə inkişafına xidmət edir. Morfologiyanın düzgün və məqsədyönlü tədrisi həm dilin qrammatik quruluşunun mənimsənilməsinə, həm də ədəbi norma və yazı mədəniyyətinin formalaşmasına mühüm təsir göstərir.

Bu baxımdan, morfologiya təliminin Azərbaycan dili dərslərində yeri və rolu pedaqoji-metodoloji baxımdan geniş tədqiq edilməli, onun tədris prosesində tətbiqi üsulları və nəticəliliyi müxtəlif səviyyələrdə araşdırılmalıdır.

Azərbaycan dili təlimi sistemində morfologiya bölməsi şagirdlərin dil quruluşunu mənimsəməsi, qrammatik kateqoriyaları dərk etməsi və nitq bacarıqlarının formalaşması baxımından mühüm yer tutur. Nitqin əsas hissələrindən biri olan adlar leksik-sistematik xüsusiyyətlərinə, çoxşaxəli qrammatik kateqoriyalarına və funksional əhəmiyyətinə görə morfologiya kursunda əsas mövzulardan biri sayılır [2, s.113].

Dilçilik tədqiqatları göstərir ki, adların semantik qrupları, formal quruluşu, şəkilçilərlə əlaqəsi və sintaktik funksiyaları şagirdlər tərəfindən dərindən mənimsənilmədikdə, onların yazı və şifahi nitqlərində ciddi qrammatik və üslubi səhvlər meydana çıxır. Buna görə də adların tədrisi yalnız qaydaların əzbərlədilməsi ilə məhdudlaşmamalı, onun praktiki nitq fəaliyyətində tətbiq imkanları da şagirdə aşılanmalıdır.

Müasir tədris prosesində müşahidə edilən çətinliklər, xüsusilə adların hal kateqoriyalarının differensiasiyası, cəm formalarının tətbiqi, mənsubiyyət şəkilçilərinin müxtəlif şəxs və say vəziyyətində işlənməsi, həmçinin aidlik münasibətlərinin izahı zamanı özünü göstərir [4, s.75]. Bu çətinliklərin əsas səbəbləri kimi dərslik materiallarının bəzən şablon xarakterli olması, nümunələrin həyatla əlaqəsinin yetərincə qurulmaması, məlumatın vizual təqdimat çatışmazlığı, müəllim tərəfindən tətbiq olunan ənənəvi metodların şagirdlərin idrak marağını tam təmin etməməsi göstərilə bilər. Şagirdlər adların funksional məzmununu yalnız təcrübə və kontekst daxilində mənimsəyə bildikləri üçün tədris prosesində interaktiv yanaşmaların tətbiqi xüsusi aktuallıq kəsb edir.

Eyni zamanda, müasir pedaqoji yanaşmaların – fərdiləşdirilmiş təlim, kooperativ öyrənmə, layihə və tədqiqat əsasında tədris metodlarının tətbiqi adların mənimsənilməsində effektivlik nümayiş etdirir. Tədris prosesində informasiya-kommunikasiya texnologiyalarından istifadə, sxem, cədvəl və diaqramların verilməsi şagirdlərin abstrakt qrammatik anlayışları daha rahat qavramasına kömək edir. Bundan əlavə, dili tədris edən müəllimin dilçilik bilikləri ilə yanaşı, psixoloji və metodik hazırlığı da mövzu üzrə çətinliklərin aradan qaldırılmasında mühüm rol oynayır.

Beləliklə, mövzunun aktuallığı ondan ibarətdir ki, müasir məktəb mühitində morfologiya təliminin keyfiyyəti bilavasitə adların qrammatik xüsusiyyətlərinin düzgün mənimsədilməsindən asılıdır. Adların tədrisində qarşıya çıxan çətinliklərin araşdırılması və onların həllinə yönəlmiş metodik əsasların hazırlanması həm şagirdlərin dil bacarıqlarının inkişafını təmin edir, həm də Azərbaycan dili tədrisinin ümumi səmərəliliyini yüksəldir. Bu baxımdan mövzunun elmi-metodik təhlili pedaqoji proses üçün vacib və perspektiv istiqamət kimi qiymətləndirilir.

Morfologiya təlimi zamanı adların tədrisində qarşıya çıxan çətinliklər əsasən məzmun, metod və koqnitiv faktorlarla bağlıdır. Məzmun baxımından adların semantik qruplarının çoxluğu, qrammatik kateqoriyalarının zənginliyi, hal, mənsubiyyət və cəm formaları kimi dillə bağlı abstrakt anlayışlar şagirdlər tərəfindən çətin qavranılır [5, s.115]. Çünki bu kateqoriyalar yalnız nəzəri məlumat kimi deyil, eyni zamanda nitqin praktik tətbiqi vasitəsilə mənimsənildikdə səmərə verir. Müəllimlər bəzən nəzəri məzmunu çox yükləmək və konkret nümunələrdən uzaqlaşmaqla şagirdlərdə motivasiya

azalmasına səbəb olurlar. Bu isə adların funksional mahiyyətinin anlaşılmasını çətinləşdirir.

Metodik planda qarşıya çıxan əsas problemlərdən biri ənənəvi izah–sual metodunun dominantlığıdır. Bu üsul şagirdi passiv dinləyici mövqeyinə salır, yaradıcı düşünmə, müqayisə və analiz qabiliyyətlərini məhdudlaşdırır [3, s.82]. Halbuki adların qrammatik xüsusiyyətləri daha çox interaktiv tədbiq, qruplarla iş, praktik tapşırıqlar və tətbiqi misallar vasitəsilə mənimsənilməlidir.

Yuxarıda qeyd etdiyimiz metodlar müasir təhsilin tələblərinə cavab verməklə yanaşı, şagirdlərin maraq dairəsinə uyğun formada təşkil olunduqda onların mövzunu ətraflı və dərindən öyrənməsinə kömək edir.

Müasir təcrübə göstərir ki, adların cəmlənmə formaları, hal şəkilçilərinin müxtəlif kontekstlərdə işlədilməsi, mənsubiyyət kateqoriyasının şəxslər üzrə dəyişməsi ilə bağlı oyun xarakterli tapşırıqlar, qısa mətn üzərində iş metodları şagirdlərin qavrayışını xeyli asanlaşdırır.

Heç şübhəsizdir ki, oyun xarakterli tapşırıqların hazırlanması V–VII sinif şagirdləri üçün daha əlverişli üsuldur. Müəllim tərəfindən qabaqcadan hazırlanmış oyun xarakterli tapşırıqlar yaxşı olar ki, şagirdlərin maraq dairəsinə, yaş səviyyəsinə uyğun olaraq seçilsin. Belə olduqda qarşıda qoyulan məqsədə daha rahat çatmaq mümkündür.

Bu təlimdə koqnitiv amillər də mühüm rol oynayır. Şagirdlərin yaş xüsusiyyətlərinə görə abstrakt qrammatik anlayışları dərk imkanları fərqli olur. Xüsusilə ibtidai və orta sinif mərhələsində qrammatik kateqoriyalar konkret nümunəsiz çətin qəbul edilir. Buna görə müəllim dil vahidlərini vizual sxemlərlə göstərməli, hər kateqoriyanın funksiyasını müqayisəli şəkildə izah etməlidir.

Yaxşı olar ki, bu məqamda müəllim müasir texnologiya vasitələrindən istifadə etdin. İnformasiya texnologiyalarının tətbiqi – təqdimat, animasiya, diaqramlar – şagirdlərin yaddaşında qalıcılığı artırır və qavrayış prosesini sürətləndirir.

Bununla yanaşı, müəllimlərin metodik hazırlığının gücləndirilməsi də əsas şərtdir. Adların tədrisində çətinliklərin yaranma səbəbi təkcə şagirdlərlə bağlı deyil, həm də müəllimin tətbiq etdiyi yanaşmaların keyfiyyətindən asılıdır.

Elmi-metodik kursların təşkili, təcrübə mübadiləsi, müasir dərs modellərinin öyrənilməsi prosesin effektivliyinə müsbət təsir edir. Metodik vəsaitlərdə verilən tapşırıqların şagird fəaliyyətinə uyğunlaşdırılması, dil faktlarının həyati kontekstlə əlaqələndirilməsi, praktik yazı və danışıq bacarıqlarının inkişafına yönəlmiş fəaliyyəti gücləndirir.

Praktik yazının adların tədrisindəki rolu xüsusilə vurğulanmalıdır. Belə ki, praktik yazılar vasitəsi ilə şagirdlər əldə etdikləri bilikləri təqdim etməklə

yanaşı, burada üzə çıxan səhvlər isə müəllimlərə hansı istiqamətdə çalışmalar aparılmasının vacibliyini gösmətərmiş olur.

Beləliklə, adların tədrisi morfologiya təliminin kompleks sahəsidir və yalnız bir metodla deyil, fərqli yanaşmaların inteqrasiyası ilə yüksək nəticə əldə etmək mümkündür. Adların mənimsənilməsi şagirdin ümumi nitq mədəniyyətinin formalaşmasına, fikir ifadə qabiliyyətinin inkişafına və yazılı nitq bacarıqlarının mükəmməlləşməsinə mühüm təsir göstərir.

Aparılmış təhlil göstərir ki, morfologiya təlimi zamanı adların tədrisində yaranan çətinliklərin aradan qaldırılması kompleks yanaşma tələb edir.

Birincisi, dərs prosesində şagirdi fəallaşdıran interaktiv metodların tətbiqi gücləndirilməlidir. Bu ən əsas və əhəmiyyətli mərhələlərdən biridir desək, yanılmarıq. İnteraktiv metodların tədbiq edilməsi, müasir təhsil sistemimizdə arzuolunan adımmlardan biridir. Qrup işi, layihə əsasında öyrənmə, oyun metodları adların qrammatik xüsusiyyətlərinin şagird yaddaşında möhkəmlənməsinə şərait yaradır.

İkincisi, dərs materialları həyat nümunələri və kontekst əsaslı mətnlərlə zənginləşdirilməli, şagirdin dil faktını praktiki olaraq tətbiq etməsi üçün şərait yaradılmalıdır.

Kommunikativ təlim yanaşması dedikdə şagirdlərə rol oyunları, dialoqlar və məzmunlu danışıq tapşırıqları verilməlidir [1, s.57]. Məsələn, “dostum haqqında danış” tapşırığı zamanı şagirdlər həm şəxs adlarını, həm də isim kateqoriyasının müxtəlif hallanma formalarını təbii şəkildə işlətməyə təşviq olunur. Bu da heç şübhəsiz ki, şagirdlərin nitq qabiliyyətini yaxşılaşdırmaqla yanaşı, dil faktlarını daha dərindən mənimsəməyə kömək edəcəkdir.

Əlaqələndirilmiş tədris heç şübhəsiz ki, mövzunun yaxşı və dərindən mənimsənilməsində əsaslı rol oynayan vasitələrdən biridir. Adların tədrisində leksikologiya və sintaksis bölmələri ilə əlaqə yaradılmalıdır. Məsələn, adların cümlədəki funksiyasını müəyyənləşdirmək, eyni zamanda söz birləşməsindəki yerini göstərmək şagirdin dil faktını sistemli anlamasına kömək edir. Belə olduqda şagird keçmiş bilikləri təkrarlamaqla yanaşı, yeni öyrəndiyi dil qaydasını əlaqəli şəkildə öyrənməklə daha yaxşı mənimsəmiş olur.

Dil faktlarının müşahidəsi və tədbiqi zamanı şagirdlərə müxtəlif mətnlərdəki adları tapmaq, qrammatik xüsusiyyətlərinə görə qruplaşdırmaq tapşırığı verilə bilər. Ardınca həmin sözləri öz yazılarında işlətmək istənilir. Bu zaman onlar dil faktını yalnız nəzəri olaraq deyil, praktik istifadədə dərk edirlər.

Problemyönlü öyrənmə dedikdə müəllim bəzən şagird qarşısında qrammatik “müəmmalar” qoymalıdır. Məsələn: *“Niyə “çörək” sözü təklikdə*

*başqa, çoxluqda "çörəklər" şəklində fərqli məna yaradır?"* Bu tip suallar şagirdin düşünərək qaydanı kəşf etməsinə şərait yaradır.

Mətn yaradıcılığı və yaradıcı yazı adların tədrisi zamanı şagirdlərdən qısa hekayə, məktub, təsvir kimi işlər istənilə bilər. Onlar mətn yaratmaq prosesində isimlərin müxtəlif formalarda işlənməsini praktiki şəkildə mənimsəyirlər.

Üçüncüsü, vizual təlim vasitələrinin istifadəsi – cədvəllər, sxemlər, qrafik təsvirlər – abstrakt kateqoriyaların qavrayışını asanlaşdırır. Çağdaş təhsilin aktual məsələlərindən biri də təlimdə vizual vasitələrin istifadəsinə yer verilməsidir. Lakin qabaqcıl müəllim bir mənalı şəkildə bilməlidir ki, nə zaman vizual təlimə yer vermək təlimin məqsəd və vəzifələrinə uyğun olacaqdır. Adların təlimində vizual təlim vasitələrinin istifadə edilməsi olduqca müsbət nəticələr verə bilər. Belə ki, bu şagirdlərin marağını çəkməklə yanaşı onların mövzunu daha dərindən qavramasına kömək olacaqdır. Vizual təlim vasitələrinin istifadəsi göz yaddaşının da iştirak etməsinə imkan yaradır. Belə olduqda şagird gördüklərini daha yaxşı yadda saxlaya bilir.

Dördüncüsü, müəllimlərin metodik hazırlığı gücləndirilməli, bu istiqamətdə treninqlər təşkil olunmalıdır. Müəllimlərin mütəmadi olaraq treninq, seminar və konfranslarda iştirak etməsi olduqca müsbət haldır [1, s.211]. Bildiyimiz kimi, müasir dünya hər keçən gün inkişaf etməkdədir. Bu heç şübhəsiz ki, təhsil sahəsinə də təsirsiz ötüşmür. Müəllimlərin çağdaş təhsil sisteminin tələblərinə cavab verən treninq və seminarlarda iştirak etməsi şübhəsiz ki, adların tədris prosesinə də müsbət təsir göstərəcəkdir.

Beşinci mühüm faktor kimi şagirdlərin fərdi meyl və bacarıqlarının nəzərə alınması göstərilir. Təbii ki, hər bir şagirdə fərdi yanaşmaq, onun bacarıq və qabiliyyətini, yaş və anlaq səviyyəsini aşkarlamaq qabaqcıl müəllimlərin əsas vəzifələrindən biri olmalıdır desək, yanılmarıq.

Qeyd etdiyimiz bu məqam xüsusilə V–VIII siniflərdə müəllimlərin diqqət mərkəzində olmalıdır. Nəzərə alsaq ki, bu yaş dövrü şagirdlərin maraq dairələrinin, düşüncələrinin formalaşdığı və təkminləşdiyi bir dövürdür. Bu zaman müəllimlərdən iki qat daha diqqətli olmaq bütün şagirdlərə fərdi yanaşaraq onların maraqlarına və xüsusiyyətlərinə uyğun metodlara müraciət etmək tələb olunur. Təbii ki, bu zaman fərqləndirilmiş təlim üsulu zəif və güclü şagirdlərlə balanslı işi təmin edir.

Sonuncu təklif olaraq adların cümlədəki sintaktik funksiyalarının tədrisinə daha çox diqqət ayrılması qeyd edilə bilər. Bu olduqca əhəmmiyyətli nüanslardan biridir desək, yanılmarıq. Belə ki, şagirdin adları dərindən mənimsədiyini göstərən əsas amillərdən biri də onları cümlədə düzgün yerində işlətmək və sintaktik funksiyalarını dərindən qavramaqdır. Bunun üçün də müəllimlər bu istiqamətdə çoxsaylı çalışma və tapşırıqlardan istifadə etməlidir. Bu, şagirdlərin dil hissini inkişaf etdirir və nitq mədəniyyətini formalaşdırır.

Nəticə etibarilə, adların tədrisində yaranan çətinliklərin aradan qaldırılması morfologiya təliminin səmərəliliyini artırır, şagirdlərin qrammatik bacarıqlarını möhkəmləndirir və onların ümumi dil kompetensiyalarının formalaşmasında mühüm rol oynayır. Təkliflərin ardıcıl və sistemli şəkildə tətbiqi Azərbaycan dili təliminin keyfiyyətini yüksəltmək üçün perspektiv imkanlar açır.

Daha dəqiq desək, tədqiqatımızda yer alan metod və üsullar adların təlimi zamanı meydana çıxan çətinliklərin həllində əsaslı rol oynayır. Qeyd etdiyimiz məqamlara uyğun formada üsulların düzgün tədbiq edilməsi heç şübhəsiz, morfologiya təliminin uğurla başa çatdırılmasına kömək olacaqdır.

Beləliklə, adların tədrisində qarşıya çıxan çətinliklərin elmi-metodik həlli morfologiyanın ümumi tədris keyfiyyətini yüksəldir, şagirdlərin dil biliklərini sistemləşdirir və dilin ünsiyyət vasitəsi kimi səmərəli mənimsənilməsini təmin edir.

Bununla da bir daha qeyd etməliyik ki, morfologiya təlimində adların tədrisi zamanı qarşıya çıxan çətinliklər nəzərə alınmalı, müəllimlər bu çətinlikləri öncədən dəqiqləşdirərək onların həll yollarını müəyyənləşdirməlidir.

Adların tədrisi zamanı qarşıya çıxan çətinliklərin tədqiqinə yer verdiyimiz məqaləmiz müəllimlərə bu istiqamətdə müəyyən qədər yol göstərəcək, problemin həlli yollarında istiqamətverici rol oynayacaqdır.

Məqaləmizdə göstərilir ki, bu çətinliklərin aradan qaldırılması üçün interaktiv təlim metodları, müqayisəli analiz texnikaları, qrafik sxemlər, fərdiləşdirilmiş tapşırıqlar və oyun elementlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir.

İnformasiya texnologiyalarından istifadə, multimedia vasitələri ilə mövzuların vizuallaşdırılması şagirdin yaddaşını gücləndirir, dərsin motivasiya səviyyəsini artırır. Bundan əlavə, müasir didaktik yanaşmalar şagirdlərin nitq bacarıqlarını aktivləşdirir və adların cümlədəki funksional rolunu daha aydın qavramağa imkan yaradır.

***Ədəbiyyat***

1. *Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Maarif, 1988, 285 s.*
2. *Həsənzadə N. Abbasov Ə. Azərbaycan dili və nitq mədəniyyəti, Bakı – 2016, 262 s.*
3. *Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı, Şərq-Qərb, 2007, 280 s.*
4. *Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə. Bakı–2000, 280 s.*
5. *Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, Nurlan, 2010, 400 s.*

**Gözəlova G.A.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulnargozelova22@gmail.com***

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ HƏNDƏSİ ANLAYIŞLARIN FORMALAŞMASINDA MÜASİR TƏLİM METODLARININ ROLU

***Xülasə***

*İbtidai siniflərdə, xüsusilə 1–2-ci sinif mərhələsində həndəsi anlayışların formalaşdırılması riyaziyyat tədrisinin prioritet istiqamətlərindən hesab olunur. Bu mərhələdə uşaqlarda yalnız fiqurların adlarının deyil, onların xüsusiyyətlərinin, oxşar və fərqli cəhətlərinin dərk edilməsi məqsədyönlü şəkildə təşkil edilməlidir. Araşdırmalar göstərir ki, ənənəvi – izahyönümlü dərs modeli bu yaş qrupunda uzunmüddətli təsir yaratmır. Buna görə də müasir interaktiv metodlardan — beyin həmləsi, akvarium, anlayışın çıxarılması, kublaşdırma və Venn diaqramı kimi üsullardan istifadə həndəsi anlayışların mənimsənilməsini xeyli sürətləndirir. Bu metodlar şagirdi passiv dinləyicidən aktiv öyrənənə çevirir, müşahidə, müqayisə, məntiqi nəticə çıxarma, sözlə ifadəetmə və qrupda əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Fiqurların əyani materiallar və həyati nümunələrlə əlaqələndirilərək təqdim edilməsi həm vizual, həm də toxunma yaddaşını gücləndirir.Müasir təlim metodları ibtidai pillədə həndəsə təliminin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir və gələcək riyazi hazırlıq üçün möhkəm baza formalaşdırır.*

# РОЛЬ СОВРЕМЕННЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В ФОРМИРОВАНИИ ГЕОМЕТРИЧЕСКИХ ПОНЯТИЙ У УЧЕНИКОВ НАЧАЛЬНЫХ КЛАССОВ

***Резюме***

*В начальных классах, особенно на этапе 1–2-х классов, формирование геометрических представлений считается одним из приоритетных направлений преподавания математики. На данном этапе обучение должно быть направлено не только на запоминание названий фигур, но и на осмысление их свойств, сходств и различий. Исследования показывают, что традиционная объяснительно-ориентированная модель урока не производит длительного эффекта в этой возрастной группе. Поэтому использование современных интерактивных методов — таких как мозговой штурм, аквариум, выведение понятия, кубирование и диаграмма Венна — значительно ускоряет усвоение геометрических представлений. Эти методы превращают ученика из пассивного слушателя в активного участника обучения, развивая навыки наблюдения, сравнения, логического вывода, вербального выражения и сотрудничества в группе. Представление фигур с опорой на наглядные материалы и жизненные примеры усиливает как визуальную, так и тактильную память. Современные методы обучения существенно повышают*

*качество геометрической подготовки на начальном этапе и формируют прочную основу для дальнейшего математического образования.*

# THE ROLE OF MODERN TEACHING METHODS IN THE FORMATION OF GEOMETRIC CONCEPTS IN PRIMARY STUDENTS

***Summary***

*In primary school, especially at the 1st–2nd grade stage, the formation of geometric concepts is considered one of the priority directions of mathematics education. At this stage, instruction should be aimed not only at learning the names of shapes but also at understanding their properties, similarities, and differences. Studies show that the traditional explanation-based lesson model does not have a long-term effect in this age group. Therefore, the use of modern interactive methods — such as brainstorming, aquarium discussion, concept extraction, cubing, and Venn diagrams — significantly accelerates the acquisition of geometric concepts. These methods transform the student from a passive listener into an active learner, developing observation, comparison, logical reasoning, verbal expression, and group collaboration skills. Presenting shapes through visual materials and real-life examples reinforces both visual and tactile memory. Modern teaching methods substantially improve the quality of geometry instruction in the primary grades and lay a solid foundation for future mathematical preparation.*

***Açar sözlər:*** *həndəsi anlayışlar, interaktiv metodlar, ibtidai təhsil, şagird fəaliyyəti, müəllim fəaliyyəti*

***Ключевые слова:*** *геометрические представления, интерактивные методы, начальное образование, деятельность ученика, деятельность учителя*

***Key words:*** *geometric concepts, interactive methods, primary education, student activity, teacher activity*

İbtidai siniflərdə, xüsusilə də 1-ci və 2-ci siniflərdə riyaziyyat tədrisinin əsas istiqamətlərindən biri şagirdlərdə ilkin həndəsi anlayışların formalaşdırılmasıdır. Həndəsə təlimi yalnız fiqurların adlarını öyrətmək məqsədi daşımır, həm də uşaqlarda məkan təsəvvürünü, təfəkkürü, müşahidə qabiliyyətini və məntiqi nəticə çıxarma bacarığını inkişaf etdirir. Lakin bu prosesin effektivliyi birbaşa tətbiq olunan təlim metodlarından asılıdır. Ənənəvi izahlı-dərs modeli uşaqların marağını uzun müddət saxlaya bilmir, çünki bu yaş dövründə öyrənmə əsasən hərəkət, müşahidə və müzakirə üzərində qurulur. Fəal təlimdə tədris prosesi elə təşkil olunmalıdır ki, o, idrak fəallığı, təbii öyrənmə fəaliyyəti doğursun, şagirdə "ilk kəşf" sevinci keçirməyə imkan versin, onda yeni biliklərə yiyələnmək həvəsi yaratsın [2, s.4]. Buna görə də müasir təlim metodlarının istifadəsi ibtidai pillədə, xüsusilə həndəsi anlayışların öyrədilməsində mühüm rol oynayır.

Müasir təlim metodları interaktiv xarakter daşıyır və şagirdi tədris prosesinin mərkəzinə gətirir. Belə metodlar uşağın yalnız dinləyici deyil, həm də aktiv öyrənən olmasına imkan yaradır. Məsələn, beyin həmləsi, akvarium, anlayışın çıxarılması, Venn diaqramı, kublaşdırma, karusel, ziqzaq kimi metodlar həm qrup, həm də fərdi fəaliyyət zamanı şagirdlərdə maraq və idrak fəallığını gücləndirir. Bu metodlar dərs prosesində uşaqların təfəkkürünə təsir edərək onların müstəqil fikir yürütmə bacarığını formalaşdırır. İnteraktiv üsulların üstünlüyü ondan ibarətdir ki, burada öyrənmə sadəcə müəllimin verdiyi biliklərin qəbulu ilə deyil, həmin biliklərin uşağın öz fəaliyyəti nəticəsində mənimsənilməsi ilə həyata keçir. Müasir təlimdə əsas məqsəd uşağın öz biliklərini fəaliyyət vasitəsilə əldə etməsinə şərait yaratmaqdır.

Birinci sinifdə uşaqlar adətən sadə fiqurları – kvadrat, dairə, üçbucaq, düzbucaqlı kimi formalara diqqət yönəldirlər. Bu mərhələdə əsas məqsəd fiqurların adlarını deyil, onların xüsusiyyətlərini dərk etməkdir. Məsələn, müəllim “üçbucaqda neçə tərəf var?” sualını sadəcə cavablandırmaqla kifayətlənməməli, uşağa tərəf, bucaq və kənar anlayışlarını praktik müşahidə ilə dərk etdirməlidir. Əgər bu izah interaktiv üsulla aparılarsa, yəni fiqurlar əyani materiallardan hazırlanarsa, uşaqlar fiquru əllə hiss edər, müşahidə edər və fərqləndirər. Bu, həm görmə, həm də toxunma yaddaşını aktivləşdirir.

İkinci sinif mərhələsində isə şagird artıq fiqurların xüsusiyyətləri ilə əməli fəaliyyət aparmağa başlayır. Burada müqayisə, təsnifat və analiz bacarığı inkişaf etdirilməlidir. Müəllim “Venn diaqramı” metodundan istifadə edərək fiqurların oxşar və fərqli cəhətlərini şagirdlərlə birlikdə müəyyən edə bilər. Məsələn, dairə və kvadratın oxşar və fərqli xüsusiyyətləri iki dairəvi sahə vasitəsilə təsvir edilir. Bu vizual yanaşma uşaqlarda müqayisəli düşünməni inkişaf etdirir. Şagirdlər nəticəyə gəlir ki, hər iki fiqurun bərabər tərəfi yoxdur, lakin hər ikisi qapalı fiqurdur. Beləliklə, uşaqlar fərqləri müşahidə edərək ümumi anlayış formalaşdırırlar.

Müasir təlim metodlarının üstünlüyü həm də emosional mühitin yaradılmasındadır. Uşaqlar öz fikirlərini sərbəst ifadə edə, müzakirələrdə iştirak edə və həmyaşıdlarının fikirlərini dinləməyi öyrənirlər. Bu da sosial bacarıqların inkişafına xidmət edir. İnteraktiv dərs formaları şagirdin təlim prosesindəki rolunu passiv dinləyicidən aktiv subyektə çevirir və onu öyrənmə prosesinə tam şəkildə cəlb edir. Bu baxımdan, müasir metodların tətbiqi yalnız bilik deyil, həm də şəxsiyyət yönümlü təlimin həyata keçirilməsinə imkan verir.

Həndəsi anlayışların formalaşmasında konkret metodların rolu ayrıca vurğulanmalıdır. Məsələn, beyin həmləsi metodu şagirdlərdə yaradıcı düşüncəni stimullaşdırır. Müəllim “hansı fiqurların kuncləri var?” sualını verir və bütün cavablar qəbul edilir. Şagirdlər fikir söylədikcə fiqurlar arasında əlaqə qurmağa çalışır, nəticədə düzgün anlayış tədricən formalaşır. Anlayışın

çıxarılması metodunda isə uşaqlar müəyyən misallardan çıxış edərək ümumi qaydanı özləri müəyyənləşdirirlər. Məsələn, müxtəlif fiqurları nümayiş etdirərək müəllim soruşur: “Bunlardan hansını kvadrat adlandırmaq olar və niyə?” Bu sual uşağı düşünməyə, müqayisə etməyə və nəticə çıxarmağa yönəldir. Akvarium metodu isə qrup müzakirəsi formasında tətbiq olunur. Qrup fiqurların xüsusiyyətlərini müzakirə edir, digər şagirdlər isə müşahidəçi kimi iştirak edərək nəticə çıxarırlar. Bu, həm dinləmə, həm də dəlillə danışma bacarığını inkişaf etdirir. Akvarium metodunda əsas məqsəd diskussiya vərdişlərini inkişaf etdirməkdir. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil. Başlıcası – problemin müzakirəsində irəliləmək və düzgün diskussiya aparmaq vərdişlərini nümayiş etdirməkdir [6, s.84].

Kublaşdırma metodu ibtidai siniflərdə həm əyləncəli, həm də düşündürücü fəaliyyət forması kimi istifadə edilir. Məsələn, müəllim fiqurlar mövzusunda “kvadrat” anlayışını möhkəmləndirmək məqsədilə altı tərəfi olan karton kub hazırlayır. Kubun hər üzündə müxtəlif tapşırıqlar yazılır: *“Kvadrata bənzər bir əşya tap.”; “Kvadratın neçə tərəfi var?”; “Kvadratı dairədən fərqləndir.”; “Kvadratdan başqa hansı fiqurlar bu otaqda var?”; “Kvadrat sözünü bir cümlədə işlət.”; “Kvadrat haqqında bir sual qur.”*

Şagirdlər kubu atır və düşən tapşırığı yerinə yetirirlər. Bu zaman həm əyləncə mühiti yaranır, həm də fiqurun xüsusiyyətləri möhkəmlənir. Uşaqlar öz fikirlərini ifadə edir, müşahidə qabiliyyətləri və məntiqi düşünmə bacarıqları inkişaf edir. Bu metod həm hərəkət, həm də nitq fəaliyyəti üzərində qurulduğu üçün ibtidai yaş uşaqları üçün son dərəcə uyğun hesab olunur.

Ziqzaq metodu şagirdlərin həm fərdi, həm də qrup halında əməkdaşlıq etməsinə, öyrəndiklərini paylaşmasına imkan yaradır.

Əvvəlcə sinif 4 qrupa bölünür. Hər qrup bir fiqur haqqında məlumat hazırlayır. Məsələn, birinci qrup kvadrat, ikinci qrup dairə, üçüncü qrup üçbucaq, dördüncü qrup isə düzbucaqlı barədə araşdırma aparır. Qruplar fiqurların kənarlarının sayı, bucaqları, bərabərliyi və gündəlik həyatda hansı əşyalarda rast gəlindiyi barədə qısa təqdimat hazırlayırlar.

Daha sonra “ziqzaq” mərhələsi başlayır: hər qrupdan bir nümayəndə digər qrupa keçir və öz fiquru haqqında əldə etdiyi bilgiləri onlara təqdim edir. Bu proses nəticəsində hər bir şagird bütün fiqurlar barədə məlumat əldə edir.

Ziqzaq metodunun tətbiqi şagirdlərdə ünsiyyət, təqdimetmə və müqayisə bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, bu yanaşma aktiv öyrənmə mühitini formalaşdıraraq həndəsi anlayışların daha səmərəli mənimsənilməsinə şərait yaradır.

Bu kimi metodlar sinifdə tədricən bir-birini tamamlayacaq şəkildə tətbiq olunmalıdır. Məsələn, bir dərsdə beyin həmləsi ilə ideyalar toplanır, növbəti mərhələdə anlayışın çıxarılması ilə bu ideyalar ümumiləşdirilir, sonda

Venn diaqramı ilə nəticə vizual şəkildə möhkəmləndirilir. Belə mərhələlilik uşaqlarda tədrici öyrənmə mühiti yaradır və mövzu dərin mənimsənilir.

Müasir metodların tətbiqi həm də fərdi fərqləri nəzərə almağa imkan verir. Hər bir şagirdin idrak tempi fərqlidir, bəziləri müşahidə yolu ilə, bəziləri isə təcrübə və hərəkət yolu ilə daha yaxşı öyrənir. İnteraktiv təlim formaları bu fərqləri balanslaşdırır. Qrup işi zamanı zəif şagird güclü şagirddən öyrənir, lakin hər ikisi fəal iştirak edir. Bu, həm akademik, həm də sosial öyrənmənin paralel inkişafına şərait yaradır.

Digər tərəfdən, ibtidai siniflərdə müasir metodların tətbiqi müəllimdən yaradıcı yanaşma və dərsin məqsədinə uyğun planlaşdırma tələb edir. Hər bir metodun məqsədi aydın müəyyən edilməli və dərsin məzmununa uyğunlaşdırılmalıdır. Məsələn, yalnız forma tanıtmaq məqsədi varsa, kublaşdırma və ya anlayışın çıxarılması metodları daha uyğun olur. Əgər məqsəd fiqurların müqayisəsi və oxşarlığını tapmaqdırsa, Venn diaqramı daha səmərəlidir. Dərsin sonunda şagirdlər öz fikirlərini sözlə ifadə edə bilməli, "niyə belə düşünürəm" sualına cavab verə bilməlidirlər. Bu, düşünən şagird modelinin formalaşması deməkdir.

İbtidai siniflərdə həndəsə materiallarının müasir metodlarla tədrisi həm fənn bacarıqlarını, həm də ümumi təfəkkür qabiliyyətlərini inkişaf etdirir. Uşaqlar yalnız kvadrat və dairəni tanımır, həm də onların məkanla, hərəkətlə, istiqamətlə əlaqəsini anlamağa başlayırlar. Məsələn, "kvadrat pəncərə", "dairəvi saat", "üçbucaq yol nişanı" kimi nümunələr uşaqların gündəlik müşahidələrinə bağlanarsa, öyrənmə prosesi həyati təcrübə ilə əlaqələndirilir. Bu əlaqə uşağın marağını artırır və öyrənməni daha mənalı edir.

## Nəticə

1 və 2-ci siniflərdə həndəsi anlayışların öyrədilməsi müasir təlim metodlarının köməyi ilə daha səmərəli şəkildə həyata keçirilə bilər. İnteraktiv üsullar uşaqlarda marağı artırır, müstəqil düşünmə, müşahidə və nəticə çıxarma bacarıqlarını formalaşdırır. Bu metodlar şagirdin yalnız biliyini deyil, həm də öyrənmə motivasiyasını gücləndirir. Müəllim bu metodlardan məqsədəuyğun şəkildə istifadə etdikdə, uşaqlarda həm riyazi düşüncə, həm məntiq, həm də ünsiyyət bacarıqları inkişaf edir. Beləliklə, müasir təlim metodları ibtidai təhsil pilləsində həndəsi anlayışların öyrədilməsində mühüm vasitə kimi çıxış edir və gələcək riyazi hazırlığın əsasını təşkil edir.

### *Ədəbiyyat*

1. *Ağayev Ə.Ə. Yeni təlim metod və texnologiyalardan istifadənin nəzəri və praktik məsələləri // ARTPİ. Elmi əsərləri, 2006.*
2. *Bağırova, R.E. Birinci sinifdə həndəsi fiqurlar və kəmiyyətlərin öyrədilməsinin səmərəli yolları // ARTPİ. Elmi Əsərləri, 2013.*

3. *Двуличанская, Н.Н. Интерактивные методы обучения как средство формирования ключевых компетенций. Москва: Просвещение, 2011.*
4. *Həmidov S.S. 1-4 siniflərdə məsələ həlli metodikası, Bakı, "Nurlan", 2003.*
5. *Kərimov Y.Ş. Təlim metodları. Bakı – 2007.*
6. *Veysova Z., "Fəal və interaktiv təlim". Müəllimlər üçün vəsait. 2007.*

**İbrahimova Z.İ.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***zibrahimova770@gmail.com***

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNTERAKTİV TƏDRİSİN TƏŞKİLİ

***Xülasə***

*Bu məqalə, son dövrlərdə təhsilin istənilən pilləsində interaktiv tədris yanaşmasının inkişafı və təsiri nəticəsində formalaşan mühiti həm nəzəri aspektdən səciyyələndirməyə, həm də onun praktiki təşkilinə fokuslanmağa imkan verir. Məqalənin başlıca məqsədi interaktiv tədrisin təşkilinin mahiyyətini vurğulamaq və ali təhsildə effektivliyini müəyyənləşdirməkdir. Yekun təhlillər və nəticələr onu göstərir ki, interaktiv tədrisdən ibarət mühitin tətbiqi və təşkili öyrənmə prosesinin səmərəli şəkildə formalaşdırılmasında böyük rol oynayır.*

# ОРГАНИЗАЦИЯ ИНТЕРАКТИВНОГО ОБУЧЕНИЯ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

***Резюме***

*Эта статья позволяет охарактеризовать среду, формирующуюся в результате развития и воздействия интерактивного подхода к обучению на любом уровне образования, как с теоретической точки зрения, так и сосредоточиться на её практической организации. Основная цель статьи — подчеркнуть сущность организации интерактивного обучения и определить его эффективность в высшем образовании. Итоговый анализ и выводы показывают, что применение и организация среды, основанной на интерактивном обучении, играют важную роль в эффективном формировании учебного процесса.*

# ORGANISING INTERACTIVE TEACHING IN ALI EDUCATIONAL INSTITUTIONS

***Summary***

*This article allows both a theoretical characterisation of the environment formed as a result of the development and impact of interactive teaching approaches at any level of education in recent times, and a focus on its practical organisation. The main aim of the article is to emphasise the essence of organising interactive teaching and to determine its effectiveness in higher education. Final analyses and results show that the implementation and organisation of an environment consisting of interactive teaching play a significant role in effectively shaping the learning process.*

***Açar sözlər:*** *interaktiv tədris, ali təhsil, inteqrasiya, interaktiv texnologiyalar, metod*

***Ключевые слова:*** *интерактивное обучение, высшее образование, интеграция, интерактивная технология, метод*
***Key words:*** *interactive teaching, higher education, interaction, interactive technology, method*

Müasir dövrdə yalnız biliklə kifayətlənmək, təhsildə müvəffəqiyyət göstəricisi hesab olunmur. Azərbaycan təhsil sistemi də sürətlə dəyişən qlobal çağırışlar və ictimai tələblər fonunda inkişaf etməkdədir. Cəmiyyətin sosial-iqtisadi tərəqqisi, əmək bazarının dinamikası və texnoloji yeniliklər təlim və tədris prosesinə yeni yanaşmaların daxil edilməsini zəruri edir. Təhsilin keyfiyyətinin yüksəldilməsi yalnız biliklərin verilməsi ilə məhdudlaşmır, eyni zamanda məzunların peşəkar və şəxsi inkişafı, sosial adaptasiyası, müasir dövrün problemlərini həll etməyə yönəlmiş kompetensiyaların formalaşdırılması ilə sıx bağlıdır.

Azərbaycan Respublikasının təhsil siyasətində peşəkar kompetensiyanın inkişafı bütün pillələr üzrə prioritet istiqamət kimi müəyyənləşdirilmişdir. Belə ki, müasir dövr yalnız biliklərin həcmini artırmağı deyil, onların mənimsənilmə keyfiyyətini, praktikada tətbiqini və mövcud məlumat bazası əsasında yeni ideya və məhsulların yaradılmasını tələb edir. Son dövrlərdə effektivliyini göstərmiş interaktiv yanaşmadan istifadə olunur.

**İnteraktiv metod** anlayışı latın mənşəli sözlərdən yaranmışdır: *“inter”* — “arasında”, *“act”* — “hərəkət etmək” deməkdir. Bu ifadə, mahiyyət etibarilə, qarşılıqlı əlaqə və ya ünsiyyət prosesini bildirir. Yəni interaktiv metod təlim iştirakçıları arasında fikir, informasiya və fəaliyyət mübadiləsinə əsaslanan dialoji öyrənmə formasını ifadə edir [2, s.59].

Təhsil araşdırmalarında “interaktiv” anlayışı əsasən iki istiqamətdə — pedaqoji yanaşma və təhsildə tətbiq olunan yeni texnologiyalar kontekstində işlədilir. Rəqəmsal texnologiyaların qlobal miqyasda ali təhsilə inteqrasiyası bu anlayışların — “interaktiv”, “öyrənmə strategiyaları” və “interaktiv öyrənmə strategiyaları”nın — qarşılıqlı əlaqələrinin həm nəzəri, həm də empirik səviyyədə öyrənilməsini zəruri edir. Ali təhsildə öyrənmə strategiyalarına dair əvvəlki tədqiqatlar müxtəlif yanaşmalar ortaya qoymuş və bəzi ortaq elementlərin mövcudluğunu müəyyən etmişdir.

Təhsildə istifadə olunan təlim üsulları aktiv, passiv və interaktiv olmaqla 3 hissəyə ayrılır. İnteraksionizm nəzəriyyəsi interaktiv təlimin əsasını təşkil edir [2, s.59].

Öyrənmə strategiyaları adətən üç əsas kateqoriyaya bölünür: müəllim mərkəzli, tələbə mərkəzli və interaktiv strategiyalar. Müəllim mərkəzli yanaşmada təlim prosesi tamamilə müəllim tərəfindən planlaşdırılır, təşkil olunur və qiymətləndirilir. Bu modeldə müəllim tədris materialının mütəxəssisi kimi çıxış edir, mövzuları seçir, strukturlu şəkildə məlumat təqdim edir, tələbələrin fəaliyyətini izləyir, geribildirim (feedback) verir və öyrənmə

nəticələrini kursun gedişində və ya sonunda qiymətləndirir. Bu yanaşmaya görə, tələbələr sanki "boş qablar" kimi qəbul olunur, yəni onların əsas vəzifəsi müəllimin təqdim etdiyi biliklərlə dolmaqdır. Bəzən tələbələr həm də məlumatı qəbul edib onu qısa müddətli yaddaşdan uzunmüddətli yaddaşa ötürən "koqnitiv maşınlar" kimi təsəvvür edilir.

Bunun əksinə olaraq, konstruktivist öyrənmə mühiti aktiv öyrənmə strategiyasına əsaslanır. Bu mühitdə tələbələr müəllimin suallarına cavab verir, fikir mübadiləsinə qoşulur və bilikləri öz təcrübələri ilə əlaqələndirərək mənimsəyirlər [5, s.85].

Tələbə yönümlü öyrənmə modelində müəllim və ya təlimçi daha çox istiqamətləndirici və dəstəkverici rol oynayır, tələbələr isə öz öyrənmə proseslərində daha fəal və əməkdaşlığa əsaslanan mövqe tutur. Bu yanaşmada diqqət həm müəllimin tədris strategiyasına, həm də tələbələrin öyrənmə taktikalarına yönəlir. Tələbələr, xüsusilə tədqiqat layihələri kontekstində, mövzu seçimi üzərində müəyyən müstəqilliyə malik olurlar.

Yaxşı qurulmuş tədris planına əsasən həyata keçirilən didaktik fəaliyyətlərdən sonra tələbələrin bilik və bacarıqları fərdi, cütlü və ya qrup şəklində qiymətləndirilir. Ümumilikdə, tələbə mərkəzli yanaşma ənənəvi mövzu yönümlü modeldən fərqli olaraq, əvvəlcədən müəyyən edilmiş məlumat və bilik dəstlərinin öyrənilməsini deyil, tələbələrin aktiv iştirakını, fərdi ehtiyaclarını, şəxsi üstünlüklərini və məqsədlərini ön plana çıxarır. Bu yanaşma eyni zamanda öyrənmə prosesində qərarvermə imkanlarının daha bərabər paylanmasını da təşviq edir (Jakonen və Duran) [4, s.5]. İnteraktiv təlim metodları təhsilin istənilən pilləsində müəllimi məlumat ötürən tərəf deyildə, idarəedici, bələdçi qismində təcəssüm etdirir [6, s.95].

Əsas interaktiv tədris strategiyalarına müzakirə, interaktiv mühazirə, "beyin fırtınası", rollu oyunlar, simulyasiya, debat, layihə əsaslı və roblem əsaslı öyrənmə kimi metodlar daxildir. Bu strategiyalar öyrənmə proseslərinin planlaşdırılması, təşkili və nəticələrinin qiymətləndirilməsində rəqəmsal texnologiyaların imkanlarından səmərəli şəkildə istifadə etməyə əsaslanır. İnteraktiv öyrənmə yanaşmaları tələbələrin öyrənmə prosesini müstəqil şəkildə idarə etmək və tənzimləmək bacarığını inkişaf etdirir, bu bacarığın isə gələcəkdə ömürboyu davamlı öyrənmə qabiliyyətinə çevrilməsinə şərait yaradır.

Ali təhsildə də interaktiv metodları tətbiq etməklə mühazirə, seminar, və laboratoriya dərslərində də öyrənmə prosesi qarşılıqlı əməkdaşlıq mühitində praktiki və maraqlı olur. Gəlin bir neşə geniş istifadə olunan interaktiv metodlara nəzər salaq:

1. Brainstorming (Beyin fırtınası);
2. Case-study (Real vəziyyətin analizi);
3. Storytelling(Hekayə yaratma);

4. PBL(Problem əsaslə öyrənmə);
5. Flipped classroom(əks sinif və ya əksinə çevrilmiş sinif modeli)
6. MOOC(Kütləvi öyrənmə platforması).

Beyin fırtınası (Brainstorming) – tələbələrin yaradıcı potensialını inkişaf etdirməyə yönəlmiş kollektiv ideya istehsalı metodudur. Bu üsul ilk dəfə 1940-cı illərdə Alex Osborn tərəfindən təqdim olunaraq öyrənmə prosesində problemlərin həllinə yaradıcı yanaşmanı təşviq etmək məqsədini daşıyır. Metod tələbələrin sərbəst və açıq fikir bildirməsini təmin etməklə yanaşı, qrup daxilində müxtəlif baxış və yanaşmaların ortaya çıxmasına şərait yaradır və problemlərə bir neçə alternativ həll yolunun tapılmasına imkan verir. Tətbiq prosesi müəllimin problemi və təlim məqsədini izah etməsi ilə başlayır. Daha sonra tələbələr məhdudiyyətsiz şəkildə ideyalar irəli sürür; bu mərhələdə tənqidə yol verilmir. Toplanmış ideyalar qrup tərəfindən təhlil edilir və seçilir, nəticədə ən səmərəli həll yolları qrup daxilində müzakirə olunaraq qərara alınır.

Case-study metodunda – aktiv öyrənmə və yaradıcı düşünmə qabiliyyəti inkişaf etdirilir. Bu üsullar həm ənənəvi sinif şəraitində, həm də Öyrənmə İdarəetmə Sistemi (LMS) və ya Virtual Öyrənmə Mühiti (VLE) üzərindən həyata keçirilən onlayn dərslərdə tətbiq olunur [9, s.1]. Konkret situasiyaların həlli üzərində qurulan bir təlim üsuludur. Bu yanaşmanın əsas məqsədi vəziyyətin birgə müzakirəsi, problemin həlli yollarının tapılması və həmin həllin ictimai şəkildə əsaslandırılmasıdır. Halların araşdırılması prosesi zamanı tələbələr komanda ilə işləmək, müstəqil qərar modelləşdirmək, tənqidi düşünmək və öz mövqelərini əsaslandırmaq kimi bacarıqları inkişaf etdirirlər. Bu metod ilk dəfə 1870-ci ildə Harvard Hüquq Məktəbində tətbiq edilmişdir. Bu metodda təqdim olunan problemin həllində müəyyən dərəcədə qeyri-müəyyənlik mövcuddur ki, bu da müxtəlif həll variantlarının əsaslandırılması və ən uyğun qərarın seçilməsi prosesini çətinləşdirir. Nəticə etibarilə, bu üsul təkcə bilik qazanmağa deyil, eyni zamanda peşəkar bacarıqların formalaşmasına, şəxsiyyətin inkişafına və dəyərlər sisteminin möhkəmlənməsinə xidmət edir [6, s.98].

Storytelling – Nağıl danışma metodu gələcək mütəxəssisləri peşəkar həyatın qaydaları, dəyərləri və mifləri ilə tanış edir. Müəllim bu üsul vasitəsilə tələbələrə peşənin mahiyyəti, xüsusiyyətləri və real iş şəraitində qarşılaşa biləcəkləri vəziyyətlər haqqında məlumat verir. Bununla tələbələr peşənin ənənələrini, fəlsəfəsini, mədəni əsaslarını və fəaliyyət prinsiplərini daha dərindən qavrayırlar. Gələcək mütəxəssislərin peşə seçimlərində məyusluq yaşamamaları üçün onlara obyektiv və əhatəli məlumat təqdim olunur. Bu yanaşma tələbələrin peşənin tələblərini, idarəetmə sənədlərini və karyera imkanlarını daha qısa müddətdə mənimsəmələrinə şərait yaradır [6, s.100].

PBL (Problem əsaslə öyrənmə) – Hmelo-Silver problem əsaslı öyrənmənin beş əsas məqsədini müəyyən etmişdir [3, s.235]. Bu məqsədlər tələbələrdə çevik biliklərin formalaşdırılması, effektiv problem həll etmə bacarıqlarının inkişafı, özünüidarəetmə qabiliyyətinin gücləndirilməsi, səmərəli əməkdaşlıq vərdişlərinin formalaşdırılması və daxili motivasiyanın artırılmasını əhatə edir.

Barrows isə problem əsaslı öyrənmənin bu məqsədlərlə paralel şəkildə irəliləyən altı əsas xüsusiyyətini təqdim edir [1, s.9]. Birincisi, öyrənmə tələbə mərkəzlidir. İkincisi, tədris prosesi kiçik tələbə qruplarında həyata keçirilir. Üçüncüsü, müəllimlər rəhbər və ya bələdçi rolunda çıxış edirlər. Dördüncüsü, problemlər öyrənmə üçün əsas istiqamətverici və stimullaşdırıcı vasitə kimi çıxış edir. Beşincisi, problemlər klinik problem həll etmə bacarıqlarının inkişafına xidmət edir. Altıncısı, yeni biliklər özünüidarə olunan öyrənmə prosesi vasitəsilə əldə edilir.

Flipped classroom – Müəllim tərəfindən hazırlanmış videolar və interaktiv dərslər vasitəsilə əvvəllər sinifdə həyata keçirilən öyrənmə prosesi indi dərsdən əvvəl ev şəraitində mənimsənilə bilir. Sinif isə əsasən problem həlli, anlayışların dərinləşdirilməsi və əməkdaşlıq əsaslı öyrənmə fəaliyyətləri üçün istifadə olunur. Həmçinin, tədrisin bütün komponentləri öyrənmə zamanı kimi məhdud resursdan maksimum səmərə əldə etmək məqsədilə yenidən nəzərdən keçirilə və optimallaşdırıla bilər [7, s.83].

MOOC-lar (Kütləvi Onlayn Açıq Kurslar) rəqəmsal media və internet texnologiyaları ilə dəstəklənən təhsildə yeni bir inkişaf istiqamətini təmsil edir. MOOC termini 2008-ci ildə David Cormier və Bryan Alexander tərəfindən yaradılmışdır. MOOC-un mövcudluğu təsadüfi bir hadisə deyil, açıq fikirli tədris anlayışının tətbiqi və inkişafını ifadə edir. Öyrənənlər həm tələbə, həm də müəllim rolunu icra edərək bir əlaqələndirici şəbəkə yaradırlar və kurs öyrənmə icması funksiyasını daşıyır. MOOC-lar açıq, əlaqələndirici və öyrənən mərkəzli təhsil ideallarını əks etdirib əsas prinsiplərinə əsaslanaraq dünyanın tanınmış universitetləri tərəfindən müxtəlif kurslar təqdim edərək geniş təsirə malik olur [10, s.48].

Fəal interaktiv təlimin tətbiqi nəticəsində biliklər sərbəst şəkildə qavranılır, öyrənəndə 4k bacarıqları - tənqidi düşüncə, kreativlik, kommunikasiya, əməkdaşlıq bacarıqlarının təkmilləşməsi, elmi-tətdiqat vərdişlərinin formalaşması müşahidə olunur. Daha çox informasiyanı mənimsəmək şansı əldə etdikləri üçün tədrisin səmərəliliyi də artmış olur. Z.Veysova qeyd etmişdir ki, müəllim müəyyən bacarıq və vərdişlərin formalaşması məqsədi ilə eyni zamanda izahedici, illüstrativ və reproduktiv metodların istifadəsinə davam etməlidir [8, s.102]. Fəal-interaktiv təlim problemli situasiyanın yaradılmasına, onun yaradıcı həllinə və tətbiqetməsinə,

təfəkkürün müstəqil və sərbəst inkişafına, əməkdaşlığa ən əsası biliklərin müstəqil dərk edilməsinə şərait yaradır.

İnteraktivlik dinamik və daim inkişaf edən bir anlayışdır. Ali təhsil kontekstində interaktiv öyrənmə strategiyaları ənənəvi təkmilləşdirilmiş dərs modellərindən tədricən həm fiziki öyrənmə mühitlərində, həm də virtual reallıqda həyata keçirilən komanda əsaslı öyrənmə formalarına doğru təkamül edir. Virtual reallıq bu texnologiyaların ümumi çərçivəsini təşkil edir və təlim prosesinə daha immersiv təcrübə gətirir. İnteraktiv öyrənmə strategiyalarının planlaşdırılması, inkişafı və idarə edilməsində diqqət koqnitiv, metakoqnitiv və affektiv komponentlərin balansına yönəlməlidir. Eyni zamanda bu strategiyalar tələbələrin çoxşaxəli maraqlarını, iradələrini və yeni biliklərə olan motivasiyalarını stimullaşdırmalı, bu öyrənmə qabiliyyətinin ömürboyu qorunub saxlanmasına şərait yaratmalıdır [5, s.85].

Əldə olunacaq nəticələrin reallaşdırılması ənənəvi tədris metodlarının təkmilləşdirilməsini, öyrənənlərin passiv dinləyici mövqeyindən çıxaraq təlim prosesinin fəal iştirakçısına çevrilməsini şərtləndirir. Bu baxımdan, Azərbaycan təhsil sistemində müasir interaktiv təlim texnologiyalarının tətbiqi mühüm zərurət olmaqla yanaşı, həm də keyfiyyətin yüksəldilməsində perspektivli istiqamət kimi dəyərləndirilir.

Təlim-tədris prosesinin mənfi və ya müsbət nəticələrini təhlil etmək, müəllim və tələbə arasındakı qarşılıqlı kommunikasiyanın əsasını qoymaq üçün düzgün vasitələr, metod və texnikalardan ibarət texnoloji fəaliyyət zənciri qurulmalıdır.

Odur ki, ali təhsildə interaktiv tədrisin təşkili motivasiyaedici mühitin formalaşmasına,müstəqil öyrənmə bacarıqlarının inkişafına təkan verərək, yeni bir stratejik yanaşma ərsəyə gətirir. Araşdırmanın nəticəsi onu göstərir ki, ali təhsil müəssisələrində bu yanaşmanın tətbiqi dərsin şəffalığının artırılmasına, innovative bacarıqların yaranmasında əvəzsiz rol oynayır.

***Ədəbiyyat***

1. *Barrows H.S. Problem-based learning in medicine and beyond: A brief overview. New Directions for Teaching and Learning, 1996(68):3–12, 1996. http://idtoolbox.eseryel.com/uploads/9/0/7/5/9075695/plb.pdf*
2. *Bayramlı Tərgül İnteraktiv təlim metodlarini zəruri edən şərtlər Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 85, №2, 2018. http://www.anl.az/down/meqale/elm_eserler_tn/2018/02/767481(meqale).pdf*
3. *Hmelo-Silver. C.E. Problem-based learning: What and how do students learn? Educational Psychology Review, 16(3):235–266, 2004 https://docdrop.org/static/drop-pdf/Hmelo-Silver2004-ZZaX8.pdf*

4. *Jakonen, T., & Duran, D. Learner-centered EAP practices: Managing agenda in tutorial interaction. In: Journal of English for Academic Purposes, 68, 2024. https://www.sciencedirect.com/science/article/pii/S1475158524000134*
5. *Raılean Elena Interactive learning strategies in higher education: challenges, opportunities and risks 2024. https://ibn.idsi.md/vizualizare_articol/219666*
6. *Ramachandran S, Rengamani JInteractive teaching methods in contemporary higher education 2015. https://www.academia.edu/download/40367253/IJM_06_10_013.pdf*
7. *Tucker Bıll The flipped classroom World Journal on Educational Technology: Current Issues, 2016. https://www.educationnext.org/wpcontent/uploads/2023/04/ednext_XII_1_what_next.pdf*
8. *Veysova Zulfiyya, The technology of active (interactive) learning: the psychological mechanisms and structure. https://www.arti.edu.az/nodupload/editor/files/F%C9%99al%20(interaktiv)%20t%C9%99lim%20texnologiyas%C4%B1.pdf*
9. *Wickramasinghe S, Upeksha GN Innovative and interactive teaching methods for improving learning quality in higher education, 2016. https://diglib.natlib.lk/bitstream/handle/123456789/40949/Samanthi%20Wickramasinghe2.pdf?sequence=1*
10. *Yu Li MOOCs in Higher Education: Opportunities and Challenges, 2019. https://www.atlantis-press.com/proceedings/ichssr-19/125909086*

**İbrahimzadə A.E.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ibrahimzadaytan@gmail.com***

# RƏQƏMSAL TEXNOLOGİYALARIN SƏRİŞTƏ ƏSASLI ÖYRƏNMƏDƏ ROLU

***Xülasə***

*Məqalə təhsilin qloballaşma prosesində rəqəmsal texnologiyaların artan əhəmiyyətini və onların tədris prosesinə təsirini araşdırılır. Pandemiya dövrü rəqəmsal texnologiyaların təhsildə tətbiqini zəruri etmiş və nəticədə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə onlayn tədris geniş yayılmışdır. Müasir texnoloji vasitələr və platformalar tədris prosesini daha interaktiv və fərdiləşdirilmiş hala gətirərək müəllim və şagirdlər üçün yeni imkanlar açır. Məqalədə innovativ yanaşmaların səmərəliliyi önə çəkilir. Eyni zamanda, texnologiyanın müəllimlərin iş yükünü optimallaşdırdığı, şagirdlərin dərhal qiymətləndirilməsinə şərait yaratdığı və hibrid tədris modelinin inkişafına töhfə verdiyi qeyd olunur. Nəticə etibarilə, rəqəmsal texnologiyalar təhsilin keyfiyyətini artıran, onu daha çevik, əlçatan və innovativ edən əsas amillərdən biri kimi qiymətləndirilir.*

# РОЛЬ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В КОМПЕТЕНТНОСТНО-ОРИЕНТИРОВАННОМ ОБУЧЕНИИ

***Резюме***

*Статье рассматривается растущая роль цифровых технологий в процессе глобализации образования и их влияние на учебный процесс. Период пандемии сделал использование цифровых технологий в образовании необходимостью, что привело к широкому распространению онлайн-обучения как в развитых, так и в развивающихся странах. Современные технологические инструменты и платформы делают процесс обучения более интерактивным и персонализированным, открывая новые возможности для преподавателей и учащихся. В статье подчеркивается эффективность инновационных подходов. Кроме того, отмечается, что технологии способствуют оптимизации нагрузки преподавателей, обеспечивают возможность мгновенной оценки учащихся и способствуют развитию гибридной модели обучения. В конечном итоге цифровые технологии рассматриваются как один из ключевых факторов, повышающих качество образования, делая его более гибким, доступным и инновационным.*

# THE ROLE OF DIGITAL TECHNOLOGIES IN EXPERIENCE-BASED LEARNING

***Summary***

*The article explores the growing importance of digital technologies in the process of globalisation of education and their impact on the teaching process. The*

*pandemic period made the use of digital technologies in education a necessity, resulting in the widespread adoption of online learning in both developed and developing countries. Modern technological tools and platforms make the learning process more interactive and personalised, creating new opportunities for teachers and students. The article emphasises the effectiveness of innovative approaches. At the same time, it highlights how technology optimises teachers' workloads, enables instant assessment of students, and contributes to the development of the hybrid learning model. Ultimately, digital technologies are evaluated as one of the main factors that enhance the quality of education, making it more flexible, accessible, and innovative.*

***Açar sözlər:*** *təhsil, qloballaşma, rəqəmsal texnologiyalar, səriştə, öyrənmə*
***Ключевые слова:*** *образование, глобализация, цифровые технологии, компетентность, обучение*
***Key words:*** *education, globalisation, digital technologies, competence, learning*

Təhsilin qloballaşması rəqəmsal texnologiyaların tətbiqini qaçılmaz etmişdir. Dərslərin təşkili, resursların paylaşılması, qiymətləndirmə və təhsil müəssisələrinin gündəlik fəaliyyətlərinin idarə olunması üçün rəqəmsal texnologiyalar vacibdir. COVID-19 pandemiyası isə təhsil sisteminin davamlılığını təmin etmək məqsədilə təhsil müəssisələrini məcburi şəkildə onlayn tədrisə keçməyə vadar etdi. İnkişaf etmiş ölkələr bu prosesə texnoloji cəhətdən hazır idilər, inkişaf etməkdə olan ölkələr isə yeni tələblərə cavab vermək üçün ciddi səylər göstərdilər. Beləliklə, rəqəmsal texnologiyalar bu çətin dövrdə təhsilin xilas vasitəsinə çevrildi. Pandemiya həm də qlobal təhsil sistemində beynəlxalq inteqrasiyanın vacibliyini ön plana çıxardı.

Rəqəmsal texnologiyalar təhsilin inkişafında mühüm rol oynayan və onun keyfiyyətini artırmağa imkan verən güclü vasitədir. Bu texnologiyalar müəllimlərə tədris materiallarını daha rahat şəkildə hazırlamağa, həmçinin öyrənmə və əməkdaşlıq üçün yeni üsullar tətbiq etməyə şərait yaradır. İnternetin qlobal səviyyədə geniş yayılması və ağıllı cihazların çoxalması ilə təhsildə yeni bir dövr başlanmışdır. Buna görə də, təhsil mütəxəssisləri və dizaynerlərinin əsas vəzifəsi qabaqcıl rəqəmsal texnologiyalardan istifadə edərək təhsili hər kəs üçün universal, effektiv və əlçatan formaya çevirməkdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində deyilir: "Təhsilin müasirləşdirilməsi, təlim-tədris prosesində yeni texnologiyaların istifadəsi yönündə məqsədyönlü iş aparılır. Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir" [1].

Texnologiya sinifdən kənar tədrisin təşkilində də mühüm əhəmiyyət daşıyır. Rəqəmsal öyrənmə yaradıcılığı inkişaf etdirir, şagirdlərdə nailiyyət hissi yaradır və onları ənənəvi üsullardan kənara çıxaraq yeni biliklər əldə etməyə ruhlandırır. Bu imkanlar sayəsində informasiyaya çıxış, onun yadda saxlanması, saxlanma həcmi və təqdimat keyfiyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Beləliklə, tədris prosesi daha interaktiv xarakter almış, bilik mübadiləsi asanlaşmış və öyrənməyə maraq yüksəlmişdir.

Ən müasir texnologiyalarla təchiz olunmuş siniflər bu gün ən keyfiyyətli təhsil mühiti kimi qiymətləndirilir. Son illərdə şəhər məktəblərində texnologiyadan istifadənin sürətlə artması müşahidə olunur. Ənənəvi lövhələrin yerini PowerPoint təqdimatları, onlayn dərslər və videolar almışdır. Hazırda, demək olar ki, bütün məktəblər tədris prosesinə müəyyən formada texnologiyanı daxil ediblər. İnternetin, mobil telefonların, tətbiqlərin, planşetlərin və noutbukların inkişafı nəticəsində müasir həyatın bir çox sahələri getdikcə daha çox rəqəmsallaşır. Beləliklə, bir çox məktəb və universitetlərdə ənənəvi təhsil forması rəqəmsal öyrənmə ilə əvəz olunur.

Rəqəmsal texnologiyalar şagirdlərdə peşəkar fəaliyyətlər üçün vacib olan bacarıqların, məsələn, problem həll etmə, düşünmə və prosesləri anlamağa şərait yaradır. Bununla yanaşı, texnologiyanın mühüm rol oynayacağı dəyişkən və qeyri-müəyyən gələcəyə hazırlıq üçün bu bacarıqlar zəruri sayılır. Şagirdlərin əldə etdikləri bilik və kompetensiyalar onların gələcək peşəkar uğurlarının əsasını təşkil edir. Rəqəmsal resurslar və təhsil alətləri dərs mühitini zənginləşdirir, tədris və öyrənmə prosesini daha effektiv edir. Eyni zamanda, bu alətlər təhsil müəssisələrinə kurikulumun hər bir şagirdin fərdi ehtiyaclarına uyğunlaşdırılması üçün çeviklik və fərdiləşmə imkanı yaradır.

Sinif mühitində texnologiyadan istifadə şagirdlərin öyrənməyə marağını artıran mühüm amildir. Müasir dövrdə uşaqlar elektron cihazlardan geniş şəkildə istifadə etdikləri üçün bu texnologiyaların tədrisə inteqrasiyası onların diqqətini cəlb edir və dərs prosesində aktiv iştiraklarını stimullaşdırır. Texnologiyanın təhsilə daxil edilməsi öyrənmə təcrübəsini daha maraqlı və interaktiv edir, beləliklə, şagirdlər dərs mövzusuna daha çox fokuslana bilirlər. Sinifdə proyektorlar, kompüterlər və digər texnoloji vasitələrin istifadəsi öyrənmə prosesini həm maraqlı, həm də əyləncəli hala gətirir. Texnologiyaya əsaslanan tapşırıqlar, təqdimatlar və qrup işləri isə dərsi daha dinamik və qarşılıqlı əlaqəyə əsaslanan bir prosesə çevirir. Bu, iştirakın yalnız şifahi ünsiyyətlə məhdudlaşmadığını da göstərir.

Kompüterlər və digər cihazlarla yanaşı rəqəmsal vasitələrdən istifadə şagirdləri öyrənmə prosesinin mərkəzinə çəkir və onları daha fəal iştirakçıya çevirir. Bu prosesdə müəllim rəhbər və istiqamətverici rolunda çıxış edir, öyrənmənin keyfiyyətini artırır. Rəqəmsal resursların bolluğu sayəsində şagirdlər lazımi məlumatları asanlıqla əldə edə, eyni zamanda öz məlumatlarını

paylaşa bilirlər. Bundan əlavə, rəqəmsal texnologiyalar oyunlaşdırma (gamifikasiya) və "flipped classroom" (əks sinif) kimi müasir tədris yanaşmalarının tətbiqini sadələşdirir və öyrənmənin səmərəliliyini artırır. Beləliklə, texnologiya tədris prosesini daha yaradıcı, motivasiyaedici və mənalı edir.

Rəqəmsal təhsil sayəsində dərslər daha maraqlı və interaktiv hal alır. Uşaqlar bu prosesə daha çox maraq göstərir, artıq yalnız müəllimi dinləməklə kifayətlənməyib, təqdim edilən materialları ekranda izləyirlər. Bu, vizual öyrənməni asanlaşdırır və diqqəti artırır. Rəqəmsal siniflərdə təqdim olunan praktiki və interaktiv dərs materialları şagirdlərin mövzuya daha dərindən fokuslanmasına kömək edir. Texnologiyanın tədrisə inteqrasiyası nəticəsində şagirdlər öyrənmə prosesinə daha çox nəzarət edə bilir və fərdi seçimlər edə bilirlər. Müəllimlər üçün isə bu, dərsləri və laboratoriya məşğələlərini daha rahat şəkildə təqdim etmək imkanı yaradır. Canlı dərslərə qoşulmaqla yanaşı, şagirdlər istədikləri vaxt həmin dərslərin videoyazılarına baxa bilirlər. Onlayn tədrisin real vaxtda təşkili isə öyrənməyə marağı daha da artırır. Texnologiyanın inkişafı sayəsində məlumat axtarışı daha asan və dəqiq şəkildə həyata keçirilir, axtarış sistemləri və elektron kitablar artıq ənənəvi dərs kitablarını əvəz edir. Bundan əlavə, texnologiyanın tədrisə tətbiqi şagirdlərdə rəqəmsal məsuliyyət hissini formalaşdırır. Sinif mühiti bu halda kiçik bir "rəqəmsal cəmiyyət"ə çevrilir, burada şagirdlər ünsiyyət, məlumat axtarışı və əməkdaşlıq bacarıqlarını inkişaf etdirirlər. Texnologiya həmçinin şagirdlər arasında, eləcə də müxtəlif məktəblər arasında əlaqə və əməkdaşlıq imkanlarını genişləndirir. Əvvəllər yalnız eyni sinifdəki şagirdlərlə məhdud olan qarşılıqlı əlaqə indi ölkənin müxtəlif bölgələrindəki şagirdlər arasında da həyata keçirmək mümkündür.

Əyləncə elementləri ilə zənginləşdirilmiş video əsaslı tədris formaları şagirdlər arasında geniş yayılmışdır. Bu qarışıq (blended) tədris üsulu yüksək interaktivliyə malikdir və yalnız audio-videonu deyil, həm də tədris proqramlarını, podkastları, elektron kitabları və digər resursları özündə birləşdirir. Uşaqlar bu rəqəmsal platformalar vasitəsilə yeni anlayışlar kəşf etməyə böyük maraq göstərirlər. İnternetin daha əlçatan və münasib qiymətə olması gələcəkdə rəqəmsal və ənənəvi tədris formalarının daha sıx şəkildə birləşəcəyini göstərir. Onlayn təhsil həm öyrənmə, həm də tədqiqat üçün açıq və sərbəst resurslar təqdim edir. Bu, şagirdlərə internetdə mövcud olan müxtəlif öyrənmə materialları ilə qarşılıqlı əlaqə quraraq özünüidarə olunan öyrənmə mühiti formalaşdırmaq imkanı yaradır.

Müəllimlər texnologiyadan istifadə edərək dərs prosesini daha canlı və cəlbedici edə bilərlər. Rəqəmsal vasitələr sayəsində dərsliklər elektron formata salınır, mövzuların öyrənilməsi və qiymətləndirilməsi üçün keçidlər və QR kodlar əlavə olunur ki, bu da dərs mühitini daha interaktiv edir.

Texnologiyadan yaxşı istifadə bacarığı olan müəllimlər yeni alətlərdən məsələn, xüsusi proqram təminatından və ya “flipped classroom” (əks sinif) modelindən səmərəli şəkildə yararlana bilirlər. Bu modeldə şagirdlər dərsləri evdə əvvəlcədən izləyir, dərs zamanı isə mövzular ətrafında müzakirələr aparırlar.

Yeni rəqəmsal alətlərin tətbiqi tədris prosesinin düzgün idarə edilməsini və müəllimlərin bu istiqamətdə təlim keçməsini tələb edir. Müəllimlər həm sinifdə, həm də onlayn mühitdə effektiv şəkildə fəaliyyət göstərə bilməli, müxtəlif cihaz və platformalar arasında çevik işləməlidirlər.

Yeni texnoloji vasitələr təkrarlanan tapşırıqları avtomatlaşdırmaq müəllimlərin işini asanlaşdırır. İmtahanların hazırlanması və qiymətləndirilməsi üçün nəzərdə tutulan proqramlar nəticələri avtomatik şəkildə sistemə yükləyir və şagirdlərin göstəricilərinə baxışı sadələşdirir. Şagird və valideynlərlə əlaqə yaratmaq da texnologiyanın köməyi ilə daha rahat olur. Sosial media və mesajlaşma vasitələri müəllimlərə eyni anda həm ümumi məlumat paylaşmaq, həm də fərdi şəkildə ünsiyyət qurmaq imkanı verir. Onlayn cədvəllər, sosial şəbəkə hesablarının idarəsi və əlaqə məlumatlarının saxlanması kimi işlər də bu texnologiyalarla asanlaşdırılır.

Rəqəmsal texnologiyalar şagirdlərin dərs prosesində və ondan kənarda öyrənmə təcrübəsini artıra bilər. Texnologiya yeni qarşılıqlı əlaqə formaları yaradır, bilik mübadiləsini və şagirdlərin dərhal qiymətləndirilməsini mümkün edir. Bu həmçinin müəllimlərə tədris üsullarını təkmilləşdirmək, səmərəliliyi artırmaq və daha balanslı iş mühiti formalaşdırmaq üçün imkanlar yaradır. Beləliklə, təhsil texnologiyalarının məqsədəuyğunluğu onların tədris məqsədlərinə necə xidmət etdiyinə görə müəyyən olunur. Hibrid tədris və öyrənmə modeli ənənəvi (sinifdaxili) və onlayn tədris metodlarının bir-birini tamamlayan şəkildə birləşdirilməsini nəzərdə tutur.

Son illərdə Azərbaycanda tədris prosesində rəqəmsal alətlərdən istifadə nəzərəçarpacaq dərəcədə artmışdır. Bu artım dövlətin təhsilin rəqəmsallaşdırılmasına verdiyi daimi dəstək, həyata keçirilən dövlət təşəbbüsləri və infrastruktur yatırımları nəticəsində mümkün olmuşdur. “Elektron təhsil” konsepsiyası çərçivəsində bir çox yenilikçi layihələr reallaşdırılmışdır. “Rəqəmsal texnologiyaların inkişafı ilə əlaqədar, kurikulumun tərkibinə daha çox rəqəmsal resursların inteqrasiyası vacibdir. Bu, təhsil prosesinin daha dinamik və cəlbedici olmasını təmin edəcəkdir”. [5, s.78]

Bu təşəbbüslər nəticəsində rəqəmsal dərsliklər, elektron qiymətləndirmə jurnalları, distant təhsil platformaları və “Elektron məktəb” informasiya sistemi kimi layihələr həyata keçirilmişdir. Bundan başqa, Zoom, Moodle və Microsoft Teams kimi platformalar həm ənənəvi, həm də məsafədən tədrisin təşkili üçün geniş istifadə olunur. Ölkənin ali təhsil müəssisələri də bu prosesdə fəal iştirak

edərək rəqəmsal tədris alətləri, onlayn kurslar, virtual laboratoriyalar və məsafədən təhsil texnologiyalarını tətbiq edirlər.

Təhsildə rəqəmsal savadlılığın inkişafı, müəllimlər üçün davamlı metodiki dəstək və texnoloji infrastrukturun təkmilləşdirilməsi əsas prioritetlər sırasındadır. "Azərbaycan son illərdə rəqəmsal təhsilin inkişafı üçün bir sıra proqramlara başlayıb. Bu sahədəki layihələrin ilkin nümunələri arasında "STEAM Azerbaijan" proqramları, "Rəqəmsal Bacarıqlar" layihəsi və "Təhsildə Keyfiyyətin Təminatı Agentliyi" var" [4, s.6].

Müəllim hazırlığı və texniki bacarıqlar sahəsində bölgələr arasında müəyyən fərqlər qalmaqdadır. Rəqəmsal texnologiyaların təhsil sisteminə uğurla inteqrasiyası üçün bütün məktəblərin sabit internet və müasir texniki avadanlıqlarla təmin olunması, rəqəmsal təlimatların kurikulumlara daxil edilməsi, yerli rəqəmsal platformaların yaradılması və müəllimlər üçün sertifikatlaşdırılmış təlim proqramlarının həyata keçirilməsi vacibdir.

Dərsin mərhələlərinə və müəllimin seçdiyi təlim üsullarına uyğun olaraq tətbiq edilən texnologiyalar dəyişə bilər. Dərsin "Motivasiya və problemin qoyuluşu" mərhələsində mövzuya uyğun qısa video və ya süjetli şəkillərin nümayişi məqsədəuyğundur. "Tədqiqatın aparılması" mərhələsində şagirdlərə verilən tapşırıqlar üzrə internet resurslarından məlumat toplamaq və təqdimatlar hazırlamaq mümkündür. "Nəticə və ümumiləşdirmə" mərhələsində isə müəllimin seçdiyi üsula əsasən (məsələn, şaxələndirmə) əldə edilən nəticələrin və qiymətləndirmə cədvəllərinin ekranda göstərilməsi dərsin səmərəliliyini artırır, şagirdlərin motivasiyasını və fəallığını yüksəldir.

Texnologiyaya əsaslanan tədris vasitələrinə smartfonlardan, interaktiv lövhələrdən, video konfranslardan, PowerPoint təqdimatlarından və digər bu kimi vasitələrdən istifadə daxildir. Müəllim texnologiyalardan istifadə edərkən onların dərsə uyğunluğunu və funksionallığını yoxlamalı, internet bağlantısının mövcudluğuna əmin olmalı, elektrik kəsilməsi hallarında alternativ plan hazırlamalıdır. Həmçinin, şagirdləri texnologiyadan istifadə qaydaları ilə tanış etməli, seçilən texnologiyanın sadə, əlçatan və dərsin müddətinə uyğun olmasına diqqət yetirməlidir.

Texnologiyaların tədris prosesinə inteqrasiyası dərslərin daha maraqlı və interaktiv keçməsinə, mövzunun daha yaxşı mənimsənilməsinə, eləcə də şagirdlərin tənqidi və yaradıcı düşünmə bacarıqlarının inkişafına şərait yaradır. "Təlim prosesində audio-vizualdan tutmuş toxunma texnologiyalarına qədər müxtəlif texnologiyalardan istifadə şagirdlərdə təlimə maraq yaradır, fəal və interaktiv öyrənməni təşviq edir, diqqəti maksimum dərəcədə artırır, müstəqil işə həvəsləndirir, tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir, öyrənməyi asanlaşdırır, texnoloji biliklərin inkişafına müsbət təsir göstərir" [3, s.224].

Son illərdə təhsil sahəsində həyata keçirilən islahatlar müasir dövrün tələblərinə uyğun şəkildə aparılır. Bu tələblərə cavab verə bilən mütəxəssislərin

hazırlanmasında yeni texnologiyalardan səmərəli istifadə xüsusi əhəmiyyət daşıyır. Bu məqsədlə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində ümumi təhsil sisteminin inkişafı istiqamətində mühüm addımlar atılır. Müasir təhsil prosesində informasiya texnologiyalarının tətbiqi bilik və bacarıqların formalaşmasına böyük təsir göstərir. Artıq informasiya və kommunikasiya texnologiyaları (İKT) müasir təhsil və bacarıq inkişafının əsas hərəkətverici qüvvələrindən biri kimi diqqəti cəlb edir. Bunun nəticəsində, ölkəmizdə təhsilin informasiyalaşdırılması istiqamətində sürətli irəliləyişlər müşahidə olunur.

***Ədəbiyyat***

1. *Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. (2021). https://president.az/az/articles/view/50474*
2. *Azərbaycan Respublikasında təhsil üzrə Dövlət Strategiyası. (2013). https://eqanun.az/framework/27274*
3. *Bibixanım İbadova. Təlim prosesində texnoloji vasitələrdən istifadənin səmərəliliyi https://konfrans.ndu.edu.az/media/publication-pdf/Reqemsalla%C5%9Fma_2024_eee__2__1.pdf*
4. *Şəlalə Qoçuyeva.Təhsildə rəqəmsal texnologiyaların rolu. https://www.researchgate.net/publication/390941319_Thsild_rqmsal_texnologiyalarin_rolu)*
5. *Zülfiyyə Tanrıverdiyeva. Təhsil sistemində kurikulumun rolu: Azərbaycanda innovativ təlim yanaşmaları. https://konfrans.ndu.edu.az/media/publication-pdf/Reqemsalla%C5%9Fma_2024_-_eee__2__1.pdf*

**İsmayılova A.X.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ismayillinicat89@gmail.com***

# İBTİDAİ MƏKTƏB ŞAGİRDLƏRİNİN OXU BACARIQLARININ FORMALAŞDIRILMASINDA STRATEGİYALI OXUNUN ROLU

***Xülasə***

*Bu gün təhsilin qarşısında duran mühüm vəzifələrdən biri şagirdlərin oxu bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsidir. Oxu dedikdə sadəcə mətnin texniki şəkildə səsləndirilməsi nəzərdə tutulmur. Mətnlə bağlı suallara cavab verilməsi, mətindəki hadisələrin həyatla əlaqələndirilməsi, mətnin proqnozlaşdırılması, əsas ideyanın tapılması və s. məhz oxu strategiyalarının düzgün qurulması sayəsində mümkün olur. Strategiyalı oxu vasitəsilə şagird oxuduğunu anlamaq, əsas fikri müəyyənləşdirmək, sual vermək, fikir mübadiləsi aparmaq, müstəqil öyrənmə və s. bacarıqlarına yiyələnir. Düzgün seçilmiş və məqsədyönlü şəkildə tətbiq edilmiş oxu strategiyaları şagirdlərin mətnə münasibətini fəallaşdırır, onların müstəqil oxu vərdişlərinin və dil qabiliyyətlərinin inkişafına səbəb olur. Məqalədə ibtidai təhsil pilləsində şagirdlərin oxu bacarıqlarının formalaşdırılmasında, inkişaf etdirilməsində strategiyalı oxu yanaşmasının rolundan söz açılır.*

# РОЛЬ СТРАТЕГИЧЕСКОГО ЧТЕНИЯ В ФОРМИРОВАНИИ НАВЫКОВ ЧТЕНИЯ УЧАЩИХСЯ НАЧАЛЬНОЙ ШКОЛЫ

***Резюме***

*Одной из важных задач современного образования является формирование и развитие навыков чтения у учащихся. Чтение — это не просто техническое декламирование текста. Ответы на вопросы по тексту, соотнесение событий в тексте с жизнью, прогнозирование текста, нахождение главной мысли и т. д. возможны именно благодаря правильному построению стратегий чтения. Благодаря стратегическому чтению учащийся приобретает навыки понимания прочитанного, определения главной мысли, постановки вопросов, обмена идеями, самостоятельного обучения и т. д. Правильно выбранные и целенаправленно применяемые стратегии чтения активизируют отношение учащихся к тексту, способствуют развитию у них навыков самостоятельного чтения и языковых навыков. В статье рассматривается роль стратегического подхода к чтению в формировании и развитии навыков чтения учащихся на уровне начального образования.*

# THE ROLE OF STRATEGİC READİNG İN THE FORMATİON OF STUDENTS' READİNG SKİLLS İN PRİMARY SCHOOL

***Summary***

*One of the important tasks facing education today is the formation and development of students' reading skills. Reading does not mean simply reciting the text in a technical way. Answering questions about the text, relating events in the text to life, predicting the text, finding the main idea, etc. is possible precisely thanks to the correct construction of reading strategies. Through strategic reading, the student acquires the skills of understanding what he reads, determining the main idea, asking questions, exchanging ideas, independent learning, etc. Properly selected and purposefully applied reading strategies activate students' attitude to the text, lead to the development of their independent reading habits and language abilities. The article discusses the role of the strategic reading approach in the formation and development of students' reading skills at the primary education level.*

***Açar sözlər:*** *strategiyalı oxu, oxu bacarıqları, anlayaraq oxu, təlim strategiyaları, oxu anlayışı, strategiyalı oxu növləri*

***Ключевые слова****: стратегическое чтение, навыки чтения, понимание прочитанного, стратегии обучения, понимание прочитанного, типы стратегического чтения*

***Key words:*** *strategic reading, reading skills, reading comprehension, learning strategies, reading comprehension, types of strategic reading*

## Giriş

Təhsil sistemində yeniləşmə və tədris prosesinin şəxsiyyətyönümlü istiqamətdə inkişafı ibtidai təhsilin məzmununa yeni tələblər irəli sürür. Bu tələblər sırasında şagirdlərin müstəqil öyrənmə, düşünmə və yaradıcı fəaliyyət bacarıqlarının inkişafı mühüm yer tutur. Həmin bacarıqların formalaşmasının əsas şərtlərindən biri isə düzgün və şüurlu oxu vərdişlərinin əldə edilməsidir. Oxu bacarığı yalnız savadlılığın göstəricisi deyil, həm də uşağın ümumi idrak inkişafının, təfəkkür və nitq mədəniyyətinin təməlidir. İbtidai sinif mərhələsi oxu bacarığının formalaşdığı, oxu motivasiyasının yarandığı və şagirdin gələcək təhsil nailiyyətlərinə birbaşa təsir edən ən mühüm dövrüdür. İbtidai təhsil pilləsində oxu bacarığının formalaşdırılması, tədris prosesinin əsas məqsədlərindən biri olmaqla yanaşı, bütün sonrakı təhsil pillələrinin də təməlini təşkil edir. Oxu şagirdlərin nitq bacarıqlarını inkişaf etdirir. Şagirdlər ilk oxu texnikasına savad təlimi dövründə yiyələnirlər. Bu zaman onlar səslər və hərflərlə tanış olurlar. Savad təlimi dövründə asandan çətinə, sadədən mürəkkəbə prinsipi gözlənilməklə oxu vərdişlərinin yaradılması istiqamətində ciddi iş aparılır. İbtidai siniflərdə oxu bacarıqlarının inkişaf etdirilməsi üzrə işlər sadə süjetli bədii əsərlər, folklor nümunələri üzrə və məlumat xarakterli

mətnlər üzrə aparılır. Oxu şagirdlərdə şüurlu, düzgün, ifadəli oxumağı, oxunmuş materialın məzmunu nağıletmə bacarığını yaradır. Oxumağı öyrənməyən və ya zəif oxuyan uşaq lazımi biliyi dərk edə bilməz. Əgər uşaq oxuya bilirsə, amma oxuduğunu başa düşmürsə, bu, həm də sonrakı öyrənmə proesində böyük çətinliklərə səbəb olacaqdır. Oxu təlimində əsas məqsədlərdən biri də məhz şagirdlərdə oxuyub-anlama bacarıqlarının formalaşdırılmasıdır. *Anlayaraq oxumanın məqsədi əsərin məzmununu maksimum tam, dəqiq mənimsəmək və onu başa düşüldüyü şəkildə ifadə etməkdir. Bu isə diqqətli oxu və təhlil vasitəsilə mümkündür. Əgər insan düşünərək oxuyursa, onun təxəyyülü mütləq fəaliyyətdədir və fəal şəkildə daxili obrazla qarşılıqlı əlaqədədir* [5, s.3].

Hər şagirdin oxusunun düzgünlüyü, sürəti, şüurluluğu və ifadəliliyinin səviyyəsini öyrənmədən, onların keyfiyyətinə təsir göstərən səbəbləri aşkara çıxarmadan təlimin səmərəliliyini yüksəltmək çətindir. Oxunun keyfiyyəti şagirdlərin oxu vərdişinə necə yiyələnmələrindən asılıdır. Məhz buna görə oxu fəaliyyətinin bütün formalarında 4 əsas tələbin-düzgünlük, şüurluluq, sürətlilik və ifadəliliyin yerinə yetirilməsi vacib hesab olunur. Şagirdlərin oxu texnikası bu tələblər baxımından təkmilləşdirilməsə, oxu dərsləri uşaqlara oxumağı və müstəqil biliklər əldə etməyi öyrədə bilməz. Oxunun bu dörd keyfiyyəti bir-biri ilə sıx əlaqədardır.

İbtidai sinif şagirdlərində oxu bacarıqlarının inkişafı bir sıra psixoloji, pedaqoji və metodiki amillərlə sıx bağlıdır. Bu mərhələdə düzgün oxu texnikasının, şüurlu və ifadəli oxunun, həmçinin oxu motivasiyasının formalaşdırılması xüsusi diqqət tələb edir. Müəllimin seçdiyi tədris üsulları, istifadə etdiyi mətnlər və tətbiq etdiyi oxu strategiyası uşağın oxuya münasibətini və keyfiyyətini birbaşa təsiri altına alır. Oxu bacarığı formalaşmış şagirdlər daha yaxşı məlumat əldə edir və ünsiyyət bacarıqlarını təkmilləşdirirlər. Bu baxımdan, ibtidai sinif mərhələsində oxu prosesinə sistemli yanaşma, müasir pedaqoji texnologiyalardan oxu strategiyalarından və interaktiv üsullardan səmərəli istifadə zəruridir.

**Strategiyalı oxu və onun əhəmiyyəti**

Şagirdlərin təlim nəticələrini yüksəltmək üçün müvafiq strategiya, metod və üsullardan istifadə etmək, mətnin oxusunu düzgün təşkil etmək olduqca vacibdir. Oxunun düzgün təşkili dedikdə isə strategiyalı oxu nəzərdə tutulur. İbtidai sinif şagirdlərinin oxu bacarıqlarının formalaşdırılmasında oxu strategiyalrının rolu böyükdür. Strategiyalı oxu nədir? Strategiyalı oxu şagirdlərin öz oxu fəaliyyətini təşkil və idarə etməsidir. Strategiyalı oxu "düşünərək oxu" deməkdir. Bu oxu zamanı şagird çevik düşünmək, sual vermək, keçmiş biliklərə əsaslanan yeni biliklər əldə etmək, fikir mübadiləsi aparmaq, nəticədə fikri dəqiq müəyyənləşdirmək və ondan həyati problemlərin həllində istifadə etmək kimi bacarıqlara yiyələnir. Strategiyalı oxuda şagird öz

oxu fəaliyyətini özü təşkil və idarə edir. Belə ki, şagird məqsədinə nail olmaq üçün öz fəaliyyətlərini düşünülmüş şəkildə təşkil edir, yəni öz strategiyasını qurur. Oxu strategiyasını qurmağı bacaran şagird mətnlə bağlı gözlənilən nəticəni artıq oxuya başlamazdan əvvəl aydın təsəvvür edə bilir. O, bilir ki, hansı suallar cavablandırılmalıdır? Oxu hansı plana əsasən təşkil edilməlidir? O, bu haqda artıq nələri bilir? Səmərəli oxu üçün nələr etmək lazımdır?

Strategiyalı oxu həmçinin şagirdə öz oxu nəticələrini yoxlamaq və bu nəticələr üzərində düşünmək imkanı verir. *Beləliklə, şagirdə vacib idraki bacarıqlar − əsas ideyanı müəyyən etmək, onları əvvəlki biliklərlə əlaqələndirmək, oxuduğu mətni başqa mətnlərlə müqayisə etmək, mətndə təsvir olunanları təsəvvüründə canlandırmaq kimi bacarıqlar formalaşır. Bunları isə təfəkkürün yüksək mərhələsinə − təxəyyülə doğru atılan ilk addım kimi qiymətləndirmək olar* [2, s.37]. Strategiyalı oxu prosesində həmçinin,oxu vərdişi aşılanır, yüksək əxlaqi keyfiyyətlər formalaşır, oxumağa maraq yaradılır və s.

Strategiyalı oxu – oxu bacarıqlarına yiyələnmə, təqdim olunan mətni dərk edərək, düzgün, sürətli, şüurlu, ifadəli oxuya bilmək qabiliyyətini formalaşdırır. Bu zaman şagird oxunmuş materialın məzmununu nəql edir, təhlil edir, ona öz münasibətini bildirir, hadisələri həyatla əlaqələndirir. Strategiyalı oxu şagirdlərin söz ehtiyatını zənginləşdirir, nitqini, özünüifadə bacarıqlarını inkişaf etdirir.

Psixoloqlar strategiyalı oxunu şagirdlərin anlamasında, düşünməsində, təfəkküründə mühüm rola malik olduğunu qeyd edirlər. İndiki zamanda oxu strategiyası fəal təlim prinsiplərinə cavab verən təhsilə tam uyğundur. Belə oxu şagirdlərdə düşünməni sürətləndirir, ümumiləşdirmə, yaradıcı tətbiqetmə kimi qabliyyətləri üzə çıxarır. Bütün bunlar isə onların həyatda qarşılaşdığı problemləri həlletmə bacarıqlarını formalaşdırır. Strategiyalı oxu materialın dərk edilməsində mühüm rol oynayır. Bütün deyilənlərə əsasən strategiyalı oxunun əhəmiyyətini aşağıdakı kimi qeyd etmək olar:

➢ Oxucu oxunun məqsədini müəyyənləşdirib, fəaliyyətini idarə edə bilir. Belə olduqda şagirdlər gözlənilən nəticəni oxuya başlamamış təsəvvür etməyi bacarırlar.

➢ Strategiyalı oxu dərslərində şagirdlərin mütaliə bacarıqları güclənir, kitaba maraqları artır. Şagirdlər tədricən oxunun idraki əhəmiyyətini başa düşürlər. Oxunun düzgün təşkili uşaqlarda oxuya, mütaliəyə meyli gücləndirir.

➢ Strategiyalı oxu təlimi prosesində müəllimlə şagirdlər arasında qarşılıqlı əməkdaşlıq baş verir. Müəllimin oxuya nəzarəti, şagirdləri bilik, bacarıq və vərdişlərə yiyələnməsi məqsədəuyğun şəkildə həyata keçirilir.

Strategiya ilə oxunun inkişaf etdirilməsi, oxu vərdişlərinin yaradılması işlərinin aparılması savad təliminin zəruri məsələlərindən biridir. Oxu bacarıqları o zaman daha səmərəli formalaşır ki, uşaqların yaş xüsusiyyətlərinə

uyğun bədii əsərlərdən parçalar, xalq yaradıcılığı üzrə iş aparılsın. Azərbaycan dili dərsliklərində verilən materiallar şagirdlərin təfəkkür prosesini inkişaf etdirir, nitq bacarıqlarının yaranmasına səbəb olur. Bütün bunlar isə oxu bacarıqlarına yiyələnməkdə mühüm rol oynayır.

**Strategiyalı oxunun tədrisi texnologiyası və növləri**

Qeyd etmək lazımdır ki, təlimdə düşünmə 3 mərhələdə özünü göstərir: təlimə başlamazdan əvvəl, təlim prosesində və təlimdən sonra. Oxuda strategiya düşünmənin hər 3 mərhələsini əhatə edir.

- I mərhələ – düşünməyə yönəltmə mərhələsi- təfəkkürü tədrisə hazırlayır.
- II mərhələ – dərketmə mərhələsi – təlim prosesində düşüncəni səfərbər edir.
- III mərhələ – düşünmə mərhələsidir, bu zaman biliklər inteqrasiya edilir, əlaqələndirilir və fikirlərə tətbiq edilir.

Düşünməyə yönəltmə mərhələsi təlimin ən əsas mərhələsidir. Öyrəninənlər təhlil edilir, təlimin daha səmərəli təşkili üçün planlaşdırma aparılır. Bu mərhələdəki hazırlığın keyfiyyəti şagirdin uğurlu fəaliyyətini meydana çıxardır.

Dərketmə mərhələsi təlim prosesində baş verən, oxunun təşkili zamanı reallaşır və şagirdlərin düşüncəsini, nəticələrin qiymətləndirilməsini özündə birləşdirir.

Düşünmə mərhələsi, yəni mətnin oxusundan sonra tətbiq edilən strategiyalar şagirdin düşünməsinin təşkilinə yönəldilir. Şagird bu mərhələdə öyrəndiklərini təhlil və müqayisə etməklə daha əhatəli düşünür, ümumiləşdirmələr aparır.

Strategiyalı oxuda yuxarıda qeyd olunan hər 3 mərhələ tətbiq edilir. İbtidai siniflərdə elə şagirdlər var ki, oxu zamanı ciddi çətinliklər çəkirlər. Belə hallarla üzləşən müəllim həmin şagirdlərlə fərdi məşğul olmaqla bərabər, fəal təlim texnologiyalarına əsaslanan qrup işinin köməyindən faydalanır. Müəllim şagirdlərin maraq sferasını təmin etmək üçün onları parlaq şəkilli, zövqlü kitablar təqdim edir. O, sinifdəki şagirdlərin idrak səviyyəsini bildiyi üçün işini düzgün qurmaqda çətinlik çəkmir. Müəllim sinifdə strategiyalı oxu təşkil etdikdə əvvəllər əldə olunan nailiyyətləri nəzərə almaqla, necə fəaliyyət göstərəcəyini müəyyənləşdirir. Bu prosesdə oxu üçün mətnlər seçərkən müəllim çox diqqətli olmalıdır. Strategiyalı oxu üçün seçilən mətn çox asan olursa, onda belə oxuya heç bir ehtiyac qalmır. Oxu materialı çox mürəkkəb olduqda isə şagirdin oxuya olan marağı azalır. Oxu materialının məzmunu şagirdi cəlb etməli, o mətnin mənasını dərk etmək üçün ardıcıl fəaliyyət göstərməyə can atmalıdır. Şagirdlərin idrak səviyyələri və oxu bacarıqları fərqli olduğu üçün oxu materiallarının seçimində bunlar nəzərə alınır.

I siniflərdə kiçik mətnlər üzrə oxu texnikasına, II-IV siniflərdə nisbətən iri həcmli mətnlərlə oxu vərdişlərinə yiyələnən şagidlər strategiyalı oxu fəliyyətinin təşkilində yaxşı nəticələr əldə edirlər. Belə ki, kiçik mətnlər üzrə gözlənilən nəticələr əldə ediləndən sonra geniş mətnlər üzrə strategiyalı oxu fəaliyyətini təşkil etmək olar.

Strategiyalı oxu dedikdə, elə düşünmək olmaz ki, şagird sözləri düzgün və ucadan oxuyursa, deməli, oxuyur. Lakin, təkcə düzgün və ucadan oxu problemi həll etmir. Məsələ oxunun dərk edilməsi və uyğun strategiyanın nəzərdə tutulmasıdır. Ola bilər ki, şagird düzgün və rəvan oxuyur, lakin oxunan mətnə dair əsas fikirləri şərh etməkdə çətinlik çəkir. Elə şagird də olur ki, oxusunda çətinlik var, ancaq mətndəki əsas fikri dərk edir və təhlillər apara bilir.

Təlim zamanı şagirdərə mətn, əsər, kitab haqqında danışmaq deyil, oxu strategiyasının necə istifadə edildiyini nümayiş etdirmək lazımdır. Bu zaman müəllimin vəzifələri və fəaliyyəti köklü şəklidə dəyişir. Müəllim mətnin oxusunu tapşırıb, sonra da onun necə oxunduğunu qiymətləndirən bir ekspert vəzifəsindən çıxış edir. O oxu prosesini təşkil edən, modelləşdirən bir köməkçiyə çevrilir. Eləcə də qiymətləndirmə zamanı mətndə əsas ideyanın necə və hansı yollarla aşkar edildiyi qiymətləndirilir. Buna nail olmaq üçün müəllim oxu strategiyasını düzgün təşkil etməyi bacarmalıdır.

Şagirdlərin öz oxu fəaliyyətlərini düzgün təşkil və idarə edə bilmələri üçün müəllim onlarda hələ aşağı siniflərdən strategiyalı oxu bacarıqlarını formalaşdırmalıdır. Strategiyalı oxu prosesində ibtidai sinif şagirdlərinə müxtəlif yanaşmalar təqdim edilir. Onlar strategiyalı oxunun müxtəlif növləri ilə tanış olurlar: səsli oxu, səhnələşdirilmiş oxu, dərinləşdirilmiş oxu, seçmə oxu, ordan-burdan oxu, xorla oxu, suallar əsasında oxu, səssiz oxu, sürətli oxu, nəzərdən keçirməklə oxu, qeydlər aparmaqla, işarələyərək oxu, rollu oxu, növbəli oxu və s.

İbtidai təhsildə şagirdlərin oxu bacarıqlarının formalaşdırılmasında aşağıdakı strategiyalı oxu növlərindən geniş istifadə olunur:

**Səsli oxu:** Səsli oxuda ədəbi tələffüz vərdişlərinin aşılanması prosesi baş verir. Səsli oxunun təşkil edilməsində məqsəd şagirdlərin oxu vərdişlərini müəyyənləşdirməklə yanaşı, onun inkişafına dəstək verməkdir. Səsli oxuda aşağıdakı məsələlər həyata keçirilir:

– müəllimin nümunəvi oxusu başa çatdıqda, şagirdlərin mətnin məzmununu qavramalarına aid suallar verilir;

– qruplara ayrılmış şagirdlər mətnin onlara həvalə olunan hissəsini oxuyurlar;

– sinifdə mətn şagirdlərə səsli oxudulur və suallar cavablandırılır.

**Səssiz oxu:** Oxunun səssiz təşkili şagirdləri oxu üzrə işlərini idarə edə bilmək, səlis və sürətlə oxumasına şərait yaratmaqdır. Şagirdin səssiz oxuması

əsərin məzmununun öyrənilib, nağıletməyə hazırlaşmasında, şeiri əzbərləməkdə və oxu vərdişlərinin möhkəmləndirilməsində mühüm rol oynayır. Səssiz oxuda gözlər hərəkət edir, beyin fəaliyyətdə olur. Oxu zamanı hər kəs sakitcə mətni oxuyur bir-birinə mane olmurlar. Oxuya verilən vaxt bitdikdə mətnin müzakirə edilməsi vacibdir, yalnız belə olduqda şagirdlərin işinin nə dərəcədə səmərəli olduğu meydana çıxır. Şagirdlərə müxtəlif suallar verməklə məzmunun mənimsənilməsini yoxlamaq olar. Məsələn, *"Əsərdə xoşunuza gələn hissə hansıdır?", "Əsərdəki qəhrəmanı hansı xüsusiyyətinə görə sevdiniz?", "Həyatda belə hadisələr olurmu?"* və s.

**Sürətli oxu:** Oxunun sürəti gözlərin daha çox hərəkət etməsinə səbəb olur ki, bu da çox faydalı məşqdir. Sürətli oxunun əhəmiyyəti ondadır ki, az vaxda daha çox məlumat əldə edilir. Mətnin keyfiyyətli mənimsənilməsi, bütöv oxunması üçün sürətli oxudan istifadə faydalıdır.

**Sual verərək oxu:** Oxunun təşkili zamanı tələb edilir ki, şagirdlər suallar hazırlasınlar. Məqsəd şagirdlərin oxu materialı haqqında düşünmələrinə nail olmaqdır. Belə metodun tətbiqi müxtəlif formalarda həyata keçirilir. Mətnin oxusu həyata keçirildikdən sonra şagirdlərin oxu prosesində zehinlərində doğan sualların yaranması. Qruplarla iş zamanı şagirdlər bu sualları cavablandırmağa çalışırlar. Qrup üzvləri və ya sinif şagirdləri bir-birinə suallar verir və ya sualları cavablandırırlar.

**Müqayisəli oxu:** Mütəfəkkirlərin fikrincə, müqayisə hər cür dərketmənin əsasıdır. Şagirdlər dərslikdə və ya sinifdənxaric oxuda tanış olduqları mətnləri düşüncə tərzlərinə uyğun olaraq oxuduqları mətnlə müqayisə edirlər. Müqayisə etmə şagirdlərdə təfəkkür proseslərinin inkişafına səbəb olur. Verilmiş mətnin əvvəlki mətnlərdən fərqli və oxşar cəhətlərini müzkirə edilərək müəyyənləşdirilməsi sinif şagirdlərinin intellektual inkişafını dəstəkləyir.

Strategiyalı oxunun növlərinə nəzər saldıqda görürük ki, onların hər biri şagirdin nitq və təfəkkürünün inkişafına yönəlmişdir. Oxu şagirdlərin nitqinə güclü təsir göstərir. Bu prosesdə şagirdlər ədəbi tələffüz normalarına əməl etməyi öyrənir, orfoqrafiya və intonasiya qaydalarına praktik olaraq yiyələnirlər. Strategiyalı oxu prosesində ibtidai sinif şagirdlərinin təfəkkürü və şifahi nitq bacarıqları inkişaf edir. Göründüyü kimi strategiyalı oxu şagirdlərə fakt və hadisələri anlamağa, yadda saxlamağa, ümumiləşdirməyə, müqayisə etməyə, nəticə çıxarmağa, sistemləşdirməyə, hadisələrin gedişini izləməyə və yaradıcı şəkildə yanaşmağa kömək edir.

## Nəticə

Nəticə etibarilə, ibtidai təhsildə şagirdlərin oxu bacarıqlarının formalaşması onların ümumi təhsil həyatının və intellektual inkişafının əsasını təşkil edir. Bu prosesdə strategiyalı oxu metodlarının tətbiqi, şagirdlərin mətnləri anlama, analiz etmə, əsas fikirləri müəyyənləşdirmə və nəticə çıxarma

kimi vacib bacarıqları inkişaf etdirməsinə mühüm təsir göstərir. Strategiyalı oxu şagirdlərdə təkcə texniki oxu bacarığını deyil, eyni zamanda düşünərək oxuma, oxu zamanı fərqli strategiyalardan istifadə etmə vərdişini formalaşdırır. Müəllimlərin bu metodlardan səmərəli şəkildə istifadə etməsi və şagirdlərə fərdi yanaşması, onların oxuya marağını artırmaqla yanaşı, müstəqil öyrənmə bacarıqlarının inkişafına da zəmin yaradır. Beləliklə, strategiyalı oxu ibtidai təhsildə səmərəli tədrisin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilməlidir.

***Ədəbiyyat***

1. *Cəfərova. N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı – 2016.*
2. *Cəfərova. N.B. İbtidai siniflərdə strategiyalı oxu problemi. Bakı: ADPU, 2022, 290 s.*
3. *Həsənli B. Abdullazadə N., İfadəli oxu. Bakı, Müəllim, 2015, 298 s.*
4. *http://www.tipii.edu.az/az/article/288- oxuyub-anlama-strategiyalari*
5. *https://as-journal.edu.az/uploads/files/2024/04/s-79-85-humay-alikishiyeva.pdf*

**İsmayılova R.Ə.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ismayilova.reqsane.041@gmail.com***

# İNKLÜZİV TƏHSİL SİYASƏTİNİN REALLAŞMASINDA VALİDEYN, MÜƏLLİM VƏ CƏMİYYƏT ƏMƏKDAŞLIĞININ ROLU

***Xülasə***

*Təhsil yalnız bilik və bacarıqların mənimsənilməsi deyil, həm də fərdin sosial həyata hazırlığının əsas mərhələsidir. Sağlamlıq imkanları məhdud şəxslər də daxil olmaqla bütün fərdlərin bərabər və keyfiyyətli təhsil hüququ inklüziv təhsil anlayışının mahiyyətini təşkil edir. İnklüziv təhsil xüsusi ehtiyaclı şagirdlərin ümumi təhsil mühitinə inteqrasiyasını, onların fərdi tələbatlarına uyğunlaşdırılmış tədris şəraitinin yaradılmasını nəzərdə tutur.*

*İnklüziv təhsilin effektivliyi müəllim-valideyn əməkdaşlığından əhəmiyyətli dərəcədə asılıdır. Valideynlərin tədris prosesinə fəal qoşulması uşağın sosial-emosional inkişafını dəstəkləyir və fərdi inkişaf planlarının hazırlanmasına töhfə verir. Məqalədə inklüziv təhsilin uğurlu tətbiqi üçün məktəb və ailə arasında sistemli əməkdaşlığın gücləndirilməsinin vacibliyi önə çəkilir.*

# РОЛЬ СОТРУДНИЧЕСТВА РОДИТЕЛЕЙ, УЧИТЕЛЕЙ И ОБЩЕСТВЕННОСТИ В РЕАЛИЗАЦИИ ПОЛИТИКИ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

***Резюме***

*Образование представляет собой не только усвоение знаний и навыков, но и важнейший этап подготовки личности к социальному взаимодействию. Право на равное и качественное образование для всех, включая лиц с ограниченными возможностями здоровья, составляет сущность концепции инклюзивного образования. Инклюзивное образование предполагает интеграцию учащихся с особыми образовательными потребностями в общую образовательную среду и создание условий обучения, адаптированных к их индивидуальным требованиям.*

*Эффективность инклюзивного образования в значительной степени зависит от сотрудничества между учителем и родителями. Активное участие родителей в учебном процессе способствует социально-эмоциональному развитию ребёнка и содействует подготовке индивидуальных планов развития. В статье подчёркивается необходимость укрепления системного взаимодействия между школой и семьёй для успешной реализации инклюзивного образования.*

# THE ROLE OF COOPERATION PARENTS, TEACHERS AND COMMUNITY IN THE IMPLEMENTATION OF INCLUSIVE EDUCATION POLICY

***Summary***

*Education is not merely the acquisition of knowledge and skills, but also a fundamental stage in preparing individuals for participation in social life. The right to equal and quality education for all individuals, including persons with disabilities, constitutes the essence of the concept of inclusive education. Inclusive education aims to integrate students with special educational needs into the general educational environment and to create learning conditions tailored to their individual requirements.*

*The effectiveness of inclusive education largely depends on collaboration between teachers and parents. Active parental involvement in the learning process supports the child's social and emotional development and contributes to the preparation of individualized development plans. The article highlights the necessity of strengthening systematic cooperation between school and family for the successful implementation of inclusive education.*

***Açar sözlər:*** *inklüziv təhsil, təhsil siyasəti, valideyin-müəllim əməkdaşlığı, cəmiyyət, dəstək mexanizimləri*

***Ключевые слова:*** *инклюзивное образование, образовательная политика, сотрудничество родителей и учителей, общество, механизмы поддержки*

***Key words:*** *inclusive education, educational policy, parent-teacher collaboration, society, support mechanisms*

Təhsil yalnız bilik, bacarıq və dəyərlərin əldə edilməsi prosesi deyil, eyni zamanda insanı həyata hazırlayan mühüm bir mərhələdir. Cəmiyyətdə bərabərhüquqlu mövqe tutmaq və hərtərəfli inkişaf etmək istəyən hər bir fərd üçün təhsil almaq zəruridir. Bu, hər bir vətəndaşın kimliyindən asılı olmayaraq sahib olduğu fundamental hüquqdur. Əlilliyi olan şəxslər də digərləri kimi keyfiyyətli və inklüziv təhsildən yararlanmaq hüququna malikdirlər.

Müasir təhsil sistemində geniş istifadə olunan anlayışlardan biri "inklüziya"dır. "İnklüziya" (ing. **inclusion** – "daxil etmə") fərqli sosial, fiziki, mədəni və psixoloji fərqliliyi olan şəxslərin bütün sahələrdə (təhsil, sosial həyat, iş həyatı və s.) bərabər hüquqlu iştirakını təmin edən, ayrı-seçkiliyi qaldıran yanaşmadır. "İnklüziya" həmçinin ictimai həyata fəal şəkildə cəlb olunması prosesini ifadə edir. İnklüziv təhsil isə ümumi təhsilin elə bir modeli kimi qəbul olunur ki, burada bütün şagirdlərin, o cümlədən xüsusi təhsil ehtiyacları olanların tədris tələbatları nəzərə alınır və onların sosial mühitə inteqrasiyası təmin edilir.

Qlobal təhsil siyasətinin son onilliklərdə əsas istiqamətlərindən birinə çevrilmiş inklüziv yanaşma sosial ədalət, insan hüquqları və bərabər imkanların

qorunmasına əsaslanır. Bu kontekstdə təhsil sisteminin üzərinə düşən əsas vəzifələrdən biri bütün fərdlərə, xüsusilə də sağlamlıq imkanları məhdud şagirdlərə bərabər və keyfiyyətli təhsil imkanları yaratmaqdır. İnklüzivlik, müxtəlif əqli və fiziki bacarığı olan şagirdlərin məktəb həyatının bütün sahələrinə tam şəkildə cəlb olunmasını nəzərdə tutur. Bu, məktəb mühitinin şagirdlərin fərqli ehtiyaclarına uyğunlaşdırılmasını tələb edir. Qeyd etmək vacibdir ki, bütün uşaqlar öyrənmələrinin müəyyən mərhələlərində əlavə dəstəyə ehtiyac duya bilərlər [5, səh. 86].

Cəmiyyət və dövlətlərin əsas vəzifələrindən biri yalnız əlilliyi olan şəxslərin hüquqlarını tanımaqla kifayətlənməmək, həm də onların təhsil də daxil olmaqla həyatın müxtəlif sahələrində digər insanlarla bərabər imkanlara sahib olmasını təmin etməkdir. Bu yanaşma inklüziv cəmiyyətin formalaşmasına və sosial inteqrasiyanın güclənməsinə xidmət edir.

**Müəllim-valideyin əməkdaşlığı**

Müasir dövrdə inklüziv təhsil yalnız pedaqoji yanaşma deyil, həm də mühüm sosial funksiya daşımaqla, demokratik dəyərlərin və bərabər imkanların möhkəmlənməsinə xidmət edir. Bu proses vasitəsilə cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan şagirdlərə münasibət tədricən müsbət istiqamətdə dəyişir, onların hüquq və imkan bərabərliyinin təmin edilməsinin zəruriliyi daha aydın görünür. Lakin inklüziv təhsilin reallaşdırılmasında müəyyən çətinliklər qalmaqdadır. Bu çətinliklər arasında yalnız peşəkar kadrların hazırlanması deyil, həm də valideynlərin, ailələrin və cəmiyyətin prosesə cəlb olunması xüsusi əhəmiyyət kəsb edir.

Təhsilin keyfiyyətinə təsir göstərən mühüm amillərdən biri valideyn–müəllim əməkdaşlığıdır. Əlilliyi olan və ya müxtəlif inkişaf xüsusiyyətlərinə sahib şagirdlərin təlim-tərbiyəsi təkcə məktəbdə deyil, həm də evdə davam etdiyindən, bu iki mühitin uzlaşması şagirdin psixoloji sabitliyinin və uğurlu inkişafının təmin olunmasında vacib rol oynayır. Buna görə də müəllim və valideynlər arasında qarşılıqlı əməkdaşlıq, düzgün kommunikasiya və ortaq məsuliyyət prinsiplərinə əsaslanan tərəfdaşlıq münasibətlərinin qurulması zəruridir.

Əməkdaşlıq anlayışı təhsildə yalnız informasiya mübadiləsi deyil, həm də qərarların birgə qəbulu, öyrənmə prosesinin dəstəklənməsi və cəmiyyət resurslarından istifadənin təmin edilməsini əhatə edir. Epstein bu əməkdaşlığı altı istiqamətdə təsnif edir: valideynlik, kommunikasiya, könüllülük, evdə öyrənmə, qərar qəbuletmə və icma ilə əməkdaşlıq [3, səh. 16]. Bu istiqamətlər inklüziv siniflərdə də valideynlərin tədris prosesinə inteqrasiyasını gücləndirən çərçivə rolunu oynayır.

Florian və Black-Hawkins vurğulayırlar ki, inklüziv təhsil təkcə müəllimlərin şəxsi öhdəliyini deyil, həm də ailələr və həmkarlarla əməkdaşlığı tələb edir [4, səh. 820]. Eyni zamanda, Ainscow, Booth və Dyson inklüziv

məktəbin əsas xüsusiyyətlərindən birini bütün şagirdlərin təlimdə fəal iştirakını dəstəkləyən əməkdaşlıq münasibətləri kimi dəyərləndirirlər. İnklüziv məktəblərdə əməkdaşlıq yalnız müəllim və valideynlərlə məhdudlaşmır, həm də məktəb rəhbərliyi və ixtisaslı kadrları əhatə edir [2, səh. 127,130].

Valideynlərin prosesdə iştirakı müxtəlif istiqamətlərdə özünü göstərə bilər: şagirdin ehtiyacları haqqında məktəbi məlumatlandırmaq, evdə tədris mühitini dəstəkləmək, müəllimlərlə birgə fərdi inkişaf planlarının hazırlanmasında iştirak etmək və məktəbin təşkil etdiyi pedaqoji maarifləndirmə tədbirlərinə qoşulmaq. Xüsusilə sağlamlıq imkanları məhdud şagirdin ailələri üçün müəllimlərin dəstəyi və psixoloji maarifləndirici tədbirlər mühüm rol oynayır.

Məktəb və valideyn əməkdaşlığının uğurlu olması üçün həm qrup halında, həm də fərdi iş formaları həyata keçirilməlidir. Bu əməkdaşlıq valideynlərin psixoloji gərginliyinin azaldılmasına, şagirdlərin sosial mühitə uyğunlaşmasına və cəmiyyətdə fəal iştirakına şərait yaradır. Beləliklə, inklüziv təhsil mühiti yalnız müəllimlərin deyil, həm də ailələrin, xüsusi təhsil mütəxəssislərinin və idarəçilərin birgə fəaliyyətinə əsaslanır. Valideyn–müəllim əməkdaşlığı inklüziv təhsilin uğurlu həyata keçirilməsinin başlıca şərtlərindən biri olub, şagirdin hərtərəfli inkişafı və sosial inteqrasiyasına mühüm təsir göstərir.

**Məktəb–valideyn əməkdaşlığının dəstək mexanizmləri**

Sağlamlıq imkanları məhdud şagirdlərin həyatında valideynlərin rolu xüsusi əhəmiyyət kəsb edir. Müəllimlər zamanla dəyişə bilsə də, ailə üzvləri daim övladının yanında olaraq onun inkişafında əsas dayaq nöqtəsinə çevrilirlər. Şübhəsiz ki, valideynlər övladlarını hər kəsdən daha yaxşı tanıyır və onların gündəlik davranışları, emosional vəziyyəti, qabiliyyətləri haqqında dərin məlumata sahibdirlər. Bu baxımdan, demək olar ki, valideynlər övladları ilə bağlı məsələlərdə qeyri-rəsmi şəkildə "peşəkar" statusunu qazanırlar. Digər tərəfdən, müəllimlər isə təhsil və inkişaf sahəsində bilik və təcrübəyə malik olaraq şagirdin öyrənmə prosesini istiqamətləndirən əsas mütəxəssislərdir.

Məktəb və müəllimlərin valideynlərə dəstək verməsi müxtəlif istiqamətlərdə reallaşa bilər. İlk növbədə, sosial və emosional yardımın göstərilməsi vacibdir. Müəllim və psixoloqlar valideynlərin özlərini təcrid olunmuş, digər valideynlərdən fərqli və ya günahkar kimi hiss etmələrinin qarşısını almaq üçün onları emosional baxımdan dəstəkləməlidirlər. Bu dəstəyin formaları fərqli ola bilər: valideynlərin digər valideynlərlə birlikdə iclaslarda iştirakı, mütəmadi olaraq övladlarının uğurları haqqında məlumatlandırılması, müəllim və digər mütəxəssislərlə sıx ünsiyyətdə olmaları və hətta lazım gələrsə, sosial qurumlardan kömək almaları üçün şərait yaradılması.

Valideynlərin informasiya ilə təmin olunması da əməkdaşlığın mühüm istiqamətlərindən biridir. Bu, bir tərəfdən valideynlərin övladları haqqında dəqiq və mütəmadi məlumat almasını təmin edir, digər tərəfdən isə onları bir-birilə ünsiyyətə təşviq edir. Müəllimlərin valideynlərlə mütəmadi görüşlər keçirməsi uşağın inkişafındakı dəyişikliklərin vaxtında izlənməsinə imkan yaradır. Bundan başqa, psixoloqların şagirdlər haqqında hazırladığı rəylərin ailələrlə paylaşılması valideynlərin maariflənməsi baxımından faydalıdır. Məktəbin üzərinə düşən digər bir məsələ isə valideynləri ölkəmizdə və xarici ölkələrdə inklüziv təhsil sahəsində əldə edilmiş müsbət təcrübələr barədə məlumatlandırmaqdır.

Valideynlərin övladlarının tədrisinə cəlb olunması da müəllimlərin üzərinə düşən əsas vəzifələrdən biridir. Onların tədris prosesində fəal iştirakını təmin etmək üçün həm məktəbdə həyata keçirilən tədbirlərə qoşulması, həm də evdə övladlarının öyrənməsinə dəstək göstərməsi zəruridir. Bu inteqrasiya uşağın öyrənmə prosesində davamlılığı qorumaq baxımından mühüm rol oynayır.

Digər mühüm istiqamət valideyn və övlad arasında münasibətlərin gücləndirilməsidir. Bu məqsədlə məktəblər müxtəlif seminarlar, psixoloji və pedaqoji dəstək proqramları təşkil edə bilər. Bundan başqa, şagirdlərə ailə üzvləri ilə birlikdə sorğu və layihələrdə iştirak etmək imkanı yaratmaq onların həm ailədaxili münasibətlərinə, həm də ümumi sosial mühitə uyğunlaşmasına müsbət təsir göstərir.

Valideyn iclasları isə məktəblə ailə arasında qarşılıqlı anlaşmanın formalaşdırılmasında xüsusi vasitədir. Bu görüşlər valideynlərin müəllimlərlə daha yaxından tanış olmasına, şagirdin inkişafı barədə məlumat mübadiləsinə və problemlərin birgə həllinə şərait yaradır. İclasların səmərəli keçirilməsi üçün tolerantlıq, diqqətlə dinləmək, çevik yanaşma və səmimiyyət əsas prinsiplərdən olmalıdır. İclasların keçirildiyi məkan da valideynlər üçün rahat və maneəsiz olmalı, məxfilik qorunmalı, həssas məsələlərin sərbəst müzakirəsinə imkan verilməlidir.

Planlaşdırma valideyn iclaslarının mühüm tərkib hissəsidir. Müəllim öncədən valideynlərlə hansı məlumatların bölüşüləcəyini müəyyənləşdirməli, şagirdin iş nümunələri və test nəticələrini hazırlamalı, informasiyanı anlaşıqlı formada təqdim etməlidir. İclasda iştirak edəcək şəxslərin siyahısı da əvvəlcədən dəqiq müəyyən edilməlidir. Əgər şagirdin həyatı ilə bağlı mühüm qərarlar qəbul ediləcəksə, bu zaman hər iki valideynin, nənə və babanın da iştirak etməsi məqsədəuyğundur. Bundan başqa, görüşlərə psixoloq, loqoped, məktəb rəhbərliyinin nümayəndələri dəvət oluna bilər.

Müəllimlər iclasın əvvəlində onun məqsədini aydın şəkildə ifadə etməli, nəticələrin bütün tərəflər tərəfindən razılaşdırılması təmin olunmalıdır. Yekunda hazırlanmış ortaq fəaliyyət planı prosesə nəzarəti asanlaşdırır və

məktəb–valideyn əməkdaşlığını daha səmərəli edir. Beləliklə, valideyn iclasları sadəcə məlumat paylaşma vasitəsi deyil, həm də təhsil prosesinin uğurlu koordinasiyası üçün mühüm bir platforma hesab olunur.

**İnklüziv təhsil siyasətinin reallaşmasında cəmiyyətin rolu**

İnklüziv təhsil siyasətinin uğurla tətbiqi yalnız məktəb və ailə əməkdaşlığı ilə məhdudlaşmır. Bu prosesin dayanıqlı və səmərəli olması üçün bütövlükdə cəmiyyətin iştirakı və dəstəyi əsas şərtlərdən biridir. İnklüziv təhsil, əslində, yalnız tədris prosesində həyata keçirilən pedaqoji yanaşma deyil, həm də sosial ədalət və bərabərlik prinsipinə əsaslanan ümumi-ctimai dəyərdir. Bu baxımdan inklüzivlik ideyalarının cəmiyyət tərəfindən qəbul edilməsi və dəstəklənməsi, əlilliyi və ya xüsusi təhsil ehtiyacı olan şəxslərə münasibətdə tolerantlıq mühitinin formalaşdırılması zəruridir.

Cəmiyyətin rolu bir neçə mühüm istiqamətdə nəzərə çarpır. İlk növbədə, **maarifləndirmə fəaliyyəti** xüsusi əhəmiyyət daşıyır. İnsanların inklüziv təhsil, bərabərlik və insan hüquqları barədə məlumatlandırılması onların bu sahəyə münasibətini müsbət istiqamətdə formalaşdırır. Media, sosial şəbəkələr, ictimai təşkilatlar və dövlət qurumlarının birgə təşəbbüsləri bu işdə mühüm rol oynayır. Məsələn, Azərbaycan Respublikasında Təhsil Nazirliyi və UNICEF əməkdaşlığı ilə həyata keçirilən “İnklüziv təhsil üzrə ictimai maarifləndirmə kampaniyaları” çərçivəsində valideynlər və müəllimlər üçün seminarlar, sosial şəbəkələrdə məlumatlandırıcı videolar hazırlanmışdır. Həmçinin, milli televiziya kanalları da inklüziv təhsil barədə ictimaiyyətin məlumatlandırılmasında mühüm rol oynayır. Azərbaycan Televiziyası (AzTV) mütəmadi olaraq xüsusi reportajlar, sosial çarxlar və müsahibələr yayımlayaraq cəmiyyətdə əlilliyi olan şagirdlərin təhsil hüquqlarının təbliğinə dəstək verir. Maarifləndirmə tədbirləri nəticəsində valideynlər, müəllimlər və sadə vətəndaşlar inklüziv təhsilin mahiyyətini daha dərindən qavrayır və bu prosesə dəstək göstərməyə daha çox meylli olurlar.

İkinci mühüm istiqamət **qeyri-hökumət təşkilatlarının və ictimai birliklərin fəaliyyəti** ilə bağlıdır. QHT-lər inklüziv təhsilin inkişafına yönəlmiş layihələr həyata keçirir, müəllimlər və valideynlər üçün təlim proqramları təşkil edir, ictimai maarifləndirmə kampaniyaları aparır. Bu təşkilatlar həm də beynəlxalq təcrübəni yerli şəraitə gətirməklə, dövlət siyasətinin səmərəliliyini artırırlar. Məsələn, Azərbaycanda fəaliyyət göstərən “Xüsusi Qayğıya Ehtiyacı Olan Şəxslərə Dəstək” İctimai Birliyi müxtəlif məktəblərdə inklüziv siniflərin təşkili və müəllimlər üçün təlimlərin keçirilməsini təmin etmişdir. Bundan başqa, “Əlil Təşkilatları İttifaqı” BMT İnkişaf Proqramı ilə birgə layihələr həyata keçirərək valideynlər və uşaqlar üçün psixoloji dəstək proqramları təşkil etmişdir. Belə təşəbbüslər inklüziv mühitin formalaşmasına əlavə dəstək verir və məktəb-ailə-cəmiyyət əməkdaşlığının güclənməsinə xidmət edir.

Üçüncü istiqamət **könüllülərin fəaliyyəti** ilə bağlıdır. Könüllülərin inklüziv siniflərdə, sosial layihələrdə və xüsusi ehtiyaclı şagirdlər üçün təşkil olunan tədbirlərdə iştirakı onların sosial adaptasiyasına və ictimai həyata fəal qoşulmalarına şərait yaradır. Bu zaman sağlam şagirdlərlə ünsiyyət imkanları genişlənir, qarşılıqlı hörmət və anlaşma mühiti möhkəmlənir. Könüllülük fəaliyyəti həm də cəmiyyətdə empatiya və sosial məsuliyyət hissinin formalaşmasına töhfə verir.

İnklüziv təhsil siyasətinin uğurlu həyata keçirilməsi üçün **ictimai münasibətlərin düzgün formalaşdırılması** mühüm rol oynayır. Sağlam şagirdlərin ailələrinin inklüziv siniflərə müsbət yanaşması, şagirdlər arasında dostluq münasibətlərinin təşviqi və cəmiyyətdə stereotiplərin aradan qaldırılması bu prosesin əsas istiqamətlərindəndir. Belə mühit öyrənənlərin sosial inteqrasiyasını asanlaşdırır və inklüzivlik ideyalarının geniş şəkildə qəbul edilməsinə şərait yaradır.

Nəhayət, **dövlət və cəmiyyət arasında qarşılıqlı əməkdaşlıq** olmadan inklüziv təhsil siyasətinin tam reallaşması mümkün deyil. Dövlət qanunvericilik və institusional mexanizmləri formalaşdırır, cəmiyyət isə bu mexanizmlərin real həyata keçirilməsini dəstəkləyir. Belə qarşılıqlı münasibət nəticəsində inklüziv təhsil yalnız bir siyasət sənədi olaraq qalmır, gündəlik həyatda tətbiq olunan sosial norma səviyyəsinə yüksəlir.

Ümumilikdə, Cəmiyyətlərin inklüziv təhsildə fəal iştirakı uşaqların özünüifadə bacarıqlarını, sosial inteqrasiyasını və əmək bazarında bərabər imkanlarını artırır [6, səh.47]. Bu isə inklüziv təhsilin yalnız pedaqoji deyil, həm də sosial inkişafın mühüm elementi olduğunu bir daha təsdiq edir.

***Ədəbiyyat***

1. *Abbasova, Z. (2020). İnklüziv təhsilin inkişafında ailə-məktəb əməkdaşlığının rolu. Azərbaycan müəllimi, (9), səh. 12–15.*
2. *Ainscow, M., Booth, T., & Dyson, A. (2006). Improving Schools, Developing Inclusion. London: Routledge.*
3. *Epstein, J. L. (2001). School, Family, and Community Partnerships: Preparing Educators and Improving Schools. Boulder, CO: Westview Press.*
4. *Florian, L., & Black-Hawkins, K. (2011). Exploring inclusive pedagogy. British Educational Research Journal, 37(5), 813–828.*
5. *Loreman, T., Deppeler, J., & Harvey, D. (2005). Inclusive Education: A Practical Guide to Supporting Diversity in the Classroom. London: RoutledgeFalmer.*
6. *UNESCO (2020). Global Education Monitoring Report 2020: Inclusion and Education – All Means All. Paris: UNESCO Publishing.*

**İsrafilli L.Q.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***lisraphilli@gmail.com***

# ROLLU OYUNLAR METODU İLƏ "DƏRMAN BİTKİLƏRİ: MÜALİCƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARDAN İSTİFADƏ QAYDALARI" TƏDRİS VAHİDİNİN ÖYRƏDİLMƏSİ

***Xülasə***

*Biologiya fənninin məqsədlərindən biri şagirdlərdə təbiətə maraq və məsuliyyət yaratmaqdır. "Dərman bitkiləri və onların müalicəvi xüsusiyyətləri" mövzusu şagirdlərə həm bilik qazandırır, həm də bu bilikləri gündəlik həyatda tətbiq etmə bacarığını inkişaf etdirir. Ənənəvi tədris şagirdlər üçün hər zaman maraqlı olmaya bilər, buna görə rollu oyunlar metodu dərsdə fəallığı artırır, emosional öyrənmə mühiti yaradır və fənlərarası inteqrasiyanı dəstəkləyir.*

# ИЗУЧЕНИЕ УЧЕБНОГО МОДУЛЯ «ЛЕКАРСТВЕННЫЕ РАСТЕНИЯ: ИХ ЦЕЛЕБНЫЕ СВОЙСТВА И СПОСОБЫ ПРИМЕНЕНИЯ» С ИСПОЛЬЗОВАНИЕМ МЕТОДА РОЛЕВЫХ ИГР

***Резюме***

*Одна из целей обучения биологии — формировать у учащихся интерес и ответственность по отношению к природе. Тема «Лекарственные растения и их целебные свойства» дает необходимые знания и помогает применять их в реальной жизни. Традиционные уроки не всегда привлекательны, поэтому метод ролевых игр повышает активность учащихся, создаёт эмоциональную и интерактивную среду и способствует межпредметной интеграции, делая обучение более эффективным и содержательным.*

# TEACHİNG THE LEARNİNG UNİT "MEDİCİNAL PLANTS: THEİR HEALİNG PROPERTİES AND METHODS OF USE" THROUGH THE ROLE-PLAYİNG METHOD

***Summary***

*One of the goals of biology education is to develop students' interest in and responsibility toward nature. The topic "Medicinal plants and their healing properties" provides learners with essential knowledge while helping them apply it in real-life situations. Traditional teaching may not always be engaging, so the role-play method increases student participation, creates an emotional and interactive learning environment, and supports interdisciplinary connections, making the lesson more effective and meaningful.*

***Açar sözlər:*** *biologiya tədrisi, dərman bitkiləri, rollu oyunlar metodu, interaktiv təlim, şagird fəallığı, fənlərarası inteqrasiya, emosional öyrənmə, praktik bacarıqlar*

***Ключевые слова:*** *преподавание биологии, лекарственные растения, метод ролевых игр, интерактивное обучение, активность учащихся, межпредметная интеграция, эмоциональное обучение, практические навыки*

***Key words:*** *biology teaching, medicinal plants, role-playing method, interactive learning, student engagement, interdisciplinary integration, emotional learning, practical skills*

Azərbaycan Respublikası ümumitəhsil məktəbləri biologiya fənni milli kurikulum əsasında tədris edilir. Məlum olduğu kimi təhsil daima inkişaf edən prosesdir. Məhz bu səbəbdəndir ki, kurikulum prosesinin tətbiqi zamanı da xarici təcrübələrdən istifadə şagirdlərdə dünyagörüşünün inkişafına təkan verir. Dərman bitkilərinin tədrisi zamanı da interaktiv təlim metodlarından istifadənin xarici təcrübələrin özünü təsdiqləməsinin bir yoludur. Səbəb isə interaktiv təlim metod və üsullarının tədris prosesində tədris vahidinin mənimsənilməsini intensivləşdirməsi, həmçinin şagirdlərin cəlb olunması və fəallığını yüksək dərəcədə artırmasıdır.

İnteraktiv təlim metodlarından biri kimi rollu oyunlar metodu da həmçinin dərsin gedişində istifadə olunan və dərsin mənimsənilməsini gücləndirən metodlardan biridir. Rollu oyunlar metoduna rollu oyun, səhnələşdirmə, modelləşdirmə, işgüzar oyun, didaktik və əyləncəli oyunlar və başqa oyun metodları daxildir.

Rollu oyun – hər hansı məsələnin qoyuluşuna baxış bucağıdır. Məhz bu metodun vasitəsi ilə şagirdlər arasında rol bölgüsü olur ki, bunun da nəticəsində onlar müxtəlif rolları icra etməklə məsələyə fərqli baxış bucağından yanaşırlar. Bu metodun tədris vahidinə tətbiqinin ilkin məqsədi dərsdə tədris olunan nəzəri bilik və məlumatların birbaşa praktiki təcrübə ilə möhkəmləndirilməsidir.

Yuxarıda da qeyd etdiyimiz kimi bu metod şagirdləri dinləyici mövqedən dərsin fəal iştirakçısı mövqeyinə keçirir. Bu metodla materialın qavranılması qeyri-ixtiyari yaddaşla birbaşa əlaqəli olur. Dərsin gedişində məhz bu metodun tətbiqinin əsas vəzifəsi şagirdlərdə tədris vahidi ilə bağlı təəssüratların formalaşdırılmasıdır. Bunun üçün həyata keçirilən rollu oyun bir neçə mərhələdən keçməklə reallaşır. Həmin mərhələlər ardıcıl olaraq aşağıdakı şəkildədir:

1. Müəllim oyunun mövzusunu və iştirakçıları müəyyən edir;
2. Şagirdlərin rollarla tanışlığına xidmət edən kartlar hazırlanır;
3. Seçilmiş rol və vəzifələr uyğun olaraq şagirdlər üzrə paylanılır;
4. Şagirdlər təlimatlandırılır və oyunun strukturu müəyyənləşdirilir;
5. Hekayəni danışan məruzəçinin seçilməsi ilə əsas fəaliyyət başlayır;

6. Səhnənin sahəsi müəyyənləşir və oyun başlayır.

Həmçinin unutmamaq lazımdır ki, rollu oyunları həyata keçirərkən müəyyən problemlərlə qarşılaşmaq mümkündür. İlkin olaraq qeyd etmək lazımdır ki, düzgün şəkildə qurulmamış rollu oyun tədris vahidi üzrə dərsin məqsədinin reallaşmasında problem yarada bilər. Bundan başqa şagirdlərin rolların mahiyyətini dərk etməsində problem yaşana bilər, beləcə onlar rola girə bilməz, zamanın idarə edilməsində yaranan çətinliklər müşahidə oluna bilər. Bütün bunlarla yanaşı düzgün reallaşdırılmış rollu oyunun nəticəsi olaraq şagirdlər təmsil etmə, özünü ifadə etmə, empatiya kimi bacarıq və vərdişlərə də yiyələnmiş olurlar.

Bu metod 7-ci sinif biologiya dərsliyində üçüncü bölmədə verilmiş "Dərman bitkiləri müalicəvi xüsusiyyətləri və onlardan istifadə qaydaları" başlıqlı tədris vahidi üzrə təhsilalanların nəzəri biliklərini praktiki bacarıqları ilə əlaqələndirmələri baxımından uyğun material hesab edilə bilər. Bu tədris vahidi üzrə şagirdlər dərman tərkibli bitkilərin həyat fəaliyyətinə təsiri, yetişmə yerləri toplanma qaydaları, düzgün istifadəsi kimi biliklərə yiyələnməlidirlər. Bu metodun tətbiqi ilə şagirdlər sadaladığımız məlumatları, həmin bitkiləri toplayan, istifadə edən, ondan dərman hazırlayan insanların yerlərinə keçərək mövzunu bir növ yaşamış olurlar.

**DƏRS NÜMUNƏSİ**

**Sinif:** 6

**Fənn:** Biologiya

**Mövzu:** Dərman bitkiləri müalicəvi xüsusiyyətləri və onlardan istifadə qaydaları

**Dərsin müddəti:** 45 dəqiqə

**Tədris üsulu:** Rollu oyun metodu, sual-cavab, qrup işi

**Resurslar:** Bitkilərin şəkilləri və nümunələri (nanə, çobanyastığı və s.), kartlar, marker, qiymətləndirmə cədvəli

**Bacarıqlar:** Müşahidəetmə, ünsiyyət, əməkdaşlıq, analiz, nəticə çıxarma

1. Maraq oyatma (5 dəq)

Məqsəd: Şagirdlərin mövzuya marağını artırmaq.

Müəllim fəaliyyəti:

– Müəllim stolun üzərinə nanə, çobanyastığı, kəklikotu kimi bitkiləri və ya onların şəkillərini qoyur.

– Soruşur: "Bu bitkiləri tanıyırsınızmı? Evdə və ya nənəniz hansı hallarda istifadə edir?"

– Beyin həmləsi: "Dərmanlar yalnız aptekdə olur, yoxsa təbiətdə də?"

Şagird fəaliyyəti:

– Bitkilərin adlarını deyir, fərziyyələrini paylaşır.

2. Araşdırma (10 dəq)

Məqsəd: Şagirdlər dərman bitkiləri haqqında ilkin biliklər toplasın.

Müəllim fəaliyyəti:

– Sinfi 3 qrupa bölür:

1) Bitkilərin növləri və istifadə sahələri;
2) Dərman bitkilərinin faydası;
3) Bitkilərdən istifadə qaydaları.

Şagird fəaliyyəti:

– Qrupda müzakirə edir, qısa qeydlər aparır.

– Hər qrupdan bir nümayəndə 1 dəqiqəlik təqdimat edir.

3. İzah etmə (Rollu oyun – 20 dəq)

Məqsəd: Mövzunu təbii və maraqlı yolla mənimsətmək.

Rollu oyun: "Təbiətin aptekində"

Rollar:

– Həkim
– Xəstə
– Təbiət ana
– Nanə
– Çobanyastığı
– Zəncəfil
– Aparıcı

Qısa ssenari:

Xəstə boğaz ağrısından şikayət edir. Həkim dərman təklif edir, lakin Təbiət ana səhnəyə çıxaraq deyir: *"Əsl şəfa mənim qoynundadır."* Sonra bitkilər bir-bir çıxıb öz faydalarını təqdim edir. Sonda həkim və xəstə razılaşır ki, təbiətə müraciət etmək sağlamdır.

Müəllim fəaliyyəti:

– Rolları əvvəlcədən paylayır (7 nəfər səhnədə, digərləri tamaşaçı və qiymətləndirici kimi).

– Oyun zamanı müşahidə edir, "nə öyrəndik?" sualı ilə müzakirə aparır.

Şagird fəaliyyəti:

– Rolunu oynayır və bitkilər haqqında məlumat verir.

– Tamaşaçılar müzakirəyə qoşularaq oyun sonunda "ən faydalı bitki"ni seçirlər.

4. Möhkəmləndirmə (7 dəq)

Məqsəd: Mövzu üzrə bilikləri ümumiləşdirmək.

Tapşırıq: Müəllim "Düzgün – Səhv" oyunu oynadır:

– "Dərman bitkiləri yalnız kənddə bitir." ❌
– "Nanə tənəffüs yollarına faydalıdır." ✅
– "Dərman bitkiləri də zərər verə bilər." ✅

Qrup işi:

Qısa cədvəl tərtib olunur:
Bitkinin adı | Nəyə kömək edir | Necə istifadə olunur
Nanə | Soyuqdəymə | Çay kimi dəmlənir
Çobanyastığı | Həzmsizlik | Dəmləmə kimi içilir

5. Qiymətləndirmə (3 dəq)
Qiymətləndirmə növü: Formativ.
Meyarlar:

– Fəal iştirak etdi.
– Dərman bitkiləri haqqında bilik nümayiş etdirdi.
– Qrup işinə töhfə verdi.

Müəllim fəaliyyəti:

– Şagirdləri müşahidə əsasında şifahi şəkildə qiymətləndirir.
– Ən fəal qrup və "Ən yaxşı rol ifaçısı" elan olunur.

## Nəticə

Dərsin sonunda şagirdlər dərman bitkilərinin faydasını, düzgün istifadə qaydalarını və təbiətin sağlamlıq üçün əhəmiyyətini dərk edirlər. Rollu oyun onların marağını artırır, ünsiyyət və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir.

***Ədəbiyyat***

1. *VII sinif Biologiya dərsliyi. Bakı – 2019.*
2. *VII sinif Biologiya Metodik vəsaiti. Bakı – 2019.*
3. *Blatner, A. (2009). Role playing in education. Disponibile all'indirizzo: http://www.blatner.com/adam/pdntbk/rlplayedu.htm.*
4. *Ə.Hüseynov, M.Əliyənnağı, Biologiya Tədris metodukasının ümumi əsasları. Bakı – 2009.*
5. *G.Hacıyeva, Biologiyanın tədris metodikasından mühazirələr. Bakı – 2016.*

**Qurbanov R.M.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rizvanqurbanov6@gmail.com***

# İNNOVATİV TƏDRİS TEXNOLOGİYALARININ TƏDRİS MÜHİTİNƏ İNTEQRASİYASI VƏ ONUN PEDAQOJİ ŞƏRTLƏRİ

***Xülasə***

*Məqalədə müasir təhsil sistemində innovativ tədris texnologiyalarının əhəmiyyəti və onların müəllim fəaliyyətinə təsiri araşdırılmışdır. Tədqiqatın məqsədi müəllimlərin innovativ tədris texnologiyalarını tədris mühitinə inteqrasiya etmə imkanlarını, bu prosesin pedaqoji şərtlərini və səmərəliliyini müəyyənləşdirməkdən ibarətdir. Araşdırma zamanı analitik və müqayisəli təhlil metodlarından istifadə edilmiş, mövcud elmi-pedaqoji ədəbiyyat, təcrübə nümunələri və pedaqoji fəaliyyətin nəticələri əsas kimi götürülmüşdür.*

*Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, innovativ texnologiyaların tədris prosesinə daxil edilməsi müəllimlərin peşəkar fəaliyyətini yeniləşdirir, tədrisin keyfiyyətini artırır və təlimin interaktiv xarakter almasına şərait yaradır. Müəllimlərin rəqəmsal savadlılığı, texnoloji resurslardan məqsədyönlü istifadə bacarığı, eləcə də tədris prosesində yaradıcı və çevik yanaşma göstərməsi bu inteqrasiyanın əsas pedaqoji şərtləri kimi önə çıxır.*

# ИНТЕГРАЦИЯ ИННОВАЦИОННЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ В ОБРАЗОВАТЕЛЬНУЮ СРЕДУ И ЕЁ ПЕДАГОГИЧЕСКИЕ УСЛОВИЯ

***Резюме***

*В статье рассматривается значение инновационных образовательных технологий в современной системе образования и их влияние на профессиональную деятельность учителя. Цель исследования заключается в определении возможностей интеграции инновационных технологий обучения в образовательную среду, выявлении педагогических условий данного процесса и оценке его эффективности. В ходе исследования были использованы аналитический и сравнительно-сопоставительный методы, а также изучены научно-педагогическая литература, практический опыт и результаты педагогической деятельности.*

*Результаты исследования показали, что внедрение инновационных технологий в учебный процесс способствует обновлению профессиональной деятельности учителя, повышению качества образования и развитию интерактивного обучения. Цифровая грамотность преподавателей, целенаправленное использование технологических ресурсов, а также*

*способность применять творческий и гибкий подход в учебном процессе определены как основные педагогические условия успешной интеграции.*

# INTEGRATİON OF İNNOVATİVE TEACHİNG TECHNOLOGİES İNTO THE EDUCATİONAL ENVİRONMENT AND İTS PEDAGOGİCAL CONDİTİONS

***Summary***

*The article explores the significance of innovative teaching technologies in the modern education system and their impact on teachers' professional activities. The main purpose of the study is to determine the possibilities of integrating innovative teaching technologies into the learning environment, to identify the pedagogical conditions of this process, and to evaluate its effectiveness. Analytical and comparative analysis methods were used during the research, drawing on existing scientific-pedagogical literature, practical experiences, and the results of teaching activities.*

*The study revealed that the integration of innovative technologies into the educational process renews teachers' professional practices, enhances the quality of teaching, and fosters interactivity in learning. Teachers' digital literacy, purposeful use of technological resources, and the ability to apply creative and flexible approaches in the teaching process are highlighted as the main pedagogical conditions for successful integration.*

***Açar sözlər:*** *innovativ tədris texnologiyaları, pedaqoji şərtlər, tədris mühiti, rəqəmsal savadlılıq, müəllim fəaliyyəti*

***Ключевые слова:*** *инновационные образовательные технологии, педагогические условия, образовательная среда, цифровая грамотность, деятельность учителя*

***Key words:*** *innovative teaching technologies, pedagogical conditions, learning environment, digital literacy, teacher activity*

Müasir təhsil dünyasında ənənəvi tədris metodlarından daha interaktiv və şagird mərkəzli yanaşmalara keçid qaçınılmazdır. Bu dəyişikliklər, tədris texnologiyalarının sürətli inkişafı ilə mümkün olmuşdur. İnnovativ tədris texnologiyaları yalnız tədris prosesinin inkişafına deyil, həm də müəllimlərin peşəkar inkişafına əhəmiyyətli təsir göstərir. Müəllimlər üçün innovativ texnologiyaların tətbiqi, ənənəvi tədris metodlarından fərqli olaraq daha dinamik və maraqlı dərs mühitləri yaratmağa imkan verir. Ancaq bu texnologiyaların tədris mühitinə səmərəli şəkildə inteqrasiya edilməsi yalnız texnoloji vasitələrin istifadəsi ilə bitmir; bu prosesin uğurla həyata keçirilməsi üçün müəyyən pedaqoji şərtlər təmin olunmalıdır. Məqalənin məqsədi, müəllimlər üçün innovativ tədris texnologiyalarının tədris mühitinə inteqrasiyasının pedaqoji şərtlərini təhlil etməkdir.

İnnovativ tədris texnologiyaları, təhsil prosesini daha interaktiv, fərdi və yaradıcı etmək məqsədini güdür. Bu texnologiyalar şagirdlərə yalnız bilik ötürməkdən daha çox, onların problem həll etmə, əməkdaşlıq, tənqidi düşünmə və yaradıcılıq bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Məsələn, multimedia alətləri, interaktiv platformalar və onlayn təhsil alətləri şagirdlərin fəal iştirakını təmin edərək, onları dərslərdə daha çox əhatə edir. Eyni zamanda, müəllimlərə müxtəlif tədris üsullarını tətbiq etmək və dərs materiallarını daha cazibədar və yadda qalan şəkildə təqdim etmək imkanı verir.

Bu texnologiyalar həm də müəllimlərə tədris metodlarını dəyişmək, dərs prosesini daha fərdiləşdirmək və şagirdlərin fərdi ehtiyaclarına uyğunlaşdırmaq üçün yeni imkanlar yaradır. Həmçinin, şagirdlər arasında əməkdaşlıq və müzakirə mühitini gücləndirərək, onların sosial bacarıqlarının inkişafına da töhfə verir. İnnovativ tədris texnologiyalarının tətbiqi, təhsil sistemini modernləşdirir və daha çox şagirdin fərdi inkişafını dəstəkləyir.

İnnovativ texnologiyaların tədris mühitinə səmərəli şəkildə inteqrasiyası üçün bəzi pedaqoji şərtlərin yerinə yetirilməsi vacibdir. Bu şərtlər yalnız texnoloji infrastrukturun mövcudluğunu deyil, həm də müəllimlərin peşəkar hazırlığını, şagirdlərin tədrisə cəlb edilməsini və tədris mühitinin strukturunu əhatə edir. Aşağıda bu şərtlər haqqında daha ətraflı məlumat verəcəyik:

1. **Müəllimlərin Peşəkar Hazırlığı və İnkişafı**

İnnovativ tədris texnologiyalarının uğurla tətbiq olunması üçün müəllimlərin bu texnologiyaları mənimsəməsi vacibdir. Müəllimlərin yalnız texnoloji alətləri necə istifadə etməyi öyrənməsi kifayət etmir; onlar həmçinin bu texnologiyaların tədris metodlarına necə uyğunlaşdırılacağını və şagirdlərin öyrənmə prosesinə necə təsir edəcəyini başa düşməlidirlər. Bu səbəbdən müəllimlər üçün davamlı təlim və inkişaf proqramları təşkil edilməlidir. Belə təlimlər müəllimlərə yeni tədris metodları, rəqəmsal alətlər və onların pedaqoji tətbiqləri barədə geniş biliklər verməli, həmçinin müəllimlərə texnoloji alətləri dərslərdə səmərəli istifadə etmə bacarığını qazandırmalıdır.

Peşəkar inkişaf proqramları həmçinin müəllimlərin rəqəmsal fəndlər, onlayn tədris platformaları, smart lövhələr və digər müasir tədris vasitələri ilə tanış olmasını təmin edərək, onların daha yaradıcı və müasir tədris yanaşmalarını mənimsəməsinə kömək edər. Bu da müəllimlərin pedaqoji bacarıqlarını inkişaf etdirir və dərs prosesində daha aktiv rol almalarına şərait yaradır.

2. **Texnoloji Resursların Mövcudluğu və İnfrastruktur**

İnnovativ tədris texnologiyalarının inteqrasiyası üçün uyğun texnoloji infrastrukturun mövcudluğu vacibdir. Şagirdlərin və müəllimlərin tədris texnologiyalarından istifadəsi üçün məktəblərdə müasir avadanlıq, internetə qoşulma, multimedia alətləri və digər texnoloji resurslar təmin olunmalıdır. Bu,

yalnız şagirdlərin öyrənmə prosesini deyil, həmçinin müəllimlərin dərs keçirərkən texnologiyalardan daha effektiv istifadə etmələrini təmin edəcəkdir.

Məsələn, interaktiv lövhələr, smart telefonlar və planşetlər tədris prosesində istifadə oluna bilər. Bununla yanaşı, müxtəlif onlayn təhsil platformaları və rəqəmsal dərsliklər müəllimlərə dərsləri daha fərdiləşdirilmiş şəkildə təşkil etmək imkanı verir. Əgər texnoloji resurslar məktəblərdə və tədris müəssisələrində əlçatan deyilsə, müəllimlər yenilikləri tətbiq etməkdə çətinlik çəkəcəklər.

**3. Tədris Prosesinin Fərdiləşdirilməsi**

İnnovativ tədris texnologiyaları tədris prosesini fərdiləşdirməyə imkan verir. Şagirdlərin müxtəlif ehtiyaclarını və maraqlarını nəzərə alaraq, müəllimlər hər bir şagirdin tədris tərzinə uyğun fərdi tədris planları tərtib edə bilərlər. İnnovativ texnologiyalar, həmçinin şagirdlərin öz sürətlərinə uyğun olaraq dərs materiallarını öyrənməsinə şərait yaradır. Məsələn, onlayn tədris platformaları, video dərsliklər, interaktiv testlər və simulyasiyalar şagirdlərə öz biliklərini fərdi şəkildə yoxlamaq və inkişaf etdirmək imkanı verir.

Fərdiləşdirilmiş təhsil yanaşması şagirdlərin öz potensiallarını daha yaxşı ortaya qoymalarına kömək edir və nəticədə onların motivasiyasını artırır. Şagirdlər, dərslərdə daha çox iştirak edərək öz öyrənmə proseslərini daha müstəqil şəkildə idarə edə bilərlər.

**4. Şagirdlərin Aktiv İştirakı və Əməkdaşlıq Bacarıqlarının İnkişafı**

İnnovativ texnologiyalar şagirdlərin dərslərdə fəal iştirakını təmin edir. Bu texnologiyalar, şagirdlərə müstəqil olaraq işləməkdən əlavə, əməkdaşlıq etməyə də imkan verir. İnteraktiv tədris platformalarında şagirdlər qruplara ayrılaraq birgə layihələr üzərində işləyə, müzakirələr apararaq bir-birinin biliklərindən faydalana bilərlər. Bu cür fəaliyyətlər şagirdlərdə əməkdaşlıq bacarıqlarını inkişaf etdirir və onları komanda şəklində işləməyə təşviq edir.

Şagirdlər üçün tədris zamanı aktiv iştirakın təşviq edilməsi onların dərslərə marağını artırır. Bu da, onların dərsdə iştirakını və mövzuları daha yaxşı mənimsəmələrini təmin edir. Məsələn, interaktiv dərslərdə, şagirdlər müxtəlif simulyasiyalar və oyunlarla dərs mövzularını öyrənirlər ki, bu da öyrənməyi əyləncəli və yadda qalan edir.

**5. Müəllim-Şagird Əlaqəsinin İnkişafı**

İnnovativ tədris texnologiyaları müəllim-şagird əlaqəsini daha şəffaf və səmərəli edir. Müəllimlər, şagirdlərin dərs prosesinə aktiv iştirakını izləyərək dərsləri daha yaxşı təşkil edə bilərlər. Müəllim-şagird arasında mütəmadi olaraq onlayn platformalar vasitəsilə əlaqə saxlamaq mümkündür, bu da şagirdlərin dərs zamanı daha çox dəstək almalarını təmin edir. Həmçinin, texnologiyalar müəllimlərə dərslərin qiymətləndirilməsini və şagirdlərə geri dönüş verilməsini asanlaşdırır.

## Nəticə

Aparılmış tədqiqatın nəticələri göstərir ki, innovativ tədris texnologiyalarının tədris mühitinə səmərəli inteqrasiyası müasir təhsil sisteminin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Müəllimlərin bu texnologiyaları mənimsəməsi və tədris prosesində məqsədyönlü tətbiqi tədrisin interaktivliyini, fərdiləşməsini və yaradıcı potensialını artırır. İnovativ yanaşmalar pedaqoji fəaliyyətin məzmununa yenilik gətirərək həm müəllimin, həm də şagirdin təlim prosesində aktiv subyektə çevrilməsini təmin edir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, tədris mühitində innovativ texnologiyaların uğurlu tətbiqi üçün bir sıra pedaqoji şərtlərə əməl olunmalıdır. Bu şərtlərə müəllimlərin rəqəmsal və metodoloji səriştələrinin inkişafı, motivasiyanın yüksəldilməsi, texnoloji resursların əlçatanlığı, həmçinin tədris prosesinin planlaşdırılmasında çevik və inteqrativ yanaşmaların tətbiqi daxildir. Eyni zamanda, məktəb rəhbərliyi və təhsil siyasəti səviyyəsində innovasiyaların dəstəklənməsi də vacib amillər sırasındadır.

Beləliklə, müəllimlərin innovativ tədris texnologiyalarını mənimsəməsi və onları pedaqoji prosesə məqsədyönlü şəkildə inteqrasiya etməsi təhsil keyfiyyətinin yüksəlməsinə, tədris prosesinin şəxsiyyətyönlü və kompetensiyaya əsaslanan istiqamətdə inkişafına şərait yaradır. Bu istiqamətdə aparılan davamlı elmi-pedaqoji araşdırmalar və praktiki təlimlər gələcəkdə innovativ tədris mühitinin daha effektiv formalaşmasına zəmin yaradacaqdır.

***Ədəbiyyat***

1. *Abbasov, R. (2022). İnnovativ tədris texnologiyalarının pedaqoji prosesdə tətbiqi problemləri. Bakı: Təhsil Nəşriyyatı.*
2. *Əliyeva, S. (2021). Müasir tədris texnologiyalarının təhsil mühitinə təsiri. Azərbaycan Müəllimlər İnstitutu Elmi Xəbərləri, 4(2), 45–52.*
3. *Həsənli, T. (2020). Rəqəmsal pedaqogika və müəllimin innovativ fəaliyyəti. Bakı: Elm və Təhsil.*
4. *Qasımova, L. (2023). Müəllimlərin rəqəmsal savadlılığının formalaşmasında innovativ texnologiyaların rolu. Pedaqoji Araşdırmalar Jurnalı, 6(1), 37–44.*
5. *Mishra, P., & Koehler, M. J. (2006). Technological Pedagogical Content Knowledge: A Framework for Teacher Knowledge. Teachers College Record, 108(6), 1017–1054.*
6. *UNESCO. (2020). ICT Competency Framework for Teachers. Paris: UNESCO Publishing.*
7. *Anderson, T., & Dron, J. (2011). Three Generations of Distance Education Pedagogy. The International Review of Research in Open and Distributed Learning, 12(3), 80–97.*
8. *Prensky, M. (2010). Teaching Digital Natives: Partnering for Real Learning. Thousand Oaks, CA: Corwin Press.*

**Məmmədli N.M.**
**Bakı Slavyan Universiteti**
***memmedlinatavan234@gmail.com***

# TƏLƏBƏLƏRİN ASUDƏ VAXTININ TƏŞKİLİ PROBLEM KİMİ

***Xülasə***

*Universitet tələbələrinin asudə vaxtının elmi-pedaqoji baxımdan düzgün təşkili onların şəxsiyyət kimi formalaşmasında, sosial adaptasiyasında və gələcək peşə fəaliyyətinə hazırlanmasında mühüm əhəmiyyət kəsb edir. Dərs məşğələlərindən kənar vaxtın məqsədyönlü və planlı şəkildə keçirilməsi tələbələrdə yaradıcılıq potensialının, təşəbbüskarlığın, məsuliyyət hissinin və tənqidi təfəkkürün inkişafina şərait yaradır. Elmi dərnəklər, mədəni-kütləvi tədbirlər, idman məşğələləri, könüllülük fəaliyyəti və ictimai layihələr tələbələrin biliklərini praktik müstəvidə tətbiq etmələrinə imkan verir. Tədqiqat nəticələri göstərir ki, asudə vaxtın düzgün təşkil olunması tələbələrin akademik nəticələrinə, psixoloji sağlamlığına və kollektivlə əməkdaşlıq bacarıqlarına müsbət təsir edir. Bu baxımdan ali təhsil müəssisələrinin tələbələrin dərsdənkənar fəaliyyətinə dəstək göstərməsi və uyğun mühit yaratması xüsusi aktuallıq kəsb edir.*

# ОРГАНИЗАЦИЯ ДОСУГА СТУДЕНТОВ КАК ПРОБЛЕМА

***Резюме***

*Научно-педагогически обоснованная организация свободного времени студентов университета играет важную роль в их становлении как личности, социальной адаптации и подготовке к будущей профессиональной деятельности. Целенаправленное и планомерное проведение внеаудиторного времени способствует развитию у студентов творческого потенциала, инициативности, чувства ответственности и критического мышления. Научные кружки, культурно-массовые мероприятия, спортивные занятия, волонтёрская деятельность и общественные проекты позволяют студентам применять полученные знания на практике. Результаты исследований показывают, что правильная организация свободного времени положительно влияет на академические достижения студентов, их психологическое здоровье и навыки сотрудничества в коллективе. В этом контексте особую актуальность приобретает поддержка внеучебной деятельности студентов со стороны высших учебных заведений и создание соответствующей благоприятной среды.*

# ORGANIZATION OF STUDENTS' LEISURE TIME AS A PROBLEM

***Summary***

*The scientifically and pedagogically grounded organization of university students’ leisure time plays an important role in their personal development, social*

*adaptation, and preparation for future professional activity. A purposeful and systematic use of extracurricular time contributes to the development of students' creative potential, initiative, sense of responsibility, and critical thinking. Scientific clubs, cultural events, sports activities, volunteer work, and social projects enable students to apply their knowledge in practice. Research results indicate that the proper organization of leisure time has a positive impact on students' academic performance, psychological well-being, and teamwork skills. In this regard, the support of extracurricular activities by higher education institutions and the creation of a favorable environment are of particular importance.*

***Açar sözlər:*** *asudə vaxt, auditoriyandankənar iş, tələbə təşkilatları, könüllülük fəaliyyətləri, vaxtın idarəsi*

***Ключевые слова:*** *свободное время, внеаудиторная деятельность, студенческие организации, волонтёрская деятельность, управление временем.*

***Key words:*** *leisure time, extracurricular activities, student organizations, volunteer work, time management*

Bildiyimiz kimi universitet tələbələrin yeni biliklər əldə etməsi və fərqli təcrübələr qazanmasını təmin edən təhsil ocağıdır. Lakin dərslərdən sonra tələbələrdə asudə vaxtın yarandığı müşahidə olunur və bir çox tələbələr asudə vaxtı düzgün təşkil etməkdə çətinlik çəkirlər. Asudə vaxtın təşkili dedikdə tələbələrin universitet dərslərindən kənarda yerinə yetirdikləri fəaliyyətlər nəzərdə tutulur. Bu fəaliyyətlərin düzgün təşkili tələbələrin həyatında olduqca əhəmiyyətlidir və bu əhəmiyyəti görməzdən gəlmək doğru hesab olunmur. Universitetdə tələbələrin əldə etdiyi biliklər heç vaxt tam sonluğa çatmır, bu biliklərin üzərinə daim yenisi əlavə olunur. Lakin bu bilikləri dərsdənkənar fəaliyyətləri doğru şəkildə təşkil edərək zənginləşdirmək vacibdir. Bu baxımdan asudə vaxtın problemindəki çətinliklərin aradan qaldırılması və səmərəli formada dəyərləndirilməsi olduqca vacibdir.

Asudə vaxt anlayışı və onların təlim həyatında rolu ilə bağlı bir sıra alimlər araşdırmalar aparmışdır. Tədqiqatçılar (L.V.Əliyeva, N.S.Beylina, R.V.Drujinina, İ.V.Rudenko, E.M.Samoxvalova, A.N.Chizh) tələbələrin dərsdənkənar fəaliyyətlərinin gələcəkdə peşə təcrübəsində olan əhəmiyyətini vurğulamış, onları universitetdə pedaqoji prosesin tərkib hissəsi kimi müəyyənləşdirmişdirlər. Məsələn, L.V.Əliyeva universitet tələbələrinin asudə vaxt zamanı gördükləri işi sosial əhəmiyyətli komponent hesab edir [7, s.32–36].

Tədqiqatçı N.S.Beilina, universitetdənkənar, asudə vaxtın təşkilində görülən işi "təhsil prosesində bir sıra transformasiya tədbirlərinin həyata keçirildiyi bir əlaqə" adlandırmışdır [8, s.32–36].

R.V.Drujinina isə auditoriyada təşkil olunan dərslərlə yanaşı professor-müəllim heyəti ilə birbaşa ünsiyyətdə olmağı, dərsdənkənar fərqli elmi işlərlə məşğul olmağı tələbələrin şəxsi və peşəkar inkişafı üçün uğurlu zəmin yaradacağını vurğulamışdır [9, s.262].

Müəlliflərin fikrini daha da gücləndirsək, deyə bilərik ki, əgər tələbə asudə vaxtını məqsədyönlü şəkildə auditoriyadankənar elmi fəaliyyətlərə, debat və nitq müsabiqələrinə, bədii yaradıcılıq tədbirlərinə, könüllülük fəaliyyətinə və ya müxtəlif yaradıcılıq təşkilatlarına yönəldərsə, bu onun üçün həm zehni, həm sosial, həm də fiziki baxımdan faydalı olacaqdır. Belə fəaliyyətlər tələbənin ümumi inkişaf prosesində vacib və faydalı, tamamlayıcı rol oynayır. Həmçinin dərsdənkənar fəaliyyətlər sadəcə məqsəd mövqeyində deyil, daha çox yaradıcı düşüncə və intellektin inkişafı üçün bir vasitə mövqeyindədir. Akademik, siyasi və ictimai sahədə tam formalaşmış şəxsiyyət yetişdirmək üçün dərsdənkənar fəaliyyətlərə qatılmaq vacibdir. Belə fəaliyyətlər tələbənin düşüncəsini inkişaf etdirir, yeni ideyalar formalaşdırmağa kömək edir, özünəinamı və xarakteri möhkəmləndirir. Hər bir tələbə üçün bu fəaliyyətlər üstünlük təşkil etməlidir. Bu cür fəaliyyətlər dərsə olan motivasiyanı daha da artırır, biliyin əyləncəli şəkildə öyrənilməsinə kömək olur. Öyrənmənin bu üsulu tələbələrdə zehni gərginliyi də aradan qaldırır. Təəssüf ki, bir çox hallarda tələbələr bu zamanı ya qeyri-səmərəli məşğuliyyətlərə sərf edir, ya da ümumiyyətlə dəyərləndirməyi bacarmırlar.

Türkiyənin Pamukkale Universitetində 401 tələbə üzərində tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar onu göstərir ki, universitetdə təhsil alan tələbələr dərsdən sonra asudə vaxtlarını passiv fəaliyyətlərlə keçirirlər. Burada tələbələrin asudə vaxt zamanı ilk olaraq kitab oxuduğu müşahidə olunmuşdur [3]. Təbii ki, kitab oxumaq da müsbət fəaliyyət növüdür. Lakin bundan əlavə olaraq fiziki və ya sosial fəaliyyətlərə qatılmaq daha çox müsbətə doğru dəyişikliyə səbəb olacaqdır. Digər qrup tələbələr isə asudə vaxtlarını dost qrupları ilə keçirməyə üstünlük verirlər. Buradan da aydın olur ki, bir çox insan xüsusən də tələbələr asudə vaxtın təşkilini yalnız özlərinə aid olan maraq sahəsinə yönəldilməli olduğunu düşünürlər. Halbuki bu cür düşüncə doğru hesab olunmur. Bu fəaliyyətlər tələbənin istedadını önə çıxaran və ya əsasən digər insanlara da fayda verən bir məşğuliyyət olmalıdır. Məsələn, bir tələbənin kitab klubu qurması və digər tələbələrin də maraq dairəsini nəzərə alaraq onları cəlb etməsi auditoriyadankənar fəaliyyət hesab edilə bilər.

Fərqli bir mənbə olaraq Azərbaycan Respublikasının “Ali təhsil müəssisəsi haqqında əsasnamə”-sinə diqqət yetirsək, burada tələbənin dərs yükünün maksimum həcmi auditoriya və auditoriyadankənar tədris işləri də nəzərə alınmaqla, həftədə 54 saat olduğu qeyd olunmuşdur [10].

Bir çox tədqiqatlar göstərir ki, asudə vaxtı faydalı şəkildə təşkil etdikdə bu, tələbələrin akademik göstəricilərinə müsbət təsir göstərir, xüsusilə də bu

fəaliyyətlər peşəkar və müstəqil xarakter daşıyanda. Belə fəaliyyətlərdə iştirak edən tələbələr gələcək məqsədlərini daha aydın müəyyənləşdirirlər və bu da onları daha məsuliyyətli və məqsədyönlü edir.

Tələbələr təhsildə nəyə nail olmaq istədiklərini bildikdə daha aydın və fokusla çalışırlar və nəticədə göstəriciləri, ümumi akademik nailiyyətləri yüksəlir. Dərsdənkənar fəaliyyətlərdə iştirak edənlər digər sahələrdə, habelə gələcəkdə iş sahəsində olan fəaliyyətlərdə daha geniş nailiyyətlər əldə edirlər, çünki asudə vaxtın təşkili və təlim sahəsində əldə edilən biliklər bir-birini tamamlayır və şəxsi inkişafa uğurlu təsir göstərir.

Bəzən tələbələr auditoriyadankənar fəaliyyət seçimində olduqca çətinlik çəkirlər. Bu zaman sual yaranır “bu problemi necə aradan qaldırmaq olar?” Bəsit bir prizmadan yanaşsaq, tələbələr universitet və ya ixtisas seçimi edərkən daha çox sevdikləri, gələcəkdə inkişaf etdirmək istədikləri sahəni seçirlər. Asudə vaxtın təşkilinə də bu aspektdən yanaşılsa, bu tələbələrə seçim etməkdə kömək olacaqdır.

Bir qrup tələbə dərsdən sonra asudə vaxt zamanı da elmi fəaliyyətlərlə (tədqiqat işlərində iştirak, elmi-texniki yaradıcılıq, dərnəklərdə yaradıcılıq, tələbələrin seminarlarda, tərcüməçilik işlərində iştirakı və s) məşğul olmağa üstünlük verirlər. Elmi fəaliyyət dedikdə məsələn elmi konfranslarda iştirak edə bilərlər. Tələbələrin elmi konfranslarda iştirakını professor N.Kazımov, iki formada təsnif etmişdir:

1. “Birinci formada əsas məruzəçilər tələbələrin özləridir. Əsas məruzəçi tələbələr olsa da, bu konfranslarda tələbələrin müəllimləri və rəhbərləri də iştirak edir.
2. İkinci formada isə əsas məruzəçilər professor-müəllim heyətindən olan mütəxəssislərdir. Lakin bu cür konfranslarda tələbələr də iştirak edə bilirlər, həmçinin öz müəllimlərinin hansı elmi problemlər üzərində araşdırma apardıqlarını öyrənirlər” [4, s.314].

Tələbələrin bu cür konfranslarda iştirakı müasir dövrümüzdə də davam etməkdədir. Bu tələbələrin həm intelektual şəkildə inkişafına, həm də öz ixtisaslarında müvafiq bilik və təcrübəyə yiyələnməyə kömək edir.

Tələbələrin asudə vaxtının təşkilində digər istiqamətlərindən biri də bədii yaradıcılıqla məşğul olmalarıdır. Lakin müşahidələr göstərir ki, müasir dövrdə bu sahəyə tələbələrin marağı kifayət qədər yüksək deyil. Bunun səbəblərindən biri həqiqətən bu sahədə istedadı olmayan tələbələrin yönləndirilməsidir. Bu baxımdan tələbələrlə söhbətlər aparılmalı, onları maraqlandığı və istedadları olan sahəyə yönləndirmək lazımdır. Burada Tələbə Gənclər Təşkilatının (TGT) rolu olduqca böyükdür. Məsələn, Bakı Slavyan Universiteti Tələbə Gənclər Təşkilatı bir çox tələbənin marağına uyğun olaraq klublar yaratmışdır: gənc diplomatlar klubu, gənc psixoloqlar klubu, intellektual oyunlar klubu, debat klubu, gənc istedadlılar və yaradıcılar klubu

və s. Gənc istedadlılar və yaradıcılar klubuna diqqət yetirsək, klubun məqsədi tələbələrin yaradıcılıq potensialını üzə çıxarmaq və inkişaf etdirmək, onları müxtəlif sənət və mədəniyyət sahələrində fəaliyyətə təşviq etməkdir. Klub musiqi, rəssamlıq, ədəbiyyat, teatr, dizayn və digər yaradıcılıq sahələrində marağı olan gəncləri bir araya gətirərək sərgilər, tədbirlər, ustad dərsləri və müsabiqələr təşkil edir. Eyni zamanda, tələbələrin fərdi istedadlarını nümayiş etdirməsi və inkişaf etdirməsi üçün platforma yaradır. Sadəcə Bakı Slavyan Universitetində deyil, demək olar ki, bütün universitetlərdə Tələbə Gənclər Təşkilatı tələbələrin asudə vaxtını faydalı keçirmələri üçün müxtəlif maraq dairələrini nəzərə alaraq klublar yaradır və onları müxtəlif fəaliyyət sahələrinə təşviq edirlər. Bu baxımdan Tələbə Gənclər Təşkilatının rolu olduqca uğurlu hesab olunur.

Asudə vaxtın təşkilində mühüm rol oynayan digər bir təşkilat isə xüsusilə könüllülük və ictimai xidmətlə bağlı olanlar tələbələri reflektiv (öz təcrübəsini düşünərək öyrənmə) öyrənməyə təşviq edir. Könüllülük təşkilatları tələbələrdə özünəinamı artırır, sosiallaşmağa kömək edir, eyni zamanda gələcəkdə müəyyən bir sahə üzrə təcrübə qazanmağa şərait yaradır. Praktiki təcrübələr vasitəsilə tələbələr cəmiyyətlə bağlı problemlər, dayanıqlılıqla əlaqədar çağırışlar və etik məsələlər haqqında daha dərin anlayış qazanırlar. Azərbaycanda "Bir Könüllü" təşkilatı bu cəhətdən mühüm rol oynayır. "Bir Könüllü" təşkilatı "Bir tələbə-könüllü" proqramı kimi 2015-ci ildə Elm və Təhsil Nazirliyi tərəfindən tələbə-könüllülərlə işi sistemləşdirmək, könüllülük fəaliyyətini stimullaşdırmaq, tələbələrin dərsdənkənar asudə vaxtlarının faydalı şəkildə dəyərləndirilməsi üçün yaradılıb [11]. Bu proqram 2 avqust 2019-cu ildən "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi kimi dövlət qeydiyyatına alınmışdır. Bir tələbə könüllü proqramının məqsədi isə tələbələrə könüllülüyün mahiyyətinin aşılanması, təbliği üzrə geniş və davamlı şəkildə təbliğat – təşviqat işlərinin aparılması, tələbə-könüllülərin vahid məlumat bazasının inkişaf etdirilməsi, təlim-tədris proqramları və kurslarının təşkil olunması, tələbə-könüllülərin intellekt səviyyəsinin və dünyagörüşünün genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsidir [12].

Göründüyü kimi tələbələr bir tələbə könüllü proqramına qoşularaq həm asudə vaxtlarına səmərəli keçirə bilər, həm də yeni bilik, təcrübələr qazana bilərlər. Eyni zamanda bu tələbələrin daha çox sosiallaşmasına şərait yaradacaqdır.

Asudə vaxtda əsas problemlərdən biri də bir çox tələbənin oturaq həyat tərzinə meyilli olmasıdır. Bunun həll yolu tələbələrin sosial gəzintilərə qatılması, ekskursiyalarda iştirak etməsi, müəyyən tədbirlərdə iştirak və s. ola bilər. Tədbirlər dedikdə tələbələrin vətənpərvərliklə bağlı tədbirlərdə iştirakı, 20 yanvar şəhidlərinin ziyarət edilməsi, "Xocalı faciəsinə həsr edilmiş abidənin

ziyarəti" [6], 44 günlük müharibəyə həsr olunmuş tədbirlərdə iştirak aid edilə bilər.

Bakı Slavyan Universitetində (BSU) 27 sentyabr 2025-ci ildə Anım Gününə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə universitet rəhbərliyi, müəllimlər, tələbələr iştirak etmişdir. Həmçinin rektor Anar Nağıyev BSU-nun müəllim heyətinin, məzunlarının da bu şərəfli tarixin yazılmasında fəal iştirak etdiyini vurğulamış, şəhidlik zirvəsinə ucalan qəhrəman BSU məzunlarının hər birinin döyüş yolu haqqında ətraflı məlumat vermişdir [13].

Həmçinin Səfərova V.İ. tələbələrin vətəndaş tərbiyəsinin formalaşdırılmasında Heydər Əliyev irsinin öyrənilməsinin, tələbələr tərəfindən Heydər Əliyev Mərkəzinə edilən ekskursiyaların, dahi rəhbərin adı ilə bağlı olaraq keçirilən tədbirlərdə iştirak etməyin vətəndaşlıq tərbiyəsində böyük əhəmiyyət daşıdığını vurğulamışdır [6, s.40–4.1].

Asudə vaxtın təşkili zamanı təşkilatçılıq, iştirak və liderlik kimi bacarıqları da qeyd etmək mütləqdir. Liderlik dedikdə, tələbələrdən qrup yoldaşlarının davranışına təsiri, onları bu və ya digər fəaliyyətlərə maraq oyandıraraq təşviq etməsi, təhriki başa düşülür. Liderlik bacarığı özündə ünsiyyət bacarığını, işgüzarlığı, intellektual düşüncəni, emosional xüsusiyyətləri, təşkilatçılıq qabiliyyətini əks etdirir. Məhz bunun nəticəsində də liderlik bacarıqlarına sahib olan tələbə öz qrup yoldaşlarının psixologiyasına təsir göstərməyi bacarır.

Professor O.Əfəndi, psixoloqların liderliyi üç əsas formada təsnif etdiyini qeyd etmişdir:

1) "təşkilatçılıq forması – lider olan şəxs öz qrupunun məqsədini müəyyən edir, işi planlaşdırır, metod və vasitələri seçir, rol və vəzifə bölgüsü aparır, nəzarət edir, problemlərin həll yoluna istimaqət verir və s.;

2) informasiya forması – lider qrupun fəaliyyəti üçün mühüm olan informasiyanı toplayır və onları qrup üzvlərinə çatdırır;

3) sosializasiya forması – lider müəyyən keyfiyyətləri formalaşdırmaq və inkişaf etdirmək məqsədilə qrup üzvlərində təsiredici rol oynayır" [1, s.108]. Araşdırmalardan göründüyü kimi asudə vaxt probleminin həllində liderlik və kommunikativ bacarıqlar da mühüm mövqedə dayanır.

Asudə vaxtı səmərəli keçirməyin onlarca növünü saymaq mümkündür. Lakin bu gün tələbələrdən soruşsaq ki, asudə qeyri-səmərəli təşkil etməməyinizin əsas səbəbi nədir? Tələbələrin cavabı səmərəli keçirmək üçün yetəri qədər boş vaxtın qalmaması olacaqdır. Bunun səbəbi isə universitetlərdə olan dərs yükünün ağırlığı, məcburi məşğələlərdən sonra yaranan yorğunluq, ali məktəblərdə asudə vaxtın düzgün təşkil olunmamasıdır. Belə olduğu halda tələbə təbii olaraq öz vaxt büdcəsini düzgün bölə bilmir və asudə vaxt anlayışı bir növ dar çərçivəyə salınır, tələbənin öz fəaliyyətinə ayıracağı vaxt ən minimum səviyyəyə enir. Professor F.Rüstəmov, bu problemi aradan

qaldırmaq üçün universitetlərdə pedaqoji rəhbərliyin üzərinə bir sıra vəzifələr düşdüyünü vurğulamışdır:

1) "Məcburi akademik dərslərlə qalan asudə vaxt nisbətini düzgün bölüşdürülməlidir;
2) Tələbələrin auditoriyadankənar fəaliyyət işlərinə nəzarət olunmalı və bu yönləri inkişaf etdirilməlidir;
3) Pedaqoji rəhbərlik tərəfindən tələbələrin asudə vaxtın təşkilində yaranan problemlərin həllinə kömək olunmalı və vaxt büdcəsinin doğru idarə edilməsi mədəniyyəti inkişaf etdirilməlidir" [5, s.469].

Bütün universitetlərdə asudə vaxtın təşkili probleminə bu cür yanaşılsa, əminəm ki, tələbələr də bu vaxtı faydalı dəyərləndirə biləcəkdirlər.

Nəticə etibarilə onu demək olar ki, asudə vaxt probleminin həlli tələbələrdə ictimai-siyasi fəallığı artırır. Onların elm, mədəniyyət sahələrindəki bacarıqlarını üzə çıxarıb inkişaf etdirir, həmçinin idman və sağlamlıq işlərində iştirak etməyə təşviq edir [2].

**Məqalənin praktikliyi** ondan ibarətdir ki, asudə vaxtın daha səmərəli təşkili üçün faydalı tövsiyələr irəli sürür. Tələbənin sosial, yaradıcılıq, elmi və s. kimi fəaliyyətlərə qatılmasını təşviq edir.

**Məqalənin əhəmiyyəti** ondan ibarətdir ki, asudə vaxtın düzgün idarə edilməsinin tələbənin həyatında müsbət rol oynayır. Tələbə maraq dairəsini daha da genişləndirir və özünü tam şəxsiyyət kimi formalaşdırmağı bacarır.

**Məqalənin yeniliyi** ondan ibarətdir ki, tələbə sadəcə özünə fayda verməli deyil, asudə vaxt zamanı cəmiyyətə fayda verməyi də öyrənməlidir. Həmçinin ali təhsil müəssisələrinin könüllülük və tələbə təşkilatları ilə əlaqədə olması tələbələrlə daha çox fəaliyyətin keçirilməsinə kömək edir.

### *Ədəbiyyat*

1. *Əfəndi, O. Ali məktəb pedaqogikası kursu üzrə mühazirələr. Bakı – 2010.*
2. *Əliyev, İ. İ. Pedaqogika. Naxçıvan: Əcəmi, 2017.*
3. *İmamverdiyeva, N., Cəfərova, S., Mirzəliyeva, N. Yeniyetmə və gənclərin asudə vaxtının təşkili. Bakı: Füyuzat, 2023.*
4. *Kazımov, N.M. Ali məktəb pedaqogikası. Bakı: Nicat, 1999.*
5. *Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı: NURLAN, 2007.*
6. *Səfərova, V.İ. Auditoriyadankənar tədbirlərdən istifadə etməklə tələbələrdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılması. Bakı – 2018.*
7. *Алиева Л.В., Руденко И.В. Критерии и показатели эффектив ности внеучебной деятельности - инновационного блока воспита тельной системы вуза // Карельский научный журнал. 2014.*
8. *Бейлина Н.С. Куратор студенческой группы как субъект воспитательной деятельности вуза // Балтийский гуманитарный жур нал. 2015. №2(11).*

9. *Дружинина Р.В. Внеучебная деятельность студентов как средство повышения качества профессиональной подготовки в вузе: дис. ... канд. пед. наук: 13.00.08. СПб. 2010.*
10. *https://e-qanun.az/framework/14459*
11. *https://edu.gov.az/az/programmes/bir-telebe-konullu-proqrami_17694*
12. *https://konullu.edu.az/about-one.html*
13. *https://bsu-uni.edu.az/News/Details/6*

**Məmmədzadə E.R.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***elnaramemmedzade03@gmail.com***

# İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRDLƏRƏ DİFFERENSİAL YANAŞMA VƏ DƏSTƏK MEXANİZMLƏRİ

***Xülasə***

*Məqalədə ibtidai siniflərdə differensial yanaşmanın tətbiqi və bu yanaşmanın dəstək mexanizmləri ilə əlaqəsi araşdırılmış və təhlil edilmişdir. Tədqiqat göstərir ki, differensial təlim şagirdlərin özlərini tam etibarlı mühitdə hiss etmələrinə və onların potensial imkanlarının maksimum dərəcədə inkişafına imkan verir. Differensial təlim mühitinin tamlığı üçün tədris proqramları, proses, mühit, idarəetmə şagirdlərin fərdi xüsusiyyətləri nəzərə alınmaqla qurulmalıdır. Ümumtəhsildə ibtidai təhsil səviyyəsi şagirdlərin həyatında ən mühüm dövr kimi səciyyələnir. Bu səbəbdən də ibtidai siniflərdə differensial təlimin tətbiqi zəruridir. Gəldiyimiz nəticəyə əsasən, differensial təlimdə müəllimin hazırlıq dərəcəsi, differensial təlim barədə məlumatlılığı, dərs prosesində şagirdlərin maraqlarını nəzərə alması şagirdlərin potensiallarına və təlimin nəticəsinə təsir edən əsas aspektlərdəndir. Differensial təlim zamanı pedaqoji, psixoloji dəstək mexanizmləri ilə əməkdaşlıq təlimi daha uğurlu edir.*

# ДИФФЕРЕНЦИРОВАННЫЙ ПОДХОД И МЕХАНИЗМЫ ПОДДЕРЖКИ УЧАЩИХСЯ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Резюме***

*В статье исследовано и проанализировано применение дифференцированного подхода в начальных классах и его связь с механизмами поддержки. Исследование показывает, что дифференцированное обучение позволяет учащимся чувствовать себя в полностью безопасной среде и максимально развивать свои потенциальные возможности. Для целостности среды дифференцированного обучения учебные программы, процесс, среда и управление должны строиться с учётом индивидуальных особенностей учащихся. Начальный уровень общего образования характеризуется как самый важный период в жизни учащихся. Поэтому применение дифференцированного обучения в начальных классах является необходимым. Согласно полученным результатам, степень подготовки учителя, его осведомлённость о дифференцированном обучении, а также учёт интересов учащихся в учебном процессе являются основными аспектами, влияющими на их потенциал и результат обучения. Сотрудничество с педагогическими и психологическими механизмами поддержки делает обучение более успешным.*

# DIFFERENTIATED APPROACH AND SUPPORT MECHANISMS FOR PRIMARY SCHOOL STUDENTS

***Summary***

*The article examines and analyzes the application of differentiated instruction in primary grades and its connection with support mechanisms. The study shows that differentiated instruction enables students to feel in a fully safe environment and allows their potential abilities to develop to the maximum extent. For a complete differentiated learning environment, curricula, the learning process, the environment, and management should be organized considering the individual characteristics of students. The primary level of general education is characterized as the most important period in students' lives. Therefore, the implementation of differentiated instruction in primary grades is essential. Based on the conclusions, the teacher's level of preparation, awareness of differentiated instruction, and consideration of students' interests during the learning process are among the main factors influencing students' potential and learning outcomes. Cooperation with pedagogical and psychological support mechanisms makes the learning process more successful.*

***Açar sözlər:*** *differensial yanaşma, ibtidai sinif, dəstək mexanizmləri, bərabər imkanlar, inklüzivlik*

***Ключевые слова:*** *дифференцированный подход, начальные классы, механизмы поддержки, равные возможности, инклюзивность*

***Key words:*** *differentiated approach, primary school, support mechanisms, equal opportunities, inclusiveness*

## Giriş

Fiziki, psixi, intellektual xüsusiyyətlərindən, sağlamlıq imkanlarından asılı olmayaraq bütün uşaqların təhsil almaq hüququ var, yəni təhsil hər kəs üçün əlçatan olmalıdır. Müasir dövrdə təhsil sahəsi üzrə qəbul olunmuş proqramlar, təhsil konsepsiyaları təhsil mühitində hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaq faktorunun önəmini vurğulayır. Məsələn, Ümumtəhsil sistemində təlim-tərbiyə prosesi təhsildə bərabər imkanların yaradılması – müəssisənin təhsil infrastrukturuna uyğun olaraq, təhsilalanlar üçün eyni təlim şəraitinin təmin edilməsi, təhsil prosesinin şagirdlərin meyil-marağı və potensial imkanları nəzərə alınmaqla tənzimlənməlidir *("Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə qərar.maddə 13.1.2).* Qəbul olunmuş qərarın bu maddəsi söylədiyimiz fikri təsdiq edir.

Belə ki, təlimin differensiallaşdırılması dedikdə hər bir şagirdin fərdi xüsusiyyətlərini, onların öyrənmə ehtiyaclarını, maraqlarını, nəzərə almaqla təlimin sürətinin, növünün və ya metodunun dəyişdirilməsi nəzərdə tutulur. Məktəbə gələn hər bir şagird fərqli maraqlara, biliklərə və öyrənmə tərzinə

malikdir. Əgər eyni təlim metodu bütün şagirdlərə tətbiq olunsa, bu səmərəsiz nəticə verə bilər. Şübhəsiz ki, differensial təlim bizlərə şagirdlərin güclü və zəif tərəflərini, maraqlarını, seçimlərini müəyyənləşdirmək və təlimimizi ona uyğun olaraq qurmaq imkanı verir.

Məktəb həyatındakı ən əhəmiyyətli mərhələ ibtidai təhsil mərhələsidir. Çünki ibtidai təhsil səviyyəsində şagird mühüm həyati bacarıqlara yiyələnir, biliklərinin təməli qoyulur. Şagirdin gələcək həyatının bünövrəsi elə ibtidai təhsil dövründən başlanır. Bu baxımdan gündən-günə böyüyən, inkişaf edən nəslin maraqlarını, tələblərini peşəkarlıqla ödəyə biləcək, kompetensiyalı (lazımi bilik, bacarıq və vərdişlərə yiyələnmiş) müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Müəllim şagirdlərin cəmiyyətdə düzgün mövqe tutmasına, yeni şəraitə uyğunlaşmasına imkan yaratmalıdır. Bu məqamlara əsasən, belə nəticəyə gəlirik ki, ibtidai sinif müəllimləri şagirdlərlə işləmək üçün kifayət qədər metodoloji dəstəyə ehtiyac duyurlar. Bu isə dəstək mexanizmlərinin effektiv şəkildə tətbiq edilməsini zəruri edir.

Bu məqalənin əsas məqsədi ibtidai siniflərdə şagirdlərə differensial yanaşmanın tətbiqini və bu yanaşmanı dəstəkləyən pedaqoji mexanizmlərin mahiyyətini araşdırmaqdır.

**Tədqiqat**

Şagirdlərin məktəbdə uğur qazanması və özlərini tam rahat şəraitdə hiss etmələri üçün inklüziv və differensiallaşdırılmış mühitdə təhsil almaları əsas şərtlərdəndir. Differensial təlim mühitində olarkən şagirdlər özlərini təlim prosesinin mərkəzində hiss edirlər. Belə dərslərdə şagirdlər öyrənmə prosesinə aktiv şəkildə cəlb olunurlar, öyrəndikləri bilikləri əvvəlki biliklər ilə əlaqələndirirlər və dərsi şüurlu şəkildə mənimsəyirlər.

Tomlinson və Moon (2013) yanaşmasına görə, differensial təlim sinifdə 5 əsas elementdən ibarətdir:

1. öyrənmə mühiti;
2. kurikulum (tədris proqramı);
3. qiymətləndirmə;
4. təlim prosesi;
5. sinif rəhbərliyi və idarəetməsi [3, s.2].

Deməli, differensial təlim mühitinin tamlığı üçün mühit, tədris proqramı, proses, idarəetmə və qiymətləndirmə şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla uyğunlaşdırılmalıdır.

Differensial təlim strategiyasını həyata keçirən müəllimlər şagirdlərin hazırlıq səviyyəsi, maraq dairəsi və öyrənmə ehtiyaclarını əvvəlcədən nəzərə alaraq, dərs məzmununu, tədris metodlarını, qiymətləndirmə vasitələrini və sinifdəki sosial-emosional, eləcə də idrak yönümlü stimulları məqsədyönlü şəkildə uyğunlaşdırırlar. Tədrisi şagirdyönümlü istiqamətə doğru şəkildə dəyişmək üçün müəllimlər differensial təlimin üstünlüklərindən tam şəkildə

məlumatlı olmalı, şagirdlərin digər ehtiyaclarını qarşılaya biləcək peşəkar hazırlığa sahib olmalıdırlar.

Tomlinson (2023) şagirdyönümlü təlim etikası ilə hərəkət edən müəllim nümunələrindən danışır. Belə müəllimlər kurikulumun yeniliklərindən istifadə etməklə şagirdlərin məktəbdə dəyərli və mənalı vaxt keçirmələrinə çalışırlar. Onun verdiyi nümunələrdən biri Kaliforniyada məktəbdə çalışan bir müəllimlə əlaqəli idi. O müəllim uşaqları öz həyatları üzərindən nümunələr göstərməyə təşviq edir [2, s.146]. Bu nümunədən bu qənaətə gəlmək olar ki, uşaqlar erkən yaşlarından öz dünyalarına heyranlıqla baxır və bu yolla onlarda tənqidi düşünmə bacarıqları formalaşır.

Bundan başqa, Viqotskinin "Proksimal inkişaf nəzəriyyəsinə" görə, uşaqların inkişafı və bu inkişafın sürəti düzgün istiqamətin verilməsi və yaxın inkişaf zonası daxilində olmaqla mümkündür.

İbtidai sinif mərhələsi şagirdlərin təlim prosesinə və sosiallaşmağa ilk ciddi addımlarını atdıqları dövr olaraq dəyərləndirilir. Bu yaş dövründə uşaqların diqqəti, öyrənmə tezliyi, öyrənmə tərzi və emosional vəziyyətində ciddi şəkildə fərqlənmələr müşahidə oluna bilər. Elə bu səbəbdən də ibtidai siniflərdə differensial təlimin tətbiqi zəruridir və xüsusi diqqət tələb edir.

Müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini müşahidə etməli və onların öyrənmə tərzlərindən asılı olaraq müxtəlif təlim metodlarından istifadə etməlidirlər. Məsələn, kinestetik, vizual, eşitmə kimi tiplərə uyğun olaraq metodlar fərqlənməlidir. Təlim metodları kimi təlim formaları da bu tiplərə uyğun olaraq müəyyənləşdirilməli, fərqli səviyyəli tapşırıqlar hazırlanmalıdır. Hazırlıq səviyyələri fərqlənən şagirdlərdə eyni mövzu müxtəlif formatlarda təqdim oluna bilər: bir neçəsinə oyunlarla, bir neçəsinə praktik tapşırıqlarla və digərlərinə şəkilli resurslarla.

Əlbəttə ki, qiymətləndirmə prosesi də fərdiləşdirilməlidir, yəni şagirdlərin xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələn, bəzi şagirdlər yazılı şəkildə, digərləri isə şifahi və ya əyani nümunələrlə öyrəndiklərini ifadə edə bilirlər.

Bu şəkildə qurulmuş təlim prosesi şagirdlər üçün öz potensiallarını üzə çıxarmaq imkanı yaradır.

**Differensial təlim və dəstək mexanizmlərinin qarşılıqlı əlaqəsi**

Differensial təlimin effektiv və uğurlu qurulması yalnız müəllimlərin səyləri ilə məhdudlaşmır. Şübhəsiz ki, təhsil müəssisələrində lazımi dəstək mexanizmlərin olması da prosesin dayaq nöqtəsidir. Dəstək mexanizmləri həm şagirdlərin fərdi ehtiyaclarını qarşılayır, həm də differensial təlim mühiti yaratmaqda müəllimlərin yükünü azaldaraq onlara dəstək olur. Dəstək mexanizmlərinə pedaqoji və psixoloji dəstək, məktəbdaxili və məktəbdənkənar resurslar, valideynlərlə sıx əməkdaşlıq aiddir. Məsələn, davranış pozuntusu diaqnozu olan birinci sinifdə oxuyan şagirdim dərslərə adaptasiya olmaqda,

diqqətini toplamaqda çox çətinlik çəkirdi. Mən sinif rəhbəri olaraq valideynlə sıx əməkdaşlıq qurdum, vəziyyəti ona izah etdim. Təbii ki, biz şagirdin psixoloqu ilə də əməkdaşlıq etdik, gündəlik sinifdəki vəziyyət barədə onu məlumatlandırdıq. Nəticədə, şagirdimdə müsbət irəliləyiş özünü göstərdi.

İbtidai siniflərdə şagirdlərin dərsdə tam iştirakını təmin etmək, onların diqqətini artırmaq, əlverişli öyrənmə mühiti yaratmaq üçün dəstək mexanizmlərinin rolu çox əhəmiyyətlidir. Bu baxımdan differensial təlim və dəstək mexanizmləri bir-biri ilə sıx bağlı iki sistemdir. Viqotskinin Scaffolding konsepsiyasına görə, uşaq ilk dəfə icra etmək istədiyi hər hansı bir işi tam öyrənib icra edəcəyi zamanadək həmin işdə daha təcrübəli olan başqa birinin dəstəyinə ehtiyac duyur. Bu dəstək müvəqqəti bir dəstəkdir. Uşağın həqiqi zonadan proksimal (yaxın) zonaya keçməsi üçün bu dəstəyə ehtiyacı var. Buradan belə bir nəticəyə gəlmək olar ki, şagirdin özünü sinfə tam aid hiss etməsi, müstəqil şəkildə öz diqqətini idarə etməsi, dərslərini icra etməsi üçün müvəqqəti dəstək mexanizmlərinin olması zəruridir.

Digər bir nümunəyə nəzər salsaq, sinifdə eşitməsinə görə məhdudiyyəti olan bir uşaq üçün əlavə avadanlıq, vizual resurslar olmadan təlimi idarə etmək müəllim üçün çətin ola bilər. Buna görə də differensial yanaşmanın uğurlu icrasında dəstək mexanizmlərinin rolu danılmazdır.

İbtidai siniflərdə tədris prosesində ən çox qarşılaşa biləcəyimiz problemlər müəllimin zəif hazırlığı, resurs çatışmazlığı, siniflərdəki şagird sayının çoxluğudur. Aşkardır ki, belə problemlər differensial təlimin tətbiqinə çətinlik törədir. Sinifdəki şagird sayının çoxluğu müəllimin fərdi yanaşma prinsipini həyata keçirməsini məhdudlaşdıra bilər. Müəllimlərin differensial təlim barədə tam məlumatlı və hazırlıqlı olmaları üçün onlara təlimlərdə iştiraka şərait yaradılmalıdır.

**Nəticə**

İbtidai siniflərdə differensial təlimin tətbiqi inklüziv, keyfiyyətli təlim mühitinin qurulması baxımından əhəmiyyətlidir. Şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq tədris prosesinin qurulmasına imkan verən bu yanaşma eyni zamanda şagirdlərin potensiallarının maksimum inkişafına şərait yaradır. Lakin differensial yanaşmanın müsbət nəticələr verməsi üçün müəllimlərin dərsə tam hazırlıqlı olması, məktəblərdə dəstək mexanizmlərin mövcud olması, resurslarla tam təminat olduqca əhəmiyyətlidir.

Beləliklə, ibtidai siniflərdə differensial yanaşmanın sistemli və davamlı olaraq tətbiq olunması şagirdlərin öyrənmə imkanlarının genişlənməsi və təhsildə bərabər imkanların yaradılması prinsipinin reallaşması ilə nəticələnir.

***Ədəbiyyat***

1. *Şahkərəm Məmmədov (2018). İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının pedaqoji əsasları. Bakı. s.7.*

2. *Teacher perspectives on contemporary challenges to differentiated instruction: a case study roselle c. Aranha Niagara university, U.S.A. Spring (2025). p. 2-3.*
3. *Tomlinson, C. A., & Moon, T. R. (2013). Assessment and student success in a differentiated classroom. Association for Supervision and Curriculum Development. p. 2.*
4. *"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə qərar.maddə 13.1.2*

**Muradova A.T.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***muradovaaysel15@gmail.com***

# AUDİTORİYADANKƏNAR FƏALİYYƏTİN ALİ TƏHSİLDƏ ROLUNUN GÜCLƏNDİRİLMƏSİ

***Xülasə***

*Məqalədə ali təhsil müəssisələrində auditoriyadankənar fəaliyyət tələbələrin şəxsi, sosial və akademik inkişafında əhəmiyyət və əsas məqsədləri qeyd edilmişdir. Bu fəaliyyətlər dərs prosesini tamamlayaraq yaradıcılıq, liderlik, sosial məsuliyyət və komanda işi bacarıqlarını inkişaf etdirir. Tələbə elmi cəmiyyətləri, mədəni-intellektual klublar, idman, könüllülük və startap təşəbbüsləri tələbələrin praktiki təcrübə qazanmasına və universitetə bağlılığının artmasına kömək edir. Eyni zamanda əmək bazarının tələblərinə uyğun kompetensiyalar formalaşdırır. Rəqəmsal texnologiyalar və səmərəli idarəetmə bu fəaliyyətlərin davamlılığını təmin edir və nəticədə təhsilin keyfiyyətini yüksəldərək tələbələrin cəmiyyətə faydalı, fəal mütəxəssis kimi formalaşmasına şərait yaradır.*

*Nəticədə, auditoriyadankənar fəaliyyətin rolunun gücləndirilməsi ali təhsilin keyfiyyətini artırmaqla yanaşı, tələbələrin şəxsiyyət kimi formalaşmasına, akademik göstəricilərinin yüksəlməsinə və cəmiyyətin fəal üzvləri kimi yetişməsinə mühüm töhfə verir.*

# УКРЕПЛЕНИЕ РОЛИ ВНЕАУДИТОРНОЙ ДЕЯТЕЛЬНОСТИ В ВЫСШЕМ ОБРАЗОВАНИИ

***Резюме***

*В статье рассматривается значение и основные цели внеаудиторной деятельности в высших учебных заведениях в контексте личностного, социального и академического развития студентов. Данная деятельность дополняет учебный процесс, способствуя развитию творческого потенциала, лидерских качеств, социальной ответственности и навыков командной работы. Студенческие научные общества, культурно-интеллектуальные клубы, спортивные, волонтёрские и стартап-инициативы способствуют приобретению студентами практического опыта и укреплению их приверженности университету. Одновременно формируются компетенции, соответствующие требованиям рынка труда. Применение цифровых технологий и эффективных управленческих механизмов обеспечивает устойчивость и результативность этих процессов. В результате усиление роли внеаудиторной деятельности способствует повышению качества образования, формированию личности студентов, росту их академических показателей и становлению их активными членами общества.*

*В результате усиление роли внеаудиторной деятельности способствует повышению качества высшего образования, формированию*

*личности студента, улучшению его академических показателей и воспитанию активных и социально ответственных членов общества.*

# STRENGTHENİNG THE ROLE OF EXTRACURRİCULAR ACTİVİTİES İN HİGHER EDUCATİON

***Summary***

*The article examines the significance and main objectives of extracurricular activities in higher education institutions in the context of students' personal, social, and academic development. These activities complement the educational process by fostering creativity, leadership qualities, social responsibility, and teamwork skills. Student scientific societies, cultural and intellectual clubs, sports, volunteering, and startup initiatives provide practical experience and strengthen students' engagement with the university. At the same time, they help develop competencies that meet labor market requirements. The use of digital technologies and effective management ensures the sustainability of these activities. As a result, strengthening extracurricular engagement enhances the quality of education and contributes to the development of active and socially responsible professionals.*

*In conclusion, strengthening the role of extracurricular activities not only enhances the quality of higher education but also significantly contributes to students' personal development, academic achievement, and their formation as active and responsible members of society.*

***Açar sözlər:*** *auditoriyadankənar fəaliyyət, ali təhsil, tələbə inkişafı, sosial bacarıqlar, liderlik, yaradıcılıq, təhsil keyfiyyəti, könüllülük, mədəni fəaliyyət, innovasiya*

***Ключевые слова:*** *внеаудиторная деятельность, высшее образование, развитие студентов, социальные навыки, лидерство, креативность, качество образования, волонтёрство, культурная деятельность, инновации*

***Key words:*** *extracurricular activities, higher education, student development, social skills, leadership, creativity, quality of education, volunteering, cultural activities, innovation*

## Giriş

Ali təhsil müəssisələrinin əsas məqsədlərindən biri tələbələrin yalnız nəzəri biliklərlə deyil, həm də sosial, intellektual və şəxsi inkişafla əhatə olunmasını təmin etməkdir. Müasir cəmiyyət tələbələrdən yalnız akademik bilikləri deyil, həm də yaradıcı düşüncə, liderlik, komanda ilə işləmə bacarıqları, sosial məsuliyyət və əmək bazarında tələb olunan praktik kompetensiyaları gözləyir. Bu baxımdan, auditoriyadankənar fəaliyyət ali təhsildə vacib vasitə kimi çıxış edir və tələbələrin hərtərəfli inkişafına xidmət edir.

Auditoriyadankənar fəaliyyətə tələbə elmi cəmiyyətləri, mədəni və intellektual klublar, idman və sosial layihələr, könüllülük proqramları və startap təşəbbüsləri daxildir. Bu fəaliyyət yalnız tələbələrin maraqlarına uyğun vaxt keçirməsini təmin etmir, eyni zamanda onların liderlik qabiliyyətlərini,

sosial bacarıqlarını və yaradıcılıq potensialını gücləndirir. Universitetlər üçün bu fəaliyyətin təşkil edilməsi həm də tələbələrin akademik motivasiyasını artırır, onların təhsil müəssisəsinə bağlılığını möhkəmləndirir və universitet daxilində sağlam sosial mühitin formalaşmasına xidmət edir [5, s. 65].

Müasir dövrdə əmək bazarının tələbləri getdikcə dəyişir və yalnız nəzəri biliklərə əsaslanan təhsil modeli kifayət etmir. İşəgötürənlər tələbələrdən müstəqil düşünmə, problem həll etmə, layihələrin idarə olunması, innovativ yanaşmalar tətbiq etmə və komanda ilə işləmə bacarıqları gözləyirlər. Auditoriyadankənar fəaliyyət tələbələrə bu bacarıqları real həyat şəraitində inkişaf etdirmək imkanı verir. Bu, onların gələcək karyera perspektivlərini artırır və ali təhsilin keyfiyyətini yüksəldir.

Bundan əlavə, auditoriyadankənar fəaliyyət tələbələr arasında əməkdaşlıq və qarşılıqlı hörmət mədəniyyətini formalaşdırır, sosial məsuliyyət hissini gücləndirir və tələbələrin fərdi təşəbbüskarlığını stimullaşdırır. Universitet rəhbərliyinin, müəllimlərin və tələbə təşkilatlarının bu fəaliyyətlərin təşkili prosesində fəal iştirakı onların səmərəliliyini və davamlılığını təmin edir. Müasir idarəetmə yanaşmalarının tətbiqi, rəqəmsal texnologiyaların istifadəsi və beynəlxalq təcrübənin öyrənilməsi auditoriyadankənar fəaliyyətlin daha effektiv və nəticəyönlü olmasına şərait yaradır [3, s. 44].

Nəticə etibarilə, auditoriyadankənar fəaliyyətin rolunun gücləndirilməsi ali təhsilin qarşısına qoyulan məqsədlərinə çatmaq üçün vacib amildir. Bu fəaliyyət tələbələrin akademik göstəricilərini artırmaqla yanaşı, onların şəxsiyyət kimi formalaşmasına, sosial və intellektual inkişafına və gələcəkdə əmək bazarına uğurlu inteqrasiyasına mühüm töhfə verir. Ali təhsildə auditoriyadankənar fəaliyyətlərin səmərəli təşkili həm universitetlərin rəqabət qabiliyyətini artırır, həm də cəmiyyət üçün müsbət sosial nəticələr yaradır [ 7, s. 123].

Ali təhsil müəssisələrində auditoriyadankənar fəaliyyət tələbələrin hərtərəfli inkişafını təmin edən mühüm vasitədir. Bu fəaliyyətlər təhsil prosesini tamamlayan tədbirlər olmaqla yanaşı, tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafına, sosial və liderlik bacarıqlarının formalaşmasına, həmçinin praktiki bilik və təcrübələrin qazanılmasına imkan yaradır. Əsas hissədə bu fəaliyyətlərin növləri, əhəmiyyəti və onların səmərəli təşkili yolları təhlil edilir.

**1. Auditoriyadankənar fəaliyyətin növləri və xüsusiyyətləri**

Auditoriyadankənar fəaliyyət aşağıdakı əsas kateqoriyalara bölünür:

– Elmi fəaliyyət: tələbə elmi cəmiyyətləri, konfranslar, tədqiqat layihələri;

– Mədəni və intellektual fəaliyyət: teatr, musiqi, debat və intellektual klublar;

– İdman və sağlamlıq fəaliyyətləri: universitet idman komandaları, turnirlər, sağlamlıq təşəbbüsləri;

– Sosial və könüllülük fəaliyyəti: humanitar və ictimai layihələr, sosial aksiyalar, könüllü proqramlar;

– Startap və innovasiya təşəbbüsləri: gənclərin yeni layihələr, texnologiya və biznes ideyaları ilə məşğul olması.

Bu kateqoriyalar tələbələrin müxtəlif maraq və bacarıqlarını əhatə edir və onların hərtərəfli inkişafını dəstəkləyir. Hər bir fəaliyyət növü tələbələrdə müəyyən bacarıqların formalaşmasına yönəlir; məsələn, elmi fəaliyyət tədqiqat bacarıqlarını gücləndirir, sosial layihələr isə məsuliyyət və komanda işini inkişaf etdirir.

**1. Auditoriyadankənar fəaliyyətin ali təhsildə rolu**

Auditoriyadankənar fəaliyyət ali təhsilin keyfiyyətini birbaşa artırır. Tələbələrin dərs xaricində iştirak etdiyi layihələr onların praktiki bacarıqlarını artırır və nəzəri bilikləri real şəraitdə tətbiq etməyə imkan verir. Bu fəaliyyət həmçinin tələbələrin sosial və emosional inkişafına, kommunikasiya və liderlik bacarıqlarının təkmilləşməsinə, kreativ düşüncə və innovativ yanaşmaların formalaşmasına şərait yaradır.

Eyni zamanda, auditoriyadankənar fəaliyyətlər universitet daxilində sağlam sosial mühitin formalaşmasına kömək edir. Tələbələr arasında əməkdaşlıq, qarşılıqlı hörmət və tolerantlıq prinsipləri güclənir, kollektiv fəaliyyətə maraq artır və universitet həyatına bağlılıq möhkəmlənir. Bu isə tələbələrin akademik motivasiyasını artırır, onların dərs prosesinə aktiv iştirakını təmin edir və universitetin sosial imicinə müsbət təsir göstərir.

**2. Auditoriyadankənar fəaliyyətin səmərəli təşkili**

Auditoriyadan kənar fəaliyyətin səmərəliliyi tələbələrin maraqlarına uyğun proqramların hazırlanması, müasir idarəetmə yanaşmalarının tətbiqi və rəqəmsal texnologiyalardan istifadə ilə təmin edilir. Universitet rəhbərliyi və müəllim heyəti tələbələrin təşəbbüslərini dəstəkləməli, maliyyə və resurs təminatını gücləndirməli və beynəlxalq təcrübələri nəzərə almalıdır. Belə olduqda, fəaliyyət davamlı və məqsədyönlü olur, tələbələr layihələrdə real nəticələr əldə edir və akademik göstəriciləri ilə yanaşı, şəxsi inkişaflarını da təmin edir.

**3. Auditoriyadankənar fəaliyyətlərin gələcək perspektivləri**

Müasir ali təhsil müəssisələri auditoriyadankənar fəaliyyəti yalnız əlavə imkan kimi deyil, strateji prioritet kimi qəbul etməlidir. Tələbələrin karyera perspektivlərini gücləndirmək, onların əmək bazarına inteqrasiyasını asanlaşdırmaq və ali təhsilin keyfiyyətini artırmaq məqsədilə universitetlər innovativ proqramlar, startap laboratoriyaları, beynəlxalq layihələr və sosial təşəbbüslər yaratmalıdır. Bu fəaliyyətlər tələbələrin rəqabət qabiliyyətini artırır,

onların şəxsi və sosial bacarıqlarını inkişaf etdirir və universitetlərin regionda və beynəlxalq səviyyədə nüfuzunu yüksəldir [5, s. 61].

Nəticədə, auditoriyadankənar fəaliyyət ali təhsildə tələbələrin inkişafının ayrılmaz hissəsi kimi çıxış edir, onların akademik və sosial bacarıqlarını artırır, şəxsiyyət kimi formalaşmasına, cəmiyyətin fəal üzvləri kimi yetişməsinə və gələcək karyera uğurlarına zəmin yaradır.

**Nəticə**

Auditoriyadankənar fəaliyyət ali təhsildə tələbələrin şəxsiyyət kimi formalaşmasında, sosial və akademik inkişafında mühüm rol oynayır. Bu fəaliyyətlər tələbələrin yaradıcılıq, liderlik, komanda ilə işləmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, tələbələrin universitetə bağlılığını gücləndirir, akademik motivasiyasını artırır və əmək bazarında tələb olunan praktik bacarıqları qazandırır.

Auditoriyadankənar fəaliyyətin səmərəli təşkili universitet daxilində sağlam sosial mühitin formalaşmasına, əməkdaşlıq və qarşılıqlı hörmətin güclənməsinə səbəb olur. Müasir idarəetmə yanaşmaları, rəqəmsal texnologiyaların tətbiqi, beynəlxalq təcrübənin öyrənilməsi və tələbələrin maraqlarına uyğun proqramların hazırlanması fəaliyyətlərin davamlı və nəticəyönlü olmasını təmin edir.

Beləliklə, auditoriyadankənar fəaliyyətin gücləndirilməsi ali təhsilin dil keyfiyyətinin yüksəlməsinə, tələbələrin akademik və şəxsi inkişafına, həmçinin cəmiyyət üçün faydalı və aktiv gənc nəsil yetişməsinə mühüm töhfə verir.

***Ədəbiyyat***


1. *Əhmədov, R. (2020). Ali təhsil müəssisələrində tələbələrin sosial fəaliyyətlərinin inkişafı. Bakı: Bakı Dövlət Universiteti, 342 s.*
2. *Əhmədov, S. (2019). Ali təhsildə tələbə təşəbbüslərinin idarə edilməsi və səmərəliliyi. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 267 s.*
3. *Əliyev, M. (2022). Ali təhsil müəssisələrində tələbə klublarının idarə edilməsi. Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, 372 s.*
4. *İsmayılova, B. (2021). Ali təhsil müəssisələrində auditoriyadankənar fəaliyyətlərin effektiv təşkili. Bakı: Bakı Dövlət Universiteti, 350 s.*
5. *İsmayılova, B. (2021). Ali təhsil müəssisələrində tələbə elmi cəmiyyətlərinin fəaliyyəti. Bakı: Bakı Dövlət Universiteti, 356 s.*
6. *Məmmədov, E. (2021). Ali təhsil müəssisələrində tələbə təşkilatlarının rolu. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 360 s.*
7. *Quliyev, T. (2021). Ali təhsil müəssisələrində tələbə mədəniyyət fəaliyyətlərinin inkişafı. Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 370 s.*
8. *Hüseynov, F. (2020). Ali təhsil müəssisələrində tələbə idman fəaliyyətlərinin təşkili. Bakı: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, 228.*
9. *Rzayeva, L. (2022). Ali təhsildə yaradıcı fəaliyyət və innovasiya təşəbbüslərinin rolu. Bakı: Bakı Dövlət Universiteti, 339 s.*

**Nəcəfova R.M.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***raide.necefova.88@gmail.com***

# MƏKTƏBƏQƏDƏR DÖVRDƏ SÖZ EHTİYATININ ZƏNGİNLƏŞDİRİLMƏSİNDƏ UŞAQ ƏDƏBİYYATININ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Uşaqlarda 3-6 yaşları əhatə edən məktəbəqədər dövr intensiv koqnitiv bacarıqların, o cümlədən söz ehtiyatının əmələ gəlməsi və inkişafı ilə səciyyələndirilir. Söz ehtiyatı və ya lüğət ehtiyatı dedikdə fərdin mənasını anladığı və istifadə edə bildiyi sözlərin toplusu başa düşülür. Ötən əsrdə zəngin inkişaf yolu keçərək ayrıca ədəbi janr kimi təşəkkül tapmış uşaq ədəbiyyatı məktəbəqədər dövrdə olan uşaqların söz ehtiyatlarının artırılması və dərinləşdirilməsi prosesində əhəmiyyətli rol oynama potensialına malikdir. Məqalədə uşaq ədəbiyyatının bu prosesdə rolu və ondan səmərəli istifadə etmək üçün lazım olan təlim strategiyaları araşdırılmışdır.*

# ЗНАЧЕНИЕ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ В ОБОГАЩЕНИИ СЛОВАРНОГО ЗАПАСА В ДОШКОЛЬНОМ ВОЗРАСТЕ

***Резюме***

*Дошкольный возраст, охватывающий период от 3 до 6 лет, характеризуется интенсивным формированием и развитием когнитивных навыков, в том числе и словарного запаса. Под словарным запасом или лексическим запасом понимается совокупность слов, которые индивид понимает по смыслу и способен использовать. Детская литература, пройдя за прошедший век богатый путь развития и сформировавшись как отдельный литературный жанр, обладает потенциалом для того, чтобы играть значительную роль в процессе увеличения и углубления словарного запаса у детей дошкольного возраста. В статье исследуется роль детской литературы в этом процессе, а также рассматриваются необходимые учебные стратегии для её эффективного использования.*

# THE SIGNIFICANCE OF CHILDREN'S LITERATURE IN ENRICHING VOCABULARY IN THE PRESCHOOL-AGED CHILDREN

***Summary***

*The preschool age, covering children aged 3 to 6 years, is characterized by the formation and development of intensive cognitive skills, including the formation and development of vocabulary. Vocabulary, or lexicon, is understood to be the collection of words an individual understands the meaning of and can use. Children's literature, which underwent a rich development path over the last century and was established as a separate literary genre, has the potential to play a significant role in*

*the process of increasing and deepening the vocabulary of preschool-aged children. This article examines the role of children's literature in this process and the instructional strategies that are necessary to use it effectively.*

***Açar sözlər:*** *məktəbəqədər dövr, söz ehtiyatı, uşaq ədəbiyyatı, dialoji oxu, interaktiv oxu*
***Ключевые слова:*** *дошкольный возраст, словарный запас, детская литература, диалогическое чтение, интерактивное чтение*
***Key words:*** *preschool age, vocabulary, children's literature, dialogic reading, interactive reading*

Uşaqlıq dövrünün erkən mərhələsi insan həyatında gələcək şəxsiyyətin, davranışların və idrak qabiliyyətlərinin formalaşdığı ən həlledici dövrlərdən biridir. Bu yaşda uşaqların ətraf mühitlə qarşılıqlı əlaqəsi, müşahidə və təcrübə yolu ilə öyrənmə qabiliyyəti sürətlə artır. Məhz bu dövrdə uşağın zehni, emosional və sosial inkişafının təməli qoyulur. Təhsil və tərbiyə prosesinin düzgün istiqamətləndirilməsi gələcək tədris fəaliyyətinin uğurlu olmasına mühüm təsir göstərir. Bu baxımdan məktəbəqədər dövrün xüsusiyyətlərini anlamaq və bu mərhələdə baş verən inkişaf proseslərini izləmək xüsusi əhəmiyyət daşıyır.

Uşaqlarda məktəbəqədər dövr 3 yaşdan 6 yaşadək olan müddəti əhatə edir [6]. Məktəbəqədər dövr intensiv koqnitiv inkişaf mərhələsidir [1]. Koqnitiv inkişaf dedikdə qavrayış, yadda saxlama, anlayışın formalaşması (konsept formalaşması), problem həlli, təsəvvür etmə və mühakimə yürütmə kimi təfəkkür proseslərinin yaranması və inkişafı nəzərdə tutulur. Körpələrdən fərqli olaraq, məktəbəqədər uşaqlar hərəkətlərində, ünsiyyətdə və problem həll etmədə daha özgüvənli olurlar. Bu mərhələdə uşaqlar qaçmaq, tullanmaq, dırmaşmaq, koordinasiyanı yaxşılaşdırmaq, yaşıdları ilə əməkdaşlıq edərək oynamaq, hisslərini daha aydın ifadə edə bilmək kimi inkişaf nailiyyətlərinə çatırlar.

Məktəbəqədər dövründə uşaqlarda inkişaf edən digər bir xüsusiyyət tam cümlələrdən istifadə etmək və söz ehtiyatlarını genişləndirməkdir. Məktəbəqədər təhsil kontekstində söz ehtiyatı və ya lüğət ehtiyatı termini adətən dilin semantika sahəsini (məna bölməsini) təsvir etmək üçün istifadə olunur [7]. Söz ehtiyatı, ümumiyyətlə, bir fərdin sözlər haqqında malik olduğu biliklərin genişliyini və dərinliyini ifadə edir. Başqa sözlə, yaxşı inkişaf etmiş lüğət ehtiyatına malik olan uşaq çoxlu fərqli sözləri anlayır və onlardan istifadə edə bilir.

Uşaqlar nə qədər çox söz bilsələr, ətraf mühit və dünya haqqında bir o qədər çox məlumat ehtiyatına malik olurlar [8]. Bu isə öz növbəsində onların sözlərdən öz biliklərini artırmaq üçün istifadə etməsinə gətirib çıxarır. Söz ehtiyatının zənginləşdirilməsi uşaqların qəbuledici (reseptiv) və ifadəedici (ekspressiv) dil bacarıqlarının inkişafına gətirib çıxarır [9]. Tədqiqatlar

həmçinin göstərmişdir ki, uşaqların lüğət ehtiyatı onların oxuyub-anlama (*reading comprehension*) bacarıqlarında xüsusilə mühüm rol oynayır.

Aparılan araşdırmalarda uşaqların söz ehtiyatı ilə gələcək akademik nailiyyətləri arasında uzunmüddətli əlaqələri təsdiqləyən əsaslı sübutlar olduğunu görmək mümkündür [12]. Geniş lüğət ehtiyatı uşaqların gələcək savadlılığı üçün vacib əhəmiyyət kəsb edir [13]. Lüğət ehtiyatının inkişaf etdirilməsi dil və ünsiyyət bacarıqlarının təkmilləşdirilməsi prosesinin əhəmiyyətli hissəsini təşkil etməlidir. Bu prosesdə pedaqoji yanaşmanın rolu böyükdür. Uşaqlara əvvəlcə sözlərlə tanış olmağa, daha sonra isə onları təkrar etməyə və nümunələrdə işlətməyə imkan verən yanaşmaların təsiri daha böyükdür. Aparılan araşdırmalar söz ehtiyatını ən yaxşı şəkildə inkişaf etdirilməsi üçün aşağıdakıların nəzərə alınmalı olduğunu göstərir:

– Uşaqlar üçün zəngin dil mühitinin təmin edilməsi və onların lüğət ehtiyatının bilavasitə genişləndirilməsi;
– Öyrənmə prosesində ən çox işlənən sözlərin seçilməsi;
– Uşaqların bildiyi sözlərin sayının artırılması, sözlər arasındakı əlaqələrə və sözlərin istifadə oluna biləcəyi kontekstlərə dair anlayışlarının inkişaf etdirilməsi;
– Öyrənilən yeni sözləri səsli şəkildə eşitmək və istifadə etmək üçün uşaqlara imkan yaradılması.

Bütün bu nəticələr söz ehtiyatının erkən inkişaf üçün əhəmiyyətli hədəf olduğunu biləcəyini deməyə əsas verir.

Bu yaş dövründə uşaqlarda söz ehtiyatının artırılması üçün uşaq ədəbiyyatının rolu böyükdür. Uşaq ədəbiyyatı uşaqları həm əyləndirmək, həm də öyrətmək məqsədilə yaradılan əsərlər və onları müşayiət edən illüstrasiyalar (şəkillər) toplusudur [5]. Bu janr nağıllar, laylalar, təmsillər, xalq mahnıları və əsasən şifahi yolla ötürülən digər materiallar, yalnız uşaqlar üçün yazılmış şəkilli kitablar və hekayələr, həmçinin dünya ədəbiyyatının qəbul edilmiş klassikləri kimi geniş çeşiddə əsərləri əhatə edir.

Uşaq ədəbiyyatı qədim dövrlərdən ilkin inkişaf mərhələsində və daha çox şifahi formada təşəkkül tapmış, müstəqil bir janr kimi ilk dəfə XVIII əsrin ikinci yarısında meydana çıxmış, XX əsrdə isə sürətli və zəngin inkişaf yolu keçmişdir. Azərbaycan uşaq ədəbiyyatının formalaşması 19-cu əsrin birinci yarısında maarifçi realizm cərəyanının yaranması ilə başlayıb, 20-ci əsrin 20-ci illərinə qədərki çətinliklərlə dolu, lakin uşaq ədəbiyyatı baxımından son dərəcə məhsuldar və zəngin bir mərhələni əhatə edir. Azərbaycan ədəbiyyatında uşaqlar üçün yararlı olan əsərlərin kökləri bir neçə əsr əvvələ gedib çıxsa da, sistemli şəkildə formalaşmış, müstəqil və spesifik xüsusiyyətləri ilə fərqlənən uşaq ədəbiyyatı 19-cu əsrin sonlarında təşəkkül etmişdir.

Uşaq ədəbiyyatının özünəməxsus cəhətləri onun demək olar ki, ideologiyadan uzaq olması və oxucu kütləsinin əsasən 12 yaşa qədər olan

uşaqlar olmasıdır. Dünya uşaq ədəbiyyatında bəziləri böyüklərin prototiplərinə bənzəyən, bir çoxu isə yalnız özünə xas olan janrların, tiplərin və mövzuların zəngin bir çeşidinə rast gəlmək mümkündür. Uşaq ədəbiyyatı öz oxucularında bədii-estetik zövqün inkişafı üçün təməl qoyur və onlara ilk ədəbi anlayışları öyrənməyə imkan verir [4]. Bu proses isə təhsilin sonrakı mərhələlərində uşaqların digər fənlər üzrə əldə edəcəkləri biliklərin dərinləşməsinə və bacarıqların təkmilləşməsinə müsbət təsir göstərir. Bu kontekstdən yanaşdıqda, uşaq ədəbiyyatı həm də mühüm təlim əhəmiyyəti daşıyır və pedaqoqların, psixoloqların və metodistlərin də maraq obyekti olmalıdır.

Oxumaq uşaqların lüğət ehtiyatını, dinləmə və dil bacarıqlarını, diqqətini və marağını artırmaqla yanaşı, onların həm də hərfləri, şəkilləri və rəqəmləri tanıma qabiliyyətlərini inkişaf etdirir [10]. Oxunun inkişafı həm də dil bacarıqları və savadlılıq üçün beyin potensialını gücləndirir. Bununla yanaşı, sözlərin ucadan deyildiyini eşitmək uşaqları başqa yolla eşidə bilməyəcəkləri bir sıra yeni söz və ifadələrlə tanış edə bilər. Hər gün kitab oxumaq uşaqlara yeni sözlər öyrənməyə, diqqət (konsentrasiya) qabiliyyətini inkişaf etdirməyə kömək edir. Uşaqların gündəlik həyatda oxuma və ya dinləmə zamanı qarşılaşacağı sözlər və ifadələr uşaq ədəbiyyatı vasitəsilə asan və məqsədyönlü şəkildə öyrədilə bilər [2]. Belə ki, təsadüfən qarşılaşılan oxu və ya dinləmə mətnlərində ən çox işlənilən sözlərin tapılması ehtimalı azdır. Uşaq ədəbiyyatının bu istiqamətdəki məqsədyönlülüyü söz ehtiyatının inkişafına əhəmiyyətli töhfələr verir. Uşaq ədəbiyyatı nümunələrinin məqsədli şəkildə zənginləşdirdiyi söz ehtiyatı, əlbəttə ki, gündəlik həyatdan da ayrı deyil. Söz ehtiyatının inkişafı çox vaxt təhsil mühitindən daha çox, gündəlik həyat daxilində baş verir. Lakin təhsil səviyyəsi, ailə vəziyyəti, sosial-iqtisadi mühit kimi dəyişənlər insanın həyatdakı təbii lüğət inkişafına təsir edir. Təhsil prosesində, xüsusilə dinləmə və oxu bacarıqlarının inkişaf etdiyi mərhələdə, uşaq ədəbiyyatı nümunələri uşaqların sosial mühiti ilə əlaqəsinə də təsir etməklə yanaşı, gündəlik ünsiyyət qurma qabiliyyətinin də inkişafını təmin edir.

Söz öyrənmək üçün kitab oxumağın digər bir faydası kitabların təkrar oxunula və zamanla yenidən nəzərdən keçirilə bilməsidir ki, bu da yeni sözlərə və ifadələrə dəfələrlə rast gəlməyə imkan verir [13]. Bundan əlavə, kitab oxunarkən sözlər ümumiyyətlə bir hekayənin və ya müəyyən bir mövzu haqqında informasiya xarakterli mətnin bir hissəsi kimi təqdim olunur, bu da mənalı bir kontekst yaradır. Həmçinin, oxunulan kitabların müzakirəsi uşaqlara yeni sözlərin tələffüzü və mənası haqqında daha çox öyrənməyə və onlardan istifadə etməyə kömək edir.

Lüğətimizdəki hər hansı bir yeni sözün (məsələn, "qaranlıq" sözünün) təmsili (anlayışı) həmin sözə hər dəfə rast gəldikdə daha da dəqiqləşir. Sözlə ilk dəfə qarşılaşanda onun səsi və mənası haqqında müəyyən, ilkin təxmini bir

təsəvvür formalaşa bilər (məsələn, "qaranlıq" gecə ilə əlaqəlidir), lakin çoxsaylı qarşılaşmalardan sonra bu təsəvvür yüksək dərəcədə dəqiq və spesifik olur. Buna görə də, uşaqların lüğət ehtiyatının genişliyi və dərinliyi sözlərə təkrar-təkrar rast gəlməklə güclənir. Bu təkrarlar xüsusilə sözün necə səslənməsi, qrafik olaraq necə görünməsi və nə mənaya gəlməsi daxil olmaqla, söz haqqında ətraflı məlumat verən zaman daha faydalı olur.

Qeyd edildiyi kimi, kitab oxumaq uşaqlara tez-tez çox sayda yeni sözlərlə qarşılaşma imkanı yaradır və bu da onların ümumi lüğət biliklərini (yəni, lüğətlərinin genişliyini) artırır. Bunun səbəbi isə bir çox uşaq kitablarının gündəlik söhbətlərdən daha dərin leksik ehtiyatlara, yəni daha az istifadə edilən sözlərin sıxlığına malik olmasıdır.

Uşaqların lüğət biliklərini artırmaq üçün onlara tez-tez kitab oxumaq nə qədər vacibdirsə, eyni zamanda onlara eyni kitabları təkrar-təkrar oxumaq da zəruridir. Bu, həm kitabın özündəki yeni sözlərlə təkrar qarşılaşma, həm də kitabları müzakirə edərkən bu sözlər haqqında aparılan söhbətlər və müzakirələr vasitəsilə uşaqlara lüğətdəki sözlər haqqında daha dəqiq təsəvvürlər inkişaf etdirməyə kömək edir.

Tədqiqatçılar uca səslə oxu prosesinə aktiv cəlb edilməyin və qoşulmağın uşaqların söz ehtiyatını stimullaşdıran mühüm bir mexanizm olacağını düşünürlər. Lakin dialoji (səsli) oxu təkbaşına yetərli deyil. Öyrənmə prosesinin daha da effektiv şəkildə təşkil edilməsi üçün interaktiv oxudan da istifadə edilməlidir. İnteraktiv oxuda dialoji oxudan fərqli olaraq üçün bir sıra stimullaşdırıcı strategiyalardan istifadə edilir. Bu strategiyalara uşaqlara oxunulan mətnin məzmunu haqqında açıq suallar vermək, onlara hekayəni təkrar nəql etməyə və ya canlandırmağa kömək etmək, o cümlədən də mətndəki yeni sözləri müzakirə etmək aid edilə bilər. İnteraktiv oxu kitabları uşaqlarla birlikdə təkrar-təkrar oxumaqla yanaşı, həm də onların bu təcrübələrə aktiv şəkildə cəlb olunmasını və söhbətə qoşulmasını təmin etməyin vacibliyini vurğulayır.

Uşaqlarla kitabların təkrarlanan, interaktiv şəkildə oxunması söz ehtiyatını artırmaqla yanaşı, söz ehtiyatının dərinləşməsinə, yəni uşaqlarda sözlərin mənaları ilə bağlı biliklərin formalaşmasına da təsir edir. Tez-tez kitab oxunan uşaqlar, az oxunan uşaqlara nisbətən daha geniş və dərin lüğət ehtiyatına malik olurlar.

Qeyd edilənləri yekunlaşdırsaq, uşaq ədəbiyyatı məktəbəqədər uşaqlarda söz ehtiyatını artırmaq üçün vacib əhəmiyyət kəsb etdiyini demək mümkündür. Uşaqları oxunulan mətnə və istifadə edilən sözlərə cəlb etmək üçün aşağıdakı metodlardan istifadə edilməsi vacibdir [3]:

- Oxunulan mətndəki sözlərin tərifini vermək və izah etmək;
- Hekayəni və ya mətni təkrar oxumaq və nəql etmək;

– Sözlərin mənasını aydınlaşdırmaq üçün əyani vasitələrdən istifadə etmək;

– Söz ehtiyatının və anlamanın müzakirəsini təşviq etmək üçün suallar vermək.

***Ədəbiyyat***

*1. American Psychological Association Dictionary of Psychology. (2018). Cognitive development. https://dictionary.apa.org/cognitive-development*
*2. Baş, B. (2010). Söz Varlığının Oluşumu ve Gelişiminde Çocuk Edebiyatının Rolü. Türklük Bilimi Araştırmaları, 27, 137–159.*
*3. Education Endowment Foundation. (2024). Developing vocabulary in early years education. Preparing for Literacy. https://educationendowmentfoundation.org.uk/early-years/literacy/developing-vocabulary-in-early-years-education*
*4. Eminov, A. (2024). Uşaq ədəbiyyatı haqqında bir neçə söz. Ədəbiyyat Qəzeti. https://edebiyyatqazeti.az/news/sience/11979-usaq-edebiyyati-haqqinda-bir-nece-soz*
*5. Encyclopedia Britannica. (2025). Children's literature. https://www.britannica.com/art/childrens-literature*
*6. Hastings, D. (2025). Preschool Children: Know their needs and characteristics. First School. https://www.firstschool.net/blog/preschool-children-know-their-needs-and-characteristics*
*7. Justice, L. (2016). Evidence-Based Strategies for Improving Children's Vocabulary Knowledge. White Paper. McGraw-Hill Education. https://www.mheducation.com/unitas/school/explore/sites/reading-wonders/evidence-based-strategies-for-improving-childrens-vocabulary-knowledge-white-paper.pdf*
*8. Lowry, L. (2021). Using Early Childhood Classroom Activities to Build Vocabulary. The Hanen Centre. https://www.hanen.org/information-tips/using-early-childhood-classroom-activities-to-build-vocabulary*
*9. Marulis, L. M., & Neuman, S. B. (2010). The Effects of Vocabulary Intervention on Young Children's Word Learning: A Meta-Analysis. Review of Educational Research, 80(3), 300–335.*
*10. Özdamar, R., Keleşoğlu, A., Saçar, F. (2022). Okuma Gelişiminde Çocuk Edebiyatının Önemi. Eurasian Academy of Sciences Eurasian Education & Literature Journal, 16, 18–34.*
*11. Qafarova, S. (2019). Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü və inkişaf mərhələləri. Homeros, 2(1), 1–10.*
*12. Ramsook, K. A., Welsh, J. A., Bierman, K. L. (2019). What you say, and how you say it: Preschoolers' growth in vocabulary and communication skills differentially predict kindergarten academic achievement and self-regulation. Social Development, 29(3), 783–800.*
*13. Wasik, B.A., Hindman, A. H., Snell, E. K. (2016). Book reading and vocabulary development: A systematic review. Early Childhood Research Quarterly, 37, 39–57.*

**Orduxanova Ş.M.**
**Azərbaycan Dövlət Pedaqoji Univeristeti**
***senheyat619@gmail.com***

# ERKƏN YAŞ DÖVRÜNDƏ OLAN UŞAQLARIN PSİXOLOJİ-PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Erkən yaş dövrü (1–3 yaş) ali psixi funksiyaların ən sürətli formalaşdığı senzitiv mərhələdir. Bu dövrdə uşaqda nitq, müstəqil yerimə, əşyavi fəaliyyət və şəxsi "Mən" anlayışı yaranır. Qavrama aparıcı funksiyadır və yaddaş, təfəkkür, emosiyalar qavrayışla birgə fəaliyyət göstərir. Uşaq əşyaların sosial məqsədini mənimsəyir, vizual müqayisə, qruplaşdırma və sadə əlaqələrdən istifadə etmə bacarıqları inkişaf edir. Erkən uşaqlıq həm fiziki, həm də psixi inkişafın sıx bağlı olduğu, öyrənməyə yüksək həssaslıq və sürətli psixoloji dəyişikliklərlə xarakterizə olunan dövrdür.*

# ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ДЕТЕЙ РАННЕГО ВОЗРАСТА

***Резюме***

*Период раннего возраста (1–3 года) представляет собой высокочувствительный этап формирования высших психических функций. В этот период активно развиваются речь, самостоятельная ходьба и предметная деятельность, формируется первоначальное представление о собственном «Я». Ведущей психической функцией данного возраста является восприятие, а память, мышление и эмоции функционируют в неразделённом, интегрированном виде. Ребёнок усваивает социальное назначение предметов, овладевает элементарными формами визуального сравнения и классификации, а также начинает использовать простые связи между объектами при решении задач. В целом ранний возраст характеризуется тесной взаимосвязью физического и психического развития, высокой чувствительностью к средовым воздействиям и интенсивной когнитивной перестройкой.*

# PSYCHOLOGICAL-PEDAGOGICAL FEATURES OF EARLY CHILDREN

***Summary***

*The early childhood period (1–3 years) constitutes a highly sensitive phase for the formation of higher mental functions. Within this developmental window, significant progress occurs in speech acquisition, autonomous locomotion, and object-directed activity, culminating in the emergence of a differentiated sense of self. Perception functions as the leading psychological process, with memory, thinking, and emotional responses operating in an undifferentiated yet integrated manner. During this stage, children internalize the social functions of objects, acquire elementary forms of visual comparison and categorization, and begin to employ simple relational*

*strategies in problem-solving. Overall, early childhood is characterized by the strong interdependence of physical and psychological development, heightened sensitivity to environmental influences, and rapid cognitive reorganization.*

***Açar sözlər:*** *erkən uşaqlıq dövrü, ali psixi funksiyalar, nitq inkişafı, ,,mən'' anlayışı, əyani-əməli təfəkkür, sensor inkişaf*

***Ключевые слова:*** *ранний возраст, высшие психические функции, когнитивное развитие, предметная деятельность, развитие речи, сенсомоторная интеграция, формирование «Я»-концепции, перцептивные процессы,*

***Key words:*** *early childhood, higher mental functions, sensorimotor integration, speech development*

Erkən yaş dövrü ali psixi funksiyaların formalaşdırılması üçün ən sensitiv dövrdür. Həyatın ilk ilində uşağın özünü dərkinin, şəxsiyyətinin formalaşdırılmasının, aparıcı fəaliyyətinin əsaslarını formalaşdırır. Erkən yaşda uşaq dünyaya, başqalarına və özünəməxsus münasibəti, böyüklər və həmyaşıdları ilə bağlı əsas formaları formalaşdırır. Uşaqların inkişaf dövrünün xüsusiyyətlərinin öyrənilməsinə N.M.Aksarina, V.Q.Alyamovskaya, L.S.Vıqotski, V.S.Muxina və s. kimi alimlərin tədqiqat işləri nəzərdə tutulmuşdur.Bir yaşından sonra stabil uşaqlıq dövrü başlayır.

Bu 1–3 yaş dövrünü edir və 3 yaş müddəti ilə tamamlanır. Bu dövrün psixofizioloji xüsusiyyətlərinə kömək edilir:

- fiziki və psixi inkişafın sıx əlaqəsi, fiziki inkişafda olan hər hansı bir kənaraçıxma psixi pozulmalara çıxara bilər;
- fərdi inkişaf sürəti, qeyri səviyyədə inkişaf və heteroxluq orqanlarınlar və sənədlərin sistemləri eyni hissə inkişaf etmir;
- uşaq tərbiyəsi, onun tərbiyəsinə xüsusi tələblər qoyur;
- alətlər öyrənməyə qabilliyi (bu yaşda şərti bir şəkildə dəyişdirir).

Həyatın birinci ilinin sonunda uşaq və böyük arasında sosial vəziyyət tamlıq yaradır:

1. Bu dövrdə uşağın nitqi müstəqil xarakter daşıyır (sözlər situativ, çoxmənalı, polisemantik olur). Ünisiyyət vasitəsi kimi nitq daimi məna daşımır və bu dövrün əsas yeniliyi nitqin sürətlə inkişaf edərək ünsiyyət vasitəsi kimi hamı tərəfindən başa düşülməsi olur.
2. Bu günə qədər uşağın bu və ya digər əşya ilə həyata keçirdiyi hər hərəkətdə, xüsusilə də əşyalarla manipulyativ fəaliyyətdə bir yetkinin iştirakı mütləq idi. Bir əşyanı müstəqil şəkildə manipulyasiya edərək fiziki xüsusiyyətlərinə diqqət yetirərək, uşaq həmin əşyanın ictimai məqsədini başa bilməyəcəkdir. Bu fenomenyalnız körpəlik dövrünün sonunda baş verir.
3. Körpəlik dövrünün sonundan başlayaraq artıq tamamilə müstəqil yerimə inkişaf edir.

Erkən uşaqlıq dövrünün ümumi psixoloji xüsusiyyətləri haqqında L.S.Vıqotski bir sıra vacib məqamları qeyd etmişdi.

1. Uşağın müəyyən bir situasiya ilə əlaqəsi: uşaq situasiyaya daxil olur və davranışı tamamilə situasiya ilə müəyyən edilir. Erkən yaşda olan uşaq, daha böyük yaşlardan fərqli olaraq, mövcud vəziyyətə digər mümkün şeylər haqqında bilik gətirmir, ümumiyyətlə bu vəziyyətdən kənar bir şeyə, onu dəyişdirə biləcək bir şeyə cəlb edilmir. Bu davranış bir neçə amildən qaynaqlanır: birincisi, erkən uşaqlıq dövründə sensor və motor funksiyalar arasında birliyin yaranması, ikincisi, qavrayış və emosional münasibətlərin sıx əlaqəsi. Nəticədə, qavrayış hərəkətlə birbaşa əlaqəli olaraq davranışı müəyyən edir. Erkən yaşlı bir uşaq üçün şüurlu olmaq, diqqət, yaddaş, təfəkkürün köməyi ilə qəbul edilənləri qavramaq və emal etmək demək deyil. Bütün bu funksiyalar hələ bir-birindən kifayət qədər fərqlənməmişdir və şüurda bölünməmiş bir bütöv kimi fəaliyyət göstərir, qavrayışa tabe olurlar.

2. Bu yaş dövrünün aparıcı funksiyası qavramadır. Məlumdur ki, erkən yaşlı uşağın hafizəsi ancaq fəal qavrama–tanıma ilə; əyani-fəal təfəkkür (yəni, mövcud situasiyada əyani olaraq görüb hərəkət etmək və əlaqə yaratmaq bacarığı) – düşünmə ilə, emosiyalar əsasən hər hansı əşyanı əyani qavrama anında ona yönlənərək təzahür edir. Erkən yaş dövrünün vacib yeniliklərindən biri uşaqda  şəxsi "Mən" anlayışının yaranmasıdır. Bu anlayış təxminən 3 yaşına doğru yaranır. Uşaq ilk dəfə olaraq öz müstəqil fəaliyyətini böyüklərin fəaliyyətinə oxşatmağa başlayır: məsələn, qaşığı götürür və onu yedizdirənə etiraz edərək özü yeməyə cəhd edir. "Uşaq-böyük" birliyindən şəxsi "Mən"-ini ayırmağa başlayır.

Erkən uşaqlıq  dövrünün əsas üç məqamı – düzyerimə, əşyavi fəaliyyət, nitq inkişafı üzərində dayanaq.

**Düzyerimə.** Artıq körpəlik dövrünün sonuna yaxın uşaq, əvvəlcə tutaraq, sonra isə müstəqil olaraq ilk addımlarını atmağa başlayır. Erkən uşaqlıqda məkanın mənimsənilməsindəki fəaliyyəti daha da aktivləşir və genişlənir: 3 yaşına qədər nəinki gəzməyi, həm də qaçmağı, pilləkənlərə qalxmağı, stullara qalxmağı, maneələrin üstündən qalxmağı və s. öyrənir.

Tamamilə fiziki nailiyyət olmaqla  müstəqil hərəkət etmək qabiliyyəti psixoloji nəticələrə səbəb olur. Yeriməni mənimsəmək uşaq üçün ətraf aləmin sərhədlərini genişləndirir, ona böyüklərin vasitəçiliyi olmadan müstəqil olaraq yeni əşyalar və yerlərlə tanış olmaq imkanı verir. Xarici məkanda bələdləşmədə uşağın azadlığı və müstəqilliyi genişlənir. Əzələ hissiyyatı məsafənin və cisimlərin məkanda düzülüşünün (görmə, kinesteziya və toxunuşun birgə işləməsi) istinad ölçüsünə çevrilir. Əsas odur ki, sürünməkdə iştirakdan azad olan əllər uşağın obyektlərin manipulyasiyasında imkanlarını genişləndirir.

**Əşyavi fəaliyyət.** Erkən körpəlik dövrünə xas olan manipulyativ fəaliyyət erkən uşaqlıqda əşyavi fəaliyyətlə əvəz olunmağa başlayır. Əşyalarla fəaliyyətin inkişafı bir sıra mərhələlərdən keçir. 7 aylıq uşaqlar hər hansı bir əşya ilə eyni şəkildə hərəkət edirlər – onları vurur, yelləyir, ağzına aparır, atır və s. Təxminən 10–14 ayda uşaqlar ilkin olaraq böyüyün göstərdiyi hərəkəti təkrarlaya bilərlər (əvvəlcə onunla birgə, sonra müstəqil olaraq). Bu cür fəaliyyətin məzmunu zəif olur və mənimsənilmiş 2–3 manipulyasiyadan kənara çıxmır. İlk spesifik manipulyasiyaların özəlliyi (gəlinciyi qucaqda yelləmək, oyuncaq ayıcığı yedizdirmək, kitabı vərəqləmək və s.) onların əvvəlcə böyüklər ilə birlikdə yerinə yetirilərək mənimsənilməsidir. Hətta oxşar situasiyalarda belə, bir yaşlı uşaqlar artıq onlara məlum hərəkəti təkrarlaya bilmirlər. Yalnız həyatın 2-ci ilində, obyektlərlə hərəkətləri məqsədləri üçün mənimsəməyə başlayırlar.

Uşağı əhatə edən əşyalar görünüşü, istifadəsi ilə fərqlənir, amma əsas olan əşyanın uşağın beynində hansı məzmunla möhkəmlənməsidir. Bəzi əşyalar öz xüsusiyyətlərinə görə dəqiq şəkildə hərəkət tələb edir. Bunlara əlaqəli hərəkətlər daxildir (qutuları qapaqlar ilə örtmək, piramidanın üzüklərini toplamaq, iç-içə yığılan matryoşkaların toplanması və s.). Uşaq həm də müxtəlif vasitələrlə hərəkətləri mənimsəyir, alətlərin sosial məqsədi dəqiq şəkildə müəyyən edilir (bunlara qaşıqla yemək, daraqla saçı daramaq, bel ilə qazımaq, fırça ilə dişləri fırçalamaq və s. daxildir). Müvafiq vasitələrdən istifadə bacarığının formalaşması uşağın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir [6].

Erkən uşaqlıqda intellektual inkişafın əsasını uşaqda yeni qavrayış və əqlifəaliyyət növlərinin formalaşması təşkil edir. Erkən uşaqlığın başlanğıcına qədər uşaqda əşyavi qavrayış inkişaf edir: ətrafdakı cisimlərin xüsusiyyətlərini qavramağa, cisimlər arasındakı ən sadə əlaqələri tutmağa və bu bilikləri onlarla hərəkətlərində istifadə etməyə başlayır. Bu, obyektiv fəaliyyətin (və daha sonra — oyun və rəsmin elementar formalarının) və nitqin mənimsənilməsi ilə əlaqədar baş verən sonrakı əqli inkişaf üçün ilkin şərtlər yaradır [2]. Erkən yaşın əvvəlinə qədər uşaq əşyaların bəzi xüsusiyyətlərini müəyyənləşdirməyə və praktik davranışı tənzimləməyə imkan verən vizual hərəkətləri mənimsəyir. Ancaq belə bir əşyavi qavrayışın dəqiqliyi və mənalılığı zəif olur. Həyatın 2-ci ilinin uşağı hələki tanış əşyaların xüsusiyyətlərini — onların formasını, ölçüsünü və rəngini kifayət qədər dəqiq müəyyənləşdirə bilmir və əşyaların özləri isə ümumiyyətlə, keçmiş təcrübədə rast gəlinən fərdi, daha çox nəzərə çarpan əlamətlərlə tanınırlar. Əşyaların tanınması üçün əsas, ilk növbədə, onların formasının xüsusiyyətləridir. Əvvəlcə uşaq rəngi ümumiyyətlə nəzərə almır, rəngli və rəngli olmayan şəkilləri, eləcə də qeyri-adi, qeyri-təbii rənglərlə boyanmış şəkilləri eyni dərəcədə yaxşı tanıyır. Çox vaxt uşaqlar bir əşyanı ardıcıl, sistematik şəkildə müayinə edə, fərqli xüsusiyyətlərini

müəyyənləşdirə bilmirlər. Buna görə də, onların qavrayışı gözə çarpan bir xüsusiyyəti "tutur" və əşyanı "müəyyənləşdirir". Vizual müqayisənin inkişafı ilə əlaqədar olaraq, 2,5–3 yaşlı uşaq, eyni xüsusiyyətlərə malik bir çox fərqli əşyanın olduğunu (məsələn, "sarı", "dairəvi", "yumşaq" və s.) anlayır və nümunə əsasında (əvvəlcə forma, sonra ölçüvə daha sonra rəng) vizual seçim edə bilir.

Erkən yaş dövründə uşaqlar ümumi qəbul edilmiş sensor etalonları mənimsəmirlər və bu etalonlardan qavrama vasitələri kimi istifadə etmirlər. Uşaqlar üçün əşyaların xüsusiyyətlərini müəyyən edərkən, yaddaşlarında möhkəmlənmiş və öz təcrübələrindən yaxşı tanıdıqları bəzi əşyaların xüsusiyyətləri nümunə olaraq kömək edir. Buna görə də, uşaqlar yuvarlaq formalı əşyaları "top kimi", yaşıl olanları isə "ot kimi" və s. deyə müəyyən edirlər.

Əşyavi fəaliyyəti mənimsəyərkən, əşyalarda ən ümumi və sabit əlamətlər seçilir ki, bu da qruplaşdırmanın formalaşmasına gətirib çıxarır, bu da nitqin inkişafına əhəmiyyətli təkan verir.

Görmə ilə yanaşı, eşitmə qavrayışı da, xüsusilə də nitqin qavranılmasının əsasını təşkil edən fonematik eşitmə inkişaf edir. Uşaqlar sözləri ritmik quruluşları və intonasiya xüsusiyyətləri ilə ayrılmayan səs kompleksləri kimi qavrayır və tədricən onların səs tərkibini qəbul etməyə başlayırlar. Səs hündürlüyünü eşitmə daha ləng inkişaf edir, buna görə də çox kiçik yaşlı uşağa mahnı oxumağı öyrətməyin mənası yoxdur.

Oyun fəaliyyəti formalaşmağa başlayanda, uşaq təxəyyülün inkişafı üçün stimulu alır, bu da erkən yaş üçün mütləq xarakter daşıyır. Uşaq böyüklərin hekayəsi və ya şəkil vasitəsilə əşyaları, hadisələri, hərəkətləri təsəvvür edə bilər. Təxəyyül ətraf aləmə olan maraq və bu maraq əsasında yaranan hisslərin təsiri altında spontan olaraq qeyri iradi yaranır. Oyunlarda uşaq təcrübəsindən tanıdığı situasiyaları təkrarlayır. Rəsmlər, konstruksiyalar yaradan zaman o, təsəvvüründəki obrazlardan deyil, mənimsədiyi fəaliyyətdən çıxış edir.

Üstünlük təşkil edən hafizə növləri — hərəkət yaddaşı, emosional yaddaş və qismən obrazlı yaddaşıdır. Uşaq erkən yaşda özünün etdiyi və ya hiss etdiyi şeyləri daha yaxşı yadda saxlayır, nəinki gördüyü və ya eşitdiyi şeyləri. Hafizə hələ dəspontandır və uşaq yadda saxlamaq və ya xatırlamaq məqsədilə heç bir xüsusihərəkət etməz. Yadda saxlama prosesində hərəkətlərin təkrarlanma tezliyi mühüm rol oynayır.

Erkən uşaqlıq dövrünün başlanğıcında uşaqda təfəkkür əlamətləri kimi qəbul edilən fəaliyyətlər ortaya çıxır — obyektlər arasında əlaqələrdən istifadə edərək müəyyən məqsədə çatmaq (məsələn, uşaq onu cəlb edən bir əşyanın olduğu yastığı özünə tərəf çəkib onu əldə etməyə çalışır). İlkin olaraq təxmin edərək əlaqə yaranır (obyekt yastığın üstündədir) və bu əlaqəni birbaşa istifadə

etmək mümkündür. Daha sonra uşaq bu əlaqələri daha geniş şəkildə istifadə etməyə başlayır və yeni əlaqələr və münasibətlər qurmağa başlayır. Bu, vasitə və əlaqələndirici hərəkətləri mənimsəmə prosesi zamanı baş verir. Mövcud və ya böyüklər tərəfindən göstərilən əlaqələrin istifadəsindən onların müstəqil qurulmasına keçid — erkən yaşda təfəkkürün inkişafında mühüm bir mərhələdir.

Xaricdən yönləndirici fəaliyyətə əsaslanan təfəkkür, əyani-fəal təfəkkür adlanır və bu, erkən yaş dövründə əsas təfəkkür növüdür. Hər hansısa bir məsələnin həlli daxili fəaliyyətlə və obrazlarla həyata keçirildikdə, əyani-obrazlı təfəkkür adlanır. Erkən yaşda uşaq bu yolla məhdud sayda məsələləri həll edir; daha çətin tapşırıqlar, ya ümumiyyətlə həll edilmir, ya da əyani-fəal plana keçir.

***Ədəbiyyat***

1. *Аксарина, Н.М. Воспитание детей раннего возраста / Н.М. Аксарина. — М.: Медецина 2007. — 304с.*
2. *Алямовская, В.Г. Ясли — это серьезно / В.Г. Алямовская. — М.: ЛИНКА-ПРЕСС, 1999. — 159с.*
3. *Браткова М. О психолого-педагогической помощи семьям, воспитавающим детей раннего возраста с проблемами в развитии / М. Браткова // Дошкольное воспитание. — 2010. — №2. — с.55–60.*
4. *Выготский, Л.С. Детская речь / Л.С. Выготский. — М.: Педагогика, 2006 — 420 с.*
5. *Гальперин, П.Я. Введение в психологию / П.Я. Гальперин. — Ростов-на-Дону, 1999. — 345 с.*
6. *Герасимова, А.С. Уникальное руководство по развитию речи / под ред. Б.Ф. Сергеева. — 2-е изд. — М.: Айрис-пресс, 2004. — 160 с.*
7. *Грехнев, В.С. Культура педагогического общения / В.С. Грехнев. — М.: Просв., 2000 — 197с.*
8. *Кроха: Пособие по воспитанию, обучению и развитию детей до трех лет: Учеб. — метод. пособие для дошк. образоват. учреждений и семейн. воспитания / Г.Г. Григорьева и др. — М.: Просвещение, 2003. — 253 с.*
9. *Кулагина, И.Ю. Возрастная психология. Развитие ребёнка от рождения до 17 лет / И.Ю. Кулагина. — М.: Айрис-пресс, 2005. — 412 с.*

**Paşayeva R.Q.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rahile.pasayeva02@gmail.com***

# UŞAQLARIN SOSİAL MÜDAFİƏSİNİN MAHİYYƏTİ

***Xülasə***

*Uşaqlığın sosial müdafiə sistemi, əhalinin sosial müdafiə sisteminin tərkib hissəsi kimi, uşağın tələbat və maraqlarının ödənilməsinə yönəlmiş normal həyat şəraiti, yaşayış təminatı və harmonik inkişafın təmin edilməsini hədəfləyir. Uşaqlığın sosial müdafiəsi dövlətin sosial siyasətinin əsas və ən aktual istiqamətlərindən biridir. Onun mahiyyəti uşaqların vəziyyətinin sabitləşdirilməsi, uşaqlarla bağlı mənfi meyllərin aradan qaldırılması, dövlətin və cəmiyyətin uşaqlara münasibətində müsbət dəyişikliklərin formalaşdırılması, eləcə də uşaqların həyat fəaliyyətində davamlı və müsbət dinamikaya nail olunması üçün real şəraitin yaradılmasından ibarətdir.*

# СУЩНОСТЬ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ ДЕТЕЙ

***Резюме***

*Система социальной защиты детства является составной частью системы социальной защиты населения, направленной на обеспечение нормальных условий жизни, поддержание жизнеобеспечения и гармоничного развития ребенка с целью удовлетворения его потребностей и интересов. Социальная защита детства – это одно из ключевых и наиболее актуальных направлений социальной политики государства, суть которой заключается в преодолении негативных тенденций и стабилизации положения детей, формировании позитивных изменений отношения государства и общества к детям, создании реальных предпосылок для дальнейшей положительной динамики процессов жизнедеятельности детей.*

# THE ESSENCE OF CHİLDREN SOCİAL PROTECTİON

***Summary***

*The system of child social protection is an integral part of the overall social protection system of the population and is aimed at ensuring normal living conditions, maintaining livelihoods, and promoting the harmonious development of the child in order to meet his or her needs and interests. Child social protection is one of the key and most relevant areas of the state’s social policy. Its essence lies in overcoming negative trends and stabilizing the situation of children, fostering positive changes in the attitude of the state and society toward children, and creating real prerequisites for the further positive development of children’s lives and well-being.*

***Açar sözlər:*** *sosial müdafiə, uşaqlar, ailə, sosial siyasət*
***Ключевые слова:*** *социальная защита, дети, семья, социальная политика*
***Key words:*** *social protection, children, family, social policy*

Uşaq hüquqları – hər bir uşağın (18 yaşına qədər olan hər bir insanın) malik olması vacib olan hüquq və azadlıqlardır. Bu hüquqlar irqindən, cinsindən, dilindən, dinindən, doğulduğu yerindən, milli və ya sosial mənşəyindən, maddi vəziyyətindən, sosial mənsubiyyətindən və digər fərqlərdən asılı olmayaraq hər bir uşağa aiddir. Şəxsiyyətin harmonik inkişafı üçün uşaq sevgi və mərhəmət mühitində, ailədə, onu sevən və qayğı göstərən insanlar arasında böyüməlidir. Böyüklərin əsas vəzifəsi uşağa müstəqil həyata hazırlanmaqda kömək etmək, onu cəmiyyətin tamhüquqlu üzvünə çevirmək, normal fiziki və intellektual inkişafı üçün şərait yaratmaqdan ibarətdir.

Uşaqlığın müdafiəsi – bu, uşaqların qanuni hüquq və mənafelərinin qorunmasını təmin edən tədbirlər sistemidir. Bu sistem uşaqların hüquqi statusunu müəyyən edən normativ sənədlərin işlənib hazırlanması, uşaq əməyinin qanunvericiliklə tənzimlənməsi, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün qəyyumluq, himayəçilik və övladlığa götürmə sisteminin təkmilləşdirilməsi, eyni zamanda korreksiya və reabilitasiya işləri aparan ixtisaslaşmış sosial xidmət və müəssisələr şəbəkəsinin yaradılmasını nəzərdə tutur.

Müxtəlif uşaq qrupları fərqli səviyyədə sosial yardıma və müdafiəyə ehtiyac duyurlar. Sosial müdafiəyə ehtiyacı olan əsas prioritet qruplara aşağıdakılar daxildir: yetim uşaqlar; valideyn qayğısından məhrum uşaqlar; sosial cəhətdən əlverişsiz ailələrdən olan uşaqlar; qəyyumluq və ya çoxuşaqlı, təkvalideynli ailələrdə böyüyən uşaqlar; inkişafında məhdudiyyətləri olan uşaqlar; işsiz ailələrin uşaqları; silahlı münaqişələr, ekoloji və texnogen fəlakətlər qurbanı olmuş uşaqlar; qaçqın və miqrant ailələrindən olan uşaqlar; həmçinin qanunla təmasda olan və daxili işlər orqanlarında profilaktik uçota götürülmüş uşaqlar.

Uşaqların sosial müdafiəsinə görə məsuliyyət bütün üç hakimiyyət qoluna – qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinə aiddir. Burada əsas rol dövlətə və onun yaratdığı institutlara məxsusdur. Məhz onlar uşaqlara dair sosial siyasəti və qanunvericiliyi formalaşdırır, onun həyata keçirilməsini təmin edir və sosial təhlükəsizliyə zəmanət verirlər. Sosial müdafiə subyektlərinə həmçinin siyasi partiyalar, ictimai təşkilatlar, xeyriyyə birlikləri, dini qurumlar, kütləvi informasiya vasitələri, müəssisələr, ixtisaslaşdırılmış orqanlar, uşaq və gənclər təşkilatları, habelə sponsorluq və xeyriyyə fəaliyyəti ilə məşğul olan şəxslər daxildir.

Uşaqlığın sosial müdafiəsində ailə və məktəb xüsusi rol oynayır. Bu sahədə bələdiyyə xidmətləri, stasionar sosial müəssisələr, uşaq evləri, internatlar, əlavə təhsil və inkişaf mərkəzləri, psixoloji-tibbi-pedaqoji müşayiət, konsultasiya və reabilitasiya xidmətləri də mühüm əhəmiyyət daşıyır. Sosial işçilər, sosial pedaqoqlar və digər mütəxəssislər də sosial müdafiə subyektləridir.

Uşaqlığın sosial müdafiəsi – hər bir uşağın tam inkişafını təmin edən, qanunla təsbit olunmuş iqtisadi, sosial və təşkilati təminatların sistemidir. Bu sistem uşağın yalnız yaşamasına deyil, həm də özünə inamlı, cəmiyyətlə harmoniyada yaşayan fəal şəxsiyyət kimi formalaşmasına şərait yaradır.

Ailə və uşaqların sosial müdafiə sistemi konkret sosial icmalar bazasında formalaşır. Sosial sistemlərin mürəkkəb iyerarxiyası mövcuddur və onlar bir-birindən keyfiyyətcə fərqlənirlər. Ailə və uşaqların sosial müdafiə sistemi həm ümumi (cəmiyyət, iqtisadiyyat, siyasət, ideologiya) səviyyədəki, həm də daha məhdud sistemlərlə – məsələn, ailə ilə qarşılıqlı əlaqə içində fəaliyyət göstərir. Bu sistemin strukturu onun bütün elementlərinin qarşılıqlı təsirindən və digər sosial sistemlərlə əlaqəsindən asılıdır [4, səh. 28]. Uşaqlığın sosial müdafiə sistemi çoxsəviyyəlidir və uşağın şəxsiyyətinin sosiallaşması prosesinə təsir edən bütün institutları əhatə edir [5, səh.156].

E.M.Rıbinski uşaqlığın sosial müdafiəsini dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edir və aşağıdakı əsas vəzifələri göstərir:

1. Uşaqların yaşayışı üçün zəruri maddi təminatın yaradılması;
2. Uşaq hüquqlarının qorunması üzrə qanunvericilik bazasının möhkəmləndirilməsi;
3. Ehtiyacı olan ailələr üçün ünvanlı maliyyə dəstəyinin təşkili;
4. Uşaqların tərbiyəsi, təhsili və sosiallaşmasının təmin edilməsi;
5. Sağlam analığın və uşaqların sağlamlığının qorunması;
6. Ailənin uşaqlar üçün təbii mühit kimi dəstəklənməsi, uşaqların istirahət və qidalanmasının yaxşılaşdırılması;
7. Çətin həyat şəraitində olan uşaqlara xüsusi dəstək tədbirlərinin həyata keçirilməsi və s. [6].

L.V.Mardaxayev qeyd edir ki, uşaqlığın sosial müdafiəsi – uşaqların qanuni hüquq və mənafelərinin qorunmasını təmin edən tədbirlər sistemidir. Bu sistem azyaşlıların hüquqi statusunu müəyyən edən normativ sənədlərin hazırlanması, uşaq əməyinin qanunla tənzimlənməsi, valideyn himayəsindən məhrum uşaqlar üçün qəyyumluq və övladlığa götürmə sisteminin təkmilləşdirilməsi, eyni zamanda sosial yardıma ehtiyacı olan uşaqlarla korreksiya və reabilitasiya işlərinin aparılması üçün ixtisaslaşmış xidmətlərin yaradılmasını əhatə edir [7].

P.D.Pavlenok uşaqlığın müdafiə sisteminin əsaslarını belə müəyyən edir:

- hüquqi baza (beynəlxalq qanunvericilik, milli qanunlar, yerli qaydalar, metodikalar);
- təhsil bazası (uşaqların sosiallaşması məqsədilə təhsil sisteminin təşkili və təkmilləşdirilməsi);

– psixoloji baza (narkomaniya, zorakılıq və aqressiv davranışa qarşı dayanıqlığı formalaşdıran tədbirlər);

– maddi-iqtisadi baza [8].

Uşaqlığın sosial müdafiə sistemi əhalinin sosial müdafiə sisteminin tərkib hissəsidir və uşağın həyat şəraitinin yaxşılaşdırılmasına, yaşayış təminatına və harmonik inkişafına yönəlmiş tədbirlər kompleksidir.

Bu sistemin özünəməxsusluğu aşağıdakılardan ibarətdir:

– uşaqlar xüsusi sosial-demoqrafik kateqoriyadır, buna görə də onların maraq və tələbatları sosial müdafiə tədbirlərinin məzmununu müəyyənləşdirir;

– uşaqlığa münasibət mənəvi və emosional məzmun daşıyır, bu da sosial müdafiəyə təsir göstərir;

– uşaqların sosial müdafiəsi yalnız bu sahəyə yönəlmiş qurumların deyil, həm də bütün dövlət strukturlarının birbaşa və dolayı funksiyasıdır.[9].

Bu baxımdan, aşağıdakı prinsiplərin qorunması vacibdir:

1. Hər bir uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququnun təmin edilməsi;
2. Hər bir uşağın hüquqlarının qorunması və potensialının maksimum reallaşdırılması;
3. Hər bir uşağın sağlamlığının qorunması;
4. Həssas kateqoriyadan olan uşaqların reabilitasiyası və cəmiyyətə tam inteqrasiyası;
5. Uşaqlarla və onların ailələri ilə iş zamanı peşəkarlıq və yüksək ixtisas səviyyəsinin təmin olunması;
6. Uşaq naminə sosial tərəfdaşlıq texnologiyalarına əsaslanmaq.

Uşaqlığın sosial müdafiəsi üzrə dövlət siyasəti – uşaqlara sosial təminatlar verən, onların tam inkişafı və cəmiyyətə inteqrasiyası üçün imkanlar yaradan kompleks sosial-siyasi fəaliyyət sistemidir. Bu siyasət uşaqların həyat şəraitinə mənfi təsir göstərən sosial problemlərin yumşaldılmasına və bu sosial-demoqrafik qrupun maraq və ehtiyaclarının daha dolğun ödənilməsinə yönəlmişdir.

Sosial müdafiə sisteminin əsas subyekti isə ailədir — uşağın sosiallaşmasının əsas institutu. Buna görə də uşaqların sosial müdafiəsi, ilk növbədə, ailənin sosial müdafiəsindən başlanmalıdır.

Uşaqlığın sosial müdafiəsi sistemində ailənin müdafiəsinin mühüm mexanizmi ailə ilə sosial işdir. Ailə ilə sosial iş uşağın ailədə normal funksionallaşmasının bərpasına və saxlanmasına yardım göstərməyə yönəlib. Bu fəaliyyət dövlət, regional və bələdiyyə səviyyələrində həyata keçirilən çoxfunksiyalı sosial müdafiə, sosial dəstək və sosial xidmət sistemidir və sosial yetimlik hallarının qarşısının alınması üçün etibarlı vasitədir.

Beləliklə, uşaqlığın sosial müdafiəsi – dövlətin sosial siyasətinin əsas və aktual istiqamətlərindən biridir. Onun mahiyyəti uşaqların vəziyyətinin

sabitləşdirilməsi, uşaqlara və uşaqlığa münasibətdə dövlət və cəmiyyətin müsbət dəyişikliklərinin formalaşdırılması və uşaqların həyat fəaliyyətində davamlı pozitiv dinamikanın yaradılmasıdır.

***Ədəbiyyat***

1. *Əliyeva, S. Uşaqların sosial müdafiəsi və sosial iş sistemində yeri. Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti Nəşriyyatı, 2020.*
2. *Hüseynova, L. Uşaqlara yönəldilmiş sosial xidmətlərin təşkili və idarə olunması. Bakı: ADPU, 2021.*
3. *Qasımova, N. Uşaq hüquqlarının qorunması və sosial iş praktikası. Bakı: Qanun Nəşriyyatı, 2019.*
4. *Савинов Л. И. Закономерности социальной системы защиты семьи и детства: методологические и методические аспекты // Вестн. Мордов. Ун-та. – 2012. – № 1.*
5. *Поддубная Т. Н. Социальная защита детства: соотношение понятий // Вестн. Адыгейск. Ун-та. – 2006. – № 3.*
6. *Рыбинский Е. М. Детство как социальный феномен. – М.: Изд-во НИИ детства РФД. – 1998.*
7. *Мардахаев Л. В. Словарь по социальной педагогике. – М.: Академия, 2002*
8. *Павленок П. Д. Теория и методика социальной работы. – М.: ГАСБУ, 1995.*
9. *Рябова Е.Н. Социальная защита семьи, материнства и детства как интегральное научное направление: методологические принципы исследования / Е.Н. Рябова // Отечественный журнал социальной работы. – 2013. - №4*

**Rəhimova E.F.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***elnarerehimova367@gmail.com***

# M.NAĞIQIZI YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK ANLAYIŞLARININ ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ SİNİFDƏN XARİC OXU MATERİALI KİMİ İSTİFADƏ İMKANLARI

***Xülasə***

*Azərbaycanın orta ümumtəhsil məktəblərinin tədris proqramlarına milli dəyərlərin tədrisi də daxildir. Milli dəyərlərin tədrisi məktəblərdə tərbiyəvi işlərin görülməsi üçün əhəmiyyətlidir. Cəmiyyətin tarixi mədəni mirasının gənc nəsillərə ötürülməsi milli dəyərlərin təbliğinə rəvac verir. Şagirdlərdə milli kimliyin formalaşması və məsuliyyət hissinin inkişafı üçün vətənpərvərlik anlayışının milli-mənəvi dəyər kimi təqdimi önəmlidir. Sinifdən xaric oxu materialları seçilərkən məzmununda vətənpərvərlik anlayışını ehtiva edən bədii əsər nümunələrinə üstünlük verilməlidir. Məqalədə müasir Azərbaycan ədəbiyyatının tanınmış şairi Mahirə Nağıqızının poetik yaradıcılığında vətənpərvərlik anlayışının bədii ifadəsi araşdırılmış, şairin milli ruhda yazılmış poeziya örnəkləri tədqiq edilmişdir.*

# ПОНЯТИЯ ПАТРИОТИЗМА И ВОЗМОЖНОСТИ ИХ ИСПОЛЬЗОВАНИЯ В ТВОРЧЕСТВЕ М. НАГИГЫЗЫ В КАЧЕСТВЕ МАТЕРИАЛА ДЛЯ ВНЕКЛАССНОГО ЧТЕНИЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ СРЕДНИХ ШКОЛАХ

***Резюме***

*Учебная программа средних школ Азербайджана также включает преподавание национальных ценностей. Преподавание национальных ценностей имеет важное значение для воспитательной работы в школах. Передача историко-культурного наследия общества подрастающему поколению способствует пропаганде национальных ценностей. Представление понятия патриотизма как национально-нравственной ценности важно для формирования национального самосознания и развития чувства ответственности у учащихся. При подборе материалов для внеклассного чтения следует отдавать предпочтение примерам художественных произведений, содержащих в своем содержании понятие патриотизма. В статье рассматривается художественное выражение понятия патриотизма в поэтическом творчестве известной поэтессы современной азербайджанской литературы Махиры Нагигызы, а также рассматриваются примеры поэзии поэта, написанной в национальном духе.*

# CONCEPTS OF PATRİOTİSM İN THE WORKS OF M. NAGHİGİZİ AND THE POSSİBİLİTİES OF THEİR USE AS EXTRACURRİCULAR READİNG MATERİAL İN GENERAL SECONDARY SCHOOLS

***Summary***

*The curriculum of secondary schools in Azerbaijan also includes the teaching of national values. The teaching of national values is important for educational work in schools. The transfer of the historical and cultural heritage of society to younger generations promotes the promotion of national values. The presentation of the concept of patriotism as a national-moral value is important for the formation of national identity and the development of a sense of responsibility in students. When selecting extracurricular reading materials, preference should be given to examples of artistic works that contain the concept of patriotism in their content. The article examines the artistic expression of the concept of patriotism in the poetic work of the famous poet of modern Azerbaijani literature Mahira Naghigizi, and examines examples of the poet's poetry written in the national spirit.*

***Açar sözlər:*** *tədris proqramı, sinifdən xaric oxu, mədəni irs, vətənpərvərlik anlayışı*

***Ключевые слова:*** *учебная программа, внеклассное чтение, культурное наследие, концепция патриотизма*

***Key words:*** *syllabus, extracurricular reading, cultural heritage, concept of patriotism*

## Giriş

Azərbaycan orta ümumtəhsil məktəblərində təhsil alan şagirdlər məktəb mühitində elmi biliklər əldə edir, müəllimlərin təlim-tərbiyəsinə uyğun olaraq layiqli vətəndaş kimi yetişdirilir. Müasir elm və texnologiyanın, mədəniyyət və incəsənətin sürətli inkişafı müəllimlərdən və şagirdlərdən vaxtdan daha səmərəli istifadə etməni, məktəbdə verilən bilik və bacarıqdan əlavə boş vaxtlarda da şagirdlərin yaradıcı fəaliyyətlə məşğul olmağı, daha çox çalışmağı tələb edir. Aydındır ki, şagirdlərin məktəb divarları arasında keçirdiyi zamanla müqayisədə onların sərbəst vaxtları daha çoxdur və onların boş vaxtlardan səmərəli istifadəsi üçün müxtəlif iş üsulları, müstəqil yaradıcı işlər, dərnəklər təşkil olunur. Bu istiqamətdə görülən işlər şagirdlərin yaradıcı enerjisindən düzgün və səmərəli istifadəni tələb edir. Azərbaycan dili müəllimləri şagirdlərinin məktəbdənkənar boş vaxtlarını səmərəli keçirmələri üçün müxtəlif istiqamətlərdə işlər təşkil edə bilər ki, bu işlərdən biri də şagirdləri sinifdən xaric və məktəbdən kənar tərbiyəvi işlərə cəlb etməkdir.

Pedaqoji ədəbiyyatda sinifdənxaric və məktəbdənkənar təhsil-tərbiyəvi işlərin növləri arasında əxlaqi, əqli, estetik, fiziki, ekoloji və əmək kimi növləri qeyd edilir [1, s. 361]. Qeyd edilən bu tərbiyəvi iş növləri ilk növbədə müasir şagirdlərin şəxsiyyət kimi yetişməsinə, onlara ictimai əhəmiyyət kəsb edən

müsbət keyfiyyətləri aşılamaq məqsədi güdür. Eyni zamanda şagirdləri gələcəkdə sosial münasibətlər sistemində layiqli vətəndaş kimi yetişdirmək, cəmiyyətimizə, dövlətimizə, dövlət atributlarına hörmət edən fərdlər kimi görmək də əsas məqsədə xidmət edir. Bu amil son illər çap olunmuş Azərbaycan dili dərsliklərində nəzərə alınmışdır. Məsələn, Azərbaycanın orta ümumtəhsil məktəblərinin VI, VII, VIII, IX və X–XI sinif Azərbaycan dili dərsliklərində "Dəyərlərimiz", "Milli-mənəvi dəyərlərimiz", "Mədəni irs və cəmiyyət", "Milli irsimiz" adlı xüsusi bölmələr vardır ki, bu bölmələrdə milli-mənəvi dəyərlərimiz təqdim və təbliğ olunur. Bu baxımdan Azərbaycan dili müəllimləri tədris etdiyi fənnin Azərbaycan dili fənninin əsas istiqamətlərinə uyğun olaraq sinifdən xaric tərbiyəvi işlərin təşkili üçün şagirdləri sinifdən xaric oxu materiallarına yönəldə bilər. Bunun üçün müəllim qarşıya məqsəd olaraq şagirdlərin əxlaqi keyfiyyətlərini inkişaf etdirməyi qoymalıdır.

Əxlaq tərbiyəsinin şagirdlərin şüuruna, hisslərinə, davranışlarına birbaşa təsirini nəzərə alan müəllim şagirdlər arasında cəmiyyətimizdə mövcud olan sabit əxlaqi hisslər, əxlaqi keyfiyyətlər və ən əsası isə mənəvi dəyərlər haqqında geniş söhbətlər apara şagirdlərə milli-mənəvi dəyərlərin onların gələcək inkişafına necə təsir edəcəyini izah edə bilər. Məsələn, müəllim şagirdlərə izah edə bilər ki, insanlarda əxlaqi keyfiyyətlərin formalaşması milli-mənəvi dəyərlərin dərki, öyrənilməsi, tətbiqi ilə mümkündür. Şübhəsiz ki, yeniyetməlik dövrlərində şagirdlərin milli-mənəvi dəyərlər haqqında təsəvvürləri bir o qədər də geniş deyil. Bunu nəzərə alan müəllim fənni tədris etdiyi sinfin yaş xüsusiyyətlərini nəzərə alaraq milli-mənəvi dəyərlər anlayışına aid elementləri həyatla əlaqəli faktlarla birgə onların nəzərinə çatdıra bilər. Şagirdləri sinifdən xaric oxu mətnlərinə yönəltmədən əvvəl müəllim şagirdlərə sadə əxlaqi keyfiyyətləri nəzakətliliyi, xoşrəftarlılığı, insanlara hörməti, xeyirxahlığı və s. keyfiyyətləri aşılamalı, tədricən daha yüksək əxlaqi dəyərləri vətənpərvərlik, dövlətə sədaqət, milli kimliyə bağlılıq, milli atributlara hörmət kimi ali dəyərlərin mahiyyətini çatdırmalıdır. Şübhəsiz ki, hər hansı bir məsələnin şərhində əyanilik və faktlara istinad vacibdir. Bu baxımdan Azərbaycan dili müəllimləri şagirdləri dərsdənkənar oxu mətnlərini seçərkən məqsədə uyğun olaraq yaradıcılığında vətənpərvərlik mövzularına daha çox müraciət etmiş yazıçı və şairlərin bədii mətnlərinə müraciət etməlidir. Klassiklərin bədii əsərlərinin dərsliklərdə əks olunması müəllimə imkan verir ki, o şagirdləri sinifdən xaric mütaliə üçün müasir ədəbi əsərlərə yönəltsin. Yeri gəlmişkən məzmununda, ideyasında Azərbaycan xalqının bir çox milli-mənəvi dəyərlərini əks etdirən müasir şairlərdən biri də Mahirə Nağıqızıdır. Qətiyyətlə söyləmək mümkündür ki, hər il yeni bir şair kitabı ilə oxucularını sevindirən Mahirə Nağıqızının poetik mətnlərinin ideya-məzmun xüsusiyyətləri imkan verir ki, sinifdən xaric oxu materialı olaraq şagirdlərə

tövsiyə olunsun. Müəllifin hər bir şeir nümunəsi şagirdlərdə əxlaq tərbiyəsinin mühüm istiqaməti i olan vətənpərvərlik dəyərlərinin təbliği ilə yadda qalır.

## Əsas hissə

Vətənpərvərlik vətəndaşın doğulduğu, böyüyüb boya-başa çatdığı coğrafi sərhədlərə malik əraziyə – vətənə olan ən ali hissidir. Bu hiss min illərlə, əsrlərlə Azərbaycan adlı bir ərazidə yaşamış əcdadların əsrlər ərzində bizə ötürdüyü hissdir. Vətənpərvərlik hissinin obrazlı və emosional təzahürü poetik mətnlərdə daha aydın duyulur:

*Azərbaycan - Qayalarından uca,*
*Yaşımdan da cavan, Dünyadan qoca...*

Mahirə Nağıqızının 2020-ci ildə çap edilmiş "Salam olsun" kitabının ilk şeiri "Azərbaycan" şeirindən seçdiyimiz bu bənd Azərbaycan adlı vətənimizin bədii təsviri üçün orijinal bir nümunədir. İlk iki misrada Azərbaycan adının ucalığı, son misralarda isə yaşının obrazlı təsviri ilə qarşılaşırıq. Poeziya dili üçün xarakterik olan bədii təzad Azərbaycan tarixinin emosional təsviri üçün səfərbər edilir. Şair bədii təzad vasitəsi ilə Azərbaycanın yaşını öz yaşından cavan təqdim etməklə Azərbaycanın müstəqillik yaşının gənc olmasına işarə edir, eyni zamanda Azərbaycan tarixinin qədimliyini dünyadan qoca olması misrası ilə vurğulayır.

Azərbaycanın təsviri onun tarixi keçmişi ilə birgə təqdim edilir:

*Azərbaycan - Nəsil-nəsil doğuluşum.*
*Külündən yaranan, Mənim səməndər quşum.*

"Azərbaycan" şeiri vətənpərvərlik dəyərinin müasir Azərbaycan poeziyasında tamamilə yeni formatda təqdimidir, desək yanılmarıq. Əvvəla, ona görə ki, şeirin hər bəndinin ilk sözü Azərbaycanla başlayır, ilk misralarda Azərbaycan həm də bənzəyəndir, hər bəndin ikinci misrasında bənzədilən verilir. Birinci bəndin ikinci misrasında Azərbaycan dağların-qayaların ən uca zirvəsinə; ikinci bənddə nəsillərin doğuluşuna, səməndər quşuna; üçüncü bənddə Xəzərin uca dalğasına; dördüncü bənddə Tanrıya bənzədilir.

*Azərbaycan - Baş əydiyim Tanrı.*
*Sənə kömək olsun, Anamın duaları.*

Dördüncü bənddə obrazlılıq yüksək formadadır. Şair Azərbaycan xalqı üçün üç ali dəyəri Azərbaycan, Tanrı və Ana anlayışlarını dörd misra daxilində elə ustalıqla təsvir edir ki, oxucu saatlarla misraların təsirindən ayrıla bilmir.

Beşinci bənddə Azərbaycan vətənin ən böyük və ən dərin çayına – Kürün lal və dəli sularına, müdrik qocaların susqunluğuna, gənclərin gücünə; altıncı bənddə göyərən ümidlərə, dərdlərə dərmana; sonuncu bənddə isə Azərbaycan növrağa bənzədilir:

*Azərbaycan – Ünvanı-növrağımın.*
*Əyilməyən dirəyisən,*
*Üçrəngli bayrağımın [2, s.37].*

Bəndin son misrasında işlənmiş “Üçrəngli bayraq” ifadəsi şairin vətənpərvərlik mövzusunda yazdığı şeirlərin əksəriyyətində dövlət atributlarının tərənnümü baxımından xüsusi yer tutur. Bu baxımdan şairin “Salam olsun” kitabında yer alan “Bayrağımız” əsəri diqqəti cəlb edir:

*Çöhrəsidir arzuların, Bizi aparan yolların.*
*Haqq səsidir milyonların,*
*Haqdan doğan bayrağımıza [2, s.132].*

Əsərin sonunda verilmiş müəllif qeydindən bəlli olur ki, şeir 2020-ci ildə Azərbaycanın tarixi qələbəsi ilə yekunlaşmış 44 Günlük Vətən müharibəsinin başa çatması, Zəfər Günü ilə əlaqədar yazılmışdır. Bu tarixi fakt onu deməyə əsas verir ki, şagirdlərə vətənpərvərlik dəyərinin aşılanması zamanı tarixi gerçəkliyin milli ədəbiyyata təsiri də diqqət mərkəzində saxlanılmalı, ölkə daxilində baş verən siyasi hadisələr, taleyüklü məsələlər ön planda olmalıdır.

Ümumiyyətlə, Mahirə Nağıqızının vətənpərvərlik mövzusunda yazmış olduğu bütün şeirlərində müasir Azərbaycan tarixində baş vermiş ictimai-siyasi hadisələr real və tarixi faktlarla, lakin poetik üslubun tələbləri çərçivəsində təqdim edilir.

Azərbaycanın müstəqilliyinin ilk illərində baş vermiş ictimai-siyasi hadisələr, qırğınlar, siyasi çəkişmələr, Qarabağın işğalı, son illər dövlətimiz və Ali Baş Komandanımız İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində əldə edilmiş uğurlar, sıra ilə, tarixi ardıcıllıqla Mahirə Nağıqızının yaradıcılığında əks edilmişdir.

Nəzərə alsaq ki, vətənpərvərlik tərbiyəsinin əsasında şagirdlərə layiqli vətəndaşlıq anlayışını, vətənə xidmətin nədən ibarət olmasını, vətən torpağının müdafiə olunmalı olduğunu aşılamaq dayanır, o zaman Mahirə Nağıqızı poeziyasında bu xüsusiyyətlərin geniş təbliğ olunduğu da qeyd edilməlidir.

Yuxarıda qeyd etdiyimiz kimi, Mahirə Nağıqızı yaradıcılığında müstəqil Azərbaycan tarixində baş vermiş mühüm tarixi hadisələr ardıcıl şəkildə bədii təsvir obyektinə çevrilir. Məsələn, “Salam olsun” kitabında yer almış “20 Yanvar qatarı” şeiri Azərbaycanın müstəqillik uğrunda apardığı tarixi mübarizənin poetik təsvirdir:

*Elə bil dünəndir, qaynayır Bakı, Vətəni çulğayan Şərə dur-deyir.*
*Topxana qırılır, əsirdi Kərki,*
*Kremlə qanları dayandır deyir [2, s.56].*

Vətənpərvərlik təkcə vətəni sevmək deyil, həm də onun tarixini bilməkdir. Tarixi isə, təkcə tarix kitabları vasitəsi ilə öyrənmirlər, vətən tarixi vətən qızının hər misrasında əks olunur. Birinci misrada ötən əsrin 90-cı illərində Azərbaycanın paytaxtı Bakı şəhərində insanların azadlıq uğrunda apardığı mübarizə “qaynayır Bakı” metanomiyası ilə əks edilir. İkinci misrada “Şər” Sovet hakimiyyətinin bədii obrazıdır. Üçüncü misrada təsvir edilən

hadisələr bir qədər geriyə 1988-ci ilə təsadüf edir. Şair burada 1988-ci ildə ermənilərin Şuşa şəhəri yaxınlığında yerləşən Topxana meşəsini qırmasını və bu hadisədən sonra Dağlıq Qarabağla bağlı siyasi hadisələrin 30 illik işğala gətirib çıxarmasına işarə edir. Sonuncu misrada isə "Şər" in ünvanı göstərilir.

Sinifdən kənar mütaliə üçün seçilmiş bu poetik nümunə ilə tanış olacaq şagirdin, şübhəsiz ki, müəyyən sualları yaranacaqdır. Aydındır ki, 30 ildən artıq vaxt keçmişdir, yeni nəsil Azərbaycanın yaxın keçmişində baş vermiş bəzi siyasi hadisələrin əsas qaynağını, səbəblərini xatırlamır. Müəllim yaranacaq sualları izah edərkən tarixi gerçəkliyin təsvirini real faktlarla izah edə bilər.

Həqiqətən də, ötən əsrin 90-cı illəri Azərbaycan tarixinin ən gərgin illəri kimi xarakterizə olunur. Ölkə ərazisində baş vermiş siyasi çaxnaşmalar, ali hakimiyyət uğrunda mübarizə böyük bir xalqı təhlükə ilə üz-üzə qoymuşdu. Lakin bu sonu görünməyən siyasi mübarizənin bitməsi, Azərbaycan xalqının vahid bir ideal uğrunda birləşməsi, işğal altına düşmüş tarixi torpaqlarını geri qaytarması və ərazi bütövlüyünü bərpa etməsi lazım idi. Bunun üçün xalqı birləşdirəcək, siyasi oyunlara son qoyacaq yeganə şəxsiyyət Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev idi. Xalqın Heydər Əliyevin müdrik siyasətinə, zəngin təcrübəsinə ehtiyacı var idi.

Dövrün siyasi səciyyəsi, xalqın onu xilas edəcək liderə olan sevgisi şairin aşağıdakı misralarında aydın, emosional şəkildə təsvir edilir:

*Dərələyəz şenliyi, Göyçə, Ağbaba, O ağır ellərim boşaldı bir-bir.*
*Yetiş hayımıza Xan Heydər baba,*
*Sənsən loğmanımız, dərman səndədir [2, s.57].*

Vətənpərvərlik həm də odur ki, Vətənin səmasını havasını iqlimini çöllərini dağlarını düzənlərini meşələrini yer yurd adlarını tanıyasan. Şairin misralarında Qərbi Azərbaycanın "Dərələyəz", "Göyçə" və "Ağbaba" kimi qədim yer adları çəkilir. Bu misraları oxuyan şagirdlər mütləq heç vaxt görmədiyi, lakin tarix kitablarında yazılan Qərbi Azərbaycan haqqında sual verəcək, qədim yer-yurd adlarını soruşacaq, o zaman müəllim vətən sərhədlərinin haradan başlayıb harada bitdiyini söyləyə bilər. Qeyd etmək yerinə düşərdi ki, Mahirə Nağıqızının sinifdən kənar mütaliəyə cəlb edilən əsərləri müəllimlərə Azərbaycan dilinin tədrisi proqramına daxil edilmiş "Xüsusi adların" öyrədilməsi zamanı da istifadə edilə bilər.

Mahirə Nağıqızının poetik mətnləri dil faktlarının zənginliyi ilə də diqqəti cəlb edir. Bu, hər şeydən əvvəl onun Azərbaycan dilinə olan vurğunluğu, sevgisindən gəlir. Onun Azərbaycan dilinə sevgisi "Ana dilim" şeirində aydın əks olunmuşdur.

Vətənpərvərliyin ən ali göstəricilərindən biri elə Ana dilinə olan sevgidir. Görkəmli Azərbaycan dramaturqu, nasir və dövlət xadimi doktor Nəriman Nərimanov yazırdı ki, ana dili insan beşikdə ikən ona lay-lay deyən

dildir, qürbətdə olarkən ana dilini eşidəndə ürəyin döyünür, üzün gülür, Ana dili möhtərəm, müqəddəs və əzəmətli qüvvədir. Mahirə Nağıqızı isə "Ana dilim" şeirində deyir:

*Yurd yaratdın, xalqıma ev-eşik oldun,*
*Laylalarla ruhumuza beşik oldun,*
*Dünyamızın sərhədinə keşik oldun,*
*Millət etdin el-elatı, ana dilim,*
*Dədəm-babam amanatı, ana dilim [2, s.59].*

Vətən varsa, ana dilim də var, dövlətim də var, anam da var, elim, obam da var, millətim, xalqım da var. Vətənpərvərlik duyğusu özündə vətən torpağına aid bütün ali hissləri, düşüncələri əks etdirir.

Şagirdlərə vətənpərvərlik anlayışının təbliği həm də ona görə vacibdir ki, Azərbaycanın gələcəyi bugünkü şagirdlərin, sabahın isə gəncləri, mühəndisləri, həkimləri, hakimləri, əsgər və zabitlərinin əlindədir.

**Nəticə**

Vətənpərvərlik xalqın milli ənənələri, fəxarət hissi ilə üzvi surətdə bağlıdır. Vətənpərvərliyin bu əlamətləri imkan verir ki, müəllim şagirdləri milli dəyərlər ruhunda tərbiyə etsinlər. Milli-mənəvi dəyərlər aid olduğu xalqın yaradıcı insanlarının, nasirlərin, şairlərin bədii mətnlərində daha qabarıq təsvir edilir. Gənc nəsil oxumağa, araşdırmağa yönəldiləndə onların vətən məfhumu və bu məfhumun ən incə detalları ilə tanış olmaq fürsəti yaranır. Mahirə Nağıqızının poetik örnəklərinə nəzər saldıqda bunun əyani şahidi olmaq mümkündür. Vətənpərvərlik anlayışına daxil olan xalq, dil, ordu, sərhəd, lider, coğrafi zənginliklər, vətən torpağı kimi bütün vacib elementlər onun yaradıcılığında obrazlı şəkildə əks edilmişdir.

***Ədəbiyyat***

1. *Ə.Paşayev, F.Rüstəmov Pedaqogika, Bakı, "Elm və Təhsil", 2017.*
2. *M.Nağıqızı, Salam olsun, Bakı, "ADPU nəşriyyatı", 2020.*
3. *R.İsmayılov, D.Cəfərova, S.Məmmədova, Azərbaycan dili 6 - Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Azərbaycan dili (tədris fənni) üzrə dərslik, Bakı, "Altun kitab", 2017.*
4. *R.İsmayılov, A.Rüstəmova, H.Allahverdi, S.Məmmədova, Azərbaycan dili 6 - Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Azərbaycan dili (tədris fənni) üzrə dərslik, Bakı, "Altun kitab", 2014.*
5. *T.Hacıyev, S.Bektaşi, M.Vəliyeva, Y.Hüseynova, Azərbaycan dili 8 - Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Azərbaycan dili (tədris fənni) üzrə dərslik, Bakı, "Şərq-Qərb", 2017.*
6. *T.Hacıyev, S.Bektaşi, Y.Hüseynova, Azərbaycan dili 9 - Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Azərbaycan dili (tədris fənni) üzrə dərslik, Bakı, "Şərq-Qərb", 2016.*
7. *F.Hüseynzadə, Təhsil sistemimizdə milli-mənəvi amillər metodikanın tərkib hissəsinə çevrilməlidir, "Palitra" qəzeti 29 mart, 2013.*

**Rzayeva R.M.**
**Odlar Yurdu Universiteti**
***renarzayeva1826@gmail.com***

# XARİCİ DİLİN TƏDRİSİNDƏ TEXNOLOJİ YENİLİKLƏRİN TƏTBİQİ: VİRTUAL RESURSLAR

***Xülasə***

*Bu məqalədə ingilis dilinə, eləcə də qloballaşma və məlumat texnologiyalarının sürətli inkişafı dönəmində ayrılmaz və əsas hissəsinə çevrilmiş müasir texnoloji yeniliklərə diqqət yetirərək xarici dillərin rolu araşdırılır. XXI əsrdə informasiya və kommunikasiya innovasiyalarının təhsil və tədris sisteminə inteqrasiyası ilə xarici dil öyrənməsində müxtəlif texnoloji vasitələrin istifadəsinə toxunulur. Mövcud rəqəmsal texnologiyaların mənfi və müsbət tərəfləri təhlil edilir. Texnoloji yeniliklərin təhsilə tətbiqi prosesi və onun xarici dilin mənimsənilməsinə təsiri müzakirə olunur və innovativ metodlardan istifadənin faydaları vurğulanır. Yeni informasiya sistemlərinin əhəmiyyəti və onların məktəblilərdə və tələbələrdə yazma, oxuma, dinləmə, ünsiyyət və müstəqil tədqiqat bacarıqlarının inkişafı ilə verdiyi töhfələr nəzərdən keçirilir.*

# ПРИМЕНЕНИЕ ТЕХНОЛОГИЧЕСКИХ ИННОВАЦИЙ ПРИ ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ: ВИРТУАЛЬНЫЕ РЕСУРСЫ

***Резюме***

*В данной статье рассматривается роль иностранных языков с акцентом на современные технологические инновации, которые стали неотъемлемой и существенной частью английского языка, а также в эпоху глобализации и быстрого развития информационных технологий. Затрагивается использование различных технологических инструментов в изучении иностранных языков с интеграцией информационных и коммуникационных инноваций в систему образования и преподавания в 21 веке. Рассматриваются и анализируются негативные и позитивные стороны существующих цифровых технологий. Обсуждается процесс применения технологических инноваций в образовании и его влияние на усвоение иностранного языка, а также подчерчиваются преимущества использования инновационных методов. Рассматривается важность новых информационных систем и их вклад в развитие навыков письма, чтения, аудирования, общения и самостоятельного исследования у школьников и студентов.*

# APPLICATION OF TECHNOLOGICAL INNOVATIONS AND VIRTUAL RESOURCES IN FOREIGN LANGUAGE TEACHING

***Summary***

*This article examines the role of foreign languages, focusing on modern technological innovations that have become an integral and essential part of the English language, as well as in the era of globalization and the rapid development of information technologies. The use of various technological tools in foreign language learning with the integration of information and communication innovations into the education and teaching system in the 21st century is touched upon. The negative and positive aspects of existing digital technologies are examined and analyzed. The process of applying technological innovations to education and its impact on foreign language acquisition is discussed, and the benefits of using innovative methods are emphasized. The importance of new information systems and their contributions to the development of writing, reading, listening, communication and independent research skills in schoolchildren and students are considered.*

***Açar sözlər:*** *rəqəmsal texnologiyalar, xarici dil tədrisi, onlayn platformalar, dil öyrənmə, virtual resurslar*

***Ключевые слова:*** *цифровые технологии, обучение иностранным языкам, онлайн платформы, изучение языка, виртуальные ресурсы*

***Key words:*** *digital technologies, foreign language teaching, online platforms, language learning, virtual resources*

Xarici dil tədrisində innovativ irəliləyişlərin tətbiqi öyrənənlərə dil bacarıqlarını daha faydalı və fərdiləşdirilmiş şəkildə yaratmağa imkan verir. İnnovasiyanın dil tədrisinə gətirdiyi imkanlar təhsil işçilərini, həm təhsilverən, həm də təhsilalanlar üçün daha cəlbedici, aktiv və səmərəli edir. Bu məqalədə xarici dil tədrisində elmi-texniki irəliləyişlərin rolu, virtual mənbələrin növləri, onların tətbiqi strategiyaları, intellektual sistemlər və virtual reallıq innovasiyalarının perspektivləri ətraflı şəkildə nəzərdən keçiriləcək. İnnovasiya dil öyrənmə gedişatında təkcə köməkçi bir vasitə deyil, həm də ünsiyyət mühitinin formalaşmasında ən vacib faktorlardan biridir. İnteraktiv lövhələr, çoxşaxəli tətbiqlər, mobil avadanlıqlar, onlayn platformalar və süni zəkaya əsaslanan təlim cihazları öyrənmə hazırlığını individuallaşdırmağa və stimulu artırmağa imkan verir.

Daha öncəki zamanlarda xarici dil öyrənilməsi əsasən sinif dərslikləri və müəllimə yönəlik aparıldığı halda, bu günlərdə qarşılıqlı proqrama əsaslanan, rəqəmsal media və veb resursları tərəfindən çox bəyənilərək, məkan və zaman məhdudiyyətlərindən azaddır. Məsələn, Duolingo, Babbel, Memrise kimi tətbiqlər tələbələrə dil bacarıqlarını istənilən vaxt və istənilən yerdə inkişaf etdirməyə imkan verir.

Texnoloji yanaşmaların ən çox maraq doğuran məqamlarına isə aşağıdakıları misal gətirə bilərik:

- Təhsilin və çoxşaxəli öyrənmənin fərdiləşdirilməsinin mümkünlüyü;
- Təlim prosesində çoxsaylı audio-vizual vasitələrin istifadəsi;
- Real ünsiyyət mühitinin yaradılması;
- Qısa müddətdə nailiyyət qazanmaq üçün stimulun artırılması və s.

Virtual mənbə və onların növləri gəldikdə, virtual resurslar – internet üzərindən əldə edilə bilən tədris materiallarını, rəqəmsal öyrənmə mühiti və texnoloji baza olaraq nəzərdə tutur. Bu mənbələr tələbələrə istənilən vaxt dil bacarıqlarını inkişaf etdirməyə imkan verir.

Onlayn tədris mühiti – Cari zamanda xarici dil tədrisi Coursera, EdX, FutureLearn kimi universal şəbəkələr vasitəsilə geniş yayılmışdır. Bu şəbəkələr təlim prosesini video dərslər, testlər, görüşlər və qiymətləndirmə çərçivələri ilə dəstəkləyir.

Virtual sinif otaqları və LMS sistemləri – Zoom, Microsoft Groups, Google Classroom, Moodle kimi şəbəkələr təhsilverən və öyrənənlər arasında qarşılıqlı əlaqə təmin edir. Bu sistemlərə təlim zamanı video əlaqələr, kollektiv iş, interaktiv testlər və dərslər arasında qiymətləndirmə komponentləri daxildir.

Multimedia və interaktiv məzmun – səsyazmalar, podkastlar, ağıllı reproduksiyalar və reenkarnasyonlar dil öyrənənlərin uyğunlaşma və danışma bacarıqlarının yaradılmasında mühüm rol oynayır. Məsələn, BBC Learning English və VOA Learning English kimi vasitələr bacarıqların inkişafını üçün geniş imkanlar təqdim edir.

Süni intellekt və proqramlaşdırılmış tərcümə vasitələri – ChatGPT, Google Decipher, DeepL kimi istifadə olunan zəka əsaslı vasitələr həm leksikon bazası, həm də dil öyrənənlər üçün sadə hazırlıq vasitəsi kimi istifadə olunur. Süni intellekt modelləri fərdi öyrənmə üslublarına uyğunlaşdırılmış məzmun təklif edə bilər.

İnnovasiya dörd əsas dil bacarığının (dinləmək, danışmaq, oxumaq və yazmaq) inkişafında mühüm rol oynayır.

– Dinləmə: Podkastlar, audiokitablar və interaktiv dinləmə tələbələrin nitq anlayışını inkişaf etdirir;

– Danışma: Səs tanıma inkişafları və virtual danışıq hazırlığı (məsələn, süni intellekt əsaslı səsli chat-box) tələbələrin artikulyasiya və təqdimat qabiliyyətlərini inkişaf etdirir;

– Oxuma: Elektron kitablar və intellektual məzmun araşdırma proqramları oxumaq bacarıqlarını inkişaf etdirir və anlıq izahlı lüğəti geri qaytarır;

– Yazma: Süni intellekt əsaslı dəstəkçi (məsələn, Grammarly) tələbələrə dil quruluşunu və üslub səhvlərini düzəltməyə imkan verir.

Mobil öyrənmə və sosial media platformalarının rolu – Çoxyönlü öyrənmə konsepsiyası tələbələrə smartfon və planşetlər vasitəsilə dil öyrənmələrini sərbəst şəkildə davam etdirməyə imkan verir. Duolingo, Mondly, Rosetta Stone kimi tətbiqlər oyunlaşdırma elementləri ilə öyrənməni əyləncəli edir.

Ağıllı sistem gələcək perspektivləri – Xarici dil tədrisində ağıllı sistemin istifadəsi hələ ilk mərhələlərində olsa da, gələcəkdə fərdi öyrənmə çərçivələrinin tam mexanikləşdirilməsinə gətirib çıxaracaq. AI əsaslı mərhələlər tələbənin öyrənmə tərzini təhlil edir, çatışmazlıqları müəyyən edir və uyğun məzmun təqdim edir.

Təlimdə mənəvi və zehni yanaşmalar – İnnovasiyanın geniş yayılması bir sıra sosial və zehni problemlər yarada bilər. Ekran qarşısında uzun müddət işləmək firin yayılması texnoloji bağımlılığa. Habelə, sosial ünsiyyət və uzaqlaşma da artım var. Buna görə də, texnoloji təhsil sosial qarşılıqlı əlaqə və qrup işi ilə uyğunlaşdırılmış şəkildə birləşdirilməlidir.

Azərbaycan tədris çərçivəsində vəziyyət və perspektivlər – Son zamanlarda Azərbaycan Respublikasında dilin öyrənilməsinin təşkilində İKT-nin inteqrasiyası istiqamətində mühüm addımlar atılması danılmaz faktdır. Təhsil Nazirliyinin təşəbbüsü ilə məktəblərdə “Rəqəmsal bacarıqlar”, “Virtual məktəb”, “Məktəbdə onlayn dərslər” kimi layihələr həyata keçirilir. LMS sistemləri ali təhsildə tətbiq olunur və müəllimlərin texnoloji savadlılığı genişləndirilir.

Bu tədqiqatın məqsədi rəqəmsal vasitələrin və innovativ yanaşmaların xarici dil tədrisinə təsirini təhlil etməkdir. Tədqiqat rəqəmsal texnologiyaların təhsil prosesindəki rolunu aydınlaşdırmağa, tələbələr üçün müsbət aspektlərini qiymətləndirməyə və onlardan istifadə zamanı yaranan çətinlikləri müəyyən etməyə yönəlmişdir. Bundan əlavə, işin digər vacib məqsədi xarici dil öyrənmə kontekstində çevrilmiş sinif otağı, qarışıq təlim və oyunlaşdırma kimi yeni tədris metodlarının praktik tətbiqini və təsirini araşdırmaqdır.

Müasir texniki sistemlər xarici dil tədrisi metodlarına əhəmiyyətli dərəcədə təsir göstərib. Mobil tətbiqlər, onlayn resurslar, videolar və oyunlar da daxil olmaqla müxtəlif vasitələr təlim prosesini daha uyğunlaşdırıcı və cəlbedici edir. Bu, müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir və müəllimlərə fərdiləşdirilmiş öyrənməyə diqqət yetirməyə imkan verir. Duolingo, Babbel və Memrise kimi məşhur xidmətlər cəlbedici məşqlər vasitəsilə müxtəlif dil komponentlərini – lüğət, qrammatika və tələffüzü mənimsəməyə kömək edir. YouTube isə dilin mədəniyyətini əks etdirən interaktiv dərslərə və materiallara çıxış təklif edir. Bundan əlavə, rəqəmsal vasitələrin tətbiqi müəllimlərin işinə müsbət təsir göstərir və onlara şagirdlərin irəliləyişini izləməyə və xüsusi diqqət tələb edən sahələri müəyyən etməyə imkan verir. Rəqəmsal platformalardan istifadə müəllimlərə dərsləri cəlbedici

və müvafiq formatda təşkil etməyə və müxtəlif təhsil resursları və praktik tapşırıqlar yaratmağa imkan verir. Bu imkanlar həmçinin tələbələr arasında müzakirə və mübadiləni stimullaşdırır. Müasir texnologiyanın üstünlüklərinə baxmayaraq, onun təhsil prosesinə inteqrasiyası çətinliklərlə doludur. Fərdi tələbələr arasında motivasiyanın olmaması və ya yeni vasitələrin mənimsənilməsində çətinliklər mümkündür. Bundan əlavə, rəqəmsal resursların tədris planlarına uğurla inteqrasiyası üçün lazımi bilik və dəstəyə malik ixtisaslı müəllimlər tələb olunur. Müəllimlərin texnologiyadan səmərəli istifadə etməkdə və tələbələrin onu mənimsəməsində bacarıqlı olması vacibdir [1].

Xarici dil tədrisində müasir rəqəmsal vasitələrin istifadəsi ənənəvi yanaşmalardan fərqli olaraq daha müasir və canlı bir prosesə yol açır. Rəqəmsal resursları tətbiq etməklə tələbələr müxtəlif vizual materiallardan və qarşılıqlı əlaqədən istifadə edərək materialı daha məhsuldar və cəlbedici şəkildə mənimsəyə bilərlər. Bundan əlavə, bu cür texnologiyalar tələbələrə təhsil alarkən özlərini daha rahat hiss etməyə, öyrənmə tempini ehtiyaclarına uyğunlaşdırmağa və özlərinə maraqlı mövzular seçməyə kömək edir. Onlar həmçinin onlayn materiallara çıxış əldə edirlər ki, bu da məlumatların daha tez və səlis emalını asanlaşdırır və dünyanın müxtəlif mədəniyyətləri haqqında üfüqlərini genişləndirir. Müasir tədris metodları tez-tez tələbələrin cəlb olunmasını və marağını həddindən artıq vurğulayır ki, bu da təlim nəticələrinə müəyyən dərəcədə təsir göstərə bilər. Bu metodlar ünsiyyət bacarıqlarının inkişafını təşviq etsə və tələbələrin cəlb olunmasını artırsa da, müəyyən risklər daşıyır. Rəqəmsal texnologiyaların inkişafı sayəsində tələbələr artıq müxtəlif onlayn xidmətlər və mobil tətbiqlərdən istifadə edərək dil öyrənmə irəliləyişlərini tez bir zamanda qiymətləndirmək imkanına malikdirlər. Bundan əlavə, virtual sinif otaqları və video konfranslar kimi vasitələr onlara digər mədəniyyətləri daha yaxşı başa düşməyə və dünyaya baxışlarını genişləndirməyə imkan verir [2].

Tərs sinif prinsipi şagirdlərin materialı sinifdən kənarda müstəqil şəkildə araşdırmasını və sonra onu sinifdə fəal şəkildə müzakirə etməsini nəzərdə tutur. Bu, onlara onlayn resurslardan istifadə edərək məlumatları öz templərində öyrənməyə imkan verir, praktiki məşqlər və qarşılıqlı əlaqələr isə birbaşa sinifdə baş verir. Bu metodun mahiyyəti tələbələri əvvəlcədən kurs materialları ilə tanış etməkdir ki, onlar dərs vaxtından səmərəli istifadə edərək praktik məsələlər üzərində fəal şəkildə işləyə bilsinlər. "Tərs sinif otağı" modelinə əsasən, tələbələr dərsdən əvvəl videolar, mətnlər və digər onlayn resurslarla müstəqil şəkildə tanış olurlar. Dərs vaxtı dərs zamanı müzakirələr, əməkdaşlıq və tapşırıqlar üçün ayrılır. Bu, tələbələrə mövzuya əvvəlcədən hazırlaşmağa, müəllimə isə biliklərin dərin təhlilinə və tətbiqinə diqqət

yetirməyə imkan verir. Bundan əlavə, bu təlim forması hər kəsə öz tempində oxumağa imkan verir və fərdiləşdirilmiş öyrənmə təcrübəsi təmin edir [4].

Beləliklə, müasir rəqəmsal vasitələr xarici dil öyrənməsinin effektivliyini və marağını əhəmiyyətli dərəcədə artırır. Bu texnologiyaların daha da inkişaf etdirilməsi tədris yanaşmalarını müsbət təsir edərək istifadə dairəsini genişləndirəcək. Texnoloji yeniliklərin və virtual resursların xarici dil tədrisinə inteqrasiyası həm müəllimlər, həm də tələbələr üçün nəzərəçarpacaq faydalar təqdim edir. Onlar ənənəvi metodların çatışmazlıqlarını aradan qaldırır və tələbələrin rahat şəkildə bilik əldə etmələrinə geniş imkan verir. Bundan əlavə, müxtəlif multimedia resursları və interaktiv platformalar təlim prosesini daha cəlbedici və həyəcanlı edir. Tələbələr əldə etdikləri bilikləri daha məhsuldar və cəlbedici şəkildə tətbiq etmək üçün onlayn müzakirələrdən istifadə edirlər.

Müasir texnoloji resurslar sayəsində xarici dil tədrisi əhəmiyyətli dəyişikliklərə məruz qalacaq və təlim və təhsil mühitində geniş imkanlar yaradacaq. Bu yeniliklər dil öyrənməsinə daha əhatəli, rahat və adaptiv yanaşma təmin edəcək və bununla da tələbələr üçün dərslərin effektivliyini və dəyərini artıracaq.

***Ədəbiyyat***

1. *Əsədova, R. (2020). Rəqəmsal Texnologiyalar və Təhsil: Müasir Yanaşmalar və Perspektivlər. Bakı: Elm və Təhsil Nəşriyyatı.*
2. *Əliyeva, N. (2022). Tədrisdə yeni yanaşmalar: Müasir texnologiyalar və təhsil. Bakı: Elm və İnnovasiya.*
3. *Belova, I. A. (2019). Ispol'zovaniye tsifrovykh tekhnologiy v obuchenii inostrannym yazykam. Moskva: Nauka.*
4. *Brown, H. D. (2017). Principles of Language Learning and Teaching (6th ed.). White Plains, NY: Pearson Education.*
5. *Chapelle, C. A. (2018). Digital Technologies in Language Learning. Oxford: Oxford University Press.*
6. *Godwin-Jones, R. (2020). Emerging Technologies for Language Learning. TESOL Quarterly, 54(1), 6–21.*
7. *Graham, S. (2019). Technological Integration in the Foreign Language Classroom. Journal of Educational Technology & Society, 22(3), 35–46.*
8. *Quliyev, M. (2018). Xarici dil tədrisində informasiya texnologiyalarının tətbiqi. Bakı: Elm və Təhsil.*
9. *Məmmədov, F. (2020). Müasir tədris metodları və texnologiyaların dil öyrənməyə təsiri. Bakı: Universitet Nəşriyyatı.*

**Sebixanova F.Ş.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fatimesebixanova@gmail.com***

# AİLƏ ZORAKILIĞININ UŞAQ PSİXOLOGİYASINA VƏ SOSİAL İNKİŞAFINA TƏSİRİ

***Xülasə***

*Ailə zorakılığı bu günün cəmiyyətində uşaqların psixoloji sabitliyi və sosial inkişafına mənfi təsir göstərən ən ciddi sosial problemlərdən biri sayılır. Məqalədə zorakılığın uşaq psixologiyasına və sosial inkişafına olan təsiri araşdırılır. Zorakılıq yaşayan uşaqlarda emosional tarazlıq pozulur, özünəinam azalır və sosial uyğunlaşma bacarıqları zəifləyir. Onlarda qorxu, aqressiya, utancaqlıq, təcrid olunma və davranış pozuntuları kimi hallar müşahidə edilir. Belə bir mühitdə böyüyən uşaqlar gələcəkdə sağlam sosial münasibətlər qurmaqda çətinlik çəkir və zorakılıq davranışlarını təkrarlamaq meyli göstərə bilirlər. Buna görə də ailə zorakılığına qarşı müdafiə tədbirlərinin gücləndirilməsi, uşaqlar üçün psixoloji reabilitasiya və sosial dəstək proqramlarının tətbiqi böyük əhəmiyyət kəsb edir.*

# ВЛИЯНИЕ ДОМАШНЕГО НАСИЛИЯ НА ПСИХОЛОГИЮ И СОЦИАЛЬНОЕ РАЗВИТИЕ РЕБЁНКА

***Резюме***

*Семейное насилие считается одной из самых серьёзных социальных проблем современного общества, негативно влияющих на психологическую стабильность и социальное развитие детей. В статье рассматривается воздействие насилия на психологию и социальное становление ребёнка. Дети, подвергающиеся насилию, испытывают эмоциональный дисбаланс, снижение самооценки и трудности в социальной адаптации. У них часто проявляются такие симптомы, как страх, агрессия, застенчивость, изоляция и нарушения поведения. Воспитываясь в подобной обстановке, дети сталкиваются с трудностями в построении здоровых социальных отношений и могут в будущем воспроизводить модели насильственного поведения. Поэтому усиление мер защиты от семейного насилия, а также реализация программ психологической реабилитации и социальной поддержки детей имеют особое значение.*

# THE IMPACT OF DOMESTIC VIOLENCE ON CHILDREN’S PSYCHOLOGY AND SOCIAL DEVELOPMENT

***Summary***

*Domestic violence is considered one of the most serious social problems that negatively affect children’s psychological stability and social development in modern society. This article examines the impact of violence on children’s psychology and*

*social growth. Children exposed to violence experience emotional imbalance, decreased self-esteem, and weakened social adaptation skills. They often display symptoms such as fear, aggression, shyness, isolation, and behavioral disorders. Growing up in such an environment makes it difficult for children to build healthy social relationships and may lead them to repeat violent behaviors in the future. Therefore, strengthening protective measures against domestic violence and implementing psychological rehabilitation and social support programs for children are of great importance.*

***Açar sözlər:*** *ailə zorakılığı, uşaq psixologiyası, sosial inkişaf, emosional travma, reabilitasiya*
***Ключевые слова:*** *семейное насилие, психология ребёнка, социальное развитие, эмоциональная травма, реабилитация*
***Key words:*** *domestic violence, child psychology, social development, emotional trauma, rehabilitation*

Ailə, uşağın sosiallaşma prosesinin başlandığı, dəyərlərin, davranış normalarının və emosional münasibətlərin formalaşdığı ən mühüm ilkin sosial institutdur. Uşağın şəxsiyyətinin bünövrəsi məhz ailə mühitində qoyulur və onun psixoloji rifahı, emosional sabitliyi və sosial davranış modelləri valideyn münasibətləri ilə sıx şəkildə əlaqəlidir. Sağlam ailə mühiti uşağın harmonik inkişafını təmin etdiyi halda, zorakılıq və gərginliklə müşayiət olunan ailə atmosferi onun emosional stabilliyinə və sosial funksionallığına ciddi zərbə vurur.

Təəssüf ki, müasir dövrdə ailə daxilində zorakılıq faktları həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə geniş yayılmış sosial fenomen olaraq qalmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünya miqyasında hər üç uşaqdan biri həyatının müəyyən mərhələsində fiziki, emosional və ya cinsi zorakılığa məruz qalır [5]. Bu statistika ailə zorakılığının qlobal miqyasda uşaqların rifahı üçün təhlükə yaratdığını açıq şəkildə göstərir.

Ailə zorakılığı yalnız fiziki güc tətbiq etmə ilə məhdudlaşmır. Psixoloji təzyiq, emosional istismar və iqtisadi məhdudiyyətlər də uşaqların inkişafına dərin və uzunmüddətli mənfi təsir göstərir. Zorakılığa məruz qalan uşaqlar üçün psixi problemlər qaçılmaz olur. “Travmanı kimin yaratdığı travmanın növü və şiddəti qədər önəmlidir” deyən mütəxəssislər, uşaq üçün ən sarsıdıcı travmanın ailə tərəfindən törədilən zorakılıq olduğunu vurğulayırlar.

Zorakılıq, formasından asılı olmayaraq, insanın psixikasında və bədənində dərin izlər buraxan travmatik hadisədir. Travma – insanın təhlükəsizlik hissini pozan, onun üzərində nəzarətini itirdiyi və çarəsizlik hissi yaşadığı bir təcrübədir. Belə hallar fərdin həm emosional, həm də fizioloji sağlamlığına uzunmüddətli təsir göstərir. Psixoloji araşdırmalar göstərir ki, travmanın dərinliyi və onun fərdin həyatına təsiri yalnız hadisənin

xarakterindən deyil, həm də bu travmanı kimin törətməsindən asılıdır [2, s.33–35].

Uşaqlar üçün ən dağıdıcı travma məhz onlara qayğı göstərməli, qorumağa borclu olan şəxslərin — valideynlərin və ailə üzvlərinin — zorakılıq törətməsidir. Çünki uşaq üçün ailə təkcə sosial vahid deyil, eyni zamanda onun təhlükəsizlik, sevgi və sabitlik mənbəyidir. Ailənin zorakılıq mühiti halına gəlməsi uşağın "təhlükəsiz bağlılıq" (secure attachment) modelini sarsıdır və onun emosional inkişafını zədələyir. John Bowlby-nin bağlılıq nəzəriyyəsinə əsasən, uşağın gələcək münasibətləri və sosial davranış formaları ilkin ailə münasibətləri üzərində qurulur [1, s.11–13].

Ailədaxili zorakılığın uşaqlara və digər ailə üzvlərinə təsirləri olduqca geniş və dərin olur. Travmaya məruz qalan uşaqlarda ən çox müşahidə olunan dəyişikliklərdən biri yuxu və qidalanma ilə bağlı pozuntulardır. Uşaqlar yuxu keyfiyyətini itirir, nizamlı yuxu rejimini saxlaya bilmirlər və gecə qorxuları, kabuslar yaşayırlar. Həmçinin anoreksiya və kilo itkisi kimi fiziki simptomlar da yayğındır. Uşaqlarda travmatik təcrübələr əhval-ruhiyyədə qəfil dəyişikliklərə səbəb olur. Belə uşaqlar əvvəlki davranışlarından fərqli reaksiyalar göstərir, narahatlıq səviyyəsi yüksəlir, yeni qorxular inkişaf edir və valideynlərdən ayrı qalmaq istəməyə bilirlər. Məktəb həyatında diqqət və akademik göstəricilər azalır, bəzi hallarda isə uşaqlar əsəbi və aqressiv davranışlar nümayiş etdirir. Fiziki və psixoloji zorakılıq birləşdikdə, uşaqların fiziki inkişafında da gerilik müşahidə oluna bilər.

Ailədə zorakılıq halları müşahidə edən və ya ona məruz qalan uşaq, qarşılıqlı münasibətlərdə qorxu və etimadsızlıq hissləri ilə formalaşır. Belə uşaqlar emosional sabitliklərini itirir, özünə və ətrafdakı insanlara inamları zəifləyir. Onlarda stressə qarşı həssaslıq artır, aqressiv və ya tam əksinə, passiv davranış modelləri yaranır. Uşaq ailə daxilində zorakılığın "normal" davranış kimi qəbul olunduğu mühitdə böyüyürsə, gələcəkdə eyni davranışı təkrarlamaq və zorakılıq zəncirini davam etdirmək ehtimalı yüksəlir.

Ailə zorakılığının uşaqlara təsirinin psixoloji aspektləri: Uşaqların psixoloji inkişafı onların emosional stabilliyi, özünəinamı, sosial bacarıqları və davranış formaları ilə ölçülür. Ailədə zorakılıq şəraitində böyüyən uşaqlarda bu sahələrdə ciddi problemlər meydana çıxır. Zorakılıq yalnız fiziki zərər verməklə məhdudlaşmır; psixoloji və emosional istismar da uşağın daxili dünyasına dərin təsir göstərir.

– Emosional travmalar: Uşaqlar fiziki və psixoloji zorakılığa məruz qaldıqda, onların emosional sabitliyi pozulur. Qorxu, narahatlıq, stress və travma reaksiyaları tez-tez müşahidə olunur. Uzun müddət davam edən zorakılıq mühiti, uşaqlarda posttravmatik stress pozuntusu (PTSP) və emosional gərginlik yaratmaq potensialına malikdir. Bu vəziyyət onların

gündəlik həyat fəaliyyətlərini, yuxu rejimini və öyrənmə qabiliyyətini ciddi şəkildə məhdudlaşdıra bilər.

– Özünəinamın azalması: Zorakılığa məruz qalan uşaqlar özlərini dəyərsiz və bacarıqsız bir şəxs kimi görməyə başlayırlar. Bu vəziyyət onların sosial bacarıqlarını və gələcəkdə formalaşacaq münasibətlərini mənfi təsir edir. Uşaq özünə inamını itirdikcə, həmyaşıdları ilə ünsiyyət qurmaqda çətinlik çəkir və sosial rol modellərini düzgün inkişaf etdirə bilmir.

– Depressiya və aqressiya: Uşaqlar travmalarını daxildə saxladıqda, depressiya əlamətləri inkişaf edə bilər. Bəziləri isə daxildə yaşadıqları gərginliyi aqressiv davranışlarla ifadə edir. Bu, həm ailə, həm də məktəb mühitində sosial qarşılıqlı əlaqələrdə problemlər yaradır və uşağın ətraf mühitlə uyğunlaşmasını çətinləşdirir.

– Sosial təcrid və geri çəkilmə: Zorakılıq mühitində böyüyən uşaqlar tez-tez sosial təcrid və ünsiyyət qorxusu yaşayırlar. Onlar həmyaşıdları ilə münasibətlərdə geri çəkilir, sosial bacarıqlarını inkişaf etdirə bilmir və məktəb mühitinə adaptasiya olmaqda çətinlik çəkirlər. Bu, uzunmüddətli perspektivdə uşaqların psixososial rifahına mənfi təsir göstərir və onların gələcək həyat keyfiyyətini zəiflədə bilər.

– Ailə zorakılığının uşaqların sosial inkişafına təsiri: Ailə zorakılığı uşaqların sosial inkişafını dəstəkləyən prosesləri pozur və onların gələcək sosial davranışlarını mənfi istiqamətdə formalaşdırır. Sosial inkişaf uşağın cəmiyyətdə rolunu öyrənməsi, sosial normalara uyğun davranması və münasibət bacarıqlarını inkişaf etdirməsi ilə bağlıdır.

– Münasibət qurmaqda çətinliklər: Zorakılıq mühitində böyüyən uşaqlar gələcəkdə münasibətlərini qorxu, güvən əksikliyi və emosional qeyri-sabitlik üzərində qururlar. Bu, həm dostluq, həm də ailə və romantik münasibətlərdə problemlərin yaranmasına səbəb olur. Uşaq ailədə zorakılığa şahid olduqda, gələcəkdə qarşılıqlı hörmət və empatiya bacarıqlarının inkişafı məhdudlaşır.

– Akademik və məktəb uğursuzluğu: Davamlı stress və emosional gərginlik uşaqların diqqətini və öyrənmə qabiliyyətini zəiflədir. Nəticədə akademik göstəricilər aşağı düşür, məktəb mühitinə adaptasiya problemləri yaranır və təhsil motivasiyası zəifləyir. Bu vəziyyət uşağın sosial və akademik inkişafında ciddi əngəl yaradır.

– Sosial davranış pozuntuları: Uşaqlar zorakılıq mühitini normal qəbul etdikdə, onların davranış modelləri zorakı və aqressiv olur. Bu isə həmyaşıdları, müəllimləri və digər sosial qruplarla münasibətlərdə problemlərə səbəb olur. Sosial davranış pozuntuları uzun müddət davam etdikdə, uşağın cəmiyyətlə inteqrasiyası çətinləşir.

– Gələcəkdə sosial normalara uyğunlaşma çətinliyi: Zorakılıq mühitində böyüyən uşaqlar cəmiyyətin qanun və sosial normalarını təhrif olunmuş formada qəbul edə bilirlər. Bu, onların gələcəkdə sosial münasibətləri, işgüzar

və şəxsi həyatı üzərində mənfi təsir göstərir və zorakılıq zəncirinin davam etmə ehtimalını artırır.

Uşaqlara qarşı pis münasibətin formalaşmasında sosial faktorlar içərisində ailə daha mühüm əhəmiyyət kəsb edir. Aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, 95% uşaqlara qarşı zorakılıq halları ailələri tərəfindən törədilir. Bəzən valideynlərin özlərinin uşaq yaşlarında bu cür davranışa məruz qalması onların gələcək həyatlarında öz övladlarına qarşı bucür şiddəti əks etdirən davranışı formalaşdırır. Valideynlərin alkoqol və narkotik maddə istifadə etməsi, onlarda psixiatrik xəstəliklərin olması, bəzən uşaqlarına qarşı emosional və fiziki zorakılıq göstərməsinə gətirib çıxara bilir [4, s.114].

Meltzer tərəfindən 2001–2003-cü ildə aparılan araşdırmalara görə müəyyən olunmuşdur ki, valideynləri tərəfindən düzgün şəkildə qayğı göstərilməyən və diqqət edilməyən uşaqlarda emosional və davranış problemləri daha çox özünü göstərir. Uşaqların sağlamlıqlarına əhəmiyyət verilməməsi və onlara qarşı daha kiçik yaşlardan başlayır. Uşaqlara qarşı pis rəftarın göstərilməsi onların davranışlarında, emosional sferasında müəyyən dəyişikliyə gətirib çıxarır. Müxtəlif yaş dövrləri üçün zorakılığa məruz qalmış uşaqlarda yaranan xüsusiyyətləri aşağıdakı kimi qeyd etmək olar [6].

– Körpəlik dövrü: Bu dövrdə uşaqlarda passivlik və bəzən süstlük müşahidə olunur. Onlar göz əlaqəsi qurmaq istəmir və başqalarının onları çağırmasına çox reaksiya vermirlər. Bu cür neqativ münasibət onların oyun prosesinə də təsir göstərir; artıq əşyalarla nəsə düzəltmək onlar üçün maraq kəsb etmir. Uşaqların tibbi müayinələrinin düzgün aparılmaması xəstəliklərin yaranmasına və bəzən xroniki formaya çevrilməsinə səbəb olur. Fiziki şiddət nəticəsində zəif əzələ inkişafı yaranır və uşaqlar öz hərəkətlərinə nəzarət etməkdə çətinlik çəkirlər.

– Məktəbəqədər yaş dövrü: Bu dövrdə uşaqlara valideynləri tərəfindən etinasız münasibət göstərilir və tibbi müalicələr düzgün aparılmadığından bəzi xəstəliklər meydana çıxır. Uşaqlarda qorxu və başqalarına qarşı etibarsızlıq yaranır. Nitq inkişafında geriləmələr müşahidə olunur, uşaqlar öz fikirlərini izah etməkdə çətinlik çəkir və başqaları ilə münasibətlərində aqressivlik nümayiş etdirirlər.

– Kiçik məktəbli dövrü: Bu yaş qrupundakı uşaqlarda böyüklərə qarşı şübhə hissi yaranır və ehtiyaclarını onlarla bölüşmək istəmirlər. Diqqətlərini cəmləşdirməkdə çətinlik çəkdikləri üçün dərs zamanı verilən tapşırıqları yerinə yetirməkdə problemlər yaşayırlar, bu da akademik göstəricilərinin aşağı düşməsinə səbəb olur. Həmçinin narahatlıq, aqressivlik və stress halları müşahidə edilir.

– Yeniyetməlik dövrü: Yeniyetmələrdə davranış problemləri, həyəcan-təşviş və depressiya halları baş verir. Gələcək həyatları haqqında çox düşünmür

və yeni işə başlamaqdan qorxurlar, uğursuz olacaqlarını düşünürlər. Qrup daxilində formalaşmış normalara etinasız münasibət göstərirlər. Runyon və Keni qeyd edirdilər ki, uşaqlara və böyüklərə qarşı pis rəftar və istismar müxtəlif yollarla baş verir və bu hallar onların həyatlarını təhlükəyə atan əsas şərtlərdən biridir. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən uşaq zorakılığına görə risk qrupları aşağıdakı kimi qeyd edilmişdir [3, s.14]:

- Xüsusi yaş dövründə olan uşaqlar (əsasən 4 yaşınadək olan uşaqlar və yeniyetmələr);
- Vaxtından əvvəl anadan olan, hiperaktiv və impulsiv davranışlı olan uşaqlar;
- Arzuolunmayan və valideynlərinin etimadını doğrultmayan uşaqlar;
- Xüsusi qayğıya ehtiyacı olan uşaqlar (fiziki və psixi qüsurlu uşaqlar).

Zorakılığa məruz qalan uşaqlarda müşahidə olunan psixoloji problemlərdən ikisi xüsusilə diqqət çəkir: sərhəd problemləri və impuls nəzarət problemləri.

Sərhəd problemləri uşağın valideynləri və digər ailə üzvləri ilə münasibətlərində yaşadığı qarışıqlıqdan qaynaqlanır. Bu problem, uşağın yaşına və inkişaf səviyyəsinə uyğun olaraq lazım olan qayğı və emosional dəstəyi ala bilməməsi ilə əlaqədardır. Valideynlərin təzyiqçi, qeyri-müəyyən və ya sərhədləri qarışıq davranışları uşağın sərhəd anlayışını pozur. Belə uşaqlar üçün "mənim haqqım və başqalarının haqqı" arasındakı fərqləri anlamaq çətinləşir. Nəticədə onlar sərhədsiz davranış modelləri inkişaf etdirir və özünü ifadə etməkdə sərbəst olsalar da, bu, sosial mühitdə müəyyən problemlər yaradır. Məsələn, məktəb və ya oyun mühitində digər uşaqların hüquq və şəxsi sahələrini nəzərə almadan hərəkət edə bilirlər. Bu isə həm sosial münasibətlərdə, həm də dostluq və əməkdaşlıq bacarıqlarında çətinliklərə gətirib çıxarır.

İmpuls nəzarət problemləri isə uşağın öz duyğu və davranışlarını idarə etmək qabiliyyətinin zəifləməsi ilə bağlıdır. Zorakılıq mühitində böyüyən uşaqlar tez-tez qorxu, əsəb və gərginlik kimi emosiyaları dərhal və nəzarətsiz şəkildə ifadə edirlər. Onlar ani qəzəb reaksiyaları göstərə, kiçik narahatlıqlara qarşı həddindən artıq aqressiv və ya təcrid olunmuş davranış sərgiləyə bilirlər. Bu vəziyyət, uşağın sosial normalara uyğun davranış bacarıqlarını pozur və həmyaşıdları, müəllimləri və digər yetkinlərlə münasibətlərində problemlərə səbəb olur.

Hər iki problem bir-biri ilə sıx bağlıdır: sərhəd problemləri uşağın impulslarını idarə etməsini çətinləşdirir, impuls nəzarətinin zəifliyi isə sərhədləri düzgün qiymətləndirməsini pozur. Nəticədə, uşaqlar həm özlərinə, həm də ətrafdakılara qarşı davranışlarında düzgün tənzimləmə bacarığı qazana bilmir. Uzun müddət davam edən bu vəziyyət, onların özünəinamını zəiflədir,

sosial adaptasiya və gələcək münasibət qurma qabiliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdırır.

Beləliklə, sərhəd və impuls nəzarət problemləri uşağın yalnız ailə daxilində deyil, həm də məktəb, dostluq dairəsi və gələcək sosial həyatında qarşılaşacağı çətinliklərin əsas mənbəyi hesab olunur. Bu səbəbdən, ailədaxili zorakılığa məruz qalan uşaqlarla işləyən psixoloq və sosial işçilər üçün bu sahələr xüsusi diqqət tələb edir və uyğun reabilitasiya proqramları hazırlanmalıdır.

Ailə zorakılığına məruz qalan uşaqlara dəstək və müdaxilə mexanizmləri, onların psixoloji və sosial rifahını bərpa etmək üçün çoxşaxəli yanaşmalar tələb edir. Aşağıda bu sahədə tətbiq olunan əsas müdaxilə strategiyaları və sosial dəstək mexanizmləri təqdim olunur:

- **Psixososial dəstək.** Ailə zorakılığına məruz qalan uşaqların emosional stabilliyini bərpa etmək üçün fərdi və qrup terapiyaları, oyun terapiyası və stressin idarə olunması metodları tətbiq olunur [7]. Bu yanaşmalar, uşaqların travma sonrası stress pozuntularını azaltmağa və onların emosional inkişafını dəstəkləməyə yönəlmişdir. Məsələn, oyun terapiyası uşaqların hisslərini ifadə etmələrinə və yaşadıqları travmaları anlamağa kömək edir.
- **Təhsil və akademik dəstək.** Məktəbdə mentor dəstəyi, əlavə dərs və sosial bacarıqların inkişaf etdirilməsi uşaqların akademik və sosial inkişafına kömək edir. Bu tədbirlər, uşaqların məktəb mühitində daha yaxşı uyğunlaşmalarını və özünəinamlarını artırmalarını təmin edir. Təhsil dəstəyi, həmçinin uşaqların gələcəkdəki həyat keyfiyyətini yaxşılaşdırmağa yönəlmişdir.
- **Ailə ilə iş.** Zorakılıq göstərən valideynlərlə iş aparılaraq davranışın dəyişdirilməsi və valideynin uşağa münasibətinin tənzimlənməsi təmin olunur. Bu yanaşma, uşaqların ev mühitində daha təhlükəsiz və dəstəkləyici bir atmosferdə böyümələrini məqsəd qoyur. Ailə ilə iş, həmçinin valideynlərin öz davranışlarını anlamağa və dəyişdirməyə kömək edir.
- **Hüquqi müdafiə və qanuni tədbirlər.** Uşaqların hüquqlarının qorunması, zorakılıq hallarının sənədləşdirilməsi və müvafiq dövlət orqanlarına məlumat verilməsi uşaqların təhlükəsizliyini təmin edir. Hüquqi müdafiə mexanizmləri, uşaqların hüquqlarının pozulmasının qarşısını almağa və onlara qarşı zorakılığın dayandırılmasına yönəlmişdir.

Bu müdaxilə strategiyaları və sosial dəstək mexanizmləri, uşaqların yaşadıqları travmalardan sonra psixoloji və sosial rifahlarını bərpa etməyə kömək edir. Onların təhlükəsiz və dəstəkləyici bir mühitdə böyümələri üçün çoxşaxəli yanaşmaların tətbiqi vacibdir.

## Nəticə

Ailə zorakılığı uşaqların həm psixoloji, həm də sosial inkişafına ciddi mənfi təsir göstərir. Uşaqlar zorakılıq mühitində böyüyərkən emosional

stabilliklərini, özünəinamlarını və sosial bacarıqlarını itirə bilər. Bu isə onların gələcək həyatına, münasibətlərinə və sosial adaptasiyasına əks olunur. Buna görə də ailə zorakılığına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, uşaqlar üçün sosial dəstək və reabilitasiya proqramlarının hazırlanması həyati əhəmiyyət kəsb edir. Psixososial dəstək, oyun və qrup terapiyaları, təhsil dəstəyi, ailə ilə iş və hüquqi müdafiə vasitəsilə uşaqların yaşadıqları travmanın təsiri azaldıla və onların təhlükəsiz, dəstəkləyici mühitdə inkişaf etmələri təmin edilə bilər. Erkən müdaxilə və inteqrativ yanaşmalar, uşaqların emosional və sosial rifahını bərpa etməklə gələcək həyat keyfiyyətini yaxşılaşdırır və zorakılıq dövrünün nəsildən-nəslə ötürülməsinin qarşısını alır.

***Ədəbiyyat***

1. *Bowlby, J. A secure base: Parent-child attachment and healthy human development. New York: Basic Books, 1988, – 195 s.*
2. *Herman, J.L. Trauma and Recovery: The Aftermath of Violence – from Domestic Abuse to Political Terror. New – York: Basic books, 2015, – 336 s.*
3. *İsmayılova Ş., Həsənova G., Babazadə S., Balayeva A., Ağayeva K. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hərəkətlərinin qarşısının alınması. Metodik vəsait. Bakı: 2017, – 60 s.*
4. *Skuse, D., Bruce, H., Dowdney, L., & Mrazek, D. Child Psychology and Psychiatry: Frameworks for Practice (2nd ed.). Wiley-Blackwell. UK, 2011, – 319 s.*
5. *World Health Organization. Global Status Report on Violence Prevention. Geneva: WHO Press, 2020.*
6. *www.safeguardingpeterborough.org.uk*
7. *https://www.childwelfare.gov/topics/casework-practice/intimate-partner-and-family-violence*

**Səfərli Ü.E.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ulker.seferli.2003@gmail.com***

# TARİX MÜƏLLİMİNİN FASİLİTATOR ROLUNUN SƏMƏRƏLİ TƏŞKİLİ

***Xülasə***

*Müəllimin fasilitator rolu müasir təhsil mühitində ənənəvi "məlumat verən" yanaşmadan fərqlənərək, tələbə yönümlü tədrisin əsas mexanizmlərindən birinə çevrilmişdir. Fasilitator müəllim yalnız məlumat ötürən deyil, öyrənmə prosesini təşkil edən, istiqamətləndirən və tələbələrin yaradıcılıq, tənqidi düşünmə, əməkdaşlıq bacarıqlarını inkişaf etdirməyə şərait yaradan şəxsdir. Bu rolun səmərəli təşkili üçün müəllim interaktiv metodlardan, müzakirələrdən, problem əsaslı öyrənmədən, layihə işlərindən və rəqəmsal texnologiyalardan istifadə etməlidir.*

*Beləliklə, müəllimin fasilitator rolu təhsil prosesinin demokratikləşməsinə, şagirdlərin sosial, emosional və idrak potensialının tam şəkildə inkişafına şərait yaradır. Bu yanaşma həm tədrisin keyfiyyətini yüksəldir, həm də şagirdlərin gələcəkdə əmək bazarına uyğun bacarıqlar qazanmasına xidmət edir.*

# ЭФФЕКТИВНАЯ ОРГАНИЗАЦИЯ РОЛИ УЧИТЕЛЯ ИСТОРИИ В КАЧЕСТВЕ ФАСИЛИТАТОРА

***Резюме***

*Фасилитирующая роль учителя стала одним из основных механизмов студентоцентрированного обучения в современной образовательной среде, отличаясь от традиционного подхода «информатора». Учитель-фасилитатор не только передает информацию, но и организует и направляет учебный процесс, создавая условия для развития у учащихся креативности, критического мышления и навыков сотрудничества. Для эффективной организации этой роли учителю необходимо использовать интерактивные методы, дискуссии, проблемное обучение, проектную работу и цифровые технологии.*

*Таким образом, фасилитирующая роль учителя создает условия для демократизации образовательного процесса и полноценного развития социального, эмоционального и когнитивного потенциала учащихся. Такой подход не только повышает качество обучения, но и способствует приобретению учащимися навыков, востребованных на рынке труда в будущем.*

# EFFECTIVE ORGANIZATION OF THE HISTORY TEACHER'S FACILITATOR ROLE

***Summary***

*The facilitator role of the teacher has become one of the main mechanisms of student-centered teaching in the modern educational environment, differing from the traditional "informant" approach. The facilitator teacher is not only a person who*

*transmits information, but also organizes and directs the learning process and creates conditions for the development of students' creativity, critical thinking, and cooperation skills. To effectively organize this role, the teacher should use interactive methods, discussions, problem-based learning, project work, and digital technologies.*

*Thus, the facilitator role of the teacher creates conditions for the democratization of the educational process and the full development of students' social, emotional, and cognitive potential. This approach both improves the quality of teaching and helps students acquire skills relevant to the labor market in the future.*

***Açar sözlər:*** *fasilitator, müəllim, şagird, tədris, idrak, metod, inkişaf, texnologiya, yenilik*

***Ключевые слова:*** *координатор, учитель, ученик, преподавание, познание, метод, развитие, технологии, инновации*

***Key words:*** *facilitator, teacher, student, teaching, cognition, metod, development, technology, innovation*

Müasir pedaqoji yanaşmalar müəllimi bilik ötürən "mütəllim" rolundan çıxarıb, şagirdlərin özü öyrənməsinə şərait yaradan "fasilitator" (yönləndirici, vasitəçi) şəxsiyyətə çevirməyi vurğulayır. Bu rol, yeniyetmələrin özünüifadə, sosial qarşılıqlı əlaqə və məsuliyyət qabiliyyətlərinin inkişaf etdiyi mərhələdə çox əhəmiyyətlidir.

Müasir təhsil sisteminin inkişafında müəllimin rolu tarixi mərhələlər üzrə dəyişmişdir. XX əsrin əvvəllərində müəllim əsasən bilik ötürən və şagirdi passiv dinləyici mövqeyində saxlayan ənənəvi fiqur kimi qəbul olunurdu. Bu model uzun illər ərzində məktəblərdə üstünlük təşkil etmiş, müəllim dərs prosesinin mərkəzi, şagird isə bilik alıcısı hesab olunmuşdur. Lakin XX əsrin ikinci yarısından təlim nəzəriyyələrində baş verən dəyişikliklər, xüsusən konstruktivist yanaşmanın inkişafı nəticəsində müəllimin öyrədici rolunun tədricən dəyişməsi müşahidə olunmağa başladı. Bu dövrdə artıq öyrənmənin şagirdin fəal iştirakına bağlı olduğu qəbul olundu və müəllim daha çox istiqamətləndirici mövqeyə keçməyə başladı [5, s.40].

Dünyada baş verən qlobal dəyişikliklər, informasiya texnologiyalarının təhsil mühitinə daxil olması müəllim–şagird münasibətlərini daha da yenidən formalaşdırdı. Bu mərhələdə müəllimin əsas vəzifəsi bilikləri təqdim etməkdən daha çox şagirdlərdə müstəqil öyrənmə, tənqidi təfəkkür və yaradıcı düşüncə bacarıqlarını inkişaf etdirmək oldu. Artıq müəllim "öyrədən" deyil, "öyrənməyə şərait yaradan", yəni fasilitator rolunu daha açıq şəkildə daşımağa başladı.

Azərbaycan təhsil sistemində də bu tendensiya özünü göstərmişdir. 2000-ci illərin ortalarından başlayaraq ümumi təhsil pilləsində kurikulum islahatları həyata keçirildi. Bu islahatların əsas məqsədi şagirdyönümlü tədris mühitinin yaradılması və müəllimin fasilitator rolunun gücləndirilməsi idi.

Təhsil Nazirliyi tərəfindən 2008-ci ildən tətbiq edilən yeni kurikulum konsepsiyası dərs prosesində interaktiv metodlardan istifadəni, şagirdlərin tədqiqat və layihə işlərinə cəlb olunmasını, müəllimin isə yönləndirici mövqedə çıxış etməsini prioritet elan etdi.

2010–2015-ci illərdə yeni dərsliklər hazırlanaraq tətbiq edildi. Bu dərsliklərdə müəllimlər üçün təlimatlarda qrup işi, layihə fəaliyyəti, debat, rol oyunları, beyin həmləsi kimi interaktiv metodlardan istifadə xüsusi tövsiyə olunurdu. Məqsəd yalnız bilik vermək deyil, həm də şagirdlərin müstəqilliyini, tənqidi düşüncəsini və ünsiyyət bacarıqlarını inkişaf etdirmək idi.

2018-ci ildən sonra aparılan təhsil islahatları isə müəllimin fasilitator rolunu daha da gücləndirdi. Rəqəmsal resursların, elektron dərsliklərin və onlayn platformaların tətbiqi ilə müəllimlərin rolu həm də texnologiyadan effektiv istifadə etməklə şagirdləri öyrənməyə yönləndirmək oldu [2, s.210].

Beləliklə, təhsil tarixi inkişaf mərhələləri göstərir ki, müəllimin rolu son yüz il ərzində ciddi transformasiyaya uğramışdır: ənənəvi “öyrədən” modeldən XXI əsrdə “fasilitator” modelinə keçid baş vermişdir. Bu keçid xüsusilə 2000-ci illərdən sonra sürətlənmiş, həm dünyada, həm də Azərbaycanda şagirdlərin fəallığının artırılmasına yönəlmiş təhsil siyasəti nəticəsində müəllimin yeni funksiyaları ön plana çıxmışdır.

Fasilitator anlayışı müasir pedaqogikada təkcə idarə edən və müşahidə edən rol kimi deyil, həm də öyrənmə prosesinin aktiv təşkilatçısı kimi izah olunur. Fasilitatorun əsas funksiyası qərar vermək deyil, öyrənənləri səmərəli qərar verməyə hazırlamaq, onların təhlil və qiymətləndirmə bacarıqlarını inkişaf etdirməkdir. Bu mənada müəllim artıq ənənəvi “bilgi ötürücüsü” rolundan çıxaraq öyrənməni stimullaşdıran, istiqamətləndirən və şagirdlərin biliklərini öz təcrübələri ilə əlaqələndirməsinə şərait yaradan bir vasitəçiyə çevrilir.

Müasir təhsil fəlsəfəsi göstərir ki, müəllimin ən əsas vəzifəsi informasiyanı hazır şəkildə təqdim etmək deyil, şagirdlərdə öyrənməyə maraq və motivasiya yaratmaqdır. Bu isə metakoqnitiv bacarıqların formalaşdırılmasını, yəni şagirdin öz öyrənmə prosesini izləməsi, idarə etməsi və qiymətləndirməsi imkanını təmin edir. L.S.Viqotskinin “Sosial inkişaf” nəzəriyyəsi burada mühüm nəzəri əsas rolunu oynayır. Viqotskiyə görə, öyrənmə sosial qarşılıqlı əlaqə əsasında, daha təcrübəli şəxsin (müəllim, mentor, həmyaşıd və s.) dəstəyi ilə həyata keçirilir. Bu dəstək isə skafoldinq (dayaq, dəstək strukturu) prinsipi üzərində qurulur: şagird əvvəlcə müəllimin köməyi ilə tapşırığı yerinə yetirir, daha sonra isə müstəqil şəkildə işləmək bacarığını inkişaf etdirir [2, s.209].

Bəzən fasilitator anlayışı yanlış dərk olunur. Bir çox müəllimlər düşünürlər ki, “yönləndirmək” sadəcə materialı şagirdə təqdim etmək və onu sərbəst öyrənməyə buraxmaqdır. Əslində, bu yanaşma şagirdi tədricən

öyrənməyə sövq edən, təhlil və refleksiya imkanlarını genişləndirən fasilitator roluna uyğun gəlmir. Fasilitatorun fəaliyyəti passiv müşahidəçilikdən ibarət deyil. Əksinə, müəllim prosesi daim izləyir, şagirdin ehtiyaclarına uyğun olaraq əlavə izah, ipucu və ya sual verir, onun öyrənmə motivasiyasını gücləndirir.

Bu baxımdan, "yönləndirmək" hazır informasiyanı ötürməkdən daha səmərəli bir fəaliyyət formasıdır. Yönləndirmə zamanı müəllim şagirdi tədricən müstəqilliyə aparır, ona yalnız cavabı deyil, cavabı tapmağın yollarını göstərir. Nəticədə şagird təkcə bilik qazanmır, həm də bu bilikləri əldə etmək üçün metod və strategiyaları mənimsəyir. Beləliklə, fasilitatorluq pedaqoji prosesdə həm nəzəri, həm də praktik baxımdan öyrənmənin keyfiyyətini yüksəldən əsas yanaşmalardan biri kimi dəyərləndirilə bilər.

İnsanı yönəltmək prosesi yalnız sadə rəhbərlik aktı deyil, fasilitatorun bütün pedaqoji bacarıqlarını işə saldığı mürəkkəb bir fəaliyyət sahəsidir. Fasilitator-müəllim öyrənmənin istiqamətini təyin edərkən şagirdin mövcud bilik, bacarıq və psixoloji hazırlıq səviyyəsini nəzərə alır. Bu səbəbdən fasilitasiya bacarıqları hər bir müəllimdə peşəkar fəaliyyətin ayrılmaz hissəsinə çevrilməlidir. Müəllim yalnız informasiya daşıyıcısı deyil, həm də öyrənmə prosesini təşkil edən, onun effektivliyini təmin edən, şagirdlərin fərdi potensialını üzə çıxaran şəxsdir.

Fasilitator-müəllim "necə" və "hara" yönəltməli olduğunu aydın şəkildə bilir. O, tədris prosesində istifadə etdiyi material və resurslarla yaxından tanış olur, onların şagirdlərin yaş xüsusiyyətlərinə, bilik səviyyəsinə və maraq dairəsinə uyğunluğunu diqqətlə qiymətləndirir. Tədris resursunun sadəcə təqdimatı kifayət deyil; müəllim həmin resursu şagirdlərin fəallığını artıran, onları müstəqil axtarışa və düşünməyə sövq edən vasitəyə çevirməlidir. Bu isə müəllimin yaradıcı yanaşmasını, metodik çevikliyini və psixoloji həssaslığını tələb edir.

**Sxem 1. Fasilitator-Müəllim Modeli**



***Mənbə:*** *https://ru.scribd.com/document/-ın materialları əsasında müəllifin tərtibi*

Fasilitator-müəllimin əsas funksiyalarından biri səmərəli təlim mühiti yaratmaqdır. Belə bir mühitdə yalnız akademik nəticələr deyil, həm də şagirdlərin emosional, intellektual, fiziki və psixoloji inkişafı təmin edilir. Emosional inkişaf – şagirdlərin öz hisslərini düzgün ifadə etməyi və empati bacarıqlarını formalaşdırmağı; intellektual inkişaf – analitik və tənqidi düşünmə bacarıqlarını; fiziki inkişaf – sağlam həyat tərzi və hərəkət vərdişlərinin təşviqini; psixoloji inkişaf isə – özünə inam, motivasiya və müstəqilliyi əhatə edir. Eyni zamanda, fasilitator-müəllim şagirdlərin potensialını müəyyənləşdirməyi bacarmalıdır. Bunun üçün o, müşahidə, interaktiv tapşırıqlar, müzakirələr və formativ qiymətləndirmə vasitələrindən istifadə edir. Şagirdin maraq dairəsini, üstünlüklərini və çətinlik çəkdiyi sahələri vaxtında aşkar edən müəllim fərdi yanaşmanı təmin edə bilir. Bu isə şagirdin yalnız bilik əldə etməsini deyil, həm də özünəinamının möhkəmlənməsini, öyrənmə motivasiyasının artmasını və gələcək inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsini təmin edir.

Tarix fənnində fasilitator müəllim şagirdlərə tarixi hadisələri fakt kimi deyil, məntiqi ardıcıllıq və səbəb–nəticə əlaqələri kontekstində öyrədir. Məsələn, “Azərbaycan Xalq Cümhuriyyətinin yaranması” mövzusu üzrə şagirdlər qruplara bölünərək müxtəlif mövqeləri müdafiə edir: bir qrup yaranma prosesinin daxili səbəblərini (xalq hərəkatı, milli şüurun yüksəlişi), digər qrup isə xarici amilləri böyük müharibədən (I Dünya müharibəsi (1914–1918)) sonra yaranmış geosiyasi vəziyyət araşdırır. Müəllim isə yalnız istiqamətləndirici suallar verməklə onların arqumentlərini zənginləşdirməsinə şərait yaradır. Bu yanaşma şagirdlərin sadəcə hadisəni əzbərləməsini deyil, analitik düşünmə və müqayisə qabiliyyətlərini inkişaf etdirir.

Tarix fənni üzrə müəllimin fasilitator rolu şagirdlərdə passiv dinləyicilikdən fəal iştirakçılığa keçidi təmin edir. Müəllim dərs prosesində bilik ötürən yox, öyrənməni təşkil edən, müzakirə və tədqiqatlara şərait yaradan, şagirdlərin fərqli yanaşmalarını stimullaşdıran rəhbər funksiyasını daşıyır. Bu isə şagirdlərin intellektual və sosial inkişafına birbaşa müsbət təsir göstərir.

**Cədvəl 1. Müəllimin fasilitator fəaliyyəti və şagirdlərin qazandığı bacarıqlar**

| Fənn | Müəllimin fasilitator fəaliyyəti | Şagirdin qazandığı bacarıq |
|---|---|---|
| **Tarix** | Hadisələri yalnız fakt kimi təqdim etmir, səbəb–nəticə əlaqələrini araşdırmağa istiqamət verir. Məsələn, “Azərbaycan Xalq Cümhuriyyəti” | Analitik təfəkkür, müqayisə |

| | | |
|---|---|---|
| | mövzusunda daxili və xarici amillərin müqayisəsi üzrə qrup müzakirəsi aparır. | və səbəb–nəticə əlaqələrini qurma bacarığı. |

***Mənbə:*** *Uffen, I. (2025). Exploring how facilitators influence teacher talk during post-research lesson discussions. Professional Development in Education*

Müəllimin fasilitator rolunun effektivliyi təsadüfi amillərlə müəyyən olunmur, əksinə, müəyyən pedaqoji prinsiplərin və şərtlərin nəzərə alınması ilə bağlıdır. Bu şərtlər müəllimin həm pedaqoji fəaliyyətinə, həm də şagirdlərin öyrənmə prosesinə birbaşa təsir göstərir.

***1. Şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaq***

Hər bir şagird unikal şəxsiyyət kimi özünəməxsus öyrənmə tərzinə, maraqlara, qabiliyyətlərə və sosial-psixoloji xüsusiyyətlərə malikdir. Müasir pedaqoji yanaşmaların əsas prinsiplərindən biri məhz bu fərqliliyin nəzərə alınmasıdır. Əgər ənənəvi təhsil modelində bütün şagirdlərə eyni məzmun və eyni metodla yanaşılırdısa, müəllimin fasilitator rolu fərdiləşdirilmiş təlimi ön plana çəkir. Bu, şagirdlərin öz potensiallarını maksimum dərəcədə üzə çıxarmasına imkan verir [9, s.50].

Fərdi xüsusiyyətlərin nəzərə alınması ilk növbədə şagirdlərin öyrənmə tərzlərinin müəyyənləşdirilməsi ilə bağlıdır. Bəzi şagirdlər vizual materiallara (sxem, qrafik, şəkil, video) üstünlük verərək daha yaxşı öyrənirlər, biziləri eşitmə və müzakirə yolu ilə bilikləri daha tez qavrayırlar, digərləri isə praktik fəaliyyət (təcrübələr, layihələr, oyunlar) əsasında öyrəndikdə daha uğurlu nəticə göstərirlər. Müəllim bu fərqi düzgün müşahidə etməli və dərs prosesini müxtəlif metodlarla zənginləşdirməlidir. Məsələn, vizual öyrənmə tərzinə üstünlük verən şagirdlər üçün müəllim mövzunu diaqram, qrafik və şəkillərlə təqdim edə bilər. Audial tipli şagirdlər üçün müzakirələr, debatlar, rol oyunları daha effektivdir. Kinestetik (hərəkət, toxunma və fiziki fəaliyyət vasitəsilə öyrənməyi üstün tutan) tipli şagirdlər isə öyrənməni praktik tapşırıqlar və təcrübələr vasitəsilə daha yaxşı mənimsəyirlər. Bu yanaşma şagirdlərin hər birinin öyrənmə prosesində fəallığını təmin edir və heç kimin diqqətdən kənarda qalmasının qarşısını alır [1, s.35].

Bundan başqa, şagirdlərin psixoloji xüsusiyyətləri də nəzərə alınmalıdır. Utancaq və ya passiv şagirdlər üçün müəllim kiçik qrup işlərini təşkil edə bilər ki, onlar daha rahat mühitdə iştirak etsinlər. Liderlik xüsusiyyətləri güclü olan şagirdlər isə təqdimatlarda, layihə işlərində daha fəal rol ala bilərlər. Eyni zamanda, şagirdlərin sosial mühiti və maraqları da təlim prosesində nəzərə alınmalıdır. Məsələn, şəhərdə yaşayan şagirdlər üçün informasiya texnologiyalarına əsaslanan nümunələr daha maraqlı ola bilər, kənd mühitində yaşayan şagirdlər isə kənd təsərrüfatı və təbiət hadisələri ilə

bağlı nümunələrə daha tez reaksiya verirlər. Müəllim bu fərqləri düzgün müşahidə etməklə dərs materiallarını şagirdlərin gündəlik həyat təcrübəsi ilə əlaqələndirməlidir.

***2. Müasir təlim metodlarından istifadə etmək***

Müəllimin fasilitator rolunun səmərəli həyata keçirilməsinin əsas şərtlərindən biri ənənəvi izah və şagirdlərin passiv dinləyici mövqeyindən kənara çıxaraq müasir təlim metodlarından istifadə etməkdir. Ənənəvi metodlarda müəllim əsas söz sahibi, şagird isə daha çox məlumatı qəbul edən tərəf olurdu. Halbuki, müasir təlim fəlsəfəsi şagirdin dərs prosesində fəal iştirakını, müstəqil düşünməsini, yaradıcı ideyalar irəli sürməsini və əməkdaşlıq bacarığını ön plana çəkir. Bu məqsədlə müəllim interaktiv metodlardan – debat, layihə işi, beyin həmləsi, rol oyunları, "akvarium" üsulu, problem əsaslı öyrənmə (PBL) və s. – geniş şəkildə istifadə etməlidir. Məsələn, debat metodu şagirdlərə öz mövqelərini müdafiə etməyi, arqument gətirməyi və qarşı tərəfin fikirlərinə hörmətlə yanaşmağı öyrədir. Tarix və ya vətəndaşlıq dərslərində dövlət idarəçiliyi, insan hüquqları və digər müzakirə mövzuları üzrə debatların təşkili şagirdlərin tənqidi təfəkkürünü inkişaf etdirir.

Layihə işi isə şagirdləri müstəqil araşdırma aparmağa, əldə etdikləri məlumatları analiz edib təqdim etməyə sövq edir. Bu zaman onlar həm tədqiqat, həm də təqdimat bacarıqlarını inkişaf etdirirlər. Məsələn, 8-ci sinifdə "Ətraf mühitin mühafizəsi" mövzusunda layihə işi təşkil olunduqda şagirdlər qrupa bölünərək ekoloji problemləri araşdırır, həll yollarını irəli sürür, diaqramlar və təqdimatlarla nəticələrini sinifdə təqdim edirlər. Burada müəllim sadəcə istiqamət verən, müzakirəni yönləndirən şəxs kimi çıxış edir [3, s.56].

Beyin həmləsi (brainstorming) metodu şagirdlərə sərbəst ideya irəli sürmək, fərqli yanaşmaları bir araya gətirmək və yaradıcı nəticələr əldə etmək imkanı verir. Məsələn, biologiya dərsində "İqlim dəyişikliyinə qarşı hansı tədbirləri görə bilərik?" sualı əsasında keçirilən beyin həmləsi şagirdlərin həm elmi, həm də yaradıcı düşünməsini stimullaşdırır.

Rol oyunları da müasir metodların mühüm hissəsidir. Ədəbiyyat dərslərində obrazların canlandırılması, tarix dərslərində tarixi hadisələrin canlandırılması şagirdlərin həm mövzunu dərin anlamasına, həm də empatiya bacarığının formalaşmasına şərait yaradır.

"Akvarium" üsulu isə müzakirələrin demokratik mühitdə aparılmasına imkan verir. Bu üsulda bir qrup şagird müəyyən mövzu ətrafında müzakirə apararkən digərləri müşahidə edir və sonradan öz təhlillərini bildirir. Bu metod xüsusilə ünsiyyət və dinləmə bacarıqlarını inkişaf etdirmək üçün faydalıdır [6, s.48].

Problem əsaslı öyrənmə (PBL) isə şagirdlərə real həyatdan götürülmüş problemlərin həllini araşdırmaq imkanı verir. Məsələn, riyaziyyat dərsində müəllim şagirdlərə "Şəhərdə yeni park salınması üçün torpaq sahəsinin

ölçülərinin müəyyən edilməsi" mövzusu üzrə praktiki tapşırıq verir. Şagirdlər məsələni riyazi üsullarla həll edir, müəllim isə onların fəaliyyətini istiqamətləndirir.

***3. Texnologiyalardan düzgün faydalanmaq***

XXI əsrin təhsil mühitini informasiya-kommunikasiya texnologiyalarının tətbiqindən kənarda təsəvvür etmək mümkün deyil. İnformasiyanın sürətlə artdığı, rəqəmsal alətlərin gündəlik həyatın ayrılmaz hissəsinə çevrildiyi bir dövrdə təhsildə texnologiyaların istifadəsi sadəcə əlavə vasitə deyil, həm də zəruri şərt hesab olunur. Müəllim fasilitator kimi texnologiyaları yalnız mövzunu vizual nümayiş etdirmək üçün deyil, həm də şagirdləri fəal öyrənməyə cəlb edən, onların yaradıcılığını və əməkdaşlıq bacarıqlarını inkişaf etdirən bir vasitə kimi tətbiq etməlidir. Bu platformalar vasitəsilə keçirilən testlər və sorğular dərsin monotonluğunu aradan qaldırır, şagirdlərin dərsə marağını artırır. Belə üsullar həm biliklərin yoxlanılmasına, həm də dərhal geribildirim verilməsinə imkan yaradır [4, s.72].

Elektron dərsliklər və rəqəmsal resurslar isə öyrənmə prosesini daha əlçatan edir. Şagirdlər istədikləri vaxt mövzulara qayıda, əlavə materiallardan istifadə edə bilirlər. Bu, xüsusilə müstəqil öyrənmə bacarıqlarının inkişafı üçün əhəmiyyətlidir. Məsələn, Azərbaycan dili dərsində interaktiv tapşırıqlar vasitəsilə şagirdlər sözlərin düzgün yazılışını öyrənir, ədəbiyyat dərslərində elektron mənbələr vasitəsilə müəlliflərin həyat və yaradıcılığı ilə daha dərindən tanış ola bilirlər.

Simulyasiya proqramları və virtual laboratoriyalar isə təbiət elmlərinin tədrisində geniş imkanlar yaradır. Fizika və kimya fənlərində real şəraitdə aparılması çətin və təhlükəli olan təcrübələr virtual laboratoriyalarda təhlükəsiz şəkildə həyata keçirilə bilər. Məsələn, 8-ci sinif kimya dərsində turşularla qələvilərin reaksiyası simulyasiya proqramı vasitəsilə göstərildikdə şagirdlər həm nəzəri bilik əldə edir, həm də prosesin gedişini vizual müşahidə edirlər. Biologiya dərslərində isə hüceyrənin quruluşu 3D modellər vasitəsilə öyrədildikdə şagirdlər mövzunu daha asan mənimsəyirlər.

***4. Dərsdə şagird mərkəzli yanaşmanı tətbiq etmək***

Müasir təhsil fəlsəfəsinin əsas prinsiplərindən biri şagird mərkəzli yanaşmadır. Ənənəvi dərs modelində dərs planı əsasən müəllimin imkan və maraqlarına uyğun qurulur, şagirdlər isə daha çox passiv dinləyici mövqeyində qalırdı. Halbuki şagird mərkəzli təlimdə bütün fəaliyyətin mərkəzində şagird dayanır. Fasilitator müəllim dərsi özü üçün deyil, məhz şagirdlərin maraqları, bilik səviyyəsi, öyrənmə üslubu və inkişaf ehtiyaclarını nəzərə alaraq planlaşdırır. Bu, şagirdlərin dərs prosesində daha fəal iştirakına, onların fərdi bacarıqlarının inkişafına və demokratik öyrənmə mühitinin formalaşmasına xidmət edir [1, s.36].

Səmərəli fasilitator-müəllim dərsə başlamazdan öncə şagirdlərlə təlim nəticələrini paylaşır. Təlim nəticələrinin əvvəlcədən elan edilməsi şagirdlərdə öyrənmə məqsədinə yönəlmişlik hissini formalaşdırır. Bu, həm də şagirdlərin öyrənmə prosesində hansı bilik və bacarıqları qazanacaqlarını əvvəlcədən bilməsinə şərait yaradır. Belə şəffaflıq şagirdləri daha məsuliyyətli edir, onların dərsə motivasiyasını gücləndirir və fəaliyyətlərini sistemli şəkildə planlaşdırmağa kömək edir. Müasir təlim nəzəriyyələrində bu yanaşma "məqsəd yönümlü öyrənmə" konsepsiyası ilə uyğun gəlir və konstruktivist pedaqogikanın əsas prinsiplərindən biri hesab olunur.

Fasilitator-müəllim üçün şagirdlərin fərdi maraqları, məqsədləri və öyrənmə üslublarını tanımaq mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə müəllim şagirdlərlə fərdi və qrup şəklində söhbətlər aparmalı, onların maraq dairələrini öyrənməli, həmçinin anket-sorğulardan və müşahidələrdən istifadə etməlidir. Şagirdlərin öyrənmə ehtiyaclarının öyrənilməsi tədris prosesində fərqləndirilmiş yanaşmanı təmin edir. Bu isə həm öyrənmənin keyfiyyətini artırır, həm də müəllim-şagird münasibətlərini daha səmimi və qarşılıqlı inam üzərində qurur. Təcrübə göstərir ki, müəllimin şagirdi yaxından tanıması dərsdə iştirak fəallığını artırır, emosional mühitin müsbət formalaşmasına təsir göstərir və şagirdlərin özünüifadə imkanlarını genişləndirir [9, s.50].

Fasilitator-müəllimin ən mühüm vəzifələrindən biri şagirdləri təlim fəaliyyətinə aktiv şəkildə cəlb etməkdir. Təlim proqramının məqsəd və nəticələri əvvəlcədən müəyyənləşdirilmiş olsa da, şagirdlərin həmin nəticələrə çatmaq yollarında fəal iştirakı onların öyrənməyə marağını artırır. Bunun üçün müəllim şagirdlərin öyrənmə tərzlərini, ünsiyyət və əməkdaşlıq üstünlüklərini öyrənməli və dərs prosesini bu xüsusiyyətlərə uyğun təşkil etməlidir. Məsələn, bəzi şagirdlər qrup işində daha səmərəli fəaliyyət göstərir, bəziləri isə fərdi tapşırıqlarda uğurludur. Eyni zamanda, şifahi ünsiyyətə üstünlük verənlər olduğu kimi, yazılı fəaliyyətlərdə daha yaxşı nəticə göstərənlər də vardır. Müəllim bu fərqləri nəzərə alaraq dərsdə müxtəlif metod və üsullardan – debat, qrup müzakirəsi, layihə işi, fərdi tapşırıq və interaktiv oyunlardan istifadə etməlidir.

Şagirdlərin prosesə cəlb olunması yalnız onların maraq və motivasiyasını artırmır, həm də öyrənmənin keyfiyyətini yüksəldir. Çünki şagird özünü prosesin passiv iştirakçısı kimi deyil, aktiv öyrənən və yaradıcı tərəfdaş kimi görməyə başlayır. Bu isə XXI əsr təhsilində tələb olunan tənqidi düşünmə, problem həll etmə və əməkdaşlıq bacarıqlarının inkişafına birbaşa təsir göstərir.

## Nəticə

Qeyd etmək lazımdır ki, müəllimin fasilitator rolu həm pedaqoji, həm də sosial baxımdan təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət

daşıyır. Bu yanaşma şagirdin bilik əldə etmə formasını dəyişir: o, artıq bilik alıcısı deyil, bilik yaradıcısına çevrilir. Beləliklə, təhsil prosesində fasilitatorluq müəllim və şagird arasında qarşılıqlı öyrənmə, əməkdaşlıq və inkişafa əsaslanan yeni pedaqoji münasibətlər mədəniyyətini formalaşdırır.

***Ədəbiyyat***


1. *Abbasov A.N. Pedaqogika (müxtəsər konspekt və sxemlər). Bakı.: Mütərcim, 2007.*
2. *Cahyono D., & Nastiar, M. F. The role of the teacher as a facilitator in the learning process: A review of educational psychology. International Journal of Teaching and Learning,2025, 3(1), 205–212.*
3. *Erbilgin E. A reflective account of facilitating teachers' professional development: Challenges and successes in different contexts. Education Sciences, 2025, 15(1), 59.*
4. *Əliyev R. Azərbaycan tarixi fənninin tədrisində interaktiv metodlar. Bakı: Təhsil Nəşriyyatı, 2020.*
5. *Hüseynov M. Müasir pedaqoji texnologiyalar və tarix tədrisi. Elm və Təhsil, Bakı – 2021.*
6. *Əmirov M.M.. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası, Bakı – 2011.*
7. *Nəzərov A.M. Müasir təlim texnologiyaları. ADPU nəşriyyatı, Bakı – 2012.*
8. *Than H. M., Thant, K. S. S., & Smith, V. Impacts of teacher competencies in facilitation and inclusiveness to learner-centered teaching (LCT). ISC Journal, 11(4), 2024.*
9. *Uffen I. Exploring how facilitators influence teacher talk during post-research lesson discussions. Professional Development in Education, 2025.*

**Səmədli N.M.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***narminsamadli16@gmail.com***

# BİOLOGİYANIN DƏRSDƏNKƏNAR TƏDRİSİNDƏ İNNOVATİV VƏ İNTEQRATİV METODLARIN TƏTBİQİ

***Xülasə***

*Məqalədə biologiya fənninin dərsdənkənar tədrisində innovativ və inteqrativ metodların pedaqoji əhəmiyyəti, elmi-nəzəri əsasları və praktik tətbiq istiqamətləri araşdırılmışdır. Müəllif göstərir ki, müasir təhsil sistemində biologiyanın dərsdənkənar öyrədilməsi şagirdlərin tədqiqatçılıq, analitik düşüncə və ekoloji mədəniyyət bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Tədqiqatda informasiya-kommunikasiya texnologiyalarının, layihə əsaslı öyrənmənin, STEAM yanaşmasının və interaktiv oyun metodlarının tətbiqi yolları təhlil edilmiş, onların təlimin səmərəliliyinə təsiri elmi cəhətdən əsaslandırılmışdır. Biologiyanın kimya, coğrafiya, informatika və tibb kimi fənlərlə inteqrasiyası nəticəsində şagirdlərdə kompleks elmi dünyagörüşün formalaşdığı müəyyən edilmişdir.*

# ПРИМЕНЕНИЕ ИННОВАЦИОННЫХ И ИНТЕГРАТИВНЫХ МЕТОДОВ В ВНЕУЧЕБНОМ ПРЕПОДАВАНИИ БИОЛОГИИ

***Резюме***

*В статье исследуется педагогическое значение, теоретические основы и практические направления применения инновационных и интегративных методов во внеурочном обучении биологии. Автор подчеркивает, что во современной образовательной системе внеурочная деятельность по биологии играет важную роль в формировании исследовательских умений, аналитического мышления и экологической культуры учащихся. В исследовании проанализированы пути применения информационно-коммуникационных технологий, проектного обучения, STEAM-подхода и интерактивных игровых методов, научно обосновано их положительное влияние на эффективность учебного процесса. Установлено, что интеграция биологии с такими предметами, как химия, география, информатика и медицина, способствует формированию у учащихся комплексного научного мировоззрения.*

# APPLICATION OF INNOVATIVE AND INTEGRATIVE METHODS IN EXTRA-CURRICULAR TEACHING OF BIOLOGY

***Summary***

*The article explores the pedagogical significance, theoretical foundations, and practical applications of innovative and integrative methods in extracurricular biology education. The author emphasizes that in the modern educational system,*

*extracurricular teaching of biology plays a crucial role in developing students' research abilities, analytical thinking, and ecological culture.The study analyzes the use of information and communication technologies, project-based learning, the STEAM approach, and interactive game methods, scientifically justifying their positive impact on the effectiveness of education. It was found that the integration of biology with related disciplines such as chemistry, geography, informatics, and medicine contributes to the formation of a comprehensive scientific worldview among students.*

***Açar sözlər:*** *biologiyanın dərsdənkənar tədrisi, innovativ metodlar, inteqrativ yanaşma*
***Ключевые слова:*** *внеклассное преподавание биологии, инновационные методы, интегративный подход*
***Key words:*** *extracurricular biology teaching, innovative methods, integrative approach, project-based learning, STEAM, ecological*

## Giriş

Müasir dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin elmi dünyagörüşünün formalaşdırılması və yaradıcı düşüncə bacarıqlarının inkişafı üçün tədris prosesində yeni pedaqoji texnologiyaların və metodların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan biologiya fənninin dərsdənkənar tədrisi həm şagirdlərin fənnə marağının artırılması, həm də elmi-idraki fəaliyyətlərinin genişləndirilməsi baxımından xüsusi rola malikdir.

Dərsdənkənar tədris fəaliyyəti tədris proqramına daxil olan əsas bilikləri tamamlayan və dərinləşdirən, həmçinin şagirdlərin müstəqil tədqiqat aparmaq, müşahidə etmək və nəticə çıxarmaq bacarıqlarını formalaşdıran pedaqoji prosesdir. Bu fəaliyyət formaları arasında dərnəklər, ekskursiyalar, layihə tədqiqatları, biologiya gecələri və elmi müsabiqələr mühüm yer tutur. XXI əsrin təhsili informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqinə əsaslanır. Buna görə də biologiyanın dərsdənkənar tədrisində innovativ metodlardan – rəqəmsal platformalardan, interaktiv tədris alətlərindən, ekoloji layihələrdən və STEAM (Science, Technology, Engineering, Art, Mathematics) yanaşmasından səmərəli istifadə müasir təlimin tələbinə çevrilmişdir. Eyni zamanda, inteqrativ yanaşma – yəni biologiyanın digər fənlərlə (kimya, coğrafiya, informatika, ekologiya, tibb və s.) əlaqəli şəkildə öyrədilməsi – şagirdlərin elmi dünyagörüşünün sistemli şəkildə formalaşmasına xidmət edir.

### Biologiyanın dərsdənkənar tədrisində innovativ metodların tətbiqi

İnnovativ metodlar tədris prosesinə müasir texnologiyaların, interaktiv yanaşmaların və yaradıcı tədris formalarının daxil edilməsini nəzərdə tutur. Biologiya fənnində bu metodlar həm dərs, həm də dərsdənkənar məşğələlərdə tətbiq oluna bilər.

**İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi**

İKT vasitələrinin (prezentasiyalar, 3D modellər, virtual laboratoriyalar, interaktiv testlər və bioloji simulyasiyalar) istifadəsi dərsdənkənar məşğələlərdə şagirdlərin marağını əhəmiyyətli dərəcədə artırır. “PhET Interactive Simulations” kimi platformalarda hüceyrə strukturlarının, genetik proseslərin və ekosistemlərin modelləşdirilməsi şagirdlərə abstrakt anlayışları real şəkildə təsəvvür etməyə imkan yaradır.

**Layihə əsaslı öyrənmə**

Layihə metodu biologiyanın dərsdənkənar tədrisində geniş istifadə olunur. Məsələn, “Yer kürəsinin ekoloji balansı”, “Məktəb həyatində bioloji müxtəliflik”, “Tullantısız məktəb” kimi layihələr şagirdlərin həm ekoloji şüurunu, həm də tədqiqat bacarıqlarını inkişaf etdirir. Layihələrdə şagirdlər problem qoyur, hipotez irəli sürür, müşahidə aparır və nəticələri təqdim edirlər.

**STEAM yanaşması**

STEAM təlim modeli biologiyada fənlərarası əlaqələrin praktik tətbiqinə imkan yaradır. Biologiyanın dərsdənkənar tədrisində bu yanaşma texnologiya və mühəndislik elementlərinin birləşdirilməsi ilə həyata keçirilə bilər. Məsələn, “Yaşıl enerji və fotosintez”, “Biotexnologiyanın gələcəyi” kimi layihələr həm bioloji bilikləri, həm də texnoloji bacarıqları bir araya gətirir.

**İnteraktiv və oyun əsaslı təlim**

Gamifikasiya (oyunlaşdırma) üsulu biologiyanın dərsdənkənar öyrənilməsində maraqlı və motivasiyaedici mühit yaradır. Bioloji viktorinalar, “eko-missiyalar” və “canlı aləm yarışları” kimi tədbirlər şagirdləri həm əyləndirir, həm də biliklərini möhkəmləndirir.

Bu innovativ yanaşmaların tətbiqi nəticəsində şagirdlərdə yaradıcılıq, tədqiqatçılıq, sosial əməkdaşlıq və analitik düşüncə bacarıqları inkişaf edir.

**Biologiyanın dərsdənkənar tədrisində inteqrativ yanaşmalar**

İnteqrativ təlim müxtəlif fənlərin bilik və bacarıqlarının qarşılıqlı əlaqədə öyrədilməsinə əsaslanır. Biologiyanın digər elmlərlə inteqrasiyası şagirdlərdə təbiət hadisələrinə kompleks yanaşma tərzi formalaşdırır.

**Biologiya və kimya inteqrasiyası**

Həyat proseslərinin kimyəvi əsasları (məsələn, maddələr mübadiləsi, fermentlər, fotosintez) bu iki fənnin inteqrasiyasını zəruri edir. Dərsdənkənar məşğələlərdə “Qidaların kimyəvi tərkibi” və ya “Su və həyat” kimi təcrübə işləri həm bioloji, həm də kimyəvi anlayışların praktik tətbiqini göstərir.

**Biologiya və coğrafiya inteqrasiyası**

Ekoloji layihələr və təbiət ekskursiyaları bu iki fənnin təbii əlaqəsini gücləndirir. Məsələn, “Regional flora və fauna”, “İqlim dəyişikliyi və canlı aləm” kimi mövzular üzrə aparılan müşahidələr şagirdlərə biosferin vahid sistem kimi dərk edilməsini öyrədir.

**Biologiya və informatika inteqrasiyası**

Müasir biologiyada bioinformatika, genetik məlumatların analizi və rəqəmsal tədqiqat üsulları geniş yayılmışdır. Dərsdənkənar məşğələlərdə sadə statistik proqramlardan və ya onlayn analiz platformalarından istifadə şagirdlərdə texnoloji savadlılıq yaradır.

**Biologiya və tibb inteqrasiyası**

İnsan orqanizmi, sağlam həyat tərzi və gigiyena ilə bağlı mövzuların dərsdənkənar müzakirəsi bioloji biliklərin praktik həyatla əlaqələndirilməsinə şərait yaradır. "Sağlam qidalanma günü", "Orqan donorluğu və etik prinsiplər" kimi tədbirlər sosial-mənəvi dəyərləri də formalaşdırır.

## Nəticə

Aparılmış elmi-pedaqoji təhlil və praktik müşahidələr nəticəsində müəyyən edilmişdir ki, biologiyanın dərsdənkənar tədrisində innovativ və inteqrativ metodların tətbiqi müasir təhsil sisteminin keyfiyyət göstəricilərini yüksəldən mühüm amillərdəndir. Dərsdənkənar fəaliyyət biologiya fənninin yalnız nəzəri biliklərlə məhdudlaşmamasını, təcrübə, müşahidə və layihə işləri vasitəsilə praktik istiqamətə yönəlməsini təmin edir.

***Ədəbiyyat***

1. *Əliyeva, S. (2018). Biologiyanın tədrisində innovativ metodlar. Bakı: Təhsil Nəşriyyatı.*
2. *Qasımova, N. (2020). Müasir biologiya təlimində inteqrativ yanaşma. Bakı: Elm və Təhsil.*
3. *Hüseynov, R. (2019). Pedaqoji texnologiyalar və interaktiv təlim üsulları. Bakı: Təhsil Nəşriyyatı.*
4. *Abasova, Z. (2021). Biologiyanın tədrisində informasiya texnologiyalarının rolu. Azərbaycan Müəllimlər İnstitutu Elmi Əsərləri, №2, s. 56–63.*
5. *Vygotsky, L. S. (1978). Mind in Society: The Development of Higher Psychological Processes. Harvard University Press.*
6. *Bruner, J. (1996). The Culture of Education. Cambridge, MA: Harvard Üniversite Press.*
7. *National Research Council. (2012). A Framework for K-12 Science Education: Practices, Crosscutting Concepts, and Core Ideas. Washington, DC: National Academies Press.*

**Şirinova A.E.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aysushirinoffa7@gmail.com***

# ZORAKILIĞA MƏRUZ QALMIŞ YENİYETMƏLƏRLƏ APARILAN SOSİAL-PSİXOLOJİ İŞ

***Xülasə***

*Zorakılığa məruz qalan yeniyetmələr həm sosial, həm də psixoloji cəhətdən cəmiyyət arasında həssas qrup hesab edilirlər və daim nəzarət altında olmalıdırlar. Bu qrupa daxil olan yeniyetmələr həm emosional, həm də sosial inkişafda travmaların səbəb olduğu ciddi problemlər yaşayır və daha sonra normal həyat tərzinə uyğunlaşmaqda və cəmiyyətə inteqrasiya prosesində çətinlik çəkirlər. Məqalədə yeniyetmələrlə aparılan sosial-psixoloji işin mahiyyəti, məqsədləri, metodları və effektivlik göstəriciləri araşdırılır. Sosial-psixoloji işlərin fərdi və qrup şəklində təşkili, sosial inteqrasiya, hüquqi müdafiə istiqamətlərinin təsiri, yerli və beynəlxalq təcrübələrin fərqi, erkən müdaxilənin vacibliyi təhlil olunur. Araşdırma göstərir ki, zorakılığa məruz qalmış yeniyetmələrin reabilitasiyası üçün psixoloji, sosial və hüquqi dəstəyin təmin edilməsi onların normal inkişafının bərpasında həlledici rol oynayır.*

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ РАБОТА С ПОДРОСТКАМИ, ПОДВЕРГШИМИСЯ НАСИЛИЮ

***Резюме***

*Подростки, подвергшиеся насилию, как в социальном, так и в психологическом плане считаются уязвимой группой в обществе и должны находиться под постоянным наблюдением. Подростки, входящие в эту группу, испытывают серьёзные проблемы, вызванные травмами как в эмоциональном, так и в социальном развитии, и впоследствии сталкиваются с трудностями в адаптации к нормальной жизни и в процессе интеграции в общество. В статье исследуются сущность, цели, методы и показатели эффективности социально-психологической работы с подростками. Анализируется организация социально-психологической помощи в индивидуальной и групповой форме, влияние направлений социальной интеграции и правовой защиты, различия между местным и международным опытом, а также необходимость раннего вмешательства. Исследование показывает, что обеспечение психологической, социальной и правовой поддержки для подростков, подвергшихся насилию, играет решающую роль в восстановлении их нормального развития.*

# SOCIAL-PSYCHOLOGICAL WORK WITH ADOLESCENTS EXPOSED TO VIOLENCE

***Summary***

*Adolescents who have been subjected to violence are considered a vulnerable group in society both socially and psychologically, and they must be under constant*

*supervision. Adolescents belonging to this group experience serious problems caused by trauma in both emotional and social development, and later face difficulties in adapting to normal life and in the process of integrating into society. The article examines the essence, objectives, methods, and effectiveness indicators of psychosocial work with adolescents. It analyzes the organization of psychosocial support in individual and group forms, the impact of social integration and legal protection directions, the differences between local and international practices, as well as the importance of early intervention. The study shows that providing psychological, social, and legal support to adolescents who have been exposed to violence plays a decisive role in restoring their normal development.*

***Açar sözlər:*** *zorakılıq, yeniyetmələr, həssas qrup, sosial-psixoloji iş, reabilitasiya, sosial inteqrasiya, hüquqi müdafiə*

***Ключевые слова:*** *насилие, подростки, уязвимая группа, социально-психологическая работа, реабилитация, социальная интеграция, правовая защита*

***Key words:*** *violence, teenagers, vulnerable group, social-psychological work, rehabilitation, social integration, legal protection*

## Giriş

İnsan həyatında yeniyetməlik dövrü ən çətin, əhəmiyyətli və həssas mərhələlərdən biridir. Bu yaş dövrü sadəcə bioloji inkişaf prosesi deyil, eyni zamanda psixoloji, sosial və mədəni təsirlər nəticəsində şəxsiyyətin formalaşması, emosional müstəqilliyə can atması və sosial münasibətlərin inkişafı kimi proseslər ilə xarakterizə olunur. Yeniyetmələrin sosial mühitə inteqrasiyası prosesi, həmyaşıdları, ailə və məktəb daxilindəki əlaqələri, özlərini ifadəetmə şəkilləri, onların gələcəkdəki həyat mövqelərinin müəyyənləşməsində mühüm əhəmiyyət daşıyır. Lakin zorakılıq qurbanı olmuş yeniyetmələrdə yaşadıqları travmaların təsiri nəticəsində onların inkişaf prosesi çətinləşir. Hal-hazırki dövrdə zorakılıq halları sadəcə fiziki olmur, həm də psixoloji olmaqla yeniyetmələrdə emosional və sosial baxımdan uzunmüddətli zərərlər yaradır [4, s. 34–39].

Beynəlxalq təşkilatların məlumatlarına əsasən, zorakılıq yeniyetmələrin həyatına mənfi təsir edən ən ciddi sosial problemlərdən biridir. Dünya Səhiyyə Təşkilatının hesabatındakı məlumatlara görə, zorakılıq qurbanı olmuş yeniyetmələrin böyük hissəsi uzunmüddətli depressiya, özünəinam itkisi, aqressiya, güvən problemləri və sosial təcrid halları yaşayır [7, s. 68–70]. UNICEF-in məlumatlarına əsasən isə, zorakılığa məruz qalmış yeniyetmələrin əksəriyyəti uzunmüddətli travma yaşayır və bu, onların təhsil prosesində çətinliklər yaradır; məktəbdən uzaqlaşma və akademik uğursuzluq hallarını kəskin şəkildə artırır [6, s. 45–47].

Azərbaycanda da zorakılığa məruz qalmış yeniyetmələr mövcuddur və bu istiqamətdə müxtəlif tədbirlər, qanunvericilik aktları və qarşısının alınması

üçün həll yolları müəyyənləşdirilmiş və tətbiq edilir. 2010-cu ildə qəbul olunmuş "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun bu məsələnin həllinə yönəlmiş, zorakılığa məruz qalmış şəxslərin hüquqlarının qorunması üçün əsas hüquqi baza rolunu oynayır [1, s. 3–5]. Lakin qanunun mövcudluğu ilə yanaşı, praktiki istiqamətdə də sosial-psixoloji işin təşkili xüsusi əhəmiyyətə malikdir.

Zorakılıq qurbanı olmuş yeniyetmələrin sosial-psixoloji vəziyyəti dərin emosional və psixoloji travmalarla müşayiət olunur. Belə yeniyetmələrdə qorxu, təşviş, aqressiya, özünəinamın itməsi, sosial təcrid və izolyasiya kimi hallar tez-tez müşahidə olunur [3, s. 52–58]. Bu kimi hallar yeniyetmələrin gündəlik həyatında ciddi çətinliklər yaradır; məsələn, ailə daxilində valideynləri və yaxınları ilə, eyni zamanda dostlarla münasibətlərdə problemlər yaranır, sosial əlaqələr zəifləyir, təhsil prosesində çətinliklər meydana çıxır, dərs oxumağa və digər fəaliyyətlərə motivasiyaları azalır.

Araşdırmaların nəticələri göstərir ki, zorakılığa məruz qalmış yeniyetmələrdə bu kimi çətinliklər yalnız qısa müddətli olmur, hətta uzun müddətdə də davam edə bilər. Belə yeniyetmələrdə sonrakı dövrlərdə sosial adaptasiya çətinlikləri, ünsiyyət problemləri, emosional dayanıqlığın azalması, hətta riskli davranışlar və qanun pozuntularına meyllər müşahidə edilir [4, s. 67–72]. Bu səbəbdən, zorakılıq qurbanı olmuş yeniyetmələrin vəziyyəti ilə vaxtında və sistemli məşğul olmaq son dərəcə vacibdir.

Sosial-psixoloji işin başlıca məqsədi zorakılıq nəticəsində yaranmış travmaları aradan qaldırmaq, yeniyetmələrin sosial və emosional stabilliyini bərpa etmək və onların yenidən cəmiyyətə inteqrasiya olunmasına dəstək olmaqdır [2, s. 40–46]. Bu istiqamətdə müxtəlif metodlar tətbiq edilir və bunlar aşağıdakılardır:

- Psixoloji reabilitasiya;
- Sosial bacarıqların inkişaf etdirilməsi;
- Profilaktika və erkən müdaxilə;
- Ailə ilə işləmək;
- Təhsil mühitində uyğunlaşmanı təmin etmək;
- Kreativ və bədən ifadəsi vasitələri;
- Mentorluq və sosial dəstək proqramları;
- Hüquqi və məlumatlandırma dəstəyi.

Bu kimi tədbirlər yeniyetmələrin sosial funksionallığını artırmağa yönəldilir və effektiv nəticə verir. Eyni zamanda, bu proses onlara özünəinamı yenidən qazanmalarına, emosional stabilliyi möhkəmləndirmələrinə və gələcəkdə həyatlarında daha sağlam sosial münasibətlər qurmaqlarına kömək edir.

**1. Psixoloji reabilitasiya;**

Psixoloji reabilitasiya zorakılığa məruz qalmış yeniyetmələrin bərpası üçün ən vacib metodlardan biridir. Bu prosesin məqsədi zorakılıq nəticəsində yeniyetmələrin yaşadıqları travmaların təsirini azaltmaq, emosional sabitliyi və psixoloji dayanıqlılığı gücləndirməkdən ibarətdir. Psixoloji reabilitasiya prosesi həm fərdi, həm də qrup şəklində həyata keçirilə bilər və hər iki halda da yeniyetmələrin psixoloji vəziyyətinin yaxşılaşdırılmasına yönəlir.

– Fərdi terapiya: Yeniyetmələrə psixoloq tərəfindən fərdi görüşlər keçirilir və şəxsin özü ilə təklikdə ünsiyyət qurulur. Bu terapiya zamanı onların daxili narahatlıqları, qorxuları, təşvişləri, aqressiya halları, emosional gərginliklərinin səbəbləri araşdırılıb müəyyən edilir. Fərdi terapiya eyni zamanda özünüdərk, özünü ifadə etmə və streslə mübarizə bacarıqlarını inkişaf etdirir.

– Qrup terapiyası: Eyni problemləri yaşamış yeniyetmələr bir araya gətirilir. Bu terapiya zamanı sosial təcridin azalması, həmyaşıd dəstəyinin formalaşması və qarşılıqlı anlayışın, empatiya bacarıqlarının güclənməsi, o cümlədən sosial əlaqələrin və qarşılıqlı ünsiyyətin inkişafı müşahidə edilir [3, s. 83–89].

Psixoloji reabilitasiyada müxtəlif müasir yanaşmalardan istifadə edilir. Onlara koqnitiv-davranışçı terapiya (CBT), EMDR (Eye Movement Desensitization and Reprocessing), relaksasiya və nəfəs texnikaları, emosional ifadə məşqləri və stresə qarşı müqavimət təlimləri daxildir. Bu metodlar sayəsində zorakılığa məruz qalmış yeniyetmələr tədricən öz psixoloji və emosional sabitliklərini möhkəmləndirir, sosial mühitə və normal həyat tərzinə yenidən uyğunlaşır və gələcəkdə daha sağlam münasibətlər qurmaq bacarıqlarını inkişaf etdirirlər.

**2. Sosial bacarıqların inkişaf etdirilməsi;**

Sosial bacarıqların inkişaf etdirilməsi metodu, zorakılığa məruz qalmış yeniyetmələrin sosial mühitə yenidən inteqrasiyası prosesinə kömək edir. Bu metodun əsas məqsədi yeniyetmələrin ünsiyyət, empatiya və münasibət qurma bacarıqlarını inkişaf etdirmək, sosial adaptasiya prosesini asanlaşdırmaq və sürətləndirməkdir. Sosial bacarıqların inkişafı həm fərdi, həm də qrup şəklində həyata keçirilə bilər və yeniyetmənin müxtəlif situasiyalarda öz fikrini ifadə etmə şəklini formalaşdırır [6, s. 45–48].

– Rol oyunları və simulyasiya məşğələləri: Yeniyetmələr müxtəlif situasiyalar əsasında necə davranmalı olduqlarını təcrübədən keçirirlər. Bu zaman onlar qarşılıqlı ünsiyyət, fikir mübadiləsi və düzgün davranış formalarını öyrənirlər. Bu üsulla real həyatda baş verə biləcək vəziyyətlərə uyğunlaşma daha asan olur. Məsələn, bir konflikt vəziyyətində düzgün davranış formaları göstərilir və praktiki olaraq məşq edilir.

– Qrup məşqləri: Komanda işləri, sosial oyunlar və birlikdə düşünərək qərar qəbul etmə tapşırıqları vasitəsilə həmyaşıdlarla ünsiyyət münasibətləri inkişaf edir. Bu üsulla yeniyetmələr qarşılıqlı hörmət etməyi, dinləməyi, qərar qəbul etməyi, əməkdaşlıq etməyi və sosial məsuliyyət daşımağı öyrənirlər.

– Empatiya və emosional tənzimləmə: Yeniyetmələr başqalarının hisslərini dərk etməyi öyrənir, öz emosiyalarını düzgün şəkildə ifadə etməyi və tənzimləməyi təcrübə edir. Bu isə onların həm emosional, həm də sosial istiqamətdə daha düzgün davranış göstərmələrinə kömək olur [5, s. 92–95].

Nəticə olaraq, sosial bacarıqların inkişaf etdirilməsi, zorakılıq qurbanı olmuş yeniyetmələrdə özünəinamı artırır, sosial təcridi azaldır və onların real yaşayış mühitinə daha sağlam formada inteqrasiya olunmasını təmin edir.

**3. Profilaktika və erkən müdaxilə;**

Profilaktika və erkən müdaxilə metodları zorakılıq təsiri altında olan və ya risk qrupuna daxil olan yeniyetmələrin sosial-psixoloji vəziyyətini tənzimləmək məqsədilə həyata keçirilir. Bu üsul zorakılığın qarşısının alınmasına, potensial risk faktorlarının erkən müəyyənləşdirilməsinə və yeniyetmələrə vaxtında psixoloji, sosial və maarifləndirici dəstək göstərilməsinə əsaslanır.

– Maarifləndirmə proqramları: Məktəblərdə və yeniyetmələrin olduğu digər mərkəzlərdə zorakılığın fəsadları, emosional təsirdən azad olmaq, düzgün sosial münasibətlər qurmaq, şəxsi sərhədlərini təyin etmək haqqında təlimlər, seminarlar, interaktiv və məlumatlandırıcı dərslər, praktiki fəaliyyətlər həyata keçirilir. Bununla da yeniyetmələrə zorakılığın müxtəlif formaları və onlardan müdafiə üsulları öyrədilir.

– Erkən identifikasiya (müəyyənləşdirmə): Psixoloq, sosial işçi və müəllimlər tərəfindən zorakılıq qurbanı olmuş və ya risk altında olan yeniyetmələr vaxtında müəyyən edilir, onların digər şəxslərlə münasibətləri, davranışları, emosional vəziyyətləri, akademik göstəriciləri daimi olaraq müşahidə altına alınır və fərqli hallar qeyd edildiyi təqdirdə onlara dəstək göstərilir [7, s. 102–108].

Profilaktika və erkən müdaxilə tədbirləri zorakılıq nəticəsində yaranmış mənfi təsirləri aradan qaldırmaqla yanaşı, yeniyetmələrin emosional vəziyyətlərini qoruyur, onların özlərini daha təhlükəsiz şəraitdə hiss etmələrinə imkan yaradır və uzunmüddətli sosial adaptasiya istiqamətində mühüm rol oynayır. Bu metod eyni zamanda məktəb, ailə və cəmiyyət arasında qarşılıqlı əməkdaşlığın olmasının nə dərəcə əhəmiyyətli olduğunu göstərir.

**4. Ailə ilə işləmək;**

Ailə ilə işləmək metodu, zorakılıq qurbanı olmuş yeniyetmələrin reabilitasiyasında əsas mərhələlərdən biridir. Çünki yeniyetmələrin emosional vəziyyətlərinin bərpasında ailə dəstəyi həlledici rol oynayır və ailədəki mühit onların sosial münasibətlərində, davranışlarında öz əksini tapır.

– Ailə terapiyası: Yeniyetmə və valideynləri arasında münasibətlərin gücləndirilməsi, problemlərin həlli, anlaşmazlıqların və emosional gərginliklərin aradan qaldırılması istiqamətində işlər görülür.

– Valideynlərin maarifləndirilməsi: Valideynlərə zorakılıq və onun mənfi nəticələri mövzusunda ətraflı məlumat verilir və belə hallarda onlarla necə davranmalı olduqları, necə dəstək göstərməli olduqları öyrədilir.

– Düzgün ünsiyyət strategiyaları: Ailə daxilində yeniyetmələrə qarşı sağlam münasibətin qurulması, qarşılıqlı empatiya, qayğı göstərilməsi və dəstəyin artırılması, özlərini ifadə etmələrinə şərait yaradılması məsələləri ilə bağlı dərslər keçirilir [3, s. 60–65].

Bu metodlar vasitəsilə yeniyetmələrin ailə ilə münasibətləri inkişaf edir, emosional ehtiyacları təmin edilir, özünəinamı və özünü dəyərli hiss etmələri bərpa edilir və cəmiyyət daxilində müsbət sosial davranışların göstərilməsinə başlanılır.

**5. Təhsil mühitində uyğunlaşmanı təmin etmək;**

Təhsil mühitinə uyğunlaşma metodu zorakılıq qurbanı olmuş yeniyetmələrin həm akademik, həm də sosial həyatını bərpa etmək istiqamətində görülən işlərə əsaslanır. Burada əsas məqsəd onların yenidən təhsil həyatına inteqrasiyasına kömək etmək, sosial əlaqələrini gücləndirmək və akademik fəaliyyətlərini bərpa etməkdir.

– Fərdi tədris planları: Məktəb daxilində hər bir yeniyetmənin fərdi xüsusiyyətləri və ehtiyacları nəzərə alınaraq ona uyğun şəkildə xüsusi təhsil proqramları hazırlanır və bununla da yeniyetmə dərslərə daha asan uyğunlaşa bilir. Burada əlavə olaraq psixoloji və pedaqoji dəstəyin göstərilməsi də nəzərdə tutulur.

– Müəllim-psixoloq əməkdaşlığı: Məktəb psixoloqu və müəllimlər tərəfindən mütəmadi olaraq yeniyetmələrin emosional vəziyyəti müşahidə edilir, davranışları izlənilir və lazım olduğu zaman dəstək göstərilir.

– Qrup fəaliyyətlərinə cəlb etmə: Yeniyetmələrin sosial inteqrasiyasını bərpa etmək üçün müxtəlif sosial tədbirlər, oyunlar, ekskursiyalar, idman, incəsənət və digər istiqamətlərdə layihələr həyata keçirilir [5, s. 85–88].

Nəticə olaraq, təhsil mühitində uyğunlaşmanı təmin etmək üsulu ilə zorakılığa məruz qalmış yeniyetmələrin yalnız akademik deyil, həm də emosional və sosial reabilitasiyasında da əhəmiyyət daşıyır.

**6. Kreativ və bədən ifadəsi vasitələri;**

Bu metodlar zorakılığa məruz qalmış yeniyetmələrin emosional gərginliklərini azaltmaq, hisslərini daha doğru şəkildə ifadə etmələrinə və yaşadıqları travmalardan sonra özlərinə inamı yenidən bərpa etmələrinə kömək edir.

– İncəsənət terapiyası: Yeniyetmələrin fərdi xüsusiyyətlərinə və maraqlarına uyğun olaraq təyin edilən rəsm, heykəltəraşlıq və musiqi kimi

fəaliyyətlər vasitəsilə hisslərini müxtəlif formalarda ifadə etmələrinə kömək edir.

– Drama və teatr məşqləri: Yeniyetmələr rollu oyunlar, improvizasiya və dramatik fəaliyyətlər vasitəsilə müəyyən ssenarilərə uyğun müxtəlif situasiyalarda yaşadıqları qorxu, kədər, qəzəb kimi hissləri rahat şəkildə ifadə edə bilirlər. Bu metod, eyni zamanda, onların özünüifadə, empatiya və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir.

– Bədən ifadəsi və idman: Fiziki fəaliyyətlər, o cümlədən idman, rəqs və yoga kimi məşğələlər stresin və gərginliyin azalmasına, aqressiyanın idarə olunmasına və özünəinamın artmasına kömək edir [2, s. 90–93].

Ümumilikdə, bu metodlar həm müalicəvi xarakter daşıyır, həm də fərdin özünü yenidən kəşf etməsinə, inkişaf etməsinə və normal həyat şəraitinə uyğunlaşmasına imkan yaradır.

**7. Mentorluq və sosial dəstək proqramları;**

Mentorluq və sosial dəstək proqramları zorakılıq qurbanı olmuş yeniyetmələrin sosial mühitə yenidən inteqrasiyası və gələcək inkişafı üçün dəstək şəbəkəsi təmin edir.

– Mentor dəstəyi: Təcrübəli və məsuliyyətli şəxslər yeniyetmələrə düzgün davranış nümunələri göstərir, onların sosial bacarıqlarının formalaşmasına, müxtəlif situasiyalarda düzgün qərar qəbul etmələrinə, özlərini daha yaxşı dərk edib potensiallarını görmələrinə kömək edir. Onlar eyni zamanda yeniyetmələrə psixoloji dəstək də göstərirlər.

– Sosial fəaliyyətlər: Zorakılığa məruz qalmış yeniyetmələrin sosial inteqrasiya prosesini inkişaf etdirmək üçün mentorlarla birlikdə müxtəlif sosial və ictimai layihələrdə, könüllü fəaliyyətlərdə, tədbirlərdə, komanda oyunlarında iştirak edərək ünsiyyət və əməkdaşlıq bacarıqlarının artırılmasına əsaslanır.

– Davamlı dəstək: Yeniyetmələrlə aparılan sosial iş qısa müddətli olmur; uzun müddət mentorlar vasitəsilə emosional və sosial dəstək təmin edilir [6, s. 60–63].

**8. Hüquqi və məlumatlandırma dəstəyi**

Hüquqi və məlumatlandırma dəstəyi zorakılıq qurbanı olmuş yeniyetmələrin hüquqlarının müdafiə edilməsinə, onların təhlükəsizliyinin təmin edilməsinə və bu istiqamətdə öz hüquqları ilə bağlı biliklərinin inkişaf etdirilməsinə əsaslanır [3, s. 90–94].

– Hüquqi məsləhət və yardım: Dövlət və qeyri-hökumət təşkilatları tərəfindən zorakılığa məruz qalmış yeniyetmələrə və onların ailələrinə hüquqi dəstək göstərilir. Bu dəstəyə hüquqi məsləhətlər, sənədlərin hazırlanması, məhkəməyə müraciət prosesində yardım və hüquqların qorunması aiddir. Azərbaycanda bu istiqamətdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Uşaq Sığınacaqları və Reabilitasiya Mərkəzləri, eləcə də Daxili İşlər

Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə İdarəsi tərəfindən hüquqi və sosial yardım xidmətləri göstərilir.

– Məlumatlandırma və maarifləndirmə seminarları: Məktəblərdə, ictimai mərkəzlərdə və gənclər təşkilatlarında zorakılığın hüquqi nəticələri, bu hallarda kimə müraciət etməli olduqları, hüquqların qorunması və müdafiə mexanizmləri barədə seminarlar, təlimlər və maarifləndirici görüşlər təşkil edilir.

– Qanunvericilik çərçivəsində müdafiə: Azərbaycanda zorakılıqla bağlı məsələlərdə "Məişət zorakılığının qarşısının alınması haqqında Qanun", "Uşaq hüquqları haqqında Qanun", Azərbaycan Respublikasının Cinayət Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi kimi hüquqi sənədlər tətbiq edilir. Zorakılığa məruz qalmış yeniyetmələrin müdafiəsində qəyyumluq orqanları, məhkəmələr, prokurorluq, polis orqanları və sosial xidmət mərkəzləri birgə fəaliyyət göstərirlər [1, s. 3–5].

## Nəticə

Sosial-psixoloji iş zorakılığa məruz qalmış yeniyetmələrin həyatında mühüm əhəmiyyətə malikdir. Fərdi və qrup şəklində aparılan terapiyalar, sosial-psixoloji dəstəyin təmin edilməsi onların sosial inteqrasiyasının inkişafında, normal həyat şəraitinə yenidən uyğunlaşmasında, ailə və məktəb mühitində, eyni zamanda dostlarla münasibətlərin inkişafında mühüm rol oynayır. Digər tərəfdən, hüquqi müdafiə mexanizmləri, sosial dəstək və reabilitasiya proqramları da bu yeniyetmələrlə sosial işdə xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq və yerli təcrübə göstərir ki, zorakılığa məruz qalmış yeniyetmələrlə aparılan sosial-psixoloji işdə psixoloqların, sosial işçilərin, müəllimlərin, hüquq-mühafizə orqanlarının və ailələrin birgə fəaliyyəti tətbiq olunduqda səmərəli nəticə əldə edilir.

Nəticə etibarilə, zorakılığa məruz qalmış yeniyetmələrin sosial və psixoloji reabilitasiyası cəmiyyətin sosial rifahının vacib göstəricisidir. Bu istiqamətdə sistemli, peşəkar və davamlı sosial-psixoloji dəstəyin təşkili, eləcə də profilaktik tədbirlərin həyata keçirilməsi gələcək nəsillərin sağlam inkişafını təmin edir.

### *Ədəbiyyat*

1. *Azərbaycan Respublikasının "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunu, 22 iyun 2010.*
2. *Əliyev, A. Uşaqlar və yeniyetmələrlə sosial-psixoloji işin əsasları. Bakı: Təhsil, 2018.*
3. *Əliyeva, S. Ailə zorakılığı və uşaqların psixososial müdafiəsi. Bakı: Elm, 2019.*

4. *Həsənov, R. Yeniyetmələrin psixoloji inkişafı və sosiallaşma problemləri. Bakı: Təhsil, 2017.*
5. *Kazımova, N. Sosial xidmətlərin təşkili. Bakı: Elm və Təhsil, 2020.*
6. *UNICEF. Adolescent Development and Participation. New York: UNICEF, 2011.*
7. *WHO. World Report on Violence and Health. Geneva: World Health Organization, 2002.*

**“Magistrant” dövri elmi jurnalında nəşr olunmaq məqsədi ilə təqdim edilən məqalələr üçün**

# TƏLƏBLƏR

- “MAGİSTRANT” dövri elmi jurnalında magistrantların nəşr olunmamış elmi məqalələri qəbul edilir. Məqalə **Azərbaycan, ingilis, türk və ya rus** dilində jurnalın elektron ünvanına – **j.magistrant@adpu.edu.az**, **(müvafiq kafedra iclasının qərarı və elmi rəhbərin müsbət rəyi ilə)** göndərilir.
- Məqalə **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (70-100 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalədə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- Məqalənin həcmi **5-10 səhifə (15000-18000 işarə)** həcmində qəbul edilir.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba sırası ilə nömrələnməlidir. Məsələn: [5, s.152].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstərimədir.
- Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə verilən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalə geri qaytarılmır.

*Çapa imzalanmış 20.02.2026*
*Kağız formatı 60x84  1/16, çap vərəqi 25*
*Sifariş 42, sayı 100*

*ADPU Nəşriyyatı*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912)493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*